**RƏŞAD TAHİROĞLU**

*1918-ci ilin mart ayında "Bakı Soveti" və daşnaklardan ibarət olan erməni dəstələrinin azərbaycanlılara qarşı törətdiyi soyqırım hadisələri 1998-ci ilin martında ümummilli lider Heyder Əliyev tərəfindən "Azərbaycanlıların soyqırımı" günü kimi elan edilmişdir. 2013-cü ildə prezident İlham Əliyevin qərarı ilə soyqırımda öldürülənlərin xatirəsinə "Quba Soyqırımı" memorial kompleksi yaradılmışdır.*

# HAQDAN AXIDILAN QAN

## *çoxhissəli roman*

### II KİTAB – YAŞARKƏN ÖLDÜRÜLƏNLƏR

**BAKI – 2021**

**Redaktor:** **Nəcibə İlkin**
*şair-publisist,*
*AYB-nin, AJB-nin üzvü*
*Prezident mükafatçısı*

**Rəşad Tahiroğlu. Haqdan axıdılan qan.**
**Bakı, "Aynəşr" nəşriyyatı, 2021, 386 səh.**

*Gənc alim, yazıçı Rəşad Tahiroğlunun qanlı tariximizin keçmişindən bəhs edən "Haqdan axıdılan qan" romanı son 200 ildə baş verən hay-erməni problemi, bu böyük planın pərdə arxasında olan görünməz "baş oyunçuları", onların türk-islam dünyasına etdikləri səlib yürüşləri və min illərdə gizlədərək silmək istədikləri ön türk-türk tarixindən bəhs edən çoxhissəli kitabdır. Müəllif bu romanla çoxlu faciələr yaşamış tariximizin qan yaddaşını səhifələyir və oxuculara qanlı tariximizi xatırladır.*

**ISBN 978-9952-8393-2-6**

**© Rəşad Tahiroğlu, 2021**

# MÜNDƏRİCAT


Müəllifdən ....................................................................................4
Uzun gecənin başlanğıcı .......................................................6
Yaşarın məktubu .................................................................17
Əsirlik ........................................................................................ 40
Kor qəhrəman .....................................................................78
Buradan bir xəzər keçdi ...................................................85
Çuxurdakı gözlər ..............................................................170
Qanlı Novruz......................................................................190
Mən kimsədən deyiləm ..................................................... 201
Ərolun əhvalatı ................................................................... 210
Yaxşı-pis oyunu ...............................................................267
Təklif .................................................................................313
Beynimizi qəfəsə salıblar ................................................324
Bir diviziya vardı .............................................................. 328
Sovet ordusu qələbə qazanır ..........................................343
İravandan türklər köçürülür ..........................................352
Davadan 3 il sonra ...........................................................362
Sonu olmayan son səhnə.................................................370

# MÜQƏDDİMƏ

Bu romanlar silsiləsi son 200 ildə baş verən hay-erməni problemi, bu problem yaradan böyük planın pərdə arxasında olan görünməz "baş oyunçuları", onların türk-islam dünyasına hələdə etdikləri səlib yürüşləri və gizlədərək silmək istədikləri minlərlə illik öntürk-türk tarixindən bəhs edir. "Haqdan axıdılan qan" çoxhissəli romanının II kıtabı "Yaşarkən öldürülənlər" adlanır, II kitab niyə yazdıb, nədən danışır?

Tarixə nəzər saldıqda görürük ki, ilk dəfə Rusiya çarı I Pyotr günümüz Azərbaycanı və Türkiyəsi üzərində qələbə qazanmaq üçün bu regionda quracağı V kolan kimi haylardan istifadə etməyi məqsədə uyğun hesab etdi, lakin hayların bu regiona kütləvi köcürülməsi yalnız 1828-ci ildə Çar Rusyanın (Azərbaycanın o günkü dövləti) Qacarlar dövlətini (İran yox) məğlub edərək həyata keçirə bildi. 1829-cu ildə Osmanlı Rusiya savaşında Osmanlı məğlub oldu və bağlanan sülh müqaviləsinin bəndlərinin birinə əsasən Çar Rusiyası Suriya-Fələstində yaşayan hayların Qarabağ, İravan, Axıska ərazilərinə köçürülməsi şərtini irəli sürdü və məğlub tərəf kimi  Qacarlar və Osmanlı bu şərti yerinə yetirdi.

Amerika alimi Castin Makkartinin yazılarında 1828-1920-ci illər arasında Azərbaycana 560 000 hay-erməni köçürüldüyünü, iki milyondan çox müsəlmanın məcburi olaraq yaşadıqları ərazilərdən sürgün edildiyini və dəqiq məlum olmayan sayda müsəlmanın isə qətlə yetirildiyini qeyd edir.

1877-ci ildən İngiltərə, Fransa, Rusiya, Avusturya-Macarstan, İtaliya kimi 5 böyük xristiyan dövləti  Şərqi Anadoluda hay-erməni dövləti quraraq günümüz Türkiyə və Azərbaycan arasında bir tampon dövlət yaratmaq istəyirdi, lakin bu  məsələ I Dünya Müharibəsinə qədər uzandı. I Dünya müharibəsi zamanı Osmanlı ilə vuruşan Çar Rusiya, Fransa, İngiltərə ordusunun tərkibində hay-ermənilərdən istifadə etdi, fransa və ingilis ordusu Fələstin, Suriya haylarından könüllülər topladı və ərazidəki bütün hay-erməniləri silahlandırdılar, işğal etdikləri bütün şəhərlərdə,

kəndlərdə hay-ermənilərin türk-müsəlimanları qətl etməsinə göz yumdular. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti terorrist hay-ermənilərə qədim İravan xanlığını güzəştə getməyə məcbur oldu, bu zaman Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 150 min kv. km.-dən 113,9 min kv. km-ə düşdü, cəmi iki il sonra Azərbaycanın Sovet Rusiyası tərəfindən işal edilməsini ilə Zəngəzurun Ermənistan Sovet Respublikasına verilməsi ilə, Azərbaycan Sovet Respublikasının ərazısı 86, 6 min kv. km. düşdü.

Gördüyümüz kimi son 300 ildi həyata keçirilən böyük və mərki planın nəticəsi kimi bir hay-erməni dövləti yaranmışdır, lakin bizim yuxarıda dediklərimizin hamısı tarixi xronologiya və statistikadan ibarətdir, bəs 300 ildə biz türklərin, müsəlimanların necə yurdu, neçə kəndi, neçə şəhəri dağıdılıb, neçə ocaqlar sönüb, neçə yurddaşımız başsız qalıb, qan qusub?! Bu tarixi xronologiyanın, bu staistik rəqəmlərin dili olsa bizə nə danışar?! Danışsalar eşidərsinizmi?! Van, Diyarbakr, Bitlis, Erzurum, Sivas, İravan, Şuşa, Bakı dil açıb başına gələnləri danışsa, üstünə tökülən türk-müsəliman qanından danışsa, dinləyərsinizmi?! Min illərdi var olan Ulusoy kəndinə nə oldu, xəbəriniz varmı?! Skandinav miflərində adı çəkilən tanrı Odin və ona tabe olan tanrılar toplusu olan Azerlər kimdir, bəs Kiev rosları kimdir, bəs Musəvi inancında olan Xəzər türklərini tanıyırsınızmı, onların törəmələri olan Aşgenazların başına gələnləri bilirsinizmi?! II Dünya müharibəsinin həmçinin böyük türk müsibəti olduğunu bilirsinizmi?! Nazanı öldürülən Mərdanı tanıyırsınızmı, kəndi yandırılan Yaşarı və onun iki qardaşını tanıyırsınızmi? Dədə Qorqudu və Koroğlunun əsl hekayəsini bilirsiz, bəs İkizlər Ulusu haqda eşitmisiz? Ərolun əhvalatını bilirsənmi, kürd Kazım türk keçmişini, qanı tökülən qızılbaşların müsibəti haqqında bir xəbərniz varmı?! Eyvaz olmaq istəyən Haykazın hekayəsini eşitmisənmi?! Ermənilikdən haylığa dönüşüm haqqında nəsə bilirsinizmi?! 24 aprel 1915-ci ildə nələr oldu?! Hə, əziz oxucu, yaxsı budur mən sizə onlardan danışım. Kimin qanının, necə axıdıldığı bəlli olsun.

# UZUN GECƏNİN BAŞLANĞICI

*Ömür var bir günə dəyər, gün var ömürə dəyər –*
**Azərbaycan atalar sözü**

*Oturdun yoldaşdan qaldın,*
*Yatdın evin yıxıldı –*
***Azərbaycan atalar sözü.***

Tut ağacının altında oturan Mərdan kişi bir yandan gəlini Solmazın doğum sancısından qıvrılaraq çıxardığı iniltini eşidirdi, bir yandandan xəyalları onu 1965-cı ilə, Nazanın yanına aparırdı, onun biricik sevgilisi, həyat yoldaşı Nazanda uzun illər əvvəl doğum sancısının acısından qıvrınaraq eynən belə inildəmişdi. Həmin vaxtlarda ermənilər Yeravanın küçələrinə tökülüşüb, – "Türklərə ölüm", "Qarabağ bizimdir", "Naxçıvan bizimdir" – kimi şüarlar səsləndirib, azərbaycanlıları, döyüb-söyüb Ermənistandan qovmaq istəyirdi. Mərdan elə hiss edirdi ki, Nazanın doğum sancısı ərəfəsində qudurmuş ermənilər, Solmazın da doğum sancısı ərəfəsində yenidən quduracaq, bir hoqqa çıxaracaq. Bu hissin təlaşından onu soyuq tər basmışdı, canına bir üşütmə gəlmişdi. Mərdan kişi nə qədər toxtamaq istəsə də, xəyalları 1965-ci ilə doğru uçunurdu...

Mərdanla Aslan xəstəxanadan çıxdıqda artıq axşam idi. Erməni nümayışçiləri küçələrdə birə on artımışdı. Naxçıvanın, Qarabağın Ermənistana birləşdirilməsini tələb edən ermənilər axşama doğru daha da azğınlaşmışdı. «Ermənistanın yenidən birləşdirmə komitəsinə» danışmağa icazə verilmədiyindən izdiham toplaşdığı opera və balet teatrını və qarşılarına çıxan dövlət binalarını daşa basır, şüşələrini sındırırdı...

Mərdan bu izdihamı seyr edərək gah gülür, gah ağlayırdı:

– Nazan, bax erməni qardaşlığına... – gülməyi kəsib hönkürərək ağlamağa başladı, – Nazan eşitdində, hökümət adamları

deyir ki, oğlumuza erməni Şaumyanın adını qoyaq, – bağırdı, – Şaumyanınnn...

Küçələrə qarışqa kimi doluşan ermənilər bağırırdı:

– Türklərə ölüm! Azərbaycanlılar torpaqlarımızdan rədd olun! Yaşasın Hayestan! Naxçıvan bizimdi...

Dövlət binalarının qapı-pəncərələri qırıq-qırıqdı. Milis işçiləri kənarda dayanaraq olanları izləyirdi. Küçədə görsənən hərbi maşınların arxasınca yanğınsöndürən maşınları da meydana doğru gəldi. Yanğınsöndürənlər hərbiçilərin nəzarətində izdihamı su ilə qovmağa başladı. Hərbi maşının səsgücləndiricisindən rus dilində izdihama deyilirdi:

– Hər kəs dağılaraq, evlərinə getsin! Yoxsa daha sərt tədbirlər görüləcək! Tutulan şəxslərə cinayət işi açılaraq! Hər kəs dağılsın...

Yanğınsöndürən maşınların izdihamı sulamasından sonra, milis içşiləri də səsgücləndiri ilə kütləyə hay dilində səsləndi:

– Vəziyyət daha da gərkinləşmədən hər kəs dağılsın! Eşidirsiz vəziyyət gərginləşib... Vəziyyət gərginləşib – “vəziyyət gərginləşib” sözü paroldu, bu sözün təkrarlanmasından sonra böyük tamaşa qurmuş haylar dağılışmağa başladı...

Boşalan küçələrdə hərbi maşınlar, hərbiçilər, milis maşınları, milislər və qapı-pəncərəsi qırılmış binalar, sındırılmış işıq dirəkləri sükuta qərq oldu...

Aslan asta-asta maşını sürür və olanları izləyirdi. Mərdan da yaranan sakitçilikdən bir an dayanaraq ətrafı izlədi, boş küçələrdə olan hərbiçilərə, milislərə baxdı, darmadağın olmuş küçələrə baxdı, su gölməçələrinin üstündə üzən bildirişlərə baxdı... Milis işçiləri yerə tökülən bildirişləri yığır, divara vurulan bildirişləri qoparırdı... Mərdan pıçıldadı:

– Məni susdurdular... Bu dağıntılara nə deyəcəklər? Bu izdihamda iştirak edən yüz minlərlə erməni indi sovet düşməni deyilmi?! Görən sabah buna nə deyəcəklər?!

Aslan başını yelləyərək milis işçilərini göstərdi:

– Görürsənmi ermənilərin yazdığı bildirişlər indi milis işçiləri toplayır, divardan qopardır. Bir azdan bütün jek işçilərini tökərlər mərkəzə. Qapı-pəncərələridə gecə ilə təmir edərlər...

Vəssalammmm. – əsəbindən dişlərini qıcadı, – Bu dəfə alındıra bilmədilər... Amma bunlar əl çəkən deyil...

– Vəssalammm? – Mərdan qəzəblə bağırdı: – Heç nə olmamış kimi, bir daş altına, bir daş üstünə qoyub söhbəti bağlayacaqlar?!

– Necə səni, məni susdurdular, eləcə də hamını susduracaqlar... – Aslan hiddətlə boş küçələrdə bildirişləri toplayan milişlərə baxdı...

* * *

Mərdanla Aslan Nazanı torpağa tapşırdıqdan sonra Aslanın təklifi ilə onun evinə gəldilər.

Mərdan olanların mahiyyətini anlamağa çalışsa da heç nə alınmırdı. Nəyin düz, nəyin səhv, kimin haqlı, kimin günahkar olduğuna qərar verə bilmirdi. Tək bildiyi Nazanın olməsi idi və səbəbi erməni həkimləri idi… Qəlbində mənzili bəlli olmayan bir fırtına tüyğan edirdi, amma bu nifrət kor olduğundan, kimsəyə deyil, özünə əzab verirdi.

Aslan süfrəyə yemək-içmək düzüb Mərdanı səslədi:

– Gəl bir tikə ye!

– İştahım yoxdur! – Mərdan pıçıldadı.

– İştahı yoxdurla olan şey deyil bu, bütün günü bir şey yeməmişik. – Aslan gəlib onun qolundan tutub qaldırdı: – Gəl bir tikə ye! Ac qalmaqla guya nə edəcəyik ki?! – Mərdanı dartaraq süfrə arxasına gətirdi, ona yemək çəkdi.

Beş dəqiqəlik sükutdan sonra Mərdan ağlamsınaraq dilləndi:

– Yazıq qızın ölümü bir yana, bir düz əmməli basıra da bilmədik! Bir yasin oxuyanı da olmadı! – əli ilə gözünün yaşını sildi.

– Tanıdığım molla var, sabah gedərik! Allah rəhmət eləsin! Oğlunu düşün, ölənlə ölünmür!

Mərdan ağır-ağır başını yellədi:

– Buda xoş gələcək vəd edən hökümətimiz! Yaşamağı qoy qırağa, yazığın ölüsünü belə öz kəndimizdə basdıra bilmədik. – o əlini dizinə vuraraq ufuldadı, – Off, off, ürəyim patlayır!

– Yaxşı, özünü həlak eləmə!

– Budur erməni qardaşlığı?! Ömrü boyu ermənilərdən gördüyüm haqsızlıqları gic-gic sovet ideologiyası ilə yozmuşam,

bu da sonu. Bəs mənim günahım nədir?! Erməni qardaşlığına inanan Nazanın günahı nə idi?! İzdihamı gördünmü, tələbləri gördünmü?! Yüz minlərlə erməni bir ağızdan Qarabağı, Naxçıvanı istəyirdi! Bunu qoy qırağa, bizim ölümümüzü istəyirlər! Bu artıq sovet düşmənlərinə uymuş bir-iki erməni məsələsinə oxşamır axı?! – Aslana baxdı, – Elə deyil Aslan?!

– Bizi kor ediblər. – Aslan əsəbi halda dedi, – ona görə də belə olur!

– Əşi «kor ölər ağacı qalar» deyiblər, bəs bizi kor ediblər, bu boyda millətin bir baş biləni yoxdumu ki, deyəydi ay camaat bizi kor edirlər?! Yoxdu bu millətin yiyəsiii?!

– Varıydı, hamısını xalq düşməni etdilər, biz də kor kimi görmədik!

– Nə yəni, biz ilk qurbanlar deyilik?!

– Yox, nə ilk, nə də son qurbanlarıq! Nə qədər kor olsaq, qurbanlar da o qədər çox olcaq!

– Yox belə dərd ola bilməz, – deyib Mərdan əllini dizinə vurdu; – qız getdi, indi Nazan torpaq altındadı… Ay Allahhh. – Qəribə idi, o heç vaxt “Allah” sözünü dilinə gətirməzdi, indi haradansa bu söz dilinə ilişmişdi.

– Yaxşı sakitləş! – Aslan onun çiynindən tutdu və dedi, – ağlamaqla, özümüzü döyməklə düzəlsə nə vardı ki?!

Mərdan əsəbindən dodaqlarını çiynəyərək daha heç nə demədi.

– Yeri salımmı? – Aslan soruşdu.

– Yox yatmaq istəmirəm, ürəyim sıxılır!

– Mərdan…

– Hə…

– Heç yanda heç nə danışma, artıq sən onların nəzarətindəsən, başa düşürsən?!

– Mən? Nəyə görə?! – Mərdan bunu dərk etsə də, niyəsə acığını, hikkəsini harasa tökmək istəyirdi.

– Hə sən…, elə mən də! Həkimin söhbətini görmədin?

– Nə olub ki?

– Vəliyevin dediklərindən heç nə başa düşmədin? – Aslan əsəbindən dişlərini sıxaraq soruşdu.

– Nə bilim, deyir stress keçirmisən, gərək bir neçə ay həkim

nəzarətində olum, bəzi dərmanlar içim… – köksünü ötürərərk susdu.

– Başa düşmürsən bu nə deməkdir?

– Yəni istədiyimiz an səni dəli deyib basarıq içəri?!

– Hə. – Aslan başı ilə təsdiqlədi. – Bu o deməkdir ki, sən artıq guya yüngül dərəcədə pisixi xəstəsən. Sabah bir şey olsa, nəsə danışsan, tutub basacaqlar dəlixanaya ki, havalanıbsan. Deyəcəklər müalicə olunurdu, həkim nəzarətində idi, amma fayda verməyib. Başa düşdün?! Yəni susmaq lazımdır… Səbr…

– Bilirəm, bu olanlar mənim qeydimə qalmaq üçün deyildi. Həkim məsələsini ona görə ediblər ki, adımı pisixi müalicə alan adam kimi qeydiyyata alsınlar! Əgər mən onlar deyən kimi oynamasam deyəcəklər ki, dəlidir? Düz deyirsən… – Mərdan əsəbindən bozardı, – Gör necə oyun qurublar?! Ya sus, ya da dəlixana…

– Hə elədir. O üzdən bu barədə kimsəyə danışma. İnan bəlkə də sənin barəndə oxuduğun yerə belə deyiblər. Əminəm ki, yaşadığın kəndə də sənin barəndə «siqnal» göndəriblər, orada da qəti olaraq kiminləsə danışma… – Mərdana baxdı, – Başa düşürsən, elə bu an kənddən sənin üzünə duracaq adamları belə hazırlayıblar, lazım olan andaca, həmin “sukalar” təsdiqləyəcək ki, biz Mərdanda dəlilik əlamətlərini hiss etmişdik. – Mərdanın çiynindən tutub sırkələdi, – Başa düşürsən?!

– Kəndə nə yazıb göndəriblər? Nə… – Mərdan key-key soruşdu.

– Nə bilim e? Məsələn yazıb göndərəcəklər ki, sən «şübhəli şəxs» kimi KQB-nin nəzarətindəsən! Mərdanın “dəli olduğunu” təsdiq edəcək adamları müəyyən edin. KQB-nin hər yerdə öz agentura şəbəkəsi var, öz “sukaları” var. Bunların iş prinsipi belədir! Yaxşı ki, sən onlarla söhbətdə dərinə getmədin, yoxsa elə ordaca işini görəcəkdilər! Hələ də başa düşmürsənmi bunların iş prinsipini? Bizi yox etmək istəyirlər!

– Hamısı?! – Mərdan kəkələdi – Hamımızca…?

– Həəə… bu hökümətin, Sovet imperiyasının, rusu, ermənisi, yəni hamısı! Və onlara xidmət edən KQB, – Aslan əlini yelləyərək cavabladı, – bunların məqsədi bizi məhv etməkdir! Başa düşdünmü?!

– Əslində anlayıram, amma səbəb nədir?! Niyə bizə düşməndilər?! Necə deyərlər, nə vaxt bunların toyuğuna kışş demişik?! Bizdən nə alıb verə bilmədikləri var?

– Bizdən alıb verə bilmədikləri Azərbaycandır! Azərbaycanı istəyirlər!

– Azərbaycanı? Başa düşmədim? Bu qədər yiyəsizik? Bəs azərbaycanlılar?

– Onlara Azərbaycan azərbaycanlılarsız lazımdır? İmperiya siyasəti…

– İmperiyaların əsarətdə olan xalqları istismar etmək istəməsi, xalqları asimilyasiya etmək istəməsi kimi şeyləri özləri deyir axı? Bunu ki, özləri öyrədib bizə…

– Bunlar gözə kül üfürmək üçün edilir, “imperyalar belə edir, amma Sovet İttifaqı imperiya deyil” deyərək başımızı qatırlar! Bax bu qədər olandan səni sonra belə çaşdırır.

– Sovet İtiffaqı imperiyadırmı?! Yəni biz də əsarətdə olan millətik?! – Mərdan hələ də gördüklərini tamlığı ilə qəbul edə bilmirdi, – Yəni Sofet İttifaqı ilə kapitalist imperiyalarının heç bir fərqi yoxdur?

– Sovet İttifaqı da imperiyadı, imperiya olmamış nədir ki?! Hə, Mərdan?!

– Bəs qardaş xalqlar?! Bəs Sovet qardaşlığı?! – Mərdan zarıyaraq soruşdu.

– Nə qardaşbazlıqdır salmısan, səni sağ olmuş! Ayının min oyunu var, bir armudun başında. Kor-kor, gör-gör…

– Görə bilirikmi?! Bu yekəlikdə Sovet İttifaqı yalan üstündə qurulub?!…

– Sovet İttifaqı tək yalan üstündə qurulmayıb, qan üstündə qurulub!

– Yəni hamısı yalandır?! Həəəə? – Mərdan yenə zarıyaraq soruşdu.

– Mərdan başa düşürəm səni. Mənim də inanmadığım zaman olub. İnsanın aldadıldığını qəbul etməsi asan olmur, aldadılan bir də xalqın olanda…

– Onlar sənidəmi sorğu-sual etdi? – Mərdan yalnız indi xatırladı ki, Aslan da onların hədəfi ola bilər…

– Əlbəttə…

– Sən nə dedin?

– Dedim heyif Sovet dövlətinin əməyinə ki, oxudub-başa çıtdırıb, onlarsa sovet həmrəyliyini zədələmək istəyənlərə uyurlar. Bunun üçünmü vuruşduq? Onlar da sonunda dedi ki, gərək heç kimə bu barədə danışmayasan. Mən də dedim ki, mən Sovet dövləti uğrunda vuruşmuşam, onu dağıtmaq üçün yox… – isteza ilə güldü.

– Sən Sovet dövlətinə inanmırsan ki? – Mərdan hələ də heç nəyi tamlığilə aydınlaşdıra bilmirdi.

– Başına gələnləri öz gözünlə görmədin?

– Gördüm, amma inanmaq istəmirəm ki, hər şey yalandır. – Bir an susdu və əlavə etdi, – Yəni hər şey yalandır, köpükdür, içi boşdur? – Aslana baxdı, – Deyirəm bəlkə təxribatıdır? Hə?

– Kimlərin təxribatıdır?!– Mərdanın söz demək istədiyini görüb, onu qabaqlayaraq dedi: – Kapitalizimin təxribatıdır? – acı-acı gülümsündü.

– Ermənilər düşmən olsa idi, daha niyə 1918-ci ildə Azərbaycanın xoşbəxtçiliyi üçün Bakı Sovetini qururdular? Ermənilər düşmən olsa daha Şaumyan niyə minlərlə azərbaycanlını ölümdən qurtarırdı? – Mərdan düşüncəli halda soruşdu, – Hamısı yalandır? O zaman bu cümlələrin arxasında olan əsl həqiqət nədir?!

– Ay yalançının ataba atasına lənət! Bakı Sovetinə bax, Şaumyana bax və bunlar bizim uğrumuzda vuruşub? Ay, hay! – Aslan əsəbi halda güldü, – Hamısı uydurmadır! Onlar çaqala qoyun dərisi geyindirmək istəyir! Hamısı qatildir!

Mərdan əlini yellədi:

– Qatil? Aslan mən tarixi yaxşı bilirəm. Bütün kitablarda da elə yazılıb. Adam qalır belə. – Mərdan çiyinlərini çəkdi, – Bəs əsl həqiqət necə olub? Kitablarda yalan yazılıb?!

Aslan onun sözünü kəsdi:

– Kitablar, kitablar… Sən nə düşünürsən, etdikləri cinayətləri yazacaqdılar?! Kitabı yazan özləridir də, Quran ayəsi zad deyil ki…

– Cinayətttt?! – Mərdan bu sözü bir necə dəfə təkrarladı və Aslandan soruşdu: – Bəlkə Şaumyanla bu ermənilərin əqidəsi eyni deyil, hə?! Ola bilər?

Aslan niyəsə acıqlı halda Mərdana baxdı:

– Kor, korluqqqq… Bax hamını belə yuxuya veriblər, kor ediblər. Mərdan ayıl… – Mərdana səsləndi, – Şaumyanın məqsədi bütün azərbaycanlıları qırıb yerində Sovet Ermənistanı yaratmaqdı. Bu üzdən də Bakıda minlərlə müsəlmanı qırıb! Ta indiki Krovobadacan* gəliblər, Azərbaycana köməyə gələn türk ordusu olmasaydı yəqin ki, indi bizim adda bir millət olmazdı. İt uşağı Şaumyanın yarımçıq qoyduğu işi davam etdirir.

Mərdanın hövsələsiz halda dedi:

– Axı niyə?! Tutaq ki, erməniləri başa düşdük, bəs rusların marağı nədir?!

– Çünki biz müsəlmanıq! – Aslanın əsəbindən üzü əsdi, – Onlarsa xristiandı, rusu da, ermənisi də xristiandı. Bu qədər sadə!

– Müsəlmanın bura nə dəxli? Sosialist cəmiyyəti ateist deyilmi ki?! Sən də söz tapdın. – Mərdan etiraz etdi.

– Əşi bunların hamısı gözdən pərdə asmaqdan ötrüdür! Onlar xristiandır, biz müsəlman… Əslində bu ateizim uydurması bizi öz keçmişimizdən ayırmaq üçün oynanan bir oyundur. Ateizim uydurmasının da xüsusi səbəbi var, çünki xristianlıq dini ideya olaraq islamla tək başına bacara bilməz!

– Yəni… – Mərdan Aslanın üzünə baxdı.

– Yəni ki, – Aslan əminliklə dedi, – yüz ildən çoxdur xristian dünyası və ruslar şərait yaradır ki, ermənilər biz müsəlmanları qırsın, eyni ilə biz azərbaycanlıları. Gör bizi nə hala salıblar ki, xalqımızı qıran həmin gorbagor Şaumyanın başına da and içirik. Azərbaycanlıların qatilini ediblər Azərbaycan Respublikasının qəhrəmanı, adlarına rayonlar, şəhərlər, qəsəbələr, küçələr salıblar. Yəni sənin oxuduğun tarix əsl tarix deyil, Sovet cinayətlərini pərdələyən, xalqımızı məhvə aparan siyasətin bir parçasıdır.

– Niyə, onlara nə etmişik ki?

– Heç nə etməmişik, elə məsələ də bundadır. Necə deyərlər «qoy çiyninə çıxım, başına özüm çıxaram» məsləsindəndir. Bu dəqiqə çıxıb desən ay azərbaycanlılar, ermənilər bizə belə-belə yamanlıq edib, hamıdan qabaq elə özümüzünkülər gəlib tutar bizi, deyər «xalq düşmənisən». Amma əsl xalq düşmənləri başımızdakılardı, bilərəkdən, ya bilməyərəkdən bizi kor edirlər. Gör-

mədin sorğu-sual edənlərin hamısı azərbaycanlı idi.

– Biri dedi anam ermənidir, atam azərbaycanlı. Mənə misal gətirdi ki, dayısı Bakı Sovetini quran bolşeviklərdən olub. Sonra Bakını müsavat ordusu tutanda gülləyə tuş gəlib, amma bir-neçə il sonra anası ilə atası evlənib. Çünki bu milli yox, sinfi mübarizə imiş və onlarsa Sovet millətinin nümayəndələridir. Yoxsa gərək anası ilə atası evlənməyəydi. Elə dedi:

Aslan başını yellədi:

– Onların işinin adı odur da, hər kəsi öz təsiri altına alsınlar, ala bilmədiklərini isə yox etsinlər. Yəqin ki, danışdığı əhvalat da uydurmadır. Yox əgər uydurma deyilsə, dayısını vuranın ağrını mən alım. Onlar Bakı Soveti qurmaq adı altında azərbaycanlıları qırıb, varlı-kasıb dəxli olmadan. Bildin? Varlı-kasıb söhbəti cinayətlərinə geydirdikləri dondur!

– Yəni bunlar bu qədər qansızdır?! Yəni bunlar Azərbaycana bu qədər düşməndir?! Bəs düşmən olublarsa, niyə onları düşmən kimi tanımırıq? – Mərdan bağırdı, – Vallah dəli olacam…

Aslan ayağa qalxaraq divarda asılmış xalçaya yaxınlaşdı, əlini uzadıb xalçanın üstündən asılmış gənç bir kişi şəkili olan portiretin arxasından bir dəstə kağız çıxardı, üzünü Mərdana tutaraq soruşdu:

– Mərdan bu şəkildə olan gənc səncə mənim kimimdir?

Sual o qədər səmimi və yanıqlı deyilmişdir ki, Mərdan bir anlıq olsa da hər şeyi unudaraq dedi:

– Yəqin qardaşlarından biridir, düz tapdım? Hə, yəqin ki, böyük qardaşının şəklidir, hə?

– Yox Mərdannnn, – o son hərfi qəribə şəkildə uzatdı, – o nə kiçik, nə də ki böyük qardaşımdır, nə atamdır, nə də ki yaxın bir qohumum.

– Bəs onda o kimdir ki, sən onun şəklini divardan asmısan? – Mərdan daha da təəcübləndi.

– Mərdan o mənim ən yaxın dostum idi. Körpəlikdən bir yerdə böyümüşdük. Əslində qardaş kimi idik. Yenə də, o sən dediyin kimi mənim qan qohumum deyildi. Amma şəkilinin divarda asılma səbəbi heç bu da deyil! – Son sözlər onun ağzından elə titrək

səslə çıxdı ki, ən daş ürəkli adam belə kövrələrdi.

– Sən məni dəli etmək istəyirsən, onsuz da son günlərdə mənim çəkdiyim mənə bəsdir, sözünün canını de!

Aslan əlindəki kağız dəstəsini sinəsinə sıxaraq stulda əyləşdi, bir xeyli səssizcə Mərdanın gözlərinin içinə baxdı və astadan dedi:

– Mərdan onun adı Yaşardı, mənim dostum həyatın ən amansız üzünü görüb. – O susdu və sonra belə dedi: – Əslində bu gün mənim ən xoşbəxt günümdür.

– Sən dəli olmusan, nədir? Nə gic-gic danışırsan, mən bu gün canımı itirdim, yarımı itirdim, sən nə deyirsən? – Mərdan əsəbləşərək ayağa qalıxdı.

Aslan tez təşvişlə dilləndi:

– Sən canın sözümü kəsmədən axıracan dinlə, sonra istəyirsən lap canımı al, amma əvvəlcə dinlə!

– Sənə deyirəm də, məni dəli edəcəksən! – əsəbi halda dilləndi, – A kişi sözünü tez de, görək nə deyirsən, səbrim çatmır axı! Sən mənimlə oyun oynayırsan? Gördüyüm tapmacalar, gizlənpaçlar mənə bəsdir. De görək.

– Bu gün ona görə xoşbəxt günümdür ki, mən bu sirri özümlə qəbrə aparmayacam. Bu sirr elə bir sirdi ki, mən onu bu ölkədə kimsəyə danışa bilməzdim və danışsam belə kimsə mənə inanmazdı. Necə ki, Yaşar ömrü boyu bu dərdi kiməsə danışa bilməyib, hətta mənə də. Axı o bilirdi ki, bizi elə bir yuxuya veriblər, kimə nə desə, ilk olaraq onun özünü günahlandıracaqlar, hətta belə deyəcəkdilər «əsl vətən xaini elə səni kimisidir». Mən də bu sirri elə ona görə danışa bilmirdim, başıma min oyun açardılar. Amma sənə danışa bilərəm. Bunu sən anlayacaqsan, həmdə mənə inanacaqsan! Həm də gördüyün bütün bu oyunların mahiyyətini anlayacaqsan, başa düşəcən ki, bizdən nə istəyirlər… Hə inanacaqsan! – o qətiyyətlə dedi, – Əsas olan budur! İnanacaqsannnn!

– Tezlə sözünü!

– Bu oğlanın, yəni mənim dostumun adı Yaşardı, artıq bunu bilirsən. Onlar üç qardaşdı. – Əli ilə üç göstərdi, – Qohumlarının hamısı ermənilər 1918-ci ildə qırmışdı. Onlar qonşu kəndə dəyirmana un üyütməyə getdiklərindən canları bu qırğından qurtarmışdı. Mən bütün bunları bu məktubla bilmişəm, – gözündən

qeyri-ixtiyarı bir damla yaş süzüldü, köksünü ötürdü və söhbətinə davam etdi. – Sonra onları biz yaşayan kəndə köçürdülər, kənd onlara arxa oldu, onlar da başını aşağı salıb yaşadılar. Onlar, Yaşargili deyirəm, hamısı çox uca boylu idi. Qolları da qüvvətli idi, hə lap qüvvətli idilər. Mən onlar kimi güclü adam görməmişəm. Dava başlayanda üçünü də elə bu səbəbdən birinci davaya apardılar. Sonra Yaşar davadan qayıdanda bildim ki, onlar desant olub. Daha doğrusu «xüsusiləşdirilmiş desant diviziyası» adlı bir yerdə xidmət ediblər. Bunu da mən indi bilirəm, Yaşarın yazdığı məktubdan. – Sonra o səsini uculdaraq dedi, – Qəribə burası imiş ki, bu diviziyada bir dənə də rus yoxmuş, daha doğrusu xristian yoxmuş!

– Sən nə danışırsan, biz hansı zamanədə yaşayırıq, indi ateizim dövrüdür, nə dinbazlıq salmısan? – Mərdan görünür hələ də indiyəcən ona edilmiş sovet tərbiyəsinin, idyologiyasının təsirindən ayrıla bilməmişdi. Bunu özü də hiss edərək sözünü dəyişdi.– Ən azından dövlət üçün nə fərqi xristian, ya müsəlman. – Aslanın baxışlarını görüb mızıldandı, – Düz demirəm?!

– Düz demirsən, mən də elə bilirdim ki, biz ateist bir dövlətdə yaşayırıq! Amma görünür elə deyil. Onlar hansı mənsəbə qulluq edir, nə oyun qurur bilmirəm, – o Sovet dövlərini nəzərdə tuturdu, – amma artıq əminəm ki, bu oyun bizi məhv etmək üçün oynanır. Sözdə Sovet dövləti ateistdir, amma məlum olan budur ki, ruslar erməniyə kömək edir, özün ki, buna şahid oldun. Niyə? Çünki ikisi də xristiandır. Nəysə, sözümü kəsmə də dinlə.

Mərdan hövsələsiz cavabladı:

– Yaxşı, de görüm.

Aslan söhbətinə davam etdi:

– Mən özüm artıq heç nə danışmayacam, məktubu oxuyacam, yəqin ki, hər şeydən məni qədər tam hali olmasan da, çox şeyi özün başa düşəcəksən. – Mərdana baxdı, – Yaşarın məktubunu oxuyuram. Oxuyummu?

Mərdan hövsələsiz halda:

– Oxu, oxu görək!

Aslan əlindəki kağız dəstəsini gözünün önünə gətirərək oxumağa başladı:

# YAŞARIN MƏKTUBU

*Zülümkarın sifəti əvvəl-əvvəl yumşaq olar.*
***Rasin.***
*Kotan bilir öküz nə çəkir! –*
***Azərbaycan atalar sözü.***

Salam Aslan, həyatda qalan yeganə dostum, qardaşım, ailəm, sirdaşım. Bu məktubu sənə Qəhraman adlı, arıq uzun oğlan gətirəcək. Yəni demək istəyirəm ki, qorxmadan məktubu ala bilərsən. Yəqin ki mən tezliklə dünya ilə vidalaşacam, məndən heç bir xəbər-ətər olmadan itəcəm. Olsun, selə qarşı gəlmək olmur.

Səninlə uşaqlıqda gizlənqaç oynadığımız vaxtı gizləndiyimiz yeri xatırlayırsanmı? Mən küsəndə hər kəsdən qaçardım, sən gəlib məni orada tapardın. Arada məni yada salanda ora baş çəkərsən, əvvəllər olduğu kimi. Çünki ora mənim həyatımın ən xoş günlərini keçirdiyim yerdir, hara getsəm də bir yanım oradadır. Qəbrim məlum olmayacaq, qoy barı ora mənim anıt* yerim olsun! Məni kimsədən soruşma, arada məni xatırlasan yetər!

İmza Yaşar.

Mərdan hövsələsiz halda Aslanın üzünə baxdı:

– Elə bu? Bayaqdan məktub, məktub salmısan. Məktub başlamadan bitdi ki…

Aslan Mərdanı təsrləyən tərzdə dedi:

– Hövsələn olsun, qoy sözümü deyim.

– De də, de görək. – Mərdan ufuldadı.

Aslan əlindəki kağızlara baxaraq danışmağa davam etdi:

– Mən aldığım məktub bundan ibarətdi. Onu həbs etdiklərini, daha sonra milis şöbəsində hamını gülləhləyərək qaçdığını eşitmişdim, amma nə edə bilərdim ki? – Aslan çiynini yığaraq dedi. – Məktubu dönə-dönə oxudum ki, görüm nə yazmaq istəyib,

---

* *xatirə*

sözün düzü bir şey anlamadım. Gecələri yata bilmirdim, yuxumu qarışdırırdım. Onun dediyi kimi ondan nə xəbər çıxdı, nə ətər, sanki elə bir adam yoxmuş. Məndən başqa kimi vardı ki, yetimin, beləcə səsi-sorağı kəsildi. Məktubundan da bir şey anlamırdım, amma hey bu haqda düşünürdüm, amma bir çarə də tapa bilmirdim. O mənə yazmışdı ki, məni yada salsan uşaqlıqda gizlanqaç oynadığımız yerə get, neçə dəfə ora getsəm də onun nəyə eyham vurduğunu anlaya bilmədim. Yenə bir gün yenidən ora getməyi qərarlaşdırdım və getdim. Həmin yerləri gəzdim, birdən gözüm qoca çinar ağacına sataşdı. Bu ağac bizim ən sevimli yerimiz idi, başına dırmanıb saatlarca burda söhbət edirdik. Bu dəfə ağacın yanına getdim və qeyri ixtiyarı ağacın başına dırmandım. Uzun illər əvvəlki kimi bir budağın üstündə oturdum və düşündüm ki, bəs sonra? Onun məktubda demək istədiyi elə bu idi ki? Belə düşünürdüm ki, gözüm bu ağacda olan koxuşa sataşdı. Biz bəzən burda nələrimizisə gizlədirdik. Cəld qalxıb ağıcın gövdəsindəki koğuşa yaxınlaşdım və əlimi içəri saldım, əlimə çör-çöp, ağac oxantısından başqa heç nə dəymədi. Əlimi ağac oxantısının içində gəzdirdim, əlimə bərk nəyinsə dəydiyini hiss etdim və onu çıxardım. Bu balaca bir sandıqca idi. Sandıqcanın içində üstü keçi pıyi ilə yağlanmış bir keçə tapdım, onu açdım, içində gördüyün bu qalın dəftər vardı vardı, – o dəftəri sirkələdi, – bir də Yaşar və qardaşlarının bir yerdə olduğu bir neçə şəkili…

Olacaqları əvvəlcədən bilən Yaşar sinə dəftərini bu dəftərə köçürmüşdü. Amma bunu mənə verməyə macal tapmamışdı. – O, Mərdana məktubun niyə iki ədəd olmasını izah etdi. – Hə… ikinci məktubu oxuyuram.

Mərdan başı ilə təsdiqləyərək dedi:

– Oxu, oxu…

Aslan gözucu Mərdana baxaraq oxumağa başladı:

– Artıq bizim buradan köçürülməyimiz dəqiqdir. Bizi öz dədə-baba yurdumuzdan köçürüb, topraqlarımızı* erməniyə verə-

---

* *torpaq – əvvəllər Azərbaycanın da çox yerlərində torpağa topraq deyilirdi, bu söz sonradan fonetik ahəng adı altında minlərlə söz kimi dəyişdirilmişdir. Çünki Türkiyədə indi də torpağa topraq deyilir*

cəklər…

…1947-ci il dekabrın 23-də  SSRI Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa  azərbaycanlı əhalinin Azərbaycan SSR-yə köçürülməsi haqqında qərar verdi və 1948–ci il 10 mart tarixli qərarla  bu iş həyata keçirəcək tədbirlər planı müəyyənləşdirildi. Köçürülmə «könüllülük prinsipinə» əsaslanmalı idi. Və bu yerlərə xaricdən gətiriləcək ermənilər yerləşdiriləcəkdi.

…«Könüllük prinsipininə əsaslanacaq» köçürülmə olduğunu eşitdikdə bütün kənd qərarlaşdı ki,  köçməyəcəyik, öz yurdumuzu parsoylara* verməyəcəyik. Əslindədə “köçürülmənin könüllülük prinsipi əsasında olması”  ifadəsi sovetlərin cinayətlərinə geydirdikləri don idi. Zorla köçürülürük.  Mən rus hiyləsini anlayıram, amma əlimdən nə gəlir ki? Tək bacaracağım olanları yazmaq və barı səni də olanlardan agah etməkdir.

Sovet Rusiyası  Azərbaycanda bərqərar olanda dostluqdan, qardaşlıqdan danışırdı,  deyirdi ki, yalnız Sovet hakimiyyəti Azərbaycanın ərazi bütövlüyünü təmin edə bilər**. Amma torpaqlarımızı hissə-hissə erməniyə, gürcüyə verdilər. Bu da  yeni bir mərhələdir.

Qardaşım Aslan sabah  mənim son günümdür, köçürülürük. Amma daha susmayacam, barı bu gün susmaq olmaz.

Bəlkə bu hərəkətimlə səni çox üzəcəm, amma həqiqəti bilmək sənin haqqındır və mənə qorxaq deməyini istəmədim. Həm də bu olanlardan sənin agah olmağın lazımdır. Axı, sən mənim yeganə yaxınımsan ki, bu dünyada qalmısan. Mənim gördüklərim elə şeylərdir ki, bu mənim gözümdə çox şeylərin açılmasına səbəb oldu, amma bunun həqiqət olduğuna gec inandım, çox gec. Və çox gec inandığım şeylər mənim həyatımın gözəllik, xoşbəxtlik adına nəyi vardısa əlimdən aldı. Bu elə mənim sonum olacaq. Bu şeylər yaxın zamanda bütün türk və müsəlmanların başına gə-

---

* *Ermənistanda yaşayan azərbaycanlılar İrandan köçürülən ermənilərə “pars soylu” mənasında “parsoy” deyirdi.*

** *Azərbaycanda Sovet hökuməti qurulması ərəfəsində bu bəyanatı Serqo Orconikidze söyləmişdi – Azərbaycan Sovet Respublikasının ərazi bütövlüyünü qorumaq Sovet İttifaqının konstitutisyon borcu idi.*

tiriləcəkdir, amma bizim dünyadan xəbərimiz yoxdu. O üzdən də səni üzmüş olsam da istədim ki, bu olanları əvvəldən bilib özünü qoruyasan. Bağışla ki, səni yalnız xəbərdar edə biləcəm, özünüzü necə qoruyacağınız barədə isə heç bir fikrim yoxdur. Yəni anlıyacağın kimi, keçəlin dərmanı olsa birinci öz başına sürtər.

Əslində bu bəladan qurtarmağın yolu varmı? Heç bilmirəm! Çünki bizi elə bir tora salıblar ki, bu tək qol gücü ilə olacaq iş deyil.

Dava gördüm, – II Dünya Müharibəsini nəzərdə tuturdu,– davada savaşdım, ölümlər gördüm, qardaşımın biri qollarım üstündə can verdi, minlərlə silahdaşımın, həmdillimin ölümünü gördüm, davada bədənim dəlmə-deşik oldu, amma onlara dözən mən anladım ki, xalqımın sabahki köçünə, yurdlarımızın hay-ermәni dığalarına verilməsinə dözə bilmərəm.

Gör bizi nə hala salıblar ki, min çür ölüm qaydaları bilən mən, yüz minlərlə almanın ölümünə fərman verən diviziyanın oğullarının anaları bu gün inandığı dövləti tərəfindən, yalancı, hiyləgər və zalım Sovet Rusiyası tərəfindən köçə məruz qalır…

Sovet Rusiyasının əsil üzü bu idi, amma gec tanıdıq onu.

Aslan bu yəqin ki, sənin həyatında oxuyacağın ən uzun məktub olacaq. Niyəsini bilmirəm, amma içimdən gəldi ki, məktubun əvvəlində bu sətirləri də yazım. Axı sən bu olanları bilmirsən. Biz sizin yanınıza köçəndə artıq bolşevik hakimiyyəti qurulmuşdu. Və guya ki, biz sovet ailəsi olacaydıq, bütün millətlər Sovet ailəsində toplaşacaq və kimsəyə yamanlıq olmayacaqdı. Bizi sizin kəndə gətirən adamlar bu barədə kimsəyə danışmamağımızı tapşırmışdı. Deyəsən hələ bizi nəzarətdə də saxlayırdılar. Böyük qardaşım bir gün mənə dedi ki, bu hökümət yaxşı hökümətdir, sən də bilirsən, amma yenə də birdən çaşıb haylar-ermənilər barəsində nəsə deyərsən, bizə göz qoyurlar, ağzını bərk tut.

* * *

…Qara kostuyumlu iki adam Yaşar və qardaşlarına yer göstərərək dedi:

– Oturun qoçaqlar! Sənin adın nədir? – deyə onlardan daha

yaşlısı Yaşardan soruşdu.

– Yaşar! – Yaşarın onda 7 yaşı vardı.

– Yaşar balam, yaşa. Yaşarma, yəni ağlama, yaşa. Axı biz artıq siz xoşbəxt olasınız deyə bu dövləti qurduq. Yoldaş Lenin bu dövləti elə onun üçün qurub ki, səni kimi balalar «yaşar» olsun bu ölkədə, – ucadan güldü, – elə deyil əmisi? – o yanındakı yoldaşına tərəf döndü.

– Hə mənim ağıllı balam. Mənim oğlum da yaşasa elə sən yaşda olardı.

– Sənin oğluna nə olub ki? – Yaşar soruşdu.

– Balam bizim düşmənlərimiz azərbaycanlıların və ermənilərin dost-qardaş olmaması üçün gah azərbaycanlı, gah da ermənilərin adından istifadə edərək xalqı qırmışdır. Onlar mənim də ailəmi məhv etdilər.

– Niyə? Kimdir əmi onlar? – Yaşar qəzəblə soruşdu.

– Mənim balam onlar belə edirdilər ki, xalqı zəif salıb istismar etsinlər. Varlılar, xarici dövlətlərlə əlbir olanlardı bu qırğını edənlər. Biz də onları qovub yeni fəhlə, kəndli dövləti qurduq. – Üzünü hər üç qardaşa tutaraq daha uca və fərqli tonla dedi: – O üzdən də sizi köçürəcəyimiz yerdə kəndiniz barədə kimsəyə danışmayın! Aydındırmı?

– Əmi, nə barəsində? – Yaşar uşaq ağlı ilə soruşdu.

– Yəni bizim ailəni, qohumları ermənilər qırıb və buna oxşar sözlər! Axı dediyim kimi onları ermənilər yox, kasıbların, xalqın ümumi düşmənləri qırıb, yəni varlılar, yəni kulaklar. Mənim oğlumu da onlar öldürüb, sənə dedim axı. Amma görürsənmi mən də ermənilərlə dostam və bir yerdə Sovet ölkəsi üçün işləyirik. Hamımız bir amal uğurunda vuruşuruq. Bunu hamı bilir. Amma siz çaşıb elə desəniz həm sadə xalqı çaş-baş salarsınız, həm də düşmənlərin hiyləsinə uyub onların ocaqlarına neft tökmüş olarsınız. Biz nə etməliyik? Düşmənlərin ocağına su tökməliyik. Elə deyilmi balaca? – o xüsusi əda ilə qara pencəyini düzəltdi.

– Hə əmi! – Yaşar sevinclə dilləndi.

– Hə balaca, indi sən çıx çöldə dur, qardaşlarınla da bir-iki söz danışaq, sonra sizi aparaq təzə evinizə. Hər şey yaxşı olacaq. Yaşa balaca. – o yenidən pencəyini düzəldərək gülümsədi.

Yaşar hündür olan stuldan sivişib yerə düşərək çölə çıxdı.

...Deyirdilər ki, bu qırğınları edənlər guya ki, bizim də, ermənilərin də düşməniymiş, guya dünyada iki sinif arasında mübarizə gedir, belə deyib bizi yuxuya verdilər. Dedilər ki, biz müsəlimanları qıranlar haylar yox, varlılar idi, nəbilim burjaziya sinfi idi. Deyirdilər ki, varlının, burjaziyanın milləti olmur. Artıq bunun yalan olduğunu bilirəm. Necə bilmişəm? Tələsmə məktubu oxuyub görəcəksən! Amma əvvəlcədən deyim ki, o kişilər kimi qara qalstuk taxıb, qara pencək geyinənlər bizim evimizi yıxdı, vətəni, milləti qalstuklarına satdılar. Mən yaşamadım, yaşardım, sızladım, ağladım. Məni kimi neçə minləri ağladılıb, öldürülüb, biz bunlardan növbətisi olacıyıq, amma sonuncusu olmayacayıq. Növbədə isə yenə türklər var, müsəlmanlar var, vətənimiz Azərbaycan var! Növbədə İslam-TÜRK dünyası var!

Bizim kəndin qırıldığı, yandırıldığı günü xatırlayıram. Biz qonşu kənddən qayıdanda kəndimiz yerlə yeksan olmuşdu. Hamını, hər şeyi yandırmışdılar. İşgəncə görərək öldürülmüş insan cəsədləri onlarla, yüzlərləydi, uşaqların gözü çıxarılmışdı, qadınların əmcəyi kəsilmişdi, hər yan yandırılaraq qaxac olmuş cəsədlərlə dolu idi. Və bilirsən bu necə dəhşətli mənzərə idi? Bir söz var e, deyirlər qaradan da qara rəng yoxdu, bax o sözü kim deyibsə yalan deyib, hay vəhşiliyindən bixəbər adam deyib bu sözü. Yandırılıb qaxac olan cəsədlərə baxanda, mən belə uşaq ağlımla anladım ki, onlar diri-diri yandırılıb və yana-yana qaçıblar ora-bura, bax hayların bu vəhşiliyi qaradan da qara rəng olduğunu göstərir, yəni demək istəyirəm ki, bir var adamı öldürəsən, bir də var diri-diri yandırasan, bunun ikisi də eyni dərəcədə qəddarlıq ola bilərmi? Yox, əsla, bax budur qaradan fərqli qara rəng. Aslan, az əvvəl yazdığım kimi, mən belə uşaq ağlımla kəndlilərimizin diri-diri yandırıldığını anladım, amma nə mən, nə mənim böyük qardaşlarım anlaya bilmədi ki, bizim ana-atamız bu yananlardan hansıdır? Mən uşaqdım, amma elə o andaca anladım ki, ölüsünü tapmaq belə, onun üstündə ağlamaq belə, sən demə xoşbəxtçilik imiş, amma biz yanmış cəsədlərdən kimin-kim olduğunu anlaya bilmədik. Bütün yananları qucaqlayıb ağladıq. O günü qara

qalustuklu adamlara inananda da bu səhnə gözümün önündən getməmişdi, heç o dava illərində də gözümün önündən getmədi. Sözün düzü mən heç davada da elə dəhşətli səhnələr görməmişəm. Bir var biri ilə müharibə edəsən, davada güllə ilə adam öldürəsən, bomba ilə ev partladasan. Bir də var adamları min çür murdarçılıq, vəhşiliklə öldürəsən, bunlar çox fərqlidir. İnan bu məktubu yazıram, sabah mənim üçün çətin gündür, amma yenə də kəndimizin o halı gözümün önündən getmir. Aslan bilirsən, o vaxtdan bəri anam tez-tez yuxuma girir, amma üzünü xatırlaya bilmirəm, çünkü o yuxuma belə yanmış halda, qaralmış halda gəlir. Aslan, belə bir söz var ki, hər işdə bir xeyir var, daim düşünmüşəm ki, kəndimin bütün adamlarınını yanmasının, tanınmaz hala düşməsinin nə xeyri ola bilər, bu hadisənin nə hikməti ola bilər?! Bax elə indicə, bu məktubu yazan andaca anladım, bu işdə olan hikməti. Mən və qardaşlarım onlarla adamın başında ağladıq, "fatihə" oxuduq, lakin mən yalnız indi anladım ki, mən bütün yanmış cəsədləri öz ata-anam kimi əzizləyərək ağlamışdım. Mən o günü orada bir ana, bir ata itirməmişəm, sən demə onlarla ana-ata, baba-nənə, bacı-qardaş itirmişəm. Lakin bizdə belə bir söz də var, "mənə dəyməyən ilan min il yaşasın", bax bizim bəlamız budur, o qədər xırda insanlara, çılız insanlara çevrilmişik ki, öz əzizimizin başına bəla gəlməyincə ayılmırıq, deyirik mənə dəyməyən ilan min il yaşasın.

Kəndin üstünü qara tüstü buludu tutmuşdu. Evlər hələ də yanırdı. Bunu görən Yaşar böyük qardaşının əlində dartaraq dedi:

– Qağa, qağa…

Yaşarın böyük qardaşı Alı ortancıl qardaşı Kamillə söhbət etdiklərindən, Alı Yaşarın üstünə bağırdı:

– Kəs səsini, böyüklər danışan yerdə kiçiklər danışmaz, bildin!

– Yox e qağa, kəndimizə bax, yanır. – O hıçqıraraq dedi, gözündən yanaqlarına yaşlar süzüldü.

Alı və Kamil yalnız indi başlarını qaldıraraq kəndlərinə sarı baxdılar. Kamil həyacanla:

– Orda nə olub?

Alı onun sualına məhəl qoymadan kəndə doğru qaçdı, ardınca Kamil, sonra Yaşar. Un yüklənmiş eşşəklə araba yaddan çıxmışdı.

Eşşək eşşək olsa da, evin yolunu tanıyırdı və eşşək ağır-ağır kəndə doğru gedirdi, amma kənddə baş verənlər onu maraqlandırmırdı, axı o eşşəkdi. Sonralar o kəndin və onun kimi yüzlərlə kəndin yandırılması kimsəni maraqlandırmayacaqdı, axı biz insanıq.

Kəndin evləri dağılmışdı, divarlar güllə izləri ilə dolu idi. Kəndin küçələrində insan meyitləri qalanmışdı. Bir yanda bir qadın meyidi vardı. Sinəsi kəsilmişdi, başının yarısı yoxdu, bu Xatın xala idi. Yanında bir ayağı kəsilən, başına nal mıxlanan uşaqsa onun kiçik oğlu idi. Yaşar ağlaya-ağlaya qardaşlarının üzünə baxdı, çünki qorxurdu ki, qardaşları həmişəki kimi yenə deyəcək ki, mızıldama, kişi də ağlayar, amma gördü ki, qardaşları hönkür-hönkür ağlayır. Yolun qırağında bir qadının qarnı yarılmışdı, yanında ala-yarımçıq olan, qanlı bir körpə vardı, bu da Məlik dayının hamilə olan arvadı idi. Qozalı çinarına mixlanan isə Nigar xala ilə körpəsi idi. Küçələr başı paralanmış, başına nal mıxlanmış, gözləri çıxarılmış meyidlərlə dolu idi. Alı dəli kimi öz evlərinə tərəf qaçırdı, qardaşları da onların dalınca. Yaşar onlara çatmaq üçün var gücü ilə qaçır, bacardığı qədər addımlarını iri atırdı, yenə də qardaşlarına çata bilmirdi, nəfəsi kəsilirdi, töyşüyürdü, az qala ürəyi dayanacaqdı, amma buna əhəmiyyət vermədən qaçırdı. Birdən ayağı büdrədi, ağzı üstə yerə yıxıldı, dizləri siyrıldı, dizlərindən axan qana əhəmiyyət vermədən durub evlərinə tərəf qaçdı.

Həyətlərinə girən Alı dəli kimi bağırırdı:

– Ana, bacı. – çönüb ətrafına baxdı, sanki onlar həyətdə ola bilərmiş və ola bilsin o keçəndə onları görməyib.

Cavab olaraq yanan evdən səs gəldi:

– Çık, çırt, çıq…

Yaşar həyət qapısından içəri girdi, Kamil key-key ətrafına baxırdı. Alı anidən yanan evə soxuldu, bir neçə an sonra əlində yanıb kül olmuş bir şeylə çıxdı, o şey yanıb qaxac olmuşdu və tüstüləyirdi. Yaşar onun nə olduğunu anlamadı. Alı əlinindəki şeyin onun əlini yandırmasına baxmayaraq üzünü göyə tutaraq bağırdı:

– İt soyu, bu körpədən nə istəyirdiniz? Aman Allah! Oy… körpə baçım. – O, fəryad edirdi. – Hay it uşağı! Allah bəlanızı versin…

Yaşarın ürəyi şiddətlə döyündü, ayaqları boşaldı, dizi üstə çökdü, zorla pıçıldadı:

– Bacı… – bu onların sonbeşik bacıları Ülkər idi. Onun başına bir neçə mıx vurulmuşdu.

Kamil boğularaq soruşdu:

– Bəs atam, anam, bacım hanı?

Alı üzünü samanlığa tərəf tutdu:

– Oranı niyə yandırıblar? Bəlkə… – sözünü bitirmədən o tərəfə qacdı, qardaşlar da onun dalınca.

Samanlığın içi yanmış insan meyitləri ilə dolu idi. Kimin kim olduğu bəlli deyildi. Qardaşlar yanıb qaxac olan meyitləri bir-bir gəzərək ağlayırdı:

– Bəlkə bunlardı?

– Bu atama oxşayır! – Onlar yanıb qaxac olmuş cəsədlər içində öz valideyinlərini axtarırdı.

Yaşar fəryad edirdi:

– Ana, ana. – o həmişə dara düşəndə anasını çığırırdı, axı ən çox onun nazı ilə oynayan anası id. İndisə o çox qoruxmuşdu və anasını köməyə çağırırdı…

– Anaaaa…

* * *

…1918-1920-ci illərdə İravan, Zəngəzur, Naxçıvan, Dərələyəz, Göycə mahallarında hay-ermənilər tərəfindən yüzlərlə müsəlman-türk kəndləri yandırılmışdı, bu kəndlərin sakinləri ya tamamilə məhv edilmiş, ya da bəzi kəndlərdə əhalinin bir qismi qaçaraq canını qurtarmışdı. Amma qış aylarında qonşu mahallara qacanların böyük əksəriyətini də şaxta-don vurmuşdur. O illərdə minlərlə müsəlman-türk anaları hay-ermənilər tərəfindən vəhşicəsinə öldürülmüşdü, minlərlə körpə ana deyərək ağlamışdır, amma bu fəryadlar cavabsız qalmışdı. Üstündən uzun illər keçməsinə baxmayaraq, hay-ermənilər bu qətillərinin üstünə yenilərini toplamasına baxmayaraq, müsəlman və türk dünyası hələ də susurdu…

Dava başlayanda bizi, məni və qardaşlarımı hərbi kommisarlığa çağırdılar. Sevinərək getmişdik, axı vətən darda idi və biz

düşmənlə vuruşmaq üçün davaya gedirdik. Düşmən vətənimizi işğal etmək istəyirdi, almanlar fəhlə dövlətini, yəni kasıbların ümidi olan Sovet dövlətini məhv etmək istəyirdi.

…Hərbi kommisar özü bir-bir əsgərləri nəzərdən keçirirdi. Üç qardaş ilk baxışdan seçildi, uzun boyları, paltardan aydınca görünən əzələli bədənləri kommisarın gözündən qaçmamışdı. Kommisar yanındakı hərbiçilərə tapşırıqlar verdi, sonra dedi:

– Bunları qatara yetişdirin. – Barmağı ilə Yaşargili göstərərək, – Siz, qocaqlar mənim arxamca gəlin. – O, öz kabinetinə doğru addımladı.

Yaşargil kommisarın ardınca ikimərtəbəli binanın ikinci mərtəbəsinə qalxaraq pilləkənlə üzbəüz olan otağa girdilər. Kommisar qəlyanına tütün qoyaraq alışdırdı, bir-iki qullab aldı, qaşlarını qıyıb cavanları süzdü. Yaşar Alının üzünə baxdı, gözləri ilə deyirdi ki, biz kimdən əksiyik ki, bizi davaya göndərmədilər. Onlar hələ də bura niyə çağırıldıqların səbəbini bilmədiklərindən, Alı uca səslə soruşdu:

– Cənab kommisar, bizi dəstədən niyə ayırdınız, bizim onlardan nəyimiz əksikdir, bizi niyə davaya göndərmədiniz? Bizim vuruşacağımıza şübhənizmi var?

Komissarın dodaqları səyridi:

– Yox mənim igidlərim. Siz davaya gedəcəksiniz, özüdə lap mühüm yerinə. Sizi kimi gənclər bizə tək döyüşçü kimi yox, həm də ön kəşfiyyatda, düşmənin əsas qüvvələrini məhv etmək üçün lazımdır. Bu səbəbdən də sizin gedəcəyiniz yer başqadır. Halal olsun sizi doğan analara.

Alı gülümsünərək dedi:

– Biz üçümüz də qardaşıq!

– Lap yaxşı, biri birinizə arxa olarsınız.

…Hərbi kommisarlıqda bizi çağırışçılardan ayırıb növbəti günü yola saldılar. Altı ay təlim keçdik. Bizə əlbəyaxa döyüşməyi, silahlardan istifadə etməyi, iqlimə üyğün maskrovka olmağı öyrətdilər. Bunlar o qədər də çətin deyildi, sonra bizə işgəncələr verərək dözümümüzü yoxladılar. Üç qardaş, üçümüzdə bütün sınaqlarda keçdik. Ən çətin sınaq müxtəlif həşaratları, sürünənləri

yemək oldu, sonralar kəşfiyyat zamanı elə olurdu ki, düşmən yaxında olduğundan meşəliyin bir güncündə günlərlə qalırdıq, ov ovlaya bilməyəndə açlıqdan həşaratları elə ləzzətlə yeyirdik ki, təlim vaxtı onları ağız əyərək yeməyimizə gülməyimiz tuturdu.

Daha sonra bizi ön cəbhəyə göndərdilər. Biz lazım olan anda əmr alır və kəşfiyyata çıxırdıq, bəzən almanların sılah anbarlarını partladır və ya onların ağzını azdırıb, əsas qüvvənin yolunu açırdıq. Bəzi hallarda da böyük alman qoşununu müəyyən olunmuş vaxtacan irəlləməsinin qarşısını alırdıq. Axı, davanın ilk iki ili sovet ordusu alman ordusu qarşısında davam gətirmirdi və şəhərlər əldən gedirdi. Bizsə belə hallarda alman ordusunun qarşısını alır və bu müddətdə şəhər müdafiəyə hazırlanırdı, sonra biz ordan yox olurduq.

Alman ordusunu necə dayandırırdıq? Biz xüsusi təlimlər keçmişdik və bizim divizyanın döyüş taktikası digərlərindən çox fərqli idi, biz tankla əlbəyaxa olmalıydıq, bir düşmən tankını dayandırmaq üçün bizə bir əl qumbarası yetirdi. Əgər biz almanlar qarşısında davam gətirməyib geri çəkilirdiksə ölümcül yaralı olanlar mövqeyini sözsüz tərk edə bilməzdi və düşmən onu əhatə edəndə o qumbaranı partladırdı, vəssalam. Şəraitə uyğun bizim gizlənmə üsullarımız da dəyişirdi, bataqlıq, meşəlik, dağlar olan yerdə alman ordusu bəxti gətirməyən və məğlubiyyətə duçar olan tərəf olurdu. Davanın ilk illərində qələbəni sovet ordusuna yalnız biz daddırırdıq. Davanın elə ilk günlərindən biz əmr gəlmədən əsla geri çəkilməyən, yəqin ki tək Sovet diviziyası olmuşuq. Bu üzdəndir ki, Sovet ordusunun geri çəkilməməsi üçün yaradılan mübarizə dəstələrinin olduğunu mən çox sonralar öyrəndim, yəni anlayacağın kimi, bizim diviziyanın arxasında əsla mübarizə dəstəsi olmamışdır ki, qaçanları vursunlar. Bizim haqqımızda qəzetlərdə çox yazılırdı. Sonradan araşdırıb öyrəndim ki, bunlar saxta qəzetlərdi, yəni bizi ruhlandırmaq üçün bizim qəhramanlıqları yazdıqları qəzetlər divar qəzeti kimi bir şeymiş, bu qəzetlər arxa cəbhədə heç bir vaxt oxunmamışdır. Bizim varlığımızdan kimsə xəbardar deyilmiş. Niyə? Niyəsini bir azdan biləcəksən…

Qısası, bizim vəzifəmiz düşməni çaş-baş salmaq, vəziyyətə uyğun döyüşməkdi. Bəzən biz onlarla açıq döyüşürdük, bəzən

partizan-qorilla döyüşləri aparırdıq. Bəzən də bizim diviziyadan sonu məlum olmayan əməliyyatlara kiçik bir dəstə ayırıb göndərirdilər. Sonu məlum olmayan deyəndə ki, sağ qalma etimalı olmayan əməliyyatları nəzərdə tuturam.

Bəzən «parlatma əməliyyatı» dediyimiz əməliyyatlar həyata keçirirdik. Soruşa bilərsən ki, səngərdə özünü partladan əsgərlə bu «partlatma əməliyyatında» özünü partladacaq əsgər və ya əsgərlərin nə fərqi vardı? Fərq bundadır ki, səngərdə özünü tankın altına salan və ya geri çəkilərkən ölümcül yaralalanların digər silahdaşlarını qorumaq üçün özü partlatması və ya döyüş anında düşməndən də daha çoxunu öldürmək üçün birinin özünü partlatmasını şərait müəyyən edirdi. Yəni əvvəlcədən bilmirsən kim tanka daha yaxın olacaq, ya kim ölümcül yaralanacaq, bu hal yarandıqdasa sən bunu kiminləsə məsləhətləşmədən, əmr almadan edirsən, etməlisən. «Partlatma əməliyyatında» isə bunun üçün əvvəlcədən təyin olmuş əsgər və ya əsgərlər gedirdi, yəni ölümünə əvvəldən razılaşaraq belə əməliyyata gedirsən, vətəni düşməndən azad etmək üçün bilərəkdən ölümə gedirsən. Bu əməliyyat üçün fiziki çəhətdən ən zəiflər, kəşfiyyat üçün daha yararsız olanlar və ya görünüşünə görə seçilirdi. Məsələn, ləzgi balası Aşur və gədəbəyli Draz Əli sarışın olduğundan yerli camaata oxşayırdı. Bu polyak şəhərində alman zabitlərinin toplaşacağı məlumatını almışdıq.

Komandir Kazımov öz silahdaşları ilə aldığı məlumatı muzakirə edirdi:

– Yoldaşlar, bilirsiniz ki, aldığımız məlumata görə alman zabitləri bu şəhərdə toplaşırlar, sabah axşamüstü şəhərin mərkəzindəki restoranda yığıncaqları var. Toplaşmaları göstərir ki, harasa güclü hücum olacaq. Yüzdən çox yüksək rütbəli alman zabitinin bir yerə yığışacaq, biz bundan gözəl imkan tapa bilmərik. Onları məhv etmək lazımdır. Şəhərə maşınlarla gələn onlarla zabit məlumatın doğru olduğunu təsdiqləyir. Sizcə nə edək?

Draz Əli gülərək dedi:

– Komandir burada düşünüləsi nə var ki, biz çoxlu faşist zabiti öldürməli və az itgi verməliyik. Bunun tək yolu var «partlatma əməliyyatı». Mən sarışınam, polyaklara da oxşayıram,

Məlikməmməd kimi dəmir donumu geyib gedərəm ora, amma Məlikməmməddən fərqli olaraq dəmir donun yerinə qumbara ilə qıfıllansam lap yaxşı olar, – güldü, – çibimdəki tapanca ilə qapıdakı əsgərləri öldürərəm, girib içəridə özümü də partladaram, onları da… – əlini-əlinə vurdu, – vəssalam, şüt tamam.

Ləzgi balası Aşur Draz Əlini çəpəki süzərək dedi:

– Draz elə bilirsən sən məndən qansızsan, – güldü,– Mən səni boyda olmasam da gözü qarayam, bu əməliyyat tək çətindir, gərək bu işi bir yerdə edək.

Draz Əli gülərək:

– Ləzgi balası ikimizdə Azərbaycan balasıyıq, bir yerdə yeyirik, bir yerdə yatırıq, bir yerdə də ölək, nə deyirəm. Vətən sağ olsun! – gülüşdülər.

– Draz bu faşistləri Azərbaycana çatmadan cəm-cəm partlatmaq lazımdı, yoxsa bunlar qırılıb qurtaran deyil, bir nəfər bizdən, on nəfər onlardan. -Aşur güldü, hamı ona qoşuldu.

Burada belə idi, ölümün üzünə dik baxmaq, ölümü gülərək qarşılamaq onlar üçün adı haldı. Draz Əli ucadan qəh-qəhə çəkdi:

– Hə nemes köpəkuşağı, gəlirik atanıza od vurmağa. Sizin murdar ayağınız bizim vətənə dəyməyəcək! Ana-bacılarımız sizin üzünüzü görməyəcək! Çünki Aşur kimi, – Aşura göz vuraraq gülümsədi, – belə məni kimi oğlanlar olduqca bizim vətəni görməyəcəksiniz! – güldü, hamı ona qoşuldu.

Təklif bəyənildi və kənardan onlara lazım olarsa kömək üçün on nəfərlik qrup ayrıldı. Alı ilə Yaşar bu qrupun içində idi. Kamil nə qədər mızıldansada gedəsi olmadı. Draz Əli ilə Aşur silahdaşları ilə son kəs qucaqlaşdı, vidalaşdı. Aşur Yaşarı qucaqlayaraq üzündən öpdü və pıçıldadı:

– Qismət deyilmiş qardaş, davadan sonra sənə qonaq gələ bilməyəcəm. Amma əminəm ki, almanlar Azərbaycana ayaq basa bilməyəcək. Al bu məktubu, Gülər bacına göndərərsən! – arvadını nəzərdə tuturdu, – Dünən yazmışdım, amma, göndərmək mənə qismət deyilmiş. Bu da son sözlərimdir, bu varağı da məktubun arasına qoyarsan! – Və astadan pıçıldadı, – Allah amanında qardaşım, Yaşar!

Yaşar onu qucaqlayaraq ağladı:

– Sən nə etdin?! Sən yaşamalı idin! Mən Gülər bacıya, Məm-

məd əmiyə, Çimnaz xalaya bunu necə yazacam?!

– Yaz ki, onlar nemes görməsin deyə, Azərbaycan nemes görməsin deyə, oğlum Yaşar xoşbəxt yaşasın deyə, bu dəfə də mən özümü qurban verməliyəm. Sən demiş onsuz da bu diviziyadan sona kimsə qalmayacaq!

* * *

Hamı polyaklar kimi geyindi, avtomatlarını paltolarnının altında gizlətdilər, Aşurla Draz Əli qumbara ilə qurşanıb üstündən palto geydilər. Əməliyyat başlandı…

Axşam olmuşdu, restoran alman zabitləri ilə dolmuşdu. Yaşargil restoranın qabağında münasib yerlərdə gizlənərək müşahidə çənbəri yaratmışdılar. Draz Əli restoranın qapısına bir tərəfdən, Aşursa digər tərəfdən yaxınlaşdı, qapıya çatmalarına az qalmışi, qapının qabağında dayanan alman əsgərləri onlara tərəfə yaxınlaşaraq almanca bağırdılar:

– Rədd olun burdan! – biri avtomatın sapı ilə Draz Əlini vurmaq istədi.

Draz Əli ani cəldliklə onun avtomatını tutdu, tapancanı cibindən çıxararaq onu sinəsindən vurması bircə an çəkdi. Elə həmin andaca Aşur tapanca ilə digər alman əsgərini kürəyindən güllələdi. Onlar alman əsgərlərinin avtomatını götürərək içəri girdilər, qapının ağzındakı almanları güllələdilər və güllə ata-ata biri restoranın sağ tərəfinə, digəri isə sol tərəfinə hərəkət etdi. Alman zabitlərindən qaçan kim, masa altına girən kim, bağrışan kim, qan içində yerə yıxılaraq çabalayan kim. Bəziləri isə tapançanı çıxarıb onları vurmaq istəyirdi. Elə bu anda Draz Əli qumbaranın ipini çəkərək bağırdı:

– Vətən sağ olsun!

Aşur da öz qumbaralarının ipini çəkərək bağırdı:

– Vətən sağ olsun!

Ard-arda baş verən iki partlamadan sonra restoranın pəncərələrindən çölə böyük alov kütləsi çıxdı. Əməliyyat müəffəqiyyətlə başa çatmışdı, iki onlardan, yüzə yaxın alman zabitisə düşmən tərəfindən ölmüşdü…Düşünə bilərsən ki, bu əməliyyatı həyata keçirmək üçün diviziyada sarışın olan ruslar yoxdumu ki,

Aşurla Draz Əli getdi? Yox, bu diviziyada türk və müsəlimandan başqa kimsə yoxdu. Yəni bizim diviziyanın heyəti türk millətləri olan tatar, özbək, türkmən, kazak və azərbaycanlılardan ibarətdi. Azərbaycanlı dedikdə isə azərbaycan türklərini, ləzgiləri, kürdləri və talışları nəzərdə tuturam.

Hər əməliyyatdan sonra uşaqların sayı azalırdı. Yerinə təzələri gəlirdi. Amma mən bütün dava boyunca orada, yəni bizim xüsusmləşdirilmiş desant diviziyasında bir dənə də olsun hay, erməni və ya rus görmədim. Daha qısa şəkildə desək bu dəstədə bir dənə də olsun xristian yoxdu, amma əlavə edim ki, bu diviyizada qaqauz türkləri də var, bizi kimi danışırdılar, amma xristiandılar, lap haylaşan xristian erməniləri kimi, amma qaqauzlar türklüklərini və türk dilini unutmamışdı. Mən bu haqda qardaşlarıma deyəndə onlar məni əməllicə danlamışdı, sonra da qəti şəkildə demişdilər ki, bu barədə danışma…

...Yaşar silahını çiynində sahmanlayıb qardaşlarına tərəf əyilərək dedi:

– Qağa bəri gəlin, sizlə söhbətim var!

– Daha qırağa niyə? Burada de da!

– Yox olmaz. Bəri gəlin.

Yaşarın böyük qardaşı deyinməyə başladı:

– Sən lap qəribə uşaqsan. Ə burada hamımız ölümlə üzləşirik, bunlar hamısı bizim qardaşlarımızdır, hələ lap belə desən eyni millətik, görmürsən dillərimiz necə oxşayır.

– Qağa olsunlar, nə deyirəm ki, amma mən dərdimi sizlə bölüşmək istəyirəm! – o dişlərini sıxaraq mızıldandı, – Bəri durun.

– İşə düşdük də. Ə bəri dur görək, bizim balaca yenə nə hoqqa çıxardır? – Onlar cadırdan çıxdılar, qıraqda olan ən böyük ağcaqayın ağacına tərəf çəkildilər. Yaşar ağaca söykənərək qardaşlarının üzünə baxdı:

– Qağa, inan bu haqda çoxdan düşünmüşəm, amma bir cavab tapa bilmirəm, əvvəllər sizin ağlınızı bulandırmaq istəmirdim, amma daha dözə də bilmirəm. Dərdimi sizə də deməyib kimə deyəsiyəm ki? – o belə deyərək onları qabaqlamaq istəyirdi.

Alı başını bulayaraq dedi:

– Ə balaca olmuya vurulufsan? Hay? – qardaşlar xısın-xısın güldülər.

Kamil hələ də gülərək soruşdu:

– Ay qağa sən də söz tapdın, çölün düzündə kimə vurulasıdı? – yenidən gülüşdülər.

– Elə mən də onu deyirəm dana, – Alı güldü.

– Ayə olmuya nemesdir, elədirsə bizim elçi getməyimiz mənasızdı, gərək komandirə deyək, – yenidən güldülər.

Yaşar pərt olmuş halda:

– Ey siz də, az lağa qoyun, qoy sözümü deyim, ağzımda gap eliyirəm sizdə… – üzün turşutdu, – Yoxsa ata-anamız yatan toplu məzar haqqı gedəcəm.

– Ayə sən nətəri adamsan, neçə dəfə demişəm, onları amma, onları toplu halda basırıldığını anma! – Alı sərtləşdi.

– Hə, yaxşı qağa. Sən də gör burda nəyin davasını edirsən, biz neçə silahdaşımızı, belə eyni dildə danışdığımız oğulları toplu basdırmışıq, nə olsun? Günahdırsa, bu da günahdır onda?! – Yaşar belə deyib dediyi sözdən qaçmaq istədi.

– Ay belə azar olsun! Başımıza iş açaçaq bu dəli! Ayə sənin hər sözün qan qoxur e!

Kamil yenə xısın-xısın gülərək:

– Qağa onda qoy sözünü desin, yoxsa canın üçün bu lap xaraflıyajax!

– Hə düz deyirsən, bu balaca danışdırılası adam döyül! – əlini yellədi, – Hə çıbbılı de görək sözünü! – əslində Yaşar boyca ikisindəndə hündür idi, amma Alının kefinə düşəndə uşaqlıq illərindəki kimi ona "cıbbılı" və ya "balaca" deyirdi.

– Qağa fikir veribsənmi burada bir dənə də olsun rus yoxdur?

– Hə yoxdur, nə olsun? Olmuya xətrinə rus düşüb?!

– Eh sən də… – Yaşar başını yelləyərək əlavə etdi: – Hay da, erməni də, gürcü də yoxdur!

– Hə sözünü de! – Alı Yaşara əsəbləşdi, – Yenə bir zad qayıracaq bu uşaq, – deyib Kamilə baxdı.

– Burda olanlar hamısı azərbaycanlıdır, nəbilim tatardır, özbəkdir, türkməndir, yəni elə millətlərdir ki, dillərimiz oxşayır? Ya da kı… – Yaşar susdu.

– Ya da kı, nə? – Alı əsəbi və səbrsiz halda soruşdu.

Yaşar qımışdı və əllərini qabağa uzadaraq dedi:

– Qağa sən canın deyəcəm, amma üz vurma. Ya da kı bizim azərbaycanlılardı dana, ləzgi, kürd, talış və biz türklərik, biri-birinə qız verib, qız alan qonşu xalqlar… – pıçıltı ilə dedi, – yəni hamımız müsəlmanıq.

– Bəs qaqauzlar, onlar ki, xristiandır. – Kamil Yaşara sataşmaq üçün dedi və onu itələdi.

– Onlar da bizim dildə danışır da, bizi kimi türkdür dana. – Yaşar astadan dedi.

– Ayə sən nə təhər adamsan? Hay? – Alı pıçıltı ilə danışdı, – Müsəlman sözünü ağzına alma, başa düşmürsən? Ayə, mən səni bayaq azarladım, sən ondan da böyük qələt edirsən! – Alı Yaşarın üstünə bozardı, – Hələ bunun bir qaqauzuna zada bax… Türkdür, müsəlimandır, nə bilim nədir? Ayə bəsdi dana, ay çıpılı… – Yaşarın tutulduğunu görüb zarafata saldı, – Cıppılı sən nə zirrama adamsan… – güldü.

– Çıppılı və zırrama, əcəb təzad var aaa! – deyib, Kamil də Alıya qoşularaq güldü.

Yaşar mızıldandı:

– Başa düşdüm, neynim eee, fikirimi demək istəyirdim, yəni demək istəyirəm burda olan hər kəs ortaqdır, düz demirəm?!

– Ə nə olsun? – Alı Yaşarın yenə başladığını görüb kükrədi, – Nə olsun ki, burada erməni, gürcü yoxdur?!

Yaşar sevincək dilləndi:

– Ay sağ ol qağa, mən də onu deyirəm də, burda olanlar ya bizi kimi danışanlardı, ya müsəlmandı! Amma onlardan yoxdur!

– Kimlərdən yoxdur?! – Kamil gülərək soruşdu.

– Xristianlardan yoxdur! – Yaşar Kamilin güldüyünü görüm əli ilə onu vurdu, – Gülmə, düz demirəm?!

– Ayə indicə dedim müsəlman sözünü ağzına alma, – lap pıcıltı ilə dedi, – Allaha ağır getməsin! Sən indi də xristiandan danışırsan! – üzünü Kamilə tutdu, – Sən də az gül, şitəşdirmə bu dəlini!

Kamil əli ilə ağzını tutub dedi:

– Mən susdum.

– Qağa mənim dərdim nə odur, nə budur, demək istəyirəm ki, niyə burada rus yoxdur, gürcü yoxdur, erməni yoxdur! Bəlkə

bir bildiyin var? Onu soruşuramda. – Yaşar qardaşını qabaqlamaq istədi.

Alı qaşının birini dartaraq dedi:

– Yəqin bizi kimi qoçaq döyüllər, oldumu? Rahatladınmı?! – qardaşlar yenə Yaşara güldü.

– Qağa dediyinə özün inanırsan? Yenəmi lağa qoyursan məni?

– Ə, mən nə bilim? Sənin başın çatmır, elə gic suallar verirsən ki? Mən hardan bilim? Yoxdu cəhənnəmə yoxdur! – Alı əlini əlinə vurdu.

– Yəqin onlar başqa yerdə lazımdır, – Kamil dedi və ardınca güldü, – Ayə cıbbılı, sən doğurdan da lap qiyamətsən, sən canın bu sualı haradan tapıb çıxarıfsan?! Adam yatanda da yuxusuna girməz. Doğrudan məzəli və qəliz sualdı. – Alıya çöndü, – Amma uşaq düz deyir də…

– Gördün, Kamilin də başını pozdun, sən nə təhər adamsan?! – Alı hövsələsiz halda dedi və ofuldadı. – Ayə lazımsız şey danışmayın! Rəhmətlik atam həmişə deyərdi ki, başın bəlası dildən olur! Dilinizi dinc saxlayın dana! – O, tərs-tərs qardaşlarını süzdü.

– Ey siz də… – Yaşar Kamilə baxdı, – mən düz əməlli sual verirəm e, siz mən deyəni eşitmək istəmirsiniz! Kamil qağa gördün sənin də ağlına batdı. – Üzünü Alıya tutdu, – Sözümü sizə deyirəm, başqasına yox ki?! Qağa saadamı söz deməyim?! Saadamı söz desəm başıma bəla gələr?! – Yaşar bilirdi onun zəif yerini.

– Hə çıbbılı, ağlıma batdı… – Kamil Yaşara sataşmaqlarından əl çəkməyərək güldü, üzünü Alıya tutdu, – uşaq səndən söz soruşur?! Sözünü səndəmi demişsin?!

– Aydındır, siz məni lağa qoyun! Amma bu elə belə şey döy. Vallah.

– Aha! Ayə sənə neçə dəfə demişəm Allaha and içmə! – Alı astadan dedi.

– Nədi Allaha səndəmi inanmırsan? – Yaşar bu dəfə Alıya söz atdı və elə ustalıqla onu cırnatdı ki, Alı özü də bilmədən açıldı:

– Yox e, Allaha da qurban, yaratdığına da. Amma görürsən ki, indi belə lazımdı, indi başqa zamanədir. – Bu vaxt Yaşarın qımışdığını gördü, Kamil də güləndə işin nə yerdə olduğunu anladı,

özünü sərt tutaraq bağırdı:

– Ə çıbbılı indi sən maamı sataşırsan?

Yaşar tutuldu. O qardaşı ilə iki ildi silahdaş olmasına baxmayaraq, biri-birini ölümdən qurtarmağına baxmayaraq, onların arasında böyük-kiçik sərhəddi qalxmamışdı. Yaşarın dili topuq vuraraq:

– Yox qağa, mənnn..., mən. – kəkələdməyə başladı.

Alı gülməyə başladı, ardınca Kamil güldü.

– Ey qağa sən də ki… – Yaşar deyindi.

– Nədi? – Alı soruşdu.

– Elə zarafat olar? – Yaşar mızıldanaraq dedi.

Kamil güllə-gülə dedi:

– Qağa düz deyir, gülməsən heç mən də bilməzdim ki, zarafat edirsən. – üçüdə güldü.

Yaşar yenidən soruşdu:

– Qağa sən canın ağılın nə kəsir?

– Çıbbılı deməyinə düz deyirsən, dedin mənimdə ağlım kəsdi. Amma nə bilim, yəqin bir səbəbi var?

– Qağa, mən də bilirəm var e, nəsə səbəb var, nədir o səbəb?

Bu vaxt dəstənin komandiri Kazımov qardaşlara yaxınlaşaraq dedi:

– Mənim aslanlarım şirin-şirin nə danışırsınız?

Qardaşlar biri-birinin üzünə baxdı, Alı gülərək dedi:

– Qağa, – o tək olanda komandir Kazımova əsasən qağa deyirdi, onlar lap yaxın dost idilər. Ümumiyyətlə bu üç qardaşın qoçaqlıqlarına görə burada xüsusi hörməti vardı,– sən canın sənə bir sual verəcəm, amma düzünü de.

– Alı bu nə sözdü? Sözünü de, – komandir dedi.

– Qağa sən bilirsən də bizim bu balaca həmişə məzəli suallar verir? Məndən soruşur ki, qağa səncə niyə bizim içimizdə rus yoxdur? – o «hay, erməni yoxdur, gürcü yoxdur» sözünü bilərəkdən demədi.

– Nə olub ki? – komandir qaşlarını çataraq soruşdu.

Kamil söhbəti yumşaltmaq üçün zarafata saldı ki, nə olar, nə olmaz:

– Nə olasıdır, rus üçün qərifsəyif* uşaq! Deyir ki, kaş bizim də içimizdə böyük rus xalqının bir nümayəndəsi olaydı. Baxma böyük xalqın oğlu bizdən böyük hünərlər göstərər, bizdə dərs götürərdik! – güldü.

Komandir gülərək cavab versə də, deyəsən sual onu da tutdu:

– Sözün düzü bu mənim də ağlımdan keçib, amma dəqiq bilmirəm. Yəqin almanlar rus dilini bilir, biz lazım olanda məlumatı azərbaycanca, ya tatarca ötürə bilərik deyə. Amma nə bilim? Yəqin elə ona görədir? – amma üzündən oxunurdu ki, dediyi sözə heç özü də inanmır – Amma daha bu barədə heç harda və heç vaxt. Aydındımı, əsas da sənə aiddir balaca. – o Yaşarın gözlərinə baxdı.

– Aydındır…

– Rəsmiyyətə ehtiyac yoxdur, balaca, – gülümsündü, amma gözlərində eşitdiyi sualın təlaşı qalmışdı.

Komandir Kazımov gedəndən sonra Yaşar yenidən qardaşlarına:

– Gördüz o da bilmir!

– Qurtardı, Allah ki, bilir, içimizdə Tanrıya səndən güclü inanan yoxdur, qoy o sənə göstərsin! Amma daha bu barədə danışdı yoxdu! Oldu balaca? Oldu? – O həlim, lakin qətiyyətli səslə dedi.

– Yaxşı qağa!

...Qağam mənə dedi ki, daha bu barədə danışma, heç kim bilməsə də bunun səbəbini Tanrı ki, bilir, qoy o sənə göstərsin. Doğurdan da Tanrı bunu mənə göstərdi. Bu sovet hökümətinin məqsədi türkləri, müsəlmanları qırmaqdır. Qalanımızı da qoyun sürüsü edib, başımıza da bir satqın keçini qoyaraq bizdən istifadə edəcəklər. Amma əlbəttə ki, bunu onda hələ bilmirdim və sovet dövlətinə inanırdım. Bir gün komandir bizi yığıb dedi ki, almanların ön cəbhəsindəki vəziyyət barədə məlumat lazımdır. Məsələ bundadır ki, düşmən bura yaxın əraziyə böyük qüvvə toplayır, yəqin hücuma hazırlaşır. Bizə dəqiq məlumat lazımdır. Digər məsələ bundadır ki, dəstəmizdə adam yoxdur, bu səbəbdən də bu kəşfiyyat üçün bir nəfər getməlidir. Yuxarının əmri belədir.

---

* *darıxıbdır*

Mən əslində bu kəşfiyyat üçün birini seçmişəm. Amma…

Son günlərin gərginliyi hamını məyus etmişdi. Komandir Kazımov Sovet cəbhəsindəki son uğursuzluqlardan sonra çox əsəbi idi. O ağır-ağır dedi:

– Mənim igidlərim siz böyük işlər görmüsünüz, oddan-alovdan çıxmısınız. Dövlətimiz üçün mühüm işlər görmüsünüz. Bu yolda biz azala-azala çoxalmışıq, təzələnmişik. İlk gündən bu günə qalan cəmi yeddi nəfər var. Ordumuzda adam çatmadığından bizim hissəyə hələ ki, adam göndərməyiblər. Daha açıq deyim, – o bir anlıq susdu və dedi: – Artıq ordunun böyük hissəsi cavandı, uşaq-muşaqdı. Yəni kəşfiyata hələ yararlı adam yoxdu və ya təlimləri bitməyib. Yəni bütün işlər bizim öhdəmizə düşür. Adam az olduğundan bu iş üçün cəmi bir adam gedəcək. Yuxarının əmri budur. – O, çadırda olanları süzdü, – mən bu kəşfiyyat üçün artıq bir nəfər seçmişəm, amma əlbəttə bu məsələdə könüllü olan varsa desin.

Altı-yeddi nəfər önə çıxdı. Bunların içində qardaşlar da vardı. Alı qardaşlarına baxaraq dedi:

– Bu nə cürətdir! Mən olan yerdə siz kimsiniz ki? – o əsəbi halda soruşdu.

Bu sözdən sonra ortancıl qardaş olan Kamil geri, sıraya qayıtdı, Yaşar yerindəcə durdu.

– Sən niyə durmusan? – Alı komandirə fikir vermədən Yaşarın üstünə bağırdı.

Yaşarın gözləri doldu, dodağı əsdi, amma heç nə demədən daha bir addım irəli yeridi.

– Sən qudurmasan? – Alı bağırdı, – Tez yerinə, sənin qağan ölüb ki, sən gedirsən?!

– Qağa qurban olum üz vurma, elə kiçiyin olduğum üçün mən getməliyəm. Həmişə məni neçə buyurmusansa, elə bil yenə harasa buyurursan!

– Ə yenə nə sarsaqlayırsan, sənnən döyəm? Mən bilmirəmi səni hara buyurmaq lazımdır, hara yox?! – Alının qəhərdən dodaqları əsdi.

Kamandir Kazımovun səsi eşidildi:

– Yaxşı məsələ aydındır, hamı yerinə, Yaşar gedəcək. – o

yaxınlaşaraq Yaşarın önündə durdu: – Sən sovet ordusunun fəxrisən. Sən sovet xalqının fəxrisən! Dövlətimiz səni, səni kimi oğulları unutmaz! Neçə güllə yarası almısan yenə də usanmamısan. Bilməyənlər bilsin, bu igid bir dəfə məni üstümə düşəcək top mərmisindən xilas edəndə yaralanıb. Dəfələrlə döyüşlərdə yaralanıb, amma yarası tam sağalmamış döyüş meydanına atılıb. Yaralananda bizi tək qoymayaraq hospitala getməyib. Mənim əmrimə qarşı çıxıb, amma getməyib. İndi də qardaşının sözünə qarşı çıxdı. Ona görə Yaşar getməlidir, mən bilirəm ki, onu göndərməyib qardaşını göndərsəm məndən icazəsiz gedəcək. Əlbəttə bu disiplini pozmaqdır, ona görə də mən elə bir əmr verirəm ki, əmrim pozulmasın. – O, gülümsündü.

Uşaqlar hamısı onun sözünə qaqqanaq çəkərək güldü.

Komandır Kazımov əlavə etdi:

– Amma bu o demək deyil ki, sizin ayağınız yer alsın, bu istisna hal yalnız Yaşara aiddir. O Koroğlu babamızın dəlilərindən biridir, gəlib bizim günümüzə düşüb! – bu dəfə özü də ucadan güldü.

Hamı yenidən ona qoşularaq güldü.

– Yaşar sən Azərbaycanın, – Kazımov tez sözünü dəyişdi, – Sovet dövlətinin igidlərindən birisən. Sən bilirsən hansı yola gedirsən. Daha başqa söz deməyəcəm. Sənə uğurlar! – Yaxınlaşıb iki əli ilə Yaşarın çiyinlərindən tutdu, – Ordumuzun bu məlumata ehtiyacı var. Bu tərəfdən böyük hücum gözləyirik. Dəqiqləşdirmək lazımdır, son məlumatlara görə, almanlar bura ehtiyat qüvvələr gətirir. – Bir an susdu, sonra əlavə etdi, – bu barədə nə qədər çox məlumat gətirsən o qədər yaxşıdır. – Üzünü Yaşara tutub: – Biz almanlara diz çökdürəndən sonra geri qayıdanda hamı səndən, səni kimi oğullardan danışacaq. Xalq uşaqlarına səni kimi qəhrəmanların adın qoyacaq. Səni kimi qəhrəmanlar olduqca bu xalq da yaşayacaq. – Əlini uzadaraq minlərin azalaraq yüzlərin qaldığı əsgərlərini göstərdi: – Sizi kimi igidləri olan vətən basılmaz! – Komandir səsini bir azda ucaltdı, – Bu yolda ölən igidlər mənasız yerəmi ölüb? Əlbəttə yox! – O, başı ilə dediklərini təsdiqlədi, – Nolar, ana bacılarımız düşmən üzü görməsin deyə, torpaqlarımız tapdanmamasın deyə, xalqımız başqalarına

qul olmasın deyə canlarını qurban veriblər. Sizi kimi qəhramanlar olduğu müddətdə vətənimiz, xalqımız var olacaq, – ifadəsini konkretləşdirməli oldu, – yəni sovet xalqı var olacaq!

* * *

Komandir "sizdən könüllü olaraq getmək istəyən varmı?" deyə soruşduqda, bir çoxumuz önə çıxdı, biz qardaşlar da. Alı narazı olsa da komandir məni seçdi. O günü çox sevinmişdim. Birincisi ona görə ki, vətənim uğrunda yenidən kəşfiyyata gedəcəkdim. İkincisi qardaşlarımdan biri yox, məhz mən gedəcəkdim. Yox ki, qəhramanlıq nişanını mən qazanım, onsuz da qazanılan qələbələr hamımızındı, ölümsə gedənindi, məhz buna görə sevinirdim ki, nəsə olsa mənə olacaq. Komandirimiz demişdi ki, bizim kimiləri olduqca ölkəmiz, vətənimiz var olcaq! Canını qurban verən igidləri olan vətən əsla basılmaz və xalqımız azad, xoşbəxt yaşıyacaq! Bu sözləri düşünə-düşünə əməliyyata getmişdim, bu düşüncənin ruh yüksəkliyi məni elə valeh etmişdir ki, bu yolun sonunda ölüm olması haqqında bir an olsun belə düşünmədim.

Mən sabahısı günü axşam tapşırığı yerinə yetirmək üçün meşədəki hissədən ayrıldım. Almanların qərargahını üç gün müşahidə etdim, lazımı məlumatları topladım, lakin geri dönərkən alman kəşfiyyatına yaxalandım. Atışaraq geri çəkildim, meşənin sıldırım qayalarla çəpərlənən yerində dalana düşdüm. Qaçaçaq yer yoxdu, mühasirədə idim. Özümə münasib yer seçib onlarla atışdım. Üç almanı öldürdüm, gülləm qurtarmaq üzrə idi, daha iki almanı qumbara ilə partlatdım. Cəmi iki gülləm və bir qumbaram qalmışdı. Mühasirə çəmbəri getdikcə daralırdı, ildırım surəti ilə ağlımdan keçən fıkiri yerinə yetirmək üçün qumbaranı əlimdə hazır tutdum, onlar məni əsir almaq istəyəndə qumbaranı partlatmaq istəyirdim. Amma elə bu vaxt təlimlərdə öyrədilən bir söz yadıma düşdü: – «Sovet əsgəri əsir düşməkdənsə ölümə üstünlük verməlidir. Lakin siz bilirsiniz ki, siz yalnız əsgər deyilsiniz, siz xüsusiləşdirilmiş desant dəstəsisin kəşfiyyatçılarısınız, əgər siz düşmənin daxilinə sızıb onlara daha böyük ziyan vura biləcəyinizə inanırsınızsa, onda əsir düşüb bu əməliyyatı yerinə yetirməlisiniz». Mən də bu səbəbdən təslim olmağı qərarlaşdırdım.

# ƏSİRLİK

*1943-cü ildə general Vlasov Rusiya azadlıq ordusu tərkibində erməni diviziyası yaratmaq haqqında təklif verdikdə Adolf Hitler etiraz edərək belə demişdir: – «Üç dəfə xəyanət edən (Çar Rusiyası, Osmanlı Türkiyəsi, SSRİ) dördüncü dəfə də xəyanət edər»*
***Rəsmi tarix***

*Təcrübə hər kəsin öz səhvlərinə verdiyi addır.*
**Oskar Uayld**

*Bəs biz o təcrübəni təkralamaqdan nə vaxt əl çəkəçəyik?*

Məni alman qərargahına apardılar. Gözüm bağladığından hara aparıldığımı bilmədim. Üst-başımı yenidən yoxladıqdan sonra məni bir otağa saldılar, qandalımı otağın tən ortasında olan dəmir masaya bağladılar, bir müddət sonra otağa bir alman kapitanı gəldi. Sorğu sual başladı…

...Alman əsgəri dəmir qapını açdı, alman kapıtanı içəri girdi, gözucu Yaşara baxdı, əlinda olan qovluğu masanın üstünə ataraq soruşdu:

– Kimsən?

Yaşar gözünü qaldırıb alman kapitanına tərs bir nəzər saldı, acı-acı gülümsəyərək:

– Sovet əsgəri!

– Sənin millətin yoxdu? – alman zabiti rişxəndlə güldü.

– Biz sizi kimi deyilik, biz mehriban, qardaş sovet ailəsiyik, ona görə də biz artıq millətbazlıq etmirik, biz sovet ailəsiyik! Biz sovet xalqıyıq! – Yaşarın inamı gözündən oxunurdu, amma özü də bilmirdi ki, bu dedikləri onun öz düşüncəsidir, yoxsa nə vaxtsa eşitdiklərinin əks-sədasıdır. Axı insanın xüsusiyyətlərindən biri də məhz budur ki, o dəfələrlə eşitdiyi bir fikiri özününküləşdirir,

onun doğruluğuna şübhə etmir. Uşağın atasına inanması kimi…

– Bura bax, axmaq, anla ki, sənin yaşamağın tək bir halda mümkündür, bizə düzgün məlumat verəsən, əlbəttə ki, bundan da əvvəl gərək hörmətlə danışasan və mənimlə söz bulmacası oynamayasan! Sovet ideologiyasının nə olduğunu yaxşı bilirəm, sizin beyninizə nələr yeridildiyindən yaxşı xəbərim var. Biz almanlarla ruslar arasında bir fərq var, biz ali irqə mənsub olmayanları məhv edirik və bunu açıq aşkar edirik! Sizin fəxrlə danışdığınız Sovet ölkəsi isə sizi asta-asta, beyninizi yuyaraq ruslaşdırırlar. Yəni anlayacağın kimi, biz bəzilərini birbaşa qırırıq, nəticədə almanları dünyaya şah edəcəyik, ruslarsa sizi yavaş-yavaş rusa çevirəcək, nəticədə yenə sizin şahınız olacaq. Bax belə, o üzdən də gəl söz bulmacası danışmayaq. Sən burada harasa tələsmirsən, mən də heç hara getmirəm, axı səni danışdırmaq mənim işimdir, o üzdən də səndən gəldiyin hissələrin harada yerləşdiyini mənə danışmazdan əvvəl gəl dərdləşək, axı biz hər ikimiz biri-birimizi yalnız düşmən kimi tanıyırıq, əslindəsə hər ikimiz insanıq! – O, niyəsə həyatında ilk dəfə idi ki, əsirlə belə tərzdə danışmağı qərarlaşdırdı. O, bu qərara Yaşarı gördükdən sonra gəlmişdi.

– Siz insan olsanız insanlara zülm etməzdiniz, milyonlarla insanı məhv etməzdiniz, müharibə etməzdiniz! Hələ bir insanlıqdan da danışırsınız… – o acı-acı güldü.

– Eh əsgər, sən necə də sadəlövsən! Sən hələ də anlamamısan ki, bu müharibə elə bir şeydir ki, əslində insanlar, daha doğrusu dövlətlər maraqlarını gizlədə bilmirlər və nəticədə soyuq müharibədən odlu-alovlu müharibəyə girişirlər, yəni müharibə insanoğlunun icad etdiyi elə bir haldır ki, bu zaman insanlar, dövlətlər ən təbii üzlərini göstərirlər! Yəni sən bunu anlamırsan? Anlamırsan ki, nəzakət oyunları oynayan insanların müharibə etməsi əslində onların ən səmimi anlarıdır…

– Bu vəhşilikdir, bu insanlığa sığmır! Nə vaxtdan vəhşiliyin adı səmimiyyət olub?! Siz bu sözlərlə sadəcə özünüzə haqq qazandırırsız! – Yaşar özü də bilmədən müzakiriyə girişmişdi, artıq hər şey yaddan çıxmışdı, düşmənçilik, əks sərhədlər, sanki iki alim oturub müharibələrin səbəbini müzakirə edirdi. Sanki onlar arasındakı sərhədləri də, qələbəni də bu söz mübarizəsi təyin edə-

çəkdi.

Alman zabiti əlindəki əlcəkləri çıxarıb masanın üstünə atdı, Yaşarı diqqətlə süzdü, izteza ilə gülümsədi:

– Hıı, vəşilik..., vəhşilik. – anidən gülümsəyən üzü ciddiləşdi, – Sən qəhramanlıq nağıllarını sevən uşaqlara bənzəyirsən əsgər…! Sən heç nəyin mahiyyətini anlamadan boş qəhramanlıq nağılları danışırsan. Bəlkə də sən cəsur bir əsgərsən, amma nə uğrunda vuruşmalı olduğunu və ya nə uğrunda qəhramanlıq etmək lazım olduğu bilmirsən! Sən sadəcə qəhraman olmaq istəyirsən!

Yaşar əsir olduğunu belə düşünmədən, acıqlı halda:

– Səndən dərs almağa niyyətim yoxdur. Ən azından səmimiyyətlə vəhşiliyi ayırd edəcək qədərini bilirəm. Mən yox, sən mənə uşaq nağılı danışırsan, – dedi.

– Doğurdan? – alman zabiti yerində qurcalandı, – Sən axı insan eqoizimi haqqında nə bilirsən ki, insan pisixologiyası haqqında nə biləsən ki?!

– Ən azından insanlıq nədir bilirəm. – Yaşar onun sözünü kəsdi.

– Sən elə bilirsən ki, oddan-alovdan qorxmadan vətən uğrunda rəşadət göstərən əsgərin öz silahdaşları onun paxıllığını çəkmir?!

– Axı niyə olmalıdır?!

Alman zabiti qımışdı:

– Çünki sən davada şücaət göstərərkən səni qədər ürəkli olmayan, qorxusundan gizlənən yoldaşın sənin paxıllığını çəkəcək, axı sən dəstədə hörmət qazandıqca onunla sənin arandakı məsafə durmadan artacaq və… – susaraq Yaşara baxdı:

– Və… nə?! – Yaşar onun susduğunu görüb əsəbləşdi.

– Və o imkan tapandaca sənin quyunu qazacaq, bax bu olacaq sənin üzünə gülən yoldaşının ən səmimi halı.

– Sənin danışdığın cəfəngiyyatdır. Bütün bunların bizim söhbətə nə dəxli var? – Yaşar cavab verməyə başqa söz tapmadı.

Alman zabiti ayağa durdu, əlcək dəstini masanın üstündən götürdü və əlcək olan əlini Yaşara uzadaraq təmkinlə dedi:

– Yaxşı gəl belə danışaq. Əvvəlcə gəl sən mənə adını de, axı sən sovet əsgəri olsan da insansan, sənin bir adın var, mən də

sənə həyatın gərcək üzündən danışım. Razılaşdıq? Görürsənmi mən alman olsam da, səninlə insan kimi davranıram, deməli sənin heç bir səbəb olmadan özünü tərs aparmağın yersizdir.

– Mən heç bir səbəb olmadan tərslik edirəm? Dediyin necə də gülməlidir! Siz xalqların azadlığını əlindən almaq istəyirsiniz! Sizin dünyaya şahlıq etmək istəyiniz bizi bura gətirib! Yersiz ha... – o qımışdı.

– Doğurdan? Mən heç bilmirdim, biz burada nə edirdik? – O, kinayə ilə gülümsədi, – Hıı, – və daha ciddi şəkildə dedi: – Biz nə etdiyimizi sizdən yaxşı bilirik! Amma sən nə bilirsən? Bəlkə sən məni, mənim dövlətimi tanıdığını düşünürsən, bəs sözdə fəhlə dövləti adlanan Sovet dövlətini tanıyırsan?

Yaşar onun belə dolaşıq danışmasından əsəbləşdi:

– Söz bulmacasını sən oynayırsan, mən yox…

– Əsgər sən mənim nə dediyimi belə başa düşmürsən, adınısa qoyursan söz bulmacası…? Söz bulmacası ilə, başa düşməmək fərqli şeylərdir…

– Yəni… – Yaşar söz savaşında bir almana yenilmək istəmirdi və söhbətə davam etdi.

Alman zabiti qaşların dartdı:

– Yaxşı, görürəm ki, sən hümanist hislərə sahib insansan, sən mənə insanlıq dərsi keçirsən, elədir? Mənsə sənə həyat dərsi keçirəm… Hünərimizi göstərək, hə, nə deyirsən?! – alman zabiti qələbəsindən əmin tərzdə güldü.

– … – Yaşar alman zabitinin məqsədini anlaya bilmirdi, tək bildiyi bu idi ki, o Yaşarı söz tələsinə salmaq istəyirdi, ona görə də susdu.

– Niyə susrsan, sən mənə insanlıq dərsi keçirsən elə deyil?

Yaşar əsəbi halda:

– Sizin etdikləriniz insanlığa sığmır! Bunu mən desəm də elədir, deməsəm də…

– Mən də onu deyirəm də, demək sən insanlığın necə olduğunu zənnincə bilirsən?

– Hə… bilirəm! – Yaşar qəti şəkildə bildirdi.

– Mən də deyirəm ki, gəl mənə də, özünə də isbat et görək, iki insan, yəni sən və mən sınayaq görək, sənin dediyin kimi, in-

san kimi sözlə anlaşa bilirikmi? Və ya insanlıq nədir?

– Sən qarışıq danışıb məni tələyə salmaq istəyirsən? Alınan deyil!

Alman zabiti gülərək oturdu, sonra bir ayağını digər ayağının üstünə ataraq:

– Mən ki, hələ səninlə alman zabiti kimi danışmıram, sizinkilərin yerini də soruşmuram! Əgər tələdirsə aldanma, amma susmaq özü də insanlığa layiq deyil. İnsanlığın bir şərti də ona verilən suala cavab vermək deyilmi?! – gülərək əlini havaya qaldırdı, – Müharibə, müharibə… Müharibə nədir? İnsanlar sözlə anlaşa bilmir, sözlə istəklərinə, maraqlarına sərhəd təyin edə bilmir və ya sərhəd təyin etdirə bilmir, beləcə söz öz mənasını itirir, nəticədə müharibə olur, – güldü. – Elə müharibənin birinci səbəbi dialoqu tərs aparmaqla başlayır, elə deyilmi? Hə, müharibəni pisləyən sovet əsgəri, səninləyəm? Buyur danış.

– Mənim və ya sənin burada danışmağın nəyi həll edəcək ki? – Çiyinlərini çəkdi, – Heç nəyi. Həm də nə olsun ki, sən mənə alman zabiti kimi üzünü göstərmirsən, əvvəl-axır ö üzünü göstərəcən ki…

– Bunu nə bilmək olar? Mən ki, indi sənə insan üzümü göstərirəm, sıra səndədir? Bu danışıq ən azından səninlə mənim münasibətimi həll edəcək. Həm də sən mənə insanlığı başa salmalısan… – Gülümsündü və bir əlinin barmaqlarını digər əlinin barmaqlarına vuraraq Yaşara baxdı, – görək kim haqlıdır?

– Məndən nə istəyirsən? – Yaşar hələ də alman zabitinin nə oyun oynadığını anlaya bilmədiyindən bu sualı verdi.

– İnsanlıq nədir? Sən bayaqdan insanlıqdan danışırsan, elə deyil?

– Hə!

– Gəl görək insanlıq nədir? Burada hər ikimizin silahı sözdür, görək iki nəfər insan kimi danışa bilirmi, problemi sözlə həll edə bilirmi?

– Başla! – Yaşar alman zabitinin gözlərinin içinə baxaraq dedi.

– Hə… insanoğlu adın nədir?

– Sənin adın nədir?

Alman zabiti gülümsədi:

– Mənim adım Ottodur. Amma sən insanın icad etdiyi nəzakət qaydalarını pozdun, ilk əvvəl sən adını deyib, sonra mənim adımı soruşmalı idin! Amma sən insan olduğunu unudaraq intiqam hissinə qapıldın, ilk həmlədəcə söz savaşının hücumu olan ədəbsizliyi etdin! Bax belə işlər, sən insanoğlunun genlə gələn qabiliyyətlərindən birini numayiş etdirdin! – Yenə bu oyundan qalib çıxacağına əmin halda gülərək; – Eh insanlıq, insanlıq, niyəsə hamı dara düşəndə səndən danışır, amma hamı da ilk andaca digər insanları məhv etməyə çalışır…

– Adım Yaşardır, – o, son cümləni eşitməzliyə vuraraq adını dedi.

– Yaşar, Yaşar, sən söz savaşında məni əzmək istədin! Nə fərqi var, insanlığı kim necə pozur, axı indi sənin tək silahın sözdü, gör başqa silahın olsa nə edərdin? Məni də əzərdin, öldürərdin…

– Yaxşı Otto, bir xal sənin xeyrinə! – Yaşar günahını boynuna aldı.

Alman kapitanı gülümsəyib razılıq əlaməti olaraq başını yellədi:

– Sənin niyə görə adın var? – deyə soruşdu.

– Gülməli sualdır, hər insanın adı var! Ad insanları insanlıqda fərdləşdirir!

– Demək adlar insanları biri-birindən ayırır? Düz başa düşdüm? – alman zabiti tam sakitliklə və guya ki, Yaşarın dediklərini bilmircəsinə sual verdi.

– Əlbəttə, hər fərdin, hər kəsin bir adı olmalıdır. Burada başa düşülməyən nə var ki?

– Niyə soruşduğumu qabaqda görəcəksən. İnsanlar keçmişdə adı necə qazanırdı, bilirsənmi?

– Niyə bilmirəm ki, hünər göstərirdi, hünərinə görə də ad qazanırdı! – Yaşar qımışdı.

Alman zabiti də əvəzində gülümsəyərək sualını verdi:

– Yəni ov ovlayırdı? Savaşırdı? Hə, bu cür hünər göstərirdi?

– Hə! – Yaşar qəti şəkildə təsdiqlədi.

– Başqa?

– Düşmənləri öldürürdü, yəqin ki…

– Hə, bax bu başqa məsələ. Bu səmimi söhbət olacaq. – Otto diqqətlə Yaşarın üzünə baxdı, – Bir ad üçün heyvanı öldürmək, insanı öldürmək insanlıqdırmı?

– Bizim hökümət dini inkar edir, amma mən buna din ilə cavab verəcəm. Olar?

– Buyur, mən də Allaha inanıram. – Otto razılıq əlaməti olaraq başını yırğaladı.

– Allah heyvanları onlardan qidalanmaq üçün yaradıb, elə deyil?

– Bəs insanları öldürmək? – deyə Otto dodaqlarını büzərək soruşdu.

– Mən Quranı oxumamışam, çünki mən uşaqkən din qadağan olmuşdu, amma uşaqlıqda eşitdiyimə görə insan öldürmək olmaz, amma səndən birini öldürsələr qisas ala bilərsən! Quranda deyilir ki, sənlə savaşanlarla sən də Allah yolunda savaş, amma həddi aşma! Və Quran deyir ki, zülmə baş əymək olmaz!

– Hə sən məni kənara sıxışdırdın. Mən səmimi olacam, deyim ki, mən səni dolayı yolla mat qoyacam. Belə ki, sən inandığın dovlət dini qadağan edib, yəni sən sovet əsgəri olduğuna görə dinə əsaslanaraq verdiyin cavab keçərsizdir. Düz demirəm?

– … – Yaşar susdu.

Otto cavab gəlmədiyini görüb əlavə etdi:

– Yəni sən ya sovet ideologiyasına uyğun olaraq dini, Allahı inkar etməlisən, ya sovet ideologiyasını, yəni demək istədiyim budur ki, – boynunu xırçıldatdı, – sən sovet idyologiyasına bağlı olan materialist olaraq, ateist olaraq de görək, insan öldürmək insanlıqdırmı? Yox Allaha inanırsansa, onda de görək, dinin qadağan olması insanlıqdırmı? Digər tərəfdən insanın inancı ilə oynamaq insanlıqdırmı? Amma mən bunun cavabını istəmirəm, çünki səmimiliyinə inandığımdan, bilirəm deyəcəksən ki, ölkəndə bu halın olması, Allahın inkar edilməsi ən azından xoşa gəlməzdir, bu insanlıq deyil. Amma bu dolayı yol olduğundan mən sənin sualına qayıdıram. Razılaşdıq? – Otto özündən razı halda gülümsədi.

– Yaxşı, dediklərinlə razı! – Yaşar Ottonun fikirləri ilə razılaşmağa məcbur oldu və düşündü görəsən ziddiyyət nədədir və

ya kimdədir?

– Demək Allah da buyurur ki, insanlar tək sözlə biri-birini anlamır və bəzən güc də tətbiq etməlisən! Münasibətlərin tarazlaşması üçün Tanrı belə gücün tətbiq edilməsinin gərəkli olduğunu deyir, hə?!

– Hə, amma bunun zülmə dəxli yoxdur!

– Amma körpələr sənin sözünə baxmayanda, onlar nəsə səhv edəndə, onların yanına şillə vurursan, hə?

– Hə bəzən! – Yaşar sərrast suallar qarşısında deyilənləri təsdiqlədi.

– Yəni insanın səbri kəmdir! Din özü deyir ki, insanlar nəfsinə görə zülm edir, amma etməməlidir, amma edəcəklər, bu səbəbdən də cəhənnəm ağzınacan kafirlərlə dolacaq!

– Hə.

– Yəni Allah belə deyir ki, insanlar məni anlamayacaq və nəfsi uğrunda zülmlər edəcək! Tamah yolunda biri-birini qıracaq. Elə deyil? – Otto sualını verib diqqətlə Yaşara baxdı:

– Hə!

– Yaşar, indi de görüm sən hansı yolu seçirsən? Sovet hökümətinin dini qadağan etməsini qəbul edərək, oyunu ateist kimi davam edəcəksən? Yoxsa dini qəbul edib… – çiyinlərini çəkərək uşaqlara xas təəcüblə Yaşarın üzünə baxdı, – Seç.

– Bunun söhbətə nə dəxli var?

– Əslində mən səni qabaqlamaq üçün bu sualımın səbəbini deməməliyəm, amma səmimi olacam!

– Eşidirəm…

– Çünki sən dini, Allahı qəbul edirsənsə demək onda sənin inandığın Sovet höküməti yaxşı hökümət deyil! Çünki yaxşı olsa Allah deyərdi ki, insan sonralar zülm görməyəcək, axı Sovet dövləti sözdə buna təminat verir. Qiyamətin olacağına inanırıqsa, demək ki sovetlərin bu təminatı boş sözdür. – Gülümsündü, -Yox desən ki, ateist kimi oyuna davam etmək istəyirəm, onda yenə uduzursan. Allahı inkar etmək insanlıqdırmı?

– Otto, məni çaşdırma, hökümətin yaxşı olması hələ insanların hamısının yaxşı olması demək deyil!

Otto alnını ovuşdurdu, bir neçə andan sonra dedi:

– Nə olsun ki, o dövlətin başındakılar da insandır, sözündən belə çıxır ki, sizin rəhbərlərdə insan olaraq ölkəni və ya sizi aldatması mümkündür, necə ki, elə də edirlər!

– Bu haradan çıxdı ki, onlar bizi aldadır?!

– Bu sonraki sualdır Yaşar, sən əvvəl uduzduğunu qəbul edirsənmi, bu söz müharibəsində!

– Nəyə görə uduzmuşam ki?!

– Allaha inanırsan, amma dövlətiniz sənin Allahını inkar edir, Quranı oxumağa qoymur! Digər tərəfdən də Allahın vəyhlərindən də məlum olur ki, insanın tamah sahibi olması sonsuzacandır, qiyamətəcəndir! Mənə insanlıqdan dərs deyən dostum, mənsə sənə demişdim ki, insanlıqdan danışdıqların nağıldır, əslində vəhşiliklər insanın təbiətindədir, yəni insanın ən səmimi olduğu hal vəhşilik etdiyi andır! Bu baxımdan insanlıq sözdə olduğu kimi, bir kəlməylə qavranılacaq məhfum deyil.

– Ola bilər ki, sənin suallarını cavablamaq olar, amma mən bunu edə bilmirəm və təslim oluram! Sualıma cavab verirsənmi?

– Hə cavab verirəm! Amma əvvəlcə de görüm, deyirsən Quranda deyilir ki, zülmə baş əymək olmaz, hə?

– Hə elədir?

– Sənin dininin, Allahının inkar edilməsi zülm deyilmi? Siz müsəlmanlar bəs buna niyə baş əyirsiniz? Bunu edənlərin əməli insanlıqdırmı, haqdırmı? Ya sizin bu əməllər qarşısında susmanız insanlıqdırmı, haqdırmı?

– Mən bu sualın başqa formasında təslim olduğumu dedim. – Yaşar sözdə bunu desə də, düşdüyü vəziyyətə görə və ziddiyyətlərin nədə olduğunu qavarya bilmədiyindən əsəbləşirdi. Axı azadlıqdan, insanlıqdan danışan sovetləri o müdafiə edə bilmirdi, ziddiyət kimdə idi, onda, ya sovet idyologiyasında? Bax o bunu qavraya bilmirdi.

Otto əl barmaqlarını biri-birinə vuraraq dedi:

– Yaxşı, bu sualdan keçirəm. Sən Quran əhlindənsən, yəni müsəlimansan, ruslarsa xristiandır, demək onlar sizin torpaqları işğal ediblər! Elə deyil?

– Burada işğaldan söhbət belə gedə bilməz! Onlar bizə qardaşlıq gətirib! Bütün ölkələrin fəhlələri həmrəydir, özü üçün işləyir! Sovet hökuməti istismarçı qüvvələri bizim ölkədən qovub!

Alman zabiti ucadan qəh-qəhə çəkdi və dedi:

– Yox görürsənmi, onlar səni aldadıb! Onlar istismarçı qüvvəni qovmayıb, sadəcə yenisi ilə əvəz edib. Onlar, yəni komministlər sosialist ideyalarına uyğun hərəkət etmirlər, bütün dövlətlər kimi. Onlar da insanları siyasi idealogiyaları ilə aldadır, istədiklərini edirlər. Əvvəl sizə Çar Rusyası hegamonluq edirdi, indisə Sovet Rusyası. Eynidir, dəyişən heç nə yoxdur. Sadəcə insanları yuxuya verən yalanlar bir az dəyişdirilib, zamana uyğun, bu qədər.

– Necə yəni? – Yaşar gülümsəyərək, alman zabitinə inanmadığını göstərmək istəyirdi. Amma qəlbi şiddətlə döyünməyə başlamışdı.

– Yəni zaman keçdikcə insanlar köhnə siyasi hiylələri anlayır və bu siyasi hiylələr anlaşıldıqca dövlət onu yenisi ilə əvəzləyərək, insanları yenidən aladaraq istismar edir. Komminizimdə insanları istismar etmənin yeni formasıdır.

– Niyə ki, biz ayrıca respublikayıq, öz komminist partiyamız var, respublikamızın öz katibi var. Öz yazıçılarımız var.

– Nə olsun? Dediyin bu azadlıq rəmzləri simvolikdir. Yaşar, bütün dövrlərdə və bütün dövlətlərdə bu belə olmuşdur. Yəni böyük imperiya işğal etdiyi yerlərdə ona sədaqətlə işləyəcək yerliləri hakimiyyətə gətirir və yerlilərin bir xeylisinə güzaran verir və o xoş güzərana satılanlar əslində millətini, milli mənliyini sataraq yemək üçün, var-dövlət üçün öz millətinə xəyanət edir. Bu bilirsənmi nəyə oxşayır, sən bir iti böyüdürsən, ona çörək verirsən və o öz çörəyi üçün evə gələn hər kəsə hürür, qapır, hətta öz soydaşı olan itlər gəlsə belə. – susub, Yaşarın gözlərinə baxdı və dedi; – Yerli yazıçılar tarix boyu olub, necə ki, saray şairləri xalqı aldadır, gözdən pərdə asır, hakimiyyəti tərifləyir. Əgər haqqı yazan yazıçıcı varsa, dövlət onu vətən xaini adı ilə öldürür, – Otto əminliklə gülümsədi, – qurtardı. Yəni anlayacağın kimi xalqı həqiqi mənada sevən və xalqının qanının sovrulmasıyla barışmayan yazıçının, ziyalının və ya sadəcə vətənini sevən birinin ağzını

birdəfəlik yumurlar, elələrinin ömürü uzun olmur, əsərləri it-bata düşür. Axı onlar danışsa xalqın qanını sovuranlar ifşa olunar! Millətlə dövlət həmişə eyni tərəfdə olmur! İnsanların insanlığı budur. – Otto başı ilə öz dediklərini təsdiqlədi.

– Doğurdan da bu dediklərin tarix boyu olan bütün dövlətlərdə olub, mən səninlə razıyam. Bunu yoldaş Lenin də demişdir ki, tarix boyu var olan bütün dövlətlər xalqları istismar etməklə məşğul olmuşdur, bizsə bu gün yeni cəmiyyət yaradırıq. Azərbaycanlılar satqın deyil, bununla isə razılaşa bilmərəm. Xalqımın yazıçıları və ziyalıları xalqı satmaz, əgər Sovetlər sən deyən kimi olsa idi, Azərbaycan ziyalıları xalqı hər hansı bir yollasa ayağa qaldırardı.

Alaman zabiti yenidən gülümsəyərək əl calmağa başladı:

– Xalq, xalq! Xalq hədəfi bəlli olmayan kütlədir! Xalq rəhbəri varkən çox güclü olur, başsız olarkən isə aciz kütləyə çevrilir. Yazıçı və kütlə, – başı ilə etiraz edərək dedi, – yox yazıçı ilə kütlə heç nəyə qadir deyil, heç nəyi həll edə bilməz! Xalq yalnız dahi bir rəhbərin arxasınca gedərək nəyəsə çata bilər və yalnız o zaman əsl yazıçıların yazdıqları bir şeyə yarayar. – Yaşarın üzünə baxdı – Azərbaycanlı, anlayırsan məni?

– Hə, bu dediklərin bizim komminist cəmiyyətinə xasdır. – Yaşar fəxrlə təsdiqlədi.

– Təbrik edirəm səni qurulmuş yeni cəmiyyətiniz münasibəti ilə türkoğlu… Azərbaycan türkü!– Bu sözü mehribancasına dedi. – Ey türk, ziyalı dediyin kimdir, güc olmadan savad heçdir! Güc olmadan haqq nəyə yarayır?! Heç nəyə. Və unutma ki, çox az insan gücə baş əymədən haqq yolunda savaşır, amma haqq yolunda savaşanlar nadir halda qələbə qazanır, ona görə də kimsə haqqı sevmir, axı haqq deyənlərin sonu ölüm olur.

– Mən türk deyiləm, Mən azərbaycanlıyam! Bir də ki, yeni qurulmuş cəmiyyətin varlığını bütün dünya bilir, sən buna rişxənd etsən də…

– Demək sizin beyninizi bu qədər yuyublar! Siz artıq özünüzü türk belə adlandırmırsınız?! Hətta yeni qurulmuş, bütün millətlərin bərabər yaşayacağı bir cəmiyyət uydurmasına inanırsınız?

Hətta sizin başınıza gətirilən oyunlardan xəbəriniz belə yoxdur? Yox, Sovet Rusuyası qısa zamanda çox iş görüb…, bizsə onların siyasətini zəif hesab edirdik…!

– Mən türk  deyiləm. – Elə bu anda uşaq vaxtı atasının özlərini türk adlandırdığı yadına düşdü, bunun üzündən oxunacağından qorxurmuşcasına qışqırdı, – Yetər, mən daha bu oyunu oynaya bilmirəm. – Yaşar Ottonun həqiqətlərə oxşar faktlarından qaçmaq istəyirdi. Yanıldığına, aldadıldığına inanmaq istəməyən bütün insanlar kimi.

– Niyə həqiqətləri qəbul etmək istəmirsən? Doğurdan da bir filosof yaxşı deyib ki, «görən insanlar mütləq həqiqəti görə bilsəydi,  necə olardı, yaşamaq istəyən insan qalardımı?».

– Ola bilməz?

– Nə ola bilməz, sizin  ziyalıların sizi satması? – Otto yerində qurcalanaraq dedi.

– Kim deyir satıb? – Yaşar hövsələdən çıxmış halda soruşdu.

– Bəs nə oldu, onda daha nə deyirsən? Niyə əsəbləşirsən?

– Mən ziyalılırımıza inanıram. Onlar millətini satmaz!

– Əlbəttə millətini sevən insan millətini güdaza verməz. – Yaşarın üzünə baxaraq, – Yox, mən  yaşayan ziyalılarınızı demirəm, mən biləni sizin ziyalılardan coxunu 1937-də qırıblar. Yazıçı, şair, ziyalılar hamısını qırıblar, hansılar ki, sovet oyununa boyun əyməyib. 40 min nəfərdən çox ziyalınızı məhv ediblər,  ailələri ilə bir yerdə onlar 300-400 min nəfər edir. Bu rəsmi sənədlərdə olanlardır. Əlbəttə o vaxtlar  sizdə  əhalinin statistik məlumatları dəqiq olmadığından, dəqiq statistik hesablama  aparılmadığından  bəlkə də bu rəqəm daha çoxdur. Mən hələ Sovet Rusuyasının Azərbaycanda qurulduğu vaxtdan 1937-ci iləcən qırdıqlarını  demirəm! Onları da saysaq gör…

– Yalan danışma, sən bunları haradan bilirsən? – o, Ottonun sözünü kəsdi.

– Ona görə bilirəm ki, sizin keçmiş dövlət rəhbəriniz Məmməd Əmin Rəsulzadə bizimlə əməkdaşlıq edirdi…

– Mən onu tanımıram.

– O, 1918-1920-ci illərdə Azərbaycan cumhiriyyətinə rəhbərlik edib, sonra Sovet Rusiyası Azərbaycanı işğal edib.

Yaşar Ottonun dedikləri ilə yaşadığı tarix arasında ziddiyyətdən təngə gəlmişdi, bir cavab tapmaq istəyirdi. Ancaq deyəcək bir söz də tapmırdı. Otto onun susduğunu görüb danışığına davam etdi:

– Siz türklərin qırılmasının böyük dalğası olan «37-ci il represiyası» xalqınızın bütün düşünən beyinlərini məhv etdi. Geri qalanlarsa susmağa məcbur oldu. Bu siyahıya kimlər daxil edilməmişdir ki, hər hansı xarici dili bilən adamlardan tutmuş ziyalılaracan, hətta kənddə savadlısından bir balaca hörməti olan adamlaracan, müsuqiçisindən hərbiçilərəcən bütün düşününən beyinləri qırdılar! Bilirsənmi niyə?

– Niyə? – Yaşar əsəbdən pörtmüşdü, amma özü də bilmirdi kimə əsəbləşib.

– Buna «orta və böyük fiqurları» məhv etmə siyasəti deyirlər!

– Səbəb?

– Sizin qurtarıcınız ola biləcək, əsl rəhbərə çevrilə biləcək bütün fiqurları məhv etmək üçün! – Otto əminliklə dedi.

– Bir şey başa düşmədim.

– Belə deyim, xalq eyni qanı daşıyan yüzlərlənin-milyonlarlanın cəmidir və bu insanları biri-birinə bağlayan, biri-biri ilə əlaqələndirən milli, siyasi, dini, ailəvi qruplar var.

– Bir şey anlamadım. – Yaşar əsəbi halda dedi.

Otto onun əsəbləşməsinə niyəsə gülümsədi:

– Yaxşı, daha da xırdalayaq! Millətin nədir?

Yaşar bu sualın hər hansısa məntiqə dayandığını anladığından əsəbini boğmağa çalışaraq dedi:

– Azərbaycanlıyam.

– Bax bir vaxtlar milli çərçivəni aşaraq böyük bir dini qrupda toplaşdınız, bu qrup müsəlmanlardı...

– Yəni…? – Ottonun sözünü kəsərək soruşdu.

– Yəni sizin belə bir qrupda toplaşmağınız başqa qrupları qorxutdu və onlar bu islam qrupunu məhv etmək istədikdə türk qılıncı buna mane oldu, İslamı qoruyan bu “türk qalxanının” adı Səlcuqlu oldu, Osmanlı oldu. – O dodaqlarını gəmirərək sözünə davam etdi. – O zamandan bu böyük qrupu, İslam qurupunu hərb

meydanından kənarda məhv etmənin yollarını axtardılar, yəni İslamı və onun TÜRK ordusunu məhv etmənin siyasi, ideoloji yollarını axtardılar! Bunun üçünsə İslam qrupunun qoruyucu və aparıçı qüvvəsi olan türkləri məhv etmək lazımdı. İslamın bölündüyü iki qrup olan şiyə və sünlü cərəyanlarından istifadə edərək qələbə qazanıldı. Bunun davamı kimi, TÜRK qrupunu xırda qruplara bölməyə başladılar, məsələn siz qızılbaş qrupusuz, onlar osmanlı qrupudur, kimi. Sonra qızılbaşları iki Azərbaycana böldülər. Bütün xristian dövlətləri indiki Türkiyə və Azərbaycan türklərini bölmək üçün bu regionda süni bir xristian dövləti qurmaq istədi, 1828-ci ildə siz qızılbaşlar, 1829-cu ildə isə Osmalı Çar Rusiyasına məğlub oldu, bütün xristian dövlətlərinin də dəstəyi ilə sülh müqaviləsinin bir bəndinə əsasən Suriyada, Fələstində, Livanda, İraqda yaşayan haylar Trabzona və İravana köçürüldü, nəticədə indiki Ermənistan dövləti quruldu. Harda qurdular bu dövləti? Sizin torpaqlarda. – Otta başını yellədi, – Bax budur rus qardaşlığı, sovet qardaşlığı?! Bilirdin bunları? – özü də cavabladı, -Yox! Çünkü bunu tarixini bilən hər kəsinizi məhv ediblər!

– Dayan, bir dəqiqə? Siz də xristian dövlətisiniz? Bunları niyə danışırsan?!

– Yaşar düz deyirsən biz də xristiyanıq, amma bir faktı qaçırdırsan. I Dünya müharibəsi zamanı Osmanlı və biz almanlar müttəfiq idik və biz ikimiz digər xristian ölkələrinə qarşı savaşırdıq, amma təəsüf ki, məğlub olduq. I Dünya müharibəsi zamanı həm Çar Rusiyası, həm fransızlar, həm ingilislər hayları silahlandıraraq Suriya ətrafından sizin torpaqlara gətirdilər. –Yaşarın üzünə baxdı, dodağını gəmirərək dedi: – Təsəvvür edirsən 100 minlərlə hayı silahlandıraraq sizin torpaqlara gətiriblər?

– Amma I Dünya müharibəsi ki bitdi… – Yaşar eşitdiklərini təsəvvürünə gətirərək əsəbləşmişdi və sanki etiraz etsə hər şey düzələcəkdi.

– Hə, I Dünya müharibəsi bitdi, Mustafa Kamal paşanın, – Atatürkü nəzərdə tuturdu, – direnişi ilə hamı ordusunu götürüb geri çəkildi, amma onların silahlandırdığı hay dəstələri sizin torpaqlara, İravan ərazisinə keçdi. – O Qərbi Azərbaycanda İravan, Zəngəzur ərazilərini nəzərdə tuturdu, – Və yenə həmin rusun, in-

gilisin, fransanın köməyi ilə Ermənistan dövlətini qurdular. – Yaşarın tutulduğunu görüb əlavə etdi, – Yüz minlərlə türkü qıraraq qurdular bu dövləti, başa düşürsən?!

Yaşarın ürəyi ağzına gəlsə də, eşitdiklərinə inanmaq istəmirdi:

– Axı sənin sözünə inansaq belə, 1937-ci ildə bizim xalqı qıran sovet hökuməti ilə bu dediyin tarixin nə əlaqəsi?! – Ottoya baxdı, – Sən gah bizdən danışdın, gah qızılbaş dedin, gah Azərbaycan dedin, gah Osmanlı dedin… Bütün aləm qarışdı biri-birinə…

Otto dodağını çeynədi, Yaşarı süzərək cavab verdi:

– Yaşar görürsənmi, heç nədən xəbərin yoxdur. – Yaşara baxıb niyəsə qəribə doğmalıqla gülümsündü, – amma dediklərimlə gördüklərini bir araya gətirəndə görürsən ki mənzərə fərqlidir, sovetlərin dediyi kimi deyil. Onlar hayları bir ilan kimi qoynunuza soxub, sizi parçalayıblar, amma sovetlər bununla da qane olmayıb, onlar 1828-ci ildə ikiyə parçaladığı Azərbaycanı yenidən çoğrafi və siyasi sərhədlərə bölüb…

– Coğrafi, siyası sərhədlər? Başa düşmədim.

– Onlar sizi İranda, Əfqanıstanda, Suriyada, İraqda, Gürcüstanda, İravanda, Dərbənddə və Azərbaycanda yaşayan qruplara bölüb.

– Kimləri, türkləri?

– Azərbaycan türkləri desək daha doğru olar!

– Başa düşmədim, bütün bu sərhədlərdə yaşayanlar, azərbaycanlılar kimi danışır və eyni qandır? – Yaşar udqunaraq soruşdu.

-Hə. Amma bu qruplar belə özlüyündə böyük qruplardı. Və ən əsası bu qruplarda keçmişini unutmayan beyinlər vardı, bu beyinlər içindən sizin gələcək qurtarıcı rəhbəriniz yetişə bilərdi. Məsələn islama inanan kiçik qruplar yenidən birləşə bilərdi, millətini sevən kiçik qruplar yenidən birləşə bilərdi, vahid lider yarana bilərdi, bax ona görə də bu kiçik qrupların liderlərini də məhv etdilər. Yəni onlar sizin kiçik və orta fiqurlarınızı belə məhv edib. Məsələn, sən türk olduğunu unutmusan, eyni ilə xristian olan erməni türkləri türk olduğunu unudub, özünü hay hesab edir. – Başını buladı, – yox, Sovet Rusiyası doğurdan da böyük

iş görüb…

– Kiçik qruplar deyəndə nəyi nəzərdə tutursan ki?! – Yaşar keyimişdi, artıq nə yadına düşürdü ki, Otta bir alman zabitidir və ya o Sovet kəşviyyatçısıdır.

– Məsələn sizin kəndi götürək, icazə verirsən? – Otto gülümsəyərək soruşdu.

– Məsələn, buyur!

– Kəndinizdə camaatın hörmət etdiyi, nümunə götürdüyü, məsləhətə yanına getdiyi dindar adamlar vardımı və ya qəhrəman hesab etdiyiniz qolu zorlusu vardımı?

– Əlbəttə. – Yaşar fəxrlə dedi.

– Sovet dövləti qurulduqdan sonra nə oldu o adamlara, o adamların ailəsinə, o adamların dostlarına? – Otto elə əminliklə danışırdı ki, sanki o kəndin başına gələnləri öz gözləri ilə izləmişdir.

Yaşar Ottonun belə əminliklə danışmasından əsəbləşdi, onun dediklərini inkar etmək üçün dəlillər aradı, bir anlıq düşündü, üzündəki qüruru kədər əvəz etdi, astadan pıçıldadı:

– Artıq onlar yoxdu… – əsəbi ilə kədəri, qəzəbi ilə acizliyi biri-birinə qarışmışdı.

Otto qəribə tərzdə gülümsədi, sanki onun Yaşara yazığı gəldi:

– Yəni öldürüldülər?! – Yaşarın etirafını gözləmədən əlavə etdi, – Bəs kəndinizdə sayıb-seçilən, vurub-tutan, millət qeyrəti çəkənlər vardımı?

– Şübhəsiz! – Yaşar bu dəfə Ottonun sualını gözləmədən onların sonunu düşündü və kədərlə dedi, – Onlar da yoxdur!

– Bax o adamlar xalqın fərdlərini kiçik və qismən böyük qruplarda birləşdirirdi və bu zincirləmə, bu qruplaşma son nəticədə daha böyük qrupları təşkil edir. Belə adamlara kiçik, orta, böyük, daha böyük fiqurlar və nəhayət öndərlər deyirlər. Ruslar bax o fiqurları, millətin son ümidi olan fiqurları belə məhv edib! Yerinə isə saxta fıqurlar qoyacaqlar ki, sizi istədiyi yola sürükləsinlər!

– Mən sənə niyə inanmalıyam ki? – Yaşar deyilənlərin məntiqi altında əzilərək soruşdu.

– Çünki sizin, yəni Azərbaycanın ən böyük fiquru, ən böyük siyasi-milli öndəri Məmməd Əmin Rəsulzadə bizim tərəfimiz-

də sizin uğurunuzda vuruşur!  Axı Azərbaycanın Sovetlərin işğalından alınması üçün, bizim tərkibimizdə «Azərbaycan milli legionu» yaradılıb. Orada minlərlə azərbaycan türkü var.   Və sən, sizi xəbərdar etmək istəyən ziyalı və yazıçıları onların içində axtarmalısan! O ziyalılar ki, Sovetlər onları vətən xaini adlandırıb. Sovet cəbhəsində yaşıyan ziyalılarınızsa ya onlara satılıb, ya qorxusundan susur! Bax belə!

– Bunlar daha çox yalana oxşayır! – Yaşar eşitdiklərinə inanmaq istəmirdi.

– Yox əzizim sənin inkar etməyin həqiqəti dəyişməyəcək. Qaldı ki,  müharibələrə, güclü daim zəifi əzmək istəyir. Tarix həmişə belə olub. Ruslar Bakı neftinin hesabına bizimlə vuruşur, nədir, sabah buna görə sizə sağ ol deyəcək?! Güclülər  sonra minnətli olduqlarını aradan götürür. Bu da tarixi bir faktdır.

–  Sovet dövləti bütün vuruşanlara medal verir, azərbaycanılıra da. – Yaşar Ottonun iddialarını bu cümləylə məhv etmək istədi.

– Hər dövlət onun üçün vuruşana medal verir, ona qarşı olana düşmən deyir, burada nə var ki?! Biz də bizim  üçün vuruşub hünər göstərən Azərbaycan türklərinə və başqalarına medal veririk. Nə olsun? – qəribə dürüstlüklə cavabladı.

– Siz bizim torpaqları işğal edirsiniz!

– Yetər Yaşar, özünü uşaq kimi aparırsan. Axı özün dedin ki, öz vətənində Allahın adını çəkə bilmirsən, sənin vətənin artıq işğal olunub!  Vətəninin yarsı ona buna verilib. Azərbaycanın yarısı haya, yarısını gürcüyə veriblər, yarısı Rusun özündədir. Cənubi Azərbaycanda türk hakimiyyətinə son qoyub, farslara veriblər, adını İran ediblər. Nə vətənbazlığı salmısan? Göz qabağındadır da sənin vətənin! Bundan da betər işğal olar?! – Otto ayağa qalxdı və bir az var-gəl etdi.

Yaşarın imkanı olsa ağlayardı, amma nə ağlamaq yeri idi, nə güvənmək zamanı idi, pıçıldadı:

-     Bu söhbəti bitirək…

Otto onun pıçıltısını eşitməməzliyə vuraraq dedi:

– Sizin  rəhbəriniz Məmməd Əmin Rəsulzadəylə bizim rəhbərimiz, alman xalqının dahi qəhramanı Adolf Hitler danışıb və

vahid Azərbaycan dövləti olacaqsınız, bundan sonra vətəndən danışarsan, indisə sənin vətənin onun bunun əlindədir. Bütün türk millətləri bir dövlət tərkibində birləşəcək, keçmiş dövrlərdəki kimi vahid Türküstan dövləti olacaq, daha SSRİ tərkibində çırtdan dövlət yox. Başa düşürsən, bizimlə bir olsanız bütöv Azərbaycan olacaqsınız. Daha indiki kimi yox. – Yaşarın susduğunu görüb danışmağa davam etdi, – 162-ci diviziyada vuruşanlar türklərdir, azərbaycan legionu bu diviziyanın bir hissəsidir və onların tək bir məqsədi var, Azərbaycanı, vətənlərini ruslardan almaq! Eşidirsən, rusun parçaldığı vətəni almaq lazımdır?! – yaxınlaşıb əyilərək əllərini masanın üzərinə qoydu, – Bizim dövlət Rusiyanın parcaladığı türk millətini bir arada toplayacaq, bu bilirsənmi nə deməkdir?! Şimalli, cənublu, İravanlı, Borcalılı bütöv Azərbaycan, Orta Asiya, Qazaxıstan, Başqırdıstan, Tatarıstan, Krım, Şımalı Qafqaz, Qərbi Çin və Əfqanıstan Böyük Türküstan dövləti olacaq. Yəni parcalanmış türk milləti yenidən vahid bir sistem içində yaşıyacaq! Yaşar bu bilirsənmi nə deməkdir? Bunu anlayan hər bir millət bac belə verər ki, millətimi yenidən bir sistem daxilində toplayın. Bunusa siz türklərə yalnız biz vəd edirik! – barmaqları ilə masanı döyəclədi, – Ruslar sizi tək işğal etməyib, beyninizi, ruhunuzu yox edib! Eşidirsən Yaşar?! Budur sənin vətən sevgin?

– Yox mən sənə inanmıram! – Yaşarın bütün əsəbi tarıma çəkilmişdi, amma özü də bilmirdi niyə və kimə əsəbləşib.

– Qəribədir, – alman zabiti səsini ucaltdı, – nəyə mənə inanmırsan. Mənə inanmağın lazım deyil. Həqiqətlərə inanmaq lazımdır. Mən sənə insanların maraqları uğrunda nə etdiklərini dedim, yəqin sən də daim bunun şahidi olmusan. Mən sənə əsl həqiqətin necə olduğunu dedim və istəyirəm ki, bayaq özünün dediyin kimi, insanlıq üçün həqiqəti görüb yolunu seçəsən.

– Mən sənin dediklərinin doğruluğunu haradan bilim?

– Azərbaycan milli legionunun komandiri Fətəlibəylinin yaxın dostu Zəfər bəy bura gələcək. Özün öz gözünlə görərsən!

– Mən haradan bilim ki, onlar satqın deyil, onlar bəlkə sizə satılıb. Sənin dediyin kimi, hər dövlət özünə satılmış tapır!

– Niyə inanmırsan, güya sən mənim dediyim həqiqətləri bilmirsənmi? Sən bilmirsənmi ki, vətən dediyin torpaqları ruslar

haya, gürcüyə verib?! Haylar yüzlərlə kəndinizi qırıb-çatıb, yandırıb?! Guya sən bunu bilmirsən?

– Yox. – Yaşar bağıraraq etiraz etdi, amma özü də bilmədi kimə etiraz edir, kimi inandırmaq istəyir, – Kəndləri yandıranlar burjaziya sinfi idi, burjaziyanın mülləti olmur, olmurrrr… – səsi titrədi, ağlamamaq üçün özünü zorla tutudu. – Kəndləri yandıranlar burjaziya sinfi idi.

– Kəndləri yandıranlar burjaziya sinfi idi?! – Otto kinayə ilə gülümsündü, – Bəs indi haylara, gürcülərə verdiyiniz torpaqlar kimindi, hə?!

– Nə olsun üstündə yaşayanlar ki, yenə azərbaycanlılardı – Yaşar şahidi olduğu faktları xatırlayıb kəkəldəyərək cavab verdi.

– Doğurdan? Bəs hayların yandırdıqları, firan qoyduqları türk kəndlərində indi kimlər yaşayır?! Bilirəm inandığın Sovet dövləti və Komminist partiyası bu barədə danışanlara nələr etib, neçə-neçə ziyalınızı "türk" sözü dediyinə görə öldürüblər. Bunu mən deyən tərəfdən bilməsən də, onların vətən xaini adı ilə öldürüldüyünü də bilmirsən? Hayların qırdığı, yerli-dibli məhv etdikləri kəndlərə nə deyirsən? – Bir anlıq susduqdan sonra əlavə etdi – Sənin neçə yaşın var?

– Yaşımın bura nə dəxli?

– Başa düşmədim sən bu qədər danışıqdan sonra mənim ağlıma şübhə edirsən, soruşuramsa demək dəxli var! Oyunun qaydasını pozma. Suala cavab verməklazımdır, mən ki, sənə hərbiçi sualları vermirəm.

– 30 yaşım var.

– Ermənilərin sizi qırdığı dövrdə Sovet hökuməti qurulmamışdı, yəni bu soyqırım haqqında danışmaq o vaxt sovetlər tərəfindən qadağan edilməmişdi, sən bu dövrü xatırlamalısan! Ya qohumlarından biri bu bəlada ölmüş olmalıdır, ya qonşularından biri, ya başqa kimdənsə bu haqda eşitməlisən, düz demirəm? Haylar sizi qırıb, o dövrdə yaşayan birinin bunu bilməməsi mümkün deyil, ya bu hadisələrin canlı şahidi olub, ya da ən azından eşidib. Bir də ki haylar kiçik və tarixən qorxaq millət olaraq, neçə olur ki, siz türkləri qırır? Haylar bu soyqırımı etməyə gücü və cəsarəti

haradan tapır? – Otto Yaşarın susduğunu görüb, öz sualına özü cavab verdi; – Çünki ruslar, ingilislər, fransızlar buna şərait yaradıb, onlara dayaq olub. Buna nə deyirsən?! Bayaq bütün tarixi mənzərəni sənə göstərdim ki … – bağırdı, – Korsan?!

– Bizi haylar qırmayıb. Mən bayaq dedim ki, bu qırğını hay və azərbaycanlıların düşmənləri edib ki, bizi düşmən salsınlar. – bir vaxt sovet çekistlərinin ona dediklərini indi o Ottoya deyərək canını qurtarmaq istəyirdi. – Bəlkə elə sizin dövlətin siyasəti olub bu? – Yaşar dediklərinə Ottodan çox özünü inandırmaq istəyirdi.

– Doğurdan, onda bizim ordunun tərkibində erməni milli legionu olardı, daha niyə Azərbaycan milli legionu olur?

– Mən haradan bilim sən düz deyirsən?

– Sözün qurtarıb, daha eyni sualları təkrar edirsən? Mən hardan bilim, hardan bilim?

– Düz deyirəm də, bilmirəm.

Otto niyəsə izah etmə ehtiyacı duydu:

– Erməni katolikosu I Vazgen yekiskop Usik vasitəsi ilə general (alman) Antonesky ilə təmas qurub bizə hərbi-strateji məlumatlar ötürürdü. I Vazgenin bizə agentlik etməsinin müqabilindəsə onun bir tələbini yerinə yetirməyə məcbur olduq.

– I Vazgen, – onun sifəti təəccübündən əyildi, kimə əsəbləşdiyini özü də bilmədən: – Axı o erməni kilsəsinin başçısıdır, yəni sovet vətəndaşıdır, o necə xəyanət edə bilər?!

Otto isteza ilə gülümsədi:

– Onlarda xəyanət etmək yeni adət deyil ki, onların bacardığı iki şey varsa biri xəyanətdir, ikincisi onlara aid olmayan hər şeyi sahiblənmək arzusudur!

– Onun istədiyi nə idi ki?! – Yaşar məyus halda soruşdu.

– Ruminiyadakı hayları köçürmək və gələcəkdə Rusiyanı tutduqda onlara müstəqil Ermənistan dövləti yaratmaq, onun şərti bu idi! General Antonesky gələcəkdə alınacaq məlumatlar üçün onların Ruminiyadan çıxarılması qərarını verdi. Amma Adolf Hitler hay millətinə inanmır…

Yaşar onun sözünü kəsərək soruşdu:

– Bəs inanmırdırsa niyə onların tələbini yerinə yetirdi?!

– Dedim axı, müharibənin öz qaydaları var, – Otto qətiy-

yətlə dedi, – bizim Sovet Rusiyasının agentlərinə ehtiyacımız vardı və I Vazgen özü bunu bizə təklif etmişdi. Bizim xəfiyyə sistemində yaxşı məlumdu ki, kilsə hay millətinin həyatında böyük təsirə malikdir, daha doğrusu haylar haqqında bütün qərarları kilsə verir, bu səbəbdən də belə agenti küsdürmək olmazdı, ən azından hələlik. Çünki haylar xəyanət etməkdə ustadır və ruslara xəyanət etməyi bizə təklif edirlər. Amma 1943-cü ildən başlayaraq Rusiyaya qarşı milli diviziyalar yaratmağa başlayanda general Vlasov Rusiya azadlıq ordusunun tərkibində hay diviziyası yaratmağı təklif etdikdə Adolf Hitler etiraz edərək belə demişdi: "Çar Rusiyasına, Osmanlıya, SSRI-yə xəyanət edən dördüncü dəfə də bizə xəyanət edər. Xəyanətkar erməni millətinin əsgərinə alman ordusunun ehtiyacı yoxdur" – Otto söhbətinə öz sözləri ilə davam etdi, – Haylar bizə casus kimi lazımdı, yəni casuslar bizə düşmənlərimiz olduğu müddətdə lazımdır, amma bizim ordunun içində və bizim dövlətin içində yox. Çünki onların xəyanət etməsi onların ən təbii halıdır…

– Sizin orduda erməni milli diviziyası yoxdurmu? – Yaşar eşitdiklərini dəqiqləşdirmək istədi.

Otto laqeyidcəsinə güldü:

– Çaqqaldan dost olmur! – təəssüflə başını yellədi, – Erməni ikiüzlüyünü alman xalqı yaxşı bilir, sizsə burnunuzun dibində onların nə mal olduğunu görə bilməmisiniz! Gör nə qədər sadəlövsünüz ki, sən sənə deyilən yalana inanıb deyirsən ki, bizi qıran başqalarıdır. Xalqınızın böyüklərisə, fərqi yoxdur, yaş baxımından, ya ağıl baxımından, hamısı susub xalqı yuxuya verir. Bu işğalın ən böyük və ən təhlükəli formasıdır. Ruslar sizi hər cəhətdən işğal edib, torpağınızı, sərvətlərinizi, şüurunuzu, ruhunuzu və keçmişinizi! – Otto əlini havaya qaldıraraq çırtma vurdu, – Sənin xəbərin var ki, ermənilər xristiyan türkləri idi, onların kilsələrini hay kilsələrinə tabe ediblər və kənardan yüz münlərlə hay gətirib onları assmiliyasiya etdilər? Necə ki, ermənləri haylaşdırıblar, indi də sizin şüurunuz, qan yaddaşınızı, ruhunuzu alacaqlar.

– Otta bunlar böyük iddialardır… Amma tutaq ki, doğru deyirsən, niyə sizə inanaq? Bəlkə siz də eynisini etdiniz?

– Yox, bizim türk millətinə böyük hörmətimiz var. Ən azından özün də görürsən ki, türk xalqı bizim müttəfiqimizdir. Amma sualımın cavabı verilmədi. Hayların sizi qırmağından xəbərin varmı?

– Tutaq ki var…

– Bəs yeni nəsillərin?

– Tutaq ki, yox, nə olsun?

– O olsun ki, Sovet ideologiyasına inanan, Leninə inanan Nəriman Nərimanov ölkənizdə sosializimin qurulması üçün hər şey etdi, amma Leninin niyyətini, hiyləsini anlayanda gec oldu, onu öldürdülər. Guya görmürsən ki, Azərbaycanı başdan-başa haylar zəbt edib, Çar Rusiyası dövründəki kimi indi də ən yaxşı vəzifələri haylara-ermənilərə verilir. Bunu öz gözünlə görmüsən, ya yox?

Yaşarın indiyə kimi beynəlmiləlçilik kimi gördüyü hadisələr onun gözünün önündə yeni boyut qazanırdı, doğurdan da İravanın adı Yeravan olmuşdu, uşaq vaxtı adını bildiyi kəndələrin çoxunun adı hay-erməni adı ilə dəyişmişdi. Ottonun dedikləri olduqca inandırıcı idi, daha doğrusu həqiqətin özü idi, amma bir pis məsələ var idi, onunla üzbəüz oturan düşmən zabiti idi, bunların hamısı hiylə də ola da bilərdi, yəni o həqiqətləri qəstdən başqa formada deyərək onu özlərinə tərəf çəkmək istəyə bilərdi.

Yaşar diqqətini topladı, gözlərini alman zabitinin gözlərinə dikərək həqiqəti oxumaq istəyirmişcəsinə baxdı və dedi:

– Bizim dövlət beynəlmiləl dövlətdir, bizim millətin də nümayəndələri Moskvada işləyir, nə olsun?

– O olsun ki, bunlar fərqli şeylərdi. Haylar-ermənilər Azərbaycanı çökdürtmək üçün işləyir, Azərbaycanda özləri üçün şərait yaradır. Sənin millətinsə Moskvada Sovet dövləti üçün işləyir, sizinkilər sovetlərə lazım olmayanda atacaqlar bir kənara. Onlara sizin neftiniz lazımdır, Moskvaya verəsiz, torpaqlarınız lazımdı haya verəsiz, gürcüyə verəsiz!

– Mən rus imperiyası üçün yox, Sovet İttifaqı üçün, Azərbaycan üçün vuruşuram. – Yaşar indiyəcən tutuquşu kimi təkrarladığı sözləri bir nəfəsə dedi.

– Hansı Azərbaycan üçün vurşursan, haylara verilən tərəfi

üçün, gürcülərə verilən tərəfi üçün, dağıstanlılara verilən tərəfi üçün, farslara verilən tərəfı üçün, ya adı qalan Azərbaycan üçün vuruşursan? Bu savaşın sizə nə faydası olacaq, Sovetlər uğrunda ölən azərbaycanlıların parça-parça bölünən Azərbaycana nə faydası olacaq?! Sizin ölümünüz Azərbaycanı birləşdirəcəkmi?!

– Biz, Sovet İttifaqı daxilində bütün millətlər azad və xoşbəxt yaşayacayıq, – səsi qırıldı, – mən buna inanıram. Mən sovet vətandaşıyam. – Yaşar özününü inandırmaq üçün nəsə axtarırdı…

– İnsanlıq uzmanı, sizin neft sizin üçün yox, bütün Sovetlər üçündür. Azərbaycan Sovet Respublikasında ən yaxşı yerlərdə ruslar, hay-ermənilər işləyir, bax belə Yaşar. – O iki əlini yana açdı, – Ruslar türk millətinin parçalanmasını rəsmiləşdirdi, sizi ayrı-ayrı respublikalara böldülər, hər bir respublikaya fərqli əlifba verdilər, türk ləhcələrindəki fonetikanı qəstdən qabardaraq dilinizdəki yaxınlığı azaltdılar. Sual verirəm, səncə niyə?

– Bilmirəm, – Yaşar əsəbi halda cavab verdi.

– Türkləri vahid dövlətdə biləşdirmək istəmirlər, bu üzdən də, torpağınızı, dilinizi, əlifbanızı, bacardıqları hər şeyinizi bölüblər, fərqləndiriblər. Bütöv, tək türk dövləti kimsəyə lazım deyil, bunun olmaması üçünsə əllərindən nə gəlir ediblər. – O, səsinin tonunu qaldırdı. – Bir milləti məhv etmənin yolu o milləti müxtəlif sistemlərdə yaşatmaqdan keçir, amma biz sizi lap qədimdəki kimi vahid dövlətdə birləşdirəciyik. Bu barədə artıq saziş də var, – stula oturdu, bir ayağını digər ayağının üstünə atdı. – Sən heç dilinə oxşar başqa millətlər görmüsənmi, məsələn türkmənlər, özbəklər, tatarlar, Türkiyə türkləri? Hə?!

Yaşarın gözünün önünə hərbi hissədə oxşar ləhcədə danışdığı yoldaşları gəldi, bu nə bəla idi, o düşmüşdü? Lap kabus idi, özü də qorxulu bir kabus. Belə də insanlıq olar deyə, düşünmək istədi, amma eşitdiklərindən sonra «insanların insanlığı» olmadığı qərarına gəldi. Ottoya etiraz etmək xətrinə dedi:

– Ruslar bizə bərabərlik gətirib! Müharibənisə siz başlamısız!

Otto Yaşarı süzüb gülümsəyərək dedi:

– Sən elə bilirsən mən müharibəni sevirəm? Yox. Mən institutda dərs deyirdim, özü də tarixdən və fəlsəfədən. Amma re-

allıqlar göstərir ki, lap biz müharibə etməsək də kimsə müharibə edəcəkdi. Necə ki, ruslar sizi işğal edib. Hətta ruslar elə edib ki, siz onlara çox sağ ol deyirsiniz. Nəyə görə sağ ol deyirsiniz, sizing hamınızı ruslaşdıracaqlarına görəmi, sizin dədə-baba torpaqlarınıza sahib olcaqlarına görəmı? – Sonra Yaşarın ağzını əydi, – Ruslar bizə bərabərlik gətirib, azadlıq gətirib, bizi istismardan qurtarıb. Rusun işi gücü qurtarmışdı elə, bir dərdi siz idiniz! Bir də bizi işğalda günahlandıran sovet əsgəri, – o Yaşarın üzünə baxdı, – ruslarda Litvanı, Latviyanı və Estoniyanı işğal etdi, xəbərin varmı? Ruslar oradamı qardaşlıq apardı? Biz işğalçıyıq, bəs Rusiya niyə belə edir? Səninləyəm?

– Mən haradan bilim? – Yaşar əsəbi halda dedi, amma özü də bilmirdi kimə əsəbləşib, Ottoya, özünə, Sovet dövlətinə, xalqına, ziyalılarına və ya kimə…

– Bilmirsən! – Otto əlini yelləyərək bağırdı, – 1939-cu ilin avqustunda bizimlə Sovet Rusiyası arasında ticari saziş və gizli bir protokol bağlanmışdı. Bunun əsasında həm Almaniya, həm Rusiya işğala başladı. Biz müttəfiq idik.

– Əgər aranızda bir saziş vardısa, niyə sonra bizə hücum etdiz? – Yaşar alman zabitinin hiyləsini tutduğuna sevinərək soruşdu.

– Xəyanət! – Otto qəzəblə bağırdı, – ruslar alman xalqına və dövlətinə xəyanət etdi!

– Nə?

– Kəşfiyyatımız müəyyənləşdirdi ki, Sovet Rusiyası Almaniyaya hücum planı hazırlayıb, «Qrom» adlanan bu hücum planı 7 İyul 1941-ci ildə həyata keçiriləcəkdi. NKVD-nin şərq rayonlarını köçürməsi, sərhədlərdəki tikanlı məftillərin sökülməsi, Sovet ordu hissələrinin şərq rayonlarına gətirilməsi bu məlumatı təsdiqləyirdi! – o bağırdı. – Belə halda nə etmək lazımdır?! Xəyanətin tək bir cavabı var, ölüm! Biz də bu üzdən Sovet Rusiyasına ölüm gətirdik!

– Bəs yahudiləri qırmağınızın, kütləvi məhv etməniyinizin səbəbi? Onlar kimə xəyanət etmişdi.

Otto niyəsə duruxdu, əlini ağzına tutaraq süni şəkildə öksürdü və dedi:

– Alman xalqının I Dünya Müharibəsindəki məğlubiyyə-

tindən sonra düşmən müttəfiqləri Almaniyanı param-parça etdi. Beləcə Almaniyanın varı-dövləti yəhudilərin əlində toplaşdı, hər yan yahudilərin əlinə keçdi, daha doğrusu onlara verildi. Artıq onlar Almaniyada alman xalqına yuxarıdan aşağı baxırdı. Yəhudilərin  Almaniyada köklənməsi həm onların milli təşkilatlanma bacarığı ilə, həm də Amerikanın və İngiltərənin dəstəyi ilə baş verirdi. Bundan böyük dərdmi var?! – O, bir an nəsə düşünərək dedi: – Bu hal alman xalıqının mənəvi yüksəlişinə pis təsir edirdi. – O, almansayağı cavabladı. – Yəhudilər alman xalqının inkişafına mane olmaq üçün düşmənlərimizə casusluq edirdi. Tək çıxış yolu vardı, alman xalıqının sərvətini istisamr etmiş hər kəsi məhv etmək! Bayaqda dedim, yenə deyim, xəyanətin,  tapdanan mənliyin geri qaytarılmasının tək bir yolu var, intiqam! Sənin mənliyini tapdayanı birini məhv etmədən əsla yüksəliş ola bilməz! – Qəribə tərzdə pıçıldadı, –  Qələbə qurbanlar tələb edir.

– Amma milyonlarla yəhudini qırmaq lazım deyildi. Bunu tarix bağışlamayacaq.  – Yaşar etiraz etdi.

– Bəlkə də! – O alnını ovuşdurdu, – amma milyonlarla  türkü qıran erməniləri də bağışlamaq da lazım deyildi! Bütün türk xalqını mənən şikəst edən, istismar edən rusa da böyük qardaş demək lazım deyildi! Tarix bunu da sizə   bağışlamayacaq,  əgər gələcəkdə hələ də türk olaraq qalsanız, heç övladlarınız da sizi bağışlamayacaq!

Yaşar Ottonun üstündə müəyyən qələbə qazanmaq üçün dedi:

– Mənə yaxşı məlumdur ki, siz  yəhudiləri nəinki qırırsınız, hətta hərbi həbs düşərgələrində toplayaraq qul kimi işlədirsiniz!

Otto acı-acı gülümsədi. Yaşar bundan daha da əsəbləşərək bağırdı:

– Nəyə gülürsən, yalan deyirəm?!

-Yox düz deyirsən! Mən də bir insan kimi yaxşı bilirəm ki, yəhudulərə qarşı olduqca amansızıq! Amma bunun günahı alman xalqında deyil!

– Bəs kimdədir Otto?!

– Alman xalqını içdən məhv etmək üçün yahudiləri təşkilatlandıran dövlətlərin günahıdır bu!

– Çox gülməli məntiqdir!

– Niyə ki, Yaşar! – Otto mənalı şəkildə ona baxdı, – Sən bura niyə gəlmisən?!

– … – Sualın mənasız olduğunu bildirmək üçün heç bir cavab vermədi.

– Niyə susursan, mən də bilirəm, sən də bilirsən ki, bura kəşfiyyat üçün gəlmisən!

Yaşar mənasız yerə etiraz etməyin bir faydası olmadığını başa düşüb dedi:

– Hə kəşfiyyat üçün gəlmişdim!

– Kimin üçün kəşfiyyata gəlmişdin?

– Sovet ordusu üçün!

– Tutuldun, mənim əlimdəsən, indi cəza verilsə, ilk kim çəkəcək bu cəzanı?!

– Mən!

– Yahudilərdən casusu kimi istifadə edənlər bilmirdi bunu?! Mən yahudilərin bir insan kimi cəzalandırılmasına qarşıyam! Axı… – niyəsə susdu.

– Nə axısı? Fərz edək ki, hansısa yahudi casusluq edib, amma siz bütün yahudiləri məhv edirsiz!

– Yahudi xalqını bizə qarşı qoyan sistemlə başqa necə vuruşa bilərik ki?! – yenə almansayağı cavabladı və əlavə etdi; – Başa düşürsən ki, onlar türklərə xəyanət etmək üçün haylardan, almanlara xəyanət etmək üçün yahudilərdən istifadə edir! – İki əlinin barmaqlarını biri-birinə keçirərək dedi, – bax almanlarla aşgenazlar belə idi, iç-içə, amma biri-birinə saldılar, düşmən etdilər... – susdu, amma deyəsən daha çox şey danışmaq istəyirdi.

– Mən tək bir şey bilirəm, siz yahudi xalqına qarşı amansızlıqlar edirsiniz və yahudi xalqını hərbi düşərgələrə toplayaraq qul kimi işlədirsiniz!

Otto yenə acı-acı gülümsədi:

– Ay axmaq insan, Sovet hökuməti qurulandan bu günəcən milyonlarla türkü Sibirə basıb, «əmək kolonyaları» adı altında ölənəcən işlədirlər, bundan niyə danışmırsan?! Başa düş, almanlarla yahudiləri düşmən etdilər, başqa çıxış yolu qoymadılar! Almanların etdiyini görürsən, sovetlərin sizə etdiyini niyə görmür-

sən, ay bədbəxt?!

Yaşar bir an susdu və daha sonra əminliklə dedi:

– Demək ki, Rusiya "böyük maraqları" üçün türkləri məhv edir, siz isə "alman maraqları" üçün yahudiləri qırırsız, bizim hər ikimizin, türklərlə yahudilərin qədəri eynidir.

Otto duruxdu, Yaşarın dedikləri ona toxunmuşdu, niyəsə əti ürpəndi, amma vəzifəsinə üyğun olaraq dedi:

– Bizim həbs düşərgələrində yahudilərlə davranışımız, sovetlərin Sibirdəki dustaqlarla davranışının yanında heç nədir. Biz bunu öz torpaqlarımızda əsayişi qorumaq üçün edirik! Sovet hökuməti isə bu qətliyamı işğal etdiyi torpağın sahiblərinə edir, aradakı fərqi görmürsən?! – Otto əsəbi halda davam etdi: -Yahudilər bilir ki, Adolf Hitler sistemi onlara düşməndir, bəs siz bilirsiz ki, sovetlər sizə düşməndir… – başını buladı və dedi – Mənim siə yazığım gəlir! Yahudilər üçün narahat olma sən..

– Niyə? – Yaşar təəcüblə soruşdu.

– Çünki almanların ayağı büdrəyən kimi yahudiləri dəstəkləyən dövlətlər öz mənafeləri baxımından, alman xalqını məhv etmək xatirinə yahudi xalqı üçün yas saxlayacaq, onların qan pulunu bizdən alacaq! Bəs siz yazıqların yasını kim saxlayacaq?! Sən belə burada mənlə üz-üzə oturub yahudilər üçün ağlayırsan, öz xalqının başına gələn faciələrdənsə nə xəbərin var, nə də ki, eşitdikdə başa düşmək istəyirsən!

– Söz danışdın da Otto! – Yaşar özü söz olsun deyə söz dedi.

Otto yenə acı-acı gülümsəyərək soruşdu:

– Sən oyunu mənə oynayırsan, yoxsa vicdanına oynayırsan?!

Yaşar tutuldu, qandalın sıxdığı biləyini ovuşdurdu:

– Otto… – sözünün dalını demədi.

– Hə sözünü de!

– Yox, heç nə?! – Yaşar etirafından vaz keçməyi qərarlaşdırdı.

Otto diqqətlə onun üzünə baxdı və dedi:

– Demədiyin sualına cavab verim? – Yaşara baxdı, – öz halınıza ağlayın! Kimsə sizin üçün ağlamayacaq Yaşar! Yatmayın, oyanın! Dünyaya baxın! Rəhimli olmaqdan əl çəkin! Qəribədir hamı rəhmdən danışıb qarşısındakını məhv edir, siz türklər isə

sizi öldürəcək olanlara rəhm edirsiniz! Bu xasiyyətiniz sizi məhv edəcək! Yəhudi məsələsinə gəldikdə isə deyim ki, – Otta gözünü qaldırıb barmaqlıqları olan pəncəriyə baxdı və asta tonal dedi; – Təbii ki, hər kəsin öz marağı var və maraqlar qurban tələb edir və dünya, yahudilər ilə almanları qumara qoyub, burada savaş qaçırılmazdır. Almanlar özü üçün savaşır, dünya özü üçün oynayır və savaş bitəcək, hərə öz qeydinə qalacaq, bəs siz?! Sən belə mənlə yahudi davası edirsən, bəs sizin davanı kim edəcək! – Otto başını buladı, – Bir bilsən nələri bilmirsən!

– Bəs sən niyə insanlıq edirsən?! Bu da oyundur?!

– Səncə…? – Otto tək bir söz soruşdu.

– Mən artıq heç nə bilmədiyimi bilirəm Otto!

– Tək söz deyim! Mən Allaha inanıram! Peyğəmbərlərinə də! – Qəribə tərzdə gülümsündü, – Dinə görə isə bütün millətlər qardaşdır.

Yaşar Ottonun gözlərinə baxdı, niyəsə Məhəmməd peyğəmbərin adını çəkmədən:

– Peyğəmbərlərin hamısınamı inanırsan?

– Hamısına…

Yaşar nəsə düşünüb:

– Amma Allah yerdəki işlərə qarışmır! – dedi.

– Amma heç nə də ondan gizli qalmır…

– Yəqin… – Yaşar bu sözü əminlik mənasındamı, sual mənasındamı verdiyini özü də bilmədi.

– Mən səninlə insan kimi davrandım, səmimi oldum. Düzdür əvvəl sənin heç türk olduğunu bilmirdim, insan kimi qiymət verdim, üzündəki şirinliyə görəmi, ya ürəyindəki sadəliyin üzünə vurduğuna görəmi, bilmirəm, amma belə etdim. Amma yenə səmimi olum, bizə türklərlə xoş rəftar emək tapşırılıb, ən azından sizə xoş niyyətimizi deyənəcən.

– Türklərləmi? Niyə?

– Sizi bilirsənmi niyə sevirik?

– Niyə?

– Türkləri ona görə sevirik ki, onlar tarix boyu hegemon qüvvə olub, imperiyalar qurub, amma “güclünün zalım olması” qanununu pozaraq daim rəhimli olublar, amma maraqlıdır ki, türk-

lər başqa xalqlara rəhmli olub, bütün xalqlara rəhmli olmalarına baxmayaraq, türklər özü özünə zülm edib, elə bu səbəbdən də Allahın lənəti sizi tutdu, ruslar, farslar və avropalılar sizi işğal etdi.

– Demək bir özümüzə rəhm etməmişik, qalan hər kəsə rəhm etmişik. – Yaşar özü-özünə pıçıldadı.

– Hə, almanlar sizin dosta rəhmli, sədaqətli olmağınızı sevir, Amma yenə deyirəm ki, güclülər rəhmli olmur.

Yaşar söhbəti dəyişmək istədi:

– Otto, məncə sən ruslardan, hay-ermənilərdən danışaraq məndə milli ədavət hissini alovlandırmaq istəyirsən. – susdu, "bütün söhbətini bu hiylə üstündə qurumısan" deyəcəkdi, amma deməkdən vaz keçdi.

Otto kinayə ilə güldü:

– Milli ədavəti mənmi etmişəm?

– Başa düşmədim?!

– Hayların türkləri qırması, erməniləri haylaşdırması, bunlar ki, həqiqətdir, bunu mən dedim, ya demədim, bu nəyi dəyişir ki?! Bu doğru deyilmi?

– Qanı su ulə yuyarlar, deyir atalarımız… – Yaşar niyəsə bu atalar sözünü deməklə bütün problemləri həll etdiyini düşündü.

– Yaxşı. Yeni oyun?

– Mən oyun oynamıram, mən həqiqəti danışıram. – Yaşar qələbə qazandığını düşünərək sevindi, axı deyəsən dediklərinə özünü inandıra bilmişdi.

– Sovet dövlətində millətbazlıq yoxdur, hə?

– Keçmiş keçmişdə qalıb, hal-hazırda yoxdur. – Yaşar qətiyyətini bildirmək üçün başı ilə dediklərini təsdiqlədi.

– Lenin dediyi kimi, – Otto gülümsəyərək ucadan dedi, – «öz internasionallığını düşünən və dəyərləndirən proletariat heç bir vaxt nasionalizim çirkabına bulaşmaz». Sən də beynəlmilləl bir sovet millətisən, hə?!

– Hə, mən dar milli çərçivədə düşünənlərdən deyiləm. Marksın dediyi kimi «proletariatın vətəni yoxdur», yəni bizim bir vətənimiz var, Sovet İttifaqı. – Öz nitqindən deyəsən özünün də xoşu gəldi.

– Yaxşı sən düşünmə, nə deyirəm, amma sualıma cavab ver. Dava təzə başlayanda sovetlər bunu «bolşevizim-faşizim» müharibəsi adlandırırdı, amma indi bu müharibə «rus-alman» müharibəsi adlanır! Səhvəm?! Üç ildə nə dəyişdi ki?!

Ottonun dedikləri Yaşarın inamına soğan doğramışdı. Yaşar deyilənin doğru olduğunu adı kimi bilirdi, dava başlayandan mətbuatda, radioda deyirdi ki, «bu bolşevizim ilə faşizimin savaşıdır», iki il sonra bu ifadə çönüb olmuşdu «rus-alman savaşı». Yaşar Ottonun sualına cavab vermək əvəzinə düşündü:

– Doğurdan da «bolşevizim» cəbhəsinin içində olan bizə nə oldu, «rus-alman cəbhəsi» deyiləndə biz harada oluruq, biz də bu müharibədə vuruşmuruqmu?!

Ottonun səsi onu fikirdən ayıltdı:

– Hə, nə oldu? Millət sözü qadağan olunan sosializim cəmiyyətində nə oldu ki, indi «velikaya rus»* nəğmələri oxuyursunuz, bəs siz «velikaya rus»-un harasındasınız? Cəbhədə vuruşan tək rusdurmu?!

Yaşar nə cavab verəcəyini bilmədi, niyəsə əsəbləşmişdi, hiss edirdi ki, əsəbindən az qala qan beyninə sıçraya, amma niyə, nəyə və kimə əsəbləşdiyini dəqiq bilmirdi, niyəsə Ottonun baxışları onu yordu, gözlərini çəkərək qandallı əllərinə baxdı, sanki, bununla düşmənlə danışdığını özünə xatırlatmaq istəyirdi, sanki bu yol ilə düşmənin dediklərini etibarsız etmək istəyirdi.

Otto söhbətinə davam edirdi:

– Sən görmürsənmi ki, ön cəbhəni ruslar yox, başqa millətlər təşkil edir, əsasən də siz türklər, arxa cəbhələrdə olan isə ruslardır! Amma qəhraman olan rus xalqıdır, hə? – kinayə ilə dedi, – «Velikaya rus», hə?

– Rus bizə qardaşlıq gətirib, müharibəyə də Moskva rəhbərlik edir, yəqin ona görə… – Yaşar özü də bilmədi nə mızıldanır.

– Hə, sizdə millətbazlıq yoxdur, hə? Azərbaycanı Mircəfər Bağırov qırdırdı, amma müharibədə «velikaya rus» onu atdı bir kənara, başa Xuruşovu keçirdi. Düz deyirsən burada əsl beynəlmiləlçi ruh var! – Otto kinayə ilə dedi, – Cəbhənin önündə siz

* *"böyük rus"*

türkləri qırdırırlar, arxanızda gizlənən ruslarsa olur «velikaya rus»?!

– Bizə türk demə, biz azarbaycanlıyıq. – Yaşar atasının onlar haqqında türk dediyini xatırlasa da, niyəsə etiraz etdi.

– Türk deyilsən, hə? – Otto bu dəfə gülmədi, əksinə onun gözlərindən oxunurdu ki, onun kimlərəsə yazığı gəlir. Niyəsə bir az duruxdu, diqqətini toplamağa çalışaraq dedi: – Yaşar 1937-ci iləcən sovet posportlarında sizi türk milləti olaraq qeyd ediblər, sonradan bütün posportları dəyişiblər və sizə “azərbaycanlı milləti” adını yamayıblar!

– Mən axı burada bir məna görə bilmirəm! – Yaşar həqiqəti qəbul etmək istəmirdi, axı insanlar axmaq yerinə qoyulduğunu qəbul etməkdənsə, həqiqəti qəbul etməyərək özünü ağıllı saymağı üstün tutur.

– I Dünya Müharibəsində məğlub olan Almaniyanı və Osmanlını rəqiblər parçalamğa başladı. Çünki dünyanın iki nəhəngi yıxılmışdı və hamı onları bir daha ayağa qalxmadan məhv etmək istəyirdi. – bir an susdu, dodağı səyridi, – və başladılar türkləri qırmağa, tarixi izləri silməyə… – sanki səsi qırıldı, bəli, bu susmaq deyildi, sanki nəfəsi kəsildi və Otto susdu.

Yaşar Ottonun anidən, qəribə tərzdə susduğunu gördü, hətta onun sifətinin rənginin belə dəyişdiyini sezdi, amma bir anlam verə bilmədi, necə reaksiya verəcəyini də bilmədi, – dedi:

– Demək istəyirsən ki, tarixi saxtalaşdırmaq üçün bütün türkləri qırırlar? Başa düşmədim, sənin dediyindən belə çıxır ki, tək Azərbaycan türklərinin tarixini silmirlər, qırılan başqa türklər də var? – Ottonu süzdü, – Tarixi silinən başqa türklərdəmi varrrr?

Otto bir an susdu, sanki niyəsə tərəddüt etdi, sonra yaxasında olan xaça baxdı, ağır-ağır başını qaldırıb Yaşara baxdı:

– Dinlə, – söhbəti necə yekunlaşdıracağını düşündü və danışmağa başladı, – Fransa Almaniyanı kiçik dövlətlərə parçalamağı təklif etmişdi. Səbəbsə məlumdu, onlar alman millətini fərqli sistemlərə salaraq kiçik qruplara bölmək istəyirdilər, çünki kiçiklərin böyklərdən asılı olması təbiidir. I Dünya Müharibəsində Almaniya da, Osmanlı da böyük ərazilər itirdi! Düşün, Os-

manlı ərazisinin 5/4-nü itirdi. Həmçinin üstündə türklər yaşayan torpaqlar da Osmanlıdan qoparıldı, geri dönüşü olmasın deyə bu torpaqlarda olan qədim türk keçmişini silməyə başladılar. – Dodağını çeynədi, bir an susdu, nəsə düşündü, lakin sonra qətiyyətli səslə danışdı, – Almaniyanın da başına eyni oyunları gətirirlər. Hər iki dövləti parça-parça etmək istəyirdilər. Hamı Osmanlını məhv etmək istəyirdi və məhv etdilər, Osmanlının türklər yaşayan əraziləri belə qalib dövlətlər tərəfindən parçalanıb bölüşdürüldü. Kamal Paşa, – Atatürkü nəzərdə tuturdu, – yenidən qurduğu ordu ilə onları darmadağın etdi, yalnız bundan sonra, onlar türklərlə sülh bağlanması haqqında düşündü, halbuki bir müddət əvvəl Türkiyə ərazisinin bölünməsini müzakirə edirdilər. Kamal paşa onların böyük oyununu alt-üst etdi, türklər yaşayan ərazilərin bir qismini düşmənlərdən geri ala bildi. – Otto bir an susdu, sonra əlavə etdi, – Onları hiddətləndirən yalnız Kamal Paşanın qələbə qazanması deyildi, paşa hərbi zəfərlərinin ardınca türk tarixinin və dilinin öyrənilməsi üçün "təqdiqat inistitutları" yaratdı və araşdırmalara öncülük etdi… – üzündə qəribə heyranlıq yaranmışdı, amma anidən üz ifadəsi dəyişdi, qəzəbli halda dedi: – Onların yüz illərdi hazırlandığı "böyük oyunu" bir paşa alt-üst edirdi, az qalmışdı, hər şey ortaya çıxacaqdı, onu zəhərləyərək öldürdülər…

– Nə, Atatürkü zəhərləyərək öldürüblər?! Atatürkün türk dilini və tarixini araşdırması, hansı bilinməyən böyük nəticlər verə bilərdi ki?! – Yaşar qeyri-ixtiyarı bu sualları verdi, sonra düşündü ki, bütün bunlar alman zabitinin bir oyunudur, ya necə?

– Bəli, Atatürkü zəhərləyərək öldürdülər. – Otta dodaqlarını gəmirərək dedi.

Yaşar özü də bilmədən Atatürkə qarşı bir doğmalıq hiss etdi və yanıqlı halda soruşdu:

– Necə yəni Atatürkü zəhərlədilər? Məgər o təkdi? Bəs ətrafındakılar hara baxırdı?!

– Atatürk türk tarixinin son günəşi idi və elə günəş kimi də tək idi, onu dostları belə anlamadı, bəzi dostları paxıllıq edib düşmən oldu. Əsl düşmənsə onun nələrə qadir olduğunu gözəl anlayırdı, hər şey zaman məsələsi idi… – susdu, anidən qəzəblə əlini yellədi, – Atatürkün yaratmaq istədiyi "Türkiyə və türk

dünyası" onunla bərabər öldü. Türklərin məhv edilməsi əməliyyatı yenidən başlamış oldu. Onlar almanları da eyni ilə belə məhv etmək istəyirdi, amma almanların şanlı oğlu Adolf Hitler buna imkan verə bilməzdi. – Əlini yelləyərək bağırdı, – Almanların da yox edilməsinə yol verilməməli idi. Bu bəzi qurbanlar tələb edirdi və biz bu qurbanlara razı olaraq öz alman kimliyimizi qurtarmalı idik.

– Hansı qurbanları verməyə razılaşdız?

– Məsələ o deyil, – Otto sözünü dəyişmək ehtiyacı duydu, – məsələ odur ki, biz alman kimliyini qoruyacayıq. – O, Yaşarı süzərək dedi, – sənsə millətinin parça-parça olduğunu belə anlamaq istəmirsən!

– Biz türkləri kim parçalayır?… Başa düşmədim, indi də belə çıxır ki, türkün düşməni tək Rusiya deyil?

– Onlar, hamısı, bütün super güclər… Müharibələrin ümumi prinsipləri həmişə eynidir! Parçala və hökm sür!

– Fərz edək ki, sən deyən kimidir… Axı bu günü nə Osmanlı qalıb, nə Qızılbaşlar, bizi parçalamayıblarmı? Demirsənmi hayları da qəsddən gətiriblər, bitmədimi? – Yaşar təəcüblə soruşdu və düşünürdü ki, veriləcək cavabla hər şey aydın olacaq, bilinəcək ki, ya Otto hiylə işlədir, ya məsələ nədir.

– Yox, bitmədi, bitməyəcək! Sizin son nəfərinizi də manqurdlaşdırmadan əl çəkən deyillər. Məsələ tək torpaq məsələsi deyil…

– Bəs nədir axı?

– Tarix, böyük tarix…

– Nə tarixi axı?

– Hə, məndə bu sualı uzun illər özüm-özümə vermişəm, müharibədən əvvəl, institutda dərs deyərkən bu suala cavab axtarmışam… Gəldiyim ümumi nəticə bu olub ki, tarixi qaşıdıqca altından türk çıxır, tarixin hər səhfəsində… Və demək ki, onlar daha artığını bilir ki, türkü yox etmək istəyir. Bizi də parçalayacaqdılar… Aramızda tək fərq var… – Ottonun gözündən hiss olunurdu ki, onun kimlərəsə yazığı gəlir.

– Nədir o fərq?

– Biz, bizdən alınan vətənimizi və xalqımızı geri almaq üçün

savaşdıq və geri aldıq, indisə qısas alırıq! Amma siz, sizi niyə parçalayıblar, onu da bilmirsiniz. Siz zülmü qəbul etmisiz, hətta bunun zülm belə olduğunu görmürsüz, anlamırsız… Qanınızı axıdırlar, fərqində belə deyilsiz…

– Qanımız axıdılır… – niyəsə Ottonun bu sözünü təkrarladı, bədəni çimçəşdi, yandırılıb külə dönmüş kəndləri yadına düşdü, key-key ətrafına baxdı, bir anlığa ona elə gəldi ki, bütün bunlar yuxudur, çünki bütün bu hadisələr o qədər uzun, qarmaqarışıq idi ki, artıq neç nəyi ayırd edə bilmirdi.

Otto da Yaşarın olduqca aciz hala düşdüyünü sezdi, amma niyəsə bir alman zabiti kimi buna sevinə bilmədi, Yaşarın üzündəki yazıqlıqda özünü gördü, bu fikir onu deyəsən qorxutdu, yenə yaxasındakı xaça baxdı, nə düşündüsə dedi:

– Biz nə etdiksə Alman xalqı üçün, Alman xalqının gələcəyi üçün etdik. – o bu sözləri qəribə tonda və ucalıqla dedi. Xəyala dalmış Yaşar bu səs tonundan diksinərək ayıldı. Ottonun bunu kimə dediyi bəlli deyildi, o sanki nəyisə, kiməsə etiaf ediridi və o elə bu səs tonu ilə də sözünü bitiridi: – Hər arzunun bir bədəli var və biz bu bədəli ödədik…

– Nə? – Yaşar hələ də özünə gələ bilməmişdi, – Nə bədəli?

Otto duruxdu, bir müddət Yaşara baxdı, üzündən bəlli idi ki, o beynində var-gəl edir, deyəsən onun özü də bunu hiss etdi və ayağa qalxdı, gəzinərək dedi:

– Dövlətlərin dostluğu da maraqları qədərdi, – çönüb Yaşarın üzünə baxdı, – yəni bütün dövlətlərin öz maraqları, bütün əməkdaşlıqlardan üstündür. Misal üçün I Dünya müharibəsində məğlub olmamışdan əvvəl biz də türkləri öz maraqlarımıza satdıq…

– Nə marağı?

– 5 iyun 1918-ci ildə dövlətimizin əmrinə əsasən bizim hərbi qüvvələr gürcülərin Borcalını, Sınaxı və Tifilis qəzalarının sərhədlərini Azərbaycan türklərinin əlindən almasında iştirak etdi, – nə düşündüsə, daha səmimi cavab verdi, – yəni bizim hərbi qüvvələrin köməyi ilə gürcü qoşunu Poylu körpüsünəcən ərazini tutdu. Gürcülərin sizinkiləri Borçalıdan qovmasına göz yumduq və beləcə Borcalı gürcününküləşdi.

– Nə oldu, bəs Osmanlı ilə Almaniya müttəfiq idi?! Siz də

türkləri satmısız ki!

Otto yenə duruxdu, bütün bunları niyə danışdığını düşündü, amma fikirindən vaz keçmədi:

– Dedim axı, hər dövlətin öz marağı var. Və biz də Bakı neftindən pay istəyirdik, belə olan halda “onlarla” razılaşmalı idik.

– Yenə dırnaq içində onlar sözünü dedin…

– Hə Almanyada öz marağı üçün “onlarla” zaman-zaman razılaşmalı olur.

– Bəs sonra nə oldu?

– Sovet Rusiyası Bakını almaq istəyirdi, bizimkilər nefti bölüşmək şərti ilə ruslarla razılaşdı, əvəzində Osmanlını məcbur etməli idi ki, Azərbaycana köməyə getməsin. Amma Osmanlı bizim dövləti eşitmədi, həmin ərəfədə Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak hökuməti Bakıda 10 minlərlə müsəlimanı qətl edərək şəhəri öz caynaqlarına almışdı. Osmanlı dövləti Azərbaycana ordu göndərdi və Bakı Sovetini darmadağın etdi, Azərbaycanı rus-hay işğalından azad etdi.

– Söhbət 1918-ci ildən gedir, doğrumu başa düşdüm? – Ottonun başı ilə təsdiqlədiyini görüb əlavə etdi, – Şaumyan Bakıda 10 minlərlə insanmı qətl edib?!

– Bəli, amma sovet məktəbləri Şaumyanı sizə Azərbaycan qəhramanı kimi tanıdır, elə deyilmi?!

– Elədir. Başa düşmədim, türklərə düşmən olmayan varmı?!

– Sən hələ də başa düşmədinmi, başqa dövlətdən dost olmur… Misal ABŞ Naxçıvanın haylara verilməsi üçün əlindən gələni etdi, amma Türkiyə buna mane ola bildi, sonunda Qars müqaviləsi bağlandı…

– Bəs Osmanlı niyə bizə kömək edirdi?

– Çünkü ikiniz də türksüz və siz son qurbanlarsız, ya ayılacaqsız, ya yuxuda ikən boğulub öldürüləcəksiz… Türklər yolun sonuna gəlib…

Yaşar bu dəfə heç nə deyə bilmədi, gözlərindən yaş süzülməyə başladı. Hıçqıraraq zorla, tək bir söz deyə bildi:

– Niyə?!

– Çünki dediyim kimi hamı tamahkardır, bütün dövlətlərin öz

marağı var. Hər kəsin marağı türklərin üstündə kəsişir…

– Bəs bütün bunları niyə mənə danışırsan?

– Bilmirəm! Amma istədim biləsən ki, siz kiçik-kiçik dövlətlər olduğunuz müddətcə hamı fürsət tapdıqca, sizi beləcə qumara qoyacaq! Düşün ki, Osmanlı türk olmasa, bəlkə onlar da sizi qumara qoya bilərdi, amma geniniz, qan birliyniz, kökünüz buna imkan vermədi. Amma hələ də birləşə bilmirsiniz. – Otto niyəsə əsəbləşdi. – Öz qan yaddaşınıza sahib çıxmırsız, türklüyünüzə sahib çıxmırsız. Dünyaya yayılmış, dünyanı idarə etmiş türklər, indi oyuncaq qalıb, vaxtı ilə sülhün təminatcısı olan türklər indi özü özünü qoruya bilmir… Eşidirsən, türklər yolun sonuna gəlibbbb… – Əsəbi halda yumruqlarını düyünlədi, – Ayı kimi qış yuxusuna getmisizzz…

Yaşar Ottonun gözünün dolduğunnu gördü, amma özünü görməməzliyə vuraraq soruşdu:

– Bəs sonra? –Yaşar özü-özünə isə deyirdi, – İnanma, o bir düşmən zabitidir. Bu qədər səmimiyyət ola bilməz.

Otto sanki bir alman zabiti olduğunu xatırladı, özünü tox tutmağa çalışdı:

– Sonra tarixdə tez-tez belə ifadələr yazılacaq, "bilinməyən xalq, itmiş xalq, ölmüş dil, tarixin qaranlıq dönəmi…" – bağırdı, – Bax belə…

– Mən tarixdə belə ifadələrə çox rast gəlmişəm, "tarixdə bilinməyən xalqlar, ölmüş dil" kimi… – Yaşar diqqətlə onun üzünə baxdı, sanki beləliklə, eyni məsələlərə eyham vurduğunu başa düşməyə çalışırdı.

Otto acı-acı gülümsündü:

– Demək ki, belə ifadələrin sayı artacaq...

Yaşar heç nə demədən onun gözlərinə baxdı, hiss etdirdi ki, bədəni taqətdən düşür, artıq analız etmə qabiliyyətini itirir...

Otto belə səmimi danışmasının onun zabit karyerası üçün təhlükəli olduğunu düşünərək və belə atmosferdə daha çox şeylər danışacağından qorxaraq, əsas mətləbə keçməyi qərarlaşdırdı:

– İndisə insanlıq öz yerində qalsın, mən bir alman zabiti kimi sovet ordusunun meşədə gizlənən hissələrinin yerini və bildiyin digər məlumatları mənə deməyini xahiş edirəm. Və əvəzində səni

tezliklə türk diviziyasına göndərəcəm...

Yaşar Ottonun belə sərt dönüşündən sevindi, axır ki, əsl üzünü göstərdin deyə düşünərək dedi:

– Otto mən xain deyiləm. Lap sənin dediklərin doğru olsa da, Sovet dövləti bizi aldatmış olsa da, bizi məhv etmək istəyi olsa da, mən silahdaşlarımın yerini sənə deyib onların məhvinə səbəb olmaram.

– Sənə kim deyir ki, biz onları qırmaq istəyirik? Biz onları mühasirəyə alarıq, sonra sən səs gücləndirici ilə onlara vəziyyəti deyərsən və təslim olmalarını tələb edərsən. Müharibə dövründə bundan humanist təklif ola bilməz.

Yaşar ayağa qalıxmağa çalışdı, masaya bağlanmış əlləri dartındı, o buna məhəl qoymadan bağırdı:

– Otto mən əclaf deyiləm, mən xain deyiləm. Hansı şərtlər olur olsun!

Səsə alman əsgərləri içəri girdi, Otto əli ilə onların çıxmasını işarə etdi və Yaşarı süzərək dedi:

– Yaşar bu etdiyinin adı sədaqətdir, əla, – şəpik çaldı, – bunu qiymətləndirirəm. Amma bu axmaq sədaqətdir. Sovet maraqlarını qoruyacaqsan? Onlar türk millətini məhv etmək istəyir, "vətənim" dediyin Azərbaycanı param-parça ediblər və bu hələ başlanğıcdır, başa düşmürsən?

– Nə olur-olsun, mən bunu bacarmaram. Mən silahdaşlarımı sata bilmərəm…

– Bu nə axmaqlıqdır sən danışırsan?

– Otto sən məni başa düşmürsən, mən xəyanəti bacarmıram.

– Nə axmaq-axmaq danışırsan, sədaqəti kimin üçün edirsən? Ruslar üçün? Niyə? Sizin başınızın altına yastıq qoyaraq sizi məhv etdiyi üçün, xalqını haylara qırdırdığı üçün?

– Bilmirəm. Sadəcə bacarmaram. Və bu barədə daha danışmaq istəmirəm. Bu barədə nə desən susacam. Döysən də, öldürsən də susacam. – Yaşar nəyin doğru olub, olmadığını ayır edə bilmirdi, bəlkə də bu səbəbdən ölərək bu yalan dünyanın girdabından qurtulmaq istəyirdi.

– Yaşar axmaqlama. Mən səni incitmək istəmirəm. Amma mən hərbiçiyəm və istəməsəm də bəzi şeyləri səndən tələb etmə-

liyəm, necə ki, məndən tələb edirlər. Başa düş.

– … – Yaşar cavab vermədən başını aşağı dikdi.

– Səninləyəm, Yaşar, danış. – o bağırdı.

– …

– Bax sənin etdiyin heç insanlığa yaraşmır, sən məni güc tətbiq etdirməyə məcbur edirsən.

– …

– Sənə üç saat vaxt verirəm, gedirəm, mən gələndə də danışmasan, insanlıq oyunu bitəcək, bunu mən istəmirəm, sən edirsən. Bil! – Otto qapını arxadan döyəclədi, alman əsgərlərinin qapını açmasından sonra otaqdan çıxdı. Alman əsgərləri qapını bağlayıb, qapının önündə yenidən heykəl kimi dayandı. Getməkdə olan Otto qapının önündə dayanan əsgərlərə səsləndi:

– O türkdür, Türk diviziyasına göndəriləcək. Onunla yaxşı rəftar edin, yemək-içmək verin, – beton dəhlizdən pillələrlə yuxarı qalxa-qalxa düşünməyə başladı:

– Qəhramanlıq, amma mənasız qəhramanlıq! Bunların vətən, millət sədaqətini əllərindən alıblar! Bunları kor ediblər! Və nəticədə kor millətin kor qəhramanları yaranıb!

## KOR QƏHRƏMAN

*Allah, məni dostlardan saxla,*
*düşmənlərlə özüm bacararam –*
***Azərbaycan atalar sözü.***

Yaşar başını qaldırıb otaqdakı yeganə pəncərəyə baxdı. Bu balaca pəncərə lap hündürdə idi, pəncərədən bir parça gün işığı otağa düşürdü, lakin pəncərədə olan qalın dəmir barmaqlıq vardı. Bu barmaqlığın günəş şuasından haqq olaraq aldığı nur içəri düşmürdü və hörümçək toru kimi zolaqlara bölünən işıq Yaşarın üzünə düşürdü. Yaşar öləziyən günəşin buludları qan rənginə boyanmasına tamaşa edirdi və çox qəribə olsa da indiyəcən ona gözəl görünən bu mənzərə, niyəsə bu dəfə onu kədərləndirdi. Qan rənginə boyanmış buludlar barmaqlıqlar arasında çox zavallı görünürdü. Həm də qəribə burası idi ki, Yaşar ayırd edə bilmirdi ki, barmaqlıqlar arxasında olan özüdür, yoxsa səma, bulud və günəşdir. Bəlkə də ona görə ki, bu anda Yaşar üçün bu bir o qədər də fərq etmirdi. Axı özü barmaqlıq arxasındarır, ya günəş, bunun dustaq üçün o qədər də əhəmiyyəti yoxdu. Amma yox Yaşar heç belə də düşünmürdü:

– Buludlar niyə qana boyanmısan? Bu davamı səni belə qana boyayıb?! Yox tək bu dava ola bilməz! – o özü-özünə qətt etdi. – Dünya yaranandan insanoğlu savaşır! Niyə? Dünya malı üçünmü? Axı aparacağı üç arşın ağdır! Övladları üçünmü? Savaş axı hamını məhv edir! İnsan insanı niyə barmaqlıqlar arxasına salıb, sənə həsrət qoyur, günəş? Günəş, tək anladığım bu oldu ki, bu dünyadakı insanlar insan deyil. İnsanlar yaşayır, amma insanlıq ölüb… Günəş, yaxşı kı, yaxında, insanoğlunun əli çatan yerdə deyilsən, yoxsa səni də barmaqlıqlar arxasına salardılar, bizi sənə yox, səni bizə həsrət qoyardılar! Neçə ki, yorulmadan, usanmadan uzun yollar qət edən nurunun qabağını bir qara dəmir barmaqlıq kəsir, üzümə düşəçək əl boyda nurunu belə haqq almadan içəri qoymur. İnsanoğlunun əli yetişən yerdə olsan, inan bunlar səndən

də haqq alardı! Günəş, insan insan deyil! Hara baxırsan, güclü zəifi əzir. Artıq bu dünyada kimsəyə inamım qalmayıb. Sən necə, bu dünyada sadiq birini gördünmü? Yox, günəş sən də görmüş ola bilməzsən. Axı sən də qızmar olanda insan səndən üz döndərib, sənin nurundan haqq alan cismin kölgəsində daldalanır, hə insan belədir! İnsan ikiüzlüdür! İnsanın canı donanda, günəş, səni arzulayır. Sən insanın canını qızdıranda tez bir kölgədə daldalanır! – Yaşarın xəyalında rabitəsiz cümlələr uçuşurdu. Ottonun tapşırığından sonra əsgərlər onun əlini açmışdı, yemək-içmək də gətirmişdilər, lakin onun ürəyi ağzında idi, bir tikə də yeməmişdi. Günəş işığının düşdüyü divar küncündə, dizlərini qucaqlayaraq döşəmədə oturmuşdu, onu bürüyən boşluq duyğusu qəlbini sancırdı və bu halda yenə xəyala daldı: – Günəş indi mən nə edim? Mənim bu dünyaya inamım qalmayıb! Bu da mənim inandığım Sovet ölkəsi! Bu alman zabiti məni çaş-baş saldı! Düşməndir, inanmaq istəmirəm dediklərinə, amma dedikləri o qədər doğrudur, həqiqətə uyğun gəlir ki! Mən nə edim, bilmirəm? Axı mən həyatı boyu hiylə nədir bilməmişəm, topağı sevmişəm, əkib becərmişəm, insanları sevmişəm, hətta hayları-erməniləri belə sevmişəm, ata-anamım ölümünün səbəbi erməniləri bir yalan sözlə sevmişəm! Yəqin içimdəki rəhm intiqamdan, nifrətdən çox olub, yoxsa bir sözə inanıb hayların, ermənilərin məsumiyyətinə inanmızdım. Amma mən inandım. Tək mənmi? Bütün Azərbaycan inandı bu sözlərə! Yenə deyirəm, mən hiylə bilmirəm, dövlət işlərindən də başım çıxmır, kim bizi belə gözü kor böyüdür? Niyə bizı gözü kor, keçmişi kor, düşüncəsi kor böyüdürlər, niyə öz xalqımın bilənləri susur və bu olanlara icazə verir?! Niyə?! Məktəb oxuduq, texnikum bitirdik, orada oxuduğumuz tarix kitabları, sən demə tariximizi yazmırmış, bu kitablar qəstli idieologiyalara xidmət edən saxtakarlıqdan ibarət imiş! Elə isə, bu oxuduqlarımız, bu məktəblər kimə xidmət edir?! Göz nurunu tökərək oxuduğumuz kitablar beynimizi kor edirsə, nə etməliyik?! Biz harda səhv etmişik?! Mən nə edim? – Yaşarın gözündən süzülən yaş damçısı yanağından aşağı yuvarlanırdı. Günəş artıq batmışdı, göy üzü qaralmağa başlayırdı. Yaşar başını qaldıraraq pəncərədəki barmaqlığa baxmaqda davam etdi:

– Nə oldu günəş? Sualım ağırmı gəldi? Niyə qaçdın? Yoxsa səndəmi iki üzlüsən? Gecə və gündüz!  Nə yaxşı ki, Tanrı təkdir! Yaxşı, Tanrı mən nə edim? Bilirəm atam deyirdi ki, Tanrı səbrlidir! Axı mən acizəm, nə edəcəyimi bilmirəm! O tərəfdə iki qardaşım, sovetlərə inanan milyonla azərbaycanlı, əgər bu alman zabiti də düz deyirsə, yenə burada da minlərlə sovet ordusuna qarşı vuruşan  azərbaycanlılar…  Biri-birindən xəbərsiz, iki əks səngərdə biri-birinə güllə atırıq, biri-birimizi öldürürük və "düşmən öldürdüm" deyirik! Demək mən hansı tərəfdə olsam da bilmədən bir azərbaycanlını öldürəcəm və  deyəcəm ki, düşmən öldürmüşəm. – Yaşarın kədərli üzü birdən daha qorxünc hal aldı və bağıraraq: – Aman Allahım görən indiyəcən öldürdüklərim içində heç azərbaycanlı olubmu? Bunun günahı kimdədir Tanrım? Buna sən necə dözürsən, Tanrım? Axı bizi üz-üzə qoyan, bizi düşmən edən kimdir, niyə cəzasına çatmır? – Bərk-bərk dizlərini qucaqladı, hönkürərək ağlamamaq üçün özünü zorla saxladı,  gözlərindən axan yaş sanki onun iradəsinə tabe olmaq istəmirdi, beyni isə dayanmadan düşünürdü, – Mənim qardaşlarım o tərəfdədir! Mən onları sata bilmərəm!  Haqq hansı tərəfdədir, bilmirəm. – gözlərini qapadı.

Qapı açıldı, dəhlizdən düşən işıq qaranlığı yararaq Yaşarın üzünə qondu, o mürgü döyən gözlərini açdı və Ottonun üzünə baxdı. Otto əli ilə işarə etdikdən sonra  bir alman əsgəri  sinidə içəri bir qab yemək, bir neçə dilim çörək və bir dolça da su gətirdi. Ottonun əl işarəsindən sonra o çölə çıxdı  və qapını arxasından örtdü. Otto  Yaşarın əvvəl gətirilən yeməyi yemədiyini gördü, başını buladı:

– Yaşar çörək yemək lazımdı!

– Yox mən heç nə istəmirəm! Mətləbə keçək! – Yaşar hər şeyin tez bitməsini və öldürülməsini istəyirdi.

– Belə çıxır ki... – o Yaşarı süzdü, – razılaşmırsan?

– Yox Otto, olmaz. Nə istəyirsən et! Mənim orada iki qardaşım var, başa düşürsənmi? – Ottonun  üzündən onun anlamağını görüb əlavə etdi, – Doğma qardaşlarımı nəzərdə tuturam.

– Hə, doğma qardaşlar, – başı ilə onu anladığını təsdiqlədi. – Səni anlayıram. Mən axı dedim ki, səs gücləndirici ilə onlarla danışarsan, məsələni ayırd edərsən, qoy bizim tərəfə keçsinlər!

– Yox, sən bizi tanımırsan! Onlar elə biləcəklər mən dözə bilməyib sizinlə razılaşmışam. Onlar ölər, amma təslim olmaz. Başa düşürsənmi? Mənsə onların ölümünə səbəb ola bilmərəm! Bəlkə onlar bu müharibədə bu gün, ya sabah öləcək, amma onların ölümünün səbəbi mən olmayacam! Onlar mənim qardaşımdır, biz üç qardaşıq, başqa kimsəmiz yoxdur. Başa düşürsənmi? Bizim, üçümüzün biri-birindən başqa kimsəsi yoxdu.

Hər ikisi bir anlıq susdu və Yaşar asta-asta, lakin qətiyyətlə dedi:

– Mən bunları sənə niyə danışıram ki, nə istəyirsənsə et!

Sanki Ottoya Yaşarın dedikləri indi çatdı:

– Yox əvvəlcə de görüm, necə yəni sənin kimsən yoxdur? Atan, anan, bacın, başqa qohumların məgər yoxdur?! Sən bunu demək istəyirdin? Mən düzmü başa düşdüm?!

– Hə, hamısını öldürüblər, ya da diri-diri yandırıblar!

Ottonun qaşlarını dartı, üzünün ifadəsi dəyişmiş halda, qeyzlə dedi:

– Demə ki, haylar edib? – o Yaşarın üzündən sualın cavabını oxuyaraq, – Ola bilməz, denən yox, onları haylar qırmayıb de!

Yaşarın qırıq-qırıq səsi gəldi:

– Haylar… Haylar… – və bağırdı – Hə, lənətə gəlmiş haylar qırıb, ermənilər qırıb. – zarıdı, – Hə, oldumu, razı qaldınmııı?

Otto heyrətlə Yaşarı süzdü:

– Yoxxx… Bu necə kor sədaqətdir, belə? Yəni sən bu olanlardan sonra da ruslara sadiq qalırsan? Bu sədaqət deyil, bu axmaqlıqdır.

– Yox mən artıq kimsəyə sadiq qalmaq istəmirəm, mən yalnız qardaşlarımı incidə bilmərəm, onları gözü kölgəli edə bilmərəm. Bu bizim oyun deyil. Kim başladıb da bilmirəm? Niyə başlanıb da bilmirəm? Mən bilmədiyim bir şeyə qol qoya bilmərəm! Çünki mən sizin işinizə qol qoysam, qardaşlarım sovetlərin işinə baş qoyacaq! Başa düşürsən Otto?

– Mənim sənə sözüm yoxdur! – alman zabiti təəssüflə başını

yellədi, onun gözlərində təəccüb oxunurdu. Masada olan kağız qovluğunu açdı, almanca nəsə yazıb Yaşara dedi: – Səni Zəfər bəylə göndərəcəklər türk diviziyasına, eşidirsən?! Mən yazıram ki, kəmsavadsan, xəritə zad bilmirsən, meşədə azmısan. Yəqin ki, bir az incidəcəklər, mən dediyimdən başqa söz demə. Və mütləq de ki, türksən, azərbaycanlısan. Rus dilində səlist danışma, özünü gicliyə qoy, de ki, rus dilini yaxşı bilmirəm. – Yaşarın key-key ona baxdığını görüb bağırdı: – Anladın?! Və birdə türk diviziyasına getməyə hazır olduğunu de, mən bundan artıq sənə kömək edə bilmərəm…

– Anladımmm… – Yaşar heyrətlə Ottaya baxırdı. – Niyə mənə kömək edirsən?!

Otto qovluğu bağlayaraq dedi:

– Ümid edirəm ki, bu müharibə tezliklə bitər… – türkcə dedi. – Tanrı səni qorusun Yaşar! – arxadan qapını döyəclədi, alman əsgərləri qapını açdı və çıxarkən Otto dedi: – Ümid edirəm ki, bir gün yenə görüşəciyik, müharibədən sonra… Görüşənədək…

Bir müddət sonra Yaşarının olduğu otağın qapısı açıldı, 4 nəfər içəri girdi, Yaşar gözlərini açaraq onlara baxdı. Əsgərlərdən biri dedi:

– Bu şanlı alman ordusunun palkovniki Şulzdur, mən onun tərcüməçisiyəm… – rus dilində dedi.

Yaşar, palkovniki, tərcüməcini və iki alam əsgərini süzdü, oturduğu stuldan ayağa qalxdı və dedi:

– Mən türkəm, türk…

– Bu professor da hamını türk çıxarır, – alman polkovniki mızıldandı və üzünü Yaşara tutaraq dedi, – amma sən hərbi hissən haqqında heç bir məlumat verməmisən…

Əsgərlərdən biri avtomatı ona tuşladı, digəri isə onun əlini tavanda olan zincirə qandalladı. Bundan sonra tərçüməçi Yaşara dedi ki, polkovnik ondan hərbi hissələrinin yerini soruşur. Yaşar özünü gicliyə qoyaraq rus dilində dedi:

– Mən bilmir rusça yaxşı… Meşəəə… Meşədə azdım. Əsgər var çoxlu… Çoxlu əsgər…

Yaşarın dediklərini dinləyən tərcüməsi polkovnikə dedi:

– Cənab polkovnik, bu rus dilini düz əməlli bilmir, deyir ki, meşədə azdım, çoxlu əsgərimiz var, belə başa düşürəm ki, say bilmir…

Polkovnik Şulz gülümsündü:

İndi baxarıq nə bilir, nə bilmir? De ki, danışsın, yoxsa öldürəcəm onu.

– Danış, gəldiyin hissə harada yerləşir, danış. Başa düş ki, yaşamağın üçün yeganə yol budur! – tərcüməçi dedi.

– Meşədədir ordumuz… – Yaşar ona uzadılan kartaya baxıb, – Mən yazmaq bilmir… Xəritə bilmir…

Polkovnik Şulz başı ilə əsgərlərə başlamasını əmr etdi. Əsgərlər Yaşarı döyməyə başladı. Yaşarın üzü-başı qan içində idi, amma döyülməyinə baxmayaraq səsi çıxarmırdı, hətta inləmirdi. Polkovnik bunu görüb əsgərlərə dayanmasını əmr etdi və tərcüm-çiyə dedi:

– Soruş ki, rusça bilmir, bəs niyə öz dilində yalvarmır, ağlamır?!

Tərcüməçinin soruşmasından sonra Yaşar dedi:

– Kişi ağlamaz…

Bu cavabı eşidən polkovnik Şulz gülərək dedi:

– Mən çox ağlayan kişi görmüşəm. Və gözü ilə tərcüməçiyə tərcümə etməsini əmr etdi…

– Türk ağlamaz, türk kişisi ağlamaz. – Yaşar özü də bilmədi niyə məhz “türk kişisi” sözünü işlətdi, amma hiss etdi ki, bu anda onu ifadə edəcək ən doğru söz budur.

Polkovnik Şulz gülümsündü:

– Baxaq. – Başı ilə əsgərlərə “başlamalarını” əmr etdi.

Bir alman əsgəri neft peçində bıçağı qızdıraraq Yaşarın üzünə baxdı, daha sonra polkovnikin başı ilə təsdiqləməsindən sonra Yaşarın yaxasını dartıb cırdı, bıcağı yavaş-yavaş onun sinəsinə çəkdi, köz rəngi almış bıcıq cızıldayaraq onun ətini kəsdi, kəsiyin ilk hissəsini bıcağın istisi yandırdığından bir o qədər qan axmadı, şıramın aşağı hissəsindənsə qan qurşağına doğru süzülürdü. Yaşarın sifəti ağrıdan portüb qıpqırmızı olmuşdu, amma cınqırını belə çıxarmadı. Yaşar gözünü qaldırıb alman əsgərinə,

daha sonrasa polkovnik Şulza baxdı, qəlbi bu işgəncədən deyəsən rahatlanmışdı və düşündü:

– Mənim bacardığım bax budur. İncidin, əzin, öldürün, mən dözə bilərəm. Kim günahkardı qoy Allah cəzasının versin, mənə nə, kimdir bizim dostumuz, ruslar, ya almanlar, mənə nə?! Bunu mən ayırd edə bilmirəm. Əzaba dözməyisə yaxşı bacarıram. Bunusa bilirəm! – o gülümsündü.

Yaşarın sinəsinə çəkilən ikinci şıramdan sonra dişlərini biri-birinə qıcadı, bağırmamaq üçün bütün iradəsini topladı. Bütün bədəni qana bulaşmışdı. Yaşar başını qaldırıb gözlərini əl boyda pəncərənin barmaqlıqlarına zillədi. Elə bu vaxt qapı açıldı, Otto içəri girdi. Yaşarın halını görsə də, soyuqqanlı görsənməyə çalışdı, üzünü polkovnikə tutub dedi:

– Cənab Şulz, bu türkdür! Biz axı onu Zəfər bəyə təhvil verməliyik! Bu rus dilində bilmir! Amma döyüş bilir, alman ordusuna isə döyüşçü lazımdır!

Polkovnik əli ilə əsgərlərə dayanmasını əmr etdi və Ottoya çönüb:

– Professor, bu heç nə bilmir?! Sən onun gözündəki qorxmazlığa bax. – dedi.

– Mən də onu deyirəm, cənab polkovnik. Bizə belə əsgərlər lazımdı, belə əsgərlərin bizə yox, ruslara nifrət etməsi lazımdır! Sizsə deyirsiz öz əlimizlə onu baltalayaq?!

Polkovnik gülümsündü:

– Yaxşı professor! Siz oxumuş adamsız! Sizə hörmətim sonsuzdur! Onda əsgərimizin qeydinə qalın. Mən getdim, – ürəkdən güldü. – Professor sənə tərçüməçi lazım deyil ki… Sən hər dili bilirsən… İcazənizlə biz getdik. – Üzünü Yaşara tutub təəcüblə başını yellədi, – Doğurdan da səsi çıxmadı, inanılmazdır…

Otto polkovnikin getdiyini görüb əsgərə bağırdı:

– Açın qolunu… Tez tibb işçisini çağır… Bilmirsiniz ki, bu türkdür. Sabah Zəfər bəy bura gəlir, ona nə deyəcəyik? Bilirsiniz ki, türklər üstündə söz haqqı onlarındır. Mən ki, sizə şəxsən tapşırmışdım bunu incitməyin, bu mühüm adamdır. – O, Yaşara qarşı rəhmini bu sözlərlə gizlətmək istəyirdi.

# BURADAN BİR XƏZƏR KEÇDİ

*...Bizi haradan hara gətirdiz?*
*Ölüm gətirdiz, yara gətirdiz,*
*Vay-vay kozum vay,*
*Vay-vay Xəzərim vay,*
*Ağ halvamızı qara gətirdiz...*
*Ağ halvamızı qara gətirdiz...*

Aslan bu yazdıqlarıma bilmirəm inana biləcəksənmi və ya mən şahidi olduqlarımı sənə doğru-dürüst izah edə biləcəmmi?! Şahidi olduqlarım o qədər qarmaqarışıqdır ki, olanları özüm belə, beynimdə bir rəsimdə otuzdurmuş deyiləm, o üzdən şahidi olduqlarımı sadəcə yazacam. Hadisələri nəticələndirməyi isə sənin öz öhdənə qoyuram…

…Ottonun əmrindən sonra tibb işçisi Yaşarın yaralarını tikib sarıdı, ağrıkəsici vurdu, daha sonra əsgərlər onu daha rahat bir otağa keçirdilər. Bir müddət sonra Otto gəlib onu yoluxdu, arxasınca gələn əsgər yenə bir sinidə bir neçə çeşid yemək və içəcək gətirdi, Ottonun əl işarəsi ilə əsgər otaqdan çıxdı. Otto bir çörək dilimini götürüb, əli ilə kəsərək bir tikəsini ağzına qoydu və qalan hissəsini Yaşara uzatdı və mehriban səslə pıçıldadı:

– Mən sənlə çörək kəsmək istəyirəm, – gülümsündü, – otur və çörəyini ye!

Yaşar çörəyi alaraq bir tikəsini ağzına qoydu, çeynəyə-çeynəyə dedi:

– Çox sağ ol Otto…

– Xoşdur… – bir əlini ehmalca Yaşarın çiyninə vurdu və dedi: – Başqa düşərgədən daha bir neçə əsir gətirirlər, yoldadılar, onları gətirənəcən gedim bir az dincəlim. – Yenidən gülümsündü, – bax, nə istəsən de, tapşırmışam. Özüm də səni yoluxacam. – çönüb otaqdan çıxdı.

Yaşar bu dəfə asta-asta yeməyə başladı, ağlındasa alman zabitləri olan Otto ilə Şulzu müqaisə edirdi:

– Bax ikisi də alman zabitidir, amma polkovnik Şulz qəddar, qan içəndir. Kapitan Otto isə insanı kefiyyəti yüksək olan biridir, müharibə zamanı insanlığını qorumaq hər kəsə nəsib olmur, amma o, bunu bacarıb. Deməк ki, insanları millətlərə, dinlərə bölməzdən əvvəl yaxşı və pis olaraq ikiyə bölmək lazımdır… – Bir an düşünməyi kəsdi, daha doğrusu, ağlına başqa bir fikir gəldi və beynində danışmağa başladı, – Amma birdən Otto oyun oynayırsa?! Yəqin ki, axı hər ikisi əks-kəşfiyyat zabitidir… – Ottonun rəvtarlarını xatırlayaraq, son dediklərinə etiraz etdi, – Yox, yoxxx… Mən Ottoya heç bir məlumat vermədim və o da axırda məndən heç bir məlumat almadan dedi ki, rus dilini bilmirəm deyim. Bəlkə də gələcəkdə, başqa bir məqsədi var? – Bu sual Yaşara ağır gəldi, cavablandırmadan başqa bir sualı beynində səsləndirdi, – Otto dedi ki, almanlar öz gələcəkləri naminə bəzi qurbanlar verməyə məcbur edilib və bu qurbanları verdi. Bəs almanları məcbur edən kimdi, Sovetlər, ya Amerika? Almanlar Sovet İttifaqına müharibə elan etdiyinə görə, almanları məcbur edən Amerika və yandaşlarıdır?! Demək ki, almanları bəzi qurbanlar verməyə məcbur edən Amerikadır. Ahaaa, – alnını ovuşdurdu, daha bir qaşıq şorbadan ağzına qoyaraq düşünməyə davam etdi, – elə isə Amerika almanlardan nələri istəyib? Düşünək… Almanlar yahudiləri qırır və Sovetlərə hücum edib, ahhaaa… Dayan, dayannn, dəqiqləşdirək, yahudiləri qıran alman xalqı deyil, bu gün hakimiyyətdə olan Hitlerdi, demək ki, bunu Hitlerdən tələb edən Amerika olub… – Niyəsə bir anlığa hər şeyi unudub, özündən xoşu gəldi, özünü ən zəki insan hesab etdi, şəstlə əlini havada oynatdı və beynində danışmağa davam etdi. – Belə çıxır ki, Amerika Hitleri dəstəkləyərək Alman hakimiyyətinə gətirib və ən azı mənim gördüyüm iki şərti olub. Birincisi, yahudiləri qıracaqsan; İkincisi Sovet İttifaqına hücum edəcəksən və Amerika əvəzində Hitler hakimiyyətinin yüksəlişinə göz yumub. Amma yoxx, dayannn… – Yaşar özü-özünə etiraz etdi, – Axı mən bunu niyə görə bilmədim… Hitler tək Rusiyaya hücum etməyib ki, o bütün Avropanı işğal edib və o bütün Avropadakı yahudiləri düşərgələrə yığıb qırır, qətl edilir… Niyəəəə, bu Amerikanın

nəyinə lazımdır? – Yaşar iştahla daha bir tikə yeməkdən ağzına atdı və düşünməyə davam etdi, – Amerika, sən Avropada xaus yaratdın, onları biri-birinə salıb zəiflətdin, demək ki, sən yerində durub ticarət edib böyüyən zaman, onlar kiçilir, bunun üçün sənə bir axmaq lazımdı və o Hitler oldu… Aydındır, artıq bütün Avro-Asiya qitəsi biri-biri ilə savaşır, zəifləyir və doğru anda, doğru zamanda hamısını öz caynaqlarına keçirəcəksən. Bəs Yahudiləri niyə qırırsan?! Yahudiləri qırmaq sənin nəyinə lazımdır?! Düşünək… Bir, yahudilərin bütün sərvətini Hitler toplayacaq və sən bu sərvəti alıb əvəzinə onunla ticarət edəcən… İblissss, Hitlerə dünyanı dağıtdır, dünya sərvətini onun əli ilə toplat, sonra onları alıb, dəmir-dümürünü Hitlerə sat ki, müharibəyə davam etsin… İblissən Amerika… Düşmən yoxdursa, orduya da ehtiyac qalmaz. Oğru yoxdursa, cinayət yoxdursa, məhkəməyə ehtiyac qalmaz! Müharibə yoxdursa, silaha ehtiyac yoxdur! İblis, oturmusan okeanın o başında, savaş yaratmısan ki, istehsal etdiyin dəmir-dümürü satasan. Amma dayan…, – Yaşar ayağa qalxdı, yaralarının ağrımasına baxmayaraq, iri adımlarla otaqda var-gəl etdi və düşünməyə davam etdi. – Müharibə sonsuzacan davam edə bilməz… Elə isə, bir gün bu dava bitəcək, əsas qalib Amerika olacaq, amma o, cinayətkar Hitleri sonsuzacan dəstəkləyə bilməz, Amerika əlinin dünya qanına batmasını gizlətmək istəyəcək və o günü demək ki, Amerika Hitleri məhv edəcək. Beləcə həm Avropanın, həm yahudilərin qurtarıcısı olacaq… İblisss… Mələk kimi görünməyə çalışan İblisss! – Yaşar dayandı, başını qaşıdı, – Bəs Sovet İttifaqı bunun harasındadır?! Düşün, düşün Yaşarrr… Sovet Rusiyası türkləri qırır, yurdlarını, tarixini yox edir, buraları haylaşdırır, ruslaşdırır… Ahhaaaa… Niyə qırılan, türklər və yahudilərdir?! Türklərin və yahudilərin ortaq yanı nədir?! Türk və yahudi, sizi bir-birinizə bağlayan nədir?! Nəəəə?! – Yaşar hikkəsindən dodağını dişlədi, işgəncə zamanı partlamış dodağı yenidən qanadı, amma o buna əhəmiyyət vermədən düşünməyə başladı. Yenə gəlib ilişdim türk məsələsində?! Türk və yahudi, sizi biri-birinizə bağlayan nədir, niyə hər ikinizi qırırlar, niyəəə?! – Yaşar anidən hiss etdi ki, beyni yorğunluqdan çatlayır, gəlib çarpayılardan birinə uzandı və gözünü yumaraq mürgüləməyə başladı.

Yaşar nə qədər zaman keçdiyini bilmədi, qapının açılması səsinə yuxudan oyandı. Alman əsgərləri olduqca çəlimsiz, ağ-qara zolaqlı paltarda birini gətirmişdilər, əsgərlər alman dilində ona nəsə dedikdən sonra qapını bağladılar, o asta-asta və kiçik addımlarla gəlib Yaşarın uzandığı çarpayının qarşısındakı çarpayıda büzüşərək divara qısıldı:

– Hallo, – alman dilində salam verib örtüyü yaxasına qədər çəkdi.

Yaşar onun alman dilində salam verməsini görüb

– Hallo, – deyib başını yenidən yastığa qoydu, amma bir gözü bu çəlimsiz adamda idi. Yaşar min müsübət görmüşdü, 3 ildi müharibədə idi, amma belə arıq, çəlimsiz adam görməmişdi. Onun çəkisi 40 kilo ancaq olardı, sanki onun üzündə-bədənində əti yoxdu, sanki skiletin üzərinə dəri çəkmişdilər, vəssalam. Yaşar bunu düşünərək yuxuya getdi.

Yavaş-yavaş dan ağarmağa başlayırdı, balaca pəncərədən içəri düşən günəş işığı otağı getdikcə daha çox aydınladırdı. Yaşarın qulağına lap uzaqdan bir səs gəlirdi, kimsə deyəsən "halva" barəsində danışırdı. Yaşar harada olduğunu bilmirdi, hər yan zülmət qaranlıq idi və kimsə, haradasa zarıyırdı:

*–... Bizi haradan hara gətirdiz?*
*Ölüm gətirdiz, yara gətirdiz,*
*Vay-vay kozum vay,*
*Vay-vay Xəzərim vay,*
*Ağ halvamızı qara gətirdiz...*
*Ağ halvamızı qara gətirdiz...* – kimsə zarıyaraq oxuyurdu.

Bu ağıt Yaşarın iliyinə işlədi, bədəni çimçəşdi, anidən hiss etdi ki, ağıtı lap qulağının dibində oxuyurlar, – "…Ağ halvamızı qara gətirdiz..." – diksinərək yuxudan ayıldı, hiss etdi ki, yuxunun təsirindən bədəni qıc olub, sevinərək pıçıldadı:

– Şükür, yuxu imiş… – elə bunu demişdi ki, eyni ağıtı eşitməyə başladı, – "Vay-vay kozum vay, vay-vay Xəzərim vay…, Ağ halvamızı qara gətirdiz..." – çimçəşərək səs gələn tərəfə baxdı, bayaq gətirilən əsir yuxusunda sayaqlayaraq bu ağıtı deyirdi və elə titrəyirdi ki, sanki, indi ürəyi partlayacaq. Yaşarın bədə-

ninin qıcı hələ də açılmamışdı, buna məhəl qoymadan topallaya-topallaya iki addımlıqda olan çarpayıya yaxınlaşdı, sayıqlayan dustağı sirkəliyərək yuxudan oyatdı. Yuxudan ayılan dustaq onun yaxasından kiminsə tutduğunu görüb, yalvarıcı səslələ, almanca dedi:

– Vurmayın… Vurmayın…

Yaşar onun yuxudan ayıldığını görüb, daha heç nə demədən ayağa qalxdı, topallaya-topallaya otağın ortasında olan masaya yaxınlaşdı, masadakı su dolçasını götürüb həmin dustağa gətirdi. Dustaq utancaq halda gülümsündü, dolçanı alıb bir neçə yudum su içdi:

– Dankesçön. – almanca təşəkkür edib, ayağa qalxdı, dolçanı gətirib masaya qoydu.

Yaşar bir xeyli gözü çuxura düşmüş, bu çəlimsiz adamı izlədi, onun türkcə sayıqlamasını və almanca danışmasını düşündü, əli ilə onu göstərib təkrarladı:

– "Vay-vay kozum vay, vay-vay Xəzərim vay, Ağ halvamızı qara gətirdiz..." – və əlavə etdi, – türkcə…

Dustaq gilas saplağı kimi qalan boğazını əyərək, başı ilə təsdiqlədi:

– İst auf türkiş. – almanca "türkcədir" dedi.

Yaşar başını yelləyərək gülümsündü, azərbaycan dilində dedi:

– Almanca bilmirəm… Rus və türk dilini bilirəm… Mən azərbaycanlıyam – niyəsə əlavə etdi, – türkəm… Azərbaycandan… Xəzər dənizi. – Hecaladı, – Xəzərrr… Kaspii dənizi, bax oradanam…

Dustaq Yaşarın üzünə baxaraq kövrəldi, Yaşarı qucaqlayaraq ağlamağa başladı və türk dilinin bir şivəsində dedi:

– Sən türksən hə? – bərk-bərk onu qucaqladı. Yaşarın tikişləri təzə olduğundan yaraları ağrıdı, lakin Yaşar heç bir şey demədən onu qucaqladı və dedi:

– Hə türkəm…

– Azərbaycandan… – qəribə tərzdə sevindi, – Xəzər dənizinin yanından, haaa? – Əli əsə-əsə dolçanı götürüb bir az su içdi, taqətsiz halda stulda oturdu, – Xəzər dənizi haaa?! – yanağından yaşlar süzülürdü.

– Hə, Xəzər dənizi... – Yaşar heç nə anlamadan dedi.

– Qafqaz dağlarını görmüsən? Xəzəri görmüsən? Araz çayını görmüsən?

– Hə, əlbəttə. Mənim kəndim Araz çayının yaxınlığındadır…

– Mənim adım Erazdır. – fəxrlə təkrarladı, – Eraz…

– Mənimdə adım Yaşardı. Eraz, yəni Araz, eləmi?

– Yaşar, tanışlığa şad oldum. – Yaşarın sualına cavab verdi – Hə Eraz, ekiz qardaşım vardı, onun adı isə Ökürdü. – izah etdi, – Axı Araz ilə Ökür çayı ekiz qardaşlar kimidir, qovuşub Xəzər dənizinə tökülürlər… – Erazın niyəsə rəngi qaçdı.

– Siz Kür çayına Ökür deyirsiz?

– Hə Ökür…

– Siz hansı türklərdənsiz? Harada yaşayırsız? Kəndinin adı nədir? Bəs ekizin hardadır? – Yaşar sualları bir nəfəsə verdi.

Eraz gözünü qırparaq Yaşara baxdı, dərindən nəfəs aldı, gözündən bir neçə damla yaş süzüldü və pıçıldadı:

– Mən aşgenaz türküyəm, musəviyəm, yahudilər kimi… Aşgenazlar mərkəzi və şərqi Avropada yaşayır, Almanıya, Polşa, Macarıstan, Litviya, Ukraniya. – Pərt halda əlavə etdi, – Daha doğrusu yaşayırdıq…

– Avropada yaşayan musavi inanclı türklər? Yahudilər kimi? – Yaşar onun sözünü kəsərək təəcüblə soruşdu. – Aşgenazmı?

– Hə, mən yahudilər kimi Musa dininə inanan aşgenaz türküyəm, mən Almaniyada yaşayırdım. – izah etdi. Şərqi və mərkəzi Avropa yahudilərinə aşgenaz deyilir, amma agenazlar içində yahudi olan, yahudi-türk qarışığı olanlar, bir də hələ türk olan aşgenazlar var… – Bir an duruxdu və dedi, – Artıq türk aşgenazlar qalıbsa… Qalsa…

– Başa düşmədim? Necə yəni, türk aşgenazlar qalıbsa?! Nə olub ki?!

– Mənə bax, hə, baxxxx. – əli ilə özünü göstərdi: – Mən türk aşgenazlarından olan bir kənddə doğuldum. Kəndimin adı Kasova idi və 2000 dən çox ailəsi olan Kasovadan tək mən qaldım… – Birdən ildırım vurmuş kimi dayandı, pıçıldayaraq dedi, – Yaşar, mən demişəm ki, karay türküyəm, aşgenaz olduğumu bilsələr

öldürəcəklər məni.

– Başa düşdüm, – Yaşar onun əlindən tutub gözlərinə baxdı, – Eraz anladım, narahat olma.

– Yaşar düşünmə ki, ölümdən qorxuram. İnan ki, ölümdən qorxmuram. Amma mənim bildiklərim gərək ölməsin, bəlkə də mənim biliklərimin tək şahidi mənəm. – Üzündəki acizlik anidən yox oldu, qəribə olsa da o çəlimsiz sifətdə bir sərtlik yarandı.– Xəzər türklərinin tarixi ölməməlidir! Aşgenaz türkləri, Krımçaq türkləri ölməməlidir! Kasova, Urova kimi türk soyları ölməməlidir! Türkün Tanrı inancı ölməməlidir!

– Eraz səni başa düşmədim? Demədin ki, dinin Musa dinidir, müsəvisən, Tanrı inancı haradan çıxdı?! Türklük hara, yahudilik hara?! Aşgenaz nə deməkdir, aşgenazlar bütün Avropaya necə yayılıb?! Xəzər türkləri kimdir, bizim dənizin adı ilə əlaqəsi varmı?! Sizin kəndə nə oldu?! Bayaq sayaqladığın ağıt nə ağıtıdır?! Ağ halvamı qara gətirdiz, nə deməkdir? – Yaşar hövsələsiz halda əlavə etdi, – məni lap çaş-baş saldın.

– Hə… – Eraz köksünü ötürdü, stula oturdu, əli ilə Yaşarın oturmasını işarə etdi və dedi: – Yaşar otur, bu uzun bir söhbət olacaq… – və təkrarladı, – Ağ halvamı qara gətirdiz, – Yaşarın gözlərinə baxdı, – bu söz nə deməkdir, hə?

– Hə? – Yaşar tərki məkan olaraq Erazın sirrini bilmək istəyirdi.

– Biz də belə bir adət var, toyda, düyündə, bayramda ağ halva verirlər, yasda isə qara halva verirlər…

– Ağ və qara halva? – Yaşar onun sözünü kəsərək soruşdu.

– Hə, bu qədim bir türk adətidir, çox təssüf ki, çoxları bunu unudub! Sözümü kəsmə, dinlə… – Yaşarın başı ilə onun dediklərini təsdiqlədiyini görüb söhbətinə davam etdi, – Atamın ulu nənəsi vardı, 140-dan çox yaşı vardı, o tez-tez bu sözü deyərdi “ağ halvamızı qara gətirdilər”. Düzdür bu da məhşur deyimdi, amma nənəm bu sözü başqa mənada deyirdi…

Yaşar qurcalandı, dözə bilməyib, Erazın sözünü kəsdi:

– Necə yəni başqa mənada?

Eraz tərs-tərs onu süzdü və danışmağa başladı:

– Ebam deyirdi ki, biz Tanrıya xəyanət etmişik. Türklər artıq

Tanrını türk kimi yox, yahudi kimi yad edir!

– Başa düşmədim, "eba" kimdir? "Tanrını yəhudi kimi yad edirik" nə deməkdir? – Yaşar mahsum uşaqlar kimi çiynini çəkərək yenə onun sözünü kəsdi.

– "Eba" bizdə ulu anaya deyilir, siz də "ebe" və ya "əbə" deyilir.

– Hə, "əbə" sözünü bilirəm, yadıma gəlir anam öz anası "əbə" deyirdi. – anidən üzü buz kəsildi.

– Nə oldu? – bunu hiss edən Eraz ondan soruşdu.

– Anamı, bütün nəsil-nəcabətimi, kəndimizi haylar qətl edib, yandırıb, o yadıma düşdü.

– Mənim kəndim kimi, demək harada yaşamasından aslı olmayaraq, müsəliman və ya musəvi olmasından aslı olmayaraq, hər yerdə türkü qırırlar…

– Sizin kəndi də qırıblar? – Yaşar qeyzlə soruşdu.

– Yaşar danışıram, səbirli ol! Vaxtımız yoxdur, bəlkə də bu sorğudan sonra məni güllələdilər! Hər şeyi sənə danışa bilsəm, ölsəm belə qəm etmərəm… – Dolçanı əlinə alıb bir neçə yudum su içdi və danışmağa başladı. – Hə ebam deyirdi ki, biz Tanrının əmrinə əsasən Musanı qəbul etmişik, amma bu o demək deyil ki, türk yahudiləşməlidir! Bax o belə deyirdi… Və bu səbəblə də hey Tanrıya yaxarırdı, deyirdi axmaq türkü bağışla və bu ağıtı deyirdi "…Bizi haradan hara gətirdiz?,

Ölüm gətirdiz, yara gətirdiz,
Vay-vay kozum vay,
Vay-vay Xəzərim vay,
Ağ halvamızı qara gətirdiz... – Eraz susdu.

- Danış, danış, dayanma Eraz – Yaşar onu tələsdirdi

*1910-cu il. Almaniya, Kosova kəndi…*

Heç bilmirəm hekayəyə necə başlayım. Məncə ilk olaraq, tez-tez "Vay-vay kozum vay, Vay-vay Xəzərim vay, Ağ halvamızı qara gətirdiz..." ağıtını deyən ebamdan danışsam daha düzgün olar. Onun əsl adı Çiçəkdi, amma hamı ona Asaba deyir, bu söz

hərfi mənda “as əbəsi”, “as anası” deməkdir, çünki o pir soyundandı və o türk aşgenazların dini qadın rəhbəri sayılırdı. Atamın adı Aaran olsa da, ona Qağam deyirlər, çünki bu regionda türk aşgenazların ən nüfüzlu dini rəhbəri hesab edilirdi. Qeyd etməliyəm ki, bizim inanca görə qağam üst dini rütbədir, asaba isə əslində qağama tabe olan, əsasən qağamın həyat yoldaşı olan bir dini rütbədir ki, qızlara, qadınlara dini biliklərin öyrədilməsində köməklik etsin, lakin ulu nənəm-əbəm Çiçək yaşadığına görə o hələ də bu dini vəzifəni həyata keçirir, bu səbəblə anam Aybənizə sadəcə eba deyirdilər. Bu arada qeyd edim ki, bizim inanca görə qağam vəzifəsini və asaba vəzifəsini daşıyanlar bunun qarşılığında pul ala bilməz, atamın digər peşəsi həkimlikdir, o Almaniya tibb inistutunu bitirib. Bu arada qeyd edim ki, o pir soyundan olduğundan, bütün kamlar, qağamlar kimi qədim türk şəfaçılıq sənətini bilirdi və gənc yaşlarında bu şəfaçılıq biliklərini müasir tibb elmi ilə birləşdirdiyindən sayılan həkimlərdən idi.

Bizim kəndin adı Kasovadır, bundan başqa yaxınlıqda Urova, Azova, Masakova, Sakamova, Samarova, Okurova, Pirçiova kimi kəndlər vardı. Əslində bu kəndlərin adları burada yaşayan türk boylarının adı ilə bağlıdır, yüz illər boyu türk boylarının müxtəlif qolları müxtəlif yerlərdə kənd salmışdı, bu səbəblə bu ərazilərdə bu adla bağlı çoxlu kəndlər yaranmışdı, bu kəndlərin bir çoxlu dövlət qurumlarında fərqli adlandırılsa da, aşgenaz türkləri bu kəndləri öz soydaşlarının boy adı ilə çağırırdı. Amma eyni adlı boyların kənd adlarında bəzi fərqləndirici xüsusiyyətləri vardı. Misal üçün, bizim Kasova kəndi Kas boyları ilə bağlıdır və əslində Kasova adı “Kas və oba” sözlərindən formalaşmışdır və hərfi mənada “Kas obası” deməkdir, amma bununla yanaşı, “Kas eli” mənasında Kasil, “Kas öyü” mənasında Kasoya, “Kas adamı” mənasında Kasçı, həmçinin “Kaslar” mənasında Kason və Kast kimi kənd adları mənə məlumdur və təxminən digər boylar haqqındada eyni ilə bunları demək olar.

Qəribə olsa da bizim ailədə uşaqlar ekiz olurdu, ebamın dediyinə görə əvvəllər bu boyda çox ailənin uşaqları ekiz doğulurmuş, lakin onlar törəni pozub, günaha batıqlarına görə daha ekiz uşaqları olmamışdır və tək bizim nəsildə ekiz uşaqlar olmağa da-

vam edirdi. Mənim adım Erazdır, ekiz qadaşımın adı isə Ökürdür və bizdən kiçik ekiz baçılarımız var, Lalə və Ela. Birdə xatırladım ki, Pirelinin qağamı Abramın ekiz uşaqları olur. Ebamın deyirdi ki, ikizlər törəsinə görə biz yalnız ikizlərdən biri ilə evlənə bilərik və anladığınız kimi  Abram qağamın ekiz qızları var, onların adı Ece və Çiçekdir. Bizi tez-tez görüşdürürlər və kimin-kimlə evlənməsinə isə biz özümüz qərar verməli idik və 15 yaşımızda bizə nişan taxılacaqdı.

Ebam yaşlı olmasına baxmayaraq, olduqca gümrah və qıvraq qarı idi, səhətində-sağlığında heç bir problem yoxdu. Qağam varisləri kimi biz qardaşları xüsusi hazırlayırdılar, lakin bütün bunlara baxmayaraq ebam qardaşımla və mənimlə xüsusi maraqlanırdı, deməliyəm ki, mən onun gözdəsi idim, çünki mən tariximizi, törəmizi öyrənməyə çox maraqlı idim.  Mən  atamın bizə keçdiyi törə dərslərini  də, şəfaçılıq dərslərinidə həvəslə öyrənirdim, həmçinin ondan sonra gedib düşürdüm ebamın yaxasına, sualı-suala calayırdım,  çünki atamdan çəkindiyimə görə ona əlavə sual verməyə ürək etmirdim.  Bu səbəblə gələcəkdə qağam vəzifəsinə vəlihədi kimi məni görürdülər, lakin bununla belə, hər iki qardaş bütün dərsləri öyrənməkdə məcbur idik.

Bir gün yenə ebamın otağına getdim,  o bir güncdə oturub xəyallara dalmışdı. Gəlib onun yanında oturdum, başımı onun dizinə qoydum. O xəyaldan ayılıb məni gördü, gülümsündü:

– Mənim pir balam gəlib, – dedi və əlimi qaldırıb öpdü. O həmişə belə edirdi.

– Eba biz türk deyilikmi?!

– Hə, Eraz  balam, biz Nuh oğlu, Yasəf  Törökün törəməleriyik…

– Bəs onda Xəzər kimdir? Kaslar kimdir? Aşgenaz kimdir?

– Mənim pir balam böyüyüb! – gülümsündü və dedi, – Dur, düz əmməli otur və üzümə bax!

Durub yerimdə bardamaş qurdum, ebamın gözlərinə baxdım, o əlimdən tutub gözlərimə baxdı və dedi:

– Bəziləri elə bilir ki, Török Yasəfin oğludur, amma səhv edirlər. Babamız Nuh oğlu Yasəf, Ökün törəsini unutmadan ye-

rinə yetirdiyi üçün, atası xeyir-dua verərək onu “török” adlandırmışdır. – Və mənim üzümə baxdı və dedi, – İzah et görüm “török” nə deməkdir?

– Török sözü “törə” və Tanrı sözünün eşanlamlısı* olan Ök sözlərindən formalaşıb “Ökün törəsini yaşayan” mənasını verir.

– Bəs Yasəf Törökün neçə oğlu olub? – yenidən məndən soruşdu.

– Üç oğlu olub, As, Su, Ur və qalan bütün türklər onlardan törəyib.

– Bəs sonra? – ebam məndən soruşdu.

– Sonra atamız Asdan Ökas, Asok, Mas kimi soylar törəyib, Ökaslar zamanla Oğuz kimi çağrılıb və Oğuzlardan min illər boyu ayrılan bir çox qol Kas, Qus, Kaspi, Xəzər kimi adlanıb. Ur atamızdan Ökür, Tur, Urma, Mar kimi soylar törəyib. Su atamızdan Sak, Sapir, Sam, Masak, Sakam kimi boylar yaranıb.

– Başqa? – ebam sınayıcı nəzərlərlə məni süzdü.

– As və Ur boyları yenidən birləşib Esar və Azer boyu yaranmışdır.

Ebam cənəmdən yüngül bir çimdik aldı:

– Ə saqqalı ağarmış, hamsını bilirsən ki?

Mən qəşş edərək güldüm, mənə ləzzət edirdi ebamın mənim biliyimdən razı qalması. Bir az susduqdan sonra dedim:

– Amma aşgenaz məsələsini tam bilmirəm. Nə atam bu barədə danışır, nə sən! Deyirsəz ki, bu haqda tam böyüdükdə öyrənərsən?! Amma eba bir şey deyim, mən nəyisə bilmədikdə, gecə-gündüz onu düşünürəm və cavabını tapmadıqda dəli oluram.

– Doğurdan? – ebam qəribə tərzdə məni süzdü, mənim başımla dediklərimi təsdiqlədiyimi görüb alnımdan öpdü və pıçıldadı: – Demək ki, öyrənmək vaxtın yetişir.

– Eba onda de da, – sevincək onun üzündən öpdüm.

– Yasəf Török babamız, indi Qafqaz dağları deyilən yerdə, Ökür-Eraz çaylarının axıb töküldüyü Xəzər dənizinin qərb sahillərində yaşayıb, soyu orada törəyib çoxalıb, Török soyu buradan şərqə və qərbə, şimala və cənuba köçlər ediblər. Bu yerlərin ilk

* *sinonimi*

məskunları olan əcdadlarımız şimal dənizinə "Qara dəniz", cənub dənizinə "Qırmızı dəniz", qərb dənizinə "Ağ dəniz" və şərq dənizinə "Göy dəniz" adını verib, bildiyin kimi Xəzər dənizinin ilk adı Göy dəniz olub.

– Eba bunları bilirəm. Bizə niyə aşgenaz deyirlər? Niyə bütün aşgenazlar eyni dildə danışmır?! Sən bundan danış.

– Sak və Asok boylarından bir hissəsi 4-5 min il bundan əvvəl Eraz çayı və Xəzər dənizi ətrafından ayrılaraq Qara dəniz sahillərinə gəliblərmiş. Daha sonra Asok boyları düşmən tayfalarının hücumuna məruz qalır, yox olmaq təhlükəsi ilə üz-üzə qalan Asoklar ur soyundan Qamərlərə pənah aparır və onlarla qarışır və Qamər adı ilə xatırlanır.

– İncildə adı çəkilən Qomerlərmi?

– Hə, mənim çox bilmiş pir balam. – ebam yanağımı dartdı, razılıq əlaməti olaraq gülümsündü və danışmağa davam etdi, – Qaradəniz ətrafı son 4 min ildir Sak və Asok töröklərinin otlaqları olub və bu iki boyun adı ilə Qaradənizin qərb ərazilərinə Asekan deyilib. 1200 il bundan əvvəl Tanrıçı olan Oğuzların bir hissəsi Tanrı elçisi Musanı eşitdi, tanıdı, qəbul etdi və Roma zülmündən qaçan yahudilərə öz dövlətlərində sığnacaq verdi. Tanrıçı olan Oğuzlardan fərqlənmək üçün musəvi oğuzlara "Xəzər" deyildi, əslində min illərdi oğuz və xəzər sözü eyni məna daşıyırdı, lakin o gündən "xəzər" sözü "musəvi oğuzların" adına çevrildi. Tanrıçılıq dininin gərəyi olaraq, biz hər bir elçini qəbul etməli idik. Bu üzdən Xəzər xaqanlığında həm Tanrıçı, həm İsaçı, həm Musəvi türklər vardı. Daha sonra Məhəmmədi türklərdə olacaqdı. Amma biz Tanrını qəzəbləndirdik, biz Tanrının adını bəhanə edərək türkü dinlərə böldük, öldürüldük, öldük, – deyə bağırdı. – Biz Tanrıya xəyanət etdik, törəsini pozduq. Və səfil hallara düşdük… – ebamın kədəri üzünə vurmuşdu, dodağı əsirdi, gözləri dolmuşdu, səsi titrəyitdi, – Və beləcə son 900 ildir qədim asekan diyarlarında sahibsiz, başsız gəzirik… Bu səbəbdən bizə "asekan" sözündəm "askinaz" deyilir, yahudilər isə "s" səsini "ş" səsi ilə ifadə etdiyindən aşginaz deyirlər.

– Bir dəqiqə eba, anlamadım, biz Tanrıya xəyanətmi etmi-

şik?! Biz Tanrı törəsini pozmuşuqmu?! İsaçı, Musəvi və Məhəmmədi türkləri kimdir və necə yəni, onlar dini böldü?

– Sən Qorqud qağam, Aaran xaqan və Dükakın hekayəsini bilmirsənmi? – mənim təəccüblə ona baxdığımı görüb dedi, – Axı haradan biləsən? Bu hekayəni bilən neçə adam var ki?! – başını yellədi. – Amma sən biləcən və bunu bir gün bütün türklərə yayacan. – Bağıraraq soruşdu, – Eşidirsənmi Eraz? Söz ver, bir gün tariximizi dünyaya yayacan! Söz verirsənmi?

– Tanrıya and olsun eba, bir gün bütün dediklərini türklərə yayacam…

– Həəəə, onda danışım. – gülümsündü və danışmağa başladı…

*Qorqud qağam, Aaran xaqan və Dükakın hekayəsini...*
*930-cu il...*

Min illər gəlib keçmişdi, Yasəf törökün oğulları As, Su, Urun soyu törəyib, artmışdı, yüzlərlə boy olub, hər boy onlarla qola bölünmüşdü, amma hər ayrılan öz soyunu, öz boyunu, Tək Tanrısını və törəsini unutmayacağına söz verərək ayrılmışdı. Verilən sözlərin üstündən, yüzlərlə, minlərlə il keçmişdi, söz verən bəzi boyların öz sözləri dəyişmişdi, dilillərindəki səsləri dəyişmişdi, amma Tanrı inancı, törələri, Tanrı damğaları hələ də hafizələrində idi, bu törəni yaşatmaq üçün, ata ocaqlarını unutmamaq üçün, hər boy öz pirinə qulaq asırdı və min illər ərzində minlərlə pir török törəsini yaşatmağa, török birliyini qorumağa çalışmışdı. Bu pirlər ata ocağını müqəddəs bilmiş, kut bilmiş, atalarının kut ocağının keşikçiləri olmuşdular. Zaman-zaman töröklər törəni unutduqda, ya dünya malına aldanıb biri-birinə girdikdə, belə pirlərin içindən bilgə ərmiş çıxıb, töröklərə törəni xatırladıb, onları atalarımızın kut ocağında birləşməyə səsləmişdi. Belə bilgə, pir ərmişlərin törökləri böyük müsibətlərdən qurtardığını anlayan xalq onları digər pirlərdən fərqləndirmək üçün, onlara bəzən "Bilgəmiş" demişdir, yəni o pir bilgəliyin ən üst mərtəbəsinə çatmışdı. Bəzəndə parçalanıb, özü-özünə düşmən kəsilən töröklər atalarımızın kut ocağına səsləyib, birləşdirdiyi üçün belə pirlərə "Qor kut pir", "Qor kut dədə", "Qor kut ata", "Qor kut qağam", "Qor kut ğam"

və ya “Qor kut ozan” deyilmişdi. Töröklər min illər boyu necə ki, minlərlə pirə şahidlik etmişdir, eləcə də onlarla “Qor kutlar” görmüşdü. Töröklər nə zaman ki, pirlərini, qorqutlarını eşitmişdi, o zaman böyük müsibətdən qurtularaq birlik olub dirilmişdir, amma töröklər nə zaman ki, pirlərini, qorqutlarını eşitməmişdir, o zaman öz qanını axıdaraq, öz qanında boğularaq, əriyib yox olmuşdu. Tarix boyu töröklər bəzən öz Qorqudunu eşidib ucalmışdı, bəzən dövrün Qorquduna qulaq verməyib, alçalmışdır, bəzənsə, nəinki öz soyunun qanını axıtmağa usanmamışdı, hətta ona bu yolda mane olan Qorqudu öldürmüşdülər. Bəzən, bəzi qorqudlar bu ulusun birliyi yolunda öz övladlarını qurban etmişdi, ən asası isə, belə qorqudların oğulları öz yoldaşları ilə bilə-bilə ölümə getmişdir, bu səbəbdəndə onlara “Qor oğlu və Qor oğlu dəliləri” deyilmişdi. Bax, min illər boyu töröklər belə yaşamış, belə var olmuşdu və min illər boyu pirlər bu hekayələri sazı ilə, domburası ilə söyləyib, xalqın qan yaddaşını təzələmişdi. Bəzən yaşlı pir dədələr ozanlıq, aşıqlıq işini oğullarına həvalə etmişdir, bax beləcə, pirliklə və ozanlıq biri-birindən ayrılmışdı, həm də bax beləcə birlikdə idi, biri-birini tamamlayırdı.

Kaslardan qağam obası iki aydı yolda idi. Əslində onlar özünü oğuz adlandırırdı, amma uzun min illər əvvəl ayrılan bu qol fərqlənsin deyə soydaşları onları kas adlandırırdı və kasların bu tayfasında yüz illərdi sınanmış, sözlərindəki hikmətdən xeyir görülmüş pirlər olduğundan, digər boyların pirləri onları özlərinə pirlərpiri hesab edir və bu obaya “qağam” deyirdilər. Qədim türk rəvayyətlərində ikizlər ulusunun olduğunu və orada doğulan bütün uşaqların ekiz olduğunu və biri-birinə bənzədiyi söylənirdi. Hansısa boydan yeni qol ayrılanda, mütləq bu ikizlər ulusundan da bir dəstə o qolla gedirdi ki, gələcəkdə töröklər biri-birini tanımasa bu ikizlər ulusunun bənzərliyindən biri-birini tanısın. Və Kasların qağam qolunda böyük əksəriyyət ekiz idi. İkizlər ulusunun törəsinə görə ikizlər yalnız öz soyundan olan ekizlərdən biri ilə evlənməli idi, amma uzun min illərdə bu törəni bir çoxları pozduğundan, ikizlər ulusunun olmasını bir əfsanə hesab edən töröklər də az deyildi. Şübhəsiz ki, kasların qağam qolun-

dakı, biri-birinə bənzəyən yüzlərlə ekizi görənlər sevinc içində ağlayırdı… İndi həmin kasların qağam qolunun bütün eli atlara, arabalara süvar olub yol gedirdi. Qaş qaralmaqda olsa da, atlar, arabalar ağır-ağır irəliləməkdə idi. Ekizlərdən Subar atını atasının arabasına doğru çapdı, araba ilə eyni aramla çaparaq atasının gözlərinə baxdı, Elökçü oğlunun gözlərindən sualını oxudu, ətrafı izlədə, əli il işarə etdi ki, dayanaq və elinə səsləndi:

– Düşərgə salın, uzun müddət burada dayanacıyıq!

Karvan dayandı. Elökçü baxışları ilə oğluna arabanın bir küncündə bağlanan küpü göstərdi. 50 yaşı keçmiş Subar bir gəncin cəldliyi ilə atdan düşüb arabaya yaxınlaşdı, atasının arabadan enməsinə köməklik edib, sonra arabaya bağlanmış küpün ipini kəsdi, küpü əlinə alaraq ətrafı süzdü, gözünə kəsdirdiyi yerə gəlib:

– Qağam, çadır üçün bura münasibdirmi?! – deyə soruşdu, atasının razılıq əlaməti olaraq başını tərbətdiyini görüb səsləndi, – Qağamın çadırını bura qururuq. – Uşaqlardan birini səslədi, – Sən gəl buranı təmizlə, odun gətir, çadır qurulsun, ocağı çataq.

Bir saat keçməmişdi ki, çadırlar qurulmuşdu. Subar atasının çadırının ortasında yığılan odunların altındakı pambıq bükəsini çaxmaq daşı ilə odladı, odunlar yavaş-yavaş alovlanmağa başladıqda, bayaqdan özənlə qoruduğu küpün içindəki, köhnə yurddan gətirdikləri kömür parçalarını yanan odunların üstünə atdı, bir müddət sonra bütün odunlar tutuşdu, köhnə yurddan gətirilən sönmüş köz parçaları yanaraq yeni odun parçalarına qarışdı. Elökçü qağam, xatunu Bükə əbə, böyük oğulları Subar, Basar və arxalarında bütün el ocağın yanmasına tamaşa edirdi. Sonda ocaqdakı odunların yanıb kösöyə döndüyünü görən Elökçü qağam əlini göyə açaraq dua etdi:

– Tanrı yeni yurdumuzu xeyirli etsin! Ök öz günəşi ilə bizi xeyirliyə nurlandırsın! Omom.

– Omom! – hamı bir ağızdan təsdiqlədi.

– Ök ocağımızı söndürməsin, – deyib, Elökçü əyilərək iki kösöy götürdü, ekiz qardaşının böyük ekiz oğullarına baxdı, onların yaxınlaşmasından sonra kösöyləri onlara uzatdı, – Ərol, Ərcan başlayın! – hər birinə yanmaqda olan bir kösöy verdi.

Ərol və Ərcanın atası, Elökçü qağamın ekiz qardaşı Ökelçini 4 ay əvvəl öldürmüşdülər və əmiləri Elökçü birinci onların ocaqlarını yandırmasını istəməklə, işarə edirdi ki, atan öldürülsə də, əminiz yanınızdadır, ocağımız hələ sönməyib.

Ərol və Ərcan yanan kösöylə öz çadırlarındakı odunları yandırıb kösöyü Subar və Basara verdi, onlarda öz çadırlarındakı odunları yandırdıqdan sonra kösöyü digərlərinə verdi və növbə ilə bütün el öz odunlarını Elokçü qağamın ocağından olan kösöylə qalamış oldu. Bundan sonra elin oğlanları qoyun kəsməklə, qızları biş-düş etməklə məşğul oldu.

Elökçü qağam bir müddət eldə görülən qızğın işləri seyr etdi, amma üzündən oxunurdu ki, xəyalları tamam başqa yerlərdədir, bir müddət heykəl kimi dayandı, adamları isə aralıdan onu izləyirdi. Bir müddət sonra Elölçü qağam köksünü ötürdü, ağır-ağır adımlarla geri dönüb çadırına tərəf adımladı və Bükə ebaya səsləndi:

– Bükə xatun çadır hazırdımı? – o çadırın içinə qurulacaq şəraiti nəzərdə tuturdu.

– Hə qağam. – Bükə eba cavabladı, o el içində onun adını çəkmirdi.

– Qızlara de, su gətirsin əl-üzmü yuyum.

Qız nəvələrindən biri neçəsi hazır olan su dəsgahını babalarının yanına gətirdilər, o qırmızı rəngdə olan şişbaşlı börkünü çıxarıb Bükə ebaya verdi, qolunu çırmayıb, ehmal-ehmal əl uzunu yudu, nəm əlini boynuna, başına çəkdi, qız nəvəsinin uzatdığı su dolu dolçanı alıb suyu çarığını çıxardığı ayaqlarına tökdü, dəri hörməli sandalı ayağına geçirib, çadıra girdi və Bükə xatuna səsləndi:

– Qoy gəlsinlər! Yemək hazır olanacan, bizə əlüstü yeməyə nəsə verin.

Elökçü qağamın böyük ekiz oğulları, qardaşının böyük ekiz oğulları, elin böyükləri onu kimi yuyunduqdan sonra, sandallarını geyib çadıra girdilər. Çadıra su, ayran, təzə qaynadılmış süd, yağ-bal, bir neçə pendir çeşidi və təzə isladılmış fətir gətirildi. Elökçü qağamın Ökün adına dua edib çörək kəsməsindən son-

ra çadırdakılarda “omom” deyib yeməyə başladı. Elölçü qağam çörək yesədə, ağlı başqa nələrləsə məşğul idi, oğlu Basar bunu sezib dedi:

– Qağam Qorqud! – uzun illərdi ki, öz eli və kənar türk elləri onu Qorğud deyə çağırırdı və oğlu Basarda indi onu bu adla çağırdı.

– Qağam demək kafidir! – Elökçü məzəmətlə oğluna baxdı, çünkü o bu adla çağrılmasını istəmirdi, hələ bunu oğulları, qardaşı uşaqları dedikdə lap əsəbləşirdi, deyirdi ki, qorqud olacaq nə iş görmüşəm, həm də, mənə sizin qorqud deməniz düz deyil, el-oba deməzmi ki, özü özünə ad qoydurur.

– Elökçü səni tanıyan bütün török elləri “Qorqud qağam” deyir, uşaqlar nə desin? – bunu deyən bu obanın ən yaşlı ağsaqqalı Asman dədə idi, o olduqca yaşlı idi, Elökçü xaqanın atasının atası ilə yoldaşlıq etmişdi.

– Asman dədə, Qorqud olmaq elə asandımı, gərək bu ada laiq olasan?! – Elökçü qağam qayğılı halda dedi.

– Düz deyirsən, Qorqud adı olduqca məsuliyyətli bir addır! Tanrını, törəsini yaşamaq, yaşatmaq yetmir! Gərək dünya malından vaz keçib, hətta öz canından, hətta öz soyundan vaz keçib, török ulusunun dar günündə onları öyüdləmək üçün irəli çıxasan! Bəs sən niyə bura gəlmisən? – Asman dədə gülümsünərək soruşdu.

– Törököm paramparça olub! – Elök qağam təəsüflə dedi.

– Bu köçə başladıqda mən hər kəsdən xəlvət gəlib sənə dedim ki, bütün el ilə çıxma bu səfərə. – Çadırdakılar bunu eşidib, gah Asman dədəyə, gah Elökçü dədəyə baxdı, Asman dədə isə şəstlə sözünə davam etdi: – Bəli, mən xəlvətcə gedib qağamdan bunu istədim. Dedim ki, neçə xan sənə yalvarır ki, gəl onun himayaəsində rahat yaşa! Özün bu ölüm-dirim savaşına çıxırsan, barı ocağından, elimizdən bəzi cavanları göndər gedib o xanların birinin himayəsində yaşasın! Qardaşın Ökelçi də Ök yolunda, öz soydaşlarımız tərəfindən öldürüldü, bu aqibətdən hamı üçün var!

Elökçü qağam başını yellədi, sonunda bir az da olsa gülümsündü:

– Eşidin elimin başı iyidləri! Mən də Asman dədəyə dedim ki, sən və ocağına izin verirəm, bu səfərə getməyin, istədiyin xanın adını de, namə yazım, malını-dövlətini götür, get onun hi-

mayəsində yaşa! – gözü qəmli olsa da, ürəkdən güldü, mənə nə desə yaxşıdır?

Hamı təəcüblə qağamın üzünə baxdı. Subar kimsənin cavab vermədiyini görüb Asman dədəyə baxdı və gülümsündü:

– Bunu təxmin etmək o qədər də çətin deyil! Asman dədəmiz deyib ki, mən uzun illəri ona görə yaşamışam ki, əcəlimlə ölüm? Mən və mənim ocağım, soyum Ökün törəsini yaşadan pirin dəliləridir… Elə deyib, bu dəqiqdir, – əminliklə dedi.

– Hə elə dedi. – Elökçü qağam gülümsündü, – mənə dedi ki, mən Ök və törəsinin dəlisiyəm, fədaisiyəm. Ök lazım bilsə məni əcəlimlə öldürərdi, demək ki, mənim sınağım bitməyib. İndi, qağam deyirsən mən Ök yolunu yox, rahat ölümü seçim, dedi, Asman dədəniz!

Çadırdakılar niyəsə rahat nəfəs aldı, Ərol ayağa qalxaraq dedi:

– Əmi sən Qorqud qağamsan və biz də Ökün dəliləriyik, biz diriykən ölüyük, Ök yolunda öldüyümüz gün dirilirik! – Niyəsə kövrəldi və pıçıldadı, – Qorqud qağam, bizi bu addan məhrum etmə! Bu adı nə sən vermisən özünə, nə bu el-oba! Bu adı sənə ilk əvvəl kənar bütün török el-obaları verib. Və sən qorqud olmasan, Asman dədə demiş sən bu səfərə çıxmazdın və biz indi hansısa xanın himayəsində, tatlar, tabqaclar üzərinə kiçik yağmalar edib, gün-güzaran edirdik! Amma bu yağma səfəri deyil! Bu, heç yeni yurd qurma səfəri də deyil! Bu səfərin dünyavi heç bir qazancı yoxdur! – əlini sinəsinin üzərinə qoyub oturdu.

Asman dədənin kötüçəsi, 40 yaşlarında olan Elçay onun dediklərini təsdiqlədi:

– Düzdür! Bunu ki, sən açıq-aşkar bizə demisən, hamı bilir ki, bu Ök yolunda, török birliyi üçün edilən bir səfərdir! Ökelçi qağam bu yolda son dəfə yüz ərənlə saksoylar tərəfindən öldürüldü. O yaxşı bilirdi bu səfərin sonunu, Ökelçi qağam demədimi ki, mənə nəsə olsa, kimsə qisas almasın, bu haqq davasıdır! İndi haqq davası üçün yola çıxmışıq, Elökçü qağam siz bizim Qorqudumuzsan, bütün töröklərin növbəti qorqudusan!

Subar gülümsündü:

– Qağam Qorquddur və biz də Qoroğluyuq, dəlilərik ki, bu səfərə çıxmışıq! İki aydır, gecə-gündüz demədən yol gəlirik, Xəzər xaqanlığının ortasınacan girmişik, Sarkel şəhərini yan keçib Sak çayı boyunca şimala doğru qalxmışıq. – Sak çayı dedikdə, günümüz Don çayını nəzərdə tuturdu, Don adını bu çaya XVII əsrdə Don kazakları vermişdir, qədim mənbələrdə əsasən bu çay İskit adı ilə xatırlanır, dilçilər bu adın qərəzli olaraq fars dilindən "su" mənasına gəldiyini iddia edirlər. Əslində isə "iskit, skif" kimi sözlər "sak" türklərinə yunanların verdiyi addır, daha doğrusu digər xalqlar sak türklərini öz dil fonetikasına üyğun "iskit, skif" adlandırmışdır. Subar danışırdı: – Və indi elə bir yerdə dayanmışıq ki, qərbimizdə Kiev türkləri, şimalda slavlarla qarışmış Eraz türkləri, Masakova, Erastova, cənubda Xəzər xaqanlığı, şərqdə oğuzlar, – Subar niyəsə qəribə nəşə ilə gülümsündü və söhbətinə davam etdi: – İsalı türklərdən qıpcaqlar, aslar, bulqarlar və Qaradənizin cənubunda Bizans xristiyanlığında əriməkdə olan türklər, – Subar yenidən nəşə ilə gülümsündü;– Qorqud qağam və eli öz ayağı ilə gəlib bütün bunların tam mərkəzdə dayanıb! Bura insanın kutunun belə korşaldığı, biliyinin belə susduğu ibel məsgənidir! İsalı töröklərin, Musəvi töröklərin, Məhəmmədi töröklərin, Tanrıçı töröklərin, töröklüyünü itirib, bütpərəstlər kimi Tək Tanrını "tanrıcıqlara" bölən erazlar, Bizans caynağında yox olmaqda olan İsalı töröklər və ərmənlər, – anidən üzü əsəbdən əsdi, sanki üzündəki gülüş buz kəsdi və bağırdı: – İbel belə bizi bu qədər bölə bilməzdi… İbelin belə poza bilməyəcəyi qədər törəni pozub, Ökü unutmuşuq…

– Unutmuşuq yox, unudublar! – Basar onun sözünə düzəliş etdi.

– Olsun sən deyən ki, qardaşçığım… Ökü, törəsini unudan töröklər və tam ortasında biz, Kasların qağam obası… – üzünü atasına tutdu, – Qağam Qorqud, sənnnn Qorqud deyilsənsə, bizzzz Qoroğulları deyiliksəəəə, bizim burada nə işimiz varrr?! Əffinə sığınıram qağam, amma məncə Qorqud və qoroğulları müzakirə belə olunmamalıdır. Məncə, bundan daha vacib söhbətlərimiz var!

– Yaxşı, bəsdi! – Elökçü qağam əlini havaya qaldırdı, – Bu

deyilənləri hamısızı mən bilirəm, istədim özünüz öz dilinizlə hər şeyi deyəsiz ki, niyə bura gəlməmiz barədə heç kəsin ağlında sual qalmasın! – üzünü çadırdakılara tutdu: – Elə isə hər kəs böyük görüşə hazır olsun! Ayağa qalxdı. – Çıxağın çölə, süfrə qurulub, bir tikə çörək yeyək, – nəsə düşünüb əlavə etdi, – Kimin nə sözü varsa yeməkdə desin, bu gecədən sonra yeddi gün kimsə ilə görüşməyəcəm… – Hər kəs qağamın nəyə işarə etdiyini yaxşı bilirdi.

Yeməkdən sonra qağama mane olmamaq üçün hər kəs icazə alıb öz çadırına çəkildi. Bir müddət sonra süfrədə Elökçü qağam, Bükə eba, Subar, Basar, Erol, Ercan və xanımları qalmışdı. Sonunda qağam ayağa qalıxdı və dedi:

– Gedək carçıların yanına! – o xəbər aparıb-gətirmək üçün təlim görmüş quşları nəzərdə tuturdu.

Subar qabağa düşüb, üstündə taxtadan damı olan arabaya doğru yaxınlaşdı, yan tərəfdə olan qapını açdı, xırda toxunmuş tor pərdə arxasında olan hində yüzdən çox göyərçin vardı, quşlar onları görüb çıkkildəşməyə başladı. Elökçü qağam yaxınlaşıb quşlara baxdı. Gözü ilə işarə etdi ki, tor qapını da açsınlar, qapını açan kimi tünd zümrüd yaşılı göyərçin uçaraq qağamın əlinə qondu, qağam əlini üzünə doğru gətirib quşa baxdı, qəribə olsa da, göyərçin qanadları ilə ehmalca onun üzünə, gözünə sığal çəkdi, niyəsə qağam doluxsundu, göyərçini sağ çiyninə qoyub, üzünü uşaqlara tutdu:

– Göndəriləcək bütün quşların ayağına məktub qoyulubmu? – deyə soruşdu.

– Bəli qağam, – cavab verdilər.

Qağam hər əlini irəli uzatdıqda, kiçik tor qapıdan bir göyərçin çıxıb uçaraq onun ovcunun içinə qonurdu, qağam da hər dəfəsində göyərçinin gözlərinə baxaraq nəsə pıçıldayıb onu göyə atırdı, qağam bunu düz qırx dəfə təkrar etdi və sonunda sağ çiynində oturan zümrüd yaşılı göyərçini öpərək havaya buraxdı, bir müddət ay işığında görünən göyərçinlərə baxdı, sonra əli ilə uşaqlara da getməsini əmr etdi.

Gecə yarını ötmüşdü, Elökçü qağam hələ də eşikdə var-gəl

edir, arada başını qaldırıb səmaya, ulduzlara və aya baxırdı. Sonunda çadıra doğru gəlib səsləndi:

– Bükə xatun oyaqsanmı?

– Oyağam qağam.

– Su hazırdımı?

– Soyuq su və dəsgah hazırdı, çadırdadır. Sən hazırsansa isti suyu da gətizdirim.

– Gətizdir, – deyib Elökçü qağam yenidən göy üzünə baxdı.

Bir müddət sonra Bükə ebanın səsi gəldi:

– Elökçü su hazırdır!

Elökçü çadıra girib, soyundu, Bükə ebanın ılıqlatdığı su ilə çimdi, ağ kətan paltar geyindi, gəlib çadırın ortasında çatılmış ocağa yaxın bir yerdə dizi üstə oturdu, əlini havaya açıb dua etməyə başladı:

– Tək Tanrı, zamanın sahibi olan Ök! Əvvəli və sonu olmayan, əzəli, əbədi Ök! Yeri göyü yaradıb, arasında bizi xəlq edən Ök! Elminlə bizi bilgə edən El! Biliyinlə bizi kutsayan Boq! Səni bilib, İbeldən uzaq durmamız üçün yar ol! Török ulusunu kutuna səsləmək üçün yar ol! – beləcə Elökçü qağam yeddi gün-yeddi gecə çadırından çıxmadı, çadırasa yalnız Bükə eba girə bilərdi, oda səssiz-səmirsiz girib, lazım olan, ehtiyac oluna biləcəkləri qoyub, ocağa odun atıb çıxırdı.

* * *

Hər yan alov içində idi, dağlarda vulkanlar püskürüb, lavalar axırdı. Göy üzünü qara buludlar tutmuşdu, yağış yağmırdı, lakin şimşəklər çaxır, hər yana ildırım səpələnirdi. O, bu od-alovun içində qaçaraq bir uçurumun kənarına gəlmişdi, qarşı tərəfdə isə yaşıllıq göz oxşayırdı, göy üzü tərtəmiz idi. O, uçurumun kənarı ilə qaçaraq o biri taya keçmək istəyirdi, birdən gözü bir körpüyə sataşdı, əslində buna körpü demək olardısa, bu ipdən də nazik, bəlkə də saç qalınlığında bir teldi, bəzi insanlar onun üstü ilə o taya keçirdi, bəziləri isə səndələyərək uçurumun dibindəki lava axınına düşürdü. O qaçaraq körpünün yanına gəldi, körpünün başındakı insanlar kənara çəkildi və onlardan biri dedi:

– Kənara çəkilin, bizə rəhbərlik edən adam gəlib! Qoy o keçsin! Axı haqq-ədalətə nəzarət edən bu adam idi. Dinimizə nəzarət edən bu adam idi! Axı Tanrının yerdəki kölgəsi mənəm deyirdi... – Hamı bir ağızdan dedi: – İndi gəl, keç qıl körpüsündən. Bizim dinimizlə bağlı Tanrıya haqq-hesab ver!

– Sizin yerinizə Tanrıya mən hesab verim?! – o geri çəkilərək soruşdu. Kimsə onu dartaraq körpünün tuşuna gətirdi və ona bağırdı:

– Bizə rəhbərlik etdikdə əmin-əmin danışırdın! Biz töröklərə dinimizdə yaşamağa imkan vermirdin, deyirdin doğru din budur! İndi niyə qorxursan? Keç qıl körpüsündən! İndi Tanrıya hesabını ver!

Hamı onu dartaraq körpüyə doğru itəliyirdi. O isə bağırırdı:

– Mən nə vaxt öldüm? Mən səhvimi düzəldəcəm! Mən Tanrı törəsini yerinə yetirəcəm! Mən haqqı batildən təmizləyəcəm! – Yox, mən keçmək istəmirəm...

Bu vaxt bir ağ saçlı-saqqalı dədə peyda oldu və oradakılara dedi:

– İzin verin ona! O hələ ölməyib! O söz verir ki, törəni bərpa edəcək, haqqı batildən ayıracaq! – üzünü ona tutdu, – Söz verirsən?

– Hə, kut dədə söz verirəm! Sözzzz!

Yaşlı dədə çiynində olan bir çüt göyərçini ona göstərdi:

– Bu quşları izlə. Öz din adamlarını, pirləri götür, töröklərin kutluq qurultayına gəl... Yoxsa əmin ol ki, haqq-hesabını verə bilməyəcən...

– Söz, Tanrıya yemin edirəm, gələcəm! Sözzzz...

– Bax ha, söz verdin...

– Söz...

Xəzər xaqanı Aaran qan-tər içində yuxudan ayıldı və zorla gülümsündü:

– Yuxu imiş! – qulluqçularına səsləndi, – Mənə su verin! – İçində qəribə bir yanğın vardı və yuxunun təsirindən çıxa bilmirdi, amma bir yandanda sevinirdi ki, bu sadəcə bir yuxudur.

Kiyev xaqanı İqor diksinərək yuxudan ayıldı, alnının tərini sildi:

– O dinə and olsun ki, mən doğru dindəyəm! – dedi.

Masakova xanı səskəskə içində yuxudan ayıldı, qorxudan tir-tir əsirdi:

– Su verin! – səsləndi.

Oğuz bəylərindən Dükak yuxudan ayıldı və pıçıldadı:

– Mən ki, Məhəmmədi qəbul etmişəm...

Xəzər xaqanı, Kiyev xaqanı, Masakova xanı, Qarluq xaqanı, Qaraxanlı xanı, Qəzvin bəyi, Alban bəyi, Ermən məliyi, Trabzon hökmdarı, Urova piri, qıpçaq məliyi, uz məliyi, alan xanı, peçenek xanı, bulqar xanını, Asurbodun piri, Xorasan piri, Talas piri, Pirçi piri, Ökur xanı, Tatar xanı və daha neçələri eyni yuxunu gördü. Bəziləri elə ilk yuxudan sonra səfər hazırlığına başladı, bəziləri isə buna əhəmiyyət vermədi, lakin hər biri eyni yuxunu yeddi gün yenidən, təkrar-təkrar gördülər, yeddi günün sonunda hər biri yuxuda gördüyü bir cüt göyərçinin gəlib onun pəncərəsinə qonduğunu gördükdə, heç birinin bu yuxudakı hikmətə şəkki-şübhəsi qalmamışdı. Onlar göyərçinlərin ayağındakı kiçik bazubəndi açıb buradakı kiçik məktubu oxudular, bu məktubda belə yazılmışdır:

– Ökün adı ilə. Ökün törəsini qorumaq üçün bütün töröklər və rəhbərləri məsuldur, son gündə bunun hesabını verəciyik. Török qurultayına çağrılırsız. Quşları qoruyun və izləyin, son dayanacaqda quşlar qanad salacaq, orada düşərgə qurun... – məktub bir neçə dildə və türk runik əlifbası ilə də yazılmışdı.

Beləcə, 40 yerin hökümdarı və ya piri öz dəstəsi ilə çağrılan qurultaya getmək üçün yola düşdü. Bəzi hökmdarlar bu səfərə yalnız şəxsi qaravul dəstəsini götürərək çıxdı, bəziləri isə öz arxaları ilə böyük ordularını da gətirdi. Qırx günlük səfərdən sonra, Qorqud qağamın düşərgəsinə az bir məsafə qalmış hər bir çağırışçının göyərçinləri qanad salıb dayandı, məktubun şərtinə üyğun hər kəs həmin yerdə düşərgə saldı. Qorqud qağamın düşərgəsi yeni gələnlərin qurduğu düşərgələr ilə üzük qaşı olmuşdu və yavaş-yavaş yeni gələnlərin qurduğu düşərgələrin sayı artırdı.

Yeddi günün sonunda qağam bayğın halda səsləndi:
– Bükə xatun...
– Eşidirəm qadan alım, – qaçaraq çadıra girdi.
Qağamın alnı tumurcuq-tumurcuq tər idi, pıçıldadı:
– Üstümü qalın örtün! Əlimi, ayağımı ovun! Taqətdən düşdüm!
– Ökə alqış! – Bükə eba dedi və çöldəkilərə səsləndi. – Gəlin çadıra... Qağamınızı ovmaq lazımdı. Əvəlikli isti hazırlayın. Ballı kəkotu çayı gətirin...
Qağam ballı kəkotu çayını içdi, biz az əvəlikli isti yedikdən sonra dərin bir yuxuya getdi və yalnız sabahsı gün günorta yuxudan ayıldı. Ayıldıqda gördü ki, Bükə eba onun yanında oturaq vəziyyətdə yatır, oğlu Subar oturaraq onları izləyir. Qağamın ayıldığını görüb gülümsündü:
– Esenler! Ökə alqış...
– Ökə alqış! – qağam əlini uzatdı, oğlunun köməyi ilə yataqdan qalxdı, Bükə ebaya baxdı, yorğanı onun üstünə örtüb pıçıldadı:
– Dəymə, oyansa yatmayacaq! Ködəkcəni çiynimə at. – çadırdan çölə çıxdı, göy üzünə baxaraq dedi: – Nə gözəl havadı?! – Oğlunun çiyninə atdığı ködəkcəni düzədib, ardından oğlunun uzatdığı qırmızı rəngli börgünü başına qoydu və dedi: – Yemək-içmək hazırlayın! – Subarın oturduğunu görüb soruşdu: – Zümrüd gəlibmi? – Göyərçinlərin başçısı, onun ən sevimli göyərçini, tünd yaşıl zümrüd rəngnə çalan quşu nəzərdə tuturdu.
– Hə, iki gündü gəlib...
Qağam fit çalaraq zümrüdi səslədi, göyərçin uçaraq gəlib onun qənşərində qanad çırparaq üzünə baxdı, sonra ovcunun içinə qondu. Qağam bir xeyli onun hərəkətlərinə baxıb sonunda gülümsünərək dedi:
– Zümrüdüm bütün quşları ötürüb...

Qağamın elçi göyərçinlərini göndərməsindən 40 gün keçmişdi. Qağam düşərgəsində bu müddət ərzində qaynar iş gedirdi, qultayın keçirilməsi üçün böyük çadır qurulurdu, çadırın 4 girişi

olmalı idi,  dairə şəkilində qurulmuş çadırda taxtlı oturacaqlar 3 mərtəbə formasında idi, gələcək qurultay iştirakçılarının öndərlərinin ilk sırada, əyanlarının və adamlarının arxa sıradakı taxtlarda oturması nəzərdə tutulmuşdur. Çadırda 4 giriş olmasının əsas səbəbi bu idi ki, sonra kimin başda, kimin ayaqda oturması davası, umu-küsüsü olmasın.

Qağam bir ağacın kölgəsində açılmış süfrədə oturub, qalın, qara dəri üzlü kitabı oxuyurdu. Qardaşı oğlu Erol ona doğru yaxınlaşaraq astadan dedi:

– Qağam, – onun başını kitabdan qaldırıb ona baxmasından sonra dedi, – Qurultay çadırı hazırdır. Baxmaq istəyirsənmi?

– Gedək baxaq. – deyib ayağa qalxdı, gedib çadıra baxdılar, bir müddət çadırda gəzindikdən sonra dedi: – Hə, yaxşıdı...

Basar çadıra girərək atasına səsləndi:

– Qağam çağırışçılardan gələnlər var, qaraltıları görünür.

Hər kəs çadırdan çıxıb Basarın dediyi tərəfə baxdı, qağam da çadırdan çıxıb göstərilən tərəfə baxdı və gülümsündü:

– Xoş gəliblər, Ökün izni ilə...

– Şimal tərəfdə də düşərgə qurulur. – kimsə dedi.

Gün batışına qədər, "gəldilər", "düşərgə qururlar" sözü dəfələrlə deyildi. Bu sözün ardından elçi göndərilən quşlar uçaraq geri gəldi, hər biri gəlib qağamın ovcuna qonaraq bir az çıkkildəyib, onun ovcundan dən yeyib öz yuvasına uçdu. Qorqud qağamın düşərgəsinin ətrafında qurulan düşərgələrin sayı getdikcə artırdı.

Qağam elçi dəstələri düzəldib, bir-bir gələnlərə "xoş gəldimə" göndərirdi. Qağam düşərgəsində üç gün, üç gecə şənlik edildi, qağam bir-bir gələnlərlə görüşdü, azdan-çoxdan danışdı və dedi ki, üç gün dincəlin və gecikənlər də gəlib yetişsin, ondan sonra qurultaya başlayaq. Qəribə olsa da, ətraf ov qaynayırdı, yaxından axan Sak çayı balıq qaynayırdı. Quzğun dəstələri və qurd sürüləri isə düşərgələrin lap yaxınlığına gəlmişdi. Gəlmiş qonaqlar və dəstələri ov ovlayıb, quş quşlayıb, balıq balıqlasa da, qağamın əmrinə əsasən quzğunlar ilə, qurdlara nə toxunur, nə də hürküdürdülər.

Sonunda bütün çağırışçılar gəldi və üç gün ərzində hamı

bir-biri ilə tanış oldu. Müəyyənləşdirilmiş gün günəşin doğmasından sonra, şərtləşildiyi kimi bütün çağırışçılar və onların baş məsləhətçiləri qurultay çadırına toplaşdı, onların çadırda yerləşməsinə Subar, Basar, Ərol və Ercan nəzarət edirdi. Hər kəs yerləşib oturduqdan sonra qağam ayağa qalxdı, sınayıcı nəzərlə hər kəsi süzdü və dedi:

– Esenlər. Xoş gəlmisiz soydaşlarım! – əlini uzadıb Subara səsləndi, – Sandığı gətirin, – deyib sandığın gətirilməsini gözlədi.

Hər kəs nəfəsini tutaraq gətirilən sandığı izləyirdi. Sonunda sandığı çadırın ortasında yerə qoydular. Qağam sandığa yaxınlaşıb onu açdı, sandıqdan iki qılınc çıxardı, hər əlində birini havaya qaldıraraq dedi:

– Bax sağ əlimdə tutduğum dəmir qılıncdır, düşmənlə savaşmaq üçündür, sol əlimdə tutduğum taxta qılıncdır, soyumuzla barışmaq üçündür! Törədə deyildiyi kimi, “düşmənə dəmir qılınc, soyuna taxta qılınc”. Amma çoxları bu sözü unudub, türk özünü özünü doğrayır! Niyə? Çünki törəni unutmusuq. – O sandıqdan bir neçə dəri üzlü kitabı çıxarıb ortaya qoyulmuş masanın üstünə qoydu və dedi:

– Bu kitablar Ökün törəsidir, bu Ötökdür, bu Tövratdır, bu İncildir və bu da Qurandır! Lazım olduqca sizi bu kitablarla tanış edəcəm! – Hər kəsi süzdü və ağ saqqalına tumar çəkərək dedi: – İstəyirsiz birinci siz suallarınızı verin və mən cavablayım. – Hər kəsin sual vermək üçün tərpəndiyini görüb dedi: – Amma bir-bir sual verəciyik və sual bitmədən danışmayacıyıq. Sual vermək üçünsə seçimi mənim zümrüdümə qoyaq kı, sonra kimsə inciməsin. – Bunu deyib, yüngülcə fit çaldı və çadırın bacalığından uçaraq içəri girən göyərçin gəlib onun çiyninə qondu. Tanışlıq ərəfəsində bütün çağırışçılar eyni yuxunu gördüyünü və yuxuda söz verdikləri ağsaqqalın qağam Qorqud olduğunu müəyyənləşdirdiklərindən, kər kəs ondan həm çəkinir, həm də ehtiram edirdilər. Göyərçin havaya qalxaraq gedib Xəzər xaqanı Aaranın çiyninə qondu. Qağam gülümsünərək dedi:

– Xəzər xaqanı Aaran, xoş gəlib bizi şərəfləndirmisən! Sualın varmı?

– Xoş günün olsun... – duruxdu, ona necə xitab edəcəyini düşündü. Əslində qərar vermişdi ki, ona sadəcə adı ilə səslənərək Elökçü deyəcək. Qağam onun gözlərinin içinə baxdı, aralarında xeyli məsafə olsa da, Aaran xaqan niyəsə qağamın baxışının onun içinə işlədiyini hiss etdi, duruxaraq susdu.

– De, Aaran xaqan, de... Mən Elökçü... – gülümsündü, – De...

Bu söz Aaran xaqana sillə kimi dəydi, eyni zamanda qağamın onun ürəyindən keçənləri oxuya bilməsi fikiri onu lap qorxuya saldı, tutulan nitqini zorlayaraq dedi:

– Yox, qağam Qorqud bizi çağırman da, eyni anda hamının yuxusuna girmən də, göyərçinlərin gəlib bizi tapması da sizin kutunuzdan xəbər verir. Adın-sanın ucqar diyarlarda, pirlərin, ozanların dilindədir. Bunu məncə hər kəs bilir. Amma məni maraqlandıran başqa məsələlərdir.

– Hə, səni başqa məsələ maraqlandırır. – Aaran xaqana baxaraq dedi: – Bu qurultayda xaqan da, xan da, məlik də, bəy də, pir də var. Xaqanla məlik, xanla pir eyni ola bilərmi?! – Qağam onun yerinə soruşdu, – Hə, bunu soruşacan? Birinci sualın budur? – Üzünü çevirib, bir-bir çağırışçılardan bəzilərini göstərdi.– Və sizin ağlınızdakı əsas sual da budur?!

Aaran xaqan heysiz halda taxta oturdu, bir yudum su içdi, əsas işlərini görən baş vəzirinə dönüb pıçıldadı:

– Bek bu mənim dediklərimi oxuyur, ya necə? – Xəzər xaqanlığında xaqandan sonra bütün işləri yerinə yetirən baş vəzir “bek” adlanırdı.

– Xaqan anlamış deyiləm! Yəqin həqiqətən növbəti Qorquddur!

Aaran xaqan yenə bir yudum su içdi, istəyirdi hamı elə bilsin ki, o su içmək üçün oturub və ayağa qalxaraq dedi:

– Hə qağam, məncə hamını düşündürən əsas sual budur!

– Qəribədir! Amma elədir! – qağamın üzündəki gülümsəmə anidən buz bağladı. – Eh dünya, fani dünya! – Səsindəki itonasiya hamının canına işlədi, hamı gördükləri yuxunu bir anlığa xatırladı, qağam şəhadət barmağı ilə göyü göstərib dedi: – Bir gün hamımız öləciyik, amma kutumuz uçmağa varacaq, ya tamuda yana-

caq[*] , bax bunu bilmək çətin məsələdir! – yerində dövrə vuraraq hamını süzdü. – Yada bunu bilmək asandır! Ökün törəsinə uyan, törəni unutmayan, törədən azmayan, töräni azdırmayanın kutu uçmağa varacaq! Bizim qurultayın amacı və məqsədi də budur! Amma biz burada biri-birimizdən üstün olub-olmamız haqqında düşünürük! Amma yenədə cavab verək. – Qağam yenidən mülaim sifət aldı, – Burada olan hər kəs öz diyarında törökləri təmsil edən ən üst hakimdir! – üzünü Aaran xaqana tutub dedi: – Soyumun böyük xaqanlarından biri olan Aaran xaqan, bütün töröklər Xəzər xaqanlığındakı soydaşlarına nəsib olan xoşbəxtçiliyə sahib deyil ki, böyük xaqanları olsun! Bəzi diyarlarda töröklərin xanı belə yoxdur... – Aaran xaqanın özündən razı halda gülümsündüyü görüb əlavə etdi, – Amma baxır xoşbəxtçilik anlayışınada hansı gözlə baxırıq, bunuda bir azdan görəciyik... – susdu, hər kəsi süzüb yenidən Aaran xaqana baxdı. – O səbəbdən də xaqanım mən bura török ulusunu təmsil edən bütün hakimləri çağırmışam. – Aaran xaqana yaxınlaşaraq soruşdu: – Bəlkə kimsə deyə bilər ki, bütün törökləri təmsil edir, əgər elədirsə, yalnız onunla danışaq! – Hər kəsi süzdü və yenidən soruşdu: – Bütün török ulusunu təmsil edən varmı? Və ya sualı asanlaşdırım. Elə biriniz varmı ki, bu tanışlığa qədər buradakı hamını tanımış olsun, hamıdan xəbərdar olmuş olsun...

– Yox, qağam, var ol ki, özümüzü özümüzə tanıtdın... – yerdən bir neçə nəfər dedi.

Qağam gülümsündü:

– Siz sağ olun ki, bura gəlmisiz! Qayıdaq söhbətimizə! Unutmayın ki, török ulusunu biz hamımız, birlikdə var edirik! Birlikdə! – Əlini yuxarı qaldırıb dedi: – Bu əlin beş barmağı kimi, birimiz daha böyük xanıq, birimiz pirik, amma birlikdə törökük! – havaya qaldırdığı əlini və barmaqlarını oynatdı, – Bax bu əl kimi. – dedi.

– Doğrudur! Doğrudur! – əkəsriyyət bir ağızdan təsdiqlədi.

---

** qədim türkcədə "ucmağa varmaq" cənnəti nəzərdə tutan ifadə idi, "tamu" sözü isə "cəhənnəm" mənasını ifadə edib, OT<>TO kökündən formalaşıb DAN, DƏM, TONqal, TƏNdir kimi sözlərlə eyni mənalı olub "odlu yer" mənası verir*

– Aaran xaqan növbəti sualını de. – qağam gülümsünərək əlini ona uzatdı, – Bu dəfə sən de.

– Mənim xaqanlığımda həm tanrıçı, həm musəvi, həm isaçı, həm də məhəmmədi töröklər var! Yəni mən, Tanrının törəsini yaşamaq üçün hər kəsə şərait yaratmışam! Əslində gəlişimin də əsas səbəbi budur! Yuxudakı səhnənin mənə heç bir adiyyatı yoxdur! Mən Tanrı qarşısında üzü ağam! Bunu demək üçün gəlmişəm!

– Aaran, Aaran xaqan! Yuxuda qıl körpüsünü keçdinmi? Hə, körpünü keçdinmi xaqanım?

– Körpünü... – yuxusu yadına düşdü, onu soyuq tər basdı.

– Həəə, körpünü keçdinmi? – qağam inadla soruşdu. Xəzər xaqanının tutulduğunu görüb dedi: – Yox, Xəzər xaqanı kimsə yuxuda belə, o körpünü keçməyə cəsarət etməyib! Török baba mənim yuxuma girdikdə, mənimdə cəsarətim çatmayıb! Çünki, hər birimizin yalnışı var, hamımızın yalnışı var! Bunu da yalnız birlikdə düzəldə bilərik! Birlikdə!

Aaran xaqan mızıldandı:

– Doğrudur körpünü keçməyə tərəddüd etdim! Amma mən Tanrının törəsinə üyğun olaraq ulusuma imkan vermişəm, sonradan gəlmiş peyğəmbərləri tanısın, qəbul etsin, dini və törəni yaşasın!

– Kut! Kut! – qağam əlini-əlinə vurdu, – Bəs sən hansı peyğəmbərləri qəbul etmisən? – gülümsündü, – Mən deyim, ya özün deyirsən xaqanım?!

Aaran xaqan niyəsə düşdüyü vəziyyətdən əsəbləşdi, hətta düşündü ki, bəlkə qurultayı yarımçıq qoyub getsin, hətta və hətta gətirdiyi ordu ilə buranı viran qoysun, qağamın səsinə diksindi:

– Əgər getmək istəyən varsa gedə bilər! – qağam başqa səmtə baxaraq, ucadan dedi: – Getmək istəyən varrrr?!– Qurd ulaşması onun səsinə qarışdı. Bu səsdən əksəriyyətin canına üşütmə düşdü.

– Mən törəyə üyğun olaraq Tanrıya inanıram. – Aaran xaqan mızıldandı.

– Bəs Musanı, İsanı, Məhəmmədi elçi kimi qəbul edirikmi?

– Xaqanlığım rəsmi olaraq Musa peyğəmbəri qəbul edib? – Xəzər xaqanı başını bulayaraq cavabladı.

– Bəs İsanın, Məhəmmədin elçiliyi? Doğrudur, xalqa imkan

vermisən bütün elçiləri qəbul etsin, bəs özün son gündə nə cavab verəcən xaqanım? – Xaqanım deyərək onun könlünü aldı.

– Qağam Qorqud, kut ata ocağımızı nurlandırmaq üçün nəsiyyətinə ehtiyacımız var! – O gülümsünərək dedi: – İncimə, amma mən də Xəzər xaqanı olaraq səni sınamalı idim, görüm sən həqiqətəndə törökün növbəti qor kutusan?! Mən indi əminliklə deyə bilərəm ki, bütün ulusun müqəddəs ocağı sənsən! Mənim daha sualım yoxdur! – yerinə oturaraq bekə səsləndi: – Məncə başqa sözə ehtiyac yoxdur?

– Xaqanım məncə də bu adam həqiqətən ərmişdir!

– Məncə də. – Aaran bu dəfə niyəsə bütün səmimiyyəti ilə pıçıldadı.

Qağam razılıq əlaməti olaraq başını yellədi və dedi:

– Kimin sualı varsa əlini qaldırsın, sual verən bir nəfərdən artıq olsa, seçimi göyərçin edəcək. – Bir neçə nəfərin əlini qaldırdığını görüb, əli ilə çırtma çaldı, göyərçin havaya qalxıb Kiyev xaqanı İqorun çiyninə qondu.

Qağam Kiyev xaqanının oturduğu səmtə doğru gəldi:

– Kiyev xaqanı, Eraz soyundan İsqor! Törökü ilə tərçüməçi ilə danışan xaqanım! Buyur səni eşidirik...

Qağamın dediklərini Kiyev xaqanına brodni türklərinin başçısı tərçümə etdi, o tərcüməni dinlədikdən sonra etiraz edərək dedi:

– Aeraz bizim soy deyil! Biz tanrılarımızın toplusuna Aeraz deyirik! Xaqanlıq etdiyim Kiyev xanlığında və tabeliyimdə olan xanlıqlarda torklər yaşadığından bu qurultaya gəlmişəm, amma mən tork deyiləm, səhviniz var. – yanında ona tərcüməçilik edən brodni xanını göstərdi, – Bax brodni xanı torkdur, Kiyevdə yaşayan karakalpaklar torkdur, amma mən tork deyiləm! – Qağamda səhv tapdığını düşünərək gülümsündü.

Qağam ona yaxınlaşdı, bayaqdan ayağa qalxmayan İqor qeyri-ixtiyarı ayağa qalxdı, qağam diqqətlə onun gözlərinin içinə baxdı və pıçıldadı:

– Bəli, brodni xanı törökdür. – Üzünü pirçi pirinə tutdu: – Tanış olun, – əli ilə onları göstərdi, – pir soyundan ayrılan iki

qardaşa baxın, amma artıq bir soydan olduqlarını belə bilmirlər, soylarının qurd damğası belə onları ayılda bilmədi! – brodni xanı və pirçi piri biri-birinə baxdı, niyəsə ikisidə utandı. Qağam İqor xana doğru bir azda yaxınlaşdı və dedi: – Sən özündən danış İsqor xan. Sən keçmişini bu qədərmi unutmusan, ya keçmişini özün xatırlamaq istəmirsən?! Mən axı sənin gözlərində, küllər altında hələdə sönməyən qoru görürəm, ocağı görürəm. Sənin qəlbinin dərinliklərində Tək Tanrının kutu yatır...

Brodni türkünün tərcüməsindən sonra İqor xaqan dedi:

– Mən Tək Tanrıya inanmıram! Mənim baş tanrımın adı Odindir və onun tabeliyində onlarla tanrı var və biz onlara Aeraz deyirik.

– Bəs niyə özünüzə Ros deyirsiz? –qağamın sualında qəribə əminlik vardı.

Onlar tərcüməçi vasitəsi ilə danışmağa davam edirdi, İqor xaqan izah etdi:

– Dedim axı, bizim tanrıların cəminə Aeraz deyilir, bu səbəblə bizə tanrılarımızın adına görə Aeraz deyilir, meşə xalqı slavyanlar isə bizə Ros deyir. Bu qədər sadə... – O bunu deyərək qağamın heç nə bilmədiyini göstərmək istəyirdi.

– Həəəə, de, deee, – qağam onun gözünə içinə baxaraq gülümsündü – de... De ki, töröklərin Tanrısı təkdir, amma Eraz tanrılarının başçısı Odindir, hətta arvadıda var, Odinin arvadının adı Avadandır. Deeee! Niyə susursan? Hə, həəəə, de! De ki, Odinin ilk böyük oğulları ekizdir və adları Balder və Bragidir. – Əli ilə soyundan olanları göstərdi, – İkizlər ulusu kimi! Hə de...

İqor xan udqunaraq bir addım geri çəkildi, ayağı oturduğu taxta ilişdi, gözlərini qağamdan çəkmək istədi, amma gözləri onun əmrinə tabe olmadı. Qağamsa hiddətlə danışırdı:

– De İsqor! Susma! De ki, ekizlərdən biri olan Bragi öz ekizi Balderi öldürdü və ona görə ona “kor” ayaması verilib... – Uca səslə dedi, – Amma yox, siz dilinizi, ləhcənizi min illər ərzində unutduğunuzdan “kor” mənasında ona “hod” deyirsiz, eləmi?! Yoxsa deməliyəm ki, daha “kor” sözünü də unutmusunuz, ekizlərin bu müsibətindən , onların adındakı “p-r” səslərindən “blind” sözünü formalaşdırmısız, kor sözünün yerinə “blind” sözünü de-

yirsiz! – Üzünü musəvi, isaçı və məhəmmədi türklərə tutdu və dedi: – Tanrının yaratdığı ilk insanların adı nədir?

Musəvi türklər dedi:

– Edam və Eva.

İsalı və məhəmmədi türklər təsdiqləyərək dedi:

– Düzdür, Tanrının ilk yaratdığı insanların adı Adəm və Həvvadır.

– Bəs török törəsində nə deyir? – şəhadət barmağını göyə tutdu və dedi – Tanrı göyü və yeri yaratdı. Sonra ilk kişini, "atamızı" yaratdı. Sonra ilk qadını, yəni "əbəmızı" yaratdı. – ağır-ağır hər kəsi süzdü və uca səslə dedi: – Minlərlə il əvvəl török soyu olan aslar, sular və urlar dörd dənizə doğru yayıldılar, şimala Qaradəniz sahillərinə, şərqdə Göydənizi dolanaraq gündoğana getdilər...

– İndi Göydəniz bizim adımızla Xəzər dənizi adlanır! – Xəzər xaqanı gülümsünərək dedi.

Qağam başı ilə təsdiqləyərək danışmağa davam etdi:

– Aslar, sular, urlar qərbə, Ağdənizə doğru yayıldılar və cənuba, Qırmızı dənizə doğru və Bars dənizinə doğru yayıldılar. Yurd qurub, yeni-yeni ellər yaratdılar, dövlətlər qurdular. Amma törəni kim pozub, Ökü bütləşdirdisə töröklüyünü itirdi, digər tayfalar içində əriyib yox oldular. Bunlardan biridə Bars dənizi ətrafında onlarla şəhər dövləti quran as, su, ur törökləri idi, onlar Ur, Urok, Kiş, Subar, Tur, Azər kimi şəhər dövlətləri qurdular. İbtidai insanlar ətrafında qürrələnən bu töröklər zamanla törəni pozdu, törəni pozduqca Ökü unutdular, Ökün sifətlərini ayrı-ayrı tanrılar hesab etdilər. Hər günəşin doğmasında Ökə şükür edən töröklər törəni unudunca, Qora* etdikləri şükrün mahiyyətinidə anlamadılar, beləcə günəşi Danüzü** tanrısı adlandırdılar. Ökün izni ilə, hər il qorun yenidən işiqlanmasını və yerin bir ana kimi doğmasının Tanrıdan olduğunu dərk edə bilməyən zavallılar "yer ananı" tanrıça Nənə*** adlandırdılar.

---

* *günəşə*

** *Şumerlərdə Tamuzi adlı tanrı var*

*** *Şumerlərdə* İnanna *adlı tanrıça var*

– Kənanlardan danışırsan qağam? – bunu soruşan Xəzər beki idi.

– Bəli, törəni və Ökü unudunca, özlərinə török deməyidə unutdular, amma bir gün Tanrı Ur şəhərindən birinə səsləndi və O, bəndəsinə artıq haqqı itirmiş soydaşlarını tərk etməsini əmr etdi. – Ucadan dedi – Və o Ökdən uzaq düşmüş török və azər soyunu tərk etdi... – Susdu, yaşaran gözlərini sildi və dedi: – Artıq onu Abram deyə çağıracaqdılar. Əbə, Baba sözünün kökü olan Ab... Ər sözü və "mən" sözünün kökü olan "ma sözləri, – hecaladı – Ab-ər-am... Abram, yəni "ərlər atası"...

– Aman Tanrım! – Xəzər xaqanı qeyri-ixtiyarı ayağa qalıxdı və dedi – Avram, Musanın ulu babası... – Heyrətlə qağama baxdı və dedi, – Tövratda Avram* peyğəmbərin atasının adı Tarah kimi keçir. – Qağamın baxışını deyəsən bu dəfə də o oxudu, – Tarah, yəni töröh, yəni török... – Əli ilə alnını ovuşdurdu, – Tarah şəxs adı deyilmiş, tayfa adıdır, yəni biz töröklərin adıdır... Tarah, yəni töröklər... – Fəxrlə bağırdı, – Qağam Qorqud alqış sənə...

– Quranda isə İbrahim peyğəmbərin atasının adı Azər kimi keçir, – Asurbodun piri ayağa qalxaraq dedi. – Aaran xaqan sənin dediyin kimi, demək ki, Tarah "török" deməkdir, Azər sözü də "Azər törökləri" ilə bağlıdır. Yəni, Tarah və Azər İbrahim peyəmbərin atasının adı yox, ata soyunun adıdır.

Hamı heyrətlə biri-birə baxırdı, ağlayan kim, gülən kim, şəhadət barmağı ilə göyü göstərən kim... Qağam gülümsündü və əli ilə hamını sakit olmağa çağıraraq dedi:

– Biz töröklər Tanrının yaratdığı ilk kişiyə "atam" demişik, ilk qadına "əbə" demişik, beləcə Abram peyğəmbərlə yaranacaq kitablarda "atam" sözü adam, "əbə" sözü eva-həvva kimi deyilmişdir. – Gəlib üzünü İqor xaqana tutdu, – Və Qaradənizə gedən azər töröklərindən bir qol da uzun yüz illərdə Ökü və törəsini unutdu. – Bağırdı, – Kiyev xaqanı, sənin ilk ataların atamıza, yəni "Atama-Adəmə" Odin deyiblər, zamanlada Odini tanrı hesab ediblər. Ulu Əbəmizə, yəni Evaya, yəni Həvaya "Avom-Von" deyib və sonunda "vodon" demisiz və onuda tanrıça etmisiz. Odin "atam" deməkdir, "adəm" deməkdir, tanrı deyil, başa düşür-

---

** İbrahim peyğəmbər*

sən? – sərt səslə soruşdu.

İqor taqətsiz halda taxta çökdü:

– Mən bilmirdim... – bu dəfə özü türkcə danışdı.

– Daha bitmədi! – qağam əlini yellədi, – Dahası var! Törəmizdə yazılır ki, atam və əbənin ekiz oğulları oldu, onlara "insanlığın böyük qardaşları" mənasında "ox abi" və "ok abi" deyildi.

Xəzər beki heyrət içində dedi:

– Habil və Qabil, – başını yellədi, – daha sözüm yoxdur... Əhsən.

– Törəmizdə yazılır Okabi heyvandırlıqla və Oxabi əkinçiliklə məşğul olurdu. Qorun işıqlandığı, yer ananın canladığı gün onlar Ökün Bil-Ök sifətinə qurban gətirdilər. Okabi heyvan qurban etdi, Oxabi əkin məhsullarından qurban etdi. Ök Okabinin özənlə seçdiyi heyvanı qəbul etdi, amma Oxabinin əkin məhsullarının əzilmişlərindən gətirdiyi qurbanı qəbul etmədi. Qardaşına kin tutan Oxabi ekizini öldürdü. Törəmizdə bu haqda belə yazılır, Oxabinin tamahı* onu kor etdi, o tamuya* *(cəhənnəmə)* düşən ilk insan oldu. Məsələdən agah olan ilk atamız Oxabini və elini yurdundan qovdu. – Üzünü çağırışçılara tutdu, – O zamandan minlərlə il keçdi, lakin qardaşın qardaşa düşmən olmasını və o savaşda qan ağlayan atam hekayəsini unutmadıq. O gündə qardaş qardaşa düşmən olur və atamdan bu günə atam timsalı dədəqorqudlar ağıt deyir, qardaş qanı tökəni lənətliyir! Və o gündən bu günə unudulmayan daha iki şey var, Ökün "bilən" sifəti olan Bil-ökə verilən heyvan qurbanına "buğa", bitgi qurbanına "buğda" deyilir. Hər iki qurban hələdə var...

– Heyvan qurbanı kəsilir, razıyam. Amma İslamda bitgi qurbanı yoxdur. – kimsə ayağa qalxaraq etiraz etdi.

– Doğurdan? – qağam çönüb ona baxdı.

– Bəli, İslamda qurban bayramında heyvan kəsilir, bəs bitgi qurbanı nədir?

– İslamda fitrə şərtini nə edək o zaman?! Fitrə buğda, arpa və digər bitgilərlə verilmirmi?!

– Verilir... – heyrətlə qağama baxdı və utanaraq dedi: – Təşək-

---

* *nəfsi*

kür edirəm Qorqud qağam, üzrlü sayın!

– Əsas odur haqqı tapaq! – qağam gülümsündü və gəlib yenidən İqorun qarşısında durdu və soruşdu: – Tanrınız Odinin ekiz oğulu yoxdumu?

– Var, – Kiyev xaqanı qəribə türk ləhcəsiylə dedi, – bayaq dediyin kimi Blader və Bragi...

– Pir sözünün fərqli dialekdə deyilişi, – qağam sınayıcı nəzərlərlə ona baxdı və dedi, – abi və ya pir sözləri eyni mənanı ifadə etmirmi?

– Doqrudur! – İqor etiraz etmədən dedi. Çağırışçılardan bir çoxu əlavə etdi: – Hər iki söz, böyük, böyük qardaş deməkdir.

– Bir də Odinin bir oğulu var, adı Tordur, anasının adına Jörd deyirsiz... – qağam əlavə etdi.

– Bəli Odin oğlu Tor, anasının adı Jörddür. – İqor təsdiqlədi.

– Jörd yox "yer", yer ana desək necə olar? – Qağam gülümsünərək əlavə etdi: – ilk Əbəni tanrıça etdikdə, yer ananıda qatıb-qarışdırmısız, Odinin arvadı etmisiz... Bəs Tor səncə nə deməkdir?

– Tur... Török – İqorun gözü dolmuş halda dedi.

– İbtidai insanlar atlı, silahlı törökləri, azərləri gördükdə, onları tanrı hesab etdi, zamanla törəni unudan azərlərdə özünə tanrı adlandırdı... İlk Atamızı, Adəmi tanrı Odin etdiz*... Töröklərin Adəm soyundan gəldiyi bilgisinin tam izahını unutduğunuzdan, Odinin ekiz oğulları ilə Nuh oğlu Yasəf Törökü, yəni Toru gətirib Adəmin oğlu etdiz.

– Anladım. – Kiyev xaqanı dedi.

Qağam başı ilə razılaşdığını ifadə edərək danışmağa davam etdi:

– Bütün yaradılış Ökdəndir. Başımızdakı qor olan günəş də, gecələri nur saçan ay da, sonsuz sayda olan ulduzlar da Onun yaradılışıdır. İlk atalarımız rəsmli yazı yazdıqda dairə çəkərək "gözü" və ya "qor olan günəşi" ifadə edirdilər, zamanla isim olaraq gözü və ya qoru ifadə edən dairə işarəsi "görmək" mənasında da yazıldı. Rəsimli yazının bu məntiqinin yaranması ilə dairə sinvolu

---

* *Odin skandnav əfsanələrindəki baş tanrının adıdır*

insan gözünü ifadə etdiyinə görə, həmçinin insanın görməsini də ifadə etməyə başladı. Bu məntiqin davamı kimi qoru (günəşi) ifadə edən dairə rəsmidə Tanrının görməsini ifadə etməyə başladı. Beləliklə rəsimli yazı ilə yeni bir anlayış yarandı, "Tanrının yaratdığı qor onun görən sifətini təmsil edir". Bu məntiqin davamı kimi, yazıda "ay" sinvolu "gecə" mənası ilə bərabər Tanrının "son günəcən göz yumub səbr edən sifətini" təmsil etməyə başladı. Eyni ilə "ulduz" sinvoluda Tanrının "ululuq" sifətini təmsil etməyə, "zamanın sahibi" olması sifətini təmsil etməyə başladı. – Hər kəs qağamı izləyirdi, bəzilər isə düşünürdü ki, hal-hazırda olan bu söhbətin mətləbə nə dəxli var... Qağam isə danışmağa davam edirdi:

– Amma törəni unudanlar, kut ocaqlarından uzaq düşənlər bunu qısaca olaraq belə ifadə etdi, "Qor Tanrının görən gözüdür, ay Tanrının kor gözüdür", törədən uzaqlaşanlar rəsimli yazıdan yaranan bu məntiqi fiziki təzahür kimi dərk etməyə başladı. Törədən uzaq düşənlər, atalarının "qoru yaratdığı üçün Tanrıya şükr etdiyini" dərk etmədi, onlar birbaşa günə, aya sitaiş etdilər, beləliklə Tanrı xan, Günxan, Ayxan üçləməsinə inananlar yarandı, onlar içindən zamanla bir qrup günəşi, ayı Tanrıya vasitə kimi qəbul etdi. Ökün törəsini unudanların sonu bax belə olur. – Çönüb yenidən İqora baxdı, – Əzizim İsqor, bax beləcə bütün bunları qatıb qarışdıran ataların Adəmi Odin etdi. Ataların günxançılar və ayxançılar kimi Tanrının qor və kor gözünün olduğuna inandı və beləliklə atalarının uydurduğu tanrı Odinin bir gözü qor, bir gözü kordur. Hə? Düzmü dedim, eləmi inanırsız?!

Hər kəs söhbətin biri-birini zincir kimi bağlamasına heyrət etdi, bəzilər sevinc içində ağlayırdı, bəziləri gülürdü, bəzilər isə əlni açıb Ökə şükür edirdi.

– Elədir! Anladım qağam Qorqud! – İqor qaçaraq qağamı qucaqladı və hönkürərək dedi: – Az qala soyumu unudacaqdım. Anladım, mən azər töröküyəm, ros yox azərəm... Odin tanrı deyil, ilk atamızdır, Adəmdir.

Hər kəs heyrət içində idi. Qağam gülümsünərək İqorun çiyinlərindən tutdu və dedi:

– Əsas odur Ök hələ də bizdən üz döndərməyib... – Yenidən

qucaqlaşdılar. Qağam daha sonra hər kəsə səsləndi, – Bu günlük bəsdir, dincələk! Bu gün şahid olduqlarımızı yaxşı, yaxşı düşünək! Məncə bu gün olan hadisələrdə olduqca ibrətlik dərslər var. Sabah dan söküldükdən sonra  yığışaq...

Çağırışçılar bütün günü qağamın söhbətini müzakirə etdi. Səhər dan söküldükdə hər kəs çadıra toplaşdı.  Söhbəti qağam açdı:

– Sualı olan varmı?

Masakova xanı ayağa qalxdı:

– Qorqut qağam iki sualım var. Birincisi İqor xana sən İqor yox, İsqor dedin, səni kim pirin bunu belə deməsi məncə təsadüfi deyil?

– Əlbəttə Masak xanı, –  qağam gülümsündü, – bu sualı gözləyirdim. Qor bildiyimiz kimi  hərfi mənad “od” və ya “köz” deməkdir. Biz hamımız Atam, yəni Adəm soyuyuq. Atamdan törəyənlər,  ayrı evə çıxdıqda  ata ocağından bir köz aparıb,  öz ocağını yandırırdı. Əslində bu məntiqlə bizm hamımız Atam ocağının közüyük, qoruyuk, ata ocağımızın qoruyucularıyıq. Və ilk atamızdan üzü  bu yana törəni saxlayanlar öz ocaqlarını, öz qorlarını qoruya bilənlərdir. Bu üzdən ata ocağını qoruyanlara biz “qor kut”  demişik, yənu “ocağı müqəddəs” pak qalan. Amma bəzi halda ata ocağını qoruyanlara “isti qor – isqor” deyiblər,  yəni “qoru isti” olan, ocağı sönməmiş mənasında və ya “al evi–alevi” deyiblər, yəni “evində alovu sönməyən” mənasında. Yəni anlayacağınız kimi “isqor” və ya “alevi”  bir pir ünvanı olmuşdur...

– Əcdadlarımda İsqor  rəhbər ünvanıdır, mən də hakimiyyətə gəldikdən sonra bu adla şərəfləndirildim. – İqor təsdiqlədi.

– İkinci sualnı ver, Masak xanı – qağam dedi.

– Mənim soyum sak soyundan, masak qolundandır! Maskova və ətrafına minlərlə slavyan köçüb, biri-birinə qarışan tayfalar var, indi biz nə etməliyik?

– Onu qurultayın sonunda hamılıqla düşünməliyik! O üzdən bir az səbrli olaq!

– Anladın Qorqud qağam, – deyib masakova xanı yerinə oturdu.

– Başqa sözü, sualı olan varmı? – qağam hər kəsi süzdü.

– Mənim sözüm var! – Ərmən məliyi ayağa qalxdı.

– Eşidirəm səni Ərmən məliyi!

– Mən indi anlamadım? – O boynunda asdığı xaçı göstərdi: – Bu xaç Tanrı damğası deyilmi, indi mən bunu daşımaqla günahmı edirəm? – Barmağı ilə bir-bir göstərdi, – Baxın, Alban məliyi, Trabzon hökmdarı, Urova piri, qıpçaq məliyi, uz məliyi, avar xanı, peçenek xanı, bulqar xanı, hamısı xaç daşımırmı?!

Sankı qurbağa gölünə daş atıldı, çadıra sükut çökdü, adı çəkilənlər biri-birinin üzünə baxdı, qağam kimsənin cavab vermədiyini görüb soruşdu:

– Hə, bu barədə sözü olan varmı?

– Hə, Tanrı törəsinə üyğun olaraq növbəti peyğmbərləri qəbul etməliyik və biz İsanı qəbil etmişik. Burada nə var ki?! – qıpçaq məliyi ayağa qalxdı, sərt tonda dedi: – Bu ki, törəyə zidd deyil! – Dindaşları türklərə baxdı, onlardan səs çıxmadığını görüb daha uca tonla dedi: – Danışın da, niyə susmusuz? Düz demirəm? – Üzünü qağama tutdu və dedi: – Mən Tanrını da, törəsini də yaxşı bilirəm.

Qağam qəstdən susdu, xaçpərəst türklər arasında bir qaynaşma yaranmışdı, onlar bir-birinə baxıb, bığaltı qımışırdı. Qağam onları süzərək bığına-saqqalına tumar çəkdi və kinayə ilə gülümsündü:

– Demək ki, Tanrı və törəsini yaxşı bilirsiz? – əli ilə bir-bir xaçpərəst türkləri göstərdi, – Demək ki, Tanrı törəsinə uyğun yaşayırsız?! Həəəə?

– Hə, əlbəttə. – xaçpərəst türk hökmdarları cavabladı.

– Pirçi piri ayağa qalx, – qağam qəzəblə bağırdı.

– Bəli qağam... – O ayağa qalxaraq tərəddütlə qağama baxdı və dedi: – Biz Məhəmmədi törökləriyik, qağam... – o belə deyərək sonuncu elçini qəbul etdiklərini və xristiyan olmadıqlarını bildirmək istəyirdi.

– Bunu məgər bilmirəm? – qağam ona yaxınlaşaraq soruşdu, – Sən de görüm Pirçi elinin ən böyük müsübəti nədir, dərdi nədir?

Pirçi piri qağamın nəyə eyham vurduğunu yalnız indi anladı,

niyəsə kövrəldi və dodağı əsərək dedi:

– Ərəblər Alban xaqanlığını yıxdıqdan sonra gürçülər Borçu elinə zaman-zaman hücum etməyə başladı, amma hər dəfəsində də hücumlarını dəf edirdik, bəzən əks hücuma da keçirdik. Sonra qıpçaqlar öz török soyunu unudub dindaşları olan gürçülərə qaxmar çıxdı, onlarla birlikdə Borçu elini at tapdağı etdilər.

– Biz ərəb dövlətinə qarşı vuruşuruq! – qıpçaq məliyi etiraz etmək istədi.

– Bax, Pirçi elinin pirinə bax! – Bağırdı, – Yaxşı bax! Pirçi elində yaşayanlar törökdür, yoxsa ərəb?

– Günah özlərindədir, ərəb dinini qəbul etməzdilər? – qıpçaq məliyi gülümsünmək istədi, amma qağamın sərt baxışları niyə isə onu qorxutdu, canına bir üşütmə düşdü, dizləri əsdi.

– Demək son peyğəmbəri qəbul etdikdə ərəb olursan, amma İsanı qəbul etdikdə bu törədən olur, həəə? Sizinləyəm cavab verin? – Qağamın sözünün bitməsi ilə göy gurladı, şimşəklər çaxdı, quzğunlar uçuşaraq tükürpədici səslə qıy vurdular, qurdlar yeri-göyü titrədəcək səslə ulaşdılar. Qağam bağırıdı: – Cavab verin, demək siz pirçi töröklərini qırdıqda ərəblərlə savaşmış olursuz? Bəs o zaman kömək etdiyiniz gürcülər kimdir?! – Üzünü qıpçaq məliyinə tutdu: – Alban kilsələrini gürcülərə peşkəş etməyinizə nə deyək? O ərazilərdə yaşayan İsalı alban türklərinə heç bir çıxış yolu qoymamısız, tək yolları qalıb, öz kilsələrində gürcülərlə birlikdə ibadət etmək... Niyə? Niyə albanlar öz torpğında, öz kilsələrində gürcülərlə birlikdə ibadət etməlidir?! Niyə?

– Mənnn... mən demək istəyirəm ki... – qıpçaq xanı key-key zarıdı.

– Mənə cavab verə bilmirsən, bəs törənin sahibi Ökə necə cavab verəcən?! – Qıpçaq məliyinin cavab verə bilmədiyini görüb üzünü peçenek xanına tutdu: – Sən, peçenek xanı török deyilsənmi?

– Törökəm...

– Sən As məliyi török deyilsənmi?

Uz məliyi ayağa qalxdı:

– Törökəm Qorqud qağam!

– Bəs sən, avar xanı török deyilsənmi?

– Törökəm Qorqudum.

– Böyük Bulqar xanı, bəs sən török deyilsənmi?

– Törökəm.

– Amma Xəzər xaqanlığına qarşı Bizansla birlik olursuzzzz, eləmiii?! Və birdə deyirsiz ki, boynumuzdakı xaç Tanrı damğasıdır? – onların üstünə bağırdı, – Siz Tanrıya da, törösinə də, török ocağına da xəyanət edirsiz! Siz Ökün törəsini bilmək əvəzinə İbelə uymusuz! Adəmin iki oğlu, iki qardaşdan biri digərnin qatili oldu və bu müsibət hələdə davam edir! Sizin qatil qardaş olan Oxabidən, o Qabildən nə fərqiniz var?!

Peçenek xanı başı ilə təsdiqlədi və pıçıldadı:

– Biz İblisə uymuşuq... Qəflət yuxusunda idim, sanki indi ayıldım, Qorqud qağam... İnannn... Səhvimizi necə düzəldək, qağam sən onu de! – peşmançılığı üzündən oxunurdu.

Qağam peçenek xanına gülümsünərək üzünü ərmən məliyinə tutdu və dedi:

– Sən deyirsən boynundakı xaç Tanrı damğasıdır, amma alban məlikliyini və kilsələrini məhv etmək üçün ərəb dövlətinə casusluq edirsən! Budur sənin Tanrı anlayışın?

– Ərəblərə casusluq... Sən bunu haradan bilirsən qağam? – ərmən məliyi key-key soruşdu.

– Əsas məslə o deyil ki, mən bunu haradan bilirəm! Əsas məsələ odur ki, sən hakimiyyət uğrunda həm alban, həm ərmən töröklərinə və törəyə xəyanət edirsən! Son gündə bunun cavabını necə verməyi düşünürsən?!

– Vay mənim halıma, vay! – ərmən məliyi iki əlli ilə başını döyəclədi.

Qorqud qağam üzünü çevirib Trabzon hökümdarına tutdu:

– Uroba piri və Turoba hökmdarı, min illər boyu digərləri ilə qarışmadız, töröklüyünüzü qorudunuz! Bəs indi nə olub sizə?! Agahsınızmı ki, Roma* xristiyanlığı içində əriyəcəksiz?!

– Qağam, biz oğuzlarla qız alıb, qız veririk! Turabzon török elidir, török də qalacaq! Hansı török bizim ellərə gəlsə, onlarla

---

* *Son əsrlərə qədər, kimsə Bizans sözünü işlətməmişdir, Şərqi Roma "Roma" kimi çağrılmışdır.*

birlik olub Romaya qarşı savaşmağa, ata yurdlarımızı geri almağa hazırıq! Amma təkliklə Romaya itaət etməkdən başqa əlimizdən bir iş gəlmir!

Uroba piri də Trabzon hökmdarınını dediklərini təsdiqlədi və əlavə etdi:

– Urfa töröklərido ata yurdlarımızın geri alınacağı günləri gözləyir! Amma sizdən əvvəlki Dədə Qorqud Oğuz ellərində can qoydu, gah qıpçaq məliyi xəyanət etdi, gah diş oğuz iç oğuza savaş açdı, belə halda töröklər birlik qura bilərmi? Urfa, Turabzon kimlə birləşsin?! Törtök soyları pərən-pərəndir. Tək ümidimiz Azərbodun oğuzlarıdır, bu ata ocağında bütün töröklərə qarşı sevgi var! Eşitdiyimə görə, Dədə Qorqud ömrünü orada başa vurub!

Qağamın işarəsi ilə Asurbodun piri ayağa qalxdı və dedi:

– Hamı bilir ki, Azərbaycan töröklərin ata ocağı olub, min illər ərzində bu ata ocağı töröklərin çox gedişinə-gəlişinə şahidlik edib, gələnlərə qucaq açıb! Doğrudur, son Dədə Qorqud bizim eldə vəfat etdi, o son sözlərində dediyi kimi, "Töröküm, oğuzum Tanrıya baş əyib, törəsinə qulaq assa, bu birliyi son günə qədər kimsə poza bilməz! Töröküm Tanrıya baş əydiyi müddətcə kimsəyə diz çökməz, baş əyməz. Əgər töröküm törəyə qulaq assa kimsənin qulu olmaz! Amma töröküm Tanrını unudub, törəni pozsa qum dənələri kimi sovrulub yox olacaq! Biri-birinizi sevmək üçün Tanrının adını eşitmək yetərli olmalıdır, biri-birinizi sevmək üçün török olmanız yetərli olmalıdır, bu yetərli deyilsə, demək ki, bilgə kutunuz kor olub, ibel sizə dost olub!"

– Başa düşmədim indi Məhəmmədi qəbul edən Asurbodun törökləri yaxşı oldu, biz pis?! – Avar xanı ayağa qalxdı.

Qağam söhbətə müdaxilə edərək dedi:

– Avar xanı, burada xan demoqoqluğu etmə! Burada kimsə sənin nökərin, əyanın deyil! – qağam sərt tonla dedi.

– Məsələ mənim xan olub, olmamam deyil! Məsələ Məhəmməd ordularının Talkanda, Curcanda törökləri qətl etməsindən gedir! Bayaqdan török törəsindən danışırsız, bəs orada ölənlər török deyildi, o törökləri qətl edənlər Məhəmməd ordusu deyildi?!

– Hə, demək beləəə... – qağam Avar xanına baxdı, – Düz-

dür, 200 il əvvəl Müəviyyə ordusu, Yezid ordusu Talkanda, Curcanda, Buxara və Xorasan ətrafında 50 il boyunca török soyunu qətl edib və on minlərə törökü isə kölə edib aparıb! Amma bu ordu Məhəmməd peyğəmbərimi, İslamımı təmsil edir? Bax, əsas məsələ budur Avar xanı!

– Başa düşmədim? – Avar xanı qağamın üzündəki ifadədəki istezanı sezdi, kəkələdəyərək soruşdu, – Başa düşmədim ərəb ordusu Məhəmmədi və İslamı təmsil etmirmi? Belə də cəfəngiyyat olar?!

Qağam kinayə ilə gülümsündü və Xorasan pirinə səsləndi:

– Xorasan piri bu barədə sözün varmı, yoxsa Avar xanının sualını mən cavablayım?

– Qorqud qağam icazənlə mən cavablayım. – Xorasan piri ayağa qalxaraq dedi. – Əziz soyum həqiqətən də Buxarada və Xorasanda török qətliamı baş verib, amma bu qətliamın Məhəmməd peyğəmbər və İslamla heç bir əlaqəsi yoxdur...

– Elə iş olur? – Avar xanı onun sözünü kəsərək qeyzlə soruşdu.

– Səbirli ol! İcazə ver cavablayım, Avar xanı. – Xorasan piri onun üzünə baxdı, – Bəli Xorasan və ətrafında törökləri qətl edən ərəb ordusu idi, amma sual burasındadır ki, hansı ərəb ordusu?! Bu qətliamlar xəlifə Müəviyyə oğlu Yezid və bu soyla bağlı Əməvi sülaləsi dönəmində, onlara tabe olan ordular tərəfindən edilib. O Müəviyyə ki, o Yezid ki, Məhəmməd peyğəmbərin nəvələrinin qanı var üstlərində... – Xorasan pirinin səsi titrədi, toxtamaq üçün bir az susdu və sonra dedi, – O Yezid ki, Məhəmməd peyğəmbərin nəvəsi Hüseynin qətlinə fərman verib, Mədinədə yaşayan səhabələri qılıncdan keçirib, o faciə Haran savaşı adı ilə məhşurdur! İndi avar xanı, sən de, peyğəmbər nəvəsinin başını kəsən Yezid ordusu İslam ordusu ola bilərmi?!

– Mən bunu bilmirdim. – Avar xanı peşman olmuş şəkildə dedi.

Xorasan piri ucadan dedi:

– Biz Xorasan törökləri qətl edilmiş peyğəmbər nəvəsi ilə həmdərdik! Yezid ordusu hər ikimizin qanını axıdıb! Bu səbəbdən, ərəblərdən fərqli olaraq biz töröklər Müəviyyə və Yezid adı-

na nifrət edirik. Üməvi sulaləsi həm Xorasan töröklərinin, həm Məhəmməd soyunun ocağını söndürmək istədi, bağrımızın alovunu kül etmək istədi, amma bizim ocağımızın alovu sönmədi... – Xorasan piri bunları deyib, susdu.

Qağam yaxınlaşaraq üzünü bir nəfərə tutub dedi:

– Pirim, – xüsusi intonasiya ilə dedi: – gizli pirim, bu haqda sən nə deyə bilərsən?! – üzünü Xorasan pirinə tutdu, – Pirim səndə diqqətlə dinlə.

İki gündür sakitcə söhbətləri dinləyən biri ayağa qalxdı və danışdı:

– Mən imam Hənifənin* soyundanam. İslam dünyasının ən böyük alimi sayılan Hənifənin kötücəsiyəm. – Səsi titrədi, – Yezid ordusu Xorasanda törətdiyi qətliamlardan birində sağ qalan türklərin bir hissəsini əsir edərək Küfəyə aparmışdı, imam Hənifənin babası, yəni atasının atası da o əsirlər içində idi, onlar

---

** Ebü Hənifə (699, Kufə – 767, Bağdat) İslam dininin dört fikıh məzhəbindən ilkinin, Hənəfi məzhəbinin qurucusu. Hənifə ismi "tək" mənası verən "hənif" sözündən olub, tələbələri tərəfindən ona verilən bir ad olması ehtimal olunur. Onun ailəsinin Xorasandan əsir olaraq gətirilməsi və ərəb olmaması dəqiqdir. Bəzi tarixçilər görə o fars, digər tarixçilərə görə isə türkdür. O kiçik yaşlarında Quranı əzbərləmiş, gəncliyində sahabələrdən Enes bin Maliki, Abdullah bin Übi Evfayı, Vasilə bin Eskayı, Sehl bin Saidəyi, Tufeyl Amir bin Vasiləyi görmüşdür. İpək ticarəti ilə məşğul olmuşdur, ticarət məqsədi ilə tez-tez Məkkə və Mədinədə olurdu, bu zaman Əhli Beytdən Zeyd bin Əlidən (699-640 – İmam Hüsüynin nəvəsi İmam Zeynəlabdinin oğlu), İmam Cəfəri Sadıqdan, xəlifə Ömərin və oğlu Abdullahın mirzəsi Hafidən dərs almışdır. O bütün təzyiqləri baxmayaraq nə Əməvi, nə Abbasi hakimiyyətinə boyun əymişdir, II Abbasi xəlifəsi Ebu Cəfər el Mansurun ona təklif etdiyi vəzifəni qəbul etmədikdə, zindana salınmış bəzi qaynaqlara gözrə zəhərlənərək, bəzi qaynaqlara görə döyülərək öldürdülmüşdür. O Əməvi sülaləsinin saxtakarlığına qarşı çıxmış, dövründə bir çoxları bu səbəblə onu lənətləmişdir və onu əhli sünnəyə qarşı çıxmaqda günahlandırmışdır, o isə cavabında "peyğəmbər sünnəsinə yox, Müəviyyə sünnəsinə qarşı olduğunu, Allahın dininə yox, ərəbçiliyə qarşı olduğunu" deyirdi. Ona yalnız ölümündən iki yüz il sonra qiymət verilmişdir, lakin bu zamanda onun fikirləri saxtalaşdırılmışdır. Əbu Hənifə əhli-sünnənin dörd məzhəb fəqihlərindən ilkidir və digərləri onun elimdın bəhrələnmişdir:*

*1. Əbu Hənifənin məzhəbi*
*2. Malik ibn Ənəsin məzhəbi*
*3. Muhəmməd ibn İdris Şafeinin məzhəbi*
*4. Əhməd ibn Hənbəlin məzhəbi*

Xorasan pirinin soyundan idi, bu səbəblə də onlar əsir olan türklər içində sevilirdi, hörmət edilirdi, o elmi ilə seçilərək əsirlikdən çıxan ilk türklərdən olmuşdu, daha sonra ipək ticarəti ilə məşğul olmuşdur. İmam Hənifə ərəb, fars, türk dilini uşaq yaşlarından mükəmməl şəkildə bilirdi, yeddi yaşında Quran hafizi olmuşdu, tezliklə onun adı-sanı bütün diyarlara yayıldı. O bir yandan ipək ticarəti ilə məğul olur, bir yandan da dövründə sağ qalmış səhabələrlə görüşmüş, peyğəmbər nəvəsinin soyundan imamlarla görüşmüş, onlardan peyğəmbərin həyatını və hədislərini dinləmişdir. Müəviyyə sülaləsi ərəb olmayan müsəlimanları özlərindən saymırdı və ərəb olmayan müsəlimanlara "kölə" mənasında "mevali" deyirdilər, lakin adı-sanı hər yana yayılan Hənifəyi dəfələrlə dövlət vəzifələrinə dəvət etmişdilər, lakin o hər dəfəsində bu dəvətlərə rədd cavabı vermişdi. Bu səbəbdən də dəfələrlə, qamçı cəzası almışdı, zindana salınmışdı.

– Niyə dövlət vəzifələrinə etiraz etmişdi? Bəlkə açıqlayasan, hə? – qağam hər kəsə izah etməsi üçün ondan soruşdu.

– Hə, haqlısan qağam, izah edim! İmam Hənifə Müəviyyə sülaləsinə və siyasətinə qarşı idi, o deyirdi ki, Müəviyyə sülaləsi öz hakimiyyətlərini qorumaq üçün saxta hədislər uydurdub, qədər anlayışını saxtalaşdırıb, Məhəmməd peyğəmbərin sünnəsi Müəviyyə sünnəsi ilə əvəz edilib, Allahın dini yenidən bədəvi ərəb adətləri ilə əvəz edilib, o həmçinin Məhəmməd peyğəmbərə və ailəsinə haqsızlıq edildiyini deyirdi. Əməvilər ona bu vəzifələri sus payı olaraq təklif edirdi, lakin o bu vəzifələrdən imtina etmişdir. İmam Hənifə ömrünün son 18 ilini Abbasilər dönəmində yaşamışdı, lakin onların da səhvlərini bir-bir göstərmişdi, xəlifə Mənsurun ona sus payı olaraq vermək istədiyi vəzifədən imtina etmişdi və döyülərək öldürülmüşdü. O öldürüləcəyini anladıqda evə xəbər saldırmışdır ki, hakimiyyətdən uzaq durun, törəni, Quranı, Məhəmməd sünnəsini doğru yaşayın, oğluna gizli pirliyi vəsiyyət etmişdir.

– Hə, böyük mənzərə indi hər kəsə aydın oldumu?! Ərəb olmaq, müsəliman olmaq deyil, ərəb adətləri isə Məhəmməd

peyğəmbərin yolunda getmək deyil, Quran əmri heç deyil! Peyğəmbər yolunda cihad aparan Hənifənin aqibəti ərəb əlində öldürülmək olmuşdur! Məncə hər şey aydın oldu, indisə mənim bir sualım olacaq. – Qağam bunu deyib soruşdu: – İsalı töröklər, zəhmət çəkib dininizin damğasını göstərin! – qağam sərt tonda dedi.

Xaçpərəst türklər töröklər boyunlarında olan xaç damğasını göstərdilər.

– İndi Musəvi töröklər öz damğasını göstərsin!

Xəzər xaqanlığından olanlar altıgüşəli ulduz şəkilində olan medalyonlarını göstərdilər.

– İndi Məhəmmədi töröklər öz damğalarını göstərsinlər.

Oğuz bəylərindən Dukak bəy, Qaraxanlı xanı, Asurbodun piri, Xorosan piri və digər islamı qəbul etmiş türklər üzüklərində olan hilal damğasını göstərdilər.

Qağam acı-acı gülümsündü, masanın üstündəki parça bükülüsünü əlinə götürdü, onu açaraq bükülünün içindəki medalyonu havaya qaldırdı və dedi:

– Baxın bu medalyona. – Hilal formasında ay, aya bitişik dairə və dairənin ortasında daha kiçik dairədə isə xaç olan medalyonu hər kəsə göstərdi, – Bu medalyonu görürsünüzmü, Nuh oğlu Yasəf Törökün atalarımız Asa, Suya, Ura verdiyi üç medalyondan biridir! Digər iki medalyon və ya nüsxələri kimdəsə var?!

– Məndə var! – Tatar xanı boynundakı medalyonun ipini qıraraq havaya qaldırdı, – Budur Ur babamızın medalyonu!

– Bəs üçüncü medalyon? – Qağam hamını süzüb dedi: –Ya üçüncü medalyon itib, ya da burada çağırılmayan birindədir! Bəs hər soy bu medalyonun bir nüsxəsini daşımalı idi, yolu harda azdız?! Török ulusu niyə parçalandı?! – Medalyondakı dairənin içindəki kiçik dairədə olan xaçı göstərdi və dedi: – Baxın İsaçı töröklər, sizə ata damğanızdan bu xaç qalıb. – Çönüb Avar xanına baxdı, – Avar xanı, bax sizə bir xaç qalıb! – Üzünü Xəzər töröklərinə tutdu, böyük dirəni göstərdi. – Bax günəş damğasından, sizə altı güşəli ulduz qalıb! – Hilalı göstərərək İslamı qəbul edən türklərə səsləndi, – Siz isə yalnız hilal olan ay qalıb!

Qəribə təzaddır, deyilmi?! , Tanrını, törəsini və törökünü üç yerə bölmüsüz! – Bağırıdı, – Amma yoxxxx... – Üzünü Tatar xanına tutdu: – Deee... – qağam əmr edici tonla dedi.

Tatar xanı, qağamın onun ürəyini oxumasına məəttəl qalaraq dedi:

– Mən Ur soyundan, Tur boyundanam! Atalarımız kimi biz də Tanrıya və törəsinə inanırıq! Qərbdə yaşayan soydaşlarım zamanla, İsanı, Musanı, Məhəmmədi və törənin yeni sözlərini tanıyıb qəbul ediblər! Bir də onda ayıldıq ki, bu soydaşlarımız daha bizə török demir, bizə "dini danan ər" mənasında "tat-ar" deyirlər. Bizimlə bütün münasibətləri kəsdilər, qız alıb-verməyi dayandırdılar! Bizi çinlilərlə, dinsizlə tərəzinin eyni gözünə qoydular! Öz soyumuz bizə dinsiz dedi, tatar dedi, Qorqud qağam öz soyum bizə tatar dedi. – səsi titrədi.

Qağam ittihamedici baxışlarla hər kəsi süzdü, başı ilə təsdiqlədi və dedi:

– Bax belə, belə işlər! Bəs sən nə deyirsən Ökur xanı? Ökə "Man-Ök" sözlərindən Məngü dediz, bildik, başa düşdük! Bəs farsların Mani dediklərini anlamadan, uydurduqları sözü özünüzə din deməniz nə deyək? Bu yolda sizə mane olan qorqudu öldürmənizə nə deyək?!

Uyğur xanı, qağamın ona "ökür" deməsinə niyəsə sevindi:

– Qorqud qağam, ökür sözünü yalnız törədə oxumuşam, "ökür" sözünün "uyğur" şəkli almasından belə yüzlərlə il keçib, eşitməsi olduqca xoşdur! Qaldı mani dini ilə bağlı söhbətə, uyğur xanı olaraq söz verirəm ki, geri dönər-dönməz törəni bərpa edəcəm, Mani dinindən imtina edib bütün peyğəmbərləri qəbul edəcəm, tayfamla birlikdə!

Qağam üzünü Tete pirinə tutdu:

– Pirim manqolustan bozqırlarında nə xəbər, nə ətər? Törəni pozan tayfalarla nə edirsəz? Eşitdiyimə görə, pirin nəzarətində olan bəzi qamlar törəni otculuqla, duanı baxıcılıqla, nəsiyyəti falla qarışıq salıblar! Saza, sözə qiymət verən soyum daha qavalamı dəyər verir?!

– Qorqud qağam, o bozqurlarda yaşayan török soyu digər

tayfalar içində azlıqdadır, yeni kitabları qəbul edən töröklər bizə tatar deyib dişladıqlarından tək başına qaldıq, gücsüz qaldıq! Soymuz bizi dışladı, bəziləridə onlardan küsdü, beləcə söz dinləyəni var, dinləməyəni var, törəni qoruyacaq böyük bir xan da yoxdur, başsız qaldıq!

Qağam başı ilə onun dediklərini təsdiqlədi:

– Bax, török soyunun hal-hazırdakı vəziyyəti belədir! – bunu deyib hər kəsi süzdü.

Hər kəs biri-birinin üzünə baxdı, bəzilərinin gözü dolmuşdu, bəziləri utanırdı, bəzilər keyimişdi. Qağam əlini yana açaraq dedi:

– Eşitdinmi töröküm, eşitdinmi xanım, bəyim, pirim?! Török nə qədər özünə düşmən kəsiləcək? Daha nə qədər İbelə uyacıyıq? Daha neçə Qorqud qurban gedəcək, onların Qoroğulları özünü qurban edəcək, amma biz yenəmi ayılmıyacıyıq?! – Qağam bir an susdu, köksünü ötürdü, daha uca tonla dedi, – Törökün Çinə qul-qaravaş olduğu zaman, Orxan çayı axarında bilgəmiş bir Qorqud Ata ulusu birliyə səslədi, onu "Bilgəmiş Qor Ozan" deyə çağırırdılar. Bilgəmiş Qorozanın çağırışı ilə ulus As soyundan Tuvu yabqunun* ətrafında birləşdilər və töröklər çinlilərlə savaşaraq azadlığına qovuşdu. Hətta orada hakimiyyət qurub, Ökün törəsini yaşayan töröklər özlərinə "ökük török" dedilər, amma Tuvu yabqunun soyu ağ hunlara düşmən kəsildi, sasanilərlə birləşib ağ hunları tarixdən sildilər**. Bilgəmiş Qorozan bu qırğına mane olmaq üçün ökük török ordusunun və sasani ordusunun düşərgə saldığı yerə gəldi, ökük török xaqanı İstəmi xan onu dinləmədi, Qorozan ona qarşı gəldikdə, bunu İstəmi xan xanlıq qururuna yedirdə bilməyib onu və qoroğullarını oradaca qılıncdan keçirdi. Səhəri gün isə Ağ hunları və xanını məhv edərək, török yurdlarını sasanilərlə öz aralarında bölüşdürdülər. Bəs indi hanı o İstəmi xan, hanı onun ordusu?! İndi nə öz soyuna xəyanət edən İstəmi xan var, nə onun dövləti var, amma geridə sözünü eşitməyib öldürdüyü Qorozanı hara yazaq? İndi bəzillər oraya Qo-

---

* *Aşina Tuvu – Aşina sülaləsinin banisi hesab olunur. Oğulları Bumin xaqan və İstəmi xaqan I Göy türk xaqanlığının (552-742) baniləri hesab olunur. Göy türk sözü "ökük török" deyə yazılaraq hərfi mənadə "öklü türklər" deməkdir.*
** *567-ci il*

rozan, bəziləri Gorozan, bəziləri də Xorosan deyir. Bu neçənçi öldürülən qorqud idi?! – Qağam çadırdakıları süzdü, – İndi qərar verin. Bu günün xanları, pirləri bu ölümlü dünyadan necə gedəcəksiz? Qəribə deyilmi, "qor" ilə "gor" sözü nə qədər də yaxın səslənir? Çünkü ata ocağını, kutsal olan qorunu söndürənlər öz soyunun gorunu qazmış olurlar! Ökü, törəsini unudan töröklər tarixdən silinmişdir! Törəni unudan barslar fars oldu, turlar-dorlar yunanlar içinə əriyib yox oldu. – Üzünü ərəmən məliyinə tutdu, – Törəni unudan urma boyları Roma şəhərini qursada özləri əriməkdədir! Neçə-neçə török soyu bax tarixdə beləcə yox olub! İndi seçin, qormu, gormu?! – Bağırdı, – Qormu, gormu?!

Hər kəs bir-birinin üzünə baxdı, Aaran xaqan ayağa qalxaraq dedi:

– Bizə haqqı göstər! Törəmizi bərpa etməyə kömək ol! Törökün kut qorunu sönməyə qoyma, Qorqud qağam! Biz qor istəyirik, gor yox! – hamı onun dediyini təkrarladı.

Qağam sandıqdan çıxarılan kitabları göstərdi:

– Bax bu bizim törə kitabımızdır, Ökün əmri olan toplu "Ötökən yıs". Bunlar da Musa, İsa və Məhəmməd peyğəmbərə gələn kitablardır! Törə tamamlanmışdır! Törəni tamamlamaq üçün Musanı qəbul etməliyik, amma bu yəhudiləşmək demək deyil! Törəni tamamlamaq üçün İsanı qəbul etməliyik, amma bu romalı olmaq demək deyil! Törəni tamamlamaq üçün Məhəmmədi qəbul etmək lazımdı, lakin bu ərəbləşmək demək deyil! Biz Məhəmməd peyğəmbərin nəvələrinin başına müsibət gətirən Əməvi sülaləsinin Xorasanda törökləri qırdığını da bilirik, unutmuruk, Yezidi bu səbəbdən sevmirik, bilinsin ki, Yezidə farslar da nifrət edir, amma bizim dərdimiz başqadır, onların niyyəti başqa, bu üzdən Məhəmməd peyğəmbərin ev əhlini sevmək, farslaşmaq da demək deyil! Biz Ökün törəsini yaşayan töröklərik! Və Ökün bütün elçilərini qəbul etməliyik!

– Ökə alqış! Ökə alqış! – hamı ucadan dedi.

– Elə isə **Eniqoras*** bayramında yenidən burda toplaşaq. Bu müddətdə müəyyən işlər görmək lazımdır, hər birinizlə ikizlər

---

* *"ENİQORAS" sözü ENİ~yeni, QOR-günəş, AS~isti sözlərindən formalaşıb, hərfi mənada "günəşin yenidən isinməsi" deməkdir, bu söz sonra fars fonetikası ilə NOVRUZ sözünə çevrilmişdir.*

ulusundan 4 nəfər getsin, lazımı məsələlərdə sizə kömək etsinlər, Ötök yasasının üzünün çıxarılmasını, Tövratın, İncilin, Quranın tərcüməsini təşkil etsinlər. Bu hazırlıqdan sonra yenidən vədələşilən tarixdə görüşək, török birliyini qurmaq və qorumaq üçün qayda və qanunlar qəbul edək! Tək Tanrının tək török ulusunu Turanda birləşdirək! Düşmənə dəmir qılınc, soyuna taxta qılınc!

Hər kəs bir ağızdan bağırdı:

– Omom!

– Amin!

– Amen!

Beləcə Eniqoras bayramında görüşmək üzrə vədələşərək, hər dəstə qağam obasından 4 ekizlə birlikdə öz yurduna döndü. Yurduna dönənlərin üzündə xoş bir təsurat vardı.

Qağam bəziləri ilə ayrılmamışdan əvvəl təklikdə görüşdü, bəzi məsləhətlər və tövsüyyələr verdi. Belələrindən ikisidə Aaran xaqan və Dükak bəy idi.

Xəzər xaqanı və oğuz bəylərindən Dükak bəy düşərgədən ayrılmaq istədikdə qağamın oğulları gəlib onlara bildirdi ki, Qorqud qağamın sizinlə təklikdə söhbəti var. Xəzər xaqanı Basarla, Dükak bəy Subarla qağamın çadırına gəldi. Çadırda qağam və qardaşı oğullarından Ərol ilə Ərcanda vardı. Qağam döşəkcə üzərində oturmuş, gözünü ocağa zilləmişdi, onların gəldiyini görüb dedi:

– Oturun! – Xəzər xaqanına baxdı və dedi, – Bilirəm səni düşündürən suallardan biridə budur ki, niyə səni və tabeliyində olan Dükak bəyi eyni anda bura çağırmışam.

– Düşünmürdü desəm yalan olar! – Aaran xaqan dedi, – Amma artıq bilirəm ki, Qorqud qağam edirsə bir kəraməti var!

Qağam başı ilə onun dediyini təsdiqlədi və dedi:

– Çətin bir yola çıxdıq! Tanrı özü bizə yar olsun! – Başını qaldırıb onlara baxdı və dedi, – Əgər bir tərslik olsa, bu ulusun birliyi Aaran xaqan səndən və Dükak bəy səndən aslı olacaq!

Aaran xaqan və Dükak bəy biri-birinin üzünə baxdı, bir neçə an beləcə keçdi, sonda Dükak bəy öksürüb diqqəti öz üzərinə çəkərək soruşdu:

– Qorqud qağam icazənlə sual verim!

– Hə, əlbəttə!  Soruş.

– Sən ki, bizi kitab kimi oxudun!  Bir əmri ilə bir şəhəri yer-lə-yeksan edəcək  xan belə sənin baxışın altında əzildi! Bütün xanları, pirləri bir yerə toplamısan! Bundan sonra nə tərs gedə bilər?! Kim sənin əmrinə tabe olmaya bilər?! – Dükak bəy heyrət içində soruşdu, Aaran xaqanda başı ilə onun dediyini təsdiqlədi və soruşdu:

– Qağam sizi narahat edən nədir?!

– Hə, düzdür, mən gördüyün adamı kitab kimi oxuya bilirəm, hətta onun gözünə baxdıqda ona təsir də edə bilirəm, hətta istədiyim adamın yuxusunada girə bilirəm! Amma bu göründüyü qədər asan deyil!

– Necə yəni,  bir adama təsir edə bilirsizsə, daha nə cətin ola bilər ki?! – Aaran xaqan  soruşdu.

Qorqud qağam gülümsündü,  oğullarına səsləndi:

– O sazı mənə verin! – Subar xalça üstündən asılmış sazı gətirib qağama verdi, qağam sazı əlinə aldı, bir xeyli saza baxdı, hətta saza sığal çəkdi, sonra sazı bağrına basıb bir necə dəqiqə  çaldı və dedi: – Eşitdinizmi? Necə hava  idi?

– Eşitdik qağam! Çox yanıqlı hava idi! İlk dəfə idi duyurduq! – Aaran xaqan və Dükak bəy cavabladı.

– Alın sazı, indi siz çalın həmin havanı. – qağam sazı onlara uzatdı.

– Mən bacarmıram. – Aaran xaqan əlini yelləyərək dedi.

– Al Dükak bəy, sən çal bu havanı. – qağam sazı bəyə uzatdı.

– Mən saz çala bilirəm, amma sizi qədər yaxşı ozan ola bilmərəm qağam... – Dükak tərəddüd edərək dedi.

– Olsun, sən yenə də çal... – qağam israr etdi.

Dükak bəy çar-naçar sazı alıb bayaqkı havanı çalmağa çalışdı, yarım-yamalaq havanı çalıb dedi:

– Bu havanı tam çalmam üçün bir az vaxt lazımdı! Gərək bir neçə dəfə səni dinləyim, sonra bir az  məşq edim... – Dükak bəy utanaraq dedi.

– Yooo, utanmaq lazım deyil Dükak bəy! Bax, qulağınla eşitsən belə, saz havası qəlbinin başını yandırsa belə, saz çala bilmir-

sənsə o havanın yalnız dinləyicisi ola bilərsən! – üzünü Dukak bəyə tutdu, – Yox, əgər sazdan başın çıxırsa, o zaman o havanı anlaman üçün, çala bilmən üçün belə vaxt lazımdır, bu vaxt belə, adamına görə dəyişir, birinə bir gün lazımdır, birinə bir ay lazımdır, birinə bir ömür lazımdır, birisinə isə bir ömür belə yetməz! Anlada bildimmi?! – Qağam saqalına tumar çəkdi və əlavə etdi, – Sazın səsi belə bir yerə qədər çatır! Bəs sazı eşitməyən necə olsun?! Bəs saz susduqdan sonra, o yanıqlı havanı unudub, başı dünyaya qarışanlar, ibelə uyanlar necə olsun?! Anladızmı?! Bir saz havasının dəyəri belə ona qulaq asanın dərrakəsi qədərdir, duymuyanı saymıram belə?!

– Anladım qağam! – Aaran xan dedi. – Yəni sən bir saz havası kimi adamın ürəyinə toxuna bilərsən, lakin o təsirin nəticəsi qarşındakı adamın kutundan aslıdır!

Dükak bəy əlavə etdi:

– Və sən dayanmadan saz çala bilməyəcəyin kimi, dayanmadan hər kəsin ruhuna səslənə bilməzsən! Düzdür?! Necə ki, yanmış toxum cücərə bilməz, kutu ölən insan da səni duysa belə, ayıla bilməz, geci-tezi yenidən ibelə satılacaq! Həəə, düz anlamışıq?!

– Hə, təxminən elədir! – qağam astadan dedi, – Kora rəngi başa salmaq olmur! Kora almanın rəngini demək olmur, yalnız almanı daddırmaq olar! Kara sazı göstərmək olar, simlərin titrəşimini əli ilə hiss edə bilər, amma sazın səsini əsla və əsla duya bilməz! Bax məndə insanlara təsir edirəm, amma **bağırı**[*] kor, kar, lal olan birinə nə edə bilərəm! Və mən minlərlə insana dayanmadan necə təsir edə bilərəm?! Məgər mən hər ikinizi eyni anda duya bilərəmmi, duysam belə ikinizə də eyni anda cavab verə bilərəmmi?!

– Hə, anladıq. – ikisi də dedi. Dükak bəy əlavə etdi:

– Bəs indi nə ola bilər?! Gələcəkdə bizi nə gözləyir?!

Qorqud bəy asta-asta başını yırğaladı və gülümsündü:

– Mən qeybi bilmirəm! Sadəcə keçmişi yaxşı bildiyimdən,

---

** "bağır" sözü qədim türkcədə "ürək" sözünün sinonimi olmuşdur və bu söz öntürk dilində "bilən Ök" mənasını ifadə edən Bİ+ÖK~BOQ sözündən formalaşmışdır*

qabağımdakı insanı oxuya bildikdə onun hərəkətlərini hesablaya bilərəm, lakin bu hesablar hec də tək variant olmur...

– Necə yəni... – hər ikisi bir ağızdan soruşdu.

– Baxın, sizin bağrınız açıqdır, Boqu bilirsiz, sizə sadəcə səslənmək lazımdı və mən səsləndim, siz duyduz. Bu şərtlərdə, sizi bu yoldan kimsə geri döndərə bilməz, amma  qarşıdakı müddətdə şərtlər müxtəlif ola bilər və bu müxtəlif şərtlərdə sizin olduğunuz məkan, vəziyyət,  ruh halınız, sizin ətrafınızdakı insanların ruh halı çox şeyi dəyişə bilər!

– Biz sənin yanındayıq qağam. – hər ikisi əminliklə dedi.

Qağam köksünü ötürərək gülümsündü:

– Bəs mən ölsəm və ya öldürülsəm! – onların duruxduğunu görüm dedi, – Bax, məsələ  bundadır! Mənim yanımda olmaq lazım deyil, Ökü, törəsini anlamaq lazımdır, yaşatmaq lazımdır! Məndə sizi kimi canımla, soyumla, övladlarımla Ök yolunda sınağa çəkilən biriyəm! – İkisinində əlini tutdu, – Amma  bəzən taleni oxuya bilirəm, török soyunun davam etməsində hər ikinizin yolu açıqdır! Doğru seçimlər etsəz həm soyunuzun, həm ulusumuzun gələcəyi parlaqdır!

– Doğru seçimmiii? Nə etməliyik ki? – Dükak bəy soruşdu

– Bütün peyğəmbərləri qəbul etmək, Tanrını, Ökün törəsini, török soyunu, török dilini qorumaq və yaşatmaq lazımdır! Bu beş qaydadan  birini belə yerinə yetirməsəz yox oluşa qədəm qoyacaqsız, bir qaydanı belə pozsaz, yavaş-yavaş digər qaydalarada əməl etməyəcəksiz və o günü qar dənələri kimi əriyib yox olacaqsız!

Aaran xaqan başını buladı:

– Qağam sənin dediklərini gözəl anlayıram! Eşitdiklərimdən, şahidi olduqlarımdan da bilirəm  ki, Tanrını, törəsini itirən törökü Ök yox edir, lənətləyib töröklüyünü əlindən alır... Və dediklərindən bunu da anladım ki, səni qayğılandıran bəzi məqamlar var! İbelə uyacaqlar, bağrı kor olanlar səni öldürə bilər ki, bu birlik pozulsun! Düzmü anladım?

– Elə də demək olar... – qağam astadan dedi.

– Elə isə bizimlə gəl! Bizimlə də geri dönərsən!

Qağam gülümsündü:

– Həəəə, ibelə uyacaqlar məni, hətta soyumuzu qurutmaq, ocağımızı söndürmək istəyə bilər! Mən bunu hiss edə bilirəm! Amma ibelə satılmış kimdir, kimlərdir, bunu yalnız Boq bilir. Mənə bu yolda ölüm varsa, o burada da ola bilər, sinin sarayında da ola bilər!

– Amma belə olmaz! Nəsə etmək lazımdır! – hər ikisi dedi.

– Hə, nəsə etmək lazımdır! – qağam da qayğılı halda dedi, – Bunlar mənim böyük oğullarım və böyük qardaşım oğullarıdır. Artıq biri-birinizi tanıyırsız. Elimin həddi-buluda çatmayanlarını iki dəstəyə bölüb hər birinizə bir dəstəni tapşırıram. Bu yolda müəffəq olsaq heç, yox kasların qağam elinə bir müsibət baş versə, onlar göydə Tanrıya, yerdə sizə əmanətdir! Amma tək şərtim var! Onlar son nəfəslərinə qədər törəni yaşayacaq, onları dinləyin, əgər dinləmək sizə zor gəlsə, siz seçiminizdə azadsız, amma onları zorlamıyın, birgə yaşamaq istəməsəz, izin verin getsinlər! Bu mənim sizə və soyunuza tək vəsiyyətimdir! – qağam Aaran xaqana və Dükak bəyə baxdı, – Anladız?!

– Anladıq, – hər ikisi and içdi: – Ökə and olsun, qağam sənin soyun bizə və soyumuza əmanətdir!

Beləcə qağamın soyundan həddi-buluda çatmayanlardan iki dəstə Aaran xan və Dükak bəylə getdi.

Türk qurultayının bitməsindən 3 aydan çox vaxt keçmişdi. Qurultaya gələn xanlar, pirlər artıq geri qayıtmışdı, qağamın onlarla birlikdə göndərdiyi ekizlərdən olan 4 nümayəndənin köməkliyi ilə məkana üyğun, şərtlərə üyğun olaraq tədbirlər görülürdü. Qaraxanlı xanı geri dönər-dönməz vəziyyəti izah edərək bəyan etdi ki, bütün peyğəmbərləri qəbul edərək törəni tamamlamaq lazımdır və o İslamı qəbul etdiyini açıq şəkildə bəyan etdi. Qağamın nümayəndələrinin köməkliyi ilə Ötök yasasının, Quranın üzü köçürüldü və Quranın ara sətirlərində isə hər sözün türk dilinə tərcüməsi yazıldı. Xorasan piri, Qarluq xaqanı, Qəzvin bəyi, Ökur xanı (uyğur), Asurbodun piri, Talas piri, Pirçi piri də eyni ilə öz ərazilərində törənin şərtlərini yerinə yetirdilər, Ötök yasasının, Quranın üzü köçürüldü, Quranın sətir aralarına türkcə tərcüməsi yazıldı.

Digər xanların, pirlərin təsiri altında olan ərazilərdə də işlər şəraitə görə bir az tez, ya bir az ləng və ya daha gizli olsa da görülməkdə idi. Peçenek xanının əmri ilə də bu yöndə işlərin aparılmasına başlanmışdı. Ötök yasasının, törə ilə bağlı bir neçə kitabın üzü köçürülmüşdü, İncilin tərcüməsinə qağamın nümayəndələri ilə birlikdə yenidən baxılmışdı, bəzi sözlərdə düzəliş edilərək İncilin üzü yenidən köçürülmüşdü və Quranın tərcüməsinə başlanmışdı. Peçenek xanının səfərdə olan oğlu İlek bir gün əvvəl qayıtmışdı və vəziyyətin nə yerdə olduğunu eşidib atasının yanına gəldi, qaravulçuları itələyərək birbaşa cadıra girdi, çadırda olanlara əhəmiyyət vermədən atasından soruşdu:

– Eşitdiklərim düzdürmü ata?!

Peçenek xanı oğlunun üzündəki şırama baxdı, anladı ki, oğlunun üzündəki bu şıram son səfərdəki savaşlardan birində olub, köksünü ötürərək dedi:

– Sənə deməmişəmmi özün savaşda iştirak etmə! Bir xanın işi ordunu idarə etməkdir, qılınc vurmaq deyil! Bir əsgər öldükdə onun yerini növbəti əsgər tutur, xan öldükdə isə ordu pozulur, dövlət çökür!

İlək bir an tutuldu, lakin inadından əl çəkmədi:

– Ata hal-hazırda məsələ mən deyiləm! Eşitdiklərim doğrudurmu?! Biz də ərəb dinini qəbul edirik, Azərboydunlar kimi?

Peçenek xanı səbrini basaraq dedi:

– Bunu təklikdə də danışmaq olardı! Və biz ərəb dinini yox, Tanrının son elçilərini qəbul edirik!

İlək çönüb tərs-tərs qağamın nümayəndələrinə baxdı, sonra atasının əyanlarına baxdı və dedi:

– Biz kimdənsə əmr alacıyıq?! Tanrını özümüz qanmırıq ki, kimsə bizə ağıl verir?!

– Biz Ötök yasasını, törə kitablarını itirələ yüz illər olub! Ağızdan-ağıza deyilənlə, yazılı kitab bir ola bilərmi?! Hə, İlək?!

– Biz qan töküb, savaş edirik ki, sonunda kimsə gəlib bizə əmr versin?!

– Heç kim heç kimə əmr etmir! Török böyük ulusdur və bu ulusa hökm edən xanlar, pirlər bir yerə toplanacaq, török birliyi

quracıyıq! Daha güclü olacıyıq! Düşmən hücum edəsi olsa hamı biri-birinə kömək edəcək.

– Məgər bizim köməyə ehtiyacımız var! Hamı bizə “kəsib-bicən” deyir, hamı bizim qılıncın kəsərini yaxşı bilir! – İlək atasının üzünə baxdı, – Birdən mən yeni yurd əldə etmək istəsəm, onda necə olacaq?! Mən səndən, sən də kimdənsə icazə alacan?

– Heç bir török xanı digərinin torpağına hücum edə bilməz?! Nə biz, nə digərləri...

– Belə həyat olar?! Bəs biz nə edəciyik?! Yalnız saza qulaq asıb, aş yeyəciyik?! Qəhramanlığı qamların, ozanların, aşıqların şerlərində eşidəciyik?! Bəs qılınc səsi, ox vıyıltısı, qan qoxusu, qələbə sevinci, bəs o nə olacaq?!

Peçenek xanı başını yellədi və dedi:

– Sənə İlək adını qoymuşam, İləkkkk! İlək, Tanrının ucalıq sifəti!– Əli ilə oğlunu göstərdi, – Bəs sən nə danışırsan? İbel kimi qan axtarırsan? Kutunu satan ibel kimi sən də kutunu satmısan... Sənə öyrətdiyim bilikdən bir qılınc vurmağımı qanmısan?! Birlik, dirilik, sevgi, qardaşlıq, bəs bunlar nə olsun?! Bir əsgər üstündə onbaşı olmasına sevinmirsə, bir ordu üstündə orduxanının olmasına sevinmirsə, xalq və ordu bir xanının olmasına sevinmirsə, aşıqlar bir qamın olmasına sevinmirsə, ulus və qamlar bir pirinin olmasına sevinmirsə, xanlar və pirlər dədə qorqudunu sevmirsə, ona sahib çıxmırsa ölsə daha yaxşıdır, çünki belələrinin kutu, bağrı qaralıb, ibelə yuva olub.

İlək keyidi, bir cavab tapa bilmədi, heç nə demədən çadırdan çıxdı. Peçenek xanı çadırda olanları süzdü:

– Fikir verməyin, deyəsən səfər onu yorub, düzələr, – deyib gülümsündü və əlavə etdi, – bəlkə bu günlük bəsdir, bir tikə çörək yeyək?

* * *

Son söhbətdən iki həftə keçmişdi, Peçenek xanı oğlunun yenidən söhbət üçün gəlmədiyini görüb, düşündü oğlu səhvini anlayıb və qərara gəldi ki, oğlunu utandırmamaq üçün üstünə getməsin, bir az vaxt keçməsini gözləsin.

Bu müddət ərzində İlək qıpçaqların, uzların, avarların, alan-

ların və bulqarların, öz hökmdarları ilə yola getməyən bəzi bəylərinə məktub yazaraq gizli görüşə çağırdı. Deyilən vaxtda, deyilən yerdə çağırılanların hamısı gizli görüşə gəldi, xoş-beşdən sonra şahzadə İlək onlara dedi:

– Baxın bəylər, biz zaman olub üz-üzə dayanan ordularda savaşmışıq, zaman olub birlikdə düşmənlə savaşmışıq! Bilirsiz mən peçenek şahzadəsi İləkəm, xanlıq taxtı mənimdir! Amma siz bəysiz, öz xanınızın əmrinə tabesiz!

Uz bəylərindən Kəskin hövsələsiz halda dedi:

– Peçenek şahzadəsi bizi bura buna görəmi çağırmısan? Mən sənin necə qorxmaz savaşçı olduğunu eşidib gəlmişəm, dedim bəlkə yağma edəcək ordu qurursan, qəza edəcək səfərin var! Məgər mən bilmirəm ki, mən as boylarından birinin bəyiyəm, böyük xan deyiləm...

– Kəskin bəy, səbrin olsun! Sözümün canı var! Qorqud qağam deyilən zatdan xəbəriniz varmı?! Onun böyük xanları, bəzi pirləri török qurultayına çağırmasından xəbəriniz varmı?!

– Hə, eşitmişik! – hamısı cavabladı. Alan bəylərindən Urman hövsələsiz halda dedi: – Şahzadə İlək, axı bunların bizə nə dəxli var?

– Dəxli yoxdur?! – İlək əlini-əlinə vuraraq güldü, – Demək dəxli yoxdur?! – görüşə gələnlərin üzünə baxdı və yenidən soruşdu, – Dəxli yoxdur, bəlkə də var? – Hər kəsin məzəmətlə ona baxdığını görüb, əlini yellədi, – Yaxşı qoy özüm cavablayım. Bəylər o qurultaya bəzi pirlər belə çağrılıb, amma sizi kimi qorxmaz, savaşcı bəylər o qurultaya çağrılmayıb... – Bəylərin biri-birinin üzünə baxdığını görüb, gülümsündü, əlavə etdi, – Bu o deməkdir ki, bu birlik qurulsa yağma dönəmi bitəcək, qəza dönəmi bitəcək! Artıq məni kimi, sizi kimi savaşcılara ehtiyac qalmayacaq! Biz qılıncı, yayı yerə qoyub əkin-biçinlə məşğul olacıyıq! Mən yenə xan olacam, amma yağma yoxdursa, qəza yoxdursa, bu o deməkdir ki, sizi kimi bəylər əsla xan ola bilməyəcək! Elinizin piri belə zamanla sizdən daha çox hörmətə sahib olacaq!

– Sülh olacaq! Bu məgər pisdir? – Bulqar bəylərindən Bars soruşdu.

– Hə, sülh olacaq! O zaman bəylər nəyə lazımdır?! – İlək suala sualla cavab verdi.

– Bəs təklifin nədir İlək xan?! – avar bəylərindən Qaradon soruşdu. Qaradonun İləki şahzadə yox, xan adlandırması ona tabe olmağa hazır olduğuna işarə idi.

İlək gülümsündü və Qaradona baxaraq dedi:

– Baxın bəylər, xan böyük xan olduqda, ona tabe olan bəylərdə xan olur! Bunun üçünsə mütləq savaşmaq lazımdır! Amma bizə bu yolda Qorqud qağam deyilən zat mane olur, bu birlik qurulsa, daha kimsə qurultaysız heç bir iş görə bilməz! Lakin bu günü, bu vəziyyət bizim xeyrimizə ola bilər... – təkrarladı. – Bu günü, sonra isə gec olacaq!

– Necə yəni? – bəylər bir ağızdan soruşdu.

– Hamı Eniqoras bayramındakı qurultaya hazırlaşır! – Elək qəh-qəhə çəkərək güldü: – Hal-hazırda heç bir xan digərindən yamanlıq gözləmir! – Bəylərin üzünə baxdı, – Elə deyil?! Düz demirəm?

– Elədir, kim kimə hücum edəsidir ki? – Qaradon güldü və dedi: – Amma İlək xan, sənin bir planın var, elə deyilmi?!

– Əlbəttə, mənim planım olmadan savaşa girmərəm! – İlək əlini-əlinə sıxaraq dedi.

– Kimlərlə savaşacıyıq?! – Kəskin bəy tərəddüdlə soruşdu.

– Yox... – İlək gülümsündü, – Bu işdə kim mənlədirsə and içəcək, ondan sonra planı deyəcəm! Yox, kim razı deyilsə indi çıxıb getsin!

Bəylər bir-birinin üzünə baxdı, Qaradon bəy xəncərini qınından çıxarıb dedi:

– And badəsini gətizdir xan, bu yolun dönüşü yoxdur... – bəylərdə bir-bir xəncərlərini qınından çıxardı, bu o deməkdi ki, hamı barmağını çərtib qanını and badəsinə damızdırmaq üçün hazırdır.

İlək razı halda gülümsəyərək:

– And badəsini gətirin! – deyə səsləndi.

Çadıra girən əsgər qızıl sinini gətirib ortada olan masaya qoydu, sininin içində qızıl badədə süd, kiçik qızıl qabda qızıl tozu və kiçik gümüş qabda gümüş tozu vardı. Siniyə yaxınlaşan İlək qabdan bir çimdik qızıl tozunu götürüb badədəki südə atdı,

daha sonra südə bir çimdik də gümüş tozu atdı, daha sonra xəncəri ilə baş barmağını çərtib bir neçə damla qanını südə tökdü, bundan sonra bəylər bir-bir yaxınlaşıb barmaqlarını çərtib südə bir neçə damla qanını tökdü, bundan sonra Elək and badəsini götürüb bir yudum içdi, sonra badəni Qaradona uzatdı, oda badədən bir yudum içib digər bəyə uzatdı və beləcə bütün bəylər and badəsindən içdi və bir ağızdan dedilər:

– Tovadı... **Tovadı...*** – yəniki söz verirəm.

– Hə, indi planımızı həyata keçirə bilərik, – deyib İlək planını danışmağa başladı, – Qaradon bəy sənin adamlarına şərait yaradacam, girib mənim atamı öldürəcəklər! Adamlarından birini gərək qurban edəsən, digərləri qaçsın, onu guya yaralayaraq tutacam, desin ki, atamın öldürülməsini Qorqud qağanın nümayəndələri məsləhət görüb! – Üzünü Urman bəyə tutdu, – Urman bəy, bəs sən avar xanı olmaq istəyirsənmi? – Onun üzündəki razılıq əlamətini sezib gülümsünərək dedi: – Şərait yarat, qoy Kəskin bəy uzlardan bir dəstəni göndərsin, xanı və ailəsini gecə yatarkən qırsınlar, Qorqudun adamlarını isə özləri ilə qaçırıb sənə təhvil versinlər, sən guya hadisədən xəbər tutub, Qorqudun adamlarının izinə düşüb, öldürərək xanın qisasını alırsan! – Üzünü Bulqar

---

* *(“TOVADİ~TABADİ”* sözü günümüz türk dillərində işlək olmayan sözdür, qədim türkcədə “and içmək” sözünün sinonimi olmuşdur. Biz qədim türkcəyə baxası olsaq SÖZ və SAB sözlərinin *olduğunu və hər iki sözün eyni mənanı ifadə etdiyini görürük. Misal üçün Orxan-Yenisey yazıtlarında “SAB” ifadəsinin “SÖZ” ifadəsinin yerinə işləndiyini görürük. ÖT<>TÖ~TE~DE sözünün qədim türkcəsi TE olub, necə ki, SÖZ və SAB eyni mənanı ifadə edir, eyni ilə TE~TAB formasıda “demək” sözünün sinonimi olmuşdur, lakin apardığımız təhlillər deməyə əsas veriri ki, TAB sözü “söz vermək” mənası daşımışdır, həmçinin TAB* sözü *Tanrı və törəsini tutmağı, TAT sözü isə Tanrıya-törəsinə “dönük çıxmanı” ifadə edirdi, əgər biz Orxan-Yenisey yazıtlarına baxsaq, orada Bilgə xaqanın “türk törəsinə dönük çıxanları TAB-KAÇ adlandırdığını görürük”, əslində TAB-KAÇ ifadəsi də “sözündən qaçan” deməkdi. Digər yandan biz Azərbaycanın Qazax dialektinə baxası olsaq “TOVA~TOVA de ~ TOVA dedim” ifadələrinin “and içmək” yerinə hələdə işləndiyini görürük ki, bu söz dilçilərin düşündüyü kimi dilimizə ərəb dilində olan “tövbə” sözündən gəlməmişdir, əksinə bu sözün ərəb dilinə türk dilindən keçdiyini düşünmək lazımdır. Bu arada AND sözü OM+ÖT~OMT~ANT şəklində formalaşıb, qədim hərfi mənası ilə “olsun de” mənasını ifadə edir.)*

bəylərindən Barsa tutdu, – Bars, Bulqar xanını hücumla öldürmək olmaz, şərait yarat, axşam yeməyinə zəhər qatılsın, əsas lazım olan odur ki, Qorqudun adamlarını qaçıraq, hamı elə düşünəcək ki, xanı zəhərləmək istəyən onlardı, onda sən onları öldürərək qəhraman olacan! Və bu senarini köməkləşərək hər biriniz öz xanınız üçün etməlisiz, yəni ki, xanlarınızı ya öldürməli, ya da zəhərləməlisiz, lakin ən əsası Qorqudun adamlarını qaçırmaq lazımdır ki, sonra cinayəti onların üstünə ata bilək və siz bəylərdə öz xanınızın qatilllərini öldürüb qəhrəman olasız! Və mən bu zaman öz atamın qisası üçün siz qəhrəman bəylərə məktub göndərərək, yazacam ki, Qorqud şər qüvvədir və gəlin birlikdə onu aradan qaldıraq! Beləcə Qorqudu və ocağını söndürəciyik! Yolumuz açılacaq! Ondan sonra Romayamı hücum edərik, germanlaramı hücum edərik və ya Kiyevəmi hücum edərik, bizim biləcəyimiz işdir!

– Bəs birdən adamlarımızı tutsalar? – Urman bəy soruşdu

– Deyəcəklər ki, Qorqudun adamlarıyıq! Bizi o göndərib! – İlək qələbəsinə əmin bir şəkildə dedi və əlavə etdi, – Qəhraman olmaq istəyirsənsə, qalib gələcəyin bir düşmən yaratmaq lazımdır! – qəhqəhə çəkərək güldü. Və planının incəliklərini izah etməyə davam etdi.

* * *

Gecə yarını keçmişdi, anidən Peçenek xanının çadırı tərəfdən qışqırtı səsi gəldi:

– Öksüz*, sən kimsən? – İlək oxla yaraladığı adamın yaxasından tutub sağa-sola süpürləyirdi. – Sizi kim göndərib?

Peçeneklər səsə çölə çıxaraq xanın çadrına doğru qaçışdılar, xanın çadırında qaravul çəkənlərin boğazı kəsilmişdi, xan öldürülmüşdü.

– Səninləyəm! Kimin adamlarısız? – Elək boğazladığı adamdan soruşdu.

– Qorqud qağamın adamlarıyıq! O bütün xanları öldürüb hakimiyyəti öz əlinə almaq istəyir! – Öyrədilmiş adam zarıyaraq dedi.

---

* *allahsız*

– Ökün lənəti olsun! – Elək bağıraraq onun boynunu sındırdı, qaravul dəstəsinə tərəf çönüb bağırdı: – Daha nə gözləyirsiz? O öksüz Qorqudun adamlarını tez bura gətirin!

Adamların arasından çıxaraq İləkə tərəf gələn ikizlərdən biri dedi:

– Şahzadə bu ağ yalandır! Kimlərsə Qorqud qağamın adına iftira atır! Bizim heç nədən xəbərimiz yoxdur!

İlək əsgərlərin birinin əlindən aldığı qılıncla onun başını bədənindən ayırdı və əsgərlərinə bağırdı:

– Tutun üçünü də. – Üzünü peçeneklərə tutdu, – Daha nəyi gözləyirsiz, tək mənimmi xanım öldürülüb? Öldürün bu alçaqları.

Peçeneklər İləkin sözündən sonra, sağ qalan ikizlərin andamanına qulaq asmadan onları qılınclayaraq öldürdülər.

Tezliklə xəbər çıxdı ki, Qorqudun adamları qıpçaq, uz, avar, alan və bulqar hökmdarlarını zəhərləyərək, öldürərək qaçmışdır, lakin yolda onları bəzi bəylər tutaraq öldürüb öz xanlarının qisasını almışdır. Atasının ölümündən sonra xan olan İlək həmin bəylərə məktub yazaraq, Qorquddan qisas almaq üçün birlikdə səfərə çıxmağı təklif edib, səfər üçün vaxtı və yeri də yazmışdı.

* * *

Qorqud qağam ocağın kənarında oturub, həzin-həzin saz çalırdı, başındakı qırmızı börkü ilə al rəngə çalan tonqal arasında qəribə bir ahəng uyumu var idi, o anidən əlini saxladı, sazı bir kənara qoydu və səsləndi:

– Bükə xatun! Subar! Basar! Ay bala!

– Elökçü... – Bükə eba çadıra girdi, – Nəsə istəyirsən? – deyə soruşdu.

– Uşaqlardan birini çağır, eşiyə çıxacam! Hamıya xəbər salın! Vaxtdır!

– Ay Subar, qağama kömək et, çölə çıxmaq istəyir! Subar, Erol hamıya xəbər salın, qağamın sözü var! A bala siz də dədənizin taxtını döşəyin! –Bükə eba bir nəfəsə dedi.

Subar iti hərəkətlərlə çadıra girdi, qağamın ayağa qalxmasında kömək etdi, sonra qağam asta-asta addımlarla çölə çıxdı, taxta

oturub, mütəkkəyə dirsəkləndi, Bükə ebaya baxıb gülümsündü:

– Gərək uşaqlarla sən də gedəydin, Xəzər ellərinə! Gərək gedəydin...

– Mənim yerim sənin yanındadı Elökçü. – Bükə eba gülümsünərək soruşdu, – Nəsə istəyirsənmi?

– Yox heç nəyə iştahım yoxdur! A bala, sən sazı gətir, mənim havamı çal... – uşaqlardan birinə səsləndi.

Az sonra bütün el qağamın çadrının qarşısına yığışmışdı. Asman dədə gəlib qağamın yanında oturdu və soruşdu:

– Qorqud qağam nə olub?

Qağam saz çalana işarə etdi ki, dayansız və dedi:

– Vaxtdır! Qamlarım, ozanlarım-aşıqlarım başlayın yığışmağa, sizə yol görsəndi! Qoymayın törəmiz, sazımız-sözümüz, dastanlarımız, qorqudların, qor oğullarının hekayəsi itsin! Sözcülərim-sabçılarım el-el gəzin, haqdan-ökdən danışın, yorulduğunuz yerdə yurd salın, yeni-yeni sözçülər-sabçılar yetişdirin, yeni-yeni qamlar, ozanlar-aşıqlar yetişdirin törökün sazını-sözünü yaşadın!

Bəzi qadınların için-için ağlama səsi eşidilirdi, bəzilərinin gözü dolmuşdu, bəziləri səssiz-səssiz ağlayırdı. Hamı anlayırdı ki, ayrılıq vaxtı gəlib çatıb...

– Elim anlayıram ki, sizə ağırdır, – Qorqud qağam danışmağa davam etdi, – amma mən bunu yaşayan birinci qorqud deyiləm və nə də birinci el siz deyilsiz! Bu günəcən yüzlərlə, bəlkə də minlərlə qorqud török törəsini yaşatmaq üçün, sazını-sözünü yaşatmaq üçün, dastanlarını yaşatmaq üçün pirlər, qamlar, ozanlar-aşıqlar, sözçülər-sabçılar yetişdirmişdir, neçəsi bu yolda qurban getmişdir! Və indi növbə bizdədir! Haydı qamlarım, ozanlarım-aşıqlarım, sözçülərim-sabçılarım, haydı, hazırlaşın, vaxt yoxdur! – Üzünü Asman dədəyə tutdu, – Asman dədə sən, evin... – üzünü digərlərinə tutdu, – kim istəyirsə elə indicə hazırlaşsın, dan ağarar-ağarmaz yola qoyulun! Kimisi yaşayaraq, kimisi isə ölərək savaşır, Ök üçün! Bu mənim seçimimdir, ölümünə savaşmaq, mən bacardığım qədərini sizə öyrətmişəm, seçim sizindir! – Üzünü öz övladlarına və qardaşı uşaqlarına tutdu, – Bu söz sizə də adiddir!

Subar gəlib atasının əlindən, gözündən öpdü:

– Qağam Qorqud, getməyə yaşamağa məcbur olanlar var, bəzi qamlar, ozanlar-aşıqlar, sözçülər-sabçılar kimi... – üzünü elinə tutdu, – Və muradı olan bəzi cütlüklər var, buna sözüm yoxdur, amma səncə mən səni qoyub gedərəmmmm?!

– Bəs mən? – bunu deyən Basardı, o əlavə etdi, – Bizim yerimiz sənin yanındı qağammm.

– Bəs biz? – bunu deyən Erol və Ercan idi.

– Mən heç sizi nəzərdə tutmurdum da! – qağam bunu deyərək gülümsündü, hamı da göz yaşları içində ona qoşularaq güldü, bu eldəki son gülüş səsi bu olacaqdı. Qağam əlavə etdi: – Zarafat edirəm! Kim gedəcəksə indi hazırlaşsız, gədənlər halallaşsın getsin! Zaman yoxdur...

– Bəlkə siz də gedəsiz qağam! – cavanlardan biri dedi.

– Mən getsəm, insanlar haqqa, haqq savaşına inanmaz! Düşmənin uydurduğu yalan haqqı kəsər! İlanın başını əzmək lazımdır...

Beləcə illərdi qağamdan dərs alan qamlar, ozanlar-aşıqlar, sözçülər-sabçılar törənin əmrinə üyğun olaraq yığışıb müxtəlif dəstələrdə və ya tək-tək, fərqli istiqamətlərdə ətrafa dağılışdılar, onlarla birlikdə bəzi yeni ailə qurmuş cütlüklərdə getdi. Başqa kimsə getmək istəmədi, hətta Qorqud qağamın israr etməsinə baxmayaraq çox yaşlı olan Asman dədə də getmədi. Sonda qağam əsəbi halda ona bağırdı:

– Sən niyə getmirsən? Burada nə edəcəksən Asman?

– Gedib nə edəcəm qağam?! Bu yaşdan sonra məni həyatda nə gözləyir ki?! Öyrədiləsini sən hamıya öyrətmisən, uşaqları da Xəzərə və Oğuza göndərmisən! Ox atmağa taqətim var qağam! Bu yaşacan ölməmişəmsə, demək ki, bir səbəbi var...

– Yaxşı Asman, demək ki, anca bərabər, qanca bərabər...

Qağam eli düşərgəni bir təpənin başına çəkmişdi, arabaları bir-birinə birləşdirərək dairəvi şəkildə düzmüşdülər. Dan sökülərkən bir duman peyda olub təpəni bürüdü. Çox yaxınlıqda qurd sürüsünün ulama səsi gəlirdi.

İləkin yığma ordusu sonunda gəlib qağamın düşərgəsini mühasirəyə almışdı, düşərgənin təpə başında olduğunu görüb istədi ki, qağamgili üzün müddət mühasirədə tutaraq məhv etsin, lakin

iki səbəbdən bu fikirindən vaz keçdi. Birincisi, qorxdu ki, qağamgilə xəzərlər və ya oğuzlar kömək edə bilər. İkincisi, anidən başlayan güclü yağış çayı daşırmışdı, çayın daşması ordunun bütün azuqəsini yuyub aparmışdı və çayın tez-tez daşaraq yatağını dəyişməsi əsgərlərinin xeyli hissəsini qabağına qatıb aparmışdı. Mühasirəni uzun müddət saxlasa ordusu ya acından öləcəkdi, ya xəstəlikdən. Digər yandan işlərin tərs gətirməsi orduda dedi-qoduya səbəb olurdu, bəzilər qağamın ərmiş olmasına inanmağa başlayırdı. Beləcə İlək sürətli bir şəkildə qağamın düşərgəsini basıb, onları məhv etmək qərarına gəldi. İlk əvvəl düşərgəni oxlatdı, lakin təpəni tutan duman duşərgəni gizlətmişdi, digər yandan havanın yağışlı, çisginli olması oxları ağırlatmışdı, oxları uzağa və sürətli atmaq olmurdu. Düşərgəni oxlatmağın mənasız olduğunu görən İlək təpənin alınması üçün hücum əmri verdi. Təpənin yamacı palçıq olduğundan əsgərlər atla təpəni dırmana bilmirdi, ayaqla dırmanmaq istədikdə qalxanı başına tuta bilmirdi, asanlıqla yuxarıdan aşağı atılan oxların hədəfinə çevrilirdi. Tam üç gün belə davam etdi, gündüzlər əsgərlər təpəni dırmanmaq istəyərkən oxlanırdı, gecə isə gah düşərgəni sel basırdı, gah da qurd sürüləri hücum çəkirdi, hər şey islandığından düz əməlli tonqal belə qalaya bilmirdilər, yemək bişirə bilmirdilər. Qaxac ətlər olan arabaları sel aparmışdı, əsgərlər ya at qanı içirdi, ya at ətini çiy halda yeyirdi, amma İlək də, digərləri də yaxşı bilirdi ki, belə olan halda çox dözə bilməzlər. İlək sonunda qərara aldı ki, gərək özü və digər bəylərdə birlikdə hücumda iştirak edə, bəlkə bu halda təpəni tuta bildi.

Təpənin başında, qağamgilin düşərgəsində isə hər şey qaydasında idi, tonqalları çatılı olan çadırlar yerli yerində, azuqə yetərincə, oxlar quru idi. Üçüncü günün axşamı qağam düşərgədə olanları bir-bir çagırdı, halallaşdı və dedi ki, hazır olun sabah böyük və son savaşdır.

Səhəri günü dan sökülər-sökülmək İləkin iştirakı ilə ordusunun qalıqları hücuma keçdi, yağış altında, palçıqlı və cəsəd dolu yamacı qalxarkən ordusunun dördə üçünü itirmək məcburiyyətində qaldı, sonunda döyüşlər təpənin başında, düşərgənin içində davam etdi, qılınc səsi, qalxan taqqıltısı, ətin-sümüyün kəsilməsi

səsi, nərələr, qışqırtılar biri-birinə qarışmışdır. Haradansa peyda olan qurd sürüləri İləkin ordusunun canına daraşmışdı, uçan müxtəlif növ quş dəstələri özlərini əsgərlərin üzünə-gözünə çırpır, İləkin əsgərlərinin görüşünü məhdudlaşdırırdı, bu hadisədən sonra ordudan geri qalanların əksəriyyəti döyüşü buraxaraq təpə aşağı qaçmağa başladı, amma qağamın dəstəsindən də geriyə barmaq sayı adam qalmışdı.

Kəskin bəy əli ilə özünü quşlardan qoruyaraq ona ox atam adama tərəf qaçırdı, atılan ox onun qaravul dəstəsindən geri qalan son əsgərinin boğazına saplandı, Kəskin bəy iti addımlarla özünü ox atan adama yetirdi, qılıncı ilə onun yay tutan sol əlini kəsdi, bu zaman ona ox atan Asman dədənin çox yaşlı olmasını görüb:

– Sənin ki, hay-hayın gedib, vay-vayın qalıb... – deyib istеza ilə güldü.

Asman dədə çəkməsindən çıxardığı xəncəri altdan yuxarı onun çənəsinin altından başına doğru soxdu. Kəskin bəy son gücünü toplayıb, yuxarı qaldırdığı qılıncı onun sinəsinə sancdı və öz-özünə düşündü: – Qocaya bax aaa...

İlək sağa-sola baxaraq qağamı gördü, qılıncı ilə ona doğru uçuşan quşları doğrayaraq bağırdı:

– Lənətə gələsən qoca! Lənətə gələsən cadügər! Əlli minlik ordunu yox etdin! – Ayağından dişləyən qurdu qılınclayaraq bağırdı, – Sən kimsən axı, belə? – Dayanaraq qağama baxdı, səkkiz qurd qağamın taxtını dövrəyə alaraq qoruyurdu. İlək ətrafına boylandı, yanında yalnız Bars və Qaradon qalmışdı. Bağırdı, – Elə üç nəfər qalmışıq?

Qaradon biləyi ilə burnunun qanını sildi:

– Hə, burada üç nəfərik! – əlavə etdi, – Harada qılınclaşma səsi gəlir! – Onları dövrəyə alan qurdları göstərdi, –Saq qalanlar, istəsədə köməyə gələ bilməz! – İləkə səsləndi, – Xan bəlkə bundan əhf diləyib geri dönək?

– Yox, bu lənətə gəlmiş cadügəri öldürsək, hər şey bitəcək! Geri döndükdə isə yeni ordu toplaya bilərik! Bunu öldürmədən geri dönsək, bizə heç salam belə verməzlər, qaldı ki, xan deyələr!

Hamı bunun ətrafına toplaşacaq, bizim dərimizə saman təpərlər, geri dönüş yoxdur! Bu yolun dönüşü yoxdur! Qurdları doğrayın, məndə bu qoca cadügəri öldürüm! – deyib qağama doğru atıldı, ona doğru atılan qurdun birini doğradı, digər bir qurd onun sol əlinə yapışdı, lakin İlək buna məhəl qoymadan daha bir addım irəli atılıb, sağ əlindəki qılıncı qağamın sinəsinə sancdı, lakin elə həmin anda bir qurd altdan yuxarı sıcrayaraq onun yeganə zirehsiz yeri olan boğazından yapışıb, hülqumunu qopardı, o bir an dondu, qılınc tutan əli boşaldı, anidən dizi üstə çökdü, lakin bərəli qalan gözünü qağamdan çəkə bilmirdi.

Bars və Qaradon keyidi, qılınc tutan qolları boşaldı, elə həmin anda qurdlar hər ikisini altlarına alıb, zirehsiz yerlərindən onları parçalamağa başladılar. Savaş bitmişdi, İlək və onun 50 minlik ordusundan qaçanlar xaricində geriyə demək olar ki, kimsə qalmamışdı, amma qağam düşərgəsində qalıb savaşan kişilərdən, qadınlardan da kimsə qalmamışdı. Qağam can verməkdə idi, sinəsindən qan axırdı, göyərçini zümrüd gah onun yaralı olan sinəsinə, gah çiyninə qonaraq ona baxır təlaş içində cikkildiyirdi, qağam gülümsündü:

– Göyərçinləri də al, get uşaqların yanına...

– Ata, ata... – Subar qan, tər içində atasına doğru gəldi, nəvazişlə dedi, – Atam. – Dolçaya dolmuş yağış suyundan bir neçə yudum içdi, sonra dolçanı atasına uzatdı, – İç ata, iç...

– Yaran necədir Subar? Ağırdı? – qağam təlaş içində soruşdu.

– Boş şeydi... Ata bir az su iç... – atasına su içirddi, bağıraraq ətrafına səsləndi, – Kimsə sağdır? Sağ qalan var?! – Göyərçinlərin uçuşuna baxıb, təəsüflə dedi, – Sağ qalan yalnız ikimizik, ata!

Qağam əlini uzadıb oğlunun üzünə toxundu və pıçıldadı:

– Yaxşı ki, ananı yuxuya verib göndərdik Xəzərə... – gülümsəməyə çalışdı, qan tüpürdü, – İkimizin də yarası çox ağırdı, heç birimiz sağ çıxmayacayıq!

– Bilirəm ata... Nəsə istəyirsən ata?

– Heç nə... Ökə qovuşmağa az qalıb! Elökə alqışşşş... Kaş mənim havamı çalan olardı... – Oğlunun ayağa qalxdığını görüb, cavabını bilsə də soruşdu, – Hara?

– Gəlirəm... – Subar atasının çadırından sazı götürüb gəlib

atasının yanında oturdu, onun yaş  süzülmüş yanağından öpdü və sazı bağrını basıb çalmağa başladı.

– Əcəb səsdir... Saq ol oğul... – qağam onun sinəsinə qonan göyərçini Zümrüdə baxdı, pıçıldadı, – Göyərçinləri də götür get zümrüdüm... Getttt Bükə ananın yanınaaa... – əli ilə Zümrüdün qana batmış qanadlarına sığal çəkdi. Göyərçinlər onların başının üstündə dövrə vuraraq uçuşurdu. Ölüm anında olsa belə, saz havası onun canına yağ kimi yayılırdı, asta-asta gözlərini yumdu.

Subar ağlaya-ağlaya sazı çalırdı, atasının gözünü yumduğunu görüb:

– Ata cannnn... – deyə zarıdı, amma çalmağa davam etdi, göyərçinlər onların ətrafından dövrə vururdu, qurdlar yerdə uzanaraq saza qulaq asırdı, Subarın gözü qaralırdı, amma o sazı çalmağa davam edirdi...

* * *

Bükə eba ikinci  dəstə ilə Xəzər sarayına gətirilmişdi, yol boyu qağamın ona içirtdiyi qarışığın təsiri ilə yatmışdı, gözünü açdıqda gördü ki, nəvələrinin-nəticələrinin yanındadır, pıçıldadı:

– Ay səni Elökçü...

Bükə xatun həyətdə oturub göy üzünə baxırdı, birdən bir dəstə göyərçinin ona doğru uçduğunu gördü, həyacanlı halda ayağa qalxdı, bu vaxt dəstənin önündə uçan Zümrüdü sezdi, pıçıldadı:

– Zümrüddddd, – Zümrüd uçaraq gəlib onun əlinə qondu, Bükə eba onun qana batmış qanadlarını gördü, gözündən yaşlar süzüldü, – Vay ocağım söndüüüüüüü... Qorummmm söndüüüü... Alevim qara gəldi.

Hadisədən xəbər tutan Aaran xan Dükak bəyi qağamın düşərgəsinə göndərdi. Dükak bəy orada  gördüyü mənzərədən dəhşətə gəldi. Hər yan insan, qurd, quş cəsədi ilə dolu idi. Dükak əsgərlərinə əmr  verdi:

– Peçenek ordusunun cəsədlərini bir yerə toplayın, odlayın! Qorqud qağamın adamlarını dəfn edin. –  Bir az dayandı, qurd və quş cəsədlərinə baxdı, əlavə etdi: – Qurd və quş cəsədlərini

də dəfn edin... – Gəlib qağamla Subarın cəsədini gördü, Subarın əlində sazı görüb özü-özünə pıçıldadı: – Başa düşmədim, Subar son anında saz çalıbbb? – qeyri-ixtiyarı soruşdu.

– Necə? – yanındakı əsgər soruşdu.

– Heççç, yeri qazın, elə buradaca, qağamı və Subarı bir yerdəcə dəfn edək. – Ehmalca sazı Subarın əlindən aldı.

– Tanrım, bu savaş sanki nağıllar aləmində baş verib! Qurdlara bax, quşlara bax... On minlərlə əsgərə qarşı bir ovuc insannnn... Bu necə mümkün olub? – Əsgərlər biri-birindən soruşurdu.

Dükak bəy qağamın, onun oğullarının, qardaşı uşaqlarınını şəxsi əşyalarını bir arabaya topladıb öz şəxsi qaravul dəstəsi ilə qabağa düşdü, ordunu gözləmədən Xəzər sarayına döndü. Qağamgilin şəxsi əşyalarını Bükə ebaya təhvil verib xaqanla görüşə getdi, bütün gördüklərini ona danışdı. Dükaka qulaq asan xaqan sonda soruşdu:

– Qurdlar və quşlarda savaşıb?

– Elə çıxır, minlərlə qılınclanmış qurd cəsədi vardı... Minlərlə də peçenek əsgəri qurdlar tərəfindən parçalanmışdı... Qağamın lap yanından xan libasında bir cəsəd vardı, onunda boğazı parçalanmışdı, yəqin peçenklərin yeni xanı idi...

– Yaxşı, belə çıxır ki, kimlərsə qağamın adına oyun oynayıb? Kimlər və niyə?

– Məncə qağama qara yaxanlar elə ora hücum edənlərdi...

– Səbəb? – Aaran xan soruşdu.

– Qəlbi qara olmaları... İbelə uymaları... Satana uymaları... Demək ki, qağamın dedikləri onların işinə gəlmirmiş... – Dükak bəy kədərli halda dedi.

– Hə, elədir! – Aaran xaqan təsdiqlədi.

– Bəs indi necə olacaq?! Xaqan, son elçiləri də qəbul edəcənmi?! Məhəmməd peyğəmbəri?

– Düşünmək lazımdı! Qərbdə Roma, cənubda ərəb xilafəti! Qorqud qağam olmadan bunlarla necə başa çıxa bilərik! İsanı qəbul etsək Roma boynumuza minəcək, yahudilərə necə nifrət etdiklərini bilirsən? Məhəmmədi qəbul etsək, ərəblər boynumuza minəcək! Xalqımı və dövləti riskə ata bilmərəm!

– Axı qağam demişdi ki, doğru seçim bizi və ulusumuzu qo-

ruyacaq!

– Hə, doğru seçim etmək lazımdır və mən xaqan olaraq bunun doğru seçim olduğunu düşünürəm! – Dükak bəyin qəribə tərzdə ona baxdığını görüb, – Dükak mənə belə baxma, qağamı onun gücü, qurdları, quşları belə qurtara bilmədi...

– Axı o tək başına böyük bir ordunu məhv etdi... – Dükak bəy ona etiraz edərək dedi.

– Amma özüdə öldü... Mən risk edə bilmərəm, nə edim, tək başına hamı ilə savaşaq?! Gördüyün kimi, haqqı hamı sevmir! Haqqın düşməni çox olur!

– Aydındır xaqan! Amma mən bütün peyğəmbərləri qəbul edəcəm! Bu səbəbdən icazə verin gedim!

– Hə, bəlkə də beləsi düzdür, ən azından ikimizdən biri düz etmiş olacaq! – xaqan gülümsündü.

– Hə, bəlkə də. – Əlavə etdi, – qağamın vəsiyyətinə üyğun olaraq, onun soyundan mənə tapşırılanları özümlə aparıram.

– Həəə... – o Dükak bəyi qucaqladı, – Tanrı köməyimiz olsun.

Dükak bəy qağam soyundan olan ekizlərdən bir dəstəni özü ilə götürərək şərqə, oğuz ellərinə çəkildi, dediyi kimi bütün elçiləri və Tanrının son elçisi Məhəmmədi də qəbul etdi, onun oğlu Səlcuq böyük Səlcuqlu dövlətini quracaqdı, Dükakın soyu ilə, qağamın ikizlər soyunun yolu yüz əlli ilə yaxın birgə olacaqdı, lakin Səlçuqlu şahları zamanla İslamı, Quranı farslardan öyrənməyi üstün tutduqdan sonra, türk əlifbasını ərəb əlifbasına dəyişdikdən sonra, Səlcuqlu şahlarının adları fars adları ilə əvəz olunduqdan sonra, qağamın ikizlər ulusu ilə onların yolu ayrıldı, Anadoluda qağamın ikizlər soyundan qalan son nümayəndələri də XVI əsrin ortalarında tarix səhnəsindən silinəcəkdi, bu isə uzun və çox kədərli bir əhvalatdır...

Qağamın ölüm xəbəri ildırım sürəti ilə ətrafa yayıldı, beləcə böyük türk qurultayı başlamadan bitmiş oldu. Amma Qaraxanlı xanı islamı dövlət dini olaraq qəbul etdi. Qəzvin bəyi islamı qəbul etdi, qarşıdakı on illiklərdə bu bəylik böyük dövlətə çevriləcəkdi, daha sonra Səlçuqlu dövləti onu süquta uğradacaqdı. Ökürlərin,

yəni uyğurların əksəriyyəti manizim, budizim kimi dinləri tərk edərək, yenidən Tarıçılığa döndülər və İslamı qəbul etdilər. Tatarlar Tanrını və törəsini bərpa etmək istəyən xanlarına qarşı gəldilər, çinlilərlə, manqollarla, mancurlarla qız alıb-verən türk tayfaları düşmənlərlə birlik olub gecə ikən şəhəri basdılar, insanları qılıncdan keçirib, şəhəri yağma etdilər, beləcə tatarlar uzun on illiklər biri-biri ilə didişən kiçik tayfalar dönəminə düşdü.

Xorasan piri törəni, Tanrının son elçilərini xalq arasında yaydı, eyni zamanda farsların İslam dini adı altında yaymaq istədikləri fars xurafalarına qarşı savaşdı. Xorasan piri qız nəvəsini qağam soyundan Turqutla evləndirdi, vəfatından sonra Turqut Xorasan piri oldu, bu pir daha sonra Ərdəbil pirinin və Anadoluya gələn pirlərin beşiyi olacaqdı.

Kiyev xaqanı İqor qağamın ölümündən sonra gözləmə mövqeyi tutmağa çalışdı, törəni öz xalqı arasında yaymaqdan çəkindi, ölümündən sonra oğlu və nəvəsi öz dönəmlərində xristianlığı yaymağa başladılar, qağamın ora göndərdiyi ikizlər, İqor xanqanla digər türk tayfaları arasında baş verən bu çəkişmələri əvvəlki qorqud dastanlarına üyğun olaraq dastanlaşdırdılar, lakin sonra onlar öldürüldü və bu dastan dəfələrlə dəyişdirildi, rusların məhşur İqor dastanına çevrildi.

Qağamın öldürülməsindən sonra Turabzon hökmdarı Roma yönümlü əyanlar tərəfindən zəhərlənərək öldürüldü, qağamın ekizləri oradan qaçdı, bu hadisədən sonra Urova piri də bu məsələdə susmağa üstünlük verdi, bu ərazinin xrıstianlaşan turkləri Səlcuqlunun o ərazilərə gələcəyi günəcən susacaqdı...

Bükə eba və qağam soyunun digər hissəsi Xəzər xaqanlığında qaldı. Xəzər xaqanlığı təxminən iki yüz ilə yaxın varlığını sürdürdü. Xəzər xaqanlığının var olduğu dönəmdə Romada zülm görən yahudilərin tək sığnacaq yeri bu dövlət idi, uzun yüz illiklərdə Xəzər xaqanlığı daxilində bütün dinlərin nümayəndələri, həmçinin müsəvi türkləri ilə yahudilər birlikdə, qoyun-qoyuna yaşadılar, qız alıb-qız verdilər. Bu türklərin və yahidilərin xoşbəxt olduqları xəzər dönəmi idi. Lakin həyatda heç bir şey əbədi deyil, Xəzər xaqanlığı da əbədi olmadı, peçeneklərin, uzların, rusların, daha sonra qıpçaqların Xəzər xaqanlığına hücumları, hətta onla-

rın Roma ilə birlikdə Xəzər xaqanlığına hücumları, xəzərləri as-ta-asta tükətdi, xaqanlıq dağıldıqda musəvi türkləri və yahudilər Krıma doğru çəkildilər, qıpçaqların tabeliyində yaşadılar. Daha sonra manqol-tatar ordularının bu ərazilərdə hərbi rəqib kimi türk tayfalarını qırıb-çatıb, qılıcdan keçirməsi ilə qıpçaq dövləti də darma-dağın oldu, musəvi türkləri və yahudilər bu qırğınlardan sonra bütün Avropaya səpələndi.

*1910-cu il. Almaniya, Kosova kəndi…*

…Çiçək ebam məni qucaqlayıb, alnımdan öpdü:

– Bax biz yüz illər boyu özümüz-özümüzü qırmışıq, Tanrı deyib törəsini yernə yetirməmişik! Xəzəri öz türk soylarımız digərləri ilə əlbir olub dağıtdı, özləridə tükənə qədər biri-birini qırdı, əzdi…

– Bəs biz bura niyə gəldik? Orada qalsaq olmazdı?!

– Biz Tanrının törəsini olduğu kimi yaşamağa çalışırıq pir balam! Biz İsanı qəbul edirik, amma Romalı deyilik! Biz Musanı qəbul edirik, amma yahudu kimi düşünmürük! Biz Məhəmmədi qəbul edirik, amma ərəb kimi düşünmürük! Biz Hüseyni sevirik, amma fars deyilik! – qəmli baxışları ilə məni süzdü, – Bala, bizi kimisinin yeri haradır ki? Öz soyumuzun böyük xanları, Səlcuqlu, Osmanlı, Səfəvi xanları öz törəsini anlaya bilmədi, bizi anlaya bilmədi! Osmanlı pir ocaqlarını qılıncdan keçirdi, ona-buna qul-qaravaş etdi! Səfi soyu qırmızı börk geyinən pirləri unutmadığını göstərmək üçün, özünə "qızılbaş" dedi, amma keçmişinidə, "qızıl başınıda" unutdu, fars nağıllarına uydu. Bu üzdən də ağ halvamızı qara gətiriblər! At izi it izinə qarışıb, bala!

Bu vaxt qağam gəldi:

– Sən çıx, ebanla işim var, – dedi.

– Dəymə, qoy qalsın, artıq bilməlidir, – deyə ebam etiraz etdi.

Qağam susdu, niyə isə qayğılı idi, pıçıldadı:

– Axşam gələcəklər!

– Qoy gəlsinlər…

– Daha nə qədər davam gətirə bilərik, bilmirəm asebam? – qağam niyəsə kövrəlmişdi.

– Pir oğlum, sıxılma, bu ilk deyil ki!

– Yaxşı, gedim dincəlim, bu axşam ağır olacaq!

– Get pir oğlum… – ebam qayğılı halda dedi.

– Eba nə olub? Kim gəlir?! – deyə soruşdum.

– Bizdən olub, bizimlə olmayanlar, –yaşına xas olmayan qəribə istehza ilə gülümsündü, – qanı bir, kitabı, tarixi bir yahudilərimiz… – Üzümə baxdı, – Get dincəl, axşam sən də arxa qapıdan baxıb, qulaq asarsan…

– Yaxşı. – sevincək dedim.

Axşam yeddi nəfər bizə baş çəkdi, söhbətdə qağam, asebam, ebam və kəndin böyükləri iştirak edirdi. Mən arxa otaqdan gizlincə olanları izləyirdim. Qağam qara geyimli qonaqlara baxıb almanca dedi:

– Salam. Mosey, yanındakılar kimdir?

Qonaqlardan ən yaşlısı Moseyin cavablamasını gözləmədən dedi:

– Salem. Mən baş ravvinin köməkçisiyəm, adım Melikdir! Bu yoldaşlar sadəcə söhbətə şahidlik etmək üçün gəliblər.

– Aydındır, demək ki, səninlə danışacayıq! – qağam dedi.

– Hə, elədir!

– Lap yaxşı, elə isə səni eşidirik...

– Mənə baş ravin desəz, şad olaram... – Melik saqqalına tumar çəkərək gülümsündü.

– Mən sənə, ravvin və ya qağam deyə bilərəm, lakin mən sizə tabe deyiləm ki, sizə baş ravvin deyim... – Melikin susduğunu görüb dedi, – Elə bunun üçünmü gəlmisiz?

– Yoxx, – Melik gülümsünərək dedi, – axı bizim dinimiz eynidir, hamımız yahudiyik, əvvəl-axır uzlaşmalıyıq, biri-birimizə üyğunlaşmalıyıq!

– Hə dinimiz eynidir, amma biz yahudi deyilik, biz Musanı qəbul etmiş, Tövratı qəbul etmiş töröklərik! – qağam qəti şəkildə dedi.

– Hə, Tövrat demiş, bildiyim qədəri ilə, Tövratı qəbul edirsiz, amma Talmudu qəbul etmirsiz! Düzdür? – Melik soruşdu.

– Məsələ Talmudda deyil, bizim üçün ilk qaynaq Tövrat və bizim öz Törə kitabımızdır, Talmud isə Tanrıdan gələn bir kitab olmayıb, daha çox qədim yahudilərin adət-ənənələrinin toplusudur. Dini və adətləri fərqləndirmək lazımdır...

– Başa düşmədim? – Melik key halda soruşdu.

– Başa salım, – qağam da bu dəfə Melik kimi gülümsündü, – Əslində Tövrat və Törə eyni söz kökündəndir, biz töröklər Tanrının kitabına Törə deyirik, siz yahudilər Torah deyirsiz...– Qonaqları süzdü, – sözümün canını deyim, Törə Tanrının əmridir, insanlar Törədən anladığı qədərini uyğulayır və zamanına üyğun yaşayır, beləcə adət-ənənələr yaranır, lakin bir müddət sonra törə və yaranmış adət-ənənələr biri-birinə zidd iki ünsürə çevrilir... Bu üzdən biz yalnız Törəni qəbul edirik, adətlər, yaşayış tərzləri dəyişgəndir.

– Axı adət-ənənələr də həmin törələr əsasında formalaşıb... – Melik key-key dedi.

– Hə, adət-ənənələr də törədən formalaşır, amma insan üçün çərçivə törə olmalıdır, törədən formalaşan adətlər yox.

– Səbəb? – Məlik təəcüblə soruşdu.

– Törə bütün zamanlara, məkanlara üyğundur, amma bir regionda formalaşan adətlər bütün zaman və məkana üyğun ola bilməz, adət-ənənələr nə qədər mükəmməl olur-olsun bir gün o ayağa dolaşacaqdır. Bu səbəbdən Talmud bizə ibratəmiz kitablardan bir ola bilər, lakin Törəyə tay ola bilməz!

– Elə isə siz Qaray məhzəbinə inanırsız? – Melik yahudiliyin bir məhzəbini nəzərdə tuturdu.

– Xeyir, bizim heç bir məhzəbimiz yoxdur! Düzdür qaray məhzəbində olan töröklərdə var, onlarda yahudi olan qaraylar kimi Talmudu inkar edir, lakin dediyim kimi, biz Talmudu inkar etmirik, sadəcə o bizim üçün Tanrı əmri deyil, min illər boyu yahudi qağamlarının gəldiyi qənaətlərdir, məsləhətlərdir! Başa düşün adətləri biz yaradırıq və o bir gün dəyişə bilər, lakin Törə Tanrıdandır və o dəyişə bilməz! Török qağamları bu üzdən Talmudu əsas kitab hesab etmir.

Melik yoldaşlarına baxdı və soruşdu:

– Qağam demiş,  niyə bizi kimi “haham” demirsiz?

– Başa düşmədim, niyə biz töröklərdə sizi kimi “haham” deməliyik ki? Törökcədə QAN~AĞA~ƏKƏ~ƏXİ~QAĞA~QAĞAM~XAQAN~QAM~XAN ~QARDAŞ sözləri AK~AĞ sözündən formalaşıb və dilimizdə bu sözlər xüsusi məna kəsb edir! İndi “qağam” sözünü yahudi şivəsi ilə “H” səsindən “haham” etmisinz, bizdə “haham” deməliyik?!

– Başa düşmədim, haham török sözüdür? – istеza ilə gülümsündü, – Dünyanın ilk insanı yahudi xalqındandır, bunu bilmirsən ki?!

– İlk insan Yahudi idi? – qağam qəşş edərək güldü.

– Başa düşmədim, buna şübhən var ki?

Qağam başını yelləyərək dedi:

– Musanın Torahına* görə İbrahimin oğlu İsaq soyundan Yaqubun 12 oğlundan biri olan Yahudanın adı ilə bağlıdır “yahudi” sözü...

– Məgər bunu burada bilməyən var? Bunun bu söhbətə nə dəxli var? – Melik yoldaşları ilə pıçıldaşdıqdan sonra dedi.

– Dəxli odur ki, əziz qonaqlar İbrahimin atasının adı Tövratda Tarah olaraq keçir, yahudu şivəsində “K” səsinin “H” kimi səsləndiyini nəzərə alsaq, Tarah sözü bizim ləhcədə Tarak və ya Török kimi deyilməli deyilmi?! Yəni tarix Yahuda ilə başlamır, heç Tanrı elçisi İbrahimlə də başlamır, insanlıq tarixi Adəmlə başlayır, o Adəm ki, biz ona ATAM deyirik...

Melik yoldaşları ilə nəsə pıçıldaşıb dedi:

– Yaxşısı budur, günümüz məsələlərini müzakirə edək!

– Büyurun, sualınızı eşidirəm? – qağam dedi.

– Siz yaradana Tanrını deyirsiz, bəlkə dinimizin üyğunluğu üçün, birlik üçün bu sözü deməyəsiz! – Melik gülümsündü, – Düz demirəm? Birlik üçün...

– Sizə kim deyir ki, biz yaradana yalnız Tanrı deyirik?! Tanrı sözü Tan+Ra sözlərindən formalaşıb “ zamanın sahibi” deməkdir. Törəmiz deyir ki, biz Tanrının adını yox, yalnız bizə təzahür edən sifətlərini ifadə edə bilərik, çünki bizim dediyimiz Tanrının

---

* *Tövratına*

sifəti olan adlar bizim danışdığımız dilin səviyyəsi qədərdir, bizim dərketmə qabiliyyətimiz qədərdir.

– Necə yəni? – Melik udqunaraq soruşdu.

– Necə ki, biz gözlə Tanrını görə bilmərik, necə ki, biz qulaqla Tanrını eşidə bilmərik, eyni llədə biz, insan təfəkkürünü ifadə edən dil ilə Tanrını tam ifadə edə bilmərik, biz Ona ad verə bilmərik, biz sadəcə Onun dərk etdiyimiz sifətlərini öz dilimizdə ifadə edə bilərik! Biz Tanrı deyirik, Ök deyirik, El deyirik, Elök deyirik, hansı ki, siz Tanrının Elök sifətini Elah və ya İlah olaraq ifadə edirsiz... – Melik və yoldaşlarının key bir şəkildə ona baxdığını görüb səmim bir şəkildə gülümsündü, – Onun török dilində Boq, God, Bil kimi sifətləri də var. Başa düşürsüz, eyni ilə siz yahudilərdə Onu Yahova, El, Elohim kimi çağırırsız! Lakin bu adlar bizim sadəcə Onun dərk etdiyimiz sifətlərinə verdiyimiz adlardır.

– Qəribədirrr... – qonaqlardan biri qeyri-ixtiyari pıçıldadı.

– Qəribə heç nə yoxdur! Bir dil ki, zamana üyğun inkişaf edir, dəyişir, o dil sonsuz qüdrət sahibi olan Tanrını tam ifadə edə bilərmi, Ulu Yaradanın adı insanın dilindən formalaşa bilərmi?! Biz rəqəmləri belə dərk etdikcə adlandırırıq, on, min, milyon! Sizcə Adəm milyon rəqəmini bilirdimi?!

– Yoxxx, yəqinki... – Melik dedi.

– Milyon sayı Adəmin nəyinə lazımdı ki? – qonaqlardan biri cavabladı.

– Bəli, Adəmə milyon sayı lazım deyildi, bu rəqəm lazım olduqda, adəm soyu bu rəqəmə ad verdi. İndi düşünün, Tanrının adı adəm dilində ola bilərmi? Bizim dediyimiz bütün adlar, öz dilimizdədir və Onun dərk etdiyimiz sifətləridir. Demək ki, insan yaradanı dərk etdiyi, hiss etdiyi dildə çağırmalıdır, elə deyilmi?!

Melik deyəcək bir söz tapmadı, astadan pıçıldadı:

– Mənim verəcək başqa suallarım da var, başa düşürsən?

– Ver, sualnı ver qardaş, sıxıntı yoxdur! – gülümsündü.

– Qırmızı rəngli qağam papağı, neçə illərdi inad edirsiz, formasını bir az dəyişsəz, qara rəngli papaq geyinsəz nə olar ki?!

– Qırmızı rəng günəşi təmsil edir, günəşin digər bir adı török-

çədə "qor" adlanır, qor-gör eyni köklü sözlərdir, yəni günəşi ifadə edən qırmızı rəng bizdə həm də görməyi ifadə edir, bu üzdən min illərdi pirlərimiz qırmızı rəngli papaq qoyur, yəni Tanrının hər şeyi gördüyünü rəng dili ilə ifadə edir. İndi bu papağın rəngini niyə dəyişməliyik? Min illərdi davam edən bu adət kimi, niyə narahat etməlidir?! – qağam sözünü bitirdi.

– Dedin ki, sizin üçün əsas olan Tanrının törəsi olan kitablardır, bəs bildiyimə görə sazlı-sözlü ifadə etdiyiniz 24 hissəli Oğuznamə adlı dastanınız var, bir hissədə Təpəgöz adlı bir canavardan danışılır, bir hissədə Oğuz xan adlı buynuzlu tacı olan hökmdardan danışılır! Talmudu qəbul etmirsiz, amma bu dastanı çox sevirsiz! – Melik qonaqlarla pıçıldaşdıqdan sonra soruşdu.

– Hə, düzdür bizim Oğuznamə adlı qədim bir dastanımız var! Bir boyunda tək gözü olan bir varlıqdan danışır, ona ya təpəgöz və ya təkgöz deyilir, o insan əti yeyir, hər yana hücum edib dağıdır, sonda bir oğuz igidi onu gözündən vuraraq öldürür. Dastanda deyilir ki, ona bu qəhramanlığından sonra bəzi töröklər Basat, bəzi töröklər isə Maata dedi. Bu hadisəni danışan Qorqud dədəmiz dastanın sonunda izah edir ki, burada adı çəkilən təpəgöz fiziki mənada "tək gözlü" bir varlıq deyil, "təkgöz" sözü haqqla batili seçməməyi ifadə edir, Tanrını unudub iblisə uymağı ifadə edir və bu üzdəndə təpəgöz və ya təkgöz sözü iblisə uyan, şər əməlli insanları ifadə edir və biz adəm soyu daim təkgözlə mübarizə aparmalıyıq.

– Bəs buynuzlu tacı olan Oğuz xan? – Melik yenidən soruşdu.

– Török tarixində hilal formasında buynuzlu tac taxan bir çox əfsanəvi török hökmdarı olmuşdur, bu buynuzun ortasında da dairə formasında günəş sinvolu olmuşdur. Qədimdə şəkilli yazını istifadə edən atalarımız dairə sinvolu ilə ya göz, ya da günəşi ifadə etmişdir, dolayısı ilə dairə sinvolu gözü ifadə edirdisə, insanında görməsini də ifadə edirdi, bu məntiqin davamı kimi dairə simvolu günəşi ifadə edən zaman, Tanrınında hər şeyi görməsini də ifadə edə bilərdi. Bu məntiqlə günəş sözü də Tanrının görən sifətinidə ifadə etməyə başladı, bu zaman hilal sinvoluda Tanrının səbr edən sifətini ifadə etməyə başladı. Həmçinin atalarımız Tanrının "hər şeyi görən sifəti olan" Boq adına kəsdikləri

heyvana Boq sözündən "buğa" deməyə başladı. Tanrıya-Boqa qurban kəsdiklərini ifadə etmək üçün dağlara-daşlara buğa rəsmi çəkən atalarımız daha sonra hilal formasında buynuz, buynuzun ortasında isə günəşi ifadə edən dairə çəkərək, rəsmli yazı dilində "Tanrıya buğa qurban etdiyini və Tanrının hər şeyi görüb, lakin son günəcən səbr etdiyini" ifadə etməyə çalışmışdır. Bu üzdən də bir çox böyük török hökümdarı buynuzlu tac geymişdir, beləcə Tanrı törəsini bərpa etdiyini ifadə etmişdir. Əslində bizim geydimiz qırmızı börk də o tacın davamıdır. – Əli ilə başındakı qırmızı papağı göstərdi.

– Başa düşmədim, indi belə çıxır ki, Zülqərneyin bir türk hökmdarı olub?! Axı biz yahudilər onun fars hökmdarı Kir olduğuna inanır? – Melik yoldaşları ilə pıçıldaşaraq soruşdu.

Qağam gülümsündü:

– Bizim dastanda Kirin yaşadığı tarixdən min illər əvvələ aid üç Oğuzxandan danışılır, mənim əlimdə olan kitab belə Kirdən 500 il yaşlıdır. Bizim törədə şərlə, İblislə savaşan, törökləri birlik edib zülmdən qurtaran oğuzxanlardan danışır, bəzən onlara Maata deyilir və zamanla "qurtarıcı" anlayışı olan Maata və onun buynuzlu tacı bir çox xalqın rəvayətlərinə də sirayət edib.

– Sizin həvəslə dinlədiyiniz bu kitab məgər Törədir? – Qonaqlardan ən yaşlısı dözə bilməyib özü soruşdu.

– Xeyir, kim belə dedi ki? Dastan dünyaya baxışımızı asanlaşdırmaq üçün, keçmişlə bu günümüz arasında bir rabitə qurmaq üçündür. Biz bu dastanları danışaraq qan yaddaşımızı diri saxlayırıq, amma zamanı tutub dastandakı dövrə qaytarmaq istəmirik, başa düşürsüz? – qağam əminliklə dedi.

– Bəs siz də başa düşürsüz ki, artıq birlik olmaq lazımdır, siz isə yahudiləri bölürsüz, bu yol verməzdir?! – qonaqlardan ən yaşlısı kimsənin danışmadığını görüb sərt formada dedi. – Biz özümüzə "yahudi oğlu" deyirik, lakin siz özünüzə "török oğlu" deyirsiz, necə ki, qaraylar özlərinə "qaray oğlu" deyir, bu ayrı-seçkilikdir.

Qağam cavab vermək istəyirdi ki, Aseba əlini irəli uzatdı və dedi:

– Qağam, icaizənlə mən cavab verim! – oğlunun başı ilə təsdiqləməsindən sonra danışmağa başladı, – Bura baxın, birincisi biz yahudi deyilik...

Yaşlı haham onun sözünü kəsərək soruşdu:

– Siz belə edərək ayrı-seçkilik salmırsızmı?

Aseba səs tonunu qaldıraraq dedi:

– Xeyir, niyə ayrı seçkilik salmalıyıq ki, sadəcə biz yahudu deyilik. Başa düşürsən, biz Musanı elçi olaraq qəbul edən töröklərik, yahudilərlə 1300-1400 ildir qardaş kimi yaşayan töröklərik, bütün Roma yahudiləri qırarkən, yahudilərə sevinclə qucaq açan töröklərik! İndi török olmaq ayrı seçgilik olub?! Török olan aşgenazlar var, yahudi olan aşgenazlar var və töröklərlər ilə yahudilərin qarışdığı aşgenazlar var, bu min ildir problem olmayıb, amma indi bu problem olub? Niyə?! – Üzünü Moseyə tutdu, – Mosey sənin baban türkcə danışırdı, bəs sən türkcə nəsə bilirsənmi?! Evinizdə olan török Törə kitabını baban uşaqlarını oxutmaq üçün satdı, oxuduz, şəhərli olduz, indi istəyirlər bütün töröklər səni kimi olsun?! –Üzünü yenidən yaşlı hahama tutdu, – Sənləyəm, indi gedib nə deyəcən, baş ravvinə?! Töröklərlə yahudilərin qızıl tarixi olan Xəzər dönəmini yadına salacanmı?! – Əlini havaya qaldırdı, – Biz yüz illərdi can deyib-can eşitmişik, qız verib-qız almışıq, bir-birimizə qarışıb qohum olmuşuq, törökləşən yahudilər olub, yahudiləşən töröklər olub, amma şükürlər olsun ki, hələdə yahudi kimi və török kimi qalanlarımız var, axı biz biri-birimizin var oluşuna şahidik! Biri-birimizin şahidiyik! Başa düşürsüz?! Axı bizim bir Xəzər keçmişimiz varrrr! Bizim İbrahim zamanında ayrılıb, Xəzər zamanında yenidən birləşdiyimiz bir tarix var və biz bu Xəzər tarixinin şahidiyik! Xəzərrrr! Biz biri-birimizin şahidiyik!

Otaqda olan hər kəs ağlayırdı, qonaqlar içində hönkür-hönkür ağlayan isə yaşlı haham idi, o ayağa qalxdı, esabaya yaxınlaşıb əlindən öpdü:

– Hə, bizim böyük bir keçmişimiz var! Xəzər kimi bir tariximiz var! Biz biri-birimizin var oluşunun şahidiyik! Mən imkan verməræm, daha bizi kimsə ayıra bilməz! İnan mənə aseba, yoxsa mənim adın Yaqub deyil...

Esabam da onu qucaqlayıb öpdü və pıçıldadı:

– Xəzərə salam olsun! Elə salam olsun! Tanrıya və onu sevənlərə salam olsun!

* * *

Türklərlə yahudilərin Xəzər keçmişi məni valeh etmişdi və bu maraq 7 il sonra məni tarix fakultəsinə aparıb çıxardı, türk, alman, yahudi və ərəb dilini bilməyim, əlavə olaraq qədim török əlifbasını bilməyim olduqca işimə yaramışdı. İlk dərsdən professor Otto Müllerin diqqətini çəkdim, gənc professorun ən gözdə tələbəsi oldum, tarix fakultəsini əla qiymətlərlə bitirdikdən sonra, Xəzər tarixi ilə bağlı müdafiə işi götürdüm və professor Otto Müllerin rəhbərliyi altında mövzumu araşdırmağa və yazmağa başladım. Mövzumu yazarkən Otto Müllerin dəstəyi ilə bütün Avropanı gəzdim, Aşgenazların yahudi və türk hahamları ilə görüşdüm, bir çox qədim kitabların üzünü köçürdüm, ağızdan-ağıza gələn hekayələrini yazdım. Həmçinin qaynaqlarda Xəzər xaqanlığı, Kiyev kinyazlığı, peçeneklər, uzlar, Səlcuqlu xaqanlığı, Ərəb xilafəti, Çingiz dövləti haqqında bütün məlumatları topladım, yaranan ümumi mənzərə inanılmaz idi, Çiçək ebamın dedikləri ilə tarixi qaynaqlar və aşgenaz hahamlarının dedikləri üst-üstə düşürdü. Türk və yahudilərin firavan yaşadığı Xəzər xaqanlığı 1016-ci ildə Bizansın, rusların, peçeneklərin və uzların ard-ardına etdiyi hücumlara tab gətirməyib dağılmışdı, dövlətsiz qalan musəvi türkləri və yahidilər manqol-tatar hücumlarından sonra Krımdan bütün Avropaya yayılmışdılar. Xristianlar yahudiləri İsanın ölümündə günahlandırırdı, bu səbəbdən də uzun yüz illər musəvi türkləri ilə yahudilərin biri-birindən başqa dostu olmamışdı. Uzun yüz illərdə aşgenaz adlanan bu toplumda: 1-almanca danışanlar; 2– ibadəti ibranicə, danışığı almanca olanlar; 3– türkcə-almanca-ibranicə qarışığı danışanlar; 4 – türk dilində danışıb, almanca, ibranicə bilən qruplar yaranmışdı. Lakin zaman bir şeyi heç dəyişə bilməmişdi, türk aşgenazları türkcə və ibranicə Tövratdan istifadə edirdi, yahudi aşgenazları isə ibranicə Tövratdan istifadə edirdi. Musəvi türkləri aşgenazlara, karaylara və krımçaqlara bölünürdü, bunlar arasında bəzi dini baxış fərqlilik-

ləri vardı. Misal üçün karay türkləri Musanı da, İsanı da, Məhəmmədi də elçi kimi qəbul edirdi, ancaq Tövratın əmrlərini yerinə yetirirdilər. Türk aşgenazlarının içində isə bizi kimi türk törəsini və digər elçiləri qəbul edənlər vardı və birdə artıq yahudilər kimi yalnız Musa dininin şərtlərini yerinə yetirənlər vardı. Misal üçün aşgenaz yahudiləri etdiklər dualarında – "Yahova israil oğullarını qoru" deyirdi, karaylar isə etdikləri dualarında – "Tanrı karayoğullarını qoru" deyirdi, biz aşgenaz türkləri isə etdiyimiz dualarda – "Tanrı sən adəmoğullarını və törökoğlunu qoru" deyirdi. 600 illik Xəzər tarixi və 1300 ilə yaxınlaşan türk-yahidi qardaşlığının tarixini gün işığına çıxarmışdım, lakin 1933-1934-cü ildə Adolf Hitlerin hakimiyyətə gəlməsi ilə mənim müdafiyəm ləngidildi, həmin illərdən başlayaraq yeni qanun qəbul edildi, yahudilər aşağı sinif adlandırıldı, işdən çıxarıldılar, işlətdikləri dükanlar bağlandı, 1938-ci ilin noyabır ayından aşgenazlar kütləvi şəkildə döyülməyə, öldürülməyə başlandı. Sanki dünyanın nəbzi yoxlanırdı, hamı susmuşdu, beləcə 1939-cu ildən aşgenazların sistemli şəkildə soyqırımına başlandı, bütün aşgenazlar Polşada tikilən kamplara göndərildi...

*Polşa, Alman hərbi kampı, 1943.*

Eraz biləyi ilə göz yaşlarını sildi və Yaşara baxdı:

– Artıq Xəzər tarixinin şahidləri qalmayacaq! Aşgenazların gəldiyi yol bitdi...

– Dayan, dayan. – Yaşar ayağa qalxdı, Erazın qənşərinə gəldi. – Belə çıxır ki, bu soyqrım yalnız yahudi soyqırımı deyil?! Dedin ki, türk və yahudi aşgenazları var, dolayısı ilə bu aşgenaz soyqırımıdır? Həəə?

– Hə, bu aşgenaz soyqırımıdır! Tarixin böyük bir hissəsinin amputasiya edildi* və yerinə istədikləri protezi taxacaqlar!

– Nəyə eham vurursan, bu soyqırım düşünülüb və planlaşdırılıb?

– Şübhən var Yaşar?

---

* *cərrahi əməliyyat ilə ətrafın və ya onun hissəsinin oynaqdan kəsilməsi*

– Kimə lazımdı belə bir plan? Hitlerə? – Erazın istеza ilə güldüyünü görüb, – Niyə gülürsən, sizi qıran məgər Hitler deyil? Bunu ki, bütün dünya bilir?! – Erazın sifətindəki mimikanı görüb, təəcüblə soruşdu – Yox? Bəs kim, kimlər?!

– Gəl mən sənə şahid olduqlarımı deyib, qərarı sən ver!

– Deee. – Yaşar öz dərdini unudaraq dedi.

– Adolf Hitler sıradan biri idi, kimsənin xəbəri olmayan biri, 1919-ci ildə o Alman İşçi Partiyasına üzv oldu, bir il sonra bu partiya Nasional Sosialist Alman İşçi Partiyası adlandi, bir il sonra Hitler bu partiyanın sədri oldu, yəni cəmi 2 ilə sıravi üzvlükdən sədrliyə gəldi, səncə sehirli çubuk olmasa belə bir şey mümkündürmü?!

– Bəlkə ailəsi aristokrat sinfindən olub və ya yaxşı çevrəsi olub?

– 1919-cu iləcən Hitler acından ölən bir rəssam idi... – Eraz etiraz etdi, – 1919-cu iləcən o adi, kimsənin məhəl qoymadığı biri idi.

– Bəs o zaman ona kim kömək etdi?

Eraz dodağını çeynəyərək dedi:

– Hitler 1925-ci ildə həbsdə olarkən yazdığı "Mənim mübarizəm" adlı kitabda açıq-aydın şəkildə deyirdi ki, yahudiləri yox edəcək. Bir də deyirdi ki, mənim nümunə aldığım ustadım Henri Forddur!

– Başa düşmədim, ford maşın zavodlarının sahibi Heri Forddan danışırsan?! – Yaşar təəcüblə soruşdu.

– Bəli ford maşın zavodlarının sahibi Henri Ford,..

Yaşar onun sözünü kəsərək soruşdu:

– Səbəb?! Mən heç nə anlamadım!

– Görünən səbəb budur ki, Rusiyada komminizim qələbə qazanmışdı, komminizim qığılcımı hər an Avropada və Amerikada da ətrafı yandırıb yaxa bilərdi. Henri Ford yahudilləri komminist zümrəsi kimi görürdü və Almaniyada da komministlər güclənirdi və onlara qarşı bir bufer güc yaratmaq lazım idi və bu Hitler oldu.

– Yəni Hitleri Henri Ford maliyyələşdirib?!

– Bəli, 1930-cu illərdə Hitler bunu açıq aydın qəzetlərdə yazırdı, Almaniyada tikilən zavodların həm maliyyə, həm texniki yardımını Henri Ford edirdi, bu barədə görüşlər o dövrün bütün qəzetlərində yazılırdı.

– İndi Hitlerə yardimi Henri Ford edirdi, ya onun adı ilə Amerika?

– Məncə ikisi də...

– Necə yəni ikisi də?

Eraz bir müddət susdu, Yaşara baxdı və dedi:

– Gəl fikrimi belə izah edim. Amerikada əsas iki sinif var, ağlar və zəncilər. Zəncilər ağların girdiyi dükanlara, məktəblərə, restoranlara girə bilməz, bunu bilirsəndə?

– Hə.

– 1936-ci ildə Hitlerdə eyni ilə ali irq və aşağı irqlə bağlı qanun qəbul etdirdi və bu qanuna görə aşgenazlar altıbucaqlı yahudi xaçı olan parcanı qoluna bağlamalı idi, yalnız onlara aid dükanlara girə bilərdi, onlara ayrılmış məktəblərdə oxuya bilərdi. Amerikanın irqi ayrı-seçiciliyini Hitler alıb biz aşgenazlara tətbiq etdi... – Yaşarın üzünə baxdı, – indi aydın olurmu, bütöv rəsmi görə bilirsənmi?!

– Bu soyqırım komminizimin məhv edilməsi üçün edilib?

– Yox Yaşar, bu asbergin görünən tərəfidir, bu sadəcə aldatmacadır, əgər məsələ komminizim olsa, onda komminizimi təbliğ etmək istəyən hər kəs həbs edilərdi, irqindən, dinindən, dilindən aslı olmayaraq... Başa düşürsən? Məqsəd aşgenazların yox edilməsi idi və bunun anlaşılmaması üçün “yahudi” sözündən istifadə edildi. Məgər onlar bilmirdi ki, aşgenazların yarısı türkdür? Yaxşı bilirlər, amma bütün aşgenazları qırıb “yahudiləri qırırıq” deyirlər, çünki ölülər danışa bilmir! Onlar aşkarca dünyaya car çəkir ki, biz yahudiləri qırırıq, çünki öldürülən aşgenazlara tək bir ad verirlər, yahudi. – Dişlərini qıcayaraq təkrarladı, – Yahudi! Bax mən sənlə türkcə danışıram, öldürüləcəm və statistikada ölmüş yahudi kimi göstəriləcəm. – Qolunu çırmalayaraq biləyini göstərdi, bax, mənim daha adım belə yoxdur, yeni adım altı saylı rəqəmdir, rəqəm! Məni bir rəqəm ifadə edir, bu qədər sadə, öləcəm və bir yahudi ölüsü kimi sayılacammmm... – Eraz ağzı

kövüklənərək ağlamağa başladı: – Başa düşürsənmi Yaşar, milyonlarla aşgenaz türkü öldürüləcək, amma kimsə onların türk olduğunu belə bilməyəcək! Mənim kəndimi, qonşu kəndləri bir gecədə mühasirəyə alıb qırdılar, yandırdılar, hamısı aşgenaz türkü idiiii... – əlini havada oynadaraq dedi, – amma ölüb oldular yahudi. Əcəb fokusdur, yaşayanda türksən, öləndə çönüb olursan yahudi... Əcəb foksdur, əcəb oyundur!

– Doğurdan sizin kəndə nə oldu? Ailənə, qağama nə oldu?!

– Bizim kəndlərə nə oldu? – Eraz dərindən köksünü ötürdü, biləyi ilə göz yaşlarını sildi və danışmağa başladı: – Aşgenazlara təzyiqlər başlamışdı, vəziyyət gərginləşməkdə idi. Gecə yarısı professor Otto Müller Berlində kirədə qaldığım evə gəldi, müdafiəsi ləngidilən mövzumun bir nüsxəsi də əlində idi, mənə dedi ki, mövzunu da götür, elə indicə Berlindən çıx get, vəziyyət pisdir. Birdə dedi ki, heç kənddə də çox qalmayın, ailəni, törə kitablarını yığıb Almanyadan köçün və özünüzü aşgenaz kimi yox, karay türkü kimi təqdim edin və törə kitabları haqqında kimsəyə danışmayın! Professorun dediyi kimi gecə ilə qaldığım evi oda verib kəndə qayıtdım, kəndlərimizə girən yolda alman əsgərləri post qurmuşdu, meşəliklə dövrə vurub kəndə girdim. Kəndə giriş vardı, amma kimsənin çıxışına imkan verilmirdi. Hamını başa saldım ki, mənim kəndə gəlməyimi kimsəyə deməyin, çünki professor demişdi ki, səni axtara bilərlər, ehtiyatlı ol. Bir neçə ay belə davam etdi, 1939-cu ilin Eniqoras bayramı idi...

– Nə bayramı? – Yaşar təəcüblə soruşdu.

– Eniqoras bayramı, oğuz bayramı, – Yaşarın anlamadığını görüb, – yəni bahar bayramı.

– Hə, biz Novruz deyirik.

Eraz başı ilə təsdiqləyərək danışmağa davam etdi:

– Səməni qoyulmuşdu, günəşi, ayı, ulduzu təmsil edən şirnilər bişirilmişdi və ağ bayram halvası bişirilmişdi, amma heç kimdə bayram abu-havası yoxdu... – Erazın gözlərindən sürətlə yaşlar axmağa başladı, – Birdən kəndi səs-küy başına götürdü. Alman əsgərləri idi, hamını evlərindən çıxarıb kəndin kənarına yığdılar, deyirdilər ki, Türkiyə ilə razılığa gəlinib, ora köçürülə-

cəksiz. Türkiyə adını eşidib, hamı necə sevinirdi, bir bilsən! Bizi sıraya düzmüşdülər, almanların bu sözündən sonra, esabam dedi ki, vəlihəddi qoruyun, əli ilə məni arxasına aldı və dedi ki, sən astaca yerə uzan, burdan kimsə sağ çıxmayacaq, sənsə yaşamalısan, törəmizin, tariximizin şahidi qalmalıdır! Hər kəs asta-asta məni çəmbərə aldı, öz arvadım, öz uşaqlarım belə məni çəmbərə aldı, təsəvvür edə bilirsən? Amma mən etiraz belə edə bilməzdim, sakitcə yerə uzanmışdım ki, maşınlarda olan pulamiyotların işə düşməsi bir oldu, minlərlə kasovalı bir necə dəqiqənin içində qətl edildi, asebam, ebam, qağam, arvadım, övladlarım gözümün qabağında güllə-boran edildi. Sonbeşik qızımın 4 yaşı vardı, güllə onu yaralamışdı, amma hələ ölməmişdi, o sudan çıxan balıq kimi qıvranırdı. Alman əsgərləri isə işini bitirib içməyə, gülməyə başladı. Əsəgərlərin başının qarışdığını görüb cəsədlərin arası ilə sürünüb oradan uzaqlaşdım və meşəyə girdim. Əsgərlər yandırıcı silahlarla cəsədləri və evləri yandırırdı. Çönüb ətrafıma baxdım, qonşuluqda olan bütün kəndlər alov içində idi.

– Tanrım, eyni ilə bizim kəndlərimiz kimi sizin kəndlərinizi də yandırıblar! Özü də Novruz bayramında! – Erazın başı ilə onun dediklərini təsdiqlədiyini görüb soruşdu: – Bəs sonra necə oldu?!

– Havalar isindiyindən meşədə gizləndim, lakin havalar soyuduqda şəhərə getmək məcburiyyətində qaldım və tutuldum. Yük qatarları ilə Polşaya, Auşvitz kampına göndərildik. Qəribə idi, kampın qapısında yazılmışdı ki, "əmək özgürləşdirir". Qatardan düşdükdə əsgərlərin müşahətində bir alman zabiti əsirlərə bir anlıq baxaraq, onları sağ tərəfə və ya sol tərəfə yönləndirirdi, məni sağ tərəfə getməmi əmr etdi. Sonra bildik ki, alman zabiti əsirlərə baxaraq bir neçə saniyədə onun yararlı və ya yararsız olmasına qərar verirdi və yarasız hesab etdiyi əsirləri sol tərəfə göndərirdi. Sonra həmin əsirlərin əlinə bir sabun verib hamısını salıblar sözdə hamam deyilən yerə, orada hamısını zəhərli qazla boğaraq xüsusi pecdə yandırıblar. Bizim üçünsə zülüm daha yeni başlayırdı, gündə 12-14 saat fabriklərdə işləyirdik, davam gətirməyənlər taqətdən düşüb ölürdü və ya xəstə olduğundan öldürülürdü, daha sonra xüsusi peçdə yandırılırdı, yəni nə izin qalırdı,

nə tozun, sanki tarix boyu olmamısan. Başa düşürsən Yaşar?! Kül şahidlik edə bilər? Yox! Bax bizi kül edirdilər!

– İlahi...

– Hər şeyi ibliscəsinə hesablayıblar, kampların qapısında yazıblar ki, "əmək özgürləşdirir"...

– Eraz, başa düşmədim, burada ibliscəsinə hesablanan nədir ki?

– İndi izah edərəm! Qapıda seçim edən alman zabiti əslində yaşlıları sol tərəfə göndərirdi, yəni öldürüb yandıracaqları tərəfə, guya onlar işləməyə yararsızdır, amma əslində isə... – susdu.

– Amma nə?!

– Tarixin əsas şahidləri kimdir, yaşlılar. Demək ki, ilk öncə yaşlıları öldürmək lazımdı, amma görüntüdə öldürülmə səbəbi kimi işləməyə yararsız olmaları göstərilir, ardınca yandırılaraq tarixdən izləri silinir! Digərləri üçünsə uzun ölüm dolu əsirlik, səncə belə şəraitdə 20-30 yaşdan yuxarı olanlar bu əziyyətə dözə bilər, sağ qala bilər? Yoxxxx! Bax beləə... Aşgenaz tarixinin bütün şahidləri yox edilir, amma kimsənin ruhu belə duymur! İndi anlayırsanmı, Hitler niyə dünyaya car çəkir ki, mən yahudiləri qırıram? Çünki öldükdən sonra bütün aşgenazları yahudi hesab edəcəklər.

– Tanrım...

– Hə, amma Tanrı hələ mənim ölümümə icazə verməyib ki, qarşıma tələbə yoldaşın Kraus çıxdı, – gülümsündü. – O indi bir alman zabitidir. Mənə gizlincə dedi ki, mayor Karla deyəcək ki, mən karay türküyəm və məndən soruşsa təsdiqləyim. Dediyi kimi mayor Karl məni çağırtdırdı, soruşdu ki, karay türküsənsə, niyə deməmisən, dedim ki, demişəm, amma inanmadılar, Krausun xahişindən sonra, məni bura göndərdilər, sorğu-sual edəcəklər, müəyyənləşdirsinlər ki, karay türküyəm, ya yox?

– Karay türkü olmana inansalar nə olacaq?!

– Almanlar karay türklərinə dəymir, düzdür ilk illərdə onları da qırıblar... – susdu, amma gözlərində axan yaşlar dayanmırdı.

– Bəs indi nə olacaq?

– Aşgenazların tarixini bilənlər yox ediləcək və müharibə bitəcək. – Eraz kinayəli şəkildə gülümsündü.

– Bəs Hitler necə olacaq?

– O öldürüləcək ki, şahid qalmasın! Səncə milyonlarla insanı yandırıb yox edənlər, şahid saxlayar?! Bu yeni dönəmin ağrılı başlanğıcıdır!

– Yeni dönəmmm? – Yaşar təəcüblə soruşdu, – İndi bütün bunları edən kimdir, Amerika, ya Henri Ford və ya başqa biri, kim?

– Bu müharibədən kimlər qalib çıxsa, deməkki, onlar da bunu planlayıbbbb! Bu qədər sadə!

Hər ikisi susdu. Bir müddət belə keçdi. Sonra bir alman əsgəri qapını açdı və soruşdu:

– Karay türkü kimdir?

– Mən. – Eraz pıçıltı ilə deyərək ayağa qalxdı.

– Gedək.

Eraz gətirildiyi otaqda oturmuşdu, qapı açıldı, kapitan Otto içəri girib masada oturdu:

– Adın? – sərt tonla soruşdu.

– Mənim adım Xasaydır... Mən karay türküyəm. – Eraz başını qaldırmadan dedi.

Kapitanın eşitdiyi səs beynində əks-səda verdi, sanki o bu səsi əvvəllər eşitmişdi, amma ya yaddaşında bir problem vardı, ya bu səsdə nəsə çatmırdı, ağlından keçən fikirdən gözləri böyüdü, gözünü sənədlərdən qaldırıb diqqətlə gətirilən əsirə baxdı və zorla pıçıldadı:

– Eras...

Eras qorxa-qorxa başını qaldırıb alman zabitinə baxdı, niyəsə içindən uşaq kimi kövrələrək ağlamaq keçdi, pərt bir halda gülümsündü:

– Professor Otto Müllerrrr, sizsizzzz?

– Bəli, mənəm... Tanrıya şükür ki, sağsan... – pıçıldadı, – Səni türk diviziyasına yazacam! Zəfər bəyə deyəcəm səni qorusun! Başa düşdün? İndisə səni sorğu sual etməliyəm, bir az döz. – kövrək səslə dedi.

# ÇUXURDAKI GÖZLƏR

*Hamı baxır, amma azları görür.*
**K.Çapek**

*Dünya bitər, yalan bitməz.*
**Azərbaycan atalar söz**

Bir müddət sonra bir alman əsgəri məni başqa bir otağa apardı, burada məndən başqa on bir dustaq vardı. Sonradan mənə məlum oldu ki, onlardan səkkizi azərbaycanlı, ikisi tatar, biri türkməndir… – Aslan Yaşarın məktubunu oxumağa davam edirdi...

* * *

Yaşar otaqda oturan dustaqları azərbaycanlılara oxşatdığından asta səslə azərbaycan dilində soruşdu:

– Məni başa düşəniniz var? – çünki rus dilində danışmağa heç həvəsi yoxdu. Son olanlardan sonra onda bircə arzu yaranmışdı, ölmədən öncə bircə kəlmə öz dilində danışsın, öz həmvətəniylə, öz soydaşı ilə bircə kəlmə öz dilində danışma istəyi onun bütün ruhuna hakim kısilmişdi. O yalnız indi anlamışdı ki, ana dili nə deməkdir, ana dilinin şirinliyi, doğmalığı nə deməkdir. İllərcə danışdığı ana dilinin, türk dilinin ona bu qədər əziz olduğunu, canına dərman olduğunu bilməmişdi. İndisə bütün varlığı ilə inanırdı ki, damarlarında türk qanı axan bir soydaşı ilə bircə kəlmə öz dilində danışsa, ruhuna hopmuş bu istirab yüngülləşəcək.

– Hə biz də türkük.

– Mən türk deyiləm, amma azərbaycanlıyam, bir elin oğluyuq, bir torpağın övladıyıq, mənə ləzgi Dadaş deyirlər… – sarışın biri dedi.

Bir başqası:

– Hə, azərbaycan türküyük, qardaş. Bu isə talışdır. Bu ikisi tatar türküdür, bununsa adı üstündədir, türkməndir, – gülümsədi, –

Səndə milli legiona gedirsən?

Yaşarın içindən bir anlıq onlara qarşı nifrət hissi keçdi, onlara demək istədi ki, siz xainsiniz, satqınsınız, siz millətinizi, vətəninizi satırsınız, sizi kimilər biqeyrətdir, əclafdır, amma elə bu vaxt yadına düşdü ki, axı heç o özü bilmir hansı tərəfə inanmaq lazımdır, hansı tərəfdə durmaq onun vətəninə azadlıq gətirəcək. Onu Sovet tərəfinə çəkən tək istək isə qardaşları idi, bir də silahdaş odluğu soydaşları, Yaşarın təzə ixtira etdiyi sözlə desək «həmdillilləri». Özünü ələ alaraq soruşdu:

– Sizdən bir şey soruşmaq istəyirəm, mən o vaxt uşaq idim, hər şeyi ala-toran xatırlayıram. – Üzünü içlərində ən yaşlı azərbaycanlıya tutdu.

– Soruş bala, – gözləri çuxura düşmüş yaşlı azərbaycanlı sakit səslə dedi.

– Ermənilər haqqında nə bilirsiz, bizi o vaxt niyə qırıblar? – Yaşar niyəsə hər kəsin bu haqda şəxsi fikirlərini bilmək istəyirdi.

Yaşlı olan azərbaycanlı onun üzünə baxdı, ağır-ağır başını yelləyərək dedi:

– Hə, bala demək inana bilmirsən?! Bilmirsən hansı tərəfə inanasan?! Qınanılası deyilsən bala, qınanılası olan xalqımızın gözünə kül üfürənlərdir, bizi yuxuya verənlərdir. – Çuxura düşmüş gözlərini Yaşarın gözlərinə dikərək pıçıltı ilə dedi: – Bilmək istəyirsən hansı tərəfdə olmaq xalqımıza azadlıq gətirəcək, hım? – ağzını isteza ilə əydi, – Bala bizim halımız bilirsən nəyə oxşayır. Bir neçə qumarbaz qumar oynayır, ortada qalansa bizik, bizə oynayırlar qumarlarını. Mənim inandığım bircə tərəf var, Məmməd Əmin Rəsulzadə! – o inamla dedi. – Mən onu kimi vətənini, millətini sevən birini görməmişəm. Məmməd Əmin Rəsulzadənin bizə verdiyi Azərbaycan indikindən daha böyükdü. Şərt tək böyüklükdə də deyil, xalqımız parça-paça deyildi. İndisə ölkəmiz itə-qurda pay-pülüş edilib. Mən ona görə, o kişi gedən yolda canımı qoymağa hazıram. Çünki bilirəm ki, onun bütün qayələri bizi, Azərbaycanı xoşbəxt gələcəyə çıxarmaqdır. O xalqımızın düşmənlərini yaxşı tanıyır! – əli ilə Yaşarın əlinə toxundu, – Qaldı ki, hay və erməni məsələsinə, onuda deyim… – o dərindən köks ötürək davam etdi, – deyim başına dönüm. Sən yuxuya verilən azərbaycanlılardan

yalnız birisən, bu dəqiqə xalqın çoxu səni kimidir!

Yaşar onun sözünü kəsdi:

– Tutaq ki, mən cavanam, bəs əvvəlkilər?! Niyə bu millət fil qulağında yatıb?!

– Bala sən düşündüyün, əvvəlkilər dediklərindən artıq kimsə yoxdur! Onlar haqq dünyasındadır! Hamısını qırdılar! Xalqımızın halından hali olanların son, sağ qalanlarınısa basdılar bu davaya. Onlar da bu davada qırılıb, tələf olandan sonra, gələcək nəsillərimizə rusun verəcəyi saxta tarix qalacaq, əgər gələcəkdə xalqımızı yaşamağa qoysalar. – O, yenidən köksünü ötürdü, daha doğrusu elə dərindən nəfəs aldı ki, sanki illərdi havaya həsrətmiş. Yenidən son cümləni təkrarladı, – Əgər gələcəkdə xalqımızı yaşamağa qoysalar!!! Cəbhədə nə olur, özün bilirsən. Bizim milləti səpələyiblər hər yana, ön cəbhəyə, onlarında qırılmasıyla keçmişimizdən az-maz xəbərdar olanlarda itib-batacaq, Şamaxı batan kimi!

Yaşar səbrini basa bilməyib:

– Biz doğurdan da qırıblarmı, ondan danış?! – dedi.

– Hə doğurdan da qırıblar! Rahatlandınmı? İndisə sözümü kəsmə sualına cavab verim, nə deyirsən?

– Bağışla, mən… mən… Danış. – Yaşar fikirini izah edə bilmədən kəkələdədi.

– Səni başa düşürəm, – gözləri çuxura düşmüş kişi söhbətinə davam etdi, – Deyim bil, agah ol, sən cavansan, bəlkə də yadına gəlmir, o illərdə mən də hələ cavandım, elə mənim də bığ yerim təzəcə tərləmişdi. Eh başı bəlalı millətim. – O, dərindən bir ah çəkdi, bir xeyli susdu, sanki dərindən köks ötürərək o illərin acısını çölə atmaq istəydi, – Bədbəxt müsəlman, – deyib yenidən bir of çəkdi. – 1905-1906-cı illərdə, hayların-ermənilərin böyükləri İravanı bizim əlimizdən alıb yerində Hayestan yaratmaq istəyirdilər. Hə, haylar bunu açıq-aşkar car çəkirdilər, qəzetlərdə belə yazırdılar. Bizim baş bilənlər də yazırdı, deyirdi ki, bu boş söhbətdir, biz onlara torpaq verməri k. Biz imkan verməri k ki, bizim torpaqlarda, haradansa gələn haylar və bir ovuc yerli erməni ilə birləşib özlərinə yer eləsin. Belə şey ola bilməz, bu boş xülyadır,

baş bilənlərimiz elə dedyirdi. Bizdə belə deyiləndə dərində ox çəkib sakitləşirdik. Biz nə bilək, hərə öz işi ilə məşğuldu, kəndli kəndində, şəhərli şəhərində bir qarın çörək dərdində idi. Sən demə haylar xalqını öz kilsələrinin ətrafında toplayıbmış, özləri də gizli olaraq silah, sursat yığıb, hətta ordu da yaradıblarmış. Sözümün canı, haylar kilsələri vasitəsi ilə bir mərkəzdə toplaşmışdı. Biz korlar hardan bilək?! Yiyəsiz millətik, kim bizə yiyəlik etdi də, biz onu saymadıq?!

Yaşar əsəbi halda dedi:

– Bu hayları nə şişirdirsən belə? Bir ovuc millətdi. Siz də ordu yaradardız da, niyə imkan verirdiz?!

– Ay başıva dönüm, bala, biz kimiydik ki? Vuruş deyəydilər, niyə vuruşmurduq ki?! Bizim baş bilənlər bizim başımızın altına yastıq qoymaqdan başqa nə bilirdi ki?! Kim bizi birləşdirib dedi ki, «vuruşun, budur düşmən», deyən olmadı axı. Yiyəsizlik pis şeydi bala və biz yiyəsiz qalmışıq! – Yaşarın üzündəki narazı ifadəni görüb əlavə etdi. – Çar Rusiyası hayları, erməniləri öz ordusuna götürürdü, həm də hamısını, bizə belə şeylərə icazə verilmirdi. Müsəlmanlar nə bilirdi ordu-mordu nədir! Başa düşürsən, "ordu xalq" olan türkləri ordusuz, başsız etmişdilər.

– Niyə ki? – içlərindən biri soruşdu.

– Mən nə bilim başına dönüm, niyə Çar köpək oğlu hayı, ermənini orduya yazırdı, bizi yox? Amma görünən o idi ki, rus xristian, hay xristian, ona görə də ruslar bura kənardan gətirdiyi haylara döyüşməyi öyrədir ki, biz müsəlimanları təkləsinlər. – Hər kəsi süzdü, – sonra hayları, erməniləri kilsə ilə bərabər, Daşnak partiyası ətrafına topladılar. Bir də ona gördük ki, deyirlər, erməni müsəlman davası başlanıb.

– Hə, mən də xatırlayıram, "erməni müsəliman davası" söhbətini, amma bir şeyi başa düşmədim. – Yaşar dedi.

– Nəyi başa düşmədin?

– Hamı bu davaya "erməni müsəlman davası" deyir, bəs niyə heç kim kənardan gətirilən haylarım adını çəkmirdi?!

– Çünki, o vaxt millət söhbəti dedikdə din nəzərdə tutulurdu və erməni türkləri xristian olduğundan, erməni sözü xristian mənasında işlədilirdi, müsəlman dedikdə isə türklər, talışlar, ləzgilər, kürdlər nəzərdə tutulurdu. Yəni "erməni müsəlman davası"

deyildikdə əslində "xristian müsəlman davası" nəzərdə tutulurdu.

– Hə, anladım, buyur danış, əmi. – Yaşar dedi.

– Sən demə 1905-ci ildə daşnaklar Bakıya çoxlu erməni yığıbmış.

– Haradan yığıblar? – kimsə soruşdu.

– Belə canım sa desin İraqdan, Suriyadan! Sən demə rus-yapon davasındakı müharibədən qaçan hay-erməni əsgərlərini gizlincə Bakıda toplayaraq, otuz minlik ordu yaradıblarmış. Beləcə erməni ordusu beyqafıl* Bakıya hücüm çəkdilər, qabaqlarına keçən silahsız müsəlmanları qırırlar, – ofuldayaraq başını yellədi – Necə qırdıqlarını, nə murdarlıq elədiklərini sözlə demək mümkün deyil, gərək öz gözlərinlə görəydin bu vəhşilikləri. Əvvəlcə haylar üstünlük əldə edirlər, camaat qarşılıq vermək istəyəndə bizim başbilən dediklərimiz deyir ki, ay camaat səbr edin, dövlət özü işə qarışacaq, qan tökməyək, qoy işi sülhlə qurtaraq. Bizim avam camaat da iki gün gözləyir və bu müddətdə bizimkilərdən qırılan, mal-mülk itirən çox olur. Sonra camaat görür ki, nə dövlət bu işə qarışası döy, nə başbilənlərimiz bir iş görən döy, Allahın adını çəkib ermənilərə hücum çəkirlər. Bu arada bizimkilərə ləzgilər, elatlardan, yaxın yerlərdən müsəlmanlar köməyə gəlir. Ordu görmüş erməni dığaları ilk həmlədəncə üz tutur qaçmağa. Bizimkilər erməni dığalarını təzəcə qırmağa başlayıblarmış ki, ermənilər sülh deyib yalvarır, Allahın, peyğəmbərimiz Məhəmmədin adını çəkirlər. And içib, aman edirlər ki, bu erməni millətinin günahı deyil, bu bir qrup hay dığasının günahıdır. Deyirlər ki, onların heyfini biz fağırlardan almayın! O zamanacan ortada görünməyən dövlət də, bizim başbilənlər də tez ortaya çıxır və sülh bağlanır. Bakıdan sonra mənim yaşadığım Şuşada, sonra Naxçıvanda, İrəvanda hay-ermənilər yenə həmin ordunun qalığını toplayaraq növbə ilə qırğın törədirlər, biz müsəlmanları tamamı ilə məhv etmək istəyirlər, amma hər yerdə də özlərini «şanlı hay övladı» adlandıran erməni dığalarının ordusu məğlub olur. Hər məğlub olduqları şəhərimizdə ermənilər yenidən yalvarıb sülh istəyirlər, hər dəfəsində and-aman edirlər ki, bəhs fağır erməni

* *qəflətən*

milləti bir qrup hay hoqqabazının güdazına gedir. Yenə Bakıdakı kimi ortada olamayan dövlət, bizim başbilənlər ortaya çıxıb sülh bağlayır. Hay-ermənilər 1905-1906-ci il davasında tam məğlub oldular, amma nə olsun? Yiyəmiz olmadı, aldadıldıq.

– Başa düşmədim, o vaxt türkləri qırıblar, ya bütün müsəlimanları qırıblar? – türkmən soruşdu.

– Bayaq da dediyim kimi, o vaxt millət dedikdə, hansı dinə mənsub olmağın nəzərdə tutulurdu və Azərbaycanın əhalisinə ya müsəlimanlar, ya islamlar deyirdilər. Yox əgər söhbət Azərbaycan türklərindən gedirdisə, o zaman Azərbaycan türkü və ya Qafqaz türkləri deyirdilər, əgər müsəlmanlar deyirdilərsə, demək söhbət Azərbaycanda yaşayan bütün müsəlimanlardan gedirdi, yəni ləzgilər, talışlar, müsəlman kürdləri, biz türklər. O vaxt din qardaşlığı qan qardaşlığından üstün tutulurdu. Biri-birimizin toyuna gedir, biri-birimizə qız verirdik, Allahımız bir, dinimiz birdi, sözün qısası müsəlmandıq. Bir də ki islamda millətdən danışmaq yaxşı qarşılanmır, ona görədə türk sözü demək olar ki, işlədilmirdi.

– Haylar niyə hər kəsi qırmaq istəyirdi, mən başa düşmədim? – bayaqkı türkmən yenidən soruşdu.

– Haylar-ermənilər bütün Azərbaycan torpaqlarına iddialı olduqlarından burada yaşayan bütün müsəlmanları qırmaq istəyirdilər. Biz, bütün müsəlmanlar da bu davada biri-birimizə kömək edirdik. Elə bu səbəbdən dava «erməni müsəlman davası» adlanırdı. Yəni bu xaçın və hilalın davası idi. Amma müsəlimanlar yiyəsiz qaldı və xaçlılar qazandı… – Çiyinlərini çəkdi və pıçıldadı, – Bax belə…

– 1905-ci il davasında ermənilər tərəfindən öldürülən müsəlmanlar içində mənim əmim və ailəsidə vardı, onlar Bakıda öldürülüb, atam da ləzgi tayfası ilə birgə Bakıya köməyə getdi, kişi düz deyir, atam deyirdi ki, ermənilər müsəlmanları Bakıda qırıb-çatıb, – ləzgi Dadaş kişinin sözünü təsdiqlədi.

– Sözün qısası, 1905-1906-cı ildə haylar və kilsələri bu dava da məğlub oldu. – yaşlı kişi sözünə davam etdi, – Bütün azərbaycanlıları qırmaq istəyən haylar, ermənilər o vaxt məğlub olaraq aman dilədi. Bizim başbilənlər çara, çar məmurlarına xoş gəlsin deyə susdu, yada susmağa məcbur oldular, bilmirəm. Amma

onda başbilənlərimiz qəzetlərdə hey yazırdı, deyirdilər ki, hayların burada qondarma vətən düzəltməyi boş xulyadır, amma elə olmadı. Başa düşürsən, sonda onlar uddu, biz uduzduq! Sən demə, boş xülya biz deyənmiş, onlar deyən yox.

Tatar türkü hövsələsiz dedi:

– Düşmənə aman verməк olar?!

Əsirlərdən bir başqası dedi:

– De də dilivə qurvan olum, de də.

Amma başbilənlərimiz dedi ki, igid basdığını kəsməz deyib atalarımız. Hətta 1905-1906-ci il davasında qələbə qazandıqdan sonra bizimkilər qəzetlərdə yazdı ki, "hay-erməni milləti baxın, görün biz mərdik, sizi məhv etmədik, amma sizə torpaq da verən deyilik, bu boş xülyadır, bunu yəqin siz də anladınız! Gəlin sülh içində yaşayaq. Ümid edirik ki, bu səhvi gələcəkdə birdə təkrarlamazsınız". O vaxt başbilənlərimiz bax belə dedi, xalqı da arxeyin saldılar.

– Bəs sonra? – həmin tatar ayağa duraraq həyacanla soruşdu.

– Nə olacaq canım, sən demə boş xulya onların yox, bizimkiymiş! – gözü çuxura düşmüş adam əsəbi halda dedi. – Haylar barmaqlarını dişləyib dedi ki, biz harada səhv etdik? Başbilənləri də dedi ki, bəs türkün-müsəlmanın əlində silah olandan sonra, bunlara batmaq olmaz, gərək bundan dərs götürək. Dərs götürdülər də və Rus Çarına nə dedilərsə, Rus Çarı onlara nə dedisə, rus ordusunun kazak əsgərləri bizim camaatın silahlarını yığdı və dedilər ki, həm sizin, həm ermənilərin silahını yığırıq ki, erməni-müsəlman davası birdəfəlik qurtarsın. Camaat necə sevinirdi bir bilsəniz. Hamı çarın ölənlərinə rəhmət oxuyurdu. Deyirdi ki, padşahımız bizim qeydimizə qaldı, artıq qırğın olmayacaq. Yaşasın padşahımız Nikolay! – Başını yellədi, – amma atalarımız yaxşı deyib ki, «sən saydığını say, gör fələk nə sayır», düzdür bəlkə yazıq fələyin bu məsələdən xəbəri yoxdu, – o əsəbi halda gülümsədi, dodağını çeynəyərək söhbətinə davam etdi, – amma hayların, ermənilərin arxalandığı çar və onun ordusundakı köpəkləri artıq saydığını saymışdı. Yenə bizi yuxuya verdilər, sən demə haylar-ermənilər yeni qüvvə toplayırmış, ruslar bunlara əlindən

gəldiyincə köməklik göstəririmiş, silahlandırırmış. 1917-ci il inqilabı baş verəndə, Anadoludan geri çağrılan rus ordusu silahlarını haylara təhvil verdi və rus ordusunda iştirak edən minlərlə hay əsgəri, zabiti geri dönmədi. Beləcə, 1918-ci ildə haylar-ermənilər yenidən bizimkiləri qırmağa başladı. Bu dəfə bizimkilərin əlində silah adını heç nə yoxdu. – Başını buladı, qəhərdən dodaqları əsdi, – Bakıda Şaumyanın sovet-daşnak ordusu, İrəvanda daşnak ordusu xalıqmızı qırdı, mən yüz kənd deyim, sən min kənd deyin, haylar bu kəndləri camaatı ilə birlikdə yandırdı.

Bayaq sual verən türkmən əlini azacıq yuxarı qaldıraraq soruşdu:

– Ermənilərin Bakıda qırğın etməsi mən heç çatmır. Bakı sizin şəhər deyilmi, ermənilər orada türkləri necə qırıb?

Kişi bir an susdu, əli ilə başını qarışdırdı, başını əlləri içinə alaraq danışmağa başladı:

– Oğul, mən 1915-ci ildə bir tikə çörək dalınca Bakıya getdim. Mən gördüklərimi sənə danışım. İnanıb, inanmamaq sənin öz işindir…

– Danış, – hamı bir ağızdan dedi.

– Atalarımız deyir ki, arxalı köpək qurd basır. Dərd də ondadır ki, gör biz nə qədər sahibsizik ki və haylar-erməniləri nə qədər arxalıdır ki, bunlar Bakıda bizi qırma cürətini özlərində tapıblar. Yəni hay-erməni köpəkləri Rus dövlətinə tulalıq etdiyindən Bakıda toplaşmışdılar. Rus komministləri sözdə kasıb dövləti qurmaq istəyirdilər, amma əsl istəkləri Azərbaycanın neftlə, pambıqla zəngin olan torpaqlarıydı, həmdə bu torpaqların onlara bizsiz lazımdı, bu torpaqları bizim kökümüzü kəsərək əldə etmək istəyirdilər. Başa düşürsüz? Azərbaycan onlara azərbaycanlılarsız lazımdı, bizim yerimizi haylarla doldurmaq istəyirdilər, əl tulaları ilə.

1917-ci ildə Rusiyada çevriliş oldu, artıq Car Rusiyası yoxdu. Çara boyun əyən bütün ölkələrdə bu hadisə bir qığılcım yaratdı. Bu hadisədən sonra Bakıdakı bolşeviklərin də ayağı yer almağa başladı. Onlar hər yerdə sözdə yaradılacaq kasıb-kusub dövlətindən danışmağa başladılar. Amma onları bizim millət dəstəkləmirdi, çünki bolşeviklərin böyük əksəriyyəti vaxtı ilə bura doldu-

rulan haylardan və ermənilərdəndi.

Çar Rusiyasının süqutundan sonra bütün ölkələr rus boyunduruğundan çıxmaq istəyirdi. Yeni yaranan Sovet Rusiyası isə yenidən bu ölkələri özünə birləşdirmək isəyirdi. Amma yeni yaranan Sovet ölkəsi hələ çox zəifdi. Buna baxmayaraq Bakıdakı bolşeviklər buranı da Sovetlərə qatmaq istəyirdi, əslində onların ən böyük istəkləri bu idi. Axı onlara neft lazımdı. Dədə Qorqud dastanında olan təpgözə necə ki, insan qanı lazımdı, sovetlərdə bizim qanımız bahasına neftimiz lazımdı.

Onların bu istəyinə baxmayaraq bolşeviklər Bakıda azlıqda idi, beləcə Bakı Sovetinə seçkilərdə bolşeviklər çox aşağı səs aldı, bizim Müsavat partiyası isə hamıdan çox səs topladı. Bununsa tək bir səbəbi vardı, – onun çuxura düşmüş gözlərində bir anlıq sevinc parladı, – milli istək, milli şüur hamıda baş qaldırmışdı. Lakin Müsavat Bakı Sovetinə daxil olmadı, beləcə Bakı Sovetində bolşeviklər, menşeviklər, eserlər və daşnaklar sərbəst qaldı. Bolşeviklər və eserlər İcariyyə Komitəsinə seçildilər. Onlar özlərinə «qırmızı qvardiya» adlı ordu yaratdılar. Ardınca Bakı Soveti iclas keçirdi və Bakıda Sovet hakimiyyətini elan etdi. İcraiyyə Komitəsinin sədri erməni dığası olan Şaumyan seçildi. – O, isteza ilə güldü. – Əslində Sovet hakimiyyətinin elan olunması özbaşına həyata keçirilirdi, çünki xalq qıraqda qalmışdı, bunlar özləri-özlərinə dövlət yaradırdı, soruşan yoxdu bu torpağın sahibi olan xalq nə istəyir?

– Bəs xalq niyə susurdu? – Türkmən əsəbi halda soruşdu.

– Bu dövlət Bakı qarnizonunda olan rus və hay-erməni əsgərlərinin gücünə yaradılmışdı, elə onların gücünə də güvənərək istədikləri havanı çalıb oynayırdılar. Məsələ bunda idi ki, özləri çaldığı havanı özlərindən başqası oynamırdı, amma silahsız xalq nə edə bilərdi ki?! Bakı Soveti silah gücünə qurulmuşdu. Bolşeviklər nəinki Bakıda, ümumiyyətlə Qafqazda keçirilən seçkilərdə heç bir nüfüzü olmadığını görəndən sonra, Bakıda möhkəmlənməyi qərarlaşdırdılar, hamısı Bakıda toplaşdı. 1917-ci ilin dekabrında onlar milli partiyaların təqibi ilə Bakı Sovetinə seçki keçirdilər, beləcə əsas səsləri bolşeviklər və daşnaklar götürdü.

Şaumyan bildirdi ki, İcraiyyə Komitəsinə yalnız Sovet hakimiyyətini müdafiə edən partiyalardan nümayəndələr qəbul olacaq. Sağ eserlər və daşnaklar Şaumyanla razılaşdı. Əslində bunlar hamısı siyası oyundu, bu tarixi dəyişim əvvəlcədən hazırlanmış plana əsasən həyata keçirilirdi.

Bakıda bolşeviklərin varlığı ilə daşnakların varlığı eyni məna kəsb edirdi. Burada Şaumyanın məqsədi kasıbların güzaranını düzəldəcək dövlət qurmaq adı altında, rus və hay-erməni xalqına xidmət edən dövlət qurmaqdı, görünür bu əvvəlcədən Sovet Rusiyası ilə razılaşdırılmışdır, çünki Moskva Şaumyana böyük səlahiyyətlər verib, silah və ordu ilə təmin etmişdi. Az sonra Bakıdakı müsəlmanlar ucdantutma qətl ediləcəkdi, erməni əli ilə, rus gülləsi ilə.

Bu hadisələr ərəfəsində Tiflisdən Bakıya bolşevik ordusu gətirildi ki, bunun da başında yenə bir erməni dığası vardı. Yəni anlayacağın kimi, rusların hərbi dəstəyi ilə Bakıda qurulan Sovet hakimiyyətinin başına hay-erməni qan içənləri yığılırdı. Onlar hər gün daha çox silahlanırdı, güclənirdi. Hakimiyyət sözdə Sovetindi, əslindəsə hakimiyyətdə olanlar hay-ermənilər idi, onların isə məqsədləri, arzuları əvvəlki (1905-1906-ci ildəki) hay-ermənilərdən heç nə ilə fərqlənmirdi. Onların arzusu Azərbaycan torpaqları üstündə heç vaxt olmayan hay-erməni dövlətini qurmaqdı.

1918-ci ildə Bakı iki cəbhəyə bölünmüşdü: hay-erməni, rus əsgərlərindən formalaşan orduya arxalanan bolşeviklər və müsavat partiyasına inanan müsəlman əhalisi. Şaumyan bu vəziyyətdə müsəlmanları tamami ilə məhv edərək Bakıda hay-ermənilərdən və az sayda olan ruslardan ibarət bir dövlət qurmaq istəyirdi. Bu isə onun planlarının yalnız başlanğıcı idi. O, Sovet Rusiyasına neft vermək, əvəzindəsə Moskvanın köməkliyi ilə Azərbaycandakı bütün müsəlmanları məhv edərək Böyük Ermənistan yaratmaq istəyirdi. Əlbəttə ki, bütün bunlar yuxarı ilə razılaşdırılmamış deyildi.

1918-ci ildə Novruz bayramı müsəlmanların burnundan gəldi. Plana uyğun olaraq hay-ermənilər müsəlmanları qırmağa başladı, onlar sözdə Sovet hakimiyyəti üçün vuruşurdu və onları silahla təmin edən həqiqi mənada ruslardı, amma Şaumyanın

Bakıda başlatdığı qətliyamın sərhəddi yoxdu, onlar qabaqlarına çıxan müsəlimanları bir ucdan qırırdı, – onun çuxura düşmüş gözləri sulandı, – rus matrosları da şəhəri gəmi toplarından atəşə tutdu, sonra niyəsə onlar atəşi dayandırdı. Ermənilərsə daha üç gün şəhərin küçələrində müsəlman qanını su yerinə axıtdı, – o otaqdakıları süzdü və niyəsə izah etdi, – yəni türklərin, ləzgilərin, talışların və müsəlman kürdlərin qanını su yerinə axıtdılar. On minlərlə müsəlman qanına qəltan edildi, qətl olunan müsəlimanların demək olar ki, hamısı işgəncələrlə öldürülmüşdü, ya da sonradan cəsədlərin başına min oyun açılmışdı. – O öfkəsindən dodaqlarını gəmirərək dedi: – Meyidlərin başına sonradan oyun açmaq yalnız hayların bacaracağı işdir.

Sovet-daşnak ordusu daha sonra Şamaxıya doğru irəlilədi, müsəlmanları kənd-kənd qıraraq irəlilədi. Şamaxının demək olar ki, bütün kəndləri dağıdıldı. Eyni hadisələr Qubada, Qusarda da həyata keçirildi. Göycay, Kürdəmir, Salyan və Lənkaran da sovet-daşnak ordusundan öz nəsibini aldı. Hay-ermənilər buradakı bütün müsəlmanlara divan tutaraq qırmışdı. Eyni vəhşilikləri Daşnak ordusu İravanda edirdi.

Şaumyan bu qırğınların ardınca Gəncəni məhv etmək üçün rus-erməni ordusuna, Gəncəyə hücum əmri verdi. Əgər Şamuyan Gəncəni də tutsa idi, Böyük Ermənistan dövlətini yaratma yolu onların üzlərinə açılacaqdı. Çünki Şamuyan öz ordusunu İravandakı daşnak ordusuyla birləşdirmək istəyirdi və Gəncədə qələbə qazansa bu niyyətləri baş tutacaqdı, beləliklə Gəncədən İravanacan bütün müsəlmanları məhv edəcəkdilər...

Yaşar eşitdiklərini qavramağa çətinlik çəkirdi. Qəribə olsada, sovet cəbhəsindən şübhələnən Yaşar burada da bu cəbhədən şübhələnir, bütün bunların ona qarşı qurulmuş bir tələ olduğu variantını daim nəzərində saxlayırdı. Eşitdikləri beynində küt ağırlığa çevrilirdi, əsəbləşməyə başlamışdı. Amma hələ də bilmirdi kimə əsəbləşsin, amma olduqca öfkəli idi, axı eşitdiklərindən anladığı bir şey vardı, kimlərsə hiylə işlədib, oyun oynayır, amma hansı cəbhə idi oyun oynayan, bax o bunu qavramaq, bilmək iqdidarında deyildi və bu şübhə ilə də:

– Bizdə tarix oxumuşuq, sənin dediklərin inqilabla bağlıdır.

Sovetləşmə inqilabı zamanı əksinqilabçılarla olan mübarizədən danışırsan sən… – dedi.

Gözləri çuxurda olan adam Yaşarın dediklərindən qəzəbləndi, əsəbindən dodaqları əsdi:

– Oğul, atam balası, sovetləşmə ha? – o əsəbi və kinayəylə soruşdu, – Sovetləşdirmə adı altında hay-ermənilər müsəlmanları məhv edirdi. Erməni dəstələri «beynəlmiləl dəstə» adı altında, qırmızı qvardiya daxilində müsəlmanlara divan tuturdu. Əslində bu Sovet Rusiyasının beynəlmiləlçiliyinin əsil üzünü göstərirdi. Azərbaycanlıların qırılmasına siyasi don geyindirən Rusiya, sovetləşdirmə adı altında hay-ermənilərin müsəlmanları qırmasını dəstəkləyirdi, onları silahlandırırdı. Bunun qarşılığı olaraq Rusiyaya göndərilən Bakı neftinin həcmi 40 dəfədən çox artırılmışdı, başa düşürsən? Hər axıdılan azərbaycanlı qanının əvəzinə Moskvaya daha çox neft gedirdi, məgər bunu başa düşmək çətindirrr? Beləcə hər iki tərəf arzusuna çatmışdı, hay-ermənilər bizim qanımızı içir və əvəzində ruslara neftimizi içizdirirdi. Bu idi Sovet beynəlmiləlçiliyi. Xoşbəxtçilikdən 1918-ci ilin mayında Azərbaycan dövləti yaradıldı, Osmanlı Türkiyəsi köməyə çağırıldı, bu addım atılmasa idi, bir-iki ilə bütün azərbaycanlılar tamamı ilə məhv ediləcəkdi və bizim cəsədlərimiz üzərində həqiqətən də Böyük Ermənistan dövləti qurulacaqdı. Amma doğurdanda Tanrının bizə rəhmi gəldi, doğurdanda «Türkün türkdən başqa dostu yoxdur», Türkiyə köməyə ordu göndərdi. – deyib susdu.

– Sonra nə oldu, danış?! – Hamı təkidlə dedi.

– Məmməd Əmin Rəsulzadənin yaratdığı dövlət sovet-daşnakların niyyətinin puç olması deməkdi, Leninin-Şaumyanın arzu və planlarının məhv olması deməkdi, ona görə də onlar təzə yaranmış Azərbaycan dövlətinin ayağını bərkitməmiş Gəncədə məhv etmək istəyirdilər, bu səbəblədə Gəncə hücumuna tələsirdilər. Tələsirdilər ki, onların arzularını kölgə altına alan Azərbaycan dövlətinin Milli Şurasının oturduğu Gəncə şəhərini məhv etsinlər. Şaumyan yardım üçün Rusiyaya məktublar göndərirdi, amma bu dəfə onlar gecikmişdi. Axı o günü türk türkə dayaq olmuşdu, – çuxura düşmüş gözlərində yenidən sevinc közərdi, – və bütün dünya anlamışdı ki, türk türkə dayaq olub, bu dəfə Azər-

baycanı meydanda məhv edə bilməyəcəklər. Bu səbəbdən də türkə qarşı hiyləyə əl atmalı oldular…

– Nə hiyləsi? – Yaşar soruşdu.

– Ruslar Almaniya ilə Azərbaycanı paylaşma üzrə razılaşmışdı, almanlar Türkiyəyə təzyiq göstərirdi ki, onlar Azərbaycana kömək göstərməməsin. Osmanlı ordusunun Azərbaycana gələ bilməməsi üçün Şaumyan da gürcülərlə danışmışdı, amma bütün bunların heç biri fayda vermədi. Axı dediyim kimi, anlamışdıq ki, türkə türkdən başqa dost yoxdur. Osmanlı türkləri təzyiq və narazılıqlara məhəl qoymadan azərbaycanlı qardaşlarının dadına yetişdi. Şamuyan ordusu yay aylarında əks hücuma başladı, lakin Göycayda sovet-daşnak qoşunları məğlub edildi, geri otuzdurula-otuzdurula Bakıya qədər qovuldu.

Yaşar illər boyu qəhraman kimi tanıdığı Şaumyanın adının belə hallanması ilə razılaşa bilmirdi, ya da bir düşmənə qəhraman deyəcək qədər axmaq olması ilə razılaşa bilmirdi, o qəzəbini boğa bilmədən etiraz edərək dedi:

– Yəni Şaumyan bu qədər qəddar olub?!

Gənc azərbaycanlılardan biridə ürəklənərək dedi:

– Sözün düzü mən bu deyilənlərə inana bilmirəm? Şaumyan haqqında oxuduqlarımız başqa şey deyir, sən tamam başqa bir şey deyirsən. Bir də ki, məncə hər millətin yaxşısı var, pisi var. Yaxşı bir atalar misalımız var, «meşə çaqqalsız olmaz».

Gözü cuxura düşmüş adam onlara baxdı, başını yellədi:

– Bala nə deyim sizə, sizi qınaya da bilmirəm, lənət bizi bu günə salanlara. Atalar belə də deyib «ilanın ağına da lənət, qarasını da». – O, nə qədər Yaşargili qınamaq istəməsə də, anidən ayağa durdu, tərs bir nəzərlə onu süzüb dedi: – Bala, sənin şanına tariflər dediyin Şaumyanın ermənidir və erməni quldurlarının ən amansızlarındandır. O, Bakıdan İravana doğru irəliləyərək bizi məhv etməyə çalışarkən, erməni quldurru Androniki köməyə çağırırdı və qüvvələrini birləşdirməyə səsləyirdi. Sovet beynəlmiləlçiliyinə inanan Nərman Nərimanov, Sovet siyasətinin çar-daşnak siyasətinin davamı olduğunu anlayanda isə artıq gecdi, xalq məhv edilirdi, o Leninə etiraz etdi…

Yaşar onun sözünü kəsrək həyacanla soruşdu:

– Nə oldu? Leninin bu olanlardan xəbəri yoxdu? – O, özünü tanıyandan bəri eşitdiyi sovet qardaşlığının bir hiylə olmasının hələdə dərk edə bilmirdi, Leninə qaxmar çıxmaq istəyirdi.

– Hııı, – kinayə ilə gülümsədi, – Leninin xəbəri yoxmuş ha?! Nəriman Nərimanov rusun oyununu gec anladı, Sovet əsarətini anlayandasa onu öldürdülər. Qaldı sənin «meşə çaqqalsız olmaz» məsəlinə, qoy onun da cavab verim.

– Bu sözə daha nə cavab, hər yerin, hər millətin pisi ola bilər də. – Yaşar onun qabaqladığını düşünüb şəstlə dedi.

– Düz deyirsən atalarımızın elə bir misalı var. Sən də düz deyirsən hər millətin pisi ola bilər. Atalarımız da düz deyib, amma bu məsələ meşəyə aiddir.

– Bu nə deməkdir? Başa düşmədim? – Yaşar təəccüblə soruşdu.

Gözləri cuxura düşmüş kişi istеza ilə gülümsədi:

– Bu o deməkdir ki, meşə çaqqalsız olmaz, bu düzdür, amma haylar və ermənilər çaqqal sürüsü olduğundan onların hamısı çaqqaldır. Yəni bu atalar məsəlinin meşəyə dəxli var, çaqqal sürüsünə dəxli yox, çünki bizim meşələrin çaqqalları elə haylardır.

Yaşar duruxdu, bir söz tapa bilmədi, amma niyəsə o hələ də sovet tərəfini qorumalı olduğuna inanırdı:

– Bəlkə davam edəsən, danış görək sonra nə oldu?

– Sözün düzü sənin belə hərəkətlərini görəndə, sənin mənə inanmadığını görəndə heç nə danışmaq istəmirəm. Di gəl ki, səni qınaya da bilmirəm, o üzdən mən danışacam, yoxsa o dünyada xalqımın gözünə kül üfürənlərlə bir yerdə mən də yanaram, – deyib söhbətinə davam etdi. – Azərbaycana köməyə gələn Osmanlı ordusu sovet-daşnak ordusunu qovaraq Bakıyacan gəlmişdi, düşmən əlində olan Bakı artıq bizimkilər tərəfindən mühasirədə idi, sən demə ruslar yenidən almanlarla danışıqlar apararaq osmanlıların Bakıya girməsinin qarşısını almaq üçün təzyiq göstərməsi barəsində razılaşıblarmış*

– Axı almanlar ilə Sovet Rusiyası düşmən dövlətdir, niyə

---

* *Almaniya və Rusiya arasında 1918-ci il avqustun 27-də gizli müqavilə bağlanmışdır.*

türklərə təzyiq göstərmək barədə razılaşsın? – Yaşarın yalnız indi yadına düşdü ki, bu barədə alman zabiti Otto da demişdi, amma o yenə də iki düşmən tərəfin anidən ortaq razılığa gəlməsini dərk edə bilmirdi və soruşdu. – Düşmən dövlətlər olduqları halda almanlar niyə ruslara kömək etsin ki?

– Çünki onlar nə qədər biri-birinə düşmən olsa da, hər ikisinə Bakı lazımdı. Amma o şəraitdə Bakı nə rusundu, nə almanın, amma onlara Bakı nefti lazımdı. Türküm, osmanlı qardaşlarımız Bakını Şaumyan hökümətindən təmizlədikdən sonrasa öz sahiblərinə, yəni azərbaycanlılara verəcəkdi. Beləcə ruslarla almanlar razılığa gəldi ki, almanlar osmanlı türklərini Bakıya girməyə qoymayacaq, əvəzindəsə Sovet Rusiyası Bakı neftinin dörddə birini almanlara verəcək. Yəni söhbətitimizin əvvəlində dediyim kimi, hamı qumar oynayır, qumara qoyulansa bizik.

– Bəs nə oldu? – gənc azərbaycanlı soruşdu.

– Osmanlı qardaşlarımız düşmənlərin arzularını puç edərək, bizim onların əlində oyuncaq olmağımıza razı olmadı, çünki onlar yaxşı bilirdi ki, bu dünyada türkə türkdən başqası qardaş və dəstək olmaz*. Alman rus razılaşması osmanlı türkləri tərəfindən ifşa olundu və bu razılaşma mənasını itirdi. Beləcə ruslarda Bakı üzərində olan təsirlərini itirmiş oldular. Belə olan halda daşnaklar ingilslərdən kömək istədi, lakin Bakıya gələn ingilis ordusu da azərbaycan-osmanlı ordusu qarşasında acizliyini anlayaraq şəhəri tərk etdi. Sentyabrın 15-də Azərbaycan ordusu, 18-sə Osmanlı ordusu Bakıya girdi. – dodaqları əsə-əsə dedi. – O vaxt osmanlılar köməyə gəlməsə bütün Azərbaycanı daşnaklar qırıb-catacaqdı, indi biz bu kömək nəticəsində yaşayırıq, bu kömək nəticəsində Azərbaycan məhv olmadı. Yoxsa bütün Azərbaycan hayın-erməninin əliylə qətl edilib, Ermənistan adıyla da Sovet dövlətinin tərkibinə girəcəkdi. Amma Türkiyənin köməyi ilə bizim xalqımız yox oluşdan qurtuldu. Azərbaycan cümhuriyyəti möhkəmləndi, Çar Rusiyası tərəfindən əzilən xalqımızın öz ordusunu yaratdı, ana dilimiz, türk dili dövlət dili kimi qəbul olundu. Bu hadisələr

* *1918-ci il sentyabrın 15-də Osmanlı Azərbaycan ordu birləşməsi olan «İslam ordusu» tərəfindən Bakı azad edilmişdir.*

Daşnak dövlətini qorxuya salırdı. Dövlətimiz güclənmədən haylar Qərbi Azərbaycanın müsəliman əhalisini tamami ilə qırmaq istəyirsi, bu məqsədiylə yenidən bizim ellərə soxulub qırğınlara başladılar. Ordumuz 1919-cu ildə Zəngəzurda müsəliman qətliamı edən daşnak ordusunu məğlub etdi, amma haylara yenə rəhm edildi. Qana qan alınmadı.

Ruslar yeni yaradılmış Azərbaycan dövlətini dağıtmaq üçün bir vaxtlar Muğana köçürdükləri ruslardan istifadə etdi, ruslar milli hökümətə qarşı çıxaraq qondarma Sovet Muğan Respublikası yaratdılar, lakin ordumuz bu qondarma Muğan Rus Respublikasını da dığıtdı*.

1920-ci ilin martında, Novruz bayramı gecəsi, Əsgarandakı ermənilər Ermənistandan gəlmiş nizami daşnak ordusu ilə birləşərək qiyam qaldırdı, Aprelin ilk günlərində onlar ordumuz tərəfindən məğlub edildi, ardınca Şuşa qalası hay-erməni qiyamçılarından təmizləndi. Amma yenə aman diləyən haylara rəhm edildi. Bəlkə də elə buna görə dövlətimizin ömrü çox qısa oldu, – gözü çuxura düşmüş adamın gözləri sanki bir azda çuxura batdı. – Həmçinin Osmanlı qoşunları Güney Azərbaycanda** yaşayan qardaşlarımızı ölümün ağuşundan aldı, amma mən bunun təfsilatını bilmirəm.

– Bəs necə oldu ki, ruslar bizim torpaqları işğal etdi? – bayaqkı gənc azərbaycanlı soruşdu.

– Sovet Rusiyası yavaş-yavaş güclənirdi. Sovet Rusiyası Daşnak dövləti ilə razılaşmış olacaq ki, sovet ordusunun bizə hücumundan əvvəl, 1920-ci ilin martında hay-ermənilər Qarabağda dövlətimizə qarşı üsyan etdilər, həmçinin onlar Qazaxa və Naxçıvana da hücumlar etməyə başladı. Belə olan halda dövlətimiz rusların Dağıstan tərəfdən hücumunu gözləsədə, xalqı hay-erməni təcavüzündən qurtarmaq üçün ordu həmin ərazilərə göndərildi. Azərbaycanın Dağıstan sərhədləri müdafiyəsiz qaldı. Azərbaycan ordusu daşnak ordusunu yenidən, ikinci dəfə Zəngəzurda məğlub etdi, amma bu zaman ruslar hay-ermənilərin köməyinə

---

* *Azərbaycan ordusu 1919-cu il avqustun 12-də Lənkaranı tutaraq rusların yaratdığı qondarma Sovet Muğan Respublikasını devirmişdir.*

** *Cənubi Azərbaycanda*

yetişərək  Azərbaycanın işğalına başladı. Amma dövlətimiz vaxtında rəhimli olmayıb,  hay-ermənilərə divan tutsa idi, onlar ikinci dəfə ayağa qalxa bilməzdi və ordumuz parçalanmazdı. Buda rəhmimizin  sonu…  – o kösünü ötürərək susdu.

Bayaqdan söhbətə qulaq asan ləzgi dedi:

– Düz deyirsən «ilan ulduz görməsə ölməz». Gərək bu ermənilərin kökü onda kəsiləydi. 1918-ci ildə Qubada da eyni qırğınları törədiblər, qabaqlarına çıxan kəndləri yerlə-yeksan ediblər, qonşu kənddə hamının bir nəfər kimi başını kəsmişdilər. – Əsəbindən üz-gözü əsdi, – Digər  bir kənd də isə  yaralı, ölü demədən hamını basdırmışdılar. Bizim kəndə də Hamazaspın dəstəsi* hücum etdi, silahımız olduğundan atışdıq, bir neçə dəfə hücum etsələr də, kəndimiz dağın başında olduğundan tuta bilmədilər. Erməni vəhşiliklərini öz gözlərimlə görmüşəm, onlar insan deyil.

– Bəs sonra? – Yaşar beynində yarımçıq qalan mənzərəni tamamlamaq istəyirdi.

– Mən Lənkarandanam,  mənə talış Hüseyin deyirlər, – bayaqdan sakitcə söhbətə qulaq asan Hüseyin söhbətə qarışdı, – 1918, 1919-cu ildə erməni daşnakları Lənkəranda bir salamat kənd qoymadı, rus matrosları isə gəmilərdən vura biləcəkləri hər yeri top atəşinə tuturdular, neçə kəndi oda verdilər. Sağ qalanlar əsasən dağa, meşəyə qaçanlar oldu. Neçə kəndə demişdilər ki, bizi ərzaqla təmin etsəniz sizə toxunmayacıyıq, sonra məlum oldu ki, məqsədləri camaatı arxayın salmaq olub,  qaçmayanların hamısını qırmışdılar. Lənkəran camaatı İrandakı ingilis konsulundan daşnakları dayandırması üçün  köməklik göstərməsini  xahiş

** Hamazasp Srvandzyan  1905-1906, 1918-ci ildə  (Van, İravan, Şuşa  şəhərlərində yaşayan) müsəlman əhaliyə qarşı qətliamlar törədən  hay-erməni silahlı  dəstələrinin iştirakçılarından və rəhbərlərindən biri olmuşdur. O 1918-ci ildə  Qubada törədilən qətliamda da iştirak etmişdir. 1918-ci il, 25 apreldə Bakı Kommunası yarandıqda  Bakıya gələrək, dəstəsi ilə  daşnak ermənilərinə birləşmişdi, Qafqaz İslam Ordusuna qarşı aparılan hərbi əməliyyatlarda öz dəstəsi ilə birlikdə iştirak etmişdir. Bakı Qafqaz İslam Ordusu tərəfindən tutulduğu zaman qaçaraq İran tərəfdən  İravana keçmiş, Ermənistan Respublikasının  qurulmasında  öz qanlı əməlləri ilə yaxından iştirak etmişdir. 1921-ci  ildə açıq-aşkar o qədər cinayət törədir ki, bolşeviklər onu həbs etməyə məcbur olur və həbsxanada müəmalı şəkildə balta ilə öldürülür.*

etdi, lakin heç bir tədbir görülmədi. Qırğınlar yalnız 1919-cu ilin yayında Camal paşanın başçılığı ilə köməyə gələn türk ordusunundan sonra dayandı. – Hər kəsi süzərək dedi: – Bu arada qeyd edim ki, ən şiddətli qırğınlar 1918-ci ilin mart ayında oldu, yəni Novruz bayramı ərəfəsində.

Hər kəs susmuşdu, səssizliyi türkmən pozdu:

– Bəs sonra nə oldu?

Yaşlı azərbaycanlı dedi:

– Nuru Paşanın komandanlığı altında köməyə gələn türk ordusu Azərbaycanı yox oluşdan qurtardı, amma I Dünya müharibəsində məğlub olan Osmanlıya ordusunu Azərbaycandan geri cəkməsi tələb olundu. Beləcə, 1920-ci ilin aprelində ruslar Azərbaycana sahib oldu. Ermənilərin bu köməyinin qarşılığı olaraq rus ordusu onlara şərait yaratdı ki, onlar yenidən İravanda, Zəngəzurda, Göycədə qırğınlar etsin, türkləri, müsəlman kürdlərini bütünlüklə məhv etsin və beləliklə yüzlərlə müsəlman kəndi yenidən məhv edildi. Qəstdən ləngiyən rus ordusu ora girəndə türk-müsəliman əhalisi qətl edilmiş əraziləri yeni yaradacaqları Ermənistan Sovet Resbuplikasının sərhədlərinə daxil etdi. Beləcə bu günkü Ermənistan dövləti yarandı. Yox, – o öz sözünə etiraz etdi, – yaranmadı, yaradılar! Bax, bir vaxtlar boş xülyadır deyilən hay dövləti beləcə quruldu. – Üzünü Yaşara tutdu, – İndi görürsənmi bizim üstümüzdə necə oyunlar qururlar? Hələ Naxçıvanıda qondarma Ermənistan dövlətinə qatacaqdılar. Bunu ona görə etmək istəyirdilər ki, bizimlə Osamanlı türklərinin quru əlaqəsini kəssinlər, Türkiyə Naxçıvan qırğınının baş verməsinə imkan vermədi.

Bayaq sual verən gənc azərbaycanlı yenə soruşdu:

– Türkiyə kömək edirdi, axıra kimi kömək edəydi də?

– Eh a bala, o vaxt yazıq Tükiyənin üstünə neçə dövlət düşmüşdü, o halda bizə kömək etmələri belə möcüzə idi. Guya qumara qoyulan tək Azərbaycandımı?! Bütün türk dünyası qumara qoyulmuşdu, Turan və İslam məhv edilsin deyə! Xristiyan dövlətləri hərəsi bir yana dartışdırırdı Türkiyəni. Birinci dünya müharibəsində Türkiyə uduzmuş tərəfdə idi, onunla belə onlar türk qardaşlarına mümükün köməyi etmişdilər. Naxçıvanın haylara

verilməsinə görə kimlər kömək etmirdi ki, haylara? İngilislər, amerkanlar Naxçıvanı hay-erməni idarəçiliyinə vermək istəyirdi*. Yəni bütün xristian dövlətləri biz türklərə düşməndi. Səndə deyirsən ki, Türkiyə kömək edirsə axıracan kömək edəydi. Bacarsa niyə etmirdi ki? – kədərdən səsi titrədi.

Tatar türkü qəzəbindən əlini divara vuraraq dedi:

– Bizim başımıza nə gəlibsə elə rəhmimiz ucbatından gəlib. Bu hayları niyə vaxtında qırmırdınız ki? Axı onlar ələrinə düşən hər imkanda türkü, müsəlmanı qırıb. İntiqamı rəhmlə qarışdırmaq olmaz. İntiqam amansız olmalıdır! Ruslar ilk imkandaca bizi məhv etdi, krım türklərini qırıb çatdı, sürdü. Bəs bizim şah damarımız Osmanlı niyə belə rəhimli oldu? Bəs biz türklərin intiqamını kim, nə vaxt alacaq?!

Yaşar Krım tatarının dediklərini eşitdikdən sonra key-key soruşdu:

– Ruslar sizidəmi qırıb?! Ruslar bütün türklərimi qırıb?!

Türkmən başını bulayaraq dedi:

– Qazaxıstanda Sovet Respublikası qurulduqdan sonra aclıqdan 3 milyona yaxın türk öldü, əslində öldürüldü deyilməlidir və beləliklə Qazaxıstanda türklər azlıq halına salındı! Türkmənistanda da Sovet Respublikası qurulduqdan sonra xalqı qolçomaq adı altında, kolektivləşmə adı altında, kolxozlaşma adı altında qırdılar, burdan ora sürdülər. Bütün bu hadisələrdə ruslarla bərabər erməni bolşevikləri də iştirak edirdi. Erməni bolşeviklər biz türkmənləri qırıb çatdı. Mən belə başa düşürəm ki, hər yerdə eyni oyunu oynayırlar, müxtəlif adlar altında türkləri qırırlar, onları öz torpaqlarında azlıq halına salırlar!

Hər kəs biri-birinin üzünə baxdı, Yaşar niyəsə gözlərini yayındırıb yerə dikdi, – Hamımız qurbanıq! – deyə pıçıldadı.

Bir müddət otaq sükuta qərq oldu, amma Yaşar yaşadığı saxta dünya ilə eşitdiklərinin arasında əzab çəkirdi və yenə susa bilməyib gözləri çüxüra düşmüş adama baxaraq:

---

* *(1919-cu ilin may-iyul aylarında İngilis komandanlığınını razılığı və iştirakıyla Naxçıvan erməni idarəçiliyinə verildi. Naxçıvan əhalisi iyulun 25-i hücuma keçərək hay-erməni qoşunlarını məğlub etdi və erməni idarəçiliyi iflasa uğradı)*

– Bəs sən bunları haradan bilirsən? – deyə soruşdu və niyəsə fikrini izah etdi, – Çünki hadisələri təfsilatı ilə bilirsən.

– Çünki mən də 1918-ci ildə qurulan Azərbaycan ordusunun əsgərlərindən biri idim. Çünki mənim ailəm də Şuşada haylar, ermənilər tərəfindən vəhşicəsinə öldürülüb, amma biz Şuşaya köməyə gedəndə, bizi o murdar haylların, ermənilərin kökünü kəsməyə qoymadılar. – Dişlərini qıcayaraq dedi, – Lənət olsun, qardaşımın üzüyünü barmağına taxmış ermənini belə öldürməyə qoymadılar. O isə yəqin ki, mənim qardaşımı min cür vəşiliklə öldürdükdən sonra üzüyünü çıxarıb barmağına taxmışdı.

– Sənin ailəndəmi haylar tərəfindən öldürülübbbb? Necə olub, danış?! – Yaşar qəzəb və təəcüblə soruşdu.

Gözləri çuxura düşmüş adam Yaşara baxdı, bir müddət susdu, bir neçə dəfə gözünü qırpdı, dərindən köks ötürdü:

– Ah Şuşa, Şuşaaaa. Haradan başlayım danışmağa? – deyə özü-özünə sual verdi.

# QANLI NOVRUZ

*Çinin qədim mənbələrindən məlum olur ki, Novruz bayramı hunların qeyd etdiyi bir bayramdır. Beləliklə Novruz bayramının kökünün Zərdüşlüklə, daha doğrusu atəşpərəstliklə bağlanması fikiri öz mənasını itirir. Və Novruz bayramının hələ hunlar zamanında belə keçirilməsi və çinlilərin diqqətini çəkəcək qədər təmtəraqlı bayram olması, onun nə qədər uzaq keçmişə və böyük coğrafiyaya yayıldığını və Novruz bayramının məhz türklərin milli bayramı olduğunu bir daha təsdiqləyir. Ön türklərin 2 böyük bayramı olmuşdur: – NOVRUZ və QORDOGAN-GÜNDOĞAN. Bunlardan biri martın 21-də keçirilən NOVRUZ(ENİ-QOR-AS) bayramı idi. İddia olunur ki "Novruz" fars sözü olub – NOV və RUZ sözlərinin birləşməsindən formalaşıb "yeni gün" deməkdir. Qeyd edək ki, NOVRUZ sözü fars dilində formalaşsa "no ruz" kimi yox "ruz e no" kimi ifadə edilməlidir. "Novruz" sözü ön türkcədə "ENİ-QOR-AS~NOQRAS" kimi formalaşıb – hərfi mənada "yeni günəş isti" sözlərindən formalaşıb, "günəşin yenidən isinməsi-canlanması" deməkdir. Makedonyalı İsgəndərin yürüyüşləri zamanında əsl Avesta yandırıldıqdan sonra Sasanilər zamanında Avesta saxtalaşdırılaraq FARSLAŞDIRILMIŞDIR. NOVRUZ və AVESTA fars adına çıxılmışdır.*

*İslamdan sonra Novruza islam atributlarının qatıldığı kimi, görünür Zərduşlük dövründədə (FARS Zərdüştlüyündə) qədim Novruzu atəşpərəstlik diniylə bağlamağa çalışmışdılar. Çox qəribə olsada Novruzu biz yalnız bahar bayramı kimi keçirdiyimiz vaxtlarda, haylar (və havadarları) türk-müsəliman qırğınlarını Novruz bayramı günü etməyə xüsusi özən göstərmişdilər. Hayların türk-müsəliman qırğınlarını Novruz bayramına salması görən təsadüfmü idi? Təsadüf mən biləni bir dəfə olar, hay-ermənilər XX əsrdə etdikləri türk-müsəlman qırğınları hər dəfəsində Novruz bayramına təsadüf etmişdir. Buna ən böyük misal 1918-ci il martın 18-21 tarixində hay-ermənilərin törətdiyi Bakı qırğınıdır. Bu təzə təqvimlə Martın 29-31 tarixinə təsadüf etməsi bəzilərini*

*çaşdırır, əslində isə bizim millətі qıranlar, o günün təqvimi ilə bizim Novruzumuzu türk qanına boyayıblar və məqsədləri bayramımızı yasa boğmaq idi! Bəs hay-ermənilər niyə Novruz bayramını türkə qara gətirirdi? Qəribə olsa da günümüzdə bir çox qrup xarici təsirlərə uyaraq Novruz bayramından imtina edir!*

*Məncə, bu haqda düşünmək vaxtıdır…*

*Əlindən gəlsə adamı bir qaşıq suda boğar*
**Türk atalar sözü.**

*Çay quşu çay daşıyla vurular!*
***Azə*rbaycan atalar sözü.**

… Şuşalılar Novruz bayramına yaxşıca hazırlaşmışdı. Son illərdə olan qanı qadanı, zorluqları, erməni vəhşiliklərini unudaraq 1920-ci ilin Novruz bayramına hazırlaşmışdılar. Axı il təzələnirdi, onlarda keçmişdə baş vermiş fəlakətləri unudaraq, bayramı xoş əhvalla qarşılamaq istəyirdilər ki, üzlərinə gələn il yaxşı olsun. Hər şuşalı öz evinin qarşısında bayram tonqalı qalamışdı. Bütün küçələr bu ahəng içində idi, küçələrdə hər evin qarşısında bayram tonqalı qalanmışdı. Bayram tonqalları içində Şuşa işıl-işıl parlayırdı. Tək Şuşadamı, bütün türk ellərində novruz tonqalı şaxə qalıxmışdı, bunu görən birinə elə gələrdi ki, türklər kimi həmrəy, birlik olan başqa kimsə ola bilməz. Bu birlik olan yerdəsə kimsə türklərə zaval yetirə bilməz, çünki bütün yaxın-uzaq türk ellərində bu anda Novruz tonqalları qalanmış. Bu nə deməkdi? Bu, bizim kökümüz, keçmişimiş, sevincimiz eynidir, deməkdi! Amma türklərin ocaqları tək-tək söndürülürdü…

– Qağa, – bayram süfrəsi arxasında oturmuş Tural dilləndi.

Şəkərburanın son dişləyini udan Teymur qardaşının üzünə baxaraq:

– Hə, nə olub? – dedi.

Bayram olmasına baxmayaraq, bayaqdan bəri bir loxma ağzına almayan Tural kədərli gözlərini yanan şamlarda gəzdirərək:

– Bizim belə, – əlini uzadaraq bayram süfrəsini göstərdi, – heç nə olmamış kimi bayram keçirməyimiz ürəyimdən deyil! Axı

neçə novruzdur soydaşlarımızın qanı axıdılır, bu yanan şam kimi yandırılıblar, bizsə bu günü intiqam almaq əvəzinə, heç nə olmamış kimi bayram keçiririk!

Həlimə ana söhbətə qarışdı:

– Bala nə danışırsan?! Mənim ürəyim qan ağlamırmı? – O, gözündən yanağına süzülən yaşı əlinin üstü ilə sildi, – amma nə vaxtacan qan töküləcək?! Lənətə gəlmiş haylara və üzü qara ermənilərə bu zülmlərə, qırğınlara görə Allah özü bilir nə edəcək! Bizsə onlara baxıb gərək insanlığımızı unutmayaq. Bu gün bizim bayramımızdır, bu gün xoş keçməlidir ki, ilmiz yaxşı gəlsin! – Həlimə ananın üzünə xoş təbəssüm qondu. – Oğul balam axı il təzələnir!

Tural kövrəldi, bayaqdan sulanmış gözlərindən yaşlar süzülməyə başladı:

– Niyə müsəlmanlar başa düşmür ki, bizim Novruz bayramımız çoxdandır haylar tərəfindən qara gətirilib, bu qara silinməyincə bizim ilimiz yaxşı gələn deyil! – o hıçqıraraq dedi, – Bizim Novruzumuz çoxdan qara gəlib!!!

– Ay bala qurban olum sənə, ağlama, ürəyim dözmür. Bayram axşamında belə şeylər danışma. – Həlima ana dilləndi, – gözəl şeylər danışın, gözəl şeylər olsun, sən Allah!

– Niyə ana? Döz, mənim göz yaşıma da döz! Mənim göz yaşım axır, amma haylar çoxdandır müsəlman tayfasının qanını axıdır, – bağırdı, – qanımızı axıdır, bizsə bunu unutmaq istəyirik. Axıdılan qanlara dözən, göz yaşına dözməyə də məhkumdur! O zaman göz yaşınada döz ana!

– Ə uşaq olma, – bayaqdan səbrini basan Teymur söhbətə müdaxilə etdi, – haylar nə qələt edibsə ordumuz cavabını verib, onlarda bildi bizim tayfanın dişi, dırnağı nədir, haylar daha elə qələtlərlər etməz! – Qardaşının gözlərinin içinə baxdı, – Daha nə olmalıdır? Daha nə istəyirsən ki? Daşnak ordusu məğlub oldu dana. Daha nəəəə?

– Qağa, – O, boğulurdu, danışa bilmirdi, üzünü yana çevirərək göz yaşlarını biləyi ilə silib dedi, – hayları, satılmış erməniləri biz dəfələrlə məğlub etmişik, onların ilk sızlamasında

da onları bağışlamışıq, amma onlar yenidən eyni qələtləri edib. İkincisidə ki, onlar yüzlərlə kəndimizi, sakinləri ilə bir yerdə qırıb, özündə bilirsən ki, necə qırıblar. Biz onları məğlub edəndə onların etdiklərinin hansısının qısasını almışıq?! – Özü də cavabladı: – Heç birinin. Ordumuz keçən il Zəngəzurda müsəlmanları qıran hayları, daşnak ordusunu məğlub etdi, bəs sonra nə oldu? Onlara hansı toyu tutduq? Meydanda üç-beş hay əsgərinin qırılması nə qısasdır, nə ölənlərimizin qan haqqıdır! Ölənlərimizin qanı hələdə yerdədir! Ölən körpələrin fəryadlarını biz eşitməsək də, göylərdə dolanır. Axı, onların fəryadını biz hələ eşitməmişik və biz eşidilmədikcə də o fəryadlar göy üzündə dolanıb duracaq! – Əlini səməniyə uzadaraq dedi: – Onların bizi öz bayramımızda, öz el-obamızda qırması bütün müsəlmanlara sataşmaqdır, bu bizə meydan oxumaqdır, biz isə onları geri otuzduran kimi rəhm edirik, niyə?

– Nə deyirsən, biz də onlarımı qıraq? Biz də hay olaq, necə ki ermənilər hay olub? Sən nə qansızsanmış?! – qardaşı onun üstünə qışqırdı.

– Qağa, – o səsini ucaltdı, – toyuq, çüçə damına daraşan çaqqal yalnız öləndə oradan əl cəkir, bunu sən məndən də yaxşı bilirsən. Atalarımız necə deyib, «dəli dəlinin comağını görməyincə çomağını gizlətməz»!

– Bəsdir anamın, arvad-uşaqların yanında səy-səy danışma. – O, əlini masanın üstünə vurdu. – Haylar şərəfsizdi, ermənilər satqındı, bizdə qansız olaq? Qanı qan ilə yumaq bizə yaraşmaz! – o bağırdı, – Başa düşdünnn?!

– Bala haylarda, ermənilər də insan döyülmü, bağışlamaq Allahdandır! – Həlimə ana söhbətə qarışdı, – onların da Allahı var, onların da da Allah evi var, nə olar bizdə məsciddir, onlarda kilsə, ikisi də Allahın evi döyülmü bala?! Ermənilər azmış olsa da öz qanımızdan döyülmü?!

– Ana, hay-erməni quldurlarına rəhbərliyi elə kilsə edir, elələrinin Allahı ola bilməz! Ana bir kilsə ki, insanların, qadınların, onu da keç, uşaqların, onuda keç körpələrin qırılmasına fitva verir, mən elə yerə Allahın evi deyə bilmərəm, mən elə yerə desəmdesəm qəssabxana deyə bilərəm, özüdə insan qəssabxanası! İn-

san qəssabxanası da deyəndə ki, müsəlman-türk qəssabxanasıdır onların kilsəsi, elə yerdə Allahın nə işi var?! Ora İblis yuvasıdır! Onlar Allah məhfumunu bilmirlər, ana! Qaldı ermənilərə, onlar haylara qardaş deyən gün öz soylarından imtina ediblər, ona görə də onlara Allahın rəhmindən pay olmaz!

Qardaşı ayağa qalxaraq əllərini yenidən masaya çırpdı, bağıraraq dedi:

– Sənə dedim qurtar! Bayram axşamı qanımızı qaraltma! Bayram axşamı yaxşı şeylər danışılar, sənsə yapışmısan qırğından, qandan! Qəssab belə gəldi, cəllad elə getdi! Bəsdir dedim sənə! Eşitdin?! – o qardaşına bozardı.

Tural hiss etdi ki, daha bir an da burda dursa bağrı çatlayacaq, daha qardaşı ilə söz güləşdirmək istəmədiyindən çölə çıxdı. Amma bircə şey onun ağlından çıxmırdı: – Yəni xalqımın bayramlarının qara gəlməsinin günahkarı mənəm?

Qardaşı Turalın arxasınca deyindi:

– Nə oldusa keçmişdə qaldı. Sabah yeni gün gözləyir bizi. Ermənilər də insandır, belə lap haylar da insandı! – niyəsə son cümləni qardaşının acığına dedi.

Tural ilk dəfə onun sözünün bitməsini gözləmədən çölə çıxdı. Eyvanda, pilləkanın başında oturdu. Başını yuxarı qaldıraraq göyə baxdı. Ayın üzündə qəribə qızartaqlıq vardı, Tural bu qızartaqlıqdan üşünən kimi oldu, tez gözünü aydan çəkərək baxışlarını hansısa bir yerə dikmək istəyirdi ki, şəhərin bitəcəyində yanan böyük alovlar onun diqqətini çəkdi. Gecənin səssizliyində qəribə küy eşidilirdi. Ara sırasa güllə səsləri eşidilməyə başladı. Tural diqqətlə o tərəfə baxdı, birdən ürəyinə qəribə bir təlaş düşdü, həyacanla qışqırdı:

– Qağa, ay qağa, tez bəri gəl! Tezzz!

– Nədir ay zalım, qurtarmadın sən? – Teymur deyinə-deyinə eşiyə çıxdı, tərs-tərs qardaşına baxdı.

– Qağa şəhərin bitəcəyində yanan… – o sözünün dalını deməyə cürət etmədi, sanki deyəcəyi sözlər hayları bəd əməllər görməyə vadar edəcəkdi.

Teymur o tərəfə ötəri baxaraq:

– Sənin başın xarab olub, nədir, yoxsa demək istəyirsən ermənilər Şuşaya hücum edib?  Yananlarda  bayram tonqalı yox, evlərdir? Eləmi? Ayə, sən nə təhər adamsan?!

– O böyüklükdə tonqal olar?  Küyü sən də eşitmirsən, bax yenə güllə atdılar.

– Niyə olmur ki, biz ondan da böyük tonqallar qalayırdıq. Yəqin cavanların səsidir. Gülləni də yəqin onlar… – onun sözü ağzında qaldı, diqqətlə  alovların böyüklüyünə baxdı, yalnız pıçıldaya bildi, –  Haylar… Ermənilər…!

Haylar-ermənilər əvvəlcə səssizcə erməni məhlələri tərəfdən müsəlmanların evlərinə doluşmağa başladılar. Heç nədən xəbəri olmayan, silahsız müsəlmanlar bayaram süfrəsi başındaca qılıncdan keçirilməyə başlandı. Qadınların, körpələrin səsi biri-birinə qarışdı. Xoş sabaha açılacaq Novruz bayramı yenidən müsəlman-türk qanına boyanırdı.

Cəmi bir il əvvəl Azərbaycan ordusu daşnakları Zəngəzurda məğlub etmişdi, sonrasa hay-erməni caqqallarının and-amanına inanaraq problemləri danışıqlar yolu ilə həll olunacağına inanaraq geri çəkilmişdi. Bu gün, cəmi bir saat əvvəl şuşalılar da, illərdi  olan qan-qadanı unutmaq istəmişdi, hay-erməni yamanlığını unutmaq istəmişdi, xoş əhval-ruhiyyə ilə bayram keçirmək istəmişdi. Bu da türklərin Novruz bayramının sonu! Neçə illərdi türkün burnundan gətirilən Novruz bayramından daha biri...

Atışma getdikcə gücləndi, haylar Şuşanın bütün küçələrinə dolmuşdu. Teymur dədə-bavadan qalma xəncəri əlinə götürdü, qapıya tərəf yüyürdü. Artıq fəryad-qışqırıb  onların küçəsini də başına götürmüşdü. Hayların-ermənilərin  «müsəlmanlara ölüm» qışqırıqları və tük ürəpədici qəh-qəhələri eşidilirdi.

Yan qonşunun həyətindən erməni səsi gəlirdi:

– Ara bayramınızı tabrık edirəm, kutlu olsun bayramınız. – O, haylaşmış boğazda azərbaycan türkcəsində danışırdı. – Bax, sizə Bakının neftini gətirmişəm. Görün neca yanacaq? – O, bir qab nefti qonşu Güllər xalanın üstünə tökdü və əlindəki məhşəli ona yaxınlaşdırması ilə Gülər xala yanıb tutuşdu. – Ara gör necə yanır?! – ucadan gülməyə başladı, – Ara lap Kərəm kimi yanır. Baxın! – erməni yoldaşlarına səsləndi. – Müsəlimanlara ölüm!

Gülər xalanın əri Barış aldığı ağır qılınc zərbələrindən yerində cabalayırdı, kömək etmə iqtidarında deyildi, ölmək üzrə idi, amma şüuru hələ başından çıxmamışdı və gözləri yanan Gülərdə idi, yanan Güllərin alovu onun gözündə əks edirdi. Yalnız bu sözü deyə bildi: – Tanrı mənim körpələrimə kömək ol! – Bu pıçıltını bəlkə də kimsə eşitmədi, amma bu pıçıltını Şuşa göylərində öfkə ilə süzən Türk baba lap aydınca eşitdi. Tanrısa yaratdığı insanların üz qarası olan hayların, ermənilərin əməllərini hələ də səbrlə izləyirdi. Axı, daha qiyamətə vardı...

Digər bir erməni gülərək:

– Ara Petros bu müsəlimanlar heç bela Novruz keçirmiyiblar, bunlar qanmazdılar. Bax Novruz tonqalı nə yaxşı qaçır. Canlı Novruz tonqalı… – o yanaraq saga-sola qaçan Güləri göstərdi.

Güllər xala alovlar içində fəryad edərək həyətin ortasında qaçırdı, onun yanan bədəninin alovları havanı yalayaraq yuxarıya doğru qalxırdı:

– Tanrım haradasan? Allah sənə lənət etsin Petros!

Petros Barışa ilk qılıc zərbəsini vuran və Güllərin üstünə nöyüt tökən erməni idi. O, Şuşa ermənisi idi, Barışla guya ki, dostluq edirdi. Axı onun Barışa can borcu vardı. 1906-cı ildə haylar Şuşada türkləri qırmaq istəmişdi, amma iki gün sonra özləri üz tutmuşdular qaçmağa. Onda Barışgil qonşuları Petrosgili öz evlərində gizlətmişdi. Qonşuları Alı kişi qapılarına girərək dedmişdi ki, erməniləri ver, hamısını qıracam. Bilirsən ki, ermənilər mənim bütün ailəmi yandırıb. Barışsa yalvarıb demişdi ki, Alı qan lazımdısa mənim qanımı al, bunların nə günahı var? Allah haylara lənət etsin, ermənilərin nə günahı var!? Alı da daha bu ermənilərə heç nə etməmişdi.

Gülər yerə yıxılmışdı, bədəni hələdə yanmaqda idi, hələ ölməmişdi, can verirdi, sudan çıxmış balıq kimi qıvrılırdı. Körpə qızı anasının belə halını görüb səsini daha da ucaldaraq ağlamağa başladı:

– Ana, ana! Petros əmi niyə... – körpənin səsi xırldayaraq kəsildi. Petrosun tüfənginin süngüsü onun sinəsini deşərək arxasından çıxdı. Petros tüfəngi başının üstünə qaldıraraq körpəni yerə

yıxılmış anasının yanan ağuşuna atdı. Körpəni bircə anın içində alov bürüdü. Digər haylar, ermənilər evdəki digər beş nəfəri qılıncdan keçirdi, ermənilərdən biri bağırdı:

– Ara, orada sağ müsəlman var?

– Ara, sən müsəlmanın sağını neynəyirsən? – onlardan biri qəh-qəhə çəkərək soruşdu.

– Görərsən nə edirəm, var? Mənə sağ qalmış bir müsəliman lazımdır!

– Hə biri qalıb! – Şüşaya köməyə gələn haylardan biri dedi.

– Dəymə, indi gəlirəm. – O, xəncərini çəkib anasının ağuşunda yanıb qaxac olmuş körpənin budundan bir tikə kəsərək xəncərin ucuna keçirdi, – Ara, gətirim sağ qalan turka kabab yedizdirək, axı onlar kababı xoşlayır, – deyib, ucadan qəh-qəhə çəkdi.

Tural xəncəri çəkərək özunu Barışgilin həyətlərinə atdı, qapıya yaxın olan ermənini arxadan tutmağı ilə bıcağı boğazına çəkməyi bir oldu. Sonra atılaraq daha iki nəfəri ürəyindən xəncərlədi. Xəncəri sonuncunun ürəyinə saplamazdan əvvəl bir əli ilə ağzını tutdu, sonra xəncəri ürəyindən bir az yana sapladı. Yavaş-yavaş xəncəri üç dəfə burdu və bu anda diqqətlə hayın gözlərinə baxdı, onun gözündəki yalvarışı gördükdə, onun üzünə tüpürərək xəncəri çıxarıb ürəyinə sapladı. Daha iki erməni qalmışdı, Petros və bir nəfər. Onlar evdə Barışın ailəsini işgəncələrlə doğrayırdı. Tural ehmalca içəri girdi.

Petros Barşın böyük qızını süngü ilə şişləyirdi:

– İt qızı, niya özünü xəncarladın? Mən axı səninlə… Nə allahsız kızsan? – o əsəbi halda bağırıdı, əsəbindən ağzından köpük axırdı.

Digər erməni Barışın artıq öldürdüyü oğlunun burnunu kəsirdi. Birdən ona baxan qəzəbli baxışları hiss etmiş olacaq ki, başını yuxarı qaldırdı, Turalı görən kimi bağırdı:

– Petros kömək eləəəə. – xırıldadı, ağzından qan gəldi. Tural xəncəri onun boğazına çəkdi, qan Turalın üzünə fışqırdı.

Petros geri çönərək Turalı gördü, silahını ona doğru tuşlamaq istədi, amma hiss etdi ki, qolları sözünə baxmır, Turalın sərt baxışları sanki ürəyinə sancıldı, ayaqları əsirdi, dili topuq vurmağa başladı:

– Tural sənsən... – o zavallı səslə dilləndi. Nə edəcəyini bilmədi, əlindəki tüfəngə baxdı, gücünü toplayaraq tüfəngini qaldıraraq Turala atəş açdı.

Tural yana sıcrayaraq onun üstünə doğru qaçdı. Güllə onun qolunu sıyırmışdı. Petros çaxmağı hərləyərək gülləni lüləyə vermək istədi, əli əsirdi. Turalın onunla üzbəüz olduğunu görüb tez tüfəngi yerə atdı:

– Tural qurban olum, öldurma manı. Bax tüfangı da atdım, ha. Man qalat eladım. Türklar basdığın kasmır. Ha?! – O yalvarıcı baxışla onun üzünə baxdı.

– İtoğlu, bayaqdan müsəlman deyirdin, indi türk olduğum yadına düşdü?! İtuşağı sizi sağ qoymaq olmaz! – Tural var qüvvəsi ilə ona kəllə vurdu, Petrosun burnundan qan açıldı. O zarıyaraq ağlamağa başladı:

– Biz qonşuyuq. – Turalın üzünə baxdı, – İkimiz də türkük! Bağışla məni, Tural qadan alım. Pox yemişəm. Mənim körpələrimə bağışla, – təmiz Azərbaycan ləhcəsi ilə dedi.

– Əəəə, şərəfsiz, ömür boyu hay boğazı ilə danışmısan, indi nə yaxşı dilin açıldı, türk boğazı ilə danışırsan?! İndi yadına düşüb türk olduğun? Öldürdüklərin türk deyildi, o türklərin körpələri yox idi, öldürdükləriniz içində körpə yox idimi?! İndi səni körpələrinəmi bağışlayım?! İt soyu, sənnənəm? – Tural onun üzünə tüpürdü, ani baxışla yerdə uzanan Barışın övladlarına baxdı, sonra öz sinəsinə xəncər saplamış Barışın böyük qızı Gülzara baxdı. Xəncəri Petrosun qulağına çəkdi, onun qulağı yerə düşdü. Sonra xəncəri Petrosun qarnına soxaraq yavaş-yavaş yuxarıya doğru çəkməyə başladı və bağırdı:

– Gözlərimə bax, it oğlu. Baxxx.

Ölüm anında belə Petros qorxusundan Turalın sözlərinə əməl etdi. Tural xəncəri onun xitdəyinəcən çəkdikdən sonra leşini yerə atdı. Əyilib Gülzara baxdı, onun qanından əlinə çəkib üzünə yaxdı və pıçıldadı:

– Bağışla, sözümə xılaf çıxdım, sənə sahib çıxa bilmədim, qoruya bilmədim. – barmağındakı üzüyə baxdı, bir an dondu, sonra ani cəldliklə ermənilərin tüfənglərini, patrondaşlarını yığıb

həyətlərinə tərəf tələsdi.

Teymur orağı evə girən ilk ermənininin boğazına sancdı. İkinci erməni dönüb qaçdı. Tural evə girmişdi ki, qaçan erməni bir dəstə hay ilə onların evini mühasirəyə aldı. Atışma başladı. Bir müddət sonra Turalgilin gülləsi qurtardı. Bunu anlayan haylar və ermənilər evə doluşmağa başladı. Turalın qəzəbini, kinini silaha çevirmək mümkün olsaydı dünyada bir dənə də olsun sağ hay, erməni qalmazdı, amma bu mümkün deyildi. Turalın gücü ona dəyən güllələrə məhəl qoymadan önünə çıxan iki hayı xəncərləməyə yetdi. Teymur əlindəki baltanı üçüncü ermənin alnına sapladı, erməni gülləsi isə onun ürəyinin başından tutdu.

Arxadan gələn Şuşalı Muxanın gözləri Həlimə ananın gözlərinə sataşdı, bircə anlıq duruxdu, niyəsə utandı, yanında olan hayların baxışını üzərində hiss etdi, Həlimə ananın baxışlarını görməmək üçün gözünü yumub, dişlərini biri-birinə sıxaraq Həlimə anaya tərəf cumdu. Həlimə ana bircə addımda geri çəkilmədən qəzəblə bağırdı:

– Evmizdə kəsdiyin duz çörək gözünü tutsun Muxa. Allah sizə qənim olsun!

Muxa Həlimə ananı qılıncladı, Həlimə ananın qanı səməninin üstünə töküldü. Yaşıl, ümid dolu səməni türk qanına boyandı, özü də Novruz bayramında. Qırmızı boyanmış Novruz yumurtaları türk-müsəliman qanına boyandı. Səhərə hələ çox vardı, təzə ilin bayram axşamı yenə türk qanına boyanmışdı… Digər türklər, müsəlmanlar isə mışıl-mışıl yatmaqda idi…

Bir erməni quldurunun gözü Turalın barmağındakı üzüyə sataşdı, əyilib Turalın barmağından üzüyü çıxarmağa çalışdı, amma üzük çıxmırdı. Erməni quldurу bıçıqla Turalın barmağını kəsdi, sonra üzüyü çıxarıb öz barmağına taxdı, gülümsəyərək:

– Hə yaraşdı, – dedi və bir xeyli üzüyə baxdı.

Bütün Şuşa od-alov içində idi, öldürülmüş şuşalıların ruhları göy üzünə doğru uçunurdu…

Şuşalıların həvəslə gözlədiyi Novruz beləcə gəlib keçdi, onlar yaxşı söhbətlər danışıb, gözəl əhval-ruhiyədə olmaq istəyirdilər ki, üzlərinə gözəl, yaxşı bir il gəlsin! Novruzun səhəri gün, günəş həmişə olduğu kimi doğdu. Qiyamət əlaməti olaraq günəş

qərbdən deyil, yenə həmişəki kimi şərqdən doğdu. Amma günəş yanıb, viran qalmış, səmənilər qana boyanmış, özləri qanına qəltan olunmuş Şuşanın üstünə doğdu. O günü Novruzu türklər, müsəlmanlar Şuşada bax belə keçirdilər...

Turalgilin ruhları öz cəsədləri arasında gəzinirdi. Həlimə ananın ruhu göy üzündən onlara sarı gələn bir dəstə ruhu görüb soruşdu:

– Siz kimsiz?

– Mənim də adım Həlimədir – ruhlardan biri dedi. – Biri də yunanlar İzmirdə qırıb çatıb keçən il.

Tural onların qanı qurumaya yaralarına baxıb soruşdu:

– Yaralarınızın qanı bir ildi qurumayıb?

– Yox, qisasımız alınmadıqca qanımız qurumayacaq. – hamısı birdən cavabladı:

– Gedəkmi?

Onların ruhu göyə qalxdı, bütün Şuşa od-alov içində idi. Şuşanın üstündə nə qədər ruh vardı, İlahi...

…Gözü çuxurda olan kişi dərindən köks ötürdü və pıçıldadı:

- Şuşanın qanı hələ də yerdədir! Tək Şuşamı, bütün Azərbaycanın qanı yerdədədir! Bədbəxt millətik, yiyəsi olmayan… – səssizcə ağlamağa başladı.

# MƏN KİMSƏDƏN DEYİLƏM

*Yuxarı baxırsan bığ, aşağı baxırsan saqqal.*
**Azərbaycan atalar sözü.**

Bu yerdə deyiblər «Qurda rəhm etdim qoyunun ahına düşdüm». Bizim rəhm, humanizim, beynəlmilləçilik adlandırdığız anlayışlar bu haylara, ermənilərə aid deyil, biz onlara rəhm etmişik, amma qanı yerdə qalmış qardaşlarımız bizi bağışlamayacaq. Elə ona görə də bu günə düşmüşük, – kimsə pıçıldadı.

– Hə düz deyirsən,– Yaşardan başqa hamısı bir ağızdan dilləndi.

– Qanı tökülmüş türklərin, müsəlmanların qanı alınmadan türklərə, müsəlmanlara xoşbəxtçilik yoxdur, – bunusa deyən gözü çuxura düşmüş adamdı.

Bu vaxt qapı açıldı, Eraz, Zəfər bəy və Otto içəri girdi. Zəfər bəy dustaqları süzərək dedi:

– Aslanlarıma pis baxmamısan ki, cənab Otto? Bunlar Azərbaycanı düşmənlərdən almaqda bizə kömək göstərəcəklər. Türklər birlik oldumu bilirsən də necə döyüşürlər? – Ottonun üzünə baxaraq gülümsədi.

– Əlbəttə, onların yeməkləri qaydasında verilib, axı onlar artıq sizin döyüşcülərinizdir. Yalnız bir nəfər, – O, Yaşarı göstərdi, – Sovet ordusu haqqında mühüm məlumatlar bilməsinə baxmayaraq bizimlə razılığa gəlmədi, məlumat bizim müttəfiqliyimiz qədər mühümdür, bilirsiniz? Əmr verilib, hücuma hazırlaşırıq, bu səbəbdən bu an düşmən haqqında istənilən məlumat bizim üçün daha dəyərlidir. Mən onu ətraflı danışıb başa saldım, lakin razı sala bilmədim. Bir balaca incidiblər onu. – Axrıncı cümləni mızıldandı.

Zəfər bəy Yaşarı süzdü və onun bu halda belə əzəmətli görünən bədəninə heyrət edərək:

– Cənab Otto, sən nə etmisən? Sən bilmirsən belə aslanlar bizə necə lazımdır?! Ən əsası isə o türkdür. Türkü türkdən yax-

şı kim anlaya bilər? Məni gözləyə bilməzdiniz? Unutma ki, türk danışmayacağını beyninə qoyubsa danışmaz. Siz ki, bunu bilməliydiniz?

– Artıq türklərdə olan mətanətə, iradəyə şübhəm yoxdur. Mən bacardığım qədər onu qorudum, təəssüf ki, belə oldu.

– Bəs səbəb nədir? – Zəfər bəy təəccüblə soruşdu.

– Özündən soruşun.

Zəfər bəy Yaşara daha da yaxınlaşaraq osmanlı və azərbaycan türkcəsinin qarışığı bir ləhcə ilə soruşdu:

– Aslanım, bu nə işdir? Cənab Otto səninlə danışmışmı? Rusların əsl üzünü sənə söyləmiş, doğrudurmu?

– Bəli, Zəfər bəy danışdı.

– Sən yenəmi o komminist hiyləsinə inanırsan? Yenəmi bizim xalqımızın düşməni olan sovetləri dəstəkləmək fikirindəsən?

– Bilmirəm, yəqin ki yox! – Yaşar mahsumcasına dedi.

– O zaman demək ki, Azərbaycanı, vətənimizi ruslardan almaqda bizimləsən!

– Bu mümkün deyil! –Yaşar başını yelləyərək dedi.

– Nədən?

– Mənim qardaşlarım sovet sərhəddindədir, onlara bu danışdışıqlarımızı anlatmaq olmaz. Onları satsam onların hamısı ölər, amma təslim olmazlar. Bu səbəbdən də mən kimsədən deyiləm!

– Niyə? Anlamadım səni. – Zəfər bəy təəcüblə dedi.

– Səncə sənin türk dediyin, mənimsə azərbaycanlı dediym igidlər öz qardaşlarını, silahdaşlarını satar? – Yaşar düşdüyü vəziyyətin əsəbi ilə soruşdu.

– Yox türkün qardaşlarına xəyanət etməsi müşkül məsələdir. – Zəfər bəy onun dediyini təsdiqlədi.

– Qarşı cəbhədə mənim iki qardaşım və soydaşlarım var! Bəs mən onları necə sata bilərəm?! Ölmək daha yaxşıdır.

– Bəs sən niyə təslim oldun?

Yaşar hər şeyin tez bitməsi üçün və eşitdiyi doğma səsə qarşı nadürüst olmaq istəmədiyi üçün dedi:

– Düşmənin içinə sızmaq və daha sonra…

– Tamam, anladım. Fazlası gərəkməz. Anladım. Şimdi nə edək? – o alnını ovuşdurdu.

– Əslində ölmək istəyirəm.  Başqa bir arzum yoxdur. Çünki bu hadisələr məni çarəsiz hala saldı, əlim qolum bağlı qaldı.

– Yazıq. Olmaz. Şimdi sən bilə-bilə  qardaşlarının, silahdaşlarının ölümünə səbəb olmamaq üçünmü dözdün bu işgəncələrə?

– Bəli! Həm də bizim hissə bütünlüyü ilə azərbaycanlılar, tatarlar, özbəklər və türkmənlərdən təşkil olunub. Əgər türklər sənə bu qədər əhəmiyyətlidirsə, onda düşün  o türkləri qırmaq sizi də sizlatmazmı? – Yaşar kövrəldiyini bildirməmək üçün var gücü ilə çalışırdı.

– Necə? – Zəfər bəy qəzəblə, səsi əsərək dedi: – Bəzən almanların irəlilədiyi yerlərdə  ölmüş sovet əsgərlərinin cəsədlərinə baxıram, əksəriyəti bizim türklərə bənzəyir, yəni anlayacağın kimi ön cəbhədəki  sövet əsgərlərinin çoğunluğu müsəlmandır, türkdür. Sovetlərdə olan müsəlmanların çoğunluğusa yenə kimdir? – özü cavabladı, –  Türk milləti. Hər səngərdə eyni olay. Bunlar türkləri önə basıb qırmaq istəyir. İstəyirlər ki, sonra ruslara boş meydan qalsın. İt soyu! – bağırdı, sonra dönüb  Ottoya dedi: – Bunların hamısını yola salmaq üçün  hazırlasınlar, bizim milli legiona  aparacam. Bu  oğlanla axşam yenidən danışmaq istəyirəm, əvvəlcə səninlə işim var. – Zəfər bəy qaşlarını oynadaraq, son sözləri qəribə tərzdə dedi, – Bunlara yaxşı yemək versinlər, bilirsən yolumuz uzun olacaq!

– Yaxşı, Gedək. – Otto gülümsünərək Zəfər bəyə baxdı, əli ilə Zəfər bəyin dediklərinin əməl olunmasını təsdiqlədi və dedi: – Əmri yernə yetirin.

– Hə yadımdan az qala çıxmışdı, –  Zəfər bəy  yenidən dilləndi, – Otto  Yaşarın yaralarına baxsınlar!

Otto gülümsündü:

- Yaşarla bağlı narahat olma  Zəfər bəy, gördüyün kimi lazimi bütün tibbi yardım edilib! – Pıçıldadı, – Əlimdə olsa buna imkan verməzdim!

Yeməkdən sonra Yaşargilin söhbət üçün bolluca vaxtları vardı. Yaşar gözləri çuxura düşmüş adamandan soruşdu:

– Qardaş bayaqdan kaplaşırıq*, adını soruşmağı da unutdum. Adın nədir?

---

* *kap etmək – söhbət edirik;   «kap» sözü Azərbaycanda  yalnız dialektdə qalıb, Asiya türklərindəsə bu söz çox işləkdir*

– Mənim adım Azaddır. Atam qoyub bu adı mənə. O, xalqını azad görmək istəyirdi. O, mənə bu adı qoyanda kimsə onu başa duşməyib, hamı deyirmiş bu nə addır qoymusan a kişi. Çünki o vaxtlar belə ad qoymurlarmış, deyəsən elə ilk dəfə mənə qoyulub bu ad. Atam da kimsəyə bir söz deyə bilmirmiş, amma lap yaxınlarına deyirmiş ki, tayfamı* azad görmək istəyirəm. O vaxtlarda çarın qılıncının qabağı da kəsirmiş, dalı da. Hamı deyib, a kişi sən nə danışırsan, padşahımız olmadan vay bizim halımıza. O da daha heç nə demirmiş. Bu da azadlığımız. Millətimi param parça ediblər, çardan qurtardıq, sovetlərə kölə olduq.

Yaşar niyəsə qəsdən dedi:

– Axı niyə elə deyirsən, camaata nə lazımdır ediblər. Yer veriblər, kolxoz yaradıblar, traktor veriblər. Zavod, fabrik tikiblər, camaatı işlə təmin ediblər. Bu almanlar olmasa idi, – sözünün bu hissəsini pıçıltı ilə dedi, – başımızı salıb dolanırdıq da.

– Dərd də bundadır da, başımızı salıb dolanırdıq. Söz dedin də, – Azad xüsusi vurğu ilə dedi, – bizə yer veriblər! Harada veriblər bizə yeri? Bir soruşan yoxdurmu? Öz torpağımızdan bizə bir tikə yer veriblər, daha bilmirik nə edək! Elə ağız dolusu deyirik ki, bu sözləri, əsl məsələnin necə olduğunu düşünmək belə istəmirik? Bunu da qoyaq qırağa, bala sual verim sənə, verdiklərini niyə verib?

– Necə bəyəm? – Yaşar heç nə anlamadı.

– Bala bu Sovet köpəkuşağı da bizi işlədir, sonra hər şeyimizi çar kimi əlimizdən alır da, o qədərini verib ki, ölməyək. Ölsək kim işləyəcək bəs! Bunu anlamaq çox çətindir?

– Hamıya bölür ki, hamı bərabər olsun da! Azərbaycanda artıq olanı başqa yerlərə göndərir, əvəzinə bizdə olmayanları da başqa yerdən bizə verir! Pis edir məyər?

– Bala hamı bərabər olsun e, daha bizim yurdları niyə haya, erməniyə verdilər? Daha bizim yurdları niyə gürcüyə verdilər, Dərbəndimizi niyə verdilər? Bunun bərabərliklə nə dəxli var?! – onun sifət əzaları əsəbdən əsirdi, – Kim gəlibsə bizi qul-kölə edib

---

* *millət; XX əsrin ilk onilliklərincən Azərbaycanda «millət, xalq» sözü əvəzinə «tayfa» sözü daha işlək olmuşdur.*

bala! Allahın adını çəkərək gələn ərəblər belə xalqımı qul-kölə etmişdi! Ta ki, Babək yetər dedi! – Başı ilə qapını göstərdi, – bala həmişəki kimi bunlara da qul lazımdır. Həmişə qula yemək veriblər ki, işlətsinlər, bunlar da verir. Həyatın qanunu belədir, ya öz şahın var, ya başqasına qulsan!

– Biz də hər halda tarix oxumuşuq Azad əmi, – o qələbə qazanmış sərkərdələrə məxsus tonla dedi bu sözləri. – Nə vaxtdan qullara təhsil verirlər?! Elə isə bəlkə deyəsən, bizə niyə təhsil verirlər?! – gənc azərbaycanlı soruşdu.

– Oxumaq, oxumaq. – Azad bu sözü təkrarladı, bircə anlıq susdu, gözünü dikəldib diqqətlə yoldaşlarına baxaraq əlavə etdi. – Bala, siz hələ kor savadla savadın fərqini bilmirsiz, deyilənləri əzbərləməklə düşünmək arasındakı fərqi bilmirsiz! – Başını buladı, – Yox siz heç nə bilmirsiz! Tarix boyu hər imperiya əsarətə aldığı xalqa kor savad verib. Amma zamana uyğun olaraq, dövrə üyğun olaraq, şəraitə uyğun olaraq bu təlim-tərbiyə fərqli olub! Başa düşürsüz nədən danışıram, həə? – əlini silkələyərək yoldaşlarına dedi, – Dövr olub, hökmdarlar deyib biz tanrıyıq! Vaxt olub deyiblər tanrının övladıyıq! Sonra deyiblər bizi tanrı seçib! Sonrasa insanları qanunlarla qorxutmağa başlayıblar! Və bu dedikləri idealogiyanı insanların ağlına salmaq üçün, insanların sərbəst düşünmə qabiliyyətlərini əllərindən almaq üçün, onlara kor savad veriblər. Axı insanlara öz qanunlarını, öz idealogiyalarını əzbərlətmək üçün təhsil vermək lazımdır! Axı savadsızı idarə etməkdən, kor savadlını idarə etmək daha asandır! Yəni hər zaman insana kor biliklər verilib və veriləcək! Bizə verilən təhsil o biliklərdir ki, bizi düşünmə iqtidarından uzaq tutsun, bizi əmrlərə tabe edən oyuncağa çevirsin! – Qəribə əda ilə gülümsündü, – Sizə sadə, lakin dahiyanə bir sirr verim? – Hamını süzdü.

Yaşar dilxor halda dedi:

– De görək, ürəyimizi üzmə! – Hamıda onun dediyini təkrarladı.

– O zaman deyim! Əslində təhsildə bir dindir! İncili oxuyub, onun dediyi tanrıya qul olursan, Quranı oxuyub onun dediyi tanrıya qul olursan, mühasir elimləri oxuyursan və… və… və bu elimlərin gözə görünməz ideyasına qul olursan! Başa düşürsüz,

nədən danışıram?

– Qəribədir! Belə çıxır ki, ateizim də bir dindir? Sənin dediyindən bu məntiq çıxır?! – Yaşar soruşdu.

– Səncə də elə deyil? Tanrıya inanmaq bir idealogiyadır, inanmamaq isə başqa bir idealogiyadır, elə deyil? Əslində ən qatı din, dinsizlikdir?! – güldü, – Dinsizliyin peyğəmbəri olmaq daha asandır! Çünki dinin izlədiyi, sadiq qaldığı bir ana mətn var, dinsizliyin mətnini isə hər saxta peyğəmbər öz istədiyi kimi yaza, poza, dəyişə bilər! – Gülümsədi, amma gözündən yaş axırdı, – Lenin kimi, Stalin kimi, Hitler kimi, peyğəmbərləri gizli olan Amerika kimi! İndi başa düşürsüz, niyə bizə təhsil verirlər? Ateizimin dini mətinlərini oxutsunlar deyə. Bax belə!

– Söhbət haradan haraya gəldi. – gənc azərbaycanlı heyranlıqla dedi.

– Əslində söhbət elə budur! Sadəcə kor savad bizi kor edir! Hansı imperiya əsarətə aldığı xalqın gənclərinə hərbi təlim vermirdi? Verirdi! Amma əvvəlcə onların kütbeyinlərini, yalnız əmrə tabe olanlarını seçirdi, sonra təlimlər verirdi, başqa ölkələri öz əsarətinə almaq üçün onlardan istifadə edirdi! Sənin sovetlərin nə edir? Bizi elə tərbiyə edirlər ki, bizə elə təhsil verirlər ki, biz qullar yeni əmək alətlərini işlədə bilək, amma öz tariximizi bilməyək! Yəni bizə zamanın tələbinə uyğun olaraq yeni alətləri işlədə biləcəyimiz qədərini öyrədirlər! Yəni anlayacağınız kimi biz də quluq, amma bir az savadlı qullarıq, yəni hər zamankı kimi kor savadlı qullarıq. Zəmanə quluyuq!

– Kor savad deyəndə nəyi nəzərdə tutursan ki?! Bəlkə bir az açasan, – bayaqkı gənc azərbaycanlı dedi.

– Kor savad odur ki, baxırsan amma görmürsən. Yaşayırsan, amma kamilləşmirsən. İşləyirsən, əməyi sevirsən, gecəni gündüzünə qatıb yaradırsan, amma o əmək sənə yox, bir başqasına fayda verir! Kor savad o deməkdir ki, oxuyub alim olursan, amma ixtiraların öz xalqına deyil, sənin xalqını qul edənlərə fayda verir! Biz guya tarixi bilirik?! Amma millətimiz kimdir bilmirik! Dövlət sözunu, vətən sözünü, bunlara xəyanətin nə demək olduğunu bilirik, amma vətəninin kimlərə isə pay edilməsini bərabər-

lik deyə başa düşürük! Çünki sovet dövləti bizi kor savadlı edib! – Azad istehza ilə gülümsündü, – Bizə öyrədilən elm xalqımıza xidmət etmək üçün deyil, sovetlərə xidmət etmək üçündür! İndi öküzü traktor əvəz edib, onda öküzə kotan qoşub yer şumlayan kəndli, indi gərək traktor sürə bilsin ki, yeri şumlasın, bəs başqa çür olsa traktoru kim sürəsidi, traktoru kim təmir edəsidir? Atalarımız bu yerdə deyib «sən ağa, mən ağa, bəs inəkləri kim sağa?!». Başa düşürsənmi nə deyirəm?! – Azad kədərli və çuxura düşmüş gözləriylə Yaşara və digərlərinə baxdı. – Yəni bizə öyrədilən elm hələ yenilik demək deyil! Sədəcə zaman öküzü traktorla dəyişdirdiyindən bunu bizə öyrədirlər. – Bu sözləri deyən dostu Qədiri xatırladı, bir anlıq susdu, sonra söhbətinə qayıtdı, – Bu işlərin qazancını da, faydasını da yenə bizə ağalıq edənlər götürür! Bizi elə təhsil verirlər ki, biz burnumuzun ucunu görməyək. Bala, lap elə sən deyən traktoru götürək, biz bu traktorun nefti kimiyik, yanırıq, qara tüstüyə çevrilirik, amma onun sürənsə rusdur, almandır, amerikadır, bizi hara istəyir sürür, nə istəyir əkir, bu yoldasa biz yanacağıq. Necə ki, onlara bizim neftimiz lazımdır. Dostum Qədir, həmişə belə deyirdi ki, atın yüyəni sənin əlində döyülsə, o at səninki döyül! İndi bizim vətənimizin də, dövlətin də yüyəni bizim əlimizdə döyül, millətində yüyəni öz əlində döy, başa düşürsüz?!

Yaşar Azadın dediklərinə qulaq asaraq düşünürdü: «Azadın dedikləri olduqca qulağa inandırıcı gəlir, bu söhbətin doğru olduğunu, ya hiylə olduğunu dəqiqləşdirməksə çox çətindir». Amma niyəsə insan şübhələndiyi şeyin sonunu görmədən inana bilərmi? Yaşar da heç bir nəticəyə gələ bilmədiyindən söhbəti dəyişərək, Azaddan soruşdu:

– Osmanlı türklərinin bizə köməyə gəldiyini dəqiq bilirsən? Və ya hansı niyyətlə köməyə gəlmişdilər?!

– Dediyim kimi mən 1918-dən 1920-ci iləcən təzə yaranan Azərbaycan dövlətinin ordusunda vuruşurdum. Bizim ordunun yaranması və formalaşması isə köməyə gələn osmanlı ordusu ilə bağlı idi. Bizə ilk təlimləri keçən də, bizi silahlandıran da onlar olmuşdu. Təlimlər zamanı mən bir osmanlı zabiti ilə dostlaşdım. O əsgərlərini canından çox sevirdi. Bəlkə də bu ona görə idi ki,

onun bu dünyada daha başqa kimsəsi yox idi.

– Niyə, onun qohum-əqrabası yox idi? – Yaşar hələ də Azadın söhbətində nəsə səhv axtarırdı.

Azadın gözləri doldu, dodaqları əsərək:

– Niyə? – Yaşarın son sualını kinayə ilə təkrarlayan Azad cavab verdi: – Çünki Osmanlının zor günlərində yüz minlərlə türk, kürd kimi oda orduya çağırılmışdı və bir gün geri dönəndəsə artıq kəndindən geri qalan kül və yanmış insanlardı. Oraları haylar, yunanlar yandırmışdı, viran qoymuşdu. Beləcə, o türk zabitinin bütün keçmişindən, ona yaxın olan canlı, cansız nə vardısa, hamısından ona geri qalan yanıb külü göyə sovrulan kənddi! Yanıb külə dönmüş kənd!

Yaşar səbəbini özü də bilmədən ayağa qalxaraq:

– Yox ola bilməz! Bu qədər də ağ olmaz! Bayaq deyirsən haylardan, ermənilərdən, nə bilim daşnaklardan bizi qurtaran osmanlıdır, indi deyirsən haylar elə güclü dövlətin insanlarını qırdı?!

Azad onu süzdü və astadan dilləndi:

– Nə ola bilməz? Hayların, ermənilərin, yunanların elə vəhşilik etmələri? –Yaşarın gözlərinə baxdı, əlini yellədi, – aaaa, düşünürsən ki, hayları, erməniləri, yunanları vəhşi göstərmək üçün yalan danışıram, hə? Soruşdun ki, bizi qurtaran osmanlı niyə öz dövləti daxilində olan insanları, müsəlmanları qoruya bilmədi? Çünkü atalarımızın gözəl bir sözü var, «adamın düşməni olanda da gərək mərdi ola», onda nə vardı kı, düşmənçilik etməyə, amma təəsüf olsun, haylarda, ermənilərdə, yunanlarda kişilik, mərdlik yoxdur! Başa düşürsən ki, haylar, ermənilər, yunanlar namərddir, şərəfsizdir, əl tulasıdır! O tulaların kıs vuranısa şərəfsizin yekəsidir! Bax ona görə olub bunlar! – Yaşarın üstünə bağırdı, – Sənnənəm danış! Danış da, bəsdir özünü uşaq kimi apardın. – O, əli ilə Yaşarı itələdi.

Yaşarın gözünün qabağına yanmış kəndləri gəlmişdi, hər yan yanmışdı, evlər, insanlar… Düşdüyü vəziyyət onu əsəbləşdirirdi, amma dünya onun istəkləri ilə dönmürdü. Başını bulayaraq dedi:

– Yox, bu hadisələr mənim də kəndimin başıma gəlib, haylar yandırıb… Yəni... başa düşdün nə demək istəyirəm? – o, kəkəl-

dədi. – Bəs ö türk zabiti kimdi, ailəsinin başına nə gəlmişdi? Bu qədər eynilik ola bilərmi?! Hər yerdə eyni hadisələr, bu necə olan işdir?! Mən başımı itirmişəm, inan dəli olacam! – Yaşar taqətsiz halda yerinə oturdu.

Azad daha heç nə dedmədən söhbətinə davam etdi:

– Onun ismi Əroldu. Mən əsla onu unuda bilməyəcəm, onun üzünü, gözünü, danışığını, yanğısını, əsla unutmayacam. Bizim ortaq tərəflərimiz çoxdu, bəlkə də bu üzdən də biz dost olmuşduq. Mən onun başına gələnləri nəql edəcəm. Qalanı öz işinizdir. Bu elə bir hekayədir ki, eşitməsi belə çətindir, qaldı onu yaşıyasan… – o qaşlarını çatıb bir xeyli fikirə getdi.

# ӘROLUN ӘHVALATI

*Hakazdan Eyvaz olmaz…,*
*Haydan-ermənidən insan olmaz...*

*Bir yunan iki yəhudini aldadır,*
*bir ermənisə iki yunanı aldadır.*
**Qədim roma məsəli**

*Yava itin yava da küçüyü olur.*
***Azərbaycan atalar sözü***

Azad ayağa qalıxdı, əlini sırtına qoydu, otaqda dövrə vuraraq gəzinməyə başladı. Onun üzü çox tutqundu. Nəhayət ki dərindən köks ötürərək söhbətinə başladı:

– Ərolun uca boyu vardı, üz çizgiləri çox xoşdu. Amma o mavi gözləri, üstünü bulud almış tutqun dənizi xatırladırdı. Kimsə onun o kədər dolu gözlərinə dik baxa bilmirdi, sanki o tutqun dənizə diqqətlə baxsan səni qoynuna alaraq kədərin içində boğacaqdı. Kimsə o kədərli gözlərin səbəbini bilmirdi. O günü, o başına gələnləri danışarkən üzündəki o xoşluqdan, həlimlikdən heç nə qalmadı, gözündəki o kədər dənizinin üstündəki buludlar ağlayaraq qəmi-kədəri üzünə çökdürdü. İnsanın üzü kədərdən, qəhərdən necə dəyişə biləcəyini mən onda gördüm. O zaman özümə verdiyim ilk sual bu olmuşdu: «insan belə kədərlə necə yaşaya bilər?». Bu suala əlbəttə ki ona verə bilməzdim, amma onun son əməli bu suala cavab verdi! Düzdür biz eyni dərdli idik, amma onun gözündən görünürdü ki, o, keçmişindəki həmin andaca ilişib qalıb. Beləcə mən düşünürdüm ki, acılar icində qıvranan bu igid necə yaşaya bilir?! İnsan başına gələnləri unutmadan, başına gələn fəlakəti, facİəni yaşadığı hər anda xatırlayaraq necə yaşıya bilər? Bu arada deyim ki, o söhbət zamanı mənim sevdiklərim hələ haylar tərəfindən məhv edilməmişdi. – Yaşara baxdı, – Dedin ki, o türk zabitinin başına gələn fəlakət nə idi? – Azad şəha-

dət barmağını qaldırıb sirkələdi və Yaşara dedi: – Diqqətlə qulaq asın, sizin bir çox sualınızın cavabı bu hekayədədir! Bizə kömək edən Osmanlı dövləti necə oldu ki, öz dövləti içində iki milyon yarımdan çox müsəlmanı itirdi? Haylar, ermənlər necə namərddir, kimlərin əl tulasıdır, bax bütün bu sualların cavabı bu hekayənin içindədir!

Azərbaycana köməyə gələn türk ordusu artıq geri çağrılmışdı, amma bəzi türk zabitləri Azərbaycandakı vəziyyətin daha çətin olduğunu nəzərə alaraq qalmışdı, bunlardan biri də Əroldu. – bunu deyib Azad bir müddət susdu…

… Gecədən xeyli keçirdi. Növbədəki əsgərlərdən başqa demək olar ki, hamı yatmışdı. Düşərgənin ortasındaki çadırın qarşısındakı ocaq hələ də yanırdı. Azad çırta-çırtla yanan ocağa baxıb xəyala dalmışdı. Düşərgədə gəzinən Ərol Azadın da yatmadığını görüb ona yaxınlaşdı, əlini uzadaraq onun çiyninə toxundu:

– Azad yatmamısan? – o Azada baxaraq dedi.

Azad diksinən kimi oldu, tez arxaya tərəf çönüb Ərolu görəndə ayağa qalxmaq istədi. Gözləri Ərolun gözlərinə sataşdı, Azad onun gözlərindəki qüssənin yükü aldtında əzilərək tez gözlərini çəkdi və azaçıq qalxmışdı ki, Ərol əli ilə onun çiynindən tutub qalxmağa qoymadı, özü də onun yanında oturdu:

– Kardeş niyə yatmırsan?

– Yuxum qaçıb, yata bilmədim. Bəs sən niyə yatmırsan, axı bütün günü ayaq üstündə olmusan?

– Yatmışdım, amma… – sözünün dalını demədi, əlinə aldığı çubuqla ocağı qurcaladı.

– Amma nə? Nə olub Ərol? Biz ki qardaşıq, bizi bizdən başqa kim anlaya bilər ki?

Ərol onun üzünə baxdı, kimsə onu məcbur etməsə də, məcburən gülümsəməyə çalışdı, – Yenə uykuda ailəmi gördum… yenə qan gölündə üzürdülər. Karım mənə deyirdi ki, niyə bizi başsız qoydun? Görürsənmi cocuqlara nə etdilər? Deyirdi niyə qılıncın hələ də qınındadır?! – dili dodağı əsdi, yanağından süzülən yaş damcısı hərbi mundirinin yaxasını islatdı.

Azad əvvəlcə söhbəti dəyişmək istədi, amma niyəsə yenidən bu barədə sual verdi:

– Ərol, sən axı mənə nə olduğunu təfsilatı ilə danışmamısan. Nə olub, bir de görək? Biz axı biri-birimizə qardaş demişik, biz savaşın ortasındayıq, Türkiyənin özündə vəziyyətin ağır olmasına baxmayaraq siz bizə köməyə gəlmisiniz, qardaşlığın bundan böyüyü ola bilməz.

– Düzdür! – Ərol dedi.

– Elə isə bir de görək axı, sənin yuxunu qaçırdan nədir? Sənin gözlərindəki o tutqun dəniz niyə heç bir zaman açılmır? Niyə sən hər yatanda ailəni qan gölü içində görürsən? Niyə hər royanda arvadın sənə «bizi başsız qoydun» deyir? «Qılıncın niyə hələ də qınındadır?» nə deməkdir?

Ərol bir xeyli susdu, doluxsunmuşdu, yəqin ki kəlmə kəssəydi ağlayacaqdı, o üzdən də söhbətdən əvvəl toxtamağa çalışdı. Bir xeyli susduqdan sonra, titrək səslə dedi:

– Çünki Azad, olan budur ki, hayların, ermənilərin kökü kəsilməlidir. Mənimsə qılıncım hələ də qınındadır! Bizdə düşməni öldürmədən qılıncı qınına qoymazlar! Yoxsa mənə rahatlıq yoxdur. Yoxsa mən hər gün bu royanı görəcəm.

– Elə demə qardaş, onlar da insandır. Yəqin onların içində də yaxşısı var. – Bu söhbət 1920-ci ilin Novruzundan qabaq baş vermişdi, haylar-ermənilər hələ Şuşada qiyam qaldırmamışdı, hələ ki haylar-ermənilər şuşalıları yenidən qırmamışdı, yəni onda Azadın ailəsi yaşayırdı, haylar-ermənilər tərəfindən məhv edilməmişdi və Azad danışmağa davam etdi, – Hayların, hətta ermənilərin də pisi var, amma mütləq ki, yaxşısı da var. Səncə də elə deyil?! – O, Ərolun sözünə etiraz etdi.

Ərol əlindəki çubuğu sındırıb ocağa atdı, Azadı tərs-tərs süzərək dedi:

– Sən də lap mənim komandanım Zorlu kimi danışırsan. Amma əmin ola bilərsiniz ki, bu rəhmimizə görə bizim çox başımız ağrıyıb və ağrıyacaq. Qaldı hayların, ermənilərin insanlığına, mən onların neçə insan olduğunu yaxşı bilirəm. Şərəfsiz, namussuz, qansız, allahsız bir millətdir onlar. Onları mənə tanıdırsan? Mən də bir vaxtlar səni kimi kimlərəsə etiraz edib demişəm ki, haylar da, ermənilər də insandır. Amma... – bir xeyli susdu və

sonra dedi: – İllərlə ermənilərlə qonşuluq etdik, sonundasa ermənilər hay olduğunu isbatladı… – susdu, qılıncını qınından çıxardaraq əlinə aldı, tiyəsini var qüvvəsi ilə sıxaraq sözünə davam etdi: – Sonundasa mənim bütün yaşadığım həyatdan mənə qalan hər gecə gördüyüm bu röyadır. Mən Van əyalətindənəm. Bizim kəndimizdə türklər, kürdlər, ermənilər və haylar birgə yaşayırdı. 1829-cu ildən sonra Osmanlı Rus savaşında biz kayb edincə, rusların istəyi ilə Suriyada, Fələstində, Livanda, İrakda yaşayan hayları Van, Trabzon ətrafına və sizin topraklara, Azərbaycana köçürməyə başladılar və bizim kəndə də haylar o zaman gəldi. Əvvəllər hər şey yaxşı idi. Biz mehriban qonşular idik. Sən demə biz elə hesab edirmişik.

– Necə yəni biz elə hesab edirmişik? – Azad incik halda soruşdu. Çünki o Ərolun bütün ermənilər haqqında amansız danışmasından incimişdi. Düşünürdü ki, mən bunu özümə necə dost bilmişəm. Axı bir millətin kökünü tamamilə kəsmək istəyən insan insan ola bilməz. Mənsə Ərolu mərd bilirdim, bu sözlərsə bir kişinin dilinə yaraşan sözlər deyil.

– Mən gözümü açandan köyümdə üç millət görmüşəm, daha doğrusu dörd. Biz müsəlman türklər, kürdlər, xristian ermənilər və gəlmə haylar. Hər kəs başını salıb öz işi ilə məşğuldu. Demək istədiyim şu ki, iyi anlaşırdıq. Doğrudur biz türklər hər yerdə olduğu kimi bizim köydə də çoxluqduq, amma kimsəyə gözün üstündə qaşın var deməzdik. Zatən nə adətlərimiz, nə törəmiz, nə dinimiz kimsəyə zülm etməyə izin verməz. Yəni ermənilərə və gəlmə haylara hiç bir zaman pislik etməzdik, kürdlərlə də ki zatən hiç bir zaman sorunumuz olmayıb, olmaz da, çünki hər ikimiz din qardaşlarıyıq, adətlərimiz, törəmiz eyni idi, biri-birimizə qız verib, qız alardıq. – Yaşara baxdı və söhbətinə davam etdi, – Dedemin dediyindən bəlliydi ki, haylar bizim köyə gəlmə idilər. Eyni kilsəyə tabe olan haylarla ermənilər qısa zamanda qaynaşıb-qarışdı və ermənilər bir karib olmağa başladılar, tabii ki, səbəbini sonra bildik. Biz onlarla iyi keçinirdik, ağlımızın ucundan da keçmirdi ki, onlar bizə düşmənçilik edəcək.

… Ərolgil böyük bir ailə idi. Əslində onlar bu kəndin ən ilk sakinləri idilər, desək yanılmış olmarıq. Dədəsinin dediyindən

bəlli olurdu ki, onların ulu ataları Toğrul ilk «Xaçlı yürüşləri» zamanında İslam dünyasını məhv etmək üçün gələn «xristiyan birliyinə» qarşı vuruşmuşdur. Xaçlı ordusunu məğlub etdikdən sonra Toğrul dədənin tayfası heyvanları üçün yaxşı otlaq tapmaq məqsədi ilə köç edir, onlar Van əyalətində dayanır. Onlar burada ta qədim zamandan yaşayan və onların dilində danışan bir tayfa ilə qonşuluq edirdilər. Bu iki türk tayfası qısa müddətdə biri-birinə qarışır. İki qardaş tayfanın yenidən biri-birinə calayan ilklərdən biri Toğrul dədə olmuşdur. O qonşu türk tayfasından olan Banu adlı qıza bir könüldən min könülə vurulur və evlənir. Tayfaya yer azlıq edəndə o ailəsi və qohum əqrabası ilə tayfasından ayrılıb bu kəndin yerində özünə yurd salmışdı. Camaat elə öz arasında bura Toğrul yurdu deyirdi. Sonralar Toğrul yurduna bir neçə kürd ailəsi pənah gətirmişdi. Daha sonralarsa xristian olan ermənilər iki ailə qan davası ilə bağlı qaçaraq bu kəndə pənah gətirmişdi.

Ərol Nəzrinlə evləndikdən sonra kəndin qutaracağında qohum-qardaşı ilə köməkləşib özünə ev tikmiş və bura köçmüşdü. Burada o erməni Haykazla qonşu idi. Əslində lap əvvəl ermənilər, türk və kürdlərdən fərqli olaraq, yanlız özlərinə məxsus məhlədə yaşayırdı. Lakin uzun illər müsəlman olmayan erməniləri türk və kürdləri daha da mehribanlaşdırmışdı. Ermənilərin bəziləri müsəlmançılığı qəbul etmişdi. Bax o gündən ermənilərlə müsəlmanlar yalnız bir kənd içində məhlə qonşusu olmadı, hətta qapı qonşusu olmağa başladı, necə ki, indi Ərol da erməni Haykazla qapı qonşusu idi. Onların bağcasını balaca bir çəpər ayırırdı. Əslində bu çəpərin belə bir mənası yox idi, çünki qonşular biri birinə keçməkdən çəpərin evə yaxın yerini o qədər tapdalanmışdı ki, çəpərin bu hissəsi torpağa qarışaraq yox olmuşdu.

Bu kəndə müsəlman olan ermənilər, xristian olan ermənilər və yeni gələn xristian haylar var idi, bu səbəbdən müsəlman adı olan ermənilər, türk-xristian adı olan ermənilər və gəlmələrin özünəməxsus hay adları vardı. Həmçinin təzəlikçə müsəlmanlığı qəbul edən ermənilərin iki adı vardı, yəni ki, əvvəlki erməni adı və sonradan qəbul etdiyi müsəlman adı, məsələn Haykazın ikinci adı Eyvazdı. Ona kim Haykaz desəydi küsüb inciyirdi.

… Taleyin qəribə oyunları varmış. Mənə onu, o kürd gözəlini dağların başından aşıb-daşıb gələn çay gətirmişdi. Onun gözəl üzü, insanı bihuş edən ətri ilə sanki bir dağ çiçəyi idi. Nəzrin, dağ çiçəyi Nəzrin… – Ərol bir xeyli susdu, başını qaldırıb ulduzlar sayrışan səmaya baxdı, qara bulud topası açıq səmanı getdikcə bağlayırdı. Bundan Ərolun ürəyi daha da sıxıldı, gözlərini səmadan çəkərək qarşısında yanan ocağı baxdı, dərindən nəfəs alaraq yenidən danışmağa başladı, – Bir yaz günü idi. Sürünü dağın qoynuna aparmışdım…

…Bu yerlərdə yaz aylarında çayın anidən daşmağı vardı. Nəzrin kəndin qızları ilə çaya paltar yumağa getmişdi. Qızlar deyib gülür, biri-biri ilə zarafatlaşaraq paltarlarını yuyurdular.

Nəzringilin kəndi Ərolgilin kəndindən bir xeyli yuxarıda, dağ çayının qırağında yerləşirdi. Bu iki kəndin arasındakı ərazi isə hər iki kəndin ortaq otlağı idi. Nəzrin kəndin ən gözəl qızı idi. Kəndin bütün cavanları onun eşqi ilə dəli divanə olmuşdu. Qızlar belə onun gözəlliyindən danışırdı. Atası kürd Kazım qızı körpəliyində qardaşı oğlu ilə köbək kəsdi etmişdi. Amma üstündən heç bir il keçməmişdi ki, Van əyalətində haylar və ermənilər üsyan qaldırmışdı (1896-cı il). Hayların-ermənilərin bu üsyanında qırılan minlərlə müsəlmanın içində kürd Kazımın qardaşı ailəsi də vardı. Yəni ki, Nəzrinin köbək kəsdisi artıq yoxdu. Kəndin bütün cavanları Nəzrinə elçini-elçi dalınca göndərirdi, amma o kimsəyə razılıq vermirdi, necə deyərlər kimsənin quşu qəlbinə qonmurdu. Bu ətrafdakı kəndlərdə cavan oğlanın könlünə düşən qızı atının tərkinə vurub qaçırması adi hal olsa da, kimsə kürd Kazımla üzləşmək istəmirdi. Kürd Kazımın zəhmini, qəzəbini bildiklərindən kimsə bu barədə düşünməyə belə cürət etmirdi. Axı o bu kəndin sayılan kişilərindən idi. Bir də ki, gözü döndümü kimsə onun əlindən qurtula bilməzdi. Bunun ən yaxşı şahidi 1890-cu ildə olan o günlərdi.

1890-cı illərin başında haylara, ermənilərə bir şeylər olmuşdu, onlar Türkiyənin hər yanında silahlı üsyanlar edirdi. Son illərdə olduğu kimi 1896-ci ilin yayında haylar və ermənilər yaşadıqları Osmanlı dövlətinə, qardaş dedikləri müsəlmanlara, yəni türklərə və kürdlərə xəyanət edərək Vanda üsyan qaldırdı.

Məqsədləri Osmanlını içdən laxlatmaqdı, İngiltərə, Fransa və Rusiya kimi xristian dövlətləri bunun əvəzində vəd verirdi ki, onlara bu ərazidə dövlət quracaqlar. Lakin bir neçə məsələ hayların və ermənilərin arzularının reallaşmasını çətinləşdirirdi. Birincisi haylar Van və Trabzon ətrafına gəlmə idi. İkincisi xristian olan ermənilər və haylar birlikdə belə bu yerdə sayca olduqca azdı. Birinci problemi yalan uydurmaqla aradan qaldırmaq istəyən xristian dünyası hayları xristian olan erməni və alban tarixinin varisi elan etmək istəyirdilər və bu səbəbdən də xristian dünyası onları artıq hay adı ilə yox, erməni adı ilə çağıracaqdı. İkinci problemi, yəni onların bu ərazilərdə sayca az olması məsləsini müsəlmanları qırmaqla aradan qaldırmaq istəyirdilər. Beləcə haylara əmr edildiyi kimi qətliamlara başladılar. Əslində 1890-cı illərdən başlayaraq hay-erməni çətələrinin* üsyan etməsinin ilk mərhələsi 1880-ci ildə baş vermiş hadisə ilə bağlı idi. Belə ki 1877-ci ildə Osmanlının Çar Rusiyası qarşısında məğlub olmasından sonra, çarın dəstəyi ilə erməni patrixi 1879-cu ildə Osmanlı hökümətinə «Erzurum vilayətinin islahı projesi» adı altında azad Ermənistan yaratma tələbini irəli sürdü. Patriaxın bu tələbindən sonra 1880-ci ildə 5 böyük xristian dövləti olan İngiltərə, Fransa, Rusiya, İtaliya, Avstrya-Macarıstan Osmanlı hökümətinə Ərzurumda erməni islahatına başlamasını tələb edən nota göndərdi. Osmanlı höküməti cavab notası verərək bildirdi ki, ermənilərin yaşadığı Van, Diyarbakr, Bitlis, Erzurum və Sivas vilayətlərində erməni nufüzü ən yaxşı halda 17 faizdən artıq deyil, digər qeyri müsəliman azlıq 4 faiz nisbətindədir, 79 faiz əhalisə müsəliman-türk olduğundan belə bir islahat mümkün deyildir.**

---

**terror qrupriovkaları*

*** Gəlin tarixə nəzər salaq. İlk dəfə Rusiya çarı I Pyotr günümüz Azərbaycan və Türkiyə üzərində qələbə qazanmaq üçün bu regionda quracağı 5-ci kolan kimi haylardan istifadə etməyi məqsədə uyğun hesab etdi, lakin Çar Rusyanın hayları bu regiona kütləvi köcürməsi yalnız 1828-ci ildə Qacarlar dövlətini məğlub etdikdən sonra həyata keçirə bildi. Haşiyə çıxaraq qeyd edək ki, günümüz kitablarında bu savaş əsasən İran-Rus savaşı kimi adlandırılır, lakin o dövrdə Qacarlar dövləti türk dövləti olmuşdur, günümüz mənasında İran dövləti olmamışdır və ruslarda farslarla yox türk olan Qacar sülaləsi ilə savaşmışdır. Bu qələbədən sonra Çar Rusiyasının şərtlərindən biri də Qa-*

Bəli, xaçlılar XIX əsrin sonunda həyata keçirmək istədiyi plan suya düşmüşdü. Uydurduqları yeni hay-erməni kimliyi ilə belə onlar bu ərazidə azlıq təşkil edirdi. Yeni yol tapılmalı idi.

---

*rabağ və İravan ərazilərinə hayların köçürülməsini təmin edilməsi olmuşdur. 1829-cu ildə Osmanlı Rusiya savaşında Osmanlı məğlub oldu və bağlanan sülh müqaviləsinin bəndlərinin birinə əsasən Çar Rusiyası Suriya-Fələstində yaşayan hayların Trabzon, Qarabağ, İravan, Axıska ərazilərinə köçürülməsi şərtini irəli sürdü və məğlub tərəf kimi Osmanlı bu şərti yerinə yetirdi. Beləliklə o dövrün Osmanlı və Səfəvi türk dövlətlərini məhv etmək üçün I Pyoturun irəli sürdüyü hay-ermənilərdən istifadə edilməsi planı 100 il sonra həyata keçirilmiş oldu. Bu məkrli planın davamı kimi 1877-ci ildə Osmanlı Rus müharibəsində erməni xəyanətinə məruz qalan Osmanlı ordusu məğlub oldu. Daha sonra bəzi siyasi prosseslərdən sonra İngiltərə, Fransa, Rusiya, Avusturya-Macarstan, İtaliya kimi 5 böyük xristiyan dövləti Şərqi Anadoluda, günümüz Türkiyə və Azərbaycan arasında tampon dövlət kimi hay-erməni dövləti quraraq iki qardaş dövlətin quru əlaqəsini kəsməyə çalışdı. Bu ərazilərə hayların köçürülməsindən sonra belə onların etnik azlıq olması səbəbindən hay dövlətinin qurulması I Dünya müharibəsinə qədər uzandı. 1914-ci ildə başlayan I Dünya Müharibəsi zamanı, Osmanlı eyni anda bir necə cəbhədə savaşırdı – Çanaqqala cəbhəsi, Qafqaz cəbhəsi (Doğu ordusu), Filistin cəbhəsi, Irak cəbhəsi və 1917-ci ildə Romaniya cəbhəsi. Çar Rusyası ilə Osmanlı arasında I dünya müharibəsində gedən savaş 1914-1917 ci illəri əhatə etmişdir. Rusiyada Komminist inqilabının baş verib Sovet dövlətinin qurulmasından sonra çar rus ordusu geri çəkilmişdir. 1914 ci ildə Qafqaz bölgəsindən Şərqi Anadoluya girmək istəyən rus ordusunda 150 minlik şəxsi heyətinin 42 mini hay-erməni əsgər-zabitlərindən təşkil edilmişdir və təsadüflər zincirinin daha bir qəribəliyisə, Ərəb yarımadası tərəfdən Anadoluya hücum edən Fransa və İngiltərə ordusunda da hay əsgərlərindən təşkil edilmiş alaylar vardı. Bu müharibə üçün Fransa və İngiltərə Fələstin, Suriya haylarından könüllülər toplamışdı. Məğlub edilən Osmanlı torpağının şərqini və günümüz Azərbaycanın qərbini əhatə edən ərazidə bir hay-erməni dövləti qurulmalı idi, lakin Mustafa Kamal Atatürkün günümüz Türkiyə cümhuriyyətini qurması onların hesablarını pozdu. Türkiyənin qurulması illərində (1920-1923) bu ərazidən Çar Rusiyasının ordusu, Faransa ordusu geri çəkildi, lakin onların silahlandıraraq gətirdiyi quldur hay-erməni dəstələri elə bu ərazidə qaldı və qurulacaq HAY dövləti üçün bu ərazidə olan türk-müsəlimanları qətl etməyə davam etdilər. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti Çar Rusiyasının və Fransanın kənar ərazilərdən sılahlandıraraq gətirdiyi hay-erməni terroristlərinə qədim İravan xanlığını güzəştə getməyə məcbur oldu, bu zaman Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 150 min kv. km.-dən 113,9 min kv. km-ə düşdü, cəmi iki il sonra Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal edilməsindən sonra Azərbaycandan Zəngəzurun Ermənistan Sovet Respublikasına verilməsi ilə, Azərbaycan Sovet Respublikasının ərazısı 86, 6 min kv. km. düşdü.*

Beləliklə havadarları hay və erməniləri "erməni kilsəsi" ətrafında örgütləməyə, siyasi terror çətələri ətrafında birləşdirməyə başladılar. İlk hay-erməni komitəsi Qnçaq 1887-ci ildə İsveçrədə quruldu, daha sonra onların qurduğu bütün komitələr, Xeyirsevərlər Cəmiyyəti daxil olmaqla 1890-cı ildən etibarən Daşnaksütun çatısı altında birləşdi*. Bütün bu hazırlıqlardan sonra silahlanmış hay-erməni çətə komitələri üsyanlara başladı. Bu üsyanların bir qolu da 1896-cı ildə Vanı bürüdü.

Hayların və ermənilərin əsl üzünü görən müsəlman əhalisi ayağa qalxmışdı, osmanlı ordusu olmasa müsəlman əhalisi onların kökünü kəsəcəkdi. Amma "ermənilər" nə qədər xəyanətkar olsa da, Osmanlı dövləti qohum əqrabasını itirmiş, qəzəblənmiş, intiqam almaq istəyən müsəlmanların "erməniləri" qırılmasına göz yummadı. Düzdür dövlət işə qarışana kimi bəzi yerlərdə "ermənilər" öz layiqli cavablarını aldı. Bu yerlərdən biri də Nəzringilin kəndi idi.

Haylar-ermənilər «Armenekan», «Qnçak», «Daşnaksütun» partiyalarının ətrafında birləşərək qurduqları silahlı quldur çətələri vəziyyətdən xəbərsiz müsəlman əhalisini qırmağa başlamışdı. Kürd Kazımla, Qara Mehmet kəndin dəliqanlı cavanlarını öz ətraflarında toplayaraq "erməni" çətələrinə qarşı vuruşurdu. Onların vuruşduğu yalnız silahlı hay-erməni quldurları idi, onların kəndlərdə qalan silahsız ermənilərlə işi yoxdu. Hətta bir dəfə belə bir əhvalat olmuşdu, Kürd Kazımla, qara Mehmetə xəbər çatdı ki, kənd əhalisi kənddə qalan ermənilərə soyuq münasibət göstərirlər. Kazımla Mehmet məsləhətləşdikdən sonra camaatı toplayıb belə demişdilər:

– Kardeşlərim, bacılarım dorudur** ki, haylar, ermənilər insanoluna yakışmaz işlər gördülər. Onlar dövlətimizə və bizə ihanət*** etdilər. Yıllarca ekmeyimizi yeyən şu haylar bizə yan bakdılar, bizə silah çekdilər, kohum-kardeşlərimızı kırdılar. Fakat unutmaq olmaz ki, şu işləri ermənilərin hepsi**** deyil, ana-bacısını

* *Erməni İhtilal Cəmiyyətləri Birliyi*
** *doğrudur*
*** *xəyanət*
**** *hamısı*

burada koyub giden, erkeklikdən haberi olmayan haylar və ermənilər yapmışdır. Yani anlıyacağınız kibi, bu ne erkekliye, ne insanlığa, ne kitaba yakışır. Şimdi bizde haylar və ermənilər kibi silahsız ermənilərimi kıralım? Unutmayalım ki, müsəlmanız və adımıza laik olanı yapmalıyız! Biz hay deyiliz. Bu əməllərimizdən köydə kalan ermənilər də dərs alar, inşallah! Bizim savaşımız bize silah çekmeye cürət edən silahlı hay çeteleriləđir. Doğrusu budur!

Kənd camaatı bundan sonra kənddə qalan ermənilərlə tərs davranmadı. Daha doğrusu, ana-bacısını, arvadını müsəlmanların içində qoyub özlərisə hay-erməni quldurlarına qoşularaq müsəlman əhalisini qıran cətələrə inad, kəndin camaatı sahibsiz və aciz ermənilərə mümkün olduğundan daha çox yardım etməyə başladı. Amma bir gün kəndə yaralı iki adam gəldi, bəlli oldu ki, hay-erməni quldurları dağın o tayındakı kəndə basqın ediblər. Gələn yaralılar bildirdi ki, kəndə bir nəfər də müsəlman sağ qalmadı, haylar qadınlı-uşaqlı, qocalı hamını qırıbdılar.

Hamının sərt baxışlı, ötkəm danışıqlı tanıdığı kürd Kazım qırıq səslə yaralılardan soruşdu:

– Bu necə ola bilər, axı kənd yaxşı silahlanmışdı? Sən qardaşımı tanıyırdın Ali, ozan Ali?

Yaralılardan biri ağlaya-ağlaya danışmağa başladı:

– Çətələr kəndə hücum edəndə bütün əli silah tutanlar kəndin ətrafındakı səngərə qaçdı, vuruşun qızğın yerində anladıq ki, rəhm etdiyimiz köydəki ermənilər ana-bacılarımızı qıraraq arxadan bizə saldırır. Qardaşın Ali bizi köyün içinə, xain ermənilərlə savaşmağa göndərdi. Mən qardaşının həyətinə girəndə... – sözünə davam edə bilməyib, hiçqıraraq ağlamağa başladı.

Kürd Kazım əlini masaya vuraraq bərkdən bağırdı:

– Həyətə girəndə nə? Anlat!

– Qardaşın uşaqlarının kirvəsi erməni Tiqran öz əli ilə sənin İsmayılını boğurdu. – İsmayıl Nəzrinin köbək kəsdisi idi. Kürd Kazım hər yerdə deyirdi ki, o mənim oğlumdur. – Qalan hamını artıq öldürmüşdülər. Biz onlarla atışaraq kənddən çıxdıq.

Kürd Kazım bağırdı:

– Tiqran köpəyini vura bildinmi?

– Yok abi vura bilmədim, əhf et!

Kürd Kazımın intiqam dolu üzünə bir təbəssüm doğdu:

– Şükürlər olsun sənə Tanrım! Tiqran səni dünyaya gəldiyinə, erməni olduğuna pişman edəcəm! Doğurdan da çaqqaldan qurd törəməz, amma qurd çaqqalla qarışdıqda törəyən çaqqal olur, çaqqal.

Qardaşı ailəsini, daha doğrusu o gün ölən müsəlmanların üçü günü kürd Kazımla, qara Mehmetin dəstəsi həmin hay-erməni quldurlarını basaraq qırıb-çıtdı və kürd Kazımın tapşırığına üygün olaraq Tiqranı oğulları ilə bir yerdə öldürmədən əsir aldılar və digər əsirlərlə bərabər tutub gətirdilər. Kürd Kazım onları kənd camaatının basırıldığı toplu məzarlığa gətizdirmişdi. Haylar, ermənilər başlarını aşağı dikib məzlum-məzlum durmuşdu. Kürd Kazım onları süzdü və soruşdu:

– İnsan olmaq bu qədərmi zor, şərəfli olmaq bu qədərmi zor?! Kahbelik sizin kaderinizmi? Bunları nədən yapdınız?!

Haylar-ermənilər bir ağızdan yalvardı:

– Bizi əhf et Kazım bəy, kilsə və murhaza* məcbur etdi!

Kürd Kazım kinayə ilə güldü:

– Sizi əhf edərək bəy oluramsa, müslüman kardeşlərimin qanını yerdə qoyaraq nə oluram o zaman?! Kalleşler, kahbeler!

Aşot öz arvadını dümsüklədi və pıçıldadı:

– Kazımın ayaqlarına qapan, aman istə! – Aşotun olduqca gözəl arvadı vardı.

Aşotun arvadı Kürd Kazımın ayaqlarına qapandı, ayağından öpərək yalvardı:

– Bizi bağışla! Qapında köpəyin olarım, nə istərsinsə yaparım!

Kürd Kazım ömründə ilk dəfə idi bir qadını vurdu:

– Fahişə! – təpiklə qadını itələdi, üzünü onlara tutdu, – Sizi kaç kərə bağışlamaq olar?! Ruslar torpaqlarımıza ilk girən zamanda bizə ihanət etmədinizmi**?! O zaman sizi bağışlamadıqmı?! Amma səhv etdik, ihanət heç bir zaman bağışlanmamalıdır!

---

* *erməni kilsəsində dini rütbə*

** *1877-1878-ci il Osmanlı Rus savaşı*

O zamanda sizləri bağışlamaqla böyük xəta etdik, sizə rəhm etməklə özümüz özümüzə zülm etdik! O zaman sizi bağışlamasaq şimdi bu olaylar yenidən başımıza gəlməzdi! Bu kəs mən öz payıma kimsəni bağışlamayacam! Hər kəs cəzasını ödəyəcək! Bağışlamaq Allahın işi! Gərçi* o belə sizi bağışlamayacaq! Bu gün sizin hesab gününüzdür! – O addımlayaraq Akopun qarşısında dayandı və kinayə ilə soruşdu:

– Akop ağa!

– Eşidirəm Kazım xan!

Kürd Kazım gülümsədi:

– Demək xan oldum, öyləmi?! Yahu sizin kaç üzü var?! sizin kahbeliyiniz belə haycadır, erməniləri belə pozub kendinizə bənzətdiz! – üzünü silahdaşı qara Mehmete tutdu və məzəmətlə dedi: – Əvət Mehmet kardeşim, kisəndən** kaç para saydın bu Akopa? Oxudu da nə oldu?!

XIX əsrin ortalarından başlayaraq Osmanlı torpaqlarında Fransa, Amerika daha sonra digər xristian dövlətləri məktəblər açmışdı. Onlar guya ki, təhsildə geri qalan Osmanlıya dostluq əllərini uzatmışdılar, əslində isə bu məktəblər xristian misyonerlərinin ocağı olub, burada türk düşmənləri yetişdirilirdi. Bu məktəblər ən sadə dillə desək türk-müsəliman düşmənləri yetişdirən qurumlardı və burada gələcək üsyanları hazırlayacaq, yönləndirəcək kadrlar yetişdirilirdi. Akop Amerika məktəbi olan Robert kollecində oxumuşdu. Oxuduğu zaman Qara Məhmət ona və ailəsinə maddi yardımlar etmişdir. Qara Mehmet məzəmmətlə Akopu süzdü:

– Akop, duydum ki, bu çivarlarda çətələşməni sən edirsənmiş?! Erməniləri bu yola çəkənlərin başında sən durursan! Niyə? Hay toxumu, niyə?!

Akop anidən hönkür-hönkür ağladı, diz çöküb iməkləyə-iməkləyə qara Məhmətin ayaqlarını qucaqladı:

– Günahım çoxdur! Nə desən haqqın var. Sənın yardımların olmasa mən o məktəbdə oxuya bilməzdim, ailəm acından ölərdi!

– Elə isə niyə bu yamanlığı yapdın?! – qara Məhmət qəzəbli

* *gərçəyi; doğrusu*
** *pul kisəndən*

halda soruşdu, – Gələn gündən ermənilәri aldatdız, indi də aləmi qatmısız biri-birinə, niyə?!

– Bizə dedilər ki, türklər sizi qırıb! Dedilər ki, intiqamını almayan millət şərəfsizdir! Kilsə dedi, Avropa, Rus, Amerika dedi, bağışla ağam!

Qara Məhmət çaşqın halda bağırdı:

– Soysuz, siz buraya Fələstindən daha dün gəldiniz, nə zaman qırdıq sizi?! Sənin babam mənim babamın çörəyi ilə yaşayıb ulan! – Bağırdı, – Deee! Siz bura gəlmə deyilsiz?! Nə zaman qırdıq sizi ulan?! Biz sizi qırmış olsaydıq, buralarda bir sağ hay qalardımı?!

Akop daha uca səslə ağladı:

– Ağam inan ilk öncə bəndə şaşırmışdım, deyilənlərə inanmışdım! Amma sənin insanlığın, bu köydəki müsəliman kardeşlərimin iyilikləri gəlib gözümün önündə durdu! – Qara Mehmetin ayaqlarından qucaqlayaraq and-aman etdi, – İnan mənə ağam, İsaya and olsun! Məktəbdən ayrılmaq istədim! Komitədən uzaqlaşmaq istədim! Məni ailəmi öldürəcəkləriylə təhdit etdilər!

Kürd Kazım kinayə ilə güldü:

– Demək sizə iyilik yaramır! Demək istəməsəniz belə digərləri sizi bizə qarşı çıxmağa məcbur edir?! Öyləmi?!

Akop sevincək cavab verdi:

– Əvət Kazım ağam! Zorla, təhdidlə!

Kazımın sifəti anidən sərtləşdi:

– Bəs burada olmasanız, siz bizə qarşı kimi kulanacaqlar*?!

Akop key-key cavab verdi:

– Heç kimi yəqin ki?! Ağam nə demək istədin, anlamadın?!

Kürd Kazım istеza ilə dedi:

– Anladın, sən anlarsın, anlarsın, sən oxumuş adamsın!

Akop tülkü kimi gözlərini qıyaraq:

– Vallahi-billahi anlamadım!

– Oooo, Vallahı da öyrənmişsiz! İyyiii! Anlatayım! – Kürd Kazım əsəbi halda dedi, – Demək səni, ailəni öldürməklə təhdit etdilər?

---

* *istifadə edəcəklər*

– Əvət, əvət. – deyə Akop sevincək cavab verdi.
– Məsələn karınla təhdit edirdilər?!
– Əvət aynen öylə.
Kürd Kazım belindən xəncərini çıxarıb onun arvadına sarı yeridi:
– Demək onlar deyəni etməsən karını öldürəcəkdilər?
– Vallahi öylə! – Akop kəkəldədi.
Akopun arvadı boğazına dirənən xəncərin ağrısından sızıldadı:
– Ağam yapma! Bağışla bizi!
– O məktəblərin qara yalanını səndə kocanla birlikdə ermənilər içində yaymırdınmı?!
– Bağışla! Akopun arvadı yalvardı.
Kürd Kazım sakit bir tövrlə:
– Allah bağışlasın. – deyib xəncəri tiyəsinəcən qadının başına soxdu və üzünü Akopa çevirib soruşdu, – Demək arvadını öldürəcəkdilər?! Ulan mən səni, ailəni öldürməzmiyimmi?! Öylə ya, sizin planınızda tüm müsəlimanları öldürmək vardı! – Kürd Kazım Akopu ağzı üstə yıxaraq bir ayağını onun belinə qoyub onurğasını sındırdı və bağırdı – Şimdi can çəkişərək öl! Ölll!
Beli sınmış Akop qorxusundan səsini belə çıxara bilmədən zarıyırdı. Kürd Kazım üzünü Tiqrana çevirdi və soruşdu:
– Sən mənim müsəlman kardeşlərimi öldürdün?! Həm də kahbəcəsinə?
– Kazım kurbanın olum, əhf et! Mən ki, sənin kardaşınla kirvə idim! Zamanənin yüzü qara olsun. Bən nə yapayım? Sucum nə? Erməni olmammı? – tülkü kimi başını bükdü, – Kilsə zorladı!
– Köpək soyu, kardeşimin ailəsini sən öldürmədinmi? – o var qüvvəsi ilə Tiqranın üzünə sillə vurdu.
– Bağışla, yoxsa mənim ailəmi qırardılar! – Tiqran onun ayaqlarına qapanaraq, ayaqqabısını öpməyə başladı, – Dedilər haylarla bir olduğumu isbatlamalıyam, ya da öldürəcəklər!
– Demək sənin də ailəni öldürərdilər? Öyləmi? Bəs erkəklik, qeyrət, namus?! Erkək adam da ihanət edərmi?
– Evet, doğru söylərsin! Amma bilməlisiz ki, biz ermənilər kilsənin əlində oyuncaq qalmışıq! Vallah doğru sözümdür! Ba-

ğışla məni.

– İnsan qorxar, amma Allahından qorxaq, günah etməkdən qorxar, iyitliyini itirməkdən qorxar! İyitliyini itirən, Tanrını itirən hər kəsə yaşamaq haramdır! Allahsız erməni köpəkləri sizə yaşamak haramdır! Artıq hay olun, ya erməni olun fərq etmir!

– Kazım mən sənin kardeşini, ailəni aldım, sən də mənim kardaşlerimi, oğullarımı öldür, nasil istersinse öylə öldür, amma məni bağışla. Qoy onların acısı mənə cəza olsun!

– Sende erkəklikdən zərrə də yoxdur, Allah sənə lənət etsin! Səni kimilərə ruhsal acı fayda etməz, allahsızın cəzası yalnız ölumdur. – Kazım kiçik qardaşına tərəf çönərək soruşdu: – Hardadılar? Qalanları hardadır?!

– Abi hepsini toplamışam, təpənin arxasındadırlar.

– Gətirin!

– Buramı abi?!

– Əvət bura gətirin, çabuk olun! Yoxsa bu toplu məzarda uyuyanların ruhları rahat olmaz, onların qisası alınmadan axan qanları qurumayacaq! Çabuk!

Kürd Kazımın kiçik qardaşı Yasin arxaya tərəf dönüb yoldaşlarına səsləndi:

– Erməni köpəklərini gətirin! – Yasin Kazımın əmri ilə kəndlərində nə qədər hay, erməni vardısa toplayıb gətirmişdi.

İşdən elə o anda xəbərdar olan Mehmet çaşqın halda soruşdu:

– Kardaş sən nə etmək istərsin?! Yoxsa? Sultanın əmri var! – onun həyacandan qaşları çatıldı, – Bir də ki hamını qırmaq olmaz…

Kürd Kazım səbrini basaraq Mehmetə bozarmaq istəmədi, amma sözünü kəsərək dedi:

– Hayların, ermənilərin yaşamağa haqqı yoxdur! Onlar insanlıqdan anlamır! Qana qan, cana can!

– Sən dəlirdinmi? Bizə belə etmək yaraşmaz! – Qara Mehmet bağıraraq dedi.

– Mənə qarşı gəlməyi düşünmə Mehmet! Sənə kıyamam, amma istərsənsə onları öldürdükdən sonra özümü də vuraram, amma onları öldürdükdən sonra. Qana-qan, cana-can! Yetər! Mən kimsəni bağışlamaq istəmirəm, bağışlamaqdan bezmişəm, yetər!

Sultan, hökümət onları bağışlayıb, amma mən qohum-qardaşlarımın qanını onlara bağışlamıram! – onun səsi göylərdə əks-səda verdi, – Qana qannnn! Mən öz qan payımı daha kimsəyə keçmirəm!

O gün müsəlmanların toplu məzarında öldürülən son erməni Tiqarandı. Tiqran son anacan kürd Kazıma yalvarırmış, amma kürd Kazımın gözü dönmüşdü…

O günü gözü dönmüş kürd Kazım bütün hayları, erməniləri öz əli ilə öldürmüşdü, onu görənlər deyir ki, o bircə dəfə də olsun gözünü qırpmadı, bircə dəfə də olsun köks ötürmədi, bircə dəfədə olsun dayanıb nəfəsini belə dərmədi, durmadan onları doğradı…

Bu əhvalatı bilən hansı cavan onun rızası olmadan, onun qızının istəyi olmadan Nəzrinin əri ola bilərdi ki?!

Çayın qırağında paltar yuyan qızlar yenə söhbəti hərləyib-fırlayıb bura gətirdilər:

– Ay qız, Nəzrin nə vaxt ərə gedəcəksən?

– Nə oldu ki? – Nəzrin əlindəki paltarı çay daşına çırpa-çırpa soruşdu.

– Daha nə olsun, ay qız birinə ərə get ki, bir bizə də baxsınlar! – hamı gülüşdü.

Başqa bir qız dedi:

– Doğru vallah, hamının gözü səndədir, bizə belə baxan yoxdur! Ərə git ki, kurtulalım səndən! – yenidən hamı gülüşməyə başladı.

Qızlar qəşş edərək gülürdülər ki, bir uğultu eşidildi. Hamı bir anlıq donub qaldı. Birdən qızlardan biri qışqırdı:

– Çay daşır. – söz onun ağzında qaldı, köpüklənərək əjdaha kimi şığıyan sel qızların dördünü öz qoynuna aldı. Qalan qızlar qaçıb canını qurtardı.

Ərol çayın uğultusunu eşidib, sürünü dikə qaldırdı ki, sel heyvanı aparmasın. Sürünü elə yenicə dikə yığmışdı ki, ən sevimli iti Bozdar çaya sarı qaçdı, Ərol heç nə anlamadı, Bozdara tərəf çönüb onu səslədi:

– Bozdar çabuk geri!

Buzovdan iri olan it çönüb sahibinə doğru baxdı, hürərək çaya doğru qaçdı. Ərol heç nə anlamasa da sevimli köpəyinin

arxasınca çaya tərəf getdi. Bozdar çayın qırağına çatıb, daha da bərkdən hürməyə başladı. Ərol Bozdarın hürdüyü tərəfə baxanda gördü ki, aşıb-daşan çay bir qızı qoynuna alaraq şəlaləyə doğru aparır. Ərol ətrafına baxdı, çay suyunun hələ batıra bilmədiyi daşların üstündə birindən digərinə tullanaraq çayın ortasına gəldi, əlini atıb Nəzrini tutdu. İndi ən çətin məsələ qırağa çıxmaqdı, çünki tezliklə bu daşlarda suyun altında qalacaqdı. Ərol Nəzrini bərk-bərk qucaqlayaraq tullana-tullana çayın qırağına doğru gəldi, sonuncu daşla çayın qırağana olan məsafə olduqca çoxdu. Ərol məsafəni ölçüb düşündü ki, Nəzrinlə birlikdə tullansa çətin ki, çayın qırağını çıxa bilsinlər. O gözünü çevirib bir Nəzrinə baxdı, onun üzündəki gözəllikdən doyunca içdi, bir çayın köpüklü suyunun onlara tərəf gətirdiyi ağaca baxdı, bir məsafəyə baxdı…

Nəzrin onlara tərəf gələn ağacı görüb qorxudan bağırdı. Ərol son dəfə onun üzünə baxaraq gülümsündü:

– Sən yaşıyacaqsan! Mən yaşadığım müddətcə sənin ölmənə izin verməm! – ayaqlarını daşa sıxıb var qüvvəsi ilə bədənini qabağa əyərək tullandı, qollarını qabağa uzadaraq Nəzrini qabağa atdı, Nəzrin çayın qırağına düşdü, Ərol bir ayağı çay daşına dəydi, bədəni suyun içində olan Ərol ağrının şiddətindən tərpənə bilmədi, gücü yalnız çayın qırağındakı koldan yıpışmağa çatdı və ağacın onu haqlamasına bir neçə metr qalmışdı ki, Bozdar başı ilə Nəzrini qırağa itələyərək, dişləri ilə Ərolun paltarından yapışıb dartaraq onu qırağa çıxardı. Ağac köpüklü çay suyunda onların yanından ötüb keçdi.

Ərol dizinin ağrısından üzünü turşudaraq dikəlib oturdu, Bozdarın başını tumarladı. Bozdar başını yelləyərək onun üzünü yaladı. Ərol başını çevirib qıza baxdı, qızın əl ayağı sıyrıq-sıyrıq olmuşdu, amma deyəsən ciddi bir şeyi yoxdu. Nəzrin göz qapaqlarını qaldırıb Ərola baxırdı, bunu görən Ərolun üzündə ağrıdan yaranan ifadə yox oldu, gülümsünərək soruşdu:

– Ağrın varmı?

– Yox! – Nəzrin gülümsünrək dedi, – Sağ ol, həyatımı kurtardın! Özünsə yaralandın.

– Min canım olsa hamısını sənin üçün feda edərəm! – güldü.

Nəzrində güldü, birdən gözü Ərolun dizinə sataşdı:

– Dizindən qan gəlir! – həyacanla dedi.

– Boş şeydir canım. – Ərol Nəzrinin gözlərinə baxaraq gülümsündü və əlini uzadaraq ağ dağ çiçəyindən birini qırıb Nəzrinin saçına taxdı və dilləndi:

– Sən daha gözəlsən!

Nəzrin yenə güldü. Ərol da gülmək istədi, amma hiss etdi ki, başı hərlənir, özünü toplamaq istədi, amma gözü qaraldı, bayılaraq Nəzrinin üstünə yıxıldı.

Çayın daşaraq dörd qızı aparması xəbərə kəndə çatar-çatmaz kənd camaatı çay aşağı götürüldü. Kürd Kazım çayın qızını aparması xəbərini eşidib ailəsi ilə bir yerdə çay aşağı götürülmüşdü, o bir tərəfdən bağırıdı:

– Nəzrin, qızım. – bir tərəfdən də arvadına deyinirdi, – Dayan hələ. Sənin canını alacam. Kızı niyə qoydun çamaşır yumağa getsin ki, belə də oldu?

Yazıq arvad da qorxusundan başqa şey demədən yalvarırdı:

– Allah sən mənim yavrumu* saxla!

Kürd Kazımın gözü birdən çayın qırağındakı qaraltıya sataşdı:

– Ulan bu bizim kız deyilmi?

Uşaqlardan biri sevincək:

– Əvət, baba Nəzrindir! – deyə cavabladı.

Nəzrinin anası sevincək:

– Şükür sənə qadir Allahım! Yavrumun kəsiləcək qurbanı var!

Bu vaxt Ərol bayılaraq Nəzrinin üstünə yıxıldı, bunu uzaqdan görən Kürd Kazımın əsəbdən sifəti qızardı:

– Ulan, sən bənim kızıma haaa! Ulan itolu**! Kızım korkma yetişdim. – Kürd Kazım var qüvvəsi ilə qızına doğru qaçmağa başladı, ailəsi də onun arxasınca.

Atasının səsinə çevrilib onlara baxan Nəzrin qorxmuş olsa da, atasının üzündəki ifadəni görüb özünü gülməkdən saxlaya bilməyərək:

– Baba məni kurtarırkən ayağından yaralanmış, hər haldə qan itirdiyindən bayıldı. – dedi.

---

* *balamı*

** *itoğlu*

Onlara yetişən kürd Kazım daha əlini saxlayaraq:

– Mən də sanmışdım ki… – yalnız indi Ərolun vəziyyətinin daha ağır olduğunu, qızının elə bir şeyi olmadığını anlayan kürd Kazım qızına bağırdı, – Niyə demirsən oğlanın halı pisdir?

Nəzrin tutularaq dedi:

– Dedim, daha nasıl deməm lazım ki, baba?

Kürd Kazım daha kimsəyə məhəl qoymadan Ərolun yarasına baxmaq üçün şalvarının balağını cırdı, dizindəki yarasına baxdı, əli ilə yoxlayaraq:

– Sınığı yoxdur, daş ətini çapıb. – sevincək dilləndi və belindəki qurşağı açıb Ərolun yarasını sarıdı, – Lan gəl bunu sırtına al, apar evə, – oğluna səsləndi.

Digər üç qızı sel aprmışdı. Ərol olmasa yəqin ki, Nəzrinin də aqibəti elə olacaqdı. Evə gələnəcən kürd Kazım yalnız bunu düşünürdü: – Birdən mənim Nəzrinimi də yox olası sel aparsaydı?

Evə çatanda kürd Kazım ilk əvvəl Ərola yer salınması ilə şəxsən özü məşğul oldu, sonra böyük oğlunu kəndin türkəçarəsi Şaxlıq qarının dalınca göndərdi ki, gəlib həm Ərola baxıb, onun yarasına məlhəm düzəltsin, həm qızının yarası üçün məlhəm düzəltsin. Sonra başladı deyinməyə:

– Bir də karı olacaqsın! Hürü, qızı niyə çaya göndərirsən? Demirsən yaz başıdır? Bax az qala sel aparacaqdı?!

Qızının sağ qalmasına sevinən Hürü zarafata salaraq:

– Mən getsəydim sel məni aparardı! – dedi.

– Cəhənnəmə kimi aparsın! Gördüyünü görmüsən zatən! – Kürd Kazım özünü bundan artıq ciddi saxlaya bilmədi, dodaqları qaçdı, güldü. Son sözlərindən sonra qorxuya düşən Hürü güldü, ardınca hamı güldü.

Şahlıq qarı Nəzrinin, Ərolun məlhəmini düzəltdi, Ərola içizdirilmək üçün xüsusi şərbət hazırladı, nə yedizdirilməli olduqlarını söyləyib getdi. Şahlıq qarının məlhəmindən və hazırladığı xüsusi şərbətdən sonra Ərolun titrəməsi kəsdi.

Ərol özünə gəlib, gözlərini açar-açmaz ilk dediyi bu oldu:

– Kız nasıldır, yaxşıdırmı?

Nəzrin gülümsünərək:

– Mən yaxşıyam, ya sən…? – deyə soruşdu.

Kürd Kazım əyilərək Əroldan soruşdu:

– Yavrum kimlərdənsin de, haber salalım. Öyləsinə haber saldım da, amma sən hangi köydənsin bilmədim.

– Amca sən kızın babasısanmı?

– Hə, nə oldu ki?

– Kızını bana versənə! – Ərol Nəzrinə baxaraq dedi.

– Yazıq, qaliba qafasını bir yerlərə vurmuş … – kürd Kazım əlini əlinə vuraraq dedi.

Nəzrin güldü. Kürd Kazım qızına tərs-tərs baxıb dedi:

– Nə gülürsən kız? – Ərola baxaraq, – Yazıq ya, oglum başın ağrıyırmı?

Ərol suala məhəl qoymadan yenidən dedi:

– Amca kızını bana versənə! Vallah yok deyirsənsə məni atın o çaya!

Kürd Kazım deyinməyə başladı:

– İşə düşdük də! Ya, yavrum sən kimsin, kimlərdənsin, mən bilmirəm. Mən kimim sən bilmirsən! Dəlimisin sən? – arvadına tərəf çönərək onu tərslədi, – Bax həpsi sənin günahındır! Qızı niyə çaya göndərirdin ki?!

– İştə bildim, sən bu kızın babasısın, daha nə bilməm gərəkir ki? Kızını bana ver! – Ərol əlini yelləyərək uşaq səmimiyyəti ilə dedi.

– Yahu bən sənin hangi köydən belə olduğunu bilmirəm.

– Aşağı köydənəm bən! Toğrullu…

– Mən o köyə kız verməm! – kürd Kazım əsəbi halda dilləndi.

– Niyə, nə oldu ki?

– Erməniləri bağışlayan, haylarla bir yerdə yaşayanlara mən kız verməm!

– Niyə amca, onlar da insan deyilmi? – Ərol səmimi halda soruşdu.

– Onların qanı, südü pozuqdur. Qanı, südü pozuqlardansa insan olmur.

– Amca mən onu-bunu bilməm, böyüyümsün, amma kızını Vallahi sevirəm!

– Oğlum sən dəlimisin, mənim başıma bəlamısın, qızı gördü-

yün üst-üstə bir gün deyil, onun da yarısından çoxunu bayılmış halda olmusan, mənim qızımı nə zaman sevdin? Vallahi-billahı başqa adam olsa bən bilirdim yapacağımı, amma sən kızımın həyatını kurtarmısın…

– Kızını vermirsənmi?

Nəzrin olanlara qıraqdan gülümsünərək baxırdı.

– Oğlum daha qızımın ismini bile bilmirsən. – Bu dəfə qızın anası Hürü dilləndi.

– Nəzrin, – Nəzrin gülərək dilləndi.

– Nəzrin, – Ərol Nəzrinə baxaraq gülümsündü və tez qızın anasına cavab verdi.

Kürd Kazım qızına tərs-tərs baxıb dilləndi:

– O sənə sataşır,  yalan deyir oğlum, adı Nəzrin deyil.

Nəzrin başını yuxarı dartaraq:

– Yox, yalan danışmıram. – deyə güldü.

Kürd Kazım olan vəziyyətdən əsəbləşərək bağırdı:

– Ulan bənim sənə verəcək kızım yok! – tərs-tərs qızının üzünə baxdı.

– Öyləmi? – Ərol soruşdu.

– Öylə ulan! – kürd Kazım əsəbləşdi – Nə yapacan?

Ərol ayağa durmağa çalışdı.

– Nə yapyorsun ya? –  kürd Kazım təəccüblə soruşdu.

– Gedirəm çaya atlamaya!

– Ulan məni madaramı* etmək istəyirsən? Desinlər bir qonağına sahib çıkamadımı, həm də sana can borcum var! – Ərolu tutaraq dedi.

– Öyləysə kızını ver!

– Ermənilərə sahib çıxan bir köyəmi? – kürd Kazım özü-özünə danışdı, amma qızının Ərola necə baxdığın görüb, əlacsız halda soruşdu: – Kızım sən nə deyirsən?

Nəzrin gülümsündü, başını aşağı salıb otaqdan çıxdı.

– Mənə verdim deməkdə başqa bir şey saxlamamısınız ki! Verdim kızımı! – kürd Kazım əlini qaldıraraq, – Oğlum sənin adın nəydi?

---

* *bıyabır*

– Ərol!
– Ərol, amma bir şərtim olacaq!
– Nə şərt?
– Qızımı erməni bəlasından uzaq tutacaqsan, tamammı?
Ərol gülümsünərək, heç nə düşünmədən, bu şərtin nə qədər ağır olduğunu hiss etmədən:
– Tamam! Bundan kolay nə var ki?! – dedi.
Kürd Kazım nəsə demək istədi, amma demədi.
Nəzrinin bu söhbəti eşidib, gülümsündü, gözünün önünə Ərolun onu çayın qırağına çıxararkən tam əminliklə dediyi, «Sən yaşayacaqsan! Mən yaşadığım müddətcə sənin ölmənə izin verməm!» anı gəldi…
…Ərol ocağın sönməkdə olan közünün üstünə iki-üç odun atdı. Alov odun parçalarını yalamağa başladı. Ərol yanmağa başlayan odunlardan gözlərini çəkmədən dedi:
– O günlər mənim ən gözəl günlərimdir. Tez tələsik toy elədim. Heç bir ay olmamışdı Nəzrinimi tanıdığım, artıq bir yastığa baş qoyurduq. Qohum-əqrada soruşurdu ki, niyə belə hapar-topar evlənirsən? Anama deyə bildim sözümü, çünki Nəzrinə qarşı içimdə elə bir sevgi vardı ki, onsuz bir anı belə yaşayamazdım. Onsuz bir an belə mənə haramdı, itirilmiş zamandı. Mən onsuz bir an yaşayamazkən… – kövrəldiyi səsindən bəlli idi, – onsuzluğa duçar oldum. Amma yanına da gidəməm… İntiqamını almadan nasıl gedərim ki?! – o sızladı.
– Necə oldu ki, siz yenidən haylarla, ermənilərlə yan-yana yaşadınız?!
Ərol acı-acı gülümsədi:
– Nə oldu? Yoxsa mənim sözümdə yalnışımımı arayırsan?! 1905, 1906-cı ildə ermənilər sizə xəyanət etmədimi, nasıl unutdunuz?! Ama yox, sana daha dolğun cavab verəcəm, məndən şübhələndiyin için utanasın deyə. 1880-ci ildə başlayan hay-erməni ayaqlanmaları, müxtəlif illlərdə müxtəlif yerlədə baş verdi, iş o yerə gəlib çatdı ki, 1905-cı ildə “erməni komitəsi” Sultana sui-qəsd təşkil etdi, amma Sultan erməni sui-qəsdçilərini bağışladı.
– Niyə?!

– Bilmirəm? Söylənti var ki, anası israr etmiş ermənilərin bağışlanması üçün! Sultan II Əbdülhəmidin anasın Trimüjgan əslən ermənidir, əsl adı Vijrindir deyirlər. Nə qədər adını dəyişib müsəliman yapsalar da, demək ki, olmur! Erməni erməni olaraq, hay olaraq qalır!

1908-ci ildə hökümət II Məşrutiyyət elan etdi. Məclis yenidən açıldı. Məclisdəki 276 üzvdən 11 nəfəri "erməni" idi. Belə olduğu zaman "erməni komitəçiləri" söylədi ki, məşuriyyət olduğundan onlar köhnə əməllərindən əl çəkirlər və bundan sonra məmləkət üçün çalışacaqlar*. Və yenə onlara inandıq, demək ki, biz yenə onlara inanmaqla xəta etmişik. Çünki I dünya savaşı zamanı hay-ermənilər yenidən bizə xəyanət etməsi bir yana, onların tam silahla təhciz olmasından anlaşılır ki, onlar bütün bu illərdə durmamış, silahlanmış, hazırlanmışdı, xristianlarla iş birliyində olmuşdur. Amma bunu bizim anlamağımıza daha vardı. Biz elə sanırdık ki, haylar və ermənilər pis əməllərindən çoxdan peşman olublar, bir daha bizə xəyanət etməzlər! Erməni komitələrinin «məmləkət için çalışacayız» açıqlamasından sonra əsla xəyanət etməzlər! Necə deyərlər, «quşu dimdiyindən, erkəyi dilindən tutarlar».

…Ərol tarlasını tamamilə şumlayıb qurtarmışdı və bu üzdən də evə kefi kök qayıtmışdı. Həyətə girib ağacın kölgəsindəki taxtda dirsəklənərək uzandı və Nəzrini səslədi:

– Ay qız ayranın varmı?

Nəzrin sevincək evdən bayıra çıxdı:

– Gəldinmi? –Nəzrinın gözləri sevincdən parıldayırdı, – Tarla bitdimi?

– Bitdi-bitdi, sən məni nə sandın ya? – gülümsədi, – Cocuqlar hardadır kız?

– Əsligildə oynayırlar, – evə tərəf dönərək, – ayranını gətirib gəlirəm.

Ərol Nəzrinı seyr edərək gülümsədi, evdən geri dönən Nəzrin

---

* *«Osmanlı Meşuriyyət elan etdiyindən, biz Qnçaqlar, əyləmələrimizi, ihtilala fikirlərimizi buraxır və məmləkətin irəliləməsi üçün çalışacayıq» Sabah Gülay – Qnçaq Komitesinin üzvü.*

ərinin gülümsəməsini görürüb:

– Niyə gülürsən, nə oldu? – deyə soruşdu.

Ərol Nəzrinın üzünü, dodaqlarını, gözlərini ilk dəfə görürmüşcəsinə diqqətlə seyr edərək pıçıltı ilə:

– Kız sənin gözəlliyini görən birinin dərdli olması mümkünmü? – dedi.

Nəzrin ürəkdən qəh-qəhə çəkərək ayran dolu dolçanı Ərola uzatdı, əli ilə Ərolun saçına sığal çəkərək dedi:

– Ay yalansa?!

– Niyə kız, nə oldu ki?

– Dünən yeməyin altını yandırmışdım deyə az qaldın məni öldürəsən. – ucadan gülərək Ərola sataşdı.

Ərol da gülərək onu qucaqladı və dedi:

– Ac ayı oynamaz.

Hər ikisi ucadan güldü. Ərol üzünü Nəzrinın üzünə yaxınlaşdırdı, diqqətlə onun gözlərinə baxdı, sonra onun qoxusunu içinə çəkərək Nəzrini öpdü. Haykazgil tərəfdən Ərolun sonbeşik oğlu Alpayın səsi gəldi:

– Ana, ana babam gəldimi? – yanpörtü yırğalana-yırğalana onlara tərəf qaçdı.

Nəzrin tez taxtın uc tərəfinə çəkildi, Ərolsa ayrandan bir neçə yudum alaraq Nəzrinı süzdü. Nəzrin Ərolun üzündəki ifadəni görüb ucadan güldü. Ərolsa daha gülməli sifət aldı, Nəzrin daha da ürəkdən güldü. Alpay Ərolun qucağına çıxmaq və taxta minmək üçün dartındı. Anasının gülməsini görüb:

– Ana ne oldu?

Nəzrin daha ucadan gülərək əlini-əlinə vurdu, Ərol qalan ayranı bir nəfəsə başına çəkib mızıldandı:

– Ayran gətir ay qız, bəsdir güldün!

Nəzrin gülərək ona göz vurdu, qabı alıb acıq verirmişçəsinə yırğalana-yırğalana evə getdi.

Alpay nə qədər çalışdısa taxta çıxa bilmədiyini görüb babasını dartışdırdı:

– Baba, baba məni qucağına al!

– Gəl başımın bəlası, – deyə Ərol onu qucağına aldı.

– Baba niyə elə deyirsən? – Ərolun üzü ilə oynamağa başladı.

– Böyüyəndə bilərsən, itolu.

Nəzrin bu sözləri eşidib yenidən gülərək taxta oturdu və ayranı Ərola uzatdı.

– Sən də bəsdir ay qız, nədir gülürsən?

Nəzrin əli ilə qabı Ərolun ağzına yaxınlaşdırdı:

– Heç, sən ayranın iç, çöl çox istidir, – deyib yenidən güldü.

Ərolda gülərək ayranı yudumlamağa başladı. Birdən Haykazgilə tərəf çönərək soruşdu:

– Qonşu hələ gəlməyib? Tənbəldir də zalım balası.

– Yox. Əsli deyir deyəsən belini sərpib, şumun da vaxtı gedir, şuma gedib, amma ləng iştəyir. Yazıq…

Ərol oturaq vəziyyət alaraq dedi:

– İnsafsız bunu niyə bayaqdan demirsən, tez ayın-oyun hazırla, varım köməyə gedim, yeməyimi də orada yeyərəm artıq. Dostlar nə günə durur?!

Nəzrin tez boxça düzəldərək Ərola verdi və dedi:

– Sən canın tez get, onda düz əmməli kömək elə, yazıqdır.

Ərol gülərək:

– Onu yalansa yazıq yılan vursun, nə tülküdür o, bir mən bilirəm. – hər ikisi güldü. Ərol yola düzəldi.

Alpay atasının dalınca bağırdı:

– Baba məni də apar!

– Olmaz, ananı kim qorusun? – Ərol dönmədən cavab verib getdi.

Alpay anasını silkələyərək soruşdu:

– Ana Eyvaz emi tülküdür? O tülküdürsə bəs evdə, divarda dərisi olan nədir?

Nəzrin gülərək balasını qucağına aldı, yanağından öpərək dedi:

– Yox balam Eyvaz əmin tülkü deyil. Evdə dərisi olan tülküdür.

– Bəs babam dedi o tülküdür. Mən eşitdim axı.

Nəzrin güldü, Alpaysa təəccüblə anasına baxırdı.

Haykaz cütü yerə zorla sıxaraq ağır-ağır yeri şumlayırdı. Ərol arxa tərəfdən ona yaxınlaşaraq bağırdı:

– Haykaz, nə oldu? – gülməyə başladı, – Belin xarab olub deyəsən?

Haykaz dayanıb geri çöndü:

– Kardaş ben demedimmi mənim adım Eyvazdır yahu. Belim meni bele incitmirdi, sözün bana od vurdu. Bana Haykaz demə. – Haykaz incik sifət aldı.

Ərol daha ucadan gülərək:

– Ulan belini niyə sakatladın, biz sənin şeyini kəsmişik, belinə bir şey etmədik ki? – güldü, – Gəl oturaq, mən acam bir tikə çörək yeyək, sonra başlayarıq.

– Yox sənə əziyət verəməyə razı ola bilmərəm, sən də cansan.

– Ulan özunu tülkülüyə vurma, tərpənə bilmir, bir də naz edir.

Haykaz ona tərəf yaxınlaşaraq qucaqlaşıb görüşdü, sonra yaxınlıqdakı ağaca tərəf getdilər. Ağaçın kölgəsində bardamaş qurdular. Ərol boxçanı açıb göy otun üzərinə qoydu, saxsı qabdakı suyu götürdü ki, əllərini yusunlar, Haykaz bunu gözləmədən əlini uzadıb çörəyi kəsdi. Ərol bunu görüb dedi:

– Səndən adam olmaz Haykaz, sən necə müsəlmansan? Ə adam əvvəl bir əlini yuyar, – yenə ona sataşaraq güldü.

Haykaz qırdığı çörəyi ağzına ataraq:

– Qardaş onu Eyvaz etmədi, Haykaz etdi, indi əlimə su tök yuyum, Eyvaz acdır… – gülüşdülər.

Yeri şumlayıb bitirdikdə göz qaralmışdı, yol boyu biri-biri ilə zarafatlaşa-zarafatlaşa evə gəldilər. Evlərinin qabağına çatanda Ərol dedi:

– Gəl gedək bizə.

– Yox, heyvanı rahatlayım, yəqin Nəzrin bacı da bizdə olar, sən bizə gəl. – qolundan tutub dartdı.

– Yaxşı sən get heyvanı rahatla, mən getdim Əsli bacının ayranın içməyə, tez gəl. – Ərol Haykazın evinə getdi, Haykazsa dama girib öküzü bağlayıb gəldi.

Nəzrin və uşaqları da burada idilər. Ərolgil gecə yarıyacan oturdular, deyib güldülər. Gec olduğundan uşaqların yuxusu gəlirdi. Alpay anasına dartışdırarq:

– Evə gedək yuxum gəlir.

Əsli böyük qızı Fatmaya dedi:

– Qızım uşağı apar Məhəmmədgilin yerində yatsın. Qızım Selcan sənin də uykun gəlirsə gedin Fatma bacınla bir yerdə yatın.

Bir azdan uşaqlar hamısı evə doluşdu, oğlanlar yan-yana salınmış döşəkdə bir yerdə, Fatma ilə Selcansa o biri otaqda bir yerdə yatdılar.

Əsli Ərola tərəf dönərək:

– Sağ ol Ərol qardaş, yoxsa Eyvaz bu halı ilə heç şumu bir həftəyə də qurtara bilməzdi.

– Bacı o nə sözdü. Eyvaz mənim qardaşımdır!

– Yox elə demə. Mən öz qardaşlarıma da, bunun qardaşlarına da xəbər saldım, amma bax gəlmədilər. Amma sən sabah babanlara yardıma gedəcəksən, bilirəm, amma yardım əlini əsirgəmədin. Doğurdan da Məhəmməd dini və onun insanları böyük insanlardı. Məhəmmədə də, dininə də qurban olum. – Əslinin gözü doldu.

Nəzrin Əslinin yaşını silərək:

– Yaxşı da, nə oldu? Burda ağlanası nə var ki?

– Yox mən pis mənada ağlamıram, düşünürəm ki, nə yaxşı ki, sizi kimi tayfayla bir yerdə yaşayırıq, nə yaxşı ki, müsəlmançılığı qəbul etmişik. Yaxşı ki, müsəlmançılığı qəbul etmişik, yəni demək istəyirəm ki, biz erməni olsaq da, artıq müsəlmanıq, daha başqaları kimi kafirlik, quldurluq etmərik. Yaxşı ki, siz türklər varmış, bizə doğrunu göstərdi! Bizim hay-erməni quldurları 1896-da üsyan edəndə bizdən də bəziləri Osmanlıya, dövlətimizə xəyanət edərək erməni çətələrinə qoşuldu. Sizsə bizim birimizə də toxunmadınız. Haqqınız vardı, belə xəyanətə görə erməni quldurları, hətta bütün erməni tayfası qəzəbinizə layiq idi, lakin siz bizi qəzəblənmiş müsəlmanların əlinə vermədiniz. Ərol səni də, atanı da cənnətlik olasız inşallah. Ermənilərin imkanı olsa bəlkə də sizin hamınızı qırardı, sizsə… Sizin ürəyinizə, rəhminizə, qeyrətinizə, türk adınıza, Məhəmməd dininizə qurban olsun bütün ermənilər.

Ərol ortamı yumşaltmaq üçün dedi:

– Nə olsun bizim Eyvaz müsəlman olub, yenə də çörəyi kəsmədən əvvəl əlinin yumağı örənməyib, bir də onu öyrənsə olacaq tam müsəlman, yoxsa xeyri yoxdur. – hamı gülüşdü. Əsli də göz

yaşlarını silərək güldü.

– Sən ondan danışırsan ya abi, o kolay, bizə heyvanları ayrı damlarda yaşamaya öyrətdiniz ya, sən ondan konuş! Vallah şimdi anladım, insan kimi yaşamak nədir! – Haykaz ağız dolusu dedi.

– Ama hevanlar mənə şikayət etdirlər, deyirlər onlarsız darıxırıq! – Ərol Haykazın sinəsinə vuraraq güldü.

– Əşi yalan deyirlər, imkanım olduqca baş çəkirəm onlara. – Haykaz gülərək dedi: – Vallah doğru sözümdü.

Əsli ara pəncərədən uşaqlara baxaraq:

– Ay, aman Allah. – deyərək ayağa sıçradı.

Nəzrin də ona baxaraq ayağa qalıxdı, həyacanlı halda:

– Nə oldu ay kız? – deyə soruşdu.

– Alpay üstünü açıb, – qaçaraq otağa girib Alpayın üstünü örtüb qayıtdı.

– Sən də ki…dedim nə olub! – Nəzrin dilləndi.

– Ya kız sən dəlimisin? Alpay mənim canım, o konuşanda mən kanadlanıram! O bana hala* deyəndə az kalıram sevincimdən bayılam. Böylə tatlı şey olamaz yahu! Benim cici oğluşum hastalansınmı deyirsən? Ona gələn kütülüklər bana gəlsin, benimkilere gelsin! – əlini sinəsinə vuraraq dedi.

– Kız bu nə sözdür konuşursan gecə vaxtı?! Allah eləməsin! Ağzını hayıra aç!

– Bacı elə demə, mənim kardaşımın övlatlarını küçədənmi tapmısan? – Ərol yenə Haykaza sataşdı, – Ulan bu qarı nə diyor?!

– Vallah bu sözü düz deyir, bən daha Alpay kimi tatlı cocuk görmədim, Allah onu bəd nəzərdən saxlasın! – Haykaz səmimi şəkildə dedi.

– Yaxşı yahu, cocuk iştə. – Ərol bu söhbət bitsin deyə dedi və əlavə etdi. – Allah hamısını qorusun. Allahdan gözəl şeylər istəmək lazımdır!

– Öylə demə Ərol kardeş, vallah Alpay bənim canım, inan hər yatanda deyirəm, bir səhər olsa da Alpaycığımı görəm. – Əsli əllərini sinəsinə sıxaraq, – Yiyərəm onu. – deyib gülümsədi.

Ərolgil demək olar ki, səhərəcən söhbət etdilər. Onlar elə mehribancasına deyib gülürdülər, onları görən kimsə düşünə bil-

---

* *xala*

məzdi ki, bu qonşuluğun, bu dostluğun sonu gələ bilər...

*«Ərzurum türk ordusunda olan erməni zabit və əsgərləri silahları ilə birlikdə rus cəbhəsinə keçib silahlarını Türk Ordusuna qarşı istifadə edir»– Hayrknik qəzeti*

*(17. 07. 1915)*

*Köhnə Osmanlı hökümət məclisinin üzvü Murad ləqəbli Hamparsum Boyaçyan da rus cəbhəsinə keçmiş komitəçilərdən biri idi. O belə demişdir: «Erməni milləti təhlükə təşkil etdiyi üçün türk-kürd uşaqlarını belə öldürün».*

*I Dünya Müharibəsində Türk ordusunda görəv almış alman generalı Bronsart Schellendorf ermənilərin müsəliman əhalisinə qarşı etdiyi qətliamı belə təsvir edir: «Əli silah tutan müsəlimanların hamısı orduda olduğu üçün ermənilər tərəfindən müdafiyəsiz qalan xalq arasında qorxunc bir qətliam etmək asandı. Çünki ermənilər, cəbhədə ruslar tərəfindən yolu bağlanmış olan Şərq Ordusunun yanlarına və gerilərinə hücum etməklə yetinməyərək, bu bölgədəki müsəliman xalqını silib süpürürdü... Ermənilərin hərəkətləri azadlıq savaşına oxşamaqdan çox, xaincə və kin dolu idi».*

*(24. 07. 1921)*

1912-cı ildə Balkan savaşı başladı. Osmanlı Rumelidəki son torpaqlarını da itirdi, amma problem tək torpaqlar deyildi, 1,5 milyon türk öldürüldü, 500 min türk Anadoluya köç etdi. Məğlubiyyətə ducar olmuş Osmanlı höküməti Fransız, İngilis və Rus dövlətləri tərəfindən təzyiqlərə məruz qalırdı. Belə ki Bitlis, Van, Dyarbakır və Erzurum əyalətlərində bir xristian vilayəti qurulmalı idi və bu vilayətə avropalı xristian bir vali – Padişah sifətində idarə edəcəkdi. 1914-cü ildə I Dünaya müharibəsi başla-

mışdı, Osmanlının Rusiyaya savaş açmaqdan başqa yolu yoxdu. Bu zaman erməni patriyaxı və ermənilər Osmanlı hökümətinə sədaqət sözü verdi.

Belə bir vaxtında Erol da digər vətənoğulları kimi cəbhəyə getməyi qərarlaşdırdı. Ərol hamı ilə halallaşıb-sağollaşıb yola düşmək istəyirdi ki, Haykaz özünü yetirdi:

– Qardaş sənə canım qurban, gedirsənmi?

Ərol gülümsəyərək:

– Başqa türlüsü olmaz ki…

– Doğru, siz türklər cəsur millətsiniz! Yaşlı olmasaydım…

Ərol heç nə demədən başını yırğaladı. Haykaz sözünə davam etdi:

– Gözün arxada qalmasın, nə lazımsa bən yapacam.

Ərol sözün səmimiliyinə, sıcaqlığına elə inandı ki, belindən ailə rəmzi olan qədim xəncəri çıxaraıb Haykaza verdi:

– Bu xəncərin yaşı bəlli deyil, min illərlə ölçülür, bir zamanlar ulu atam Toğrulun belində olub, ona da atalarından yadigardır, yəni anlayacağın kimi bir ailə yadigarıdır. Ailəmin qürurudur bu hancər. Bu hancərlə bəlkə də yüzlərlə düşmən öldürülüb. Mən gəlincə səndə kalsın, ailəmi qoru Eyvaz, müsəlman qardaşım. – Ərol niyəsə son sözü onun yadına salma ehtiyacı duydu, səbəbini, niyəsini özü də anlamadı. Amma xəncəri verərkən beynindən ani olaraq belə bir fikir keçdi: – «Mən ailə yadigarı, ailəmin igidlik rəmzi xəncəri ona verirəm, o ya mənim belimdə olmalıdır, ya atamda, ya evdə» sonra tez duşuncəsindən utanaraq düşündü: – «Yahu o mənim din qardaşımdır, əmanətə xəyanət olmaz, belə etməyim yaxşı oldu, evimə ən yaxın ev onunkudur, biri-birimizə qardaş deyirik, daha nə olsun? Qoy bilsin ki, evimi, ailəmi əmanət qoyub gedirəm».

Cənubu Qafqaz cəbhəsində Osmanlı ordusu Rusiya ilə vuruşurdu. Vəziyyət gərginləşmişdi. II Nikolayın Türkiyə ermənilərinə vəd verirdi ki, Şərqi Anadoluda ermənilərə dövlət yaradacaq və İravanı da bu dövlətə birləşdirəcək. Çar II Nikolay 1914-cü ildə belə demişdi: «Rus bayrağı Canaqqala və İstanbul boğazında azadca dalğalansın. Türk boyunduruğu altında yaşayan xalqlar azadlığına qovuşsun. İsaya inandıqları üçün acı çəkən ermənilər rus himayəsində yeni, özgür yaşamlarına qovuşsunlar». Bunun

ardınca Daşnaksütun komitəsi də Türkiyəyə savaş elan etdi. Erməni komitələri bütün hay-erməni çətələrini bu şuar altında savaşmağa səslədi: «Azad olmaq istəyirsənsə ilk öncə müsəlman qonşunu öldür!».

Bu vəddən və çağırışdan sonra haylar və ermənilər yenidən yaşadıqları dövlətə xəyanət etdi. Rusların hücumu ilə Osmanlı ordusunda olan hay-erməni əsgərləri silahları ilə birlikdə qaçıb rus cəbhəsinə keçdi. Osmanlı ordusundan qaçmış hay-ermənilərdən və erməni çətələrindən ruslar «erməni könüllü intiqam alayları» yaratdı ki, bu alaylar rus ordusuna öncülük edirdi. Obrazlı desək, Osmanlı ordusuna ilk güllə atan yüz illərdə Osmanlı çörəyi yeyən vətəndaşları idi. Rus ordusunun Osmanlıya hücum etməsi ilə bərabər illərdi təşkilatlanmış, örgütlənmiş hay-erməni quldur dəstələri arxa cəbhədə müsəlmanları, yəni türkləri-kürdləri qırmağa başladı. Yəni anlayacağınız kimi, Osmanlının Şərqi Anadolu ordusu öndən Çar ordusu ilə, arxadan təşkilatlanmış hay-erməni çətələri ilə vuruşurdu. Orduya xidmət edəcək bütün yollar hay-erməni çətələri tərəfindən yararsız hala salınmış, körpülər dağıdılmışdı. Osmanlı ordusunun yaralı karvanları geriyə çatmadan hay-erməni çətərələri tərəfindən məhv edilirdi. Orduya göndərilən dəstək ləvazimatları türk ordusuna çatmadan hay-erməni çətələrinin əlinə düşürdü. Digər tərəfdən bütün kişilərin orduya alınması səbəbiylə sahibsiz qalmış müsəliman kəndləri hay-erməni çətələrinin hücumları ilə dağıdılırdı. Qadınların, qocaların, uşaqların başına gətirilən təcavüz və qətliamlar insanlıq sərhədlərini aşmışdı. Başı bütün dünyanın hərb maşını ilə döyüşə qarışan Osmanlının arxa cəbhəsində olan müsəlman-türk kəndləri müdafiyəsiz qalmışdı. Ermənilərin quldur dəstələrisə hər yanda başsız, silahsız, kişiləri orduda olan müsəlman əhalisini qırıb-çatırdı.

1915-ci ilin fevralında ingilis, fransız donanması İstanbulu işğal etmək üçün Çanaqqala boğazına hücum etdi, ən güclü hücumu isə 18 mart tarixində (Novruz bayramı ərəfəsində) etdilər, lakin itkilər verərək geri oturdular. Qəribə olsa da hay-ermənilər bu dönəmdə ayaqlandılar. 11 aprel 1915-ci ildə ayaqlanan hay-ermənilər Vanı rus ordusuna təslim etdi. 45 min türk nüfuzuna ma-

lik olan Van şəhərindəki qətliyamdan sonra 1500 müsəlman qalmışdı.* Osmanlı dövləti məcbur olub bir diviziyasını geri çağırdı ki, hay-erməni təhlükəsinin qarşısını alsın.

Ərol Vanda vəziyyətin gərginləşdiyini eşitmişdi, biləndə ki, bir diviziya arxa cəbhəyə göndərilir, dostu Həsənlə birlikdə bu diviziyada getmək üçün komandanından izin istədi. Komandan hay-ermənilərin qırğınlar törətdiyi vilayətlərdən olan əsgərləri arxa cəbhəyə göndərilən diviziyadan alaraq digər diviziyalara keçirmişdi, çünki komandan bilirdi ki, kəndi dağılmış əsgərlər digərlərinə nisbətən hay-ermənilərə qarşı daha acımasız olacaq. Dövlətin məqsədi isə ayaqlanmanı yatırmaqdı, daha hay-erməniləri məhv etmək yox.

Komandanın otağına girən Ərol əsgəri salam verdikdən sonra:

– Komandanım izin verin mən də bu divizyida gedim! – dedi.

Ərolu döyüşlərdəki qəhramanlıqlarına görə tanıyan komandan ona baxdı, başını yelləyərək dedi:

– Buna mənim ixtiyarım yoxdur, bu sənin üçün də, dövlət üçündə üyğun deyil.

– Məni tanırsın komandanım, mənim ağlım ailəmin yanındadır, mən burada bir dakkada qalamam. İzin verin. Bən burada zatən yararlı olamam.

Komandan Ərolun üzünə baxdı, gözündəki yalvarışı aydınca sezdi, bu baxış bir yalvarışdan daha artığını deyirdi, komandan onun gözlərinə baxaraq dedi:

– Bir şərtlə.

– Əmr edin komandanım. – Erol sevincək dedi.

– Sən türk əsgərisən unutma. Amansızlıq yox, əsir olanları öldürmək yox. Sən Türk onbaşısısan, özünü bu cür aparman gərəkir.

– Tamam komandanım. Amma Həsən də mənlə gəlsin.

– Get Allahın cəzası, mən söylərəm, siz hazırlanın.

Ərol var qüvvəsi ilə özünün və əmrindəki əsgərlərin amansız olmaması üçün çalışırdı. Təslim olan hay-erməni quldurları ilə əsir kimi davranılırdı. Əlləri qana batmış olsa belə hay-erməni qadın və uşaqlarına heç nə edilmirdi.

---

* *«Vanda yalnız 1500 türk qaldı» Qoçnak qazeti – 15 may 1915.*

Ərol hər hay-erməni qadınını görəndə Əslinin də, Haykazın da erməni olduğunu, lakin buna baxmayaraq yaxşı insan olduğunu düşünürdü.

Hay-erməni çətələrinin Ərolgilin kəndini dağıtdığı xəbəri gəldikdə Ərol bir bölük əsgərlə köməyə tələsdi. Onlar kəndə girəndə hər şey bitmişdi, kənd yerlə-yeksan edilmişdi, daş üstündə daş qalmamışdı, hər yan insan meyitləri ilə dolu idi. Kəndin torpağı qana, səması qara tüstüyə qərq olmuşdu. Kənddə sağ kimsə gözə dəymirdi. Əsgərlər bağırırdı, səslənirdi ki, bəlkə sağ kimsə var, amma səs gəlmirdi. Əsgərlər göz yaşı içində irəliləyirdi. Gördükləri mənzərə dəhşətdi, bu kəndəki insanlar da digər kəndlərdə məhv edilən müsəlmanlar kimi linc edilmişdi, min əzabla öldürülmüşdü. Hər yan kəsilmiş qulaq, burun, əl, başla dolu idi. Ağaca mıxlanan, başı əzilmiş, qarını kəsilmiş, gözlərini çıxarılmış insan meyidləri küçələri doldurmuşdu. Bütün cəsədlərin üstündə işgəncə izləri vardı.

Həsən bu səhnələri gördükdə qəlbi sançdı, ağlına gələn fikirdən ayaqları titrədi, dizi üstə çökdü, gözünü evlərinə tərəf çevirdi, sanki ruhuna demək istəyirdi ki, mənim taqətim yoxdur, sən uç o tərəfə, gör nə var-nə yox, yoxsa mənim ailəmi də qırıblar? Anidən Həsən bağırdı, daha doğusu yaralı qurd kimi uladı, ayağa qalxaraq var qüvvəsi ilə evlərinə doğru qaçdı. Əsgərlər əvvəlcə nə olduğunu anlamadı, Ərol əsgərlərə tərəf çönüb əmr etdi:

– Bir-iki nəfər məni izləsin, Həsənin arxasınca. Qalanlar evləri axtarın, tək girməyin! – Ərol Həsənin arxasınca götürüldü, üç əsgərdə onun arxasınca qaçdı.

Həsənin həyətlərinin qapısından içəri girməsinə üç addım qalmışdı, amma sanki zaman işləmirdi, atdığı hər addım illər qədər çəkirdi, ürəyinin döyüntüsü beyninin içində eşidilirdi. Yalvarırdı:

– Bircə sağ olaydılar. Dayana bilmərəm bu acıya. Yox bircə sağ olsunlar! – addımının daha ikisini atdı, cəmi bir addım qalmışdı ki, həyətin kandarına ayaq bassın, baş verənləri gözləri ilə görsün. Amma səbri çatmadı, bağırmaq, evdəkiləri haylamaq istədi, amma səsi çıxmadı. Yalnız boğazından zəifcə bir xırıltı nidalandı. Bədənini soyuq tər basdı, sonunda o son addımı da atdı, qa-

pını itələyib açdı. Qapı çırıltıyla açıldı, Həsən özünü həyətə doğru atdı, dizi üstə çökdü, yıxılmamaq üçün əllərini qabağa atdı, başını qaldırıb gözünü hərləyərək həyətə baxdı. Beynindəki yalvarış nidası susdu, dərindən nəfəs almaq istədi, amma nəfəs alma iqtidarında deyildi, yalnız ürəyinin şiddətlə vurmasını eşidirdi. Həsən bütün qüvvəsini toplayaraq dərindən nəfəs aldı, ayağa qalxdı. Hər şey gözündə axırdı, buna məhəl qoymadan səndələyərək həyətin ortasına tərəf bir-neçə addım atdı, qan gölünün içində dayandı, əlini başına alaraq bığırmaq istədi, əvvəlcə boğazından çıxan səs ilan fışıltısını xatırlatdı, sonra səsə xırıltı qarışıraq getdikcə kobudlaşdı və tükurpətici səsə çevrildi. Dağın meşəlik tərəfindən bir neçə qurd ulayaraq onun fəryadına hay verdi. Anası ağaca mıxlanmışdı, qarnı yarılmışdı, bağırsağı yerə tökülmüşdü. Atasının başı kəsilmişdi, qulağın kəsilməsi onu göstərirdi ki, onun əvvəlcə qulağı kəsilmiş, sonra başı kəsilmişdi. Özünün və qardaşları uşaqlarının cəsədi həyətlə dolu idi. Arvadı, yengələri min oyunla öldürülmüşdü. Bütün ailənin qanı biri-birinə qarışmışdı, Həsən də həmin qan gölünün içində, həyətin ortasında dayanmışdı. Gözündən qopub tökülən yaşlar həmin qan gölünə damırdı. Ürəyi daha şiddətlə vurmağa başladı, sinəsində sanki od qalanmışdın, dizləri bükülərək qan gölünə düşdü, iməkləyərək qan gölünün içində dövrə vurdu, vəhşiliklə öldürülmüş can-ciyərlərinin meyidlərinə baxdı. Ya aldığı nəfəs ona azlıq etdiyindən, ya nəfəs ala bilmədiyindən ləhləyərək tez-tez nəfəs almağa başladı. Arxadan gələnlər yetişib həyətə girmişdi. Hamı Həsənin üzündəki ifadəni, əzabı görüb donmuşdu. Ərol ona yaxınlaşmaq istədi…

…Həsənin ürəyini sanki kimsə burub kökündən qoparmaq istəyirdi, ürəyi döynməkdən çox zoqquldayırdı, hava qurğuşun olub boğazından keçmirdi, yaşlar duz-istiot olub gözlərini yandıra-yandıra qan gölünə tökülürdü. Üzünün əzaları əsirdi, bədəni uçunurdu…

Ərolun Həsənə çatmasına cəmi iki addım qalmışdı ki, Həsən ani hərəkətlə yenidən yaralı qurd tək uladı və tabancanı öz ağzına soxraq atəş açdı, Həsənin qanı Ərolun üzünə sıçradı, Həsənin qanı can-ciyərlərinin qan gölünə qarışdı. Ərol əyilib Həsəni qucaqladı, Həsənin atası kürd Əlinin başsız meyidinə baxdı, bir-

dən öz ailəsi yaddına düşdü, dəli at kimi sıçrayaraq ayağa qalxdı və evinə doğru qaçdı, yol bitmirdi, yol boyu səpələnmiş cəsədləri tapdalamamaq üçün saga-sola tullanaraq qaçırdı:

– Nəzrin, Nəzrin… – tənginəfəs halda səsləndi. Amma evdə kimsə yoxdu. Haykazgilin evindən Nəzrinın səsi gəldi:

– Ər… ol…

– Demək Haykaz ailəmi evində gizlədib, ailəmi qoruyub, var olsun qardaşım. – deyə düşünən Ərol Hakazın evinə doğru qacdı. Qapının önündə dayandı, dərindən nəfəs aldı, gözünü yumub qapını açdı.

– Ərol… gəl…din…mi… – Nəzrin zarıdı, gözündən yaşlar süzülərək sinəsinə töküldü.

Ərol Nəzrinın səsindəki ölüm titrəyişini duyaraq gözlərini açdı, ev qan gölünə dönmüşdü. Qızının, oğullarının meyitləri döşəmədəydi. Nəzrin qollarından divara mıxlanmışdı. Başında tikanlı məftil vardı. Sinəsi doğram-doğramdı. Ərolun Haykaza verdiyi xəncər Alpayın ürəyinə sancılmışdı. Döşəmədə uzanan körpə Alpayın gözləri anasına baxaraq əbədi olaraq donmuşdu. Anasının sinəsindən axan qanla Alpayın qanı qarışmışdı. Haykazın oğlu Məhəmmədin də meyidi bu meyidlərin içində idi.

– Ərol mə…nə baxma… utanı…ram! Baxma… – Nəzrin gözlərini aşağı dikdi.

Ərol can verən Nəzrinə yaxınlaşdı. Nəsə etmək istədi, amma bilmədi nə etsin. Nəsə demək istədi, amma bilmədi nə desin. Yalnız zarıdı:

– Nə ediblər sizə?! Bağışla, qurbanın olum Nəzrin! Mən yaşadığım müddətcə sənin ölmənə izin verməərəm demişdim, amma mən yaşayıram, sizin halınıza bax! Bağışla qurbanın olum! – o yumruqlarını düyünləyərək bağırdı, sifətinin əsməyən əzası qalmadı, sifəti köpərək qan rəngi aldı, burnundan qan açıldı, tökülərək döşəmədəki qana qarışdı.

Nəzrin xırıldayaraq dedi:

– Allah ermənі… lərə lənət elə…sin. Allah Haykaz…ın, Əslinin…

… Kənd hay-erməni quldurlarının basqınına məruz qalmışdı.

Nəzrin kəndin aşağı hissəsindən gələn səsə  çölə çıxdı, səs-küy gələn tərəfə boylandı. Kəndin aşağı hissəsini   od-alov bürümüşdü, qadın, uşaq qışqırtısı güllə səsinə qarışmışdı. Nəzrinin rəngi avazıdı,  ilk əvvəl vahimə  içində  o tərəfə qaçdı:

– İlahi görən nə baş verib? – deyə düşünürdü, –  Bu nə  bağırtıdır? Anamgilə heç nə olmasa barı? – deyə kəndin köhnə küçələrinə, Ərolun atası evinə tərəf qaçdı.

Evin son beşiyi olan Alpay ağlayaraq Nəzrinin arxasınca bağırdı:

– Ana getmə, kardaşlarım deyir ki, ermənilərdir! Mən qorxuram!

Nəzrin Alpayın səsinə dayandı, onun səsini eşitdikdə anladı ki, haylar, ermənilər kəndi basıb, bəs o hara gedir, uşaqları gizlətmək lazımdır.  Tez  geri dönüb, ağlayan oğlunu qucağına alaraq evlərinə sarı qaçdı, böyük oğluna səsləndi:

– Hadi evə, ermənilər gəlmədən sizi saklamam lazım. – onun qorxudan səsi titrəyirdi, rəngi dümmağ olmuşdu.

Onlar  tək gümanları olan qapılarını arxadan bağlayaraq evə sığınmışdılar. Alpay qorxudan tir-tir əsərək anasının qucağına sığınmışdı:

– Ana babam hanı, ermənilər gəlmədən gəlirmi?

– Babanmı… – Nəzrinin səsi qırıldı, düşündü: – Kaş indi burada olsaydı, kaş kəndimizin on onu kimi igidi burda olsaydı, hayların-ermənilər…

Ərolun böyük oğlu Alpaya cavab verdi:

– Babam savaşdadır, burda olsaydı ermənilərin həpsini kırardı. Nə babam köydə, nə  əmilərimiz, nə başqa kimsə, kaş olsalardı… – o dişlərini qıcadı.

Nəzrin qorxudan titrəyən sonbeşiyinə baxaraq onu daha bərk qoynuna sıxdı:

– Qorxma oğlum, mən burdayım, abin burda.

Elə bu vaxt kimsə qapılarını itələdi,  bağlı olduğunu görüb, qapını döyərək səsləndi:

– Bacı, ay bacı… Nəzrin mənəm, Eyvazdır, mənəm e korkmayın. Bizim evə keçsəniz yaxşıdır!

Güllə səsindən, bağırtı səsindən rəngi-izi qaçmış  Nəzrin

Haykazın səsini, daha doğrusu «bacı» sözünü eşidib sevindi, cəftəsini bağladığı qapını açaraq çölə çıxdı.

– Bacı bu nə sifətdir, qorxma, qardaşın ölüb? – Haykaz əlini sinəsinə vurdu, – Uşaqları da yığ, tez keçək bizə. Onlar bizə dəyməz. Hadi cabuk olun. – o əli ilə uşaqları çağırdı.

Nəzrin uşaqları sevincək səslədi, sonbeşiyi Alpayı qucağına alaraq Haykazgilə keçdi. Evə elə təzəcə girmişdilər ki, onların ardınca Haykazın, Əslinin qardaşları evə doldu. Nəzrin onların hamısını bir arada görəndə ağlı bulandı, qorxudan ürəyi şiddətlə döyünməyə başladı. Amma özünə təssəlli də verməyə çalışdı, «yəqin hamısı bir yerə yığışıb ki, bizi qorusunlar, hə yəqin elədir». Evdə Nəzrinin əvvəllər görmədiyi bir adam da vardı, o sərt baxışlarla Haykaza baxırdı, Haykaz niyəsə onun baxışları altında tədirgin oldu, bir neçə an duruxdu, lakin anidən sifəti dəyişdi. O, Ərolun verdiyi xəncəri qınından çıxararaq əlində tutdu, bilinməyən bir səbəbdən gülməyə çalışdı, sanki özünü kiməsə göstərirdi. Nəzrin Haykazın xəncər olan əlinə baxaraq:

– Qardaş niyə xəncəri çıxardın? Nə olduuu? – uşaqları arxasında gizlətməyə çalışdı.

Haykaz bayaqkı adama baxdı, udqundu, üzünü Nəzrinə çevirdi, amma gözlərini yerə dikərək dedi:

– Türklər neçə deyir? – Səsini sərtləşdirmək istədi, – «Qından çıxan xəncər düşməni öldürmədən qınına girməz», evet… – gülməyə çalışdı.

Nəzrin özünü itirərək Əsliyə doğru döndü, əli ilə uşaqlarını arxasında gizlətməyə çalışdı, gözləri dolmuşdu, həm qorxurdu, həm də niyəsə pərt idi:

– Bacı bu nə danışır? Qurbanın olum belə şakamı* olar? – dodaqları əsdi, gözündən yaş damçıladı, – Yavruların bağrı qan oldu axı! – özlüyündəsə vəziyyəti qiymətləndirə bilmirdi. Axı neçə illərdi qonşu olduqları Əsligillin rəftarını indiki rəftarlarıyla qarşılaşdırdıqda, bu dəyişiklikdə bir uyğunluq tapa blmirdi, bir məntiq görə bilmirdi.

Əsli gözlərini Nəzrindən qaçırdaraq otaqdakılara baxdı, ba-

* *zarafatmı*

yaqkı adamın sərt baxışlarından sanki diksindi, bir an durdu, gözlərini yumub dərindən nəfəs aldı, gözlərini açaraq bağırdı:

– Bacı? Nə bacısı? Mən niyə sənin bacın oluram? Mən erməniyəm, sənsə müsəlimansan!

– Bəs deyirdiz ermənilər xiristian türküdür?! Bəs deyirdiz ermənilər və türklər qardaşdır? – Alpay anasının dalından boylanaraq dedi.

Əsli Alpaya baxdı, gözləri doluxsundu, çönüb öz uşaqlarına baxdı və dəlicəsinə bağırdı:

– Mən er-mə-ni-yəm, – sözu bağıraraq hecaladı, – türklə erməni qardaş olmaz, tamammı?! Ermənilərin qardaşı haylardırrr! – bayaqkı adamın üzünə baxdı və özünü sanki kiməsə təsdiqləmək üçün bağırdı, – Haylar bizim qardaşımızdır! – Əsli dəli kimi bağırdı.

– Siz axı musəlamandınız, nə oldu? – Nəzrin key halda sual verdi, artıq heç nəyi ayırd edə bilmirdi, gördükləri hadisələr, yuxuda olan rabitəsiz kabuslara oxşayırdı. Yad adamın hər kəsi qəribə bir tərzdə tamaşa etdiyini sezib: – Bəs bu kimdir?! Niyə ondan çəkinirsiz! Əsli sənə nə olub?!

Əsli sanki diksindi, bir iki addım geri çəkildi, kimin üçünsə pıçıldadı:

– Biz sizi öldürməliyik! – gözündən yanağını bir iki damla yaş süzüldü, tez biləyi ilə üzünü sildi və bağırdı – Biz erməniyikkkk! Biz hayıqqq!

– Əsli, Haykazzz bəsdirin! Bəsdirinnn. – Nəzrin niyəsə pərt halda dedi.

Bayaqkı adam hissiyyatsız bir tonal dedi:

– Nə oldu? Çox gözləyəcəm?! Bu qancığa bizim dinimizi başa salın, İsanı necə çarmıxa çəkiblərsə, siz də bunu elə divara mıxlayin! Qoy bilsinlər ki, erməninin dini elə erməni olmaqdır. Nə xristian, nə islam fərq etməz! Əzabkeş olan İsa deyil, bizim hay xalqıdır! – Haykazın key-key ona baxdığını görüb bağırdı, – Bu dünya sınaqdır, sınaqqqq, başa düşürsüz?!

Haykazın xəncəri tutan əli əsirdi, o digər əli ilə də xəncərdən tutub irəli atıldı... Nəzrinın uşaqlarının bağırtısı evi başına götürmüşdü. Ermənilərin hərəsi bir uşağı qucaqlayıb tutdu. Sonra Hay-

kaz, Əsli və onun daha iki qardaşı Nəzrinin çırpınmasına baxmayaraq, yalvarmasına baxmayaraq, Allahın, Məhəmmədin, İsanın adını çəkməsinə baxmayaraq, onu qollarından divara mıxladılar, bayaqkı adam isə bu olanlara sadəcə tamaşa edirdi. Nəzrinin qollarından axan qan döşəməyə damırdı. Əsli əlini uzadaraq qəribə şəkildə yellədi, saga sola var gəl etdi, bayaqkı adama baxaraq:

– Biz indi nə etməliyik?! Bitdi?

– Davam edin, davammm! – bayaqkı adam halını pozmadan dedi.

Nəzrinin qolları yana açılaraq divara mıxlanmışdı, qollarından qan damırdı, lakin öz acısına baxmayaraq yalvarırdı:

– Yalvarıram yavrularıma tokunmayın, yalvarıram. – O, göz yaşları içində yalvarırdı.

Bayaqkı adam oturduğu yerdən qalxıb Nəzrinə yaxınlaşdı, barmağını onun qanına toxundurub ağzına aldı:

- Türk qanı, – gülümsündü, – möhtəşəm daddır! Zəfər dadıdır! – Üzünü Haykazgilə tutdu, – Baxın zəfərin dadına! Baxın!

Əsli tez əlini Nəzrinin qanına batırıb ağzına yaxınlaşdırdı, dodağına vurub gülümsəməyə çalışdı:

- Haqlısız Aşot abi! – öyüməmək üçün özünü zorla saxladı.
- Abi yox, **mets yekxbayr*** – deyəcəksən. – Aşot əmredici tonda dedi.
- Hə, əlbəttə mets yekxbayr! – Əsli qorxmuş halda dedi.

Haykaz və digərləri də Aşotun dediklərini yerinə yetirərək barmaqlarını Nəzrinin qanına batıraraq daddılar.

Aşot çölə çıxdı, bir dəqiqə sonra əlində bir topa məftil ilə içəri girdi, Haykazın böyük qızını əli ilə yanına çağırdı:

- Bura gəl gözəl qız. – Əyilib onun dodağının yanından öpdü, məftil topasını onun əlinə verib dedi: – Apar qoy onun başına, apar.

Fatma atasıgilə baxdı, əsən əli ilə məftil topasını götürüb Nəzrinə yaxınlaşdı, məftil topasını astaca onun başına qoydu.

Aşot başını bulayaraq bağırdı:

- Məftili başına keçirt, dart!

– Başına dar gəlir axı… – qorxudan əsərək ağlamsındı.

---

* *“böyük qardaş” erməni dilində*

Aşot  Fatmaya yaxınlaşaraq əlindən tutdu, onun üzünü Nəzrinə doğru çevirərək dedi:

- Məftildən tut! – arxadan  özünü ona sıxdı və  onun əlindən tutub məftili dartaraq Nəzrinin başına keçirdi, gülümsündü: – Bax belə… Gözəl qız, gördün? – Nəzrinə baxaraq, – Amma nəsə çatışmır… Aaaa tapdım. – Fatmanın barmağından tutub Nəzrinin bir gözünü çıxardı. – Bax indi oxşadı…

Fatma tir-tir titrəyərək ağlayırdı. Nəzrin acısından çığlıq atırdı. Haykazgil sakitcə dayanmışdı. Aşot isə Fatmanı arxadan qucaqlayaraq  əlini Nəzrinin üzünə gəzdirirdi.

Məftilin tikanları Nəzrinin baş dərisini  parçalamışdı, yaralarından axan qan gözünün qanına qarışıb sinəsinə doğru tökülürdü.  Nəzrinsə ona verilən fiziki əziyyətdən daha ağır bir dərdi vardı, o  düşünürdü ki,  mənim  yavrularımın sonu necə olacaq?!

Sonra Nəzrinın gözü qabağında uşaqlarına min zülm edərək canlarını almağa başladılar. Nəzrin çırpınır, bağırır, yalvarırdı, Tanrının, Məhəmməd peyğəmbərin, İsa peyğəmbərin, İncilin adını çəkirdi, fayda etmirdi. Məgər  hayların din anlayışı vardı ki?!

Aşot baş verənlərdən narazı qalacaq olmalıdır ki, Haykazın əlindəki xəncəri alıb Əslinin əlinə verdi və onun əlindən tutaraq dartdı,  «ana, ana» deyə bağıran  Alpaya yaxınlaşdı və bağırdı:

– Öldürrr!

– Qurbanın, kölən olum Əsli, barı ona toxunma, sən ki onu çox istəyirəm, deyirdin. – Nəzrin yalvardı. Dartındı qolunun mıxlanan yerlərindən qan daha şiddətlə axmağa başladı.

Əsli  Aşotun səsindən diksindi, bir neçə an dayandı, anidən sürətlə  xəncəri Alpayın sinəsinə sapladı, dizi üstə yerə çökdü, qəh-qəhə çəkərək dəli kimi gülməyə başladı,  Aşotun qışqırdığını eşidib gözünü yumaraq Alpayı xəncərləməyə başladı, hər xəncəri sabladıqda özü də diksinirdi, dəli kimi bağırırdı.

Alpay gözünü anasına zilləyərək bağırdı:

– Ana, ana… Baba hanı? Cağır gəlsin…– o ağlayaraq dedi. – Ana! Əsli hala canımı acıtyor! – Alpay hələ də Əsliyə xala deyirdi.

Əsli  əli ilə onun ağzını tutdu, ağlayaraq xəncəri Alpayın ürəyinə  sapladı. Alpay cabaladı, ağzından qan gəldi, gözünü anasına

digərək bir neçə dəfə cabaladı və o vəziyyətdə də heykələ döndü.

Aşot son mənzərədən deyəsən razı qalmışdı, gülümsünərək ətrafını süzdü, küncə büzüşmüş Selcana yaxınlaşaraq qolundan tutub sürüyərək otağın ortasına gətirdi, üzünü Nəzrinə tutaraq dedi:

– Sənə toxunmadıq, bir şey yapmadıq, amma kızına yapsak kızmazsın, deyilmi? – qəh-qəhə çəkərək güldü. – Sənə bir şey yapmadığımıza kızmassın deyilmi?!

Bu zaman Haykazın böyük oğlu Məhəmməd içəri girdi, bu mənzərəni görüb:

– Siz nə edirsiz? – atasının, anasının əlinin qana batdığını görüb, – Siz nə etdiz? Siz Ərol abiyə söz vermişdiniz! – deyə bağırdı.

Aşot Məhəmmədə doğru gəldi:

– Bu nə tərbiyədir vermisiz? Kilsə buna bağışlamayacaq! – o əlini qaldırıb Məhəmmədi vurmaq istədi, Məhəmməd onun əlini havada tutub ard-ardına üç dəfə kəllə ataraq onun sifətini al qana buladı. Aşot arxası üstə yıxılaraq burnunu tutdu və zarıdı, – Burnumu qırdın!

– Öl köpək, sən Selcana toxunursan, hə? – var gücü ilə iki ayağının arasına təpik vurdu.

Haykaz tüfəngi tuşlayaraq iki əl atəş açdı, Məhəmməd və Selcan al qana boyandı:

– Gücüm buna çatır oğul… – pıçıldadı.

… Ərol söhbətinə davam edirdi:

– Mənim kəndimdən bir kimsə sağ qalmadı. Hay-ermənilər 1915-ci ilin aprel ayında Türkiyənin Van şəhərini ələ keçirdi, kəndlərində qırğınlar törətdi, minlərlə türk-kürd müsəlman qardaşlarım qırıldı. Ardınca Bitlis əyaləti də eyni vəhşiliklərə məruz qaldı. Dövlətinə xəyanət edən hay-erməni köpəkləri Osmanlının arxa cəbhəsini laxladırdı, artıq yüz minlərlə müsəlman vəhşiliklərlə məhv edilmişdi. Bunun nəticəsi kimi rus ordusu hay-erməni quldur dəstələri ilə birlikdə Şərqi Anadolunun böyük bir hissəsini işğal etdi. Gözəlim Trabzon, Ərzurum, Bitlis, Van rus

və hay-erməni köpəklərinin əlində keçdi*. Onların işğal etdikləri yerlərdə iki milyon yarımdan çox türk-kürd qardaşım amansız vəhşiliklərlə məhv edildi, bir o qədəri də didərgin düşdü. Gözəlim, şəhərlərim viran qaldı, canım kardeşlərim şəhid oldu!

1915-ci ildə hay-ermənilərin bu xəyanətinin qarşılığı olaraq Vanı tutan rus ordusu II Nikolayın əmri ilə ruslara tabe olam bir erməni quberniyası yaratdı və Aram Manukyan Rusiyanın Vandakı qubernatoru təyin olundu. Bu hadisədən sonra rusların və ermənilərin ayağı dəyən yerlərdə bir nəfər də olsun sağ kürd və türk qalmayacaqdı, onlar min vəhşiliklərlə tikə-tikə doğranacaqdı və min cür işgəncəyə məruz qalanlar Osmanlı əsgərləri deyildi, silahsız türk və kürd qadınları, qocaları və uşaqlarıydı, bu qətliyama məruz qalanlar müsəlmanlardı!

Hay-ermənilər tarixdə ilk dəfə dövlət qurmanın qüruru içində bu ərazilərdə ki, müsəlman çoxluğunu qıraraq sıfıra endirmək istəyirdi. Tarix o günəcən belə bir qansızlıq, belə bir vəhşilik, belə bir qətliyam görməmişdi, demək istəyirdik. Lakin eyni vəhşiliyi İzmir boyu sahildə yunanlar edirdi, işğal etdikləri bütün kənd və şəhərlərdə hamını min vəhşiliklə, eyni dəsti-xətlə öldürdülər. Ən qorxuncu isə bu idi ki, yunan, erməni vəhşiliklərini nəinki ruslar dəstəkləyirdi, bu terroru eyni zamanda bütün Antanta dövlətləri də dəstəkləyirdi! İngilislər və fransızlar öz ordularında Fələstin və Suriya haylarından legionlar yaratmışdı. Bundan da qorxuncu bilirsən nə idi

– Nəə? – Azad pıçıltı ilə soruşdu.

– Hayların payladığı cağırış vərəqlərdən biri mənim də əlimə keçmişdir, burada belə yazılmışdı: «Türklərlə müharibə ermənilər üçün müqəddəs müharibədir, bir növ səlib yürüşüdür. Hər gün Qarsda, Aleksandropol və İravanda üzün əsrlər xristianların düşmənlərinə qarşı nümayişlər keçirilir. Hər gün erməni gəncləri dəstə-dəstə könüllülər korpusuna qoşulur». Yəni xiristiyan dünyası Türkiyədə səlib müharibəsi aparır, bizim dünyadan

***Osmanlının daxili işlər naziri Tələt paşa bu haqda belə demişdir: « Müharibə dövründə Zeytunda, Bitlisdə, Sivasda və Vanda baş vermiş erməni üsyanları ölkəmizin movcudluğuna və gələcəyinə təhlükə yaradan xəyanətdən başqa heç nə deyil.*

xəbərimiz yoxdu.

– Səlib müharibəsimi? Axı tarix kitabları deyir ki, bu savaş XIII əsrdə bitib? – Azad təəcüblə soruşdu.

– Hə, məsələdə elə bundadır da. Kitablara görə və biz türk, müsəlmanlara görə səlib yürüşləri XIII əsrdə sona yetmişdir. Lakin belə çıxır ki, səlib yürüşü o vaxt sona yetməmişdir, sadəcə o zaman türklərə gücləri çatmadığına görə bu itlər münasib zaman gözləmişdilər. Bu günsə Rusiya bir tərəfdən, Fransa, İtaliya, İngiltərə, ABŞ-sa digər tərəfdən, "hay-ermənilərі",yunanları dəstəkləməklə, bilmədiyimiz başqa gizli yollarla səlib yürüşünü davam etdirirlər. Bu hayların çağırış vərəqələrində aydınca ifadə olunmuşdu. Xristian dünyasının hayları, erməniləri, yunanları dəstəkləməsi, hayların öz terror əməllərini müqəddəs müharibə-səlib yürüşü adlandırması bunun təsdiqi deyilmi?! – Ərol bir müddət susdu, yenidən söhbətinə davam etdi: – Türkiyəni talan etmək istəyən rus ordusunun böyük hissəsi hay-ermənilərdən təşkil olunmuşdur. Fransa və İngiltərənin şərq**i** hərbi **kontingetinin***
yarıdan çoxu Suriya və Fələstin haylarından təşkil edilmişdi. Bu müharibə üçün onlar İraq, Fələstin, Suriya, Livan haylarından könüllülər toplamışdılar və silahlandırmışdılar. Və ermənilər bu amansız savaşda iştirak etməyə məcbur edilmişdi. Yunanları silahlandırıb töküblərizmir ətrafına, bu nizamlı, yaxşı planlaşdırılmış bir oyunun görünən tərəfidir! Demək dünyanın bütün yerindəki haylar, ermənilər, yunanlar xristian dövlətləri tərəfindən bizə qarşı istifadə edilir və əslində oyuncağa çevrilən ermənilərin isə başqa yolu yoxdur! Onlar bizi məhv etmək üçün böyük və amansız bir plan hazırlayıblar! Bəs biz əvəzində nə tədbir görürük?! – özü də cavabladı, – Heç nə! Bu təhlükə bu günlə bitəcəkmi? Mən inanmıram! Bu xiristian dövlətləri erməniləri haylaşdırdı və onlar gələcəkdə də türk və müsəlman dünyasına səlib yürüşləri edəcəklər! Azad başa düşürsənmi?! – Ərol əsəbindən xırıldadı. – Hay, erməni xəyanətin nəticəsi kimi dövlətimizin gələcəkdə yenidən xaçlı xəyanətinə düçar olmamaq üçün hayların və ermənilərin Anadoludan cənuba deportasiyası aktını hazırladı. Osman-

* *Fransa və İngiltərənin* ərəb yarmadasında olan *ordu birləşmələri*

lı hökuməti yalnız indi anlamışdı ki, niyə ruslar 1828-1829-cu ildə məğlub tərəf olan Osmanlıdan Fələstin və Suriyada yaşayan hayları Trabzon və Van ətrafına köçürülməsini tələb etmişdir. Və indi bura gətirilən haylar və ermənilər xristian dünyasının dəstəyi ilə Osmanlıya xəyanət edirdi, nəticədə hökumət onları gəldikləri yerə göndərməyi qərarlaşdırmışdı. Digər tərəfdən bu deportasiya hiddətlənən türk-kürt millətinin qəzəbindən hay-ermənilərin qorunması üçündü. Hay-ermənilərin hərəkətləri kürd qardaşlarımızı daha çox hiddətləndirmişdi, çünki Daşnak partiyası kürdləri ermənilərin düşməni elan etmişdi və deyirdilər ki, vətən istəyirsizsə ilk əvvəl kürdləri qırın və kürdləri amansızca qətl etmişdilər! Bu isə kürdlərin intiqam hissini alovlandırdı, kürdlərin alovlanan intiqam hissi isə ermənilərin qırılması deməkdi və bu intiqam hissinin səbəbi və günahkarı yenə hayların özü idi. Kürdlər bu səbəblə Osmanlı dövlətinin hay-ermənilərə qarşı barışçıl olmaq çağırışını rədd etdilər.

– Daşnaklar niyə kürdləri qırın deyirdi ki? – Azər soruşdu.

– Çünki ingilislər bu ərazidə kürdləri də Osmanlıya qarşı istifadə etmək istəyirdi. İngilislər düşünürdü ki, əgər kürdlərə Anadoluda vətən vədi versələr onları da Osmanlıya qarşı qaldıra bilərlər. – Azada baxdı, – Haylar isə bu torpaqları kürdlərlə bölüşmək istəmirdi, bu səbəblə kürdlərin də qatı düşməninə çevrilmişdilər.

– Anladım. – Azad başı ilə də dediyini təsdiqlədi.

– Əlbəttə ki, 1915-ci ildə hayların, ermənilərin törətdiyi bu qırğınlar cavabsız qalmayacaqdı və bir də düşün ki, Türkiyəyə xəyanət edən "ermənilərin" həmin ərazilərdə qalması və ya Osmanlı dövlətinin cəmi bircə ay bu əyalətləri nəzarətsiz buraxması onların intiqam hissi ilə yanan müsəlmanlar tərəfindən tamamı ilə qırılması deməkdi. Amma tarix boyu «türk rəhmi» deyilən bir mərhəmətə sahib olan türk-Osmanlı dövləti xəyanətin cavabını mərhəmətlə cavablandırdı. Osmanlı dövləti onları həmin ərazilərdən deportasiya etməyi qərarlaşdırdı, bu deportasiya nəticəsində hay-ermənilər intiqam hissi ilə yaşayan müsəlmanların əlindən alınmış oldu.

*Osmanlı ordusu eyni anda dörd cəbhədə vuruşurdu: Çanaqqala cəbhəsi, Qafqaz cəbhəsi (Şərq cəbhəsi), Filistin cəbhəsi, İrak cəbhəsi və 1917-ci ildə Romaniya cəbhəsi. Neçə on illiklərdi xiristiyan dünyası misyonerlik məktəbləri vasitəsi ilə Osmanlını parçalamaq üçün fəaliyyət göstərirdi. Xiristian misyonerlərinin Osmanlı torpaqlarında açdığı məktəblər yüzlərlə idi və bu məktəblərdə iki istiqamətdə təbliğat aparırdı: Qeyri müsəlimanlar üçün «İsaya inandıqları üçün İslam boyunduruğunda acı çəkənlərə azadlıq» və müsəliman olan qeyri türklər üçün «Türk boyunduruğunda olanlara azadlıq». Adı çəkilən II cərəyanla xristianlar bir qisim ərəbi və kürdü də türklərə qarşı qışqırda bildi və hay-ermənilərə təlimat verən mərkəz ərəbləri də yönləndirmiş olacaq ki, "ermənilərlə" eyni anda ərəblər də üsyan qaldırdı və türk əsgərləri vəhşicəsinə qətl edildi. Bəli, Şərqi Anadoluda xristian erməniləri və haylar Osmanlının türk-müsəliman ordusunu necə arxadan vurdusa, eyni ilə öz müsəliman ərəblərimiz də xristian hiyləsinə aldanıb Osmanlının türk-müsəliman ordusunu arxadan vurdu. Və beləcə xristian ordusu qələbə qazandı.*

*Ərzurum hay-erməni xəyanəti nəticəsində rusların əlinə keçdi. Beləliklə 1915-cı ilin aprel ayında 234 "erməni komitəçisi" həbs edildi. 27 may 1915-cı ilə «Səfər zamanı hökümət uyğulamalarına qarşı gələnlər üçün Silahlı Qüvvətlər tərəfindən:*

*Maddə 1. Səfər zamanı; ordu, qolordu və tümən komutanları və bunların vəkilləri və müstəhkam mevkil komutanları; xalq tərəfindən* (diqqət edirsinizsə burada «xalq tərəfindən» ifadəsi işlənmişdir, yəni orduya qarşı gələnlər dinindən, millətindən asılı olmayaraq cəzalanmalıydı.) hərhansı bir şəkildə hökümət əmrlərinə və ölkə müdafiəsinə və əsaiyişin qorunması üçün görülən tədbirlərə qarşı gəlmə və silahlı saldırı və dirənişlər*

*görünərsə, bunu həmin andaca əsgəri qüvvətlə sərt bir biçimdə yola gətirməyə, saldırı və dirənişləri kökündən yox etməyə yetkili və məcburdur.*

*Maddə 2. Ordu, bağımsız qolordu və tümen komutanları; əsgərlik səbəblərindən ötürü, ya da casusluq və xainliklərini sezdikləri kənd və qəsəbə xalqını, tək tək, ya da topluca başqa yerlərə göndərə bilər və yerləşdirə bilər.*

*Maddə 3. Bu qanun yayınlandığı tarixdən keçərlidir.*

*27 May 1915*

*Osmanlı hökuməti xristian dövlətlərinə sədaqət andı içən və işbirliyi içində olan çətələr haqqında belə qərar çıxarmışdır. Və bu qərarda hər hansı bir etnik qurupun adı keçmir və hökumətə qarşı çalışan türk çətəsi olsa belə eyni təbdirdlərə məruz qalacaqdır. Amma Xristian dövləti ilə işbirliyi edən hay-ermənilər olduğundan, onlar Anadoludan yenə Osmanlı torpağı olan Suriya, Fələstin ərazilərinə köçürülməsi qərarlaşdırıldı, hansı ki 1829-cu ildə Osmanlı Rusiyaya məğlub olduqda, rusların tələbi ilə hayları Suriya, Fələstindən Trabzon-Van ətrafına və Qərbi Azərbaycana köçürülməsini təmin etmişdir. Hay-ermənilərin Anadoludan köçürülməsi isə xiristian dövlətlərin geo-siyasi planlarına uyğun gəlməyindən fəryad etdi ki, «Türklər xristiyan hay-erməniləri məhv edir». Oysaki həmin dövlətlərin özündə də dövlətə xəyanətin cəzasının hökmü ölümdür.*

*Ermənilərin köçürülməsi zamanı ordu təçhizatlarının istifadə edilməsi türk ordusunun təçhizatsız qalmasına və böyük itkilər verməsinə səbəb olmuşdur.*

*Bu gün 1915-ci ili yad edən ermənilər sözdə erməni qətiamından danışır. Və o zaman 2 milyondan çox erməninin öldürüldüyünü söyləyirlər, bunu ermənilər və onları dəstəkləyən xiristianlar söyləyir. Bəs faktiki olaraq I dünya müharibəsi başlamazdan əvvəl Türkiyədə nə qədər erməni yaşayırdı? 1914-cü ildə, I Dünya müharibəsi başlamazdan əvvəl Türkiydədəki erməni nüfuzu*

*1,3 milyondan artıq olmamışdır. Və bu dövürdəki erməni itgisi 4 qrupa bölə bilərik:*

1. *Deportasiya zamanı;*
2. *Müharibədə savaşanlar;*
3. *Arxa bölgədə çətə olaraq savaşanlar;*
4. *bu qruplan xaricində qalanlar.*

*Rəsmi qeydlərə görə deportasiya 27 may 1915-ci ildən 8 fevral 1916-cı il tarixini əhatə etmişdir, dolayısı ilə 9 ay sürmüşdür. Depaortasiya olunan əhalinin sayı 482148 nəfər olmuş və mənzil başına 438758 nəfər çatmışdır, yəni ki, hayatını itirən ermənilərin sayı 56610 nəfərdir. Amma əmin olun ki, hökümət hay-erməniləri oradan deportasiya etməsəydi qəzəblənmiş müsəlmanlar onların hamısını məhv edəcəkdir. Bu arada deportasiya zamanı rəqəmlər arasındakı fərq iki səbədən ola bilər, yol şəraiti ilə bağlı itgi və ya ermənilərin qaçaraq Qərbi Azərbaycana yerləşməsi. Əmin olun ki, rəqəmlər arasındakı 56610 nəfərlik fərq qaçaraq Azərbaycana yerləmiş haylarla bağlıdır. Qeyd etmək lazımdır ki, çətələrə qatılmadığına görə hay-erməni komitələri kütləvi olaraq erməniləri öldürmüşdür, biz bu senariyə 1988-ci ildə Azərbaycanın Sumqayıt hadisələrində də şahid olduq! Həmçinin unutmaq olmaz ki, Suriya-Fələstinə köçürülən hay-ermənilər, bu ərazilərdən geri çəkilən fransız, ingilis ordusu ilə birlikdə Fransaya, Amerikaya köçmüşdür.*

*Bəs bu dövrdəki türk-müsəlmanların itgisi nə qədərdir? 450 min türk əsgəri savaşda ölmüşdür, xəstəlikdən ölən əsgərlərin sayısısa 401 min nəfərdir. 1915-ci ildə tifüsdən ölənlərin sayı 300 mindir və yüksək rütbəli türk-alman zabitlərdə tifüsün qurbanı olmuşdur. Savaşdan sonra Paris Konfransında Erməni Komite başqanı Boqas Nubar 1,4 milyon türkü öldürdüklərini öz dili ilə etiraf etmişdir. Bu onun etiraf etdiyidir! Etiraf olunmayan faktiki say nə qədərdir?!...*

*Osmanlı arxiflərindən görünür ki, bu köç belə müvəqqəti dövr üçün nəzərdə tutulmuşdur, savaşdan sonra ermənilər geri qaytarılacaqdı. Bu səbəblə də ermənilərin mal-mülkü ordu tərəfindən siyahıya alınmışdı. Osmanlı arxiflərindən aydın olur ki, haradan haraya nə qədər erməni köçürüldüyü dəqiqliyi ilə siyahıya alınmışdır. Digər tərəfdən bu deportasiya tək erməni millətinə şamil olunmamış, Qafqaz cəbhəsindən rus ordusunun hücumları ilə bağlı milyondan artıq müsəlman da digər ərazilərə köçürülmüşdür. Zatən departasiya fərmanı yalnız hay-erməni etnik qrupuna aid edilmədən, köçürülmə «müsəliman və qeyri müsəlman» ifadəsi ilə verilmişdir.*

*Həmin dövrdə, yəni 1914-1918-də Türkiyədən Qafqaza 250 min, İrana 50 min, Suriya və Fələstinə 80 min, Mosul və Bağdada 20 min hay-erməni köçmüşdür.*

*Hay-ermənilərin xəyanəti nəticəsində isə 2,5 milyondan çox türk və kürd, qadınlı-uşaqlı min vəhşiliklərlə məhv edilmişdir. Bu rəqəm yalnız Osmanlı daxilində qırılmış müsəlmanların sayıdır. Bunun davamı olaraq hay-ermənilər tərəfindən 1918-1920–ci illərdə Cənubu və Şimalı Azərbaycan ərazisindədə eyni uslubla məhv edilən müsəlimanları da nəzərə almaq lazımdır.*

*1917-ci ildə Rusiyada baş vermiş inqilab rus ordusunun geri cağrılmasına səbəb oldu, yəni sözün qısası rus ordusu Şərqi Anadolunu tərk etməyə başladı. 1918-ci ilin aprel ayına qədər Ərzincan, Trabzon, Ərzurum, Qars və Van azad edildi. Amma bu müddətəcən hay-erməni quldurları, daşnak köpəkləri müsəlman əhalisini kütləvi surətdə qırmışdı. Bu ərazilərdə sağ bir müsəlmanın tapılması möcüzə deməkdi.*

*Geri çəkilən rus ordusunda ruslar geri çəkildi, lakin etnik hay-ermənilərsə bu ərazilərdə qaldı və tapşırığa əsasən rus ordusu bütün silahlarını hay-ermənilərə təhvil verərək gedirdilər, onlara verilən bir güllə isə öldürüləcək zavallı bir müsəlman deməkdi. Həmçinin Fransa və İngiltərənin Suriya və Fələstin haylarından formalaş-*

*dırdıqları hərbi komtingent 1920-nin ilk illərində Qərbi Azərbaycan torpaqlarına keçəcəkdi. Beləliklə Şərqi Anadolu torpaqlarında və İravan xanlığı ərazilərində müsəliman qətliamı kütləvi və amansız hal aldı. Amma türk ordusunun Şərqi Anadolu ərazilərinə girməsi ilə hay-erməni quldurları Cənubu Qafqaza doğru qaçmağa başladı. Nəticədə rusların, fransızların, ingilislərin silahlandırdığı hay-ermənilər Azərbaycan ərazilərindəki kəndləri viran qoymağa başladı. Təkcə Zəngəzur mahalında 115 kənd yerli-köklü məhv edilmişdi.*

… Azad başını qaldırıb Ərolun üzünə baxdı, o ağlayaraq əhvalatını nəqil edirdi:

– Qardaş bu haylara aman olmaz! Mən bu üzdən komandanınmla da sərt konuşdum. Çünki dövlətimiz xalqımı qıran, hay-erməni qaniçənlərini biz əsgərlərin əlindən almamalı idi, amma onlar hay-ermənilərin əlindən aldı. Dövlətin ordusu onun xalqına əl qaldıranları əhf etməməlidir, amma bizim dövlət nə yapdı? Hay-erməni quldurlarını əhf etdi. Onları qaçırdaraq xalqın qəzəbindən qurtardı! – əlini dizlərinə vurdu, – Xalqımızın axan qanı bizi bağışlamayacaq, çünki zalıma rəhm etmək məzluma zülm etməkdir! Məzlumun haqqını yemək olmaz! Belə bir söz var «insan zalım olmasa, Tanrı zülm etməz». Yəni ən böyük rəhm sahibi Tanrı belə zalıma zülm edirsə, O Uca Yaradanın biz qulları zalıma rəhm etməklə nə demək istəyirik? Bizmi daha büyükük, yoksa bizim rəhmimizmi daha büyükdür?! Quranda neçə tayfanın Tanrı tarafından yok edildiyi yazılmışdır! Bizim dövlətsə onun müsəliman xalqına zülm edən hayları, erməniləri bağışladı, dolayısı ilə onlara havadarlıq edən xristiyan dünyasına gələcəkdə bu yolla xalqımı yenidən məhv etmə şansı tanıdı! Mən bunları komandanıma söylədim, o isə məni qəddarlıqda günahlandırdı! Xalqının qanını yerdə qoymaqmı qəddarlıqdır, yoxsa mənim söylədiklərimmi?! – üzünü Azada tutdu, – Hay-erməniləri qəzəblənmiş müsəlman əhalisinin əlindən qurtarmaq üçün dövlətimiz onları geri, bir vaxtlar gəldikləri Fələstinə göndərdi. Bunun üçün

ön cəbhədəki ordu hissələrininin bir hissəini geri çəkdi, dövlət sadəcə göz yuma bilərdi, amma yox, – bağırdı, – biz gərək rəhmli olaq axı! – dişlərini qıcadı, – Lənətə gəlsin bu xasiyyətimiz! Bax görürsənmi kökünü kəsmədiyimizdən hay-ermənilər Azərbaycan tərəfə keçib, yenə müsəlman qardaşlarımı qırıb-çatır. Mən bunu görürdüm, amma komandanım dedi ki, iyilik yapan iyilik bulurmuş! Nə güzəl iyilikmiş yahu?! Məni yandıran budur ki, onlar şərəfsizcəsinə üzə gülüb arxadan vurur, başsız qalan qadını, çoluq-çoduğu qılıncdan kecirir. Bu savaş deyil, bu terrordur. – Ərol belindən bir xəncər çıxardı, qınından siyırıb əlinin içində sıxdı, xəncər əlini kəsdi, barmaqlarının arasından süzülən qan ocağın üstünə töküldü. Azad xəncəri onun əlindən dartıb alaraq dedi:

– Sən nə edirsən?

Ərol əlini açıb əlindəki qana baxdı, sonra xəncərdən daman qana baxdı. Azad yalnız indi əlindəki xəncərin gördüyü xəncərlərdən fərqli olduğunu anladı, yalnız indi başa düşdü ki, bu Ərolun dediyi həmin xəncər olmalıdır:

– Bu həmin xəncərdimi? – səsi qırıldı, sanki nədənsə utandı.

Ərol yalnız başını bir dəfə ehmalca tərpətdi, amma bir kəlmə də demədi. Azad özünü saxlaya bilməyərək:

– Bəs Haykazın sonu nə oldu? – deyə soruşdu.

– Biz kəndə girəndə artıq kimsələr yoxdu! Onların gücü sahibsiz qalan qadına, çoluk-çoçuğa çatır! Mənim yaşamağımın tək bir səbəbi var, Tanrının rəhminə sığınaraq onu axtarıram… – sözünün arxasını demədi.

Azad ağ parça ilə onun əlini sarıya-sarya yenidən danışmağa başladı:

– Qardaş hayı bilmirəm, ermənінin içində də bir yaxşısı olmamış olmaz.

Ərol çönüb tərs-tərs Azada baxdı, anidən sarğılı əlini dizinə vurdu, sarğısının arasından sıçrayan qan Azadın üzünü qırmızı rəngə boyadı. Azad nə edəcəyini düşündü, amma nə qəzəblənə bildi, nədə yumşala:

– Demək istəyirsən bütün hayların, ermənilərin kökü kəsilməlidir?

– Mən demirəm, onlar əməlləri ilə bunu təsdiqləyir. Bizim

ailə onları zamanında ölümdən qurtarmışdı, əvəzində mükafatım nə oldu? Sən demə onların qanlarına şərik olduq, bu qan da gəldi sonunda mənim ailəmi buldu! O nəsildən, o kənddən sağ qalan yeganı adamam mən, başa düşürsənmi, anlıyrsanmı? Bunun necə bir amansızlıq, vəhşilik olduğunu anlayırsanmı? Mənim bir otdan fərqim yoxdur, keçmişimdən mənə qalan tək şey acıdır! – Ərol səsini ucaltdı, – Zamanında müsəlman qardaşlarımızın qanını axıdan haylara və ermənilərə rəhm etdik, bəlkə də əvəzinə qanı axıdılan müsəlman qardaşlarımızın lənəti bizi tutdu. Çünki o zaman bizim köydən bir erməninin belə burnunun qanamasına izin vermədik, qanımız birdi dedik, yazıqdır dedik, sözdə onlara rəhm etdik, amma qanı axıdılan qardaşlarımızın ahı tutdu bizi! Bax müsəlmanlar elə həmin ermənilər tərəfindən məhv edildi.

– Axı eşitmişəm ki, haylar erməniləri cinayətlərinə şərik etmək üçün qorxudur, təhdid edir, etməyənləri özləri öldürür!

Ərol Azadın üzünə baxdı:

– Hə düzdür və mən bunun doğru olduğuna inanıram! Amma sanki, Tanrı erməniləri lənətləyib, onlar əvvəl-axır ləyaqətlərini itirirlər, könüllü və ya məcburi…

– Axı niyə, ermənilər niyə lənətlənsin ki?!

– Bilmirəm! Sankı Tanrı onları türklüklərini itirdiklərinə görə lənətləyir! Bir onu bilirəm ki, artıq hay ilə erməniləri ayırd etmək olmur! – Azada baxdı və səsini ucaldaraq dedi, – Bir zamanlar ermənilərə hədsiz zülm etmiş kimi tanıdığım qaynatama indi haqq verirəm, amma çox gecdir… – Ərol pıçıldadı, – İndi o da yüzlərlə kürd dəstəsinin etdiyini edir, haylalarla, ermənilərə vuruşur, əsir almır, aman vermir, amma yenə dövlətimiz onlara əngəl olmaq istəyir… – o əsəbindən zarıdı.

Azad daha ona bir söz deməyib ayağa qalxdı:

– Gecdir mən gedim yatım. – O, getdi. Ərolsa kədərli bir baxışla onu süzdü və yenidən baxışları közlərin arasında itdi, düşünməyə başladı: – Qəribə bir təzad var! Haylar, ermənilər bizi qırır, yalnız əzizlərini itirənlər haylarla ölümünə savaşır, digərləri isə onları haylara, ermənilərə qarşı amansızlıqda günahlandırır. Və sonra qınayanların əzizləri hay-erməni güdazına gedir və on-

lar da hay-ermənilərə qarşı savaşdıqda başqaları onları sərtlikdə günahlandırır və bu kor döngü beləcə davam edir… – Ərol anidən duruxdu, ağlına gələn fikir ürəyini burdu, əlini açıb yalvardı:

– Tanrı sən mənim Azad kardaşımı bağışla! Onu ürəyi yumşaqlığına görə cəzalandırma!

Osmanlı ordusu geri cağırıldıqda türk alay komandanı, Ərol və bir neçə türk zabiti geri dönməyərək yardım üçün qaldı, onlar Azərbaycan ordusunun bir alayının tərkibində bir neçə döyüşdə iştirak etdi. Novruz bayramından bir gün keçmişdi ki, Şuşada ermənilərinin qiyam etdikləri xəbəri gəldi, Ərolgilin alayını Şuşaya göndərdilər.

…Azad otaqda var-gəl edərək Ərol haqqında hekayəsini danışmaqda idi:

– Dinc müsəlmanları məhv edən "şanlı hay-erməni quldurları" Azərbaycan alayının ilk həmləsindən sonra qaçanı qaçdı, qaça bilməyəni təslim oldu. Əmrə uyğun olaraq onlarla hərbi əsir kimi davranırdıq, amma onlar əsgər şərəfinin nə olduğunu bilmirdi, onlar yalnız silahsız insanların, uşaqların, qadınların, qocaların qanını içən quldurlardı. Təslim olduqlarına görə onlarla əsir kimi davranmalı idik, onları öldürə bilməzdik. Şəhərin biz olan tərəfində 17 nəfər əsir alınmış, qollarına qandal vurularaq zincirə keçirilmişdilər ki, qaçmasınlar. Mən əsirlərə nəzarət edən əsgərlərlə birlikdə idim, Ərol təftişə gəlmişdi…

…Azadın gözü şəhəri təftişdən gələn Ərola sataşdı. Atından yerə enən Ərol gözlərini hərləyib təslim olmuş quldurlara baxdı, onun sifəti anidən kül rəngi aldı, sinəsi tez-tez enib-qalxmağa başladı. Üzündə qəribə ifadə yaranmışdı, yanağından qəzəb dolu, amma sevinc yayılan bir təbəssüm oxunurdu. Ərol sırada duran əsirlərə tərəf yaxınlaşaraq bir nəfərin qarşısında durdu. Həmin əsir Ərolu görüb bir anlıq duruxdu, gözləri böyüdü, amma sonra gülümsəməyə çalışaraq dedi:

– Qardaş belə zamana lənət! Ailəni qoruya bilmədim. Məni bağışla. Mən Eyvazlıq edə bilmədim sənin ailənə! – O Eyvazlıq deyərək müsəlmançılığını nəzərdə tuturdu, axı onun əsil adı Haykaz idi, müsəlmançılığı qəbul etdikdən sonra Eyvaz adlanmışdı.

Ərol ona bir kəllə vuraraq bağırdı:

– Kəs səsini, it küçüyü. Sən necə erkəksin ulan?! Siz necə millətsiniz, köpək? Ulan sizin içinizdə türklükdən zərrə qalmayıbmı?! Sizin neçə üzünüz var? İt soyu, ölümün, öldürmənin belə bir qaydası olar! Siz insan deyilsiniz, siz ermənilərin haylardan hec bir fərqi yoxdur! Nə erkəklikdən, nə asillikdən, nə qeyrətdən, nə Allahdan haberiniz yox, siz ərmən deyilsiz, siz haysız, hay! Sizin cəhənnəminiz belə özəl olmalı, haylara layiq! Şərəfsizzz.

– Ərol kardeş sən nə danışırsan? – Haykaz kəkildədi, – Hay quldurları bizi öncə köydən çıxardı sonra… – yalan danışmaq istədi.

Ərol xəncəri qınından sıyırıb çıxardı, xərcər günəş işığında bərq vurdu, sanki min illərin türk ruhunu daşıyan xəncər düşməninin qanını axıdacağına anlayıb sevinirdi:

– Bundan danışıram it oğlu. – o xəncəri göstərdi. – Haykazdan Eyvaz olan deyil, ermənidən insan olan deyil. Siz ərmən deyilsiz, siz haysızzzz, çaqqalsınız, murdarsınız, şərəfsizsiz. Şeytana ehtiyacı olmayan iblis soyusunuz! Ulan barı erkəklik yapıbda onları siz öldürməzdiniz! Siz bizə, sizi ölümdən qurtaran ailəyə belə-mi təşəkkür edəcəkdiniz?! Bizə olan nifrətin kökü haradandır, siz min iyilikdən sonra yenə kalleşsiniz, namərdsiniz! Sizi ifadə edəcək söz tapa bilmirəm, sizi ifadə edən söz, sizin kalleşliyinizi, sizin qeyrətsizliyinizi ifadə edəcək tək söz var, – var qüvvəsi ilə bağırdı, – HAYYY!

Haykaz anidən hönkürərək ağlamağa başladı:

– Doğru söylədin Ərol, bizdən daha ərmən olamaz! Bizə tək yol qoyublar, ya hay olmalıyıq, ya da ilk biz ölməliyik! Ərol Vallah denədim, sınadım, Billah denədim, sınadım! Yenidən türk olmağı, geç olsa da son elçinin yolunu getməyi denədim, sınadım! Amma olmur, olmur! Qoymurlar, imkan vermirlər! Böyük oğlum Məhəmməd, bax o əsil ərməndi… Bilirsən onun son anı necə oldu Ərol?! İçəri girdi, gördü ki, başımıza qoyulan şərəfsiz Aşot iti sənin qızın Selcana əl atır, bizsə sakitcə baxırıq! Hə, biz də sakitcə baxırıq, sakitcə baxırıq, çünki şərəfimizi itirmişik! – O ağlayırdı, gözünün yaşı ağzının suyuna qarışmışdı, sızıldayaraq danışmağa davam etdi: – Biz hamımız başımıza qoyulan bir hay

köpəyindən qorxurduq, sakitcə baxırdıq. İçəri girən Məhəmməd Aşotu, hay itini yaxşıca əzişdirdi. Mənimsə gücüm öz oğlumu və sənin qızını güllələyərək öldürməyə çatdı. Qızının namusunu yalnız bu cür qurtara bildim! – Haykaz uşaq kimi ağlayırdı, – Nə edim, mən yetim hara gedə bilərdim?! Siz onlarla baş edə bilmirsiz, biz, bir ovuc erməni nə edək, Ərol? – Ərola tərəf əyilərək dedi, – Ərol, bunun tək yolu var!

Ərol keyimişdi, qəzəbindən üzü qapqara rəng almışdı, amma kimi günahlandıracağını bilmirdi. Haykazın səsinə diksindi, Haykaz Ərolun yaxasından tutaraq təkrar dedi:

– Ərol, qardaşım, bunun tək yolu! Bizi öldürün, bizi kulanmalarına imkan vermiyin! Yoxsa bu qiyamətə qədər beləcə gedəcək! Bizi kulandırmayın Ərol! Tam səsəmimi deyirəm! Öldür məni! Amma buradakı kimsəni də sağ buraxma, yenə bir yolunu bulub onları azad edəcəklər! Bu sözü sənə dediyimə görə isə sülaləmi ortaya qoyacaqlar! Anladın Ərol? – o bağıraraq dedi. – Bunun başqa yolu yoxdur! Anlayın artıq?!

Azad Haykazın kim olduğunu artıq anlamışdı, nəsə etmək istədi, düşündü nə etməlidir, amma beyini donmuşdu, heç nə düşünə bilmirdi, ayaqları tutulmuşdu, yalnız gözlərindən qeyri ixtiyari yaşlar axırdı, o bu haldaca donub qalmışdı.

Komandan səsə otaqdan çıxdı, Ərolun əlində xəncərin olduğunu görüb bağırdı:

– Ərol nə yapyorsun, dəlirdinmi? Çabuk xəncəri yerə at!

– Ərol öldür bizi, anlayırsan? – Haykaz Ərolun əlindən tutub xəncəri öz ürəyinə sapladı və bağırdı, – Öldürün hamısını! Öldürün…

Hər kəs son səhnədən şoka düşmüşdü, Ərol sanki yuxuda idi, ayıldı, qəribə olsa da o indi Haykazın ailəsini qurtarmaq üçün orada olan əsirləri öldürmək qərarına gəlmişdi.

Komandan əsgərlərə səsləndi:

– Əsgərlər onu tutun!

Ərol çönüb komandana baxdı, gözündəki qəribə baxış komandanı gözünü yayındırmağa vadar edi. Ərol yaralı qurd kimi bağırdı:

– Allahı olan mənə toxunmasın! – Gözündəki o buludlu də-

nizdə günəş parlayırdı.

Əsirlər bağıraraq  yalvarırdılar:

–  Biz etdik, siz etməyin!

– Mən də erməniyəm. – əsirlərdən biri zarıdı.

Ərol ucadan qəh-qəhə çəkdi:

– Bəs içinizdə olan hayları nə edək?! – xəncəri oynatdı. Bir-bir əsirlərin boğazını kəsməyə başladı.

Komandan bağırırdı:

– Sənə əmr edirəm xəncəri at!   Əsgərlər atəşə hazır ol!

Əsgərlər donub qalmışdı. Necə yəni, Ərolu vuracaqlardımı? Komandan yenidən bağırdı:

– Əsgərlər atəşə hazır ol!

Ərolsa kimsəni duymurdu, sanki o saz havasında, əlində olan xəncərlə rəqs edirdi, hansısa cəngi havasını oynayırdı və əsirlərin bir-bir başını kəsirdi.

– Əsgərlər atəşşş! – komandan bağırdı və əlavə etdi, – Ərol yalvaryorum yetər! Dur artıq. Səni öldürmə məcburiyətində buraxma məni!

– Komandan bu kor döngünün bitməsinin tək yolu budur! Burda bir hay belə sağ qalsa, Eyvazın ailəsi cəzalanacaq! Nə fərqi bir hay, ya 10 hay! Mənə onsuz da güllə verəcəklər! – və əsirlərin boğazını kəsməyə davam edirdi.

– Əsgərlər mən kiminləyəm?! Atəşşş!  Ərol! – komandan bağıraraq özu tapançasını çıxarıb onu nişan aldı.

Əsgərlərdən kimsə tərpənmirdi, hamının gözündən yaş axırdı. Haykaz ismini eşidəndən sonra və onun dedikləri hər şey, hər kəsə bəlli olmuşdu. Hamı donub qalmışdı.

Atəş səsi gəldi,  güllə Ərolun sol qolunu tutmuşdu, o son iki əsirin arxasına keçərək onların da boğazını kəsdi və gülüsündü:

– Eşidirəm komandan!

– Ərol sən neynədin?! Niyə durmadın? Niyə?

– Biz həp durduq komandanım! Heç bir zaman başlayan biz olmadıq! Amma dayanan, duran həp biz olduq! Amma xristian dünyası var olduqca, haylar olduqca, nə onlar, nə ermənilər DURMAZ! Biz dursaq da onlar kalleşliyindən, namərdliyindən, haylı-

ğından əl çəkən deyil!  Bir mənim durmam nəyi dəyişir?

Hər kəs donub qalmışdı, sükutu komandanın səsi pozdu:

– Tutun onu!

Şəhərin digər tərəfindən bizimgilərdən bir neçə zabit və əsgər güllə səsinə onlara tərəfə gəlirdi:

– Nə olub orda?! – at belində olan mayor bağırdı.

Ərol gəlib Azadın qarşısında dayandı:

– Çıxar silahını…

– Nəəə. Dəli olmusan?

– Mənə onsuz güllə verəcəklər… – Xəncəri onun boğazına tutdu, – Çıxar və məni vur! – Azadın gözünə baxdı, – Xəncərim sənə əmanətdir! – gülümsündü.

– Yox, Ərol mən bacarmarammm!

– Komandan! – Ərol xəncəri Azadın boğazına tutaraq bağırdı, – Bəlkə başladığın işi bitirəsən?

– Dəlirmə Ərol! – Komandan əsəbi halda dedi.

– İcazə verəcən qaçım? – Ərol gülümsündü.

– Yox icazə verə bilmərəm!  Əsgərlər atəş açmayın, Ərolun pisixi halı yaxşı deyil, o Azadı da doğraya bilər!

Hər kəs bir an donaraq dayandı, Azad anidən komandanın nəyə eham vurduğunu anladı, Ərolun əlindən tutub xəncəri boğazına yaxınlaşdırdı:

– Ərol kəsmə! – özü onu dartaraq dar dalana girib gözdən itdi.

Haykazın ruhu olanları izləyərək gülürdü, güldükcə sinəsindən qan fışqıraraq kül rəngində olan ruhundan üzü aşağı süzülürdü.  Oğlu Məhəmmədin bəmbəyaz ruhu ona doğru gəldi:

– Gedək, səni çağırırlar!

– Oğul, bax sinəmdəki qan qurumur! – o təəssüflə dedi.

– Hə, günahın çoxdu ata! Çox qan axıtdız, indi qanın quruyarmı?!

– Həəə, – kəkildəyər təsdiqlədi, – amma bizi məcbur etdilər! Ərola hamsını dedim, inan dedim!

– Hə, bilirəm! – atasının əlindən tutub göy üzünə doğru uçdu.

Haykaz  birdən göy üzündə Nəzrinin, Alpayın, Selcanın ruhlarının ona baxdığını görüb ağlamağa başladı:

– Bağışla bacı! Vallah gücüm Selcanı güllələməyə çatdı, yoxsa… – sözünün dalını demədən hönkürərək ağladı.

– Səni Ərola həvala edirəm! – Nəzrın buludların içində yox oldu.

Haykaz yalnız indi hiss etdi ki, onun ruhu kül rəngidi, Nəzringilin ruhu isə bəmbəyazdır və bunun səbəbini özü də gözəl anlayırdı.

…Alman düşərgəsindəki otaqda var-gəl edən Azad Yaşara baxaraq söhbətinə davam etdi:

– Mən bu sözləri deyəndə artıq mənim də ailəm Şuşada hay-ermənilər tərəfindən məhv edilmişdi, mən min vəhşiliklə öldürülmüş əzizlərimi və şuşalıları öz əllərimlə dəfn etdim. – Azadın gözündəki yaş damcısı süzülərək otağın boz betonuna düşdü, – Dediyim kimi, hayların, ermənilərin namərdliyi nəticəsində Ərol və məni kimilər hər şeyini itirib.

– Bəs Ərola nə oldu? – hamı bir ağızdan soruşdu:

– Gecə ikən, paltarını dəyişdi və çıxıb getdi. Beş il sonra, Arazda sərhəddə gördüm, dedi ki, hayları öldürdüyünə görə Türkiyədən də qaçaq düşüb! Bir də dedi ki, kürd Kazımı və silahdaşlarını Türkiyədə əsgərlər elə bu səbəbdən güllələyib, Ərol kürd Kazımla sonbeşik oğlu Duranla görüşüb, o danışıb bunları.

– Bəlkə kürd Kazım haqqında da danışasan! – Ən gənc azərbaycanlı dedi.

– Uzun əhvalatdı, – Azad etiraz etmək istədi.

– Bizim gedəsi yerimiz yoxdu – Bir neçəsi gülərək dedi.

– Hə, elə isə danışım! – Azad çuxura düşən gözlərini qırparaq dedi.

# YAXŞI-PİS OYUNU

*İnsanı alçaldan təvazökarlıqdan sakınmaq lazımdır*
**– Abbasqulu ağa Bakıxanov**

*Cəbhədə axmaq əsgər öz ölmünə səbəb olur,*
*xainsə bütün ordunun məhvinə səbəb olur*
**müəllif**

*Başında aslan duran qoyunlar ordusu*
*başında qoyun duran aslanlar ordusuna qalib gəlir.*
**Napaleon.**

*Ordunun hədəfini, niyyətini, starategiyasını, bu uğurda qatil və ya hakim olmasını əsgərlərdən yox, ordunun başında duranlardan asılırdır. Və ordu başçısı qatil ruhludursa bu ordunun ən ədalətsevər əsgərinin belə ən azı cinayətdən zövq alanlar qədər əli günahsızların qanına batır, tək fərq var, cinayətdən zövq alanlar bunu sonradan xoş xatirə kimi danışırlar, lakin sözdə ədalətsevər olan əsgər isə bunun xidməti borc olduğunu və vətən üçün nə qədər əhəmiyyətli olduğu haqqında bəhanələr gətirərək özünü və kənardakılara inandırmağa çalışır ki, bu haqq savaşı olub. Və başlanğıcda ədalətsevər əsgər nə qədər mahsum, qatil ruhlu əsgər isə nə qədər cinayətdən zövq alan biri kimi görünsədə, nəticədə ədalətsevər görsənən əsgər daha qorxuncdur! Çünki qatil ruhlu əsgərə qalsa o bu cinayətləri bütün açıqlığı ilə dünyaya çar çəkir və həqiqət məlum olur. Amma ədalətsevər görsənən əsgərlər bu cinayətlərlə ləkələnmək istəmədiyindən, vicdanı ilə üzləşmək istəmədiyindən, uydurduğu saxta tarixi yalanla özünü, vicdanını və bütün dünyanı inandırmağa çalışır ki, bu cinaiyət deyil, haqq savaşıdır. Ədalətli adam saxtakarlarla bir yerdə olduqda o bir müddətdən sonra ən böyük saxtakara sevrilir. Ədalətli adamın saxtakara, qatilə çevrilməməsi üçün onun daim ədalət cəbhəsində yer alması mütləqdir.*

**Müəllif**

*Meşədə ağacın düzünü seçərlər.*
***Azərbaycan atalar sözü.***

Kürd Kazımın oğlu Qədir zərblə qapını açıb evə girdi. Qapı səsinə dik atılan kürd Kazım oğlunun qapını zərblə açıb içəri girməsinə əsəbləşib üstünə bağırmaq istədi, amma oğlunun dumağ kəsilmiş üzünü, titrəyən dodaqlarını gördükdə, ağızından qeyri ixtiyarı bu sözlər töküldü:

– Nə olub Qədir? – oğlunun halından özü də qorxuya düşmüşdü.

– Bacım… – onun səsi titrədi, gözündən iki damla yaş süzüldü.

Kürd Kazım oğlunun ağlamasını görüb üstünə bağırdı:

– Ulan, qarı kimi nə ağlayırsan? – əsəbi halda əlini havada yellədi, – Nə oldu, adamı dəlirtmədən de.

– Aşağı köyü, bacımgilin köyünü ermənilər basıb, kənd od-alov içindədir.

Kürd Kazım dəli kimi yerindən sıçradı:

– Nə durmusunuz? – O, divara sarı qaçıb, xalçanın üstündəki tüfəngi, patrondaşını götürdü, – çabuk olmaq lazımdır. – Özü də bilmədi bu sözləri kimə deyir.

Kürd Kazımgilin kəndindən bir dəstə atlı xəbəri bilər-bilməz çaparaq köməyə tələsdi, amma iş-işdən keçmişdi, gecikmişdilər. Kürd Kazımın dəstəsi kəndə girər-girməz türk əsgərləri ilə qarşılaşdı. Kürd Kazım bağıraraq dedi:

– Atəş açmayın, biz də müsəlmanıq, – üzünü dəstəsinə tutub, – əsgərlərə kömək edin, Qədir sənsə mənlə gəl, bacıngilə baxaq. – Onun səsi titrədi, bu titrəkliyi gizlətmək üçün səsini yüksəldərək əsgərlərə dedi: – Mən qızımın evinə baxacam, arkadaşlar sizə yardımçı olar, – deyib atının ağzını çevirib Ərolun evinə sarı çapdı.

Qədir də ayağı ilə atının qarnını döyəcləyib atasının ardınca götürüldü. Kazım yoldakı meyidləri görüb sarsılmışdı. Onun yüyəni tutan əli yavaş-yavaş boşaldı, at sürətini azaltdı. Deyəsən qızının evində görə biləcəyi mənzərədən qorxurdu. Qədir atını

çapıb atasına çatdı, atasının niyə yavaşıdığını anlamadığından onun üzünə baxdı. Kazım əlini qabağa doğru yelləryək:

– Gör bacıngildə nə var, nə yox? – deyə xırıldadı, quruyan dodaqlarını dili ilə islatmaq istədi.

Qədir bir şey anlamdan atının qarnına daha bir neçə təbik vurdu və Ərolun evinə sarı çapdı. Bacısıgilin qapısı açıq görən Qədir atın belindəcə tüfəngini fırlayıb hazır tutdu, bir əli ilə atın yüyənini dartdı, atın tam dayanmasını gözləmədən, bir ayağını üzəngidən çıxarıb atın boynundan hərləyərək yerə tullandı. Həyəti gözdən keçirib içəri girdi, evdə kimsə yoxdu. Cəld küçəyə çıxıb, atasına səsləndi:

– Baçımgildə kimsə yoxdu… – o bu hala sevinməlimi və ya ağlamalımı olduğun bilmədiyi həyacanla dedi.

Bu vaxt qonşu evdən bir qışqırıq səsi gəldi, hər ikisi tüfəngini hazır tutaraq küçə qapısını ehtiyatla açaraq səs gələn evə girdi. Onlar həyəti gözdən keçirdilər, kimsə yoxdu, tez evə sarı qaçdılar. Hər ikisi qapının önündə dayandı, bir anlıq baxışdılar. Qədir tüfəngini hazır tutaraq başını tərpətdi, kürd Kazım dərindən nəfəs aldı, qapını təpiklə vurub açması ilə içəri girməsi bir oldu. Evin kandarına atdığı ilk addımdanca ayağı qana batdı, gözünü bir anlıq otaqda hərləyib düşmən axtardı, bir anda gördüyü mənzərə boğazında tıxandı, gözlərində yaşa çevrildi, qəlbində sancıya çevrildi, beynində zoqqultuya çevrildi. Qədir də atasının ardınca evə girdi, tüfəngi hərləyib ətrafına baxdı, tək bir kəlmə pıçıldaya bildi:

– Tanrım…! – səsi boğazına bıçaq çəkilən adamın xırıldaması kimi xırıldadı.

… Ərolun gələnlərdən heç xəbəri də olmadı. O, dizi üstə qan gölməcəsinin içində zarıyaraq bağırırdı. Burnundan açılan qan döşəmədəki ailəsinin qanı ilə qarışmışdı. Nəzrinin divarda çarmığa çəkilən bədəni artıq soyuyurdu… Ərol bir anlıq susdu, gözünü hərləyib Nəzrinə baxdı, var qüvvəsi ilə bağırdı:

– Nəzrin…

Kürd Kazım bir dizi üstə düşmüş Ərola baxdı, bir divarda çarmıxa çəkilən Nəzrinə baxdı, bir yerdə uzanan nəvələrinin cəsədlərinə baxdı, yenidən qızına baxmaq istədi, amma bacarma-

dı, yaxınlaşıb bir dizini yerə qoydu, dizi qana batdı, əyilib Alpayı qucağına götürdü, üzündən öpdü, dodaqları əsərək pıçıldadı:

– Quzum…

Qədir heykəl kimi qurumuşdu, heç nə düşünə bilmirdi. Atasının səsinə ayıldı.

– Bacını aç, – deyib Kazım Ərola yaxınlaşdı, onun çiyninə toxunub səsləndi, – Ərol…

Bu vaxt əsgərlər və Kazımın dəstəsindən bir neçə nəfər də həyətə girdi.

Hamını dəfn edəndə artıq hava qaralmışdı. Ərol qaynatasıyla bir ocaq başında oturmuşdu. Kürd Kazım key-key oturan Ərola səsləndi:

– Hökümət nə deyir?!

– Ermənilər köçürəcəklər. – Ərol pıçıldadı.

– Nərəyə? Anlamadım?

– Gəldikləri yerə, Suriyaya, Fələstinə.

– Bəs quldurları nə edəcəklər? – Kürd Kazım ayağa qalxaraq əsəbi halda bağırdı.

– Həbs… – Ərol tək sözlə cavabladı.

– Mənim qızımı, nəvələrimi bir həbs gerimi gətirəcək?! Anangili, bütün kəndi yandırıblar! Bəs onların qanı, bəs intiqam?!

– … – Ərol başını aşağı dikərək cavab vermədi.

– Haylar, ermənilər bütün kəndi yandırıb, bu kənd kimi yüzlərcəsini viran ediblər. Onlar dövlətə də xəyanət etdi, xalqada xəyanət etdi, insanlığa da xəyanət etdi, ermənilər haylarla əlbir oldular, əvəzində buradan köçürəcəklər, vəssalam?! – Kürd Kazım bir daha qeyzlə bağıraraq soruşdu.

Ərol sualın mənasını başa düşmədiyindənmi, ya dövlətin məqsədini izah etmək məqsədiylə dedi:

– Erməniləri, hayları buradan köçürməsələr yerli əhali tərfindən tamami ilə məhv olacaq!

Kürd Kazım bağırdı:

– Olsunnnn! Cəhənnəmə kimi məhv olsunlar! Bəs nə edəsiyik ki? Qana qan, cana can! Əgər intiqamımı almasam mən də avşar deyiləm, avşar qanı qoy mənə haram olsun! – Bəlli olmadı, bu sözləri özü-özünəmi deyir, ya hamının qarşısında sözmü verir.

Ərol kədərli gözlərlə kürd Kazımı süzdü, astadan dedi:

– Hökümət belə deyir. Qarşı gələnlərisə… – susdu.

– Belə hökümət mənə lazım deyil! Keçən dəfə, – o 1886-ci ildə olan qırğını nəzərdə tuturdu, – dövlət ermənilərə qarşı qəzəblənmiş xalqı sakit olmağa vadar etdi, daha yox, bu dəfə yoxxx, – əsəbindən gözləri böyüdü, – bu dəfə yox! Bu dəfə qabağıma atam çıxsa onu da vuracam! Ta ölənəcən, hər nəfəsimi erməni nəfəsi kəsməklə alacam!

Ərol ağlayaraq pıçıldadı:

– Kazım əmi məni bağışla, mən Nəzrini qoruya bilmədim…

Ermənilərin Osmanlı dövlətinə xəyanətinin nəticəsi olaraq arxa çəbhədə 2,5 milyon müsəlman qətl edildi, arxa cəbhədəki bu qarışıqlıq ön cəbhədə savaşan Osmanlı ordusuna öz mənfi təsirini göstərdi. Qısacası 1914-ci ildə arxa cəbhəsi laxlayan osmanlı ordusu rus ordusu qarşısında davam gətirə bilmədi, beləcə 4 noyabrda rus ordusunun Osmanlı sərhədlərinə yararaq irəlilədi. Ard-ardına Sarıqamışlı (1915-ci il 3-4 yanvar), Artvin (1915-ci il 29 mart), Ərzurum (1916-cı il 16 fevral), Trabzon (1916-cı il 18 aprel) alındı. Xoy və Dilmanı da işğal edən rus ordusu Van və Urmu göllərinə umumi hücüma keçdilər (1916-ci il 2-3 may) və 25 iyun 1916-cı ildə Ərzincan tutuldu. 23 avqust 1916-cı ildəsə Muşun tutuldu. Arxa cəbhəsi hay-erməni xəyanəti ilə laxlayan osmanlı ordusu ard-ardına məğlubiyyətə uğrayırdı və xəyanətkarlara qarşı ciddi təbirlərin görülməməsi ermənilər yaşayan bu ərazilərin rus ordusu tərfindən tutulması ilə nəticələndi. O rus ordusu ki, əsgərlərinin xeyli hissəsi haylardan təşkil olunmuşdu. Bütün bunlar I Poyturdan bu yana hazırlanmış böyük geo-strateji planın bir hissəsi idi. Nə qədər təsadüfdür bilmirəm, Osmanlı sərhədlərinə hücuma keçən rus ordusunun da, ingilis ordusunun da və fransız ordusunun da böyük hissəsi hay dəstələrindən təşkil olunmuşdu. Və nə qədər təsadüfdür bilmirəm, osmanlı sərhədlərində yaşayan ermənilər antitürk orduları ilə eyni anda osmanlının arxa cəbhəsində türklərə qarşı müharibəyə başlamışdı. O müharibə ki, milyonlarla müsəlmanın soyqırımı ilə nəticələndi, lakin hay-ermənilər o günü, yəni 1915-ci il tarixini «əzabkeş erməni xalqının türklər tərəfindən əzaba dücar edildiyi”

tarix kimi qələmə vermək istəyirlər. Müsəlman soyqırımını görməzdən gələn «o böyük dövlətlər» bu müharibəni unudubmu?! O günü hay-ermənilər kimlər üçün vuruşurdu?! Osmanlı dövləti və müsəlmanlarmı ermənilərə xəyanət etmişdi, yoxsa hay-ermənilərmi öz dövlətinə xəyanət edərək qəfildən öz vətəndaşlarını qırmışdı?! Hayları, erməniləri silahlandıraraq caniyə çevirən, türkləri qətl etdirən onlar deyilmi?

Osmanlı səltənətində baş verən hərb, hiylə və xəyanət burulğanı hər yanı bürümüşdü. Kürd Kazım xaçlı hiyləsinə və hay-erməni xəyanətinə qarşı öz dəstəsi ilə savaşmaqda idi. O erməni quldur dəstələrini dəfələrlə böyük məğlubiyyətlərə uğratmışdı. Amma qəzəbi bitmirdi. Bəlkə də bu qəzəb, bu öfkə idi ona bu qələbələri çaldıran. Onun dəstəsi xeyli böyümüşdü, hər bilən eşidən silahını götürüb bu dəstəyə qoşulurdu. TÜRKlərin və kürdlərin çiyin-çiyinə vuruşduğu bu dəstədə yüzə yaxın adam vardı. Kürd Kazıma xəbər gəldi ki, erməni quldurları bu gecə dağın axasındakı kəndə hücuma geçəcək. Belə hallarda kürd Kazım tək bir cümlə işlədirdi:

– Ya Allah, Bismillah! Hazırlaşın döyüşə gedirik! – dəstə kəndə doğru götürüldü...

Bakıda neft buruqlarında fəhlə işləyən, aləm qarışdıqdan sonra yurdu Qarsa dönən Barış ailəsinin ermənilər tərəfindən məhv edildiyini öyrəndi, ailəsindən tək kiçik qardaşı qalmışdı, kiçik qardaşı Savaş da orduda olduğundan Barış onunla hər hansı əlaqə yarada bilməmişdi. Onun qarşısında iki seçim vardı. Ya orduya qatılmalı idi, ya da Osmanlı ordusunun himayəsindən uzaqda qalan xalqı üçün öz mücadiləsini aparmalı idi. O ikinci yolu seçdi, çünki vətənin bu parçasını qorumaq üçün ordunu gözləmək buradakı xalqı, daha doğrusu kişiləri orduda olan ana-bacıları, qocaları-körpələri ölümə tərk etmək deməkdi. Onun təşkil etdiyi dəstənin ilk işi bir rus alayının düşərgəsini basmaq oldu. Çünki dəstəsində yetərincə silah yoxdu. Barış silah təmin etmək üçün Bakıda öyrəndiyi rus dilini işə salmalı idi. Barış tapdığı rus əsgəri formasını əyninə geyindi. Qolunu güllə ilə vurduran Barış atını çaparaq rus düşərgəsinə gəldi, arxadan Barışı qovurmuş

kimi hərəkət edərək dəstə ilə yalandan atışırdı, Barış düşərgəyə çatar-çatmaz geri dönüb növbəti gülləsini atdı, əvvəldən düşünülmüş oyuna əsasən dəstədən biri güllə dəymiş nömrəsi göstərərək özünü atdan yerə atdı, dəstədəkilər atdan düşəni götürərək geri döndü, Barış rus dilində onları söyə-söyə düşərgəyə girdi. Hiylə baş tutmuşdu, Barış rusları aldada bilmişdi, o rusları inandırdı ki, o bir rus əsgəridir və yolda müsəlimanların hücumuna məruz qalıb. Qolunu sarıtdıran Barış ac olduğunu söyləyərək özünü düşərgənin mətbəxinə verdi, yemək yeyərək aşbazın naharı hazırlamasını gözlədi, ilk fürsətdəcə gətirdiyi zəhəri qazanın içinə tökdü. Nahardan sonra bütün rus əsgərləri yuxuya getdi və bir daha yuxudan ayılmadı. Beləcə Barışın dəstəsi ilk böyük qələbələrini qazandı və qarşıdasa uzun bir yol vardı, bu uzun yolda bəzilərinin ömürü qısa oldu, lakin bu qısa yol şərəf dolu şəhidlik yolu idi.

Barışa xəbər gəldi ki, ermənilər axşam dağ ətəyindəki kəndə hücuma keçəcək, kənd qırılmadan yetişmək lazımdı. Barışın dəstəsi kəndə girərək vəziyyəti nəzarətə götürdü ki, lazımı anda ermənilərə arxadan zərbə vurmaq və onları geri qaçmağa qoymamaq üçün kəndin kənarında adamlar yerləşdirdi. Barış xeyli narahatdı, çünki adamlarının sayı belə bir tatktika üçün azdı, lakin buna baxmayaraq Barış hay-erməni quldurlarını qırıb-çatmaq istəyirdi. Barışa xəbər gəldi ki, yüz nəfərlik bir dəstə kəndə doğru yaxınlaşır, lakin geyimləridən ermənilərə heç oxşamırlar. Kəndə gələn dəstə kəndlə dağın ətəyindəki çökəkliyə yaxınlaşırdı. Barış bir azdan atəş əmrini verməli idi, lakin gələnlər heç haylara, ermənilərə bənzəmirdi. Həmçinin Barış düşünürdü ki, düşmən hava qaralmadan hücuma geçməz, elə isə bunlar kimdir? Beləcə içi-içini yeyən Barış düşünürdü: “Nə edim? Gələnlər birdən hay olsa? Bəs hay olmasa?!”. Nəhayət ki, Barış son qərarını verdi, əli ilə işarə verdi ki, onun əmri olmadan kimsə atəş açmasın və qarşısındakı dəstə tam hədəfə gəldiyi zaman, güllə atmaq əvəzinə dedi:

– Salam Aleykum! Kimsiz?

Kürd Kazım ətrafı süzdü, ortada kimsə yoxdu, yaxşı anlayırdı ki, dəstəsini mühasirəyə alanlar ətraf qayalıqlarda gizlənib, əlini

silahına atsa da salama cavab verdi:

– Əs Salamın Aleykum! – göz gəzdirib kimsəni görməyərək, – Salam verirsənsə müsəlmansan, müsəlimansansa niyə gizlənirsən?! – deyə soruşdu.

– Haradan bilim ki, müsəlmansan?! – Barış əli ilə hər kəsə gözləməyi işarə etdi.

Kürd Kazım atından yerə düşərək silahını atının belindəki heybəyə qoydu və səs gələn tərəfə addımladı və kəlmeyi şəhadətini gətirərək dedi:

– Artıq mənə zaval yoxdur, – gülümsədi, – müsəliman ölümdən qorxmaz! Müsəlimansansa çıx ortaya!

Barış gizləndiyi yerdən çıxaraq kürd Kazıma tərəf yaxınlaşdı, Fatiə sürəsini dedi və yarımçıq kəsdi. Kürd Kazım elə o andaca Fatiə surəsinin davamını dedi və Quranda ən uzun surəsi olan Əl-Bəqara sürəsini oxumağa başladı. Barış gülümsəyərək onunla birlikdə surənin daha bir neçə ayəsini oxudu və dedi:

– İsmin nədir qardaş?

– Kazım... Kürd Kazım!

– Kürd Kazım?! – Barış gülümsədi, onun dəstəsinin şücaəti haqqında çox eşitmişdi. – Haylara od vuran o igid sənsən, hə? – Kazımın başı ilə təsdiq etdiyini görüb, – Mənim ismim Barışdır.

Kazım ürəkdən güldü:

– Rus alayını bir güllə belə atmadan məhv edən Barış?

– Hə özüdür ki, var! – qucaqlaşdılar. Barış əlavə etdi, – Qardaş Allah saxladı, atışmadıq!

Kazım onun gözlərinə baxdı, anladığını başı ilə təsdiqləyərək gülümsündü:

– Barış, biz oyanmışıq! Oyanmışıqsa bizə zaval yoxdur! Türk yatdımı dostunu da, düşməni də tanımır! Bizi uzun illər yuxuya vermişdilər, ayılmışıq daha! Türksə oyandımı gözü yumulu olsa da dostunu, düşmənini tanır! – Barışın üzünə baxdı, – Bu üzdən də qardaşını tanıdın!

Barış gülümsündü, amma sözün düzü Kazımın dediklərindən tam olaraq bir şey anlamadı, bir istədi üz vurmasın, amma gördü ki, dözə də bilməyəcək, pıçıltı ilə dedi:

– Kazım qardaş bir sual verim, amma incimə!

Kazım onun verəcəyi sualı anlasa da:

– Ver sualını, için rahat olsun, – dedi.

– Sən kürd deyilsənmi? Bayaq dediyindən belə başa düşdüm ki, türk olmağına eyham vurdun!

Kazım qəh-qəhə çəkərək güldü, Barışı qucaqladı və dedi:

– Söz verirəm, bu gün xeyirliyi ilə bitsin, sağ qalsam, danışaram!

– Tamam o zaman, demək ki, savaşa hazırlaşmaq lazımdır…

Barış haylara qarşı qurduğu tələni kürd Kazıma ətraflı izah etdi və iki dəstə düşmənin gəlməsini gözlədi. Beləcə ova gələrkən ovlanan haylar 50 leş qoyaraq geri çəkildi. Qərarlaşdırdılar ki, daha bir neçə gün bu ətraflarda düşərgə qursunlar, nə olar, nə olmaz. Təşəkkür üçün gələn kənd camaatını yola saldıqdan sonra, Kazım və Barış bir yanda oturmuşdu, bir yanda qazanlar asılmışdı. İşi olanlar işini görürdü, digərləri Kazım və Barışın ətrafına toplaşıb oturmuşdu. Kazımın sonbeşik oğlu Duran atasının istəyi ilə saz çalırdı və oxuyurdu:

*Bu yıl bu dağların karı erimez,*
*Eser bədi saba yel bozuk-bozuk,*
*Türkmən kalkıp yaylasına yürümez,*
*Yıkılmış aşiret, el bozuk-bozuk.*

*Kızılirmak gibi çağladım aktım,*
*El vurdum, göksümün bendini yıktım,*
*Gül yüzlü cerenin bağına çıktım,*
*Girdim bahçesine, gül bozuk-bozuk.*

*Elim tutmaz güllerini dermeye,*
*Dilim tutmaz hasta halin sormaya,*
*Dört cevabın mənasını vermeye,*
*Sazım düzən tutmaz, tel bozuk-bozuk.*

*Pir Sultanım, yaratıldım kul diye,*
*Zalim paşa elindenmi öl diye,*
*Dostum beni ısmarlamış gel diye,*
*Gideceğim, amma yol bozuk-bozuk.*

Kazım ayağa qalxdı, hər kəsdən ayrılaraq qayanın kənarına gəldi, göz işlədikcə uzanan çaya və onu saran meşəyə boylandı və pıçıldadı:

– Gedəcəyim, amma yol bozuk-bozuk… – susdu, amma gözündən yaş süzülürdü.

Barış da ayağa qalxaraq Kazımın arxasınca gəldi:

– Qardaş sən alevisən? Kürd alevisisən?!

Kazım çönüb Barışa baxdı, gözündən hələ də yaş axırdı, o buna əhmiyyət vermədən dedi:

– Barış ailəndən kim qalıb? Kimsə qalıbmı? – arxadan saz havası eşidilirdi, dağı, daşı yandıran səs ətrafa yayılırdı.

– Haylar bütün ailəmi qətl edib, bir qardaşım sağ qalıb, o da ordudadır, ölüdümü, diridimi, bilmirəm Kazım qardaş!

– Bax iştə, bizi bir yola salıblar pozuk-pozuk! Ellərimiz pozuk, dilimiz pozuk! – Bağırdı, – Bizi elə bir hala salıblar, hər şey pozuk!

– Demək ki, hamının sərt biri kimi tanıdığı Kazım qardaşın belə bir yanı da varmış, şair ruhlu… – Kazımın yanağında bərq vuran yaş damçılarına gözucu baxdı, niyəsə utandı və pıçıldadı: – Kazım devranmı pozuk, insanmı pozuk?! Kürd Kazımın türklük sirri nədir?

– İcazə ver, Barış qardaş bir az toxtayım, gəlirəm! Kürd Kazımın hekayəsini danışacam. Qoy hamı eşitsin!

– Oldu qardaş. – Barış geri dönüb, dəstənin arasına qatıldı, Duransa hələ də eyni havanı çalırdı: – Gideceyim, amma yol bozuk-bozuk!

Bir neçə dəqiqə sonra Kazım da gəlib dəstəyə qatıldı, əli ilə oğluna işarə etdi ki, saz çalmanı dayandırsın və səsləndi:

– Bizim kəklikotu çayı nə oldu?

– Səni gözləyirdik ağam, – ocaq başında olan uşaqlar kəkli-

kotu çayı gətirdi.

Kazım çayını yudumlayaraq  Barışa baxdı və ucadan dedi:

– Barış qardaşım mənə sual verdi ki, Kazım sən indi kimsən, kürdsən, türksən, alevisən, ya sünlüsən?!

Hər kəs çönüb Kazıma baxdı və o da hər kəsi süzdü, dərindən nəfəs aldı və danışmağa başladı:

– Sözün düzü mən də zaman-zaman bu sualı özümə vermişəm. Mən kiməm, biz kimik?  Bu gün mənə kürd Kazım deyirlər,  tayfam olan afşarlara kürd deyirlər, – qəribə tərzdə güldü. – Sizə də qəribə gəlmirmi, hə, türk olan afşarlar var və məni kimi kürd deyilən afşarlar varrr?! – Məsələdən agah olanlar kövrəlmişdi, Barış kimi söhbətdən xəbərsiz olanlar isə təəcüblə ona baxırdı. Kazım başını yelləyərək  dedi: – Çünki insanlar pozuldu, gəldiyi yolları unutdu, beləcə gedəcəyi yolları itirdi, yol gedən ayaqlar başını itirdi!  – Başını qaldırıb göy üzünə baxdı, bir qartal qıy vuraraq göy üzündə dövrə vururdu, bir xeyli qartalı seyr etdi, sonra yenidən ətrafındakıları dönərək danışmağa davam etdi: –  Babamın dediklərindən məlum olur ki, bizim  tayfa təxminən min il əvvəl Aral gölü ətrafından  səlcuqluların tərkibində buralara gəlib. Oğuz boylarının hə oymağı öz piri ilə, öz bəyi ilə birlikdə Səlcuqlu bayrağı altında toplanmışdı, gözəl günlər imiş, pirlər Quranı türkcə oxuyurmuş, xalq Quranı türkcə dinləyirmiş. Sonra Səlcuqlu  hökmdarları fars dilini daha üstün tutdu, zamanla türk birliyi pozuldu, beləcə maqol-tatar qüvvələri qarşısında Səlcuqli dövləti süqut etdi, türklər bəyliklərə böləndü, bu çətin dövrdə türkləri  ayaq üstündə saxlayan pirlər olmuşdu. Ağır günlər beləcə davam etdi,  günlərin bir günü Osmanlının qurucusu Osman bəy zamanın pirlər piri şeyx Ədəbalidən xeyir-dua alaraq, qızı Bala Xatunla evlənmişdi, beləcə bütün pirlər Osmanlı bayrağı altında türklərin birləşməsi üçün əllərindən gələni etdi.  Osman  bəyin vəfatından sonra hakimiyyətə  gələn  Bala Xatundan olan oğlu Erden Ali bəy * qardaşı Orxan bəyin  hakimiyyət uğrunda onunla savaşmaq istədiyini gördükdə könüllü olaraq hakimiyyətdən vaz keçdi.

* *Erdan Ali Osman Qazi və Bala Xatunun oğludur,  mənbələrdə onun adı əsasən Alaeddin kimi qeyd olunmuşdur.*

– Orxan bəyin də anası Bala Xatundu? – dəstədən birisi soruşdu.

– Yox, Orxan bəy Osman bəyin Səlcuqlu vəzirinin qızı Mala Xatunundan olan oğlu idi. – Barış cavabladı.

Kazım başı ilə Barışın dediklərini təsdiqləyərək söhbətinə davam etdi:

– Qardaşı ilə savşmaq istəməyən Erden Ali bəy hakimiyyəti könüllü olaraq qardaşına verdi, babası Ədəbalı kimi təkə quraraq ibadətlə məşğul olmağa başladı. Sonra qardaşı Orxan bəy peşman olub onu yanına çağırır, qardaşının dəvətindən sonra o Osmanlıya vəzirlik etmiş və savaşlara qatılmışdı, şəhid düşənəcən savaşmışdır. Şəhidliyindən sonra oğlu Xızır bəy hakimiyyətdən uzaq tutulmuşdur. – Kazım bunları deyib susdu.

– Bəs sonra nə oldu? Qardaş bu hekayənin sonunun səninlə necə bir bağlantısı olması mənə olduqca maraqlıdır. – Barış dedi.

– Səbirli ol qardaş! Orxan bəyin vəfatından sonra hakimiyyətə oğlu Murad gəldi və o ilk növbədə xristian uşaqlarından yeniçəri ordusunu hazırlatdı. Beləcə türkləri ordudan uzaq tutmağa başladılar, pirlərə dəyər vermədi. Və uzun onilliklər bu belə davam etdi. 1500-lərin başında yeni dövlət quran Şah İsmayıl ordudan uzaq qalan türkləri və pir təkələrini öz torpağına səslədi. Baş verən Çaldıran döyüşündə Osmanlı ordusu Şah İsmayılın Qızılbaş ordusunu məğlub etdi. Şah İsmayıl cəmi bir döyüşdə məğlub olmuşdu, amma Qızılbaş dövləti ayaqda idi və Şah İsmayıl eyni zamanda bir pir idi, türklər tərəfindən sevilən pirlər piri idi, bu təhlükəni gözə ala bilməyən Sultan Səlim iki tədbir gördü, türkləri məhvə aparan iki tədbir…

– Türkləri məhvə aparan iki tədbir? – Barış təəcüblə soruşdu.

– Həəəə. – Kazımın gözü doldu, dərindən bir ah çəkdi, boğazını boğan qəhəri yumşaltmaq üçün çayından bir yudum içdi və danışmağa başladı: – Sultan Səlimin əmri ilə alevi türk oymaqlarının pirlərinin, bəylərinin boyu vuruldu, bir çox yerdə alevi türklərinin kişiləri qılıncdan keçirildi, daha sonra bu sahibsiz alevi oymaqları Osmanlı tərəfindən bura gətirilən kürd bəylərinə tabe edildi. – Dodaqları əsdi, bir xeyli beləcə donub qaldı və ye-

nidən danışmağa başladı; – Kürd bəylərinə tabe edilən alevi türk oymaqları, o gündən həmin bəylərin adı ilə çağrıldı. – Bağırdı, – Necə ki bir iti yiyəsinin adı ilə çağırırlar, bizi də tabe edildiyimiz kürd bəylərinin adı ilə çağırdılar… – ağlamamaq üçün özünü zorla saxladı.

– Bəs sonra? – Barış göz yaşlarını saxlaya bilmədən soruşdu.

– Sahibsiz, atasız, qardaşsız, pirsiz, bəysiz qalan türklər beləcə kürdləşməyə başladı. Zorla kürdləşənlər, qorxudan kürd qılığına girən alevilər, küsüb türklüyündən vaz keçənlər, evlənərək biri-birinə qarışanlar, ərəbləşən alevilər, dağlara-daşlara sığınanlar… – Kazım bu dəfə göz yaşlarını saxlaya bilmədi, – Alevi türklərinin ocaqlarını öz türkü, türk sultanı söndürdü! Sultan Səlimin oğlu Sultan Süleyman Qanuni Osmanlı və Qızılbaş sərhədləri boyunca kürd bəylərini yerləşdirdi, onlara aleviləri qırması qarşılığında böyük imtiyazlar verdi.

– Axı niyə, Sultan Süleyman niyə kürd bəylərini sərhəd boyunca yerləşdirdi? – bığ yeri təzə tərləməyə başlayan birisi göz yaşları içində soruşdu.

Kazım bu sualı verən gəncə baxdı və dedi:

– Çünki Sultan alevilərin Qızılbaşlar tərəfinə keçməsini istəmirdi və elə o gündən bütün aleviləri də qızılbaş adlandırdılar, Osmanlı torpaqları içində olan hər kəs bizə “qızılbaş” deyərək nifrət etdi, qılıncdan keçirdi.

– Yoooo, bu qədər dəhşətli ola bilməzzz! – Bir neçəsi etiraz etdi.

– “Yeddi qızılbaşı öldürən cənnətlikdir” sözünü eşitməyən varmı? – Kazım bağıraraq soruşdu.

Hər kəs eşitdiyi bu sözün arxasında gizlənən qanlı faciənin mahiyyətini sanki indi anlamışdı, hər kəsin gözü dolmuşdu, hıçqırtı səsləri də eşidilirdi.

– Hə, bax qurbanlıq qoyun kimi kəsdilər bizi, hansısa gədalar yeddi alevi başı kəsirdi ki, cənnətə getsin! Alevilərin sahibi yoxdu, itin belə sahibi vardı, bizimsə sahibimiz yoxdu! Sahibli iti belə öldürə bilməzsən, amma bizim öldürülməmiz kimsəni maraqlandırmırdı! – Bağırdı, – Bəs nə idi günahmız? Tanrını qəbul etmirdik, yoxsa peyğəmbərini?! Yoxsa biz ikisini də qəbul edir-

dik, əksinə biz deyirdik ki, Quranın tərcüməsini də bilməliyik! Biz deyirdik ki, biz min illər boyu qadın-kişi, ər-arvad çiyin-çiyinə yaşamışıq, lazım gəldikdə bir yerdə savaşmışıq. Onlar isə deyirdi ki, daha qadınına bir əşya kimi baxmalısan, ərəblər kimi! Bizsə deyirdik ki, biz ərəb kimi yox, türk kimi yaşamaq istəyirik, biz Quranda deyildiyi kimi yaşamaq istəyirik! Qoymadılar türk olmağa, türk kimi yaşamağa qoymadılar! Pirlərimizi, kişilərimzi qılıncdan keçirdilər, dedilər kürd kimi, ərəb kimi yaşayın! – Kazım ah çəkərək susdu.

Hər kəs keyimişdi, biri-birinin üzünə baxırdı. Barış dilləndi:

– Bəs ikinci tədbir nə idi, Kazım qardaş?

Kazım ona baxdı, başı ilə suala cavab verəcəyini işarə edərək dedi:

– Çaldıran savaşında Şah İsmayıla qələbə qazanan Sultan Səlim daha sonra Məmlük türk ordusunu məğlub edərək dövləti ələ keçirdi*, beləliklə Osmanlı sultanları, həm də xəlifə oldular. Səfəvi pirliyinə və Osmanlıda olan pirlərə qarşı üstünlük əldə etmək istəyən Osmanlı sultanları öz ətrafına ərəblərdən ülamalar yığmağa başladı və dedilər ki, Quranı doğru anlamanın tək yolu ərəb dilindən və ərəb kimi yaşamaqdan keçir. Osmanlı xəlifəliyi qarşısında tarazlıq yaratmaq istəyən Səfəvi pirliyi də fars nağıllarını qəbul etdi. İndi ortada bir fars islamı, birdə ərəb islamı var! Türkün Qurana baxan gözü olan pirləri, törəsi pozuq-pozuq, gedəcəyi yol pozuq-pozuq. Dədə Qorqudan gələn alevi soyu kürdləşib, ərəbləşib, türk aleviləri isə zamana yenik düşüb özünü unudub! – Üzünü Barışa tutdu, – İndi sən de, mən kiməm, türkəm, ya kürdəm? Mənim qanımda türk qanı da, kürd qanı da axır, amma ruhum yalnız alevi ocağının tüstüsündə, sazımın şerlərində rahatlıq tapır! Biz Koroğlunu itirdik, sarın itirə bilmərik.

– Qardaş sən türksən də, kürdsən də, sən cansan! – Barış əlini onun kürəyinə vurdu.

Dəstədən biri ayağa qalxdı:

---

** Osmanlı ilə Səfəvi dövləti arasında 1514-cü ildə baş verən Çaldıran savaşında Osmanlı Sultanı Yavuz Səlim Şah İsmayıla qələbə qazanmışdır. İki il sonra, 1517-ci ildə Osmanlı ordusu Misiridə ələ keçirərək Məmlük türk dövlətini süquta uğratdı.*

– Ağa bir sual vermək istəyirəm? – dedi.

– Ver bala, sualını ver… – Kazım dedi.

– Bəs günahkar kimdi? Osmanlı dövlətimi?

– Onu mən bilmirəm, bəlkə Osmanlı dövlət olaraq haqlı olub, bəlkə də yox… Amma bir bildiyim odur ki, bizə yazıq oldu, türkə yazıq oldu, törəmizə yazıq oldu, gəldiyimiz və gedəcəyimiz yola yazıq oldu! Mənim ulu əcdadların oğuzların afşar boyundan, karaman yörüyündən olub! Şeyx Ədəbalı həzrətləri də karaman yörüyündən idi. İndi zidiyyətə baxın, Şeyx Ədəbalı Osman bəyin türk sultanı olması üçün bütün pirləri birliyə səslədi. Əvəzində Osmanlı sultanları daha sonra türk pirlərini xor gördü, türk ocaqlarını söndürdü, qadınlarımızı qara çadraya bürüdü… Karaman afşarlarından gələn mənim soyum isə indi kürd olub, kürddd! – Kazım bir müddət susub əlavə etdi, – Qızılbaşlar da daha sonra Osmanlının ərəbləşmə siyasətinə yetişmək üçün törəni unudub, ocağını unudub, fars nağıllarından bir din yaratdı. Ortada türk vay oldu! Mənim gördüyüm budur… – Kazım köksünü ötürərək susdu.

– Bəs bunun sonu necə olacaq? Alevi qətllər geridəmi qaldı? – bayaqkı gənc yenə soruşdu.

– Necə olacaq? Bilmirəm! Bu qətllər bitdimi, gəl bu sualına belə cavab verim. 1900-cu illərin əvvəlində haylar terror təşkilatları qurub hər yanda Osmanlıya hücüm edirdi. Bu zaman Sultan Abdulhəmid kürdlərdən xüsusi "həmidiyyə" alayları qurdurdu ki*, hay terrorçularına qarşı savaşsınlar, lakin onlar haylardan daha çox dağlardan geri gəlmiş alevi türklərini qılıncdan keçirdi. Alevilər yenidən acımasızcasına yox edildi və dövlət buna göz yumdu…

– Bəs sən bunun dəqiq olduğuna əminsənmi ağa? – bayaqkı gənc yenə soruşdu. – Axı bu qədər qan, qəddarlıq ola bilərmi?!

---

* *Sultan **II Abdulhəmit*** (1876-1909) *hay-ermeni ayaqlanmalarına qarşı sunni kürdlərdən "Hamidiyə alayları" qurdurdu. Bu alaylara qatılan* əşirət rəislərinə *paşalıq kimi rəsmi ünvanlar verildi. Bu "paşalardan" daha sonra dövlət büyük zərər gördü, ancaq daha böyük zərəri Sultan **IV Murad (**1623-1640**)** izni ilə dağlardan geri enən alevi türkmənlər görd*ü, belə ki, ***h**amidiye alayları alevi kızılbaşlar*ı *"kafir" deyərək qılıncdan keçirdi, kəndlərini yağma etdi.*

– Əminəmmi? – acı-acı gülümsündü, – Həmidiyyə alaylarını təşkil edən paşalardan biri də mənəm! Biz hay terrorçularına qarşı savaşırdıq, amma bir gün qulağıma xəbər çatdı ki, həmidiyə alaylarından biri alevi çadırlarını basıb. Alayımı götürüb ora doğru çapdım, mən yetişəndə iş işdən keçmişdi, qılıncdan keçirilənlər, viran qalmış çadırlar, quzu kimi mələşən uşaqlar, qurd kimi ulayan qız-gəlin! Dayana bilməzdim, həmin alayın arxasınca çapdım, altı-yeddi saatdan sonra onlara yetişdim. Bizim də həmidiyyə alayından olduğumuzu görüb onlar silahlarını çiyinlərinə qoydu, lakin mənim əvvəlcədən öz alayıma dediyim kimi əsgərlərim silahları onlara tuşlamışdı, əmr etdim, hamısını tərki-silah edib qollarını bağladılar. Paşanı it balası kimi döydüm, mənə dedi:

– Bu nə hoqqadır edirsən? Qənimətdən pay istəyirsənsə deyərdin, bölüşərdik!

– Nə qəniməti, şərəfsiz! Sən niyə türkmən çadırlarını basıb, onları qətl etmisən? Nə haqla? – deyə soruşdum.

– Onlar din xaricindədir, – deyə soysuz mənə bəhanə gətirmək istədi. Ağzına dəyən təpikdən bir neçə dişi yerə töküldü və dedim:

– Şərəfsiz, bizə əmr olunub hay-erməni terrorçularına qarşı savaşaq! Sənə alevi türkmənlərinə savaş acmaq barəsində əmr verilib?!

– Yeddi qızılbaş öldürən cənnətlikdi deyib ülamalarımız! Bir gülləyə iki quş vurmağın nəyi pisdir, – dedi.

– Bunu deyən ülama qələt edir, pox yeyir səndə! – Bunu deyib onu güllələdim, digərlərini də güllələmək istədikdə içlərindən biri dedi:

– Paşamız bir ingilis casusu ilə əlbir idi, bizim günahımız yoxdu! Bizi qıyma! – deyib Kazım sözünü bitirdı.

– Bəs onların axırı nə oldu?

– Hamısını güllələdib bir dərədə basdırdım! Yaraya dağ vurmasan qan dayanmaz! – Əlavə etdi, – Mən o gündən dəstəmi götürüb geri, yurduma döndüm, amma nə bir həmidiyə alayı mənimki idi, nə qırılan alevi yurdları birdi… – susdu, hər kəs

susmuşdu, ortaya ölü sükutu çökmüşdü.

– Kazım qardaş, – sükutu Barış pozdu, – dəstələrimizi birləşdirəkmi?! Ancaq bərabər, qanca bərabər! Ya bir yerdə şəhid olaq, ya bir yerdə qazi olaq!

Kazım Barışa baxdı, gülümsündü, qucaqlaşdılar:

– Bir yerdə, Allahın hüzuruna gedənəcən bir yerdəyik! – dedi.

* * *

Kazımla Barışın dəstəsinə bir kənddən xəbər gəldi ki, təcili özünüzü yetişdirin, qiyamət qopub sizin xəbəriniz yoxdur. Barışla Kazımın dəstəsi yel kimi həmin kəndə doğru çapdı. Kənd camaatı məscidə toplaşmışdı. Barış camatın üzündəki ifadəni görüb həyacanla soruşdu:

– Nə baş verib?!

Kazım key-key soruşdu:

– Sizə nə olub?! Axı bura ermənilər gələ bilməz?!

Kəndin imamı əlini yelləyə-yelləyə dedi:

– Nə ermənisi, nə rusu?! Nəyi qoyub, nəyi axtarısınız! Qurd özümüzü içəridən yeyir! Peyğəmbərimizin dediyi kimi, «kafirdən çox içmizdəki münafiqdən qorxun! Ən qorxulu düşmən onlardı».

– Nə qurdu? Nə münafiqi? Düz əmməli danış görək, kimdir bizi içəridən yeyən?! – Barış üzünü dəstəsinə tutdu, – Kimdir bizi yeyən?! – tərs-tərs hamını süzdü.

– Bizlik heç nə yoxdur ağa! – hamı bir ağızdan dilləndi.

Kəndin imamı dedi:

– Məsələ sizin dəstədə deyil! Daha böyük fəlakətdir! Ümbətimizin içinə casuslar soxublar, müsəlimanları kürdə türkə ayıranlar var! Bu da bizim kəndə gələn elçinin məktubu. Oxuyun nə demək istədiyimi anlayacaqsınız!

Barış məktubu götürərək əsəbi halda oxumağa başladı:

– Ey asurların və əhəmənilərin cahangirliyi zamanında onların öncülləri və qəhraman əsgərləri olan arslan* kürtlər sizə səslənirəm! Ey Rüstəm Zal və Səlahəddin Əyubi nəvələri duyun! Beş yüz ildir yatdınız! Yetər artıq! Oyanın. Sabahdır. Əsl ayaq-

* *aslan*

lanma vaxtıdır! Türklərlə savaşmaq vaxtıdır! Türklərin yıxıldığı bir vaxtda, hər kəs onlara qarşı oyanmışkən, hələ də yatırsınız?! Oyanın! Yoxsa vəhşət və qəflət sizi vəhşət səhrasında yağma edəcək! Oyanın mənim kürdlərim! Hər kəs TÜRKə qarşı qurtarıcı ingilis, fransız və rus ordularında birləşmişdir! İngilislər, fransızlar, ruslar buralara yetişmədən ərəblər TÜRKlərə qarşı ayaqlandı, haylar-ermənilər ayaqlandı, bəzi yerlərdə özünü itirməyən kürd arslanları ayaqlandı, sizsə yatırsınız! Haylarla-ermənilərlə düşmən olacağımıza, gəlin bilikdə türklərə qarşı savaşaq! Oyanın! Silahlanıb bizə qoşulun! Siz də bizi kimi silahınızı türkə çevirin! Savaşın ki, Osmanlıdan biz də bir pay qoparaq! Ermənilərə dövlət qurmağa can atan, İsa qövmü ingilislər, fransızlar, italyanlar bizi də mükafatlandıra bilər, təki siz türkə qarşı savaş açın! Savaşın ki, ingilislər və fransızlar bizi də mükafatlandırsın! İsanı Quranla bir tutun ki, İsa qövmü də bizi özlərinə dost tutsun! Elçimə cavab verin! Said Kürdi.

Kazım dəli kimi bağırdı:

– Bunu yazan kimdir, yetmədimi?! İslam ümbətini parçalamaq istəyən, din qardaşlığını yaralayan növbəti şərəfsiz, növbəti ingilis ajanı kimdir?! Biri-birimiz şiə-sünnü deyib qırdıq, osmanlı-qızılbaş deyib qırdıq, indi də türk-kürd deyəmi qırdıqmaq istəyirlər? Bunu yazan yalnız ingilis köpəyi ola bilər, köpəkkk! Elçi hanı?! Elçi hanı imam?!

Kənd cammatı əlini-qolunu bağladığı elçini gətirdi. Kazım onun ağzındakı əksini çıxarıb soruşdu:

– Kimsən? Kimlərdənsən?

– Mən Urfa kürdlərindənəm!

Kazım onun danışığındakı ləhcənin fərqli olduğunu görüb!

– Sən yezidilərdənsən, yezidi kürdüsən, köpək?!

– Yox, ağam nə yezidisi, mən sünniyəm!

– Mələk Tauza lənət olsun de! De…

– Olmayan bir şeyə niyə lənət oxuyaq ki? – elçi özünü gicliyə qoyaraq vəziyyətdən çıxmaq istədi!

– De, dedim, şərəfsiz! Mələk Tauza lənət olsun de! Bu sözü ağzına almaq istəmirsən hə? Axı uydurduğunuz murdar məxluqunuzun

adını demək sizə görə günahdır! Axı sizə qadağandır Tauzunuzun adını ağzınıza almaq! – var gücü ilə elçiyə şillə vurdu, – Yezidi kürdüüüü… Cavab ver, yoxsa səni tikə-tikə edəcəm.

Əlacsız qalan elçi etiraf etməyə məcbur oldu:

– Hə... Yezidiyəmmm, amma bu mənim də kürd olmağım həqiqətini dəyişmir! Vurma ağaaa!

Kazımın silləsi onun üzündə tapança kimi partladı:

– Allahını tanımayan köpək, kürdü qurtaracaq olan sizsizmi?! – üzünü Barışa tutdu, – Kimlərin öncülləri olub deyir məktubda?!

– Asurların və əhəminilərin qəhraman əsgərləri olub deyir kürdlər?

– Asur kimdi, əhəməni kimdir?! Mənim biləcəyim dildə de.

– Asur milləti yoxdur, artıq yoxdur, əhəmənilərsə farslardır! – Barış izah etdi.

Kürd Kazım başı ilə təsdiqlədi:

– Hə, bax bu oldu mənim başa düşdüyün dildə! – üzünü elçiyə tutdu, – Yəni deyirsiz ki, güya tarixdə əhəmənilər dövründə kürd-fars çiyin-çiyinə idik və yenə çiyin-çiyinə İslama, Mühamməd ümbətinə zərər gətirərək, eləmi?! İndi də, kürdlər Rüstəm Zalın nəvəsi oldu, eləmi?!

– Səid Kürdi ağam elə deyir, – elçi Kazımın onun vurmaması üçün başını tutub zarıdı.

Kazım elçiyə daha bir qapaz vurub soruşdu:

– Səlahəddin Əyubi kimdir, Məmlük sultanı? Xaçlıları Qüdsdən qovan Səlahəddin Əyubidənmi danışırsız, o kürdmü oldu?

– İdris Bitlisi öz kitabında yazıb ki, Səlahəddin Əyubi rəvvadi kürtlərindəndir! – elçi əli ilə üzünü tutdu, – Vurma bəy…

– İdris Bitlisiii, – Kazım bağırdı, – indi aydın olur! Alevilərı qırdıran, Sultan Səlimin əl tulasından danışırsan, hansı ki, ilk o yazmışdır ki, "yeddi qızılbaş öldürən cənnətlikdir". İndi deyirsən o it yazıb ki, Səlahəddin Əyubi kürd olub, eləmi? Maraqlıdır, bəs o yazmayıbmı ki, Səlahəddin Əyubinin qardaşlarının adı Şahinşah, Tuğtekin, Tacilmülk Börü, Turanşah olub?*

---

** Səlahəddin Əyubi (1138-1193) Misir, Suriya, Yəmən, Hicaz Fələstin sultanı. 1187-ci ildə Qüdsü Xaçlı ordusundan azad edərək, 88 illik xristian hakimiyyətinə son qoymuşdur, bu səbəblə İslam dünyasının qəhramanı hesab edilirdi, bu*

– Elçinin başına daha  bir yumruq vuraraq dedi, – Hə, bu haqda yazmayıb?

– Bilmirəm bəy, mən Səid Kürdi ağamın yalançısıyam! – elçi zarıdı.

– Köpək ki, köpək! Hürdün, hürdün, alınmayan kimi quyruğunu bulayırsan, – deyib elçinin qulağını burdu.

– Bəy incidir. – it kimi zingildədi. – Bəy bilirsən ki, yezidi dininə görə, dünya insanlarının soyu başqadır, kürdlərin  soyu fərqlidir, kürdlər tək soydur və mənə dedilər kürd cənnəti yaradırıq... – qulağının ağrısından zingildədi,  – Üstünə bir qarın da çörək verdilər. Mənim elçiyəmmm. – ağladı.

– Başqa nə deyir, – Barış ondan soruşdu, – sənin Səid Kürdi həzrətlərin?

– Deyir ki, türklər bizim haqqlarımızı əlimizdən alıb! Biz öz dilimizdə danışmırıq! – hər kəsin onun tərs-tərs baxdığını görüb izah etdi, – Səid Kürdi elə deyir.

– Ə köpək türk də ərəbcə yazır, danışır, sən də! Osmanlı dövləti öz soyu olan  aleviləri kürdlərə peşkəş edib, əvəzinə kürdlərə dərəbəylik verib, kürd bəylərinə heç kimə vermədiyi xüsusi iltizamlar verib,  daha nə istəyirsiz? – Kazım təpiklə elçinin qarnına vurdu.

– Axı bunu mən demirəm, Səid Kürdü elə deyir!  Bunu onun özündən soruşun.

Barış qımışdı:

– Haradadır o köpək, bizi düz ora aparırsan... Eşitdin?

---

*səbəblə ona "Allaha yaxın olan şəxs" mənasında "Vəliullah" ləqəbi verilmişdi. İdris Bitlisi "Şərəfnamə" əsərində qərəzli olaraq  yazır ki, "Səllahəddin Əyubinin soyu 758-ci ildə Basradan Azərbaycana sürgün edilen və ya köçən Yəmən ərəblərinin Ravvad soyundandır", guya onun ailəsi  Azərbaycanda Həzbaniyyə kürdləri ilə qarışmışdır.  Əslində isə  İdris Bitlisi qərəzli olaraq "Ravvadə ərəblərini"  "Ravendə kürtləri" kimi dəyişmişdir, daha sonra bütün qaynaqlar bu yazını təkrarlamışdır.  Niyəsə bəziləri Səllahəddin Əyubinin dayısının  qaynaqlarca bəlli olan adının  Mahmud bin Tokuş olduğunu  görməzdən gəlir. "Təkiş-Tokuş" sözləri "keçi" və "Savaş" ("tokat" söz kökü ilə eynidir) kimi mənalara gəlir və türk isimləri kimi işlənmişdir.  Həmçinin onun qardaşlarının adlarıda qaynaqlarca bəllidir:  Şahinşah, Tuğtekin, Tacilmülk Börü, Turanşah. Bütün bunlar Səlahəddin Əyubinin türk olduğu qənaitinə gəlməyə əsas verir. )*

– Aparım da bəy! Mən elçiyəm, məktub gətirdim, indidə canlı məktubu geri götürüm. – ağlayaraq dedi.

Kazımla Barışın dəstəsi elçinin vasitəsi ilə Səid Kürdünün gizləndiyi dağ kəndinə getdi. Səid Kürdünün adamları elçi ilə birlikdə böyük dəstənin gəldiyini görüb elə zənn etdilər ki, onlara qatılmaq üçün gələnlərdi. Barışgilin düşündüyü hiylə işləmişdi, Səid Kürdünün adamları tərkisilah olundu, qaçmaq istəyən Səidi tutub geri gətirdilər. Kazım onu süzüb kinayə ilə dedi:

– Səid Kürdü!? Zamanın rəsulu haaa?

Said özünü tox tutmağa çalışdı:

– Bismillah! Allahın adı ilə… Mən kürdlərin birliyi üçün çalışıram. – Kazımgili süzdü, – Zamanın ən doğru qərarını ən doğru adam verir…

Kazımın tərsinə vurduğu sillə onun üzündə açıldı:

– Sənsənmi doğru adam, ittt! Ulan, sənin neçə sifətin var? Gah Allahın adını çəkirsən, gah da deyirsən ki, kürdlər üçün ümmət qanını tökün, budur sənin doğru qərarın?! İngilislərin maşası ittt!

Səid Kürdi baxdı ki, ərəbcə sözlərlə bunların başını qata bilməyəcək, dizin-dizin sürünərək Kazıma tərəf gəldi:

– Kazım ağa mən sənin necə bir əsil qəhraman olduğunu bilirəm! Namını çox duymuşam! Gəl gücümüzü birləşdirək! Birlikdə nələr edə bilərik, bir düşün?! Az zamanda yeni kürd dövlətinin paşası olarsan, pul, qarı-qız! Kef-damaqda yaşayarıq! Bu yolda gücümüzü birləşdirək! Kim deyir ki, bu yolun tək öndəri mən olum?! Mənə “ zamanın rəsulu” deyənlər, sənə də «kürd aslanı» deyərlər. Sənin haqqında da kitablarımda yazaram, ismini vəsf edərəm! İnann…

– Doğurdan? – Kazım gülümsəyərək soruşdu.

– Əlbətə, şübhən olmasın!

– Bəs bunu necə vəsf edəcən, buna nə ad verəcən?! – Barışı göstərdi, – Bu Quranı əzbər bilir, ruccası çox gözəldir, bir neçə dildə yazıb-oxuya bilir, rus-hay leşlərinin sayı bilinmir!

– Hə, ona da bir ad qoyarıq...

– Biz ona Barış deyirik, türk Barış, bu ad necədir?! – Kazım dişini bir-birinə sıxaraq soruşdu.

– Nə... Türk… – bir az duruxdu, sonra dedi: – Olsun, bir

tərəfdə savaşdıqdan sonra, bir yolunu taparıq! – Said onların niyyətini anlamadığı üçün cavabladı.

Kazım qımışdı:

– Amma Səid, belə yaramaz ilk əvvəl gərək səni bir imtahan edək! – Səid Kürdünün key-key onlara baxdığını görüb, Barışa dedi: – Barış bunun bir savadını yoxla, görək həqiqətən gücü nə qədərdir?

Barış Səid Kürdinin qənşərinə gəldi və dedi:

– Hansı tarixi mənbələrdə oxumusan ki, kürdlər asurlarla və əhəmənilərlə bir yerdə savaşlara qatılıb və onların öncülləri olub?!

– Şey... – mızıldandı, – Bir ərazidə yaşamışıq! Birdə ki axı tarix kimin umurundadır, dedim axı, gəlin əl-ələ verək, yeni bir dövlət quraq! – üzünü Kazıma tutdu, – Tarixi biz yaza bilərik, biz bu günü tarix yazsaq, keçmiş də biz deyən kimi olacaq! İdris Bitlisinin yazdıqlarını kim dəyişə bilər, mən onu mənbə kimi götürürəm, – dişlərini ağardaraq güldü, – gələcək nəsilllərdə biz yazanı mənbə kimi götürəcək! Bax, tarixin çarxı belə dönür, kimə lazımdır əsl həqiqət!

Kazım dəstəsindəkiləri süzüb Barışa baxaraq gülümsündü:

– Demək keçmişi təzədən fərqli yazmaq olar, eləmi?

Səid key-key ona baxdı:

– Kim yazmır ki?! Tarixin dəyəri nədir ki? Hər kəs eyni tarixi öz yaradacağı yeni dövlət üçün fərqli yazır, hamı belə edir! Hamı…

– Barış sən oxumuş adamsan, düzmü deyir?

– Özündən soruşmaq lazımdır! Səid həzrətləri bəs bizim arxamızda kim duracaq?

-Bütün xristianlar! Onların bizdən tək istəyi var, dostluq, türklərə düşmən olmaq! – Səid gözünü Barışdan yayındıraraq cavabladı və əlavə etdi, – Əvəzindəsə dünya cənnətini ayaqlarımızın altına sərəcəklər!

– Yoo, bu olmadı, mənə dəqiq olmayan işə qol qoya bilmərəm! – Kazım başını yelləyərək dedi.

– Ərəbləri Osmanlıya qarşı qaldıran bir ingilis ajanı var, Lavrens, onunla əlaqədəyəm. Biz lazımı işləri görsək, İngiltərə lazımı

dəstəyi verəcəyinə söz verir! Pul, silah, nə lazımdır! Dövlət qursaq, bizi dövlət kimi tanıyacaqlar, hər yardımı edəcəklər, daha nə lazımdır?!

– Elə isə düşünməyə dəyər. – Kazım Barışa göz vuraraq dedi.

Barış üzünü Səidə tutub dedi:

– Mənə çox maraqlıdır! Bu suala cavab verə bilərsən?!

Səid söhbətin düzəldiyini görüb toxtayaraq dedi:

– Əlbəttə.

– Sən yazmısan ki, Səllahədin Eyubi kürddür, amma bildiyimiz kimi o ömür boyu İslam üçün savaşan bir hökmdar olub, belə bir adamın adının ümmət nifaqı salmaq üçün istifadə edilməsi nə qədər düzdür?!

– Dedim axı, məsələ tarixin necə olması deyil, əsas məsələ o tarixi insanların beynində necə canlandırmaqdır!

Barış daha səbrini basa bilməyib dedi:

– Atalarımızın gözəl bir sözünü var, «hər yerin dovşanını o yerin tazısı ilə tutarlar».

– Tazı yox, köpək, – Kazım bağırdı.

– Demək Allahın adını çəkirsən, amma Osmanlını yıxmaq istəyən xristiyanlarla iş birliyindəsən?

– Mənim pis niyyətim yoxdur! Mən sadəcə bir kürd millətçisiyəm. – Səid aldadıldığını anlayıb pərt halda dedi.

– Bütün Osmanlıda eyni oyunu oynayırlar. Balkanlarda xristianları ələ alaraq Osmanlıdan ayırdılar, indisə Fələstində, İrakda, Suriyada öz müsəlimanlarımızı əla alaraq parçalamaq istəyirlər! Korsanmı, bütün xristianlar birləşib, əvəzində isə müsəlimanları parçalamaq istəyirlər?! Anlamırsanmı?! İngilisi, fransızı, italyanı, yunanı, rusu, hayı birlik olur, sənsə deyirsən ki, yüz illərdi birlik olan İslam ümmətini bölək?! Demək altı yüz ildi kürdlər yatır, hə? – Barış Səidin üstünə bağırdı.*

---

* *Xristian misyonerlərinin Osmanlı torpaqlarında açdığı saysız məktəblər uzun müddət gizli formada ateizimi təbliğ edərək qeyri müsəliman cammaata «İsaya inandıqları üçün İslam boyunduruğundan qurtulma» və müsəliman olan qeyri türklər üçün «Türk boyunduruğunda olanlara azadlıq» adı altında propoqandalar*

Səid Kürdinin dəstəsindən biri irəli çıxaraq bağırdı:

– Sən neçə üzlü bir köpəkmişsən! Sən əsl şeytansan! Bizə Mehti olduğunu söyləyirsən, sən demə İslamı içindən yeyən bir qurdsanmış. – üzünü Barışa tutdu, – Bilirsizmu bu nə deyir? – Səid Kürdünü göstərdi, – Bizə deyir ki, xristiyanları öldürməyin, çünki onlara Rəhməti İlahinin mükafatı var, çünki onlar İsaya aşiq bir qövmdür. Bu sevgidən kimə zərər var ki... Deyir ki, xristiyanlara zülm etmək, İsaya zülm etməyə bərabərdir və böyük günahdır. Və deyir ki, xristianların dinini tərk etməyə ehtiyacı

---

*apardı və lazımı yerlərdə bu sahədə təşkilatlanmalar apardıqdan sonra Osmanlıya savaş açıldı. 1911-ci ildə italyanlar Trablusqarbı işğal etdi. 1912-cı ildə Balkan savaşı başladı. Osmanlı Rumelidəki son topraklarını da itirdi. Bu zaman 1,5 milyon türk öldürüldü, 500 min türk Anadoluya köç etdi. Məğlubiyyətə düçar olmuş Osmanlı hökuməti Fransız, İngilis və Rus dövlətləri tərəfindən təzyiqlərə məruz qalaraq Bitlis, Van, Dyarbakır və Erzurum, Sivas və Trabzon əyalətlərində xüsusi hay-erməni xristian vilayətinin yaradılmasını qəbul etdi. 1914-cü ildə I Dünaya müharibəsi başlayanda Osmanlı Almaniya ilə (2 avqust 1914-cu ildə) ittifaq müqaviləsi bağladı Fransa, İngiltərə və Rusiya Osmanlıya qarşı müharibəyə başladıqda Osmanlı vətandaşı olan hay-ermənilər və bəzi müsəlman topluluqlar Osmanlıya qarşı üsyan qaldırdı. Osmanlı imperiyasında yaşayan bəzi xain toplulqlar Xaçlıların böyük planına üyğun olaraq türklərin arxa cəbhəsi boyunca sabotajlar törətməyə başladı. Beşlər Cəbhəsi (Fransa, Rusiya, İngiltərə və digər ölkələr) müharibədə bütün hay-erməni əhalisi, ərəblərin və kürdlərin bir qismini Osmanlı (Türkiyə) əleyhinə qaldıra bildi. TÜRK-İslam dünyasının yox edilişi üçün hazırlanmış BÖYÜK PLANın bir hissəsi kimi Osmanlı torpaqlarının Qafqaz cəbhəsində hay-erməni qiyamları baş verdiyi zaman Fələstin və İraqda ərəblərn və kürdlərin bir qismi də türklərə qarşı baş qaldırdı. Müsəlimanların cəhaləti və həmin topluluqların rəhbərlərinin xəyanəti Osmanlının məğlubiyyətinə və həmin torpaqlarda xaçlı sömürgəsinin başlamasıa gətrib çıxardı.*

yoxdur, Məhəmmədi müsəlmanların peyğəmbəri kimi qəbul etməsi kafidir! Yəni İsa onların peyğəmbəridir. Məhəmməd bizim peyğəmbərdi və belə olduğu halda düşmənçiliyə gərək yoxdur!

– Bu deyir, – Kazım üzünü Səid Kürdiyə tutdu: – Bu başdan xarab, bu, əməllicə dəlidir ki?!

Barış Səidin yaxasından tutub, sirkələdi:

– Biz onlardan nəsə istəmirik, onlar bizim vətənimizə soxulub, ilan kimi qoynumuza girib? Korsan? Biz onlarla savaşmırıq, onlar bizlə savaşır, görmürsən?! Yunanların İzmirdəki qətliamından xəbərin var? Bu vəhşilikləri biz edirik, ya xristianlar?

Kazım Səidi Barışın əlindən alıb sifətinə bir kəllə atdı:

– Bununla yumşaq davranmaq lazım deyil! Bu münafiqdir, bu bir vəbadır, yayılmadan yox etmək lazımdır!

– Mən insanlar arasında dostluq qurmaq üçün elə demşdim, heç bir pis niyyətim yoxdu! – yalan ustası olan Səid etiraz edərək dedi.

– Şərəfsiz sən necə müsəlmansan?! İngilislər Hindistandan gətirdiyi yüzlərlə əsgəri güllələyib, xəbərin var?! Səncə niyə güllələyiblər?! Cavab ver! – Barış bağıraraq soruşdu.

– Bilmirəm! – Səid key-key cavabladı, Barışın qəzəblə baxdığını görüb, – Vallah xəbərim yoxdur. – dedi.

– Çünki onlar müsəlman idi və müsəlman olan osmanlı əsgərinə güllə atmaqdan imtina ediblər və əvəzində ingilislər onları gülləyə düzüb, amma onlar döyüşməyib! İndi müsəlman olan hindlilərə bax, bir də özünüzə baxın! Onlar müsəlimandırsa siz kimsiz, hə?!

Səid və dəstəsində olanlar bir-birinin üzünə baxdı, Səid başını tutaraq yerə çökdü.

– Köpək Quran üstünə yalan-dolanla dostluq qurulur! Müsəlmanlar məgər İsanı sevmir, onun adını uşaqlarına vermir?! Xristianların Osmanlıya və müsəlmanlara savaş açdığı bir vaxtda, yadına «xristian müsəlman dostluğu» qurmaq düşüb? – Kazım ona daha bir sillə vurdu. Bağırdı, – Hamısını güllələyin!

Səidin adamları yalvarmağa başladı:

– Vallahi bizim bir günahımız yoxdur! Bizi bu aldadıb! Biz tövbə edərək haqq yoluna gəlmək istyirik! Allah rızası için bağış-

layın! Elə buradanca silahlarımızı atıb evimizə gedirik! Biz haqq yolunda mürid olaq demişik, lənət olsun belə bir şeyxə!

Səid Kürdi Kazımın ayaqlarına qapanaraq yalvardı:

– Mənə şans verin, inan bir də "kürd" sözünü ağzıma belə almayacam, hər sözüm "ümmət" olacaq! Vallahi, Billahi! Töbə! Bu dəfə bağışlayın, Allah rızası üçün! Mənə etdiklərimi təmizləməyə imkan verin! Sözümün isbatı üçün ingilislərin bizə göndərdiyi silah-sursatın yerini sizə deyəcəm!

Uzun çək-çevirdən sonra Kazım və Barış onları bu dəfəlik bağışladı və dedilər ki, bir də belə bir xəbər duysalar, onu yerin deşiyində olsa da tapıb öldürəcəklər!

Doğurdan da Səid Kürdi bir xeyli susdu, sonralar o «kürdlük» siyasətinin daşına atıb cəhalət nuru yayacaqdı. Kazım və Barışın onunla növbəti görüşüsə o biri dünyaya qalacaqdı.

* * *

1917-ci il oktyabr inqlabından sonra rus ordusu Qafqazdan geriyə çəkilməyə başladı və geri çəkilən ordu bütün silahını hay-ermənilərə verirdi, – «erməni döyüşçülər ittifaqına». Həmçinin bu ərazilərdə rus zabitləri və hay-erməni əsgərlərindən təşkil olunmuş ordu yaradılmışdı, bu elə bir ordu idi ki, olduğu ərazidə müsəlman əhalisinin qırlmasını həyata keçirirdi. Qəribə olsa da, hay-ermənilərin havadarları bu qətliamları gizlətməyə çalışır, gizlədilməsi mümkün olmayan qırğınlarısa yalnız hay-ermənilərin boynuna yıxırlar, guya ki, burada olan işğal ordularının, zabitlərinin türk-müsəlman qırğınları ilə heç bir əlaqəsi yoxdu. Mətbuatda işıq görən bəzi yazılarda, işğalçı orduların zabitləri qeyd edir ki, hay-erməni vəhşiliklərini görüblər, guya qarşısını almaqda aciz qalıblar. Çox qəribədir, təsadüfən I Pyotur Qafqaz müsəlmanlarını məhv edərək, bu əraziyə xristian əhalisi gətirməklə süni şəkildə bir «bufer xristian dövləti» yaratmağı məsləhət görür, təsadüfdən bu vəsiyyətdən düz 100 il sonra, 1828-ci ildən üzü bəri Qafqaz və Şərqi Anadolu planlı şəkildə haylarla doldurulur. Yenə təsadüfən 1877-1878-ci ildə Osmanlı Rusiya müharibəsində Şərqi Anadolu istiqamətində döyüşən rus

generalı təsadüfən milliyətcə erməni Loris Məlikov olmuşdu və osmanlı vətəndaşı olan hay-ermənilər təsadüfdən türklərə xəyanət etmişdi və osmanlı məğlub olduqdan sonra, təsadüfdən rus çarı sülh müqaviləsində hay-erməniləri Şərqi Anadoluya köçürülüb yaşamasının təmin edilməsini bir şərt kimi qoymuşdu. Və təsadüfən 1914-ci ildə Osmanlı ilə vuruşan Rusiya, Fransa, İngiltərə ordularının tərkibində minlərlə hay-erməni zabitləri və əsgərlərı daxil edilmişdi. Və təsadüfən hay-ermənilər, yenidən Şərqi Anadoluda, Azərbaycanda, Cənubi Azərbaycanda qırğınlar törədəcəkdi və onları silahlandıran xristian dövlətləri bunu görməzdən gələcəkdi. Və 1915-ci ildə osmanlı sərhədlərinə girən rus ordusunun çarı II Nikolay təsadüfən sədaqətinə görə Van erməni əhalisinə təşəkkür etmişdir və çar II Nikolay təsadüfən Vanı Rusiyaya bağlı erməni quberniyası etmiş və yenə təsadüfən onun başına Aram Manukaynı keçirmişdi. Və təsadüfdən bütün bu hadisələr 1725-ci ildə ölmüş I Pyoturun vəsiyyətinə uyğun gəlirdi, o deyirdi: – «türk milləti arasında xristian bufer dövləti yaratmaq lazımdır». Və təsadüfdən bütün xristian dövlətləri İstanbula can atırdı və bunun I Poturun «İstanbul kimindirsə, dünyanın da şahı odur» deməsi ilə heç bir əlaqəsi yoxdu, bəli görünür bu da təsadüfmüş?! Bütün bunlar hamısı təsadüfdü… Və işğalçı orduların zabitləri yazır ki, haylar türk-müsəlman qətliyamı törətdikdə, onlar hayların törətdiyi qətilləri dayandıra bilməmişdi, maraqlıdır görən bu işğalçı ordular bu torpaqlara niyə gəlmişdi?

Qafqaz rus ordusu geri çəkildikdən sonra yaranan müvəqqəti dövlət – Zaqafqaziya Kommisarlığı 1917-ci il 18 dekabr tarixli dekreti ilə gedən ordunun əvəzinə yeni ordu yaratdı. Bu dekretə görə ordunun təşkilində milli əlamət əsas görürülməli idi və ordu rus, gürcü, erməni, müsəlman korpuslarından ibarət olmalı idi. Budur haqq-ədalət, hüquq bərabərliyi, amma bu haqq-ədalət kağızda qalacaqdı. Belə ki Şərqi Anadolu ərazisinin ordusu rus zabitləri və hay-ermənilərdən təşkil olunmuşdu və hətta təsadüfən Ərzurum şəhər qarnizonunun rəisi milliyətcə erməni Torkomyandı. O, ilk gündəncə müsəlmanların amansızca və kütləvi qırğınına başladı və bu qırğın o səviyyəyə çatdı ki, şəhərdəki rus zabitləri qorxuya düşdü. Çünki tezliklə türk ordusu tərəfindən

tutulma etimalı olan Ərzurum şəhərində bu qırğına hay-ermənilər kimi onlar da cavab verməli olacaqdı. Bu səbəblə də Torkomyan şəhəri tərk etdi, amma Andrioniklə bərəbar yenidən Ərzuruma qayıtdı*. Axı onlar Andrionikin türklər üstündə qələbə qazanacağına inanırdılar və belə halda ikibaşlı oyuna ehtiyac qalmırdı. Amma tezliklə ruslar anladı ki, Andrionik heç bir hərbi səriştəyə malik olmayan axmağın biridir. Və bütün bunları anlayan ruslar tarix boyu yazdığı saxta raportları kimi, yenidən ikibaşlı oynamağa başlayacaqdı, belə deyəcəkdilər: «ermənilərin vəhşiliklərini biz acizcəsinə seyr edirdik, çünki biz özümüz də onların əsiri idik».

Gündəliklərində o günləri xatırlayan rus zabitləri müsəlmanların qırılmasını yalnız hay-ermənilərin günahı hesab edirdi və yazırdılar ki, guya o dövrdə Ərzurum şəhərində hay-ermənilərin müsəlmanları qırması, rus zabitlərinin şərəfinə toxunmuşdu, onlar belə vəhşiliyi sözlə ifadə edə bilməmişdi. Amma niyəsə mənim bir misal yadıma düşdü, bəlkə bu misal kimlərəsə görə yersiz olacaq, amma deyəcəm, «dovşana qaç deyir, tazıya tut deyir». Qəribə olsa da bu ordunun ölüm cəzası verməyə ixtiyarı olan səhra məhkəməsi vardı, ancaq təsadüfdən tirbunalın heyəti hay-ermənilərdən ibarətdi. Görən hay-ermənilərdən təşkil olunan tirbunal heyəti məhkəmədə kimlərə ölüm hökmü verəcəkdi?! Bunu anlamaq çox çətindir?!

Türkiyə hökuməti Zaqafqaziya Kommisarlığı ilə sülh danışqları aparırdı və hücumun olub-olmamasını bu danışıqlar təyin edəcəkdi. Hay-erməni xəyanətinə qəzəblənmiş kürd və türk dəstələri isə Türkiyə hökümətinə tabe olmadan öz intiqamını alırdı.

Kazım dəstəsindəkiləri süzərək dedi:

– Qardaşlarım bu axşam çox zor olacaq! Hökümətimiz düşmənə aman verir və bizi sülhə səsləyir, deyir ki, müsəlman qardaşlarımızın qanını tökən hayları-erməniləri bağışlayın, nə cəza lazımdırsa hökümət özü verəcək! – O, köksünü ötürərək tüfənginin qundağını yerə qoydu, – amma hökümətin etdiyi siyasi

* *1918-ci il 17 fevral*

dəngəni qorumaqdır, bizim borcumuz isə milli dəngəni pozanları məhv etməkdir! Bəlkə hökümətimiz bizi bağışlamayacaq, amma bu dindaşlarımızın fəryadından önəmli ola bilməz! – Başını yelləyərək dedi, – Demək ki, bəzən ilahi ədalətlə siyasi ədalət fərqli olur, amma yetər! Qana qan, cana can!

– Doğrudur. – hamı bir ağızdan bağırdı.

Kazım yenidən danışmağa davam etdi:

– Mənim kavqam* müsəlmanların qanını tökənlərlədi. Hökümət qoy öz işini görsün, adım kimi bilirəm ki, onlar gəldikdən sonra yenə bu qatilləri bağışlayacaq, bu üzdəndə hökümət gəlmədən hayları-erməniləri qırmaq lazımdır, ən əsası isə başsız qalan müsəlimanları qorumaq lazımdır!

– Doğrudur. – yenə hamı bir ağızdan bağırdı.

– Andrionikin Ərzuruma gəlməsi şərəfinə haylar-ermənilər Təpəköydəki bütün müsəlmanları son nəfərinəcən qırıblar, bunu onların yanınamı qoyaq?! – Kazım bağıraraq soruşdu.

– İntiqam! Öc zamanıdır! Qana qan! – hamısı bir ağızdan bağırdı.

– Elə isə bu axşam aşağıdakı düşmən mövqeyini basacayıq! Geri çəkildi yoxdur! Hamsını qırmaq lazımdır, əsr alınanların taleyi yenə məndən asılı olacaq! Qəzamız mübarək olsun! Hazırlaşın…

Hələ də Ərzurum-Ərzincan xətti boyunca düşərgələrə düşmən ordusu tərəfindən nəzarət olunurdu. Türkiyə hököməti danışıqlar aparırdı. Lakin keçən hər saatsa haylar-ermənilər tərəfindən öldürülən minlərlə müsəlman deməkdi. Bu səbəblə Kazım ilə Barışın dəstəsi bu axşam bu düşmən düşərgələrindən birini tutmaq niyyətində idi.

Axşam zülmət bir qaranlıq vardı, göz-gözü görmürdü. Gecənin bir vaxtı üç dəfə canavar uladı və ardınca güllə atışması başladı. Bir müddət sonra düşmən düşərgəsi artıq tutulmuşdu. Düşərgənin gəzərlərinin** hamısı hədəfə alınmış, hər dəstə hazır olduğunu qurd kimi ulayaraq bildirmişdi və hücum başlamışdı… 30 hay-erməni əsgəri öldürülmüş, 12 hay-erməni əsgəri və

* *davam*

** *patrul*

8 hay-erməni zabiti və 3 rus artilleriya zabiti əsr alınmışdı, kürd Kazımın dəstəsi isə 7 nəfər itirmişdi.

Barış və Kazım sıraya düzdüyü əsirləri bir-bir gözdən keçirirdi, rus zabitlərinin qabağında duran Kazım diqqətlə rusları süzdü:

– Siz bizdən nə istəyirsiniz? – deyə soruşdu və Barışa dedi: – Türkoğlu tərcümə et gavurlara. – Kazım Barışı bəzən belə çağırırdı.

Barışın tərcüməsindən sonra rus zabitlərindən biri dedi:

– Bəy bizim sizdən bir istədiyimiz yoxdur! Biz rus əsgəriyik, əmrə tabeyik, gəl dedilər gəldik! Nikolayı yıxdıqdan sonrasa yeni yaranan Zaqafqaziya dövləti mərkəzdə vəziyyət düzələnəcən bizim öz xidməti borcumuzu yerinə yetirməyə borclu olduğumuzu söylədi. Yəni bizim getməyə ixtiyarımız yoxdur. Əgər getsək səhra məhkəməsinin əmrinə əsasən güllələnərik.

Kazım Barışın tərcüməsini dinləyib, sifətini turşudaraq əlini yuxarı qaldırdı:

– Nə danışırsan, – tərs bir nəzərlə zabitin üzünə baxdı, – mən onu demirəm?! Siz xristianlar bizdən nə istəyirsiniz?! Siz ruslar bizim vətənimizdə nə gəzirsiz?! Niyə biz müsəlmanları qırırsınız?!

Rus zabiti gülümsəməyə çalışraq öz səmimiyyətini göstərmək istədi:

– Yox, biz sizi qırmırıq, bunu edənlər ermənilərdir! Bu vəşiliklərin cavabdehi biz deyilik! Biz rus zabiti olaraq rus işi üçün, öz xidməti borcumuzu yerinə yetirmək üçün buradayıq! Rus dövləti, rus ordusu, biz rus zabitləri adımızı, şərəfimizi və mundirimizi dünya qarşısında əsla ermənilərin etdikləri əməllərlə ləkələmərik!

– Amma mən sizi yan-yana görürəm! – O, əlini uzadaraq hay-erməniləri göstərdi. – Bura gələn orduda yan-yana deyildinizmi?! Bəs bunlar kimdir? – Rus zabitlərinin yanında dayanan hay-erməni əsirlərini göstərdi, – Bunlar hay və erməni deyilmi?! – Gözünü qıyıb zabitə baxdı. – Mənə maraqlıdır, siz niyə onlara hay demirsiz, yalnız erməni deyirsiz? Məgər siz bilmirsiz ki, hay

fərqli etnik qrupdur, erməni fərqli etnik qrupdur, amma siz onları biri-birinə calaq etmisiz?

Rus zabiti başını buladı:

– Düzdür, biz indi ermənilərlə yan-yanayıq, – Kazımın tərs-tərs baxdığını görüb əlavə etdi. – Və haylarla! – mızıldandı, – Rus dilində haylara da, ermənilərə də "erməni" deyilir, – özünü bilməməzliyə vurmağa çalışdı, – axı, ikisi də xristiandır!

– Doğurdan? Onda ruslara da erməni deyin, üçünüzdə xristiansız axıııı?! – Barış Kazımın cavabını gözləmədən dedi.

– Siz də haqlısız, – rus zabiti süni formada gülümsəməyə çalışdı, – amma mən nə siyasətçiyəm, nə dilçi! Rus dilində ikisinə də erməni deyilir, məndə təkrarlayıram!

– Qəribədir! Tək siz ruslar yox, bütün dünya hayları erməni adlandırır, qəstdən! Haylar dövlətlərinin adını "Ararat" adlandırmaq istədikdə, mane olduz, dediz ki, dünya sizi "Armeniya" kimi tanımalıdır, nə "araratbazlıqdı" salmısız?! – Barış dişlərini qıcayaraq soruşdu, – Səbəb? – özü də cavabladı. – Qədim "ermən türk tarixini" gəlmə haylarla calaq etmək istəyirsiz!

Kazım rus zabitlərinin susduğunu görüb bağırdı:

– Cavab verrr!

– Axı biz məsələnin dərinliyini bilmirik! Axı artıq hay və ermənini ayırd etmək mümkün deyil! – rus zabitləri bir ağızdan dedi.

– Demək ayırd etmək mümkün deyil? Yaxşı indi mən sizə göstərərəm bu nə qədər sadədir! – Kazım başını yelləyərək dedi və üzünü hay-erməni əsirlərinə tutdu, tüfəngini onlara tuşlayaraq dedi:

– Hansınız haydır sola, ermənidir saga keçsin. Cəld. – Onların biri-birinin üzünə baxıb tərpənmədiyini görüb, birinin alnından güllələdi və bağırdı: – Cəld olun!

Əsirlərin üçü sağ tərəfə keçdi, içlərində biri hay boğazı ilə, lakin türkcə dedi:

– Biz üçümüz erməniyik! Amma tam türkcə danışa bilmirik!

– Bəs bunlar? – Kazım əli ilə digər əsirləri göstərdi, – Siz kimsiz?

– Biz hayıq!

– Əla! – Kazım gülümsündü və dedi – İndi, bu savaşda rus, fransız, ingilis ordusu ilə bura gələnlər bir addım qabağa çıxsın! Cəldd. – bağırdı.

On nəfər bir addım qabağa çıxdı, Kazım bir əsirlərə baxdı, bir rus zabitlərinə baxdı və istehza ilə dedi:

– Gördüz, bir neçə dəqiqədə ermənilərin kim olduğunu, hayların kim olduğunu, hətta indi gələn hayları belə müəyyən etdik! İndi cavab verin, bunları bura niyə gətirmisiz?! Özünüz niyə bura gəlmisiz?!

– Bəy biz zabitik, siyasətçi deyilik! Və İsaya and olsun ki, qırğını biz ruslar yox, hay və ermənilər edib! – rus zabitlərindən biri cavabladı.

– Əgər onların pis əməllərində siz rusların barmağı yoxdursa, siz burada nə edirsiniz?!

Rus zabitləri biri-birinin üzünə baxdı, belə halda nə deyiləsi olduğunu xatarlamağa çalışdılar və biri belə dedi:

– Bəy bizim ordunun böyük əksəriyyəti buradan gedib, indi biz özümüz hay-ermənilərin əlində əsir kimi bir şeyik! Nə edə bilərik?!

Barış deyilənləri tərcümə etdi, Kürd Kazım rus zabitlərinin üzünə tərs bir baxış atdı, dişlərini qıcayaraq dedi:

– Qarsı, Vanı, Ərzurumu, Ərzincanı və başqa əraziləri tutan kimlərdi?

Rus zabitləri bir anlıq susdu və bayaq cavab verən zabit dili dolaşıq vuraraq cavabladı:

– Rus ordusu…

Kazım başı ilə onun cavabını təsdikləyərək soruşdu:

– Mənim müsəlman qardaşlarımı qıranlar kimdi?

– İsaya and olsun ki, haylar və emənilər, – rus zabiti höcətləşdi.

– Bura bax, – bu dəfə Barış dedi, – bura sənin uydurma raportlar yazaraq əməllərinizi, cinayətlərinizi gizlədiyiniz yer deyil! Şəhərləri tutduqda oradakı vəziyyətədə siz cavabdeh deyildinizmi?! O zamandamı mərkəzdə vəziyyət qarışmışdı, bəs o zaman olan qırğınlara nə deyəcəksən?!

– Haylar-ermənilər əmrə tabe olmurdu. İsaya and olsun əmrlərə tabe olmurdu! – rus zabiti kəkələdəyərək cavabladı.

– Deməkk əmrə tabe olmurdular, bəs niyə göz yumurdunuz? – Barış əsəbini boğmağa çalışaraq soruşdu. – Bura hayları silahlandırıb gətirmisiniz, İzmirə yunanları gətirmisiniz və onlar müsəlmanları qırır. Göz yumursunuz, amma günahkar onlardımı?

-… – rus zabitləri biri-birinin üzünə baxıb susdular.

– Niyə bütün əmr verici vəzifələr hay-ermənilərə verilib, sizin şərəfli rus zabitləri bu işləri bilmir? Bəs şərəfli rus ordusu niyə Ərzurumda ordunun tabeliyini quldur Andrionikə verdi? Türk hökümıəti quldurluğu və soyğunçuluğuna görə ona ölüm hökmü kəsib, amma rus hökümıəti onu ordunun başına keçirir! Niyə? Çünki Türkiyə hökümətinin quldur hesab etdiyi terrorçunun musəlmanları qıracağını yaxşı bilir! Bilərəkdən ondan istifadə edirsiniz, bilərəkdən haylardan istifadə edirsiz! Sonra adı qoyacaqsınız ki, türk-müsəliman qırğınlarında rus ordusunun, rus dövlətinin günahı yox, bunlar Andrionikin və hay-ermənilərin günahıdır! Andrionikə siz cəsarət verməsəniz o kimdir ki? Qəribəsi budur ki, Andrionik və onu kimiləri tək sizə yox, fransızlara, ingilislərə də lazımdır… – Barış bağırdı, – Siz xristianlar bizdən nə istəyirsiniz? Osmanlı altı əsr burada hökmranlıq edib, xristianlar da, müsəlmanlar da burada hüzur içində yaşayıb, amma indi aləmi qatmısız biri-birnə! Səlib yürüyüşünüz bitməyibmi? Roma zamanında hay-erməni kilsələrinə göz verib, işıq vermirdi, Qriqoryan məhzəbinin qalmasını haylar-ermənilər, türklərə, səlcuqluya, Osmanlıya, Səfəviyə borcludur. Ermənilər Məlik şaha, Qılınc Arslana, Sultan Fateh Mehmetə baba deyirdi. İndi aranı qatmısınız, siz xristianlar. – Barış Kürd Kazımın üz cizgisinin dəyişdiyini görüb susdu və ona baxdı.

– Sən onlara nə dedin? – deyə Kazım soruşdu. Barışın tərcüməsindən sonra gülümsündü. Deysən Barışın dedikləri Kazımın özü-özünə verməkdən yorulduğu sualın cavabı idi. Kazım rahat bir nəfəs alaraq dedi:

– Doğru ya, – başı ilə Barışın dediklərini təsdiqlədi, – bu həriflərin başqa nə kavqası olacaq ki… Boğazınızdakı xaç belə bunu söyləyir, bizsə… – bir anlıq susdu, sonra ruslardan soruş-

du, – İndi nə deyəcəksiniz? Xaçlı yürüyüşünü davam etdirisiniz, eləmi?!

– Bizə əmr olunub gəlmişik, başqa nəsə bilmirik axı… – ruslar Barışla Kazımın üzərinə baxdılar, – Biz ruslar zabit şərəfimizi əsla hay-erməni vəhşilikləriylə ləkələmərik, inanın! Bax buna cavabdeh ola bilərik, – dedilər.

Kürd Kazım başını yırğalayaraq dedi:

– Düzdür nə fransızlar, nə ingilislər, nə siz ruslar öz adlarını bu vəhşiliklərlə ləkələmək istəmir və bütün bu qətlləri hay-ermənilərin, yunanların üstünə yıxır! Əslində isə bu vəhşiliklərin əsas baiskarları sizsiniz, ondan sonra hay-ermənilər, yunanlardır! Axı hayları 1828-ci ildən üzü bəri Suriyadan, Liviyadan, Fələstindən siz daşıyıb gətirirsiz, düzdürmü? – o əsəbi halda soruşdu. – Və onları silahlandıran kimdir?!

Ermənilərdən biri hay boğazı ilə dedi:

– Bəy düz deyirsən, qatil onlardı… Hayları da onlar gətirib!

İndi ruslar bizi öz məzhəbinə keçirmək istəyir, Fransa, İngiltərə öz mehrəbinə.

Hay zabitlərindən biri də söhbətə qarışdı:

– Bizim hamımızı bu cəncələ salan onlardır!

Kürd Kazım bunu deyən hay zabitinə tərsinə sillə vuraraq bağırdı:

– Kəsin səsinizi köpək. Sizin bacardığınız tək şey xəyanətdir! Bizə xəaynət etdiniz, indi cətinə düşmüsünüz rusa xəyanət edirsiniz?

Sillənin təsirindən yerə yıxılan hay zabiti başını bulayaraq dedi:

– Bəy düz deyirsiz, biz xəyanət edirik! Çünki hamı bizdən bunu tələb edir! İnanın, necə sizin çıxış yolunuz yoxdur, eynən bizim də çıxış yolumuz yoxdur! – Əli ilə sinəsinə vurdu, – Məsələn mənim ailəm Livandan gətirilib bura! Gətirləndə deyiblər ki, sizə yurd verəciyik, vətən verəciyik. – zarıdı… – Bura gəldikdən sonra isə dedilər ki, indi bu yerin sizin olmasını istəyirsənsə nə deyirik onu edin, xəyanət edin, şərəfsizlik edin! Onların dediyini etməyənləri isə yalnız ölüm gözləyir! Nə edə bilərik ki?! Ortada

qalmışıq bəy! Nə desələr onu etməyə məcburuq, başqa bir yolumuzmu var?

- Kim məcbur edir? – Kazım bağıraraq ondan soruşdu.
- Kilsə, bizim tək bağlantımız onlardı. Onlar kilsəyə əmr verir, kilsə bizə! – bayaqkı erməni dedi.

Barış rus zabitlərindən soruşdu:

- Eşitdizmi? Baxın dünyanı nə hala gətirmisiz? – əsasən suallara cavab verən rus zabitinin qabağına gəlib dayandı: – Polkovnik, rus mundirini hay-erməni qanına batırmaq istəmiyən zabit, bir sual verim. Anadoluya gəldiyniz bu 3-4 ildə barı bir hay-ermənini etdiyi cinayətlərə görə cəzalandırmısınızmı?

Rus zabitləri udqunaraq Barışa baxdı, "yox" mənasında başını saga-sola yellədi.

Kazım söhbətə qarışaraq soruşdu:

– Bəs bu əməlləri edəndə düşünmürdünüzmü ki, etdiyniz cinayətləri saxta raportlarla gizlətməklə deyil, bir gün ola bilər bir müsəlman bunun hesabını soruşa? Amma yox, o qədər gücünüzə inanırsız ki, allahlıq iddiasına düşmüsüz, elə hesab etmisiz ki, daha kimsə sizdən hesab soruşa bilməz. İndi sizdən soruşuram, axı niyə? Eyni Allaha inanmırıqmı? Axı öldürdükləriniz, ölümünə göz yumduqlarınız insan deyilmi?! Axı niyə? – bağırdı.

Polkovnik bir an duruxdu və əli əsərək dedi:

– Bəy mən neçə müsəlmanı ölümdən qurtarmışam. – O, sinə cibindən bir dəftər çıxararaq əlavə etdi, – bu mənim gündəliyimdir, burada da yazmışam. – Barışa uzatdı, – Buyurun, oxuya bilərsiz.

Kazım acı-acı gülümsədi, əlini həmin rusun çiyninə toxunduraraq dedi:

– Mən aldadılacaq yaşı çoxdan keçmişəm. Bir də ki rus-hay yalanına inanmayacaq qədər rus-hay uydurması görmüşəm! Siz ruslar, fransızlar, ingilislər neçə illərdi eyni bəlanı gətirirsiniz başımıza, haylar, yunanlar sadəcə maşadır. – Bayaq etiraf edən haya baxaraq dedi. – 1878-ci ildə də müsəlmanları qıran siz ruslar deyildinizmi? O zaman da haylardan istifadə etməmişdinizmi?! Sonra hay-erməni yekiskopu Trabzonda müxtariyyat istədi, onda da İngiltərə, Fransa, İtaliya kimi dövlətlər tökülüşdü Osmanlının

üstünə.

Rus polkovniki başını yelləyərək dedi:

– Sizin dediklərinizdə həqiqət payı var, amma İsa haqqı mən neçə-neçə müsəlmanın həyatını qurtarmışam!

– Neçə müsəlman qurtarmısan? – Kazım onun üzünə baxdı.

– On nəfər olar! – Palkovnik əminliklə dedi.

– Bəs neçə nəfər müsəlmanın ölümünü öz gözünlə görmüsən? – Kazım ona sınayıcı nəzərlərlə baxdı.

– ...Polkovnik Kazımın nəyə eyham vurduğunu anladı, deyəcək söz tapmadı.

– O canını qurtardığın 10 müsəlmanı hərbdən sonra vicdanına bəhanə gətirmək üçün xilas etmisən, bəlkə elə deyil? –Kazım acı-acı gülümsədi.

Polkovnik bu sözdən sonra başını aşağı əyərək susdu, sanki düşüncələrə daldı.

– Ulan, sizin Allah qorxunuz, vicdanınız belə saxtadır! İndi mənə cavab verə bilmədiyin halda, Tanrıya necə cavab verəcəksiniz?! İsaya inanırsız? İsa adını istifadə edərək tökdüyünüz bu qana görə İsaya nə cavab verəcəksiniz?! İsanın adıyla ulusunuzu aldatmaq, İsanın adından istifadə edərək qan tökmək, bu necə təxəyüldür, bu necə insanlıqdır?!

– Sən haqlısan! Bu böyük bir çarxdır, bizi aşır… – rus polkovniki qayğılı halda dedi.

– Ancaq burada olan cinayətlərə göz yuman sizsiz? Bəs zabit mundirinizi ləkələmək istəmirdiz?!

– Polkovnik deyəcək söz tapmadı.

– Rus, – sınayacı nəzərlərlə rus zabitlərini süzdü, – haylar-ermənilər xəyanəti bacarır, sizsə iküzlüyü. Bizim xalqa «yaxşı-pis oyunu» oynayırsınız?

– Əhf buyurun anlamadım… – rus polkovniki çaşqın halda soruşdu.

Kazım bığaltı gülərək danışdı:

– Bir kərəsində atam dağdan vəhşi bir at buldu. Nə qədər ata təlim verdisə at kimsəyə isinişmədi. Sonunda atam ata kızdı*, atı

* *kızdı –əsəbləşdi; Azərbaycan dialektlərində «qızmaq» sözü hələdə*

yorulanacan qırmacladı və ac-susuz saxladı. İki gün belə keçdi, sonra atam mənə dedi ki, get ata su və ot ver, sonra ipini aç, min çap. Mən atamın dediyi kimi etdim, iki gün döyülürərək, ac-susuz qalan at mənim nəvazişimdən sonra mənim can dostum oldu. Amma atamı gördükdə kişnəyir və onun üstünə fınxırırdı. Atam və mən o ata «yaxşı və pis oyununu» oynamışdıq, atam onu döymüş, ac-susuz saxlamışdı və onun əmri ilə mən ona su və ot vermişdim. Əvəzindəsə at atamı pis kimi, məni isə yaxşı kimi tanıyırdı. – Kazım səsini bir az da ucaldaraq dedi: – At atamı onun azadlığını əlindən alan biri kimi, məni isə öz xilaskarı kimi tanıyırdı. Amma biz isə ata və oğul idik, hər ikimizin niyyəti onu çapmaqdı, atsa atamı pis kimi, mənisə yaxşı kimi tanıyırdı, məni özünün qurtarıcısı kimi tanıyırdı. İndi siz ruslar on müsəlmanı hay-erməninin əlindən qurtararaq yaxşı rolunu oynayırsınız, hay-ermənilər isə pis olmuş olur! Müsəlmanları bura gətirdiyiniz hayların-ermənilərin əli ilə qırırsınız, amma dünya vəhşi kimi hayları və erməniləri görür! Şahənə… – o əsəbi halda gülümsədi. – Beləcə hay-ermənilərlə bizi qırdıracaqsız, amma özünüz yaxşılıq mələyi olaraq xalqımı minib çapacaqsız, eləmi?

– … – Rus zabitləri cavab verməyə bir söz tapmadı. Rus zabitlərindən ən gənci əlini irəli uzadaraq yalvardı:

– Bizi əhf et bəy!

– Ulan mənim xalqım sizə at, eşşəkmi, həəə? Bizim ata, eşşəyə təlim verərəkən etdiyimiz oyunu bizə oynayırsınız? Ulan bunun əhfimi olur?!

Gənc rus zabiti zarıyaraq dedi:

– Bəy biz dediyiniz kimi pıs insanlar deyilik. Məsələn Ərzurumda Andrionik bizə müsəlmanların yaşadığı yerləri topla vurmaq əmri vermişdi, biz rus zabitlərisə etiraz etdi.

– Tarixi aldadacağınız saxta raportları mənə söyləmə küçük! Sizin tezliklə bura gələcək türk qoşunundan qorxunuz olmasa onu da edərdiz, amma qorxursunuz! Hökümət qoşunu gəldikdə gücünüz çatmayacağını bilirsiniz, bu üzdən də özünüzü gözə soxmaq üçün yenə yaxşılıq oyunu oynayırsınız! – Kazım bağıraraq dedi.

---

*işlənməkdədir.*

Barış daha sakin görsənməyə çalışırdı:

– Bir də ki Ərzurumdakı müsəlmanları qırmağa topmu lazımdı?! Şəhəri zatən işğal edib hayların əlinə vermisiz. Nə vaxtdan burnunun dibində əsir kimi yaşayanları topla vururlar?! Məsələn, mən indi sizi toplamı öldürəcəm? Elə danışırsınız bişmiş toyuğun da gülməyi tutur! – Barış dişlərini qıcayaraq dedi. – Haylar ağılsız olduğundan sizdən topdan istifadə etməyi xahiş edib! Lakin siz, rus zabitləri oxumuş, savadlı zabitlərsiz, siz gözəl bilirsiz ki, topsuz da da haylar müsəlimanları qıracaq, daha niyə əlinizi qana bulayasız ki, elə deyil?

Kazım əlavə etdi:

– Onları qılıncdan keçirmək daha asan və daha səssiz olduğundan elə edirsiniz! Müsəlmanların evlərini topla vursanız dediyiniz kimi birbaşa rus dövlətini ləkələyərdiniz, tezliklə gələcək hökümət ordusu topla dağılmış evləri görməzdimi?! O üzdəndə müsəlmanları qılıncla doğramaq sizə daha xeyirli idi!

Barış artıq əsəbini boğa bilməyib ağzı köpüklənərək bağırdı:

– Susmayın! Cavab verin! Quşu topla vurmurlar ki?! Biz müsəlmanlar savaş sənətini biləndə siz göydə ulduz sayırdınız, indi özünüzü ağıllımı hesab edirsiniz?! O şəhəri hayların ümidinə qoyan kim idi?!

Kazımın gənc rus zabitinin yaxasından tutub sirkələdi:

– Barışın dediyi kimi, bəlkə qammaz* Andrionik doğurdan da sizdən şəhəri topla dağıtmağı istəyib, axı o boşboğazlıqdan başqa bir şey bilmir! Amma sizi kimi rus tülküləri anlayır ki, cinayəti elə etmək lazımdır ki, sonra bu cinayət siz rusları ləkələməsin, siz rusların üstündə qalmasın! Bax siz buna etiraz etmiş ola bilərsiniz! Bir də ki şəhəri tutmaq üçün silahsız əhaliyə heçmi top atmamasınız?

Gənc rus zabiti kəkələdi:

– Bəzən atmışıq. – dedi.

– Çünki o vaxt düşünürdünüz ki, burada Krım kimi sizin olacaq! Gecə qara, cücə qara deyib qorxmadan topdan istifadə edirdiniz, özü də bəzən yox, mümkün hər variantda! İndisə vəziy-

---

* *“Axmaq”, Azərbaycan dialektində hələdə işlənməkdədir.*

yət əvvəlki kimi deyil, necə deyərlər «bu xına o xınadan deyil». Hə? – Barış əsəbi halda rus zabitlərini süzdü.

Gənc rus zabiti yalvararaq dedi:

– Bizi bağışlayın! Axı biz əmr quluyuq!

Bu vaxt yuxarıdan təyarə keçdi, səsinə hamı başını qaldırıb göyə baxdı. Barış başı ilə tayərəni işarə edərək dedi:

– Bax, sizi 1914-cü ildəkindən fərqli olaraq, müsəlmanlara qarşı daha rəhmli edən, ordumuzun tezliklə gəlmə qorxusudur! Bilirsiniz ki, hay-ermənilər və digər axmaqların xəyanəti ilə laxlayan ordumuz yenidən nizamlanıb, busa sizi qorxudur! Axı etdiklərinizin hesabını soruşacaq biri var, bu səbəbdən etdikləriniz zibilləri təmizləməyə çalışırsınız! Kəşfiyyat təyarələrini gördükdə bilirsiniz ki, sizinlə vuruşan kiçik kürd-türk dəstələrini tezliklə nizami ordu əvəz edəcək, sizsə qurtardığınız on müsəlmanı şahid gətirib günahlarınızı gizlətməyə çalışacaqsız! Axı ordumuz bu günə, sabaha gələcək… Artıq II Nikolayın buraları erməniyə verdiyi vaxt deyil, xəyanətdən zəifləyən ordumuz artıq hesab soruşmağa gəlir, yoxsa burada Krımın başına gətirdiklərinizi gətirməzdinizmi?!

Kazımın tüfəngini əlinə aldığını görüb əsirlər yalvarmağa başladı:

– Bizi əhf edin bəy…

Gənc rus zabiti gözləri dolmuş halda dedi:

– Mən bura gəldikdə arvadım hamilə idi, qızım olub, heç üzünü də görməmişəm! – Kazımın tərs sifətini görüb üzünü Barışa çevirdi: – Ağa, bizi bağışlayın! Bizi türk hökümətinə təhvil verin, qoy bizi qanunla cəzalandırsınlar!

Barış gənc rus zabitinə baxdı, gözü doldu, bunu hiss edən Kazım bağıraraq ondan soruşdu:

– Nə deyir bu?

Barış onun dediklərini Kazıma tərcümə etdi, Kazım əsəbi halda dedi:

– Nədir, indi buna yazığın gəlir?! Bəs bura gələrək qırdıqları?! – Üzünü əsirlərə tutdu, – Hə, biz sizi türk hökümətinə təhvil verək, sonra hökümətimiz təzyiqlərə məruz qalaraq sizi hərbi əsir qismində öz dövlətinizə göndərsin?! Bu olmayacaq!

– Biz əmr quluyduq! Bəy, biz kimik ki, əmrə qarşı gələk? Əhf et, bəy! – əsirlər ağlaşdı.

– Bəs mən kiməm ki, xalqın qanını sizə halal edim?!... – Kazım bağırdı.

Barış sınayıcı baxışla Kazıma baxdı və gənc rus zabitindən soruşdu:

– Sənin adın nədir:

– İvan Aleksandiroviç.

– Kazım bu mənə düşən haqdır, bunu buraxıram!

Kazım başını yellədi:

– Rəhmətliyin oğlu, sən nə yuxa ürəksən?!

– Axı onu öldürsək övladı atasız qalacaq… – Barış İvanın əlini açdı və dedi:

– Sən get! Amma unutma, səni övladına bağışlayıram! Amma törətdiyin cinayətlərin cəzasını Allah bağışlamaz! Get!

İvan uşaq kimi ağlayırdı, onun göz yaşı mundirinə tökülürdü…

1918-ci il, fevralın son günü Ərzurum Osmanlının nizami ordusu tərəfindən tutuldu, ordu ilə birlikdə ordunun buralarda olmadığı müddətdə xalqın qeyrətini çəkən müsəlman dəstələri də şəhərə girdi, onlar içində Kazım ilə Barışın dəstəsi də vardı. Hay-erməni millətinin rəşadətli generalı Andironik və yüksək rütbəli hay-erməni zabitləri hücum xəbərini eşidib gecəylə qaçmışdı, özlərini «erməni xalqının azadlıq ordusu» adlandıran hay-erməni qoşunu silah-sursatını ataraq dəli kimi qaçırdı, irəli yox geri! Arxalarında on minlərlə silahsız müsəlman (qadın, qoca, körpə) cəsədləri buraxıb silah-sursatlarını ataraq qaçırdılar … Cinayətlərini, vəhşiliklərini arxada qoyaraq qaçırdılar… Hay-erməni zabitləri və müdafiə xətlərində olan hay-erməni əsgərləri gecə ikən qaçdığından rus zabitlərinin bundan xəbəri olmamışdı. Səhər açılanda, hər şeyi bildiklərində isə çox gec idi. Şəhər türk ordusu tərəfindən tutulurdu. Rus zabitləri yaxşılıq rolu oynadığı avam "yüz müsəlmanı" göstərərək deyirdi:

– Bütün qətlyiamlar hay-erməni vəhşilikləridir! Biz bax bu "yüz musəlmanı" qurtarmışıq, özlərindən soruşun! Biz şərəfli rus zabitləriyik və bu vəhşiliklərlə rusların dünya qarşısında ləkələn-

məsini istəmirik! Baxın, bu "yüz müsəlmana", biz qurtarmışıq… Baxın…

Ərzurumun küçələrində isə on minlərlə müsəliman cəsədi yatırdı, bəs onlara kim baxsın?

Müsəlmanlara atılan gülləiəri bəlkə, hay-ermənilər atmışdı, amma tüfəng-güllə kimindi? Onları rus, fransız, ingilis ordusunun içində bura gətirən kimdi? Şərqi Anadoluda hay-erməniləri Osmanlıya xəyanət etməyə təşviq edən, müsəlmanları qırın əvəzində sizə dövlət yaradaq deyən kimdi? Vanda (1915-ci ildə) Çar Rusiyasına tabe erməni quberniyası yaradan kimdi?! Rus ordusu adı ilə gələn ordunun başına erməni millətindən olan zabitləri qoyan kimdi?

Türk qoşunu Ərzuruma girən zaman kürd Kazım və türk Barış dəstəsi ilə orduya kömək etmək istəyirdi, lakin bunun sonunun nə ilə nəticələnəciyini yaxşı bilirdilər. Bu səbəbdən Barış ilk dəfə idi Kazımla məsləhətləşmədən dəstəyə səsləndi:

– Duran sən qabağa çıx, – Kazımın sağ qalan tək oğluna səsləndi, əli ilə bir bir gəncləri göstərib dedi: – sən, sən… qabağa çıxın…

Kazım Barışa baxaraq dedi:

– Türkoğlu nə edirsən?

– Kazım bunlarla yolçuluğumuz bura qədərdir! Onlar geri dönəcək! Yaşayacaq!

– Olmaz! – Duran dedi.

– Olar! – üzünü Kazıma tutdu. – Kazım oğluna de ki, geri dönməsə atalıq haqqını halal etmərəm! Əgər deməsən sənə yoldaşlıq haqqımı halal etməyəcəm! – Üzünü gənclərə tutdu, – Eyni ilə sizə də abilik haqqımı halal etmərəm! Siz geri dönürsüz!

Kazım Barışı qucaqlayıb gözündən öpdü:

– Sən doğurdanda barış adamısan, heyif savaş zamanındayıq! Duran, Barış abini eşitdin! Geri dönürsüz, hamınız! Alevi sazını kimsə çalmalıdır, ya yox? Duran Ərolu axtar tap, Barış abinin qardaşı Savaşı axtar tap. Biri-birinizə qız verib, qız alın. Qoymayın bizi bölsünlər! – oğlunun boynundan tutdu, – Siz burada olmamısız, savaşmamısız, heç bir yerdə danışmayın…

Beləcə Barış ilə Kazımın dəstəsindən bir hissə geri döndü,

Barışgil isə düşmənlə atışaraq türk qoşunu ilə birlikdə Ərzuruma girdi.

Kürd Kazım, türk Barış Ərzuruma girdikdən sonra rus zabitlərinə və haylara qarşı qatı olmaları səbəbi ilə ölümlə cəzalandırıldı… Amma rus ordusu Şərqi Anadoluya girdiyi gündən, yəni 1914-cü ildən geri cəkildiyi 1918-ci ilin fevralına qədər öldürülən milyonlarla müsəlmana görə (türk hərbiçilərdən söhbət getmir, silahsız müsəlmanları nəzərdə tuturuq) heç bir nəfər də cəzalandırmamışdır, barı bir aylıq həbs belə verilməmişdi.

* * *

Kürd Kazımla türk Barış gözlərini onlara tüfəng tuşlayan əsgərlərə tutaraq qəribə tərzdə gülümsəyirdi…

– Mən axı sizə demişdim, siyasət bizlik deyil, yalnız döyüşün. – türk ordusunun zabiti Zəfər bəy heyfslənrək dedi.

– Biz döyüşürdük! – ikisi də gülümsəyərək dedi.

– Amma sizə deyilmişdi ki, əsir alınanlarla əsir kimi davranın!

– Biz əsir almırıq! Xalqımın axan qanına qan alırıq! – Barış başını yelləyərək dedi.

– Siz məhkəmə deyilsiniz! Sizin əməlləriniz ədalətli deyil! – Zabit dedi.

– Xalqımizin axan qanını məhkəmə yox, intiqamla yumaq lazımdır! Xalqın axıdılan qanının alınmaması ədalətsizlikdir! – Kazım kinayə ilə gülümsündü!

– Hökümətin, ordunun qanunları var!

– Biz hökümət əsgəri deyilik, biz vətən əsgəriyik! Biz millətmizin əsgəriyik!

– Biz də əsgərik! – zabit bir az duruxduqdan sonra inamla dedi.

– Sizin ruhunuz siaysətə bağlıdır, bizim ruhumuz törəyə!

– Biz də vətənin qeyrətini çəkirik! – zabit yenə inanmla dedi.

– Doğrudur! Amma siz vətənin siyasi qeyrətini çəkirsiniz, bizsə milli qeyrətini çəkənlərik!

– Bu belə olmalı deyildi. – Bayaqdan özünü tox tutmağa çalışan zabitin səsi titrədi, gözləri yaşardı.

– Amma düşmənə biz etdiyimiz kimi olmalıdır! – Onlar qə-

tiyyətlə dedi.

– Son sözünüz… – zabit qəhərdən boğulurdu.

– Vətən sağ olsun! Lə İlahə İlləllah, Məhəmmədən Rəsulallah! – Barışgil dedi.

– Siz hökümət əmrlərinə qarşı gəldiyinizə görə ölümlə cəzalanırsınız! – zabit ağlayaraq əmri bir daha təkrarladı.

– Vətən sağ olsun! – onlar acı-acı qımışdı.

– Atəş.

Gözlərindən yaş axan türk əsgərləri Barışgili güllələdi…

Güllə səsləri eşidildi, bir dəstə adam yerə yıxıldı, Kürd Kazım ilə türk Barış yan-yana yıxıldı, son güclərini toplayaraq biri-birinin gözlərinə baxdılar, yerə şoralanan qanları biri-birinə qarışdı və yerdə göllənən qanları hayların axıtdığı müsəliman qanına qarışdı. İki gün əvvəl düşmən burada yüzlərlə müsəlmanı qanına qəltan etmişdi. Türk Barış havadan onlara sarı süzən birini görüb kürd Kazımdan soruşdu:

– Bizə tərəf biri gəlir!

Kazım başını qaldırıb, gələnə baxdı və səsləndi:

– Mehmet! Kardeşım sən ha! – o çoxdandı küs olduğu dostunu görməyinə şad olmuşdu.

Bir vaxtlar Kazımla silahdaş olan qara Mehmet onu son yolçuluğuna aparmağa gəlmişdi. O yaşının keçməsinə baxmayaraq 1914-cü ildəki hadisələrdən sonra əlinə silah götürüb düşmənə qarşı vuruşmuşdu və sonradan dəstəsi ilə birlikdə yenidən nizamlanan orduya qoşulmuşdu. Bir vaxtlar kürd Kazımı qəddarlıqda günahlandıraraq ondan soyuyan qara Mehmet bir gün gördüyü mənzərə qarşısında oradakı bütün hay-erməniləri və rusları qılıncdan keçirmişdi. Onun dəstəsi orduya əsasən kəşfiyyat xarakterli ön hücumlar edirdi. Nə qədər səbrini bassa da son gördüyü mənzərə onun türk rəhmini yendi, axı müsəlman kəndini basan hay-erməni quldurları kənddəki insanları qırıb-çatmışdı, özü də necə qırmışdılar…

...Mehmetin dəstəsi anidən, yavaya şişlənmiş müsəlman körpələrini bayraq kimi havaya qaldıraraq hərbi addımlarla irəliləyən düşmən dəstəsinin üstünə çıxmışdı. Onlarla hay-erməni, yavaya şişlədiyi körpələri başları üstünə qaldıraraq hərbi addım-

larla irəliləyir, ermənicə hərbi marş oxuyurdular, rus əsgərləri də onları müşayət edərək gülüşürdülər. Sonra bir rus qılıncını qınından çəkərək yavadakı körpələrdən birinin başını kəsdi. Baş havada fırlanaraq yerə düşdü, bu hadisədən bütün hay-ermənilər və ruslar çuşa gələrək güldü. Əli boş olan ruslar və hay-ermənilər dəlicəsinə gülərək başı təpikləyib biri-birinə ötürüb top kimi oynamağa başladılar. Rus zabitlərinin biri onlara baxan qaraltıları sezdikdəsə artıq gecdi, onların silah çəkməyə belə imkanı yoxdu, imkanları olsa belə bu rəşadətli ordu silahsız müsəlmanları qırmağa vərdiş etdiyindən, silahlı müsəlmanlara silah çəkməyə cəsarət edə bilmədilər. Düşmənlər silahlarını yerə ataraq əllərini havaya qaldırdılar, körpələri şişləyərək yavaları başları üstündə tutan hay-ermənilər isə, yavaları yerə atmaqla müsəlmanları qəzəbləndirməkdən qorxmuş kimi yalvarmağa başladılar:

– Rəhm edin! – bundan sonra yavadakı körpələri ehmalca yerə qoydular, sanki zərblə atsalar şişlənmiş körpələrin canını incidərdilər.

Qara Mehmet bir şişlənmiş körpələrə baxdı, bir yanındakı türk zabitinə baxdı və ucadan bağırdı:

– Allah sizi qahr etsin! – çaxmağı hərləyib gülləni lüləyə verdi və qılıncla körpənin başını kəsən rusu nişan aldı.

Türk zabiti Mehmetin niyyətini anlayaraq bağırdı:

– Yox, hökümətimizlə ruslar arasında sülh bağlanıb, onlar təslim olub, onlar hərbi əsirdir!

– Bunlar qatildir, bunlar canidir! Bunların təslim olması bunu dəyişməz! – Mehmet bağırdı, güllə səsi yerdə-göydə əks-səda verdi, rusun başı qarpız kimi parçalandı.

Türk zabiti belə vəziyyətdə Mehmetin dəstəsinə qarşı gələ bilməzdi, çünki dəstələrində qarışıqlıq düşsə əsir dedikləri düşmən vəziyyətdən istifadə edə bilərdi, bu səbəbdən də yalnız xəbərdarlıq etdi:

– Sən əmri pozsan hərbi turibunala veriləcən!

– Canım cəhənnəmə! – O, üzünü dəstəsinə çevirib əmr etdi: – Siz mənə tabesiniz və mən sizə düşmənləri məhv etməyi əmr edirəm!

Türk zabiti bağırdı:

– Mehmet kardeş yapma, buna görə sənə ölüm hökmü oxunacaq!

– Amma indi mən düşmənə ölüm hökmü oxuyuram! – O, qılıncını siyırıb düşmən əsgərlərini və zabitlərini qılıncdan keçirdi…

* * *

– Gedəkmi Kazım, kardeşım. – Mehmet pıçıldadı.

– Sən şəhidmi düşmüsən? – Kazım kədər qarışıq sevinclə soruşdu.

– Vətən sağ olsun! – Mehmet sevinclə dilləndi.

Kazım onun bədənindəki üç dəliyi göstərib soruşdu:

– Bu nədir?

– Güllə dəliyi?

– Bəs niyə bu üzündən o üzü görünür, amma qan axmır?

– Bu rəhmimizdən bizə vurulan güllələrdi, bir neçə dəqiqəyə yaralar sizdə də sağalacaq, axan qanınız kəsəcək, amma dəlik əsla bağlanmayacaq!

– Qiyamətdən sonradamı?

– Onu mən bilmirəm!

– Bəs kim bilir? – türk Barış soruşdu.

– Bilən bilir!

Havaya qalxan Barış və Kazım milyonlarla insan ruhunu görüb bir ağızdan soruşdu:

– Bunlar kimdir?

Mehmet əlini uzadıb göy üzünü tutmuş ruhların bir dəstəsini göstərdi:

– Bu Anadoluda qətl edilən müsəlmanlardır! – əlini digər tərəfə üzadıb, – Bax bunlar Azərbaycanda qırılan müsəlmanlardır! Bunlarsa Bakıda qətl edilən müsəlimanlardır, – əlini digər səmtə uzadıb, – Bax bunlar Arazın o tayında Azərbaycanda qırılan müsəlmanlardır! Bax bunlar Urmiyada qətl edilən türklərdir*.

Kürd Kazım türk Barış eyni anda təəcüblə soruşdu:

– Urmiyada qətl edilənlər türklərdi, yoxsa...

Mehmet qəzəblə mızıldandı:

* *Təkcə Urmiya şəhərində 1918-ci ildə 150 min türk qətl edilmişdir.*

– Rus, fransız, ingilis, amerkan zabit-misyonerləri və bixələf farslar Arazın o tayındakı Azərbaycanda həm özləri türkləri qətl etdi, – səsini ucaltdı, – həm aysorları və hay-erməniləri silahlandırıb türkləri qətl etdirməyə başladı, – daha ucadan bağırdı, – həm də kürdləri silahlandırıb, aldadıb türklərə qarşı qaldırıb qardaş qanı tökdürdülər!

Kürd Kazım qəzəblə bağırdı:

– Qardaş qardaşa silahmı çəkər?! Biz bu qədərmi koruq?! Of-of yandım, – o ruh olsa da içi yanırdı.

Onlar key-key Cənubi Azərbaycanda hələ də davam edən türk qətllərinə baxırdı, hay-ermənilər müsəlimanları qırırdı, soyarlar, kürdlər, farslar türkləri qırırdı, Azərbaycan türk-müsəliman qanına bələnmişdi...

Yavaş-yavaş havaya qalxan Kürd Kazım aşağıdakı mənzərəyə baxaraq pıçıldadı:

– Bu millətin axırı nə olacaq?! – kürd Kazım özü də bilmədi bu sualı kimə verir.

Türk Barış yuxarıdan «bütöv vətənə» baxıb cavab verdi:

– Şəhid düşən bizik, vətən ki, sağdır, millət ki, sağdır! İslam əhli axı sağdır! Ordumuz Azərbaycana doğru irəliləyir, Azərbaycan, Bakı, Təbriz tezliklə hay-ermənilərin, xaçlıların, farsların əlindən qurtarılacaq! Qardaşım Savaş, sənin oğlun Duran ki, hələ yaşayır! İslam əhli, bütün türklər tezliklə xaçlı hiyləsini anlayıb birləşəcək!

– İnşallah!

*Qəribə olsa da millət-vətən əsarətə düşdükdə bu uğurda ilk vuruşanlar «milli qeyrəti» olanlar olur, sonra «siyasi qeyrət» oyanır… Bundan sonra «milli qeyrət» və «siyasi qeyrət» vətən-millət uğrunda bir yerdə çarpışır və qələbə qazanır! Qələbədən sonra «siyasi qeyrət» «milli qeyyətə» əsasən ölüm hökmü verir…*

# TƏKLİF

*Yalnız meyvəli ağaca daş atırlar.*
**Qədim Şərq məsəli**

Azad hekayəsini bitirib susdu, hər kəs sanki heykələ dönmüşdü, kimsə çıqqırını belə çıxarmırdı, sükutu Yaşar pozdu:

– Bəs kürd Kazımın oğlu Durana nə olub? Arazda görəndə Əroldan soruşmadınmı?

– Kazımın vəsiyyətinə üyğun, keçmişi haqqında kimsəyə danışmayıb, silahı yerə qoyub, alevi sazını bağrına basıb, yaşamaq üçün irəli baxıb, bir kürd gözəli ilə də evlənib. Savaşı da tapıb, olanları ona danışıb. Ərol Türkiyəyə keçəndə görüb ki, Duranla Savaş əməllicə dostlaşıb, elə dedi.

– Bəs Ərola nə oldu, Arazda nə işi varmış?

– Cənubi Azərbaycana keçəcəkmiş…

– Yaşamaq üçün? – hamı eyni anda soruşdu.

– Məncə Urmiyanın qisasına almağa gedirdi, nəinki yaşamağa… – Azad kədərli səslə dedi və əlavə etdi – Axı təkcə Urmiyada 150 min türkü qətlə yetiriblər…

– Hər yanda bizi qırırlar, qanımız isə yerdə qalır… – hamısı pıçıldayaraq dedi.

* * *

Zəfər bəy Otto ilə şam edərək xeyli müddətdi söhbət edirdilər. Zəfər qədəhdəki şərabın yarısını içdikdən sonra dedi:

– Otto Yaşarın belə bir vəziyyətə düşməsində yəqin ki ən az günahkar onun özüdür, amma bununla belə görürsənmi necə sədaqətlidir.

Otto acı-acı gülümsədi:

– Axmaq sədaqət deyirəm mən buna.

Zəfər bəy dərindən köksünü ötürdü, qaşları dartıldı və nəfəsi kəsiləcək bir adam kimi pıçıldadı:

– Otto onun vəziyyətini bizim millətdən olmayan birinin başa düşməsi çox çətindir.

Otto incimiş şəkilidə etiraz edərək:

– Zəfər bəy sən nə danışırsan, deyəsən sən mənim tarixçi olduğumu unutmusan?

– Yox mənim dostum, mən sənin tarixçi olduğunu unutmamışam. Amma sən dərk edə bilmirsən ki, biz türklərin rəhimləri və sadəlövlükləri üzündən başına elə şeylər gəlib ki, dünyanın, keçmişin qüdrətli türkü çox aciz və bir o qədər də çətin bir vəziyyətə düşüb. Bunu anlamağa tək tarixçi olmaq yetməz. – Ottonun üzündəki narazılıq əlamətini görüb, – doğru sözümdür, dostum mənim, inan! Türkün düşüncə tərzini, mərdliyini, sənin dediyin kimi axmaq sədaqətini anlamaq üçün gərək ən azı türk olasan! – acı-acı gülümsədi.

Otto qəribə tərzdə onu süzdü, nəsə demək istədi, amma tez də fikrindən vaz keçdi, gülümsünərək bir alman zabitinin deyə biləcəyi sözləri dedi:

– Məni bu vəzifəyə boş yerə qoymayıblar, mən ki, türk tarixini çox yaşı bilirəm.

– Bilməyinə bilirsən. Təbii ki, türklərin necə yazıq və dərdli vəziyyətdə olduğunu bilirsən, amma o cür yaşamaqsa başqa bir dərddir!

– Hə, mən bunu haradan bilim? – gülümsəməyə çalışdı.

– Əziz dostum, türk milləti ta keçmişdən bü günəcən, özündən başqa hər kəsə dostluq əlini uzadıb, özüsə yaddan çıxıb. Beləcə türk milləti biri-birinə düşmən kəsilib, azlıq olanlar digərlərinin içində asimiliyasıya olub.

– Hə, mən bunu anlaya bilmərəm. – Otto əlini yelləyərək dedi.

– Hətta elə olub ki, iki doğma qardaş ayrı-ayrı orduda üz-üzə dayanıb. Üz-üzə gəlib, biri-birini görəndə qılınc əllərində donub qalıblar. Amma… – o dərindən köks ötürdü, qədəhdə qalan şərabı bir nəfəsə içdi və pıçıltı ilə əlavə etdi, – Yaşar indi elə vəziyyətdədir ki, onun kimsəyə inamı qalmayıb. Yaşardakı sənin axmaq sədaqət dediyin o mətanət, o dözüm isə tək bir səbəbdən qalıb?

– Hansı səbəbdən?

– Yaşardakı o sədaqət tək qardaşlarına qalıb, başa düşürsənmi? Onun artıq kimsəyə inamı yoxdur, inana bilcəyi tək qardaşla-

rıdır. Türkoğlunun inamı haradadırsa sədaqəti də oradır. Bax sən bunu başa düşə bilməmisən. O sənə və mənə inansa nə vardı ki. İnan bütün dünyanı yandırıb-yaxardı!

– Əhsən Zəfər bəy, sizin savadlı olduğunuzu bilirdim, daha belə yox. – Otto qəhqəhə çəkdi. – Amma bir məsələ var, siz türklər belə güclüsünüz, bəs niyə son zamanlar sizə qələbə nəsib olmur?!

Zəfər bəy dərindən nəfəs alaraq Ottonun üzünə baxdı:

– Səncə bu anlaşılması çətin məsələdir? Yox əsla! Əziz dostum çünki  bayaq da dediyim kimi elə parçalanmışıq ki, başqa adlarda özümüz özümüzlə vuruşmuşuq. Bakını tutmaq istədiyimiz zamanı, 1942-ci ilin yayında, Kırıma, Qafqaza hücum olunmuşdu,  xatırlasana. Siz və ruslar vuruşurdu, almanlar tərəfindən ən öndə vuruşan hissələr Azərbaycan Milli Legionuna aid «Aslan», «Dönməz», «Qorxmaz», «Vətən» kimi  hərbi hissələr idi. Kazbeki, Elbrusu tutan kimlərdi, mənim igidlərimdi. Amma döyüşdən sonra bildik ki, orada bizim güllə atdığımız da, bizə güllə atan da  türkdü. – Gözündən bir damla yaş süzüldü.  – Sovet tərəfində  ən öndə vuruşan Azərbaycan diviziyaları, Ermənistan diviziyası, Gürcüstan diviziyası idi. Amma sovet hiyləsinə bax, adı Ermənistan diviziyasıdır, amma diviziyanın 80 faizi türklərdən təşkil olunub, – bağırdı, – adı Gürcüstan diviziyasıdır, amma əsgərlərinin 70 faizdən çoxu türkdür və biz orada biri-birimizi güllələyirdik! Bura  Asiyadan olan türk diviziyalarını da əlavə etmək lazımdır. Almanlarla Sovetlər vuruşurdu, amma hər iki tərəfdə qırılan türklərdi. Belə döyüş səncə türklərə qələbə verə bilərmi?! Bu məsələni cözmədən, türk millətini bir  yerə yığmadan biz o böyük zəfərləri yenidən qazana bilmərik!

– Əhsən sənə, Zəfər bəy. – Otto əl çalaraq gülümsündü, amma niyəsə gözündə qəribə bir kədər vardı.

– Otto, dostum, Mən filosof deyiləm, tarixçi də deyiləm, amma  türkəm və qan yaddaşımı yaxşı bilirəm! Sən bir təsəvvür et, biz türklərin hamısının dərdi bax budur! Bəzən bunlar ağlıma gələndə gecəni səhərəcən yata bilmirəm. Türk millətinin hamısı bir səngərdə cəm olsa, inan onun qabağında kimsə dura bilməz. Amma bizi ayrı-ayrı sistemlər altında parçalayıblar, bircə Allahın

izniylə  cəm ola bilsək! Bax o zaman böyük zəfərlər qazanardıq… – deyib Zəfər bəy susdu.

Otto duruxdu:

– Dostum sən elə qəmli danışdın ki, məni belə ruhdan saldın, zəfərlər qazanardıq yox e, zəfər qazanırıq və qazanaraq daim dost millətlər olacayıq. – dedi.

– Hə buna çox ehtiyacımız var, onda görəcəklər almanlar kimdir və türklər kimdir və onların dostluğunun gücü nədir! – qəlbindəsə düşündü: – Kaş bütün türk millətlərini bir ocaqda birləşdirə biləydik. Biz hələ də ayrı-ayrı səngərlərdə biri-birimizə güllə atırıq, nə fərqi, qələbə kimin olacaq, ölən ki, bizik, ölən türkdür.

Otto  Zəfər bəyin qədəhinə, sonra öz qədəhinə şərab süzərək soruşdu:

– Mənimlə Yaşar barəsində danışmaq istədiyin elə budur?

– Yox.  Bilirsən nə var dostum, onun kimsəyə inamı qalmayıb və mən onu belə dərdli görə bilmirəm və bilirəm ki, birisi gün siz hücuma keçəcəksiniz.

–  Hə, düzdür.

– Mən səmimi olacam dostum, mən istəyirəm ki, sən Yaşarı mənə verəsən.

Otto gülümsündü:

- Mən artıq onu sizə təhvil vermişəm. O sizindir!

– Hə, düzdür!  – Zəfər bəy Ottonun gözlərinin içinə baxdı, – Amma mən onu gedəndə yolda salacam ki, getsin qardaşlarının yanına. Amma hamı elə bilməlidir ki, mən onu  milli legiona aparıram.  – Otto nəsə demək istədi, Zəfər bəy onun sözünü kəsib dedi: – Dostum qoy sözümü bitirim.  Bildiyin kimi bunun nə alman xalqının mənafeyinə, nə də ki biz türklərin mənafeyinə xeyri yoxdur.  Amma bir nəfərlə bizə ziyanda olası deyil! Başa düşürsən, nə demək istəyirəm Otto?

– Bəs səbəb? – Otto təəccüblə soruşdu.

– Bu bir türkün digər türkə inandığını verməsidir. Axı onun qəlbi qan ağlayır, onun bu an  istədiyi tək bir şey var, qardaşlarını görməsi və onların yanında ölməsi. – Gözü dolaraq dedi, – Onsuz da sizin bu  hücumdan kimsə sağ qalmayacaq.

– Amma o burada sağ qala bilər, hücumdan sonra isə onun bildikləri zatən öz mahiyyətini itirəcək.

– Görürsənmi Otto, başa düşə bilmirsən. Yaşar üçün fərqi varmı o yaşayır, ya ölüb? Onun tək istəyi var, qardaşlarını görmək, bilmirəm izah edə bilirəmmi?! Türkün inandığı şeylər uğrunda ölməsi onun üçün xoşbəxtçilikdir. Sən elə bilirsən ki, Yaşar sağ qalsa sənə təşəkkür edəcək?

– Yox? – Otto təəccüblə soruşdu. – İnsan bilə-bilə ölümü necə seçə bilər?! Bax, bunu həqiqətən anlamadım. – Otto təəcüblə dedi.

– Əlbəttə "sağ ol" deməyəcək. Onun varı-yoxu, bu dünyada qalan tək əzizləri qardaşlarıdı. Türksə sonu ölüm olsa belə, əzizləri ilə bir yerdə olmağı hər şeydən üstün tutur. Onun olduğu hissə yalnız türklərdən ibarətdir, əgər onun hissəsindəki türklər olmasa və qardaşları o hissədə vuruşmasa idi, bəlkə də biz tərəfə keçərdi. Otto, sən onda olan qardaş sevgisinin, sədaqətin böyüklüyünə bax, sənsə buna axmaq sevgi deyirsən. Bilirsənmi o niyə belə edir?

– Niyə? – Otto bayaqkından daha artıq təəccüblə soruşdu.

– Çünki onlar Yaşara inanmayacaq və sizinlə vuruşacaq və fərq etməz doğru olan bizik, ya onlar, ölən yenə türk olcaq, müsəlman olacaq! Yəni hansı halda olur olsun itirən ümumilikdə türk xalqıdır. Yəni qalib olsaq belə yenə türk xalqı nəyisə uduzur, məğlubdur, çünki bizim qırdığımız tək ruslar olmayacaq, sovet ordusunun ön cəbhəsində olanlar türklərdi. Yəni türk milləti keçmişdə buraxdığı səhvlərlə üzləşməlidir, bu üzləşmə isə çox ağır olacaq. Bu bizim keçmişdə buraxdığımız səhvlərdi ki, bu gün biz üzləşməliyik! Biz özümüzü qıraraq ayrılmışıq və deyəsən yenidən birləşmək üçün də özümüzü qarmalı olacayıq. Bu çox çətin məsələdir.

– Hə dəhşətdir, mən məsələyə heç bu tərəfindən baxmamışam.

– Çünki…

– Hə, bilirəm mən türk deyiləm. – Otto gülümsədi, amma onun da üzündə kədər vardı.

– Sənə Yaşarı bir dəfəlik azadlığa buraxmağın üçün yarım

milyon pul verirəm.

– Bu heç də gərəkli deyil. – Otto etiraz etdi.

– Olsun mən bu pulu dostuma verirəm. Ümid edək ki, o qardaşlarının içnə gedəndən sonra bizim dostluğumuzu onlara deyə bilsin, bəlkə onda onlar  sizə təslim oldu, yoxsa onlar hamısı son damla qanınacan vuruşacaq.

– Yaşar  sənindir, sənədləri düzəldərəm. – Otto dedi və əlavə etdi, – Doğurdanda  türklər çox maraqlı və çox qəribə insanlardır! Amma pul məsələsini deməmiş olun…

– Pul məsələsini unudummm? – bu dəfə Zəfər bəy təəcüblə soruşdu. – Axı niyə?!

– Hər kəsin gizli bir yarası var… – Otto Zəfər bəyin təəcüblə ona baxdığını görüb, gülümsündü, – Sadəcə mən də istəyirəm ki, bu xeyir işdə mənim də əməyim olsun.

– Hə, anladım. Təşəkkür… – Zəfər bəy dedi.

Otto nəsə düşündü və dedi:

- Zəfər bəy, mənimd ə sənə bir işim düşüb, bir ricam var! Amma sual vermə və bu söhbəti heç bir yerdə ağartma!

- Əlbəttə Otto, dost arasında ricamı olar?  Bu ikimizin arasında qalacaq, bizdə əmanətə xəyanət olmaz!

- Sizin legiona verilən bir karaim türkü var, sənəddə adı Xasay deyə keçir. Onu qoruyun! Əsla və əsla ön cəbhəyə buraxmayın! İmkan olan kimi ona kantuzya sənədi düzəldək, o sağ qalmalıdır! O Xəzər türklərinin sağ qalan az saylı şahidlərindən biridir, bu məlumat sızsa onuda, mənidə, sənidə yox edərlər! – onun dodaqları əsirdi.

Zəfər bəy heyrətlə Ottaya baxdı:

- O aşgenazdır?! Aşgenazlar içində hələ də türk qalıb ki?! – sevinc içində dedi.

- Tezliklə qalmayacaq! – Otta kədərli halda dedi.

- Bəs sən niyə onu qoruyursan?! Yoxsa sən də aşgenaz soyundansan?!

- O mənim tələbəm olub! O pir soyundandır! Aşgenazların sağ qalan son piridir! Onu qoru! Amma bu sirri heç özünə də demə, qaldı ki, dostuna. Başa düş, məlumat sızsa onu yox edə-

cəklər!

- Bəs deyirdilər ki, aşgenazlar əsrlər əvvəl türklüyünü itirib?! Demək bizə yalan məlumat veriblər?!

- Zəfər! – Otto onun üstünə bağırdı, – Hal-hazırda məsələ bu deyil! Bu dediklərimin heç birini danışa bilməzsən! Sən türk olaraq son aşgenaz pirini qorumalısan! Bu qədər! Hal-hazırda biz yalnız onu qoruya bilərik!

Zəfər bəy ağlayaraq başı ilə onu anladığını təsdiq etdi:

- Aşgenazlar içində türklər yaşayırmış, onları gözümüzün qabağında qırdılar, qırırlar və biz nə danışa bilərik, nə onların türk olduğunu söyləyə bilərik! İlahi bu nə dərddir?! – üzünü Ottaya tutub dedi: – Tanrı eşqinə düzünü de, sən aşgenaz soyundansanmı?!

Otto hönkürərək ağlamağa başladı…

* * *

Yaşarı Zəfər bəy olan otağa gətirdilər, Yaşar Zəfər bəyi görüb tərəddür içində dayandı. Əsgərlərin otaqdan çıxmasından sonra, Zəfər bəy gülümsəyərək dedi:

– Otur Yaşar!

Yaşar oturmadan dedi:

– Zəfər bəy məni bağışlayın, amma mən danışmayacam.

– Eybi yox mənim qandaşım, canım qardaşım, – ayağa qalxaraq Yaşarı qucaqladı, – səni bunun üçün çağırtdırmamışam, sən mənimlə gedəcən. – Zəfər bəy asta səslə dedi, – Yolda səni buraxacam, gedərsən yoldaşlarının yanına.

– Bunu nə üçün edirsən, mən axı danışmıramsa, demək sizlə düşmən!

Zəfər bəy acı-acı gülümsündü:

– Sən mənimlə düşmən deyilsən, çünki mən də türkəm, sən də türksən, sadəcə keçmiş səhvlər ucbatından biz ayrı-ayrı sistemlərdə, ayrı-ayrı dövlətlərdə yaşamışıq. İndi isə sənin qardaşların, dostların, yoldaşların oradadır. Başa düşürəm, sən onları sata bilməzsən. Başa düşürəm. Biz türklər özümüzə çox çətin tale yazmışıq, indi də cəzasını çəkirik. Biz, türk deyilən tək xalqı

parçalamışıq, vətən birdir, amma biz vətənimizin ayrı-ayrı hissəinə vətən deyirik, tək türk yurduna vətən deyə bilmirik! Vətən bölünməzdir, amma biz bölmüşük! Millət parçalanmazdır, amma biz parcalamışıq! Bu çox böyük səhv idi və indi onunla üzləşməliyik! – Yaşarın çiyinlərindən tutaraq dedi, – Sən ora çatandan sonra 10-12 saat vaxtın qalır, almanlar hücuma keçəcək, əvvəl havadan, sonra qurudan, – onun kədərdən səsi titrədi, – kəşfiyyat artıq sizinkilərin yerini müəyyənləşdirib. Sən mənim türk qardaşlarımı geri çəkməlisən, yoxsa onlar sizi əzərək keçəcək. Əgər inansan ki, onları inandıra bilirsən təslim olun, onda Otto sizi dərhal mənə verəcək. Amma bunun olacağına inanmıram, bilirəm ki, bu olmayacaq, amma kaş olaydı, kaş sizi ölümdən qurtara biləydim. Heç olmasa geri çəkilin, yoxsa qarşı durmanız mümkün olmayacaq, sən tutulandan sonra bura əvvəlkindən iki dəfə çox ehtiyat hissələri gətirilib, burada sovetləri geri otuzduraraq irəliləmək çox vacibdir! Ruslar vaxt qazanmaq istəyir, siz burada ruslar üçün sadəcə canlı baryersiz, başa düşürsüz? Mən isə sizin ölmənizi istəmirəm! – Zəfər bəy kədər içində dedi, – Hamısının canı cəhənnəmə, hər yerdə qırılan özümüzük… – o qəhərdən boğulurdu.

– Doğurdan məni buraxacan, Zəfər bəy? – Yaşarın sevincdən gözləri yaşardı.

Zəfər bəy Yaşara baxaraq gülümsündü:

– Hə. Hamısının canı cəhənnəmə! – Yaşarın üzündəki narahatçılığı görüb əlavə etdi, – biz türkük, biz müsəlmanıq, sizin orada ölməyiniz bizim zəfərimiz deyil, bizim istədiyimiz türk xalqını, Azərbaycanı əsarətdən qurtarmaqdır. Bizə səni kimi aslanların ölümü lazım deyil. Bizim istəyimiz birlik qurmaqdır, biri-birimizi qırmaq yoxx… – Zəfər bəyin səsi titrədi, – Amma nə edirik, edək, qırılan bizik ki, bizzz…

Yaşar ondan şübhələndiyi üçün utandı və bu günahını yumaq üçün dedi:

– Zəfər bəy, mən heç inanmıram ki, onlara deyə bilim ki, təslim olun.

– Yaşar, bunu sən bilərsən, ruslar tərəfdə sizi gec-tez qıracaq-

lar, – fikirlərini izah etdi, – sənin də bildiyin kimi ön cəbhələrin ən qızğın yerlərində türkləri vuruşdururlar. Özü də ki, bütün diviziyalar sizin kimi silahlanmır. Kəşfiyyat müəyyənləşdirib ki, sizin diviziyanın belə ağır silahları yoxdur, amma sizdən də betər silahsız türk diviziyaları var. Sovet höküməti insanları qırmaq bahasına muharibədə dözüm gətirir! – Zəfər bəy oturdu, əli ilə Yaşarın da oturmasını da göstərərək danışmağa davam etdi: – Mən əvvəlcədən demişdim ki, biz İrandan hücuma keçməliyik, oradakı türkləri öz ordumuza götürək, bundan sonra anidən, ilk əvvəl Azərbaycanı tutaq! Şübhəsiz ki, hücumdan bir neçə saat əvvəl kəşfiyyat Azərbaycan türklərini xəbərdar etsin ki, bu təcavüz deyil, Azərbaycanı yenidən birləşdirmə əməlyyatıdır, bu türkləri Sovet əsarətindən qurtarma əməlyyatıdır!

– Axı almanlara kim inanardı? – Yaşar təəcüblə soruşdu.

– Almanlara yox, bizə inannardılar, – Zəfər bəy əli ilə sinəsinə vurdu, – bizim Azərbaycanda, xalq içində nüfuzu olan adamlarla əlaqəmiz vardı, onlar əski topraqdı, onlar Sovet hökümətinin nə olduğunu bilirdilər, sadəcə gücləri olmadığından susurlar, amma biz ora getməyimiz, Azərbaycanı birləşdirməyimiz və Sovet ordusunu Azərbaycan neftindən məhrum etmək deməkdi! Digər tərəfdən özbək, kazak, türkmən türkləri ilə əlaqə yaradaraq orada çevriliş edib Sovet hakimiyyətini yıxa bilərdik. Məni eşitsələr, həqiqətən də Bakısız, neftsiz qalan Rusiya ildırım sürəti ilə bizim olacaqdı. Bu zaman ön cəbhədə bir neçə gün qazanmaq üçün sovetlərin qırğına verdiyi türklər də olmayacaqdı. Amma almanlar özlərinə çox arxayın idi, indisə müharibə uzanır, Sovet hökuməti vaxt udmaq üçün ön cəbhəyə türkləri basır… – Zəfər bəy bir qədər susdu, toxdamağa çalışdı və söhbətinə davam etdi: – 1941-ci ilin qışında «Tufan» əməliyyatı ilə Moskıva artıq bizim olacaqdı, sovetlərin üç cəbhəsi birləşərək vuruşurdu. Amma əslində bu vuruş deyildi, arxasında ruslardan təşkil olunmuş mübarizə dəstələri dayanan sovet əsgərlərinin ölmək üçün irəli atılması idi. Savaş uzanırdı, çünki üstümüzə axışan insanların ardı-arası kəsilmirdi, pulemyotlar sovet əsgərlərini biçirdi, onlarınsa arxası kəsilmirdi. – Zəfər köksünü ötürərək dedi, – Şərq cəbhəsində, sovet ordusunu ehtiyat hissələri ilə bir yerdə mühasirəyə aldıq, on-

lara təsil olmalarını təklif etdik, olmadılar, bu sadəcə bir müddət bizim vaxtımızı aldı, onlarsa mənasız yerə öldü və 660 mindən çox əsir götürdük. Amma sovet ordusunun ön cəbhəsi seyrəlmirdi, mənim aldığım məlumatlara görə ruslar insanları ucdan tutma yığıb ön cəbhəyə basırdı, onların içində 15-16 yaşlarında uşaqlara da rast gəlinirdi. Bilirsən nəyi müəyyənləşdirdik, sovet hökuməti hayları, gürcüləri, rusları əsasən arxada olan mübarizə dəstələrinə verir, digərlərini isə ön cəbhəyə basır. Savaş bunun hesabına uzanırdı. Qələbə bizimdi, amma qışın sərt şaxtası bizim tankların, texnikanın böyük əksəriyətinin sıradan çıxmasına səbəb oldu. Döyüş fəallığını itirdik və o ili şaxta səbəbi ilə Moskvanı tuta bilmədik. Almanlar böyük itgi verdi. Bundan ruhlanan sovet ordusu 1942-ci ilin fevralında bütün cəbhə boyu hücüma keçdi, bunu səndə bilirsən, amma məsələ bu idi ki, bu hücüm sadəcə insan kütlələrinin bizim üstümüzə şığıması idi. Sovetlərin nə yetərli aviyasiyası, nə yetərli tankları var idi, sadəcə insan kütləsi. Mənə yaxşı bəlli idi ki, sovetlərin ön hissələri türk millətlərindən təşkil olunub, bunu bilib heç nə edə bilməmək isə dəhşətdir. Məhv olmuş Sibir diviziyasını mən şəxsən öz gözlərimlə gördüm, minlərlə türk oğlu Sibir diviziyasında məhv olmuşdu, qəribə olsada onların əksəriyyətinin əlində heç tüfəngdə yoxdu, aldığımız məlumata görə bir neçə nəfərə bir tüfəng və adambaşı on güllə veriblər, bunu kimi yüzlərlə diviziya vardı, amma mən bu səhnədən sonra digərlərinə baxa bilmədim. Biz sovet ordusunu geri otuzdurduq, amma şaxtanın bizə vurduğu ziyanın yerini hələ də doldura bilmirdik. Amma yayın başlaması ilə Krıma və Qafqaza hücüma başladıq. Hər şey yaxşı başlamışdı, fəqət yenə qışın gəlməsi alman ordusunu iflic vəziyyətinə saldı. Sozümün canı budur ki, Sovet Rusiyasının davam gətirməsinin iki səbəbi vardı, sərt şaxtası olan qış və əli yalın insan kütləsini dayanmadan ön cəbhəyə göndərməsi. Qəribədir, Sovet Rusiyası özlərini nə qədər ateist adlandırsa da, göründüyü ki, onlar türkləri, müsəlmanları məhv etmək istəyir. Onlar müharibədən belə istifadə edərək "ruslaşdırma" siyasətlərini davam etdirirlər…

– Necə yəni? – Yaşar soruşdu.

– Yəni necə ki, II Dünya müharibəsindən əvvəl Moskva işğal etdiyi Qafqazda hayları, Stalinin gürcülərinin hakim mövqeyə gətirmək üçün türkləri-müsəlimanları qırırdısa, müharibə zamanı da rusları, hayları, gürcüləri əsasən mübarizə dəstələrində saxlayıb digərlərini ön cəbhələrə basaraq qırdırırlar. Kimsəninsə ruhu belə incimir. Və gələcəkdə türklərin məhv olması müharibənin boynuna yıxılacaq, ruslar sudan quru çıxacaq, amma məqsədlərinə də nail olacaqlar, yəni türkləri öz yurdlarında azlıq halına salacaqlar! Bu Şeytanın belə ağlına gəlməz!

– Cənab vaxtdır. – qapını açan alman əsgəri dedi.

– Yaxşı? – Zəfər bəy ayağa qalxdı.

Yaşar da ayağa qalxaraq dedi:

– Sağ ol Zəfər bəy!

– Türk sağ olsun, tək olan vətənimiz sağ olsun! Tanrı var olsun! – Zəfər bəy gülümsəməyə çalışdı, amma alınmadı. Zəfər bəy daha nəsə demək istədi, amma fikrindən vax keçərək otaqdan çıxdı.

# BEYNİMİZİ QƏFƏSƏ SALIBLAR

*Donuz balası xor-xoru anasından öyrənir.*
**Azərbaycan atalar sözü.**

*Vəziri qarğa olanın, ağlı zibillikdə olar*
**Azərbaycan atalar sözü.**

Zəfər bəy otaqdan çıxdıqdan beş dəqiqə sonra Otto otağa girdi:

– Yaşar hazırsanmı? –deyə soruşdu.

Yaşar başını tərpədərək:

– Hə, – dedi.

– Sənə uğurlar Yaşar, qardaşların xoşbətdir ki, səni kimi qardaşları var.

– Yox biz bədbəxtik, niyə yaşadığımızı da, niyə vuruşduğumuzu da bilmirik? – Yaşar çiyinlərini çəkərək dedi.

– Yenə də siz qardaşlar xoşbəxtsiniz.

– Bilmirəm, bəlkə də. – Yaşar dalğın halda cavab verdi.

– Umid edirəm müharibənin sonuna hər ikimiz sağ qalaq, mən onda sənə qonaq gələcəm. Qəbul edərsənmi? – Otto olduqca səmimi halda dedi.

– Hə, bunu çox istərdim. – Yaşar Ottonun üzünə baxdı, sonra əlavə etdi:

– Mən sizi unutmayacam. Mənim yanmış kəndim necə gözlərimin önündən getmirsə, mən səni və Zəfər bəyi də daim xatırlayacam. Mən inanıram ki, bu oyun deyil, bu insanlıqdır. Sağ olun!

Otto duruxdu, gözlərini Yaşarın gözlərinə dikdi və dedi:

– Sənə görə Zəfər bəy mənə yarım milyon təklif etdi, bax bu insanlıqdı. Heyif ki, şərtlər çox fərqlidir…

Yaşar niyəsə bu səmimiyyətin qarşısında gözlərini çəkdi və dedi:

– Sənin əsrin olsam belə, mənimlə səmimi olduğun üçün təşəkkür edirəm, bu səmimiyyət sənin insanlığını göstərir, sən yaxşı adamsan, bu şərtlərdə bəlkə də mən bu qədər anlayışlı ola bilməzdim. Sağ ol, çox böyük ürəyin var. Bir daha deyirəm, şərt-

lər tərsinə olsa bəlkə də mən səni kimi etməzdim!

Otto gülümsündü, heç nə demədən qapıya tərəf gedərək onu açdı və dedi:

– Gedək, bir azdan gedirsiniz.

– Bir sual verə bilərəmmi? – Yaşar soruşdu.

– Buyur!

– Sənin danışdıqların, yəni "böyük İslam" qrupunu məhv etmək istəyənlərin olduğunu niyə mənimlə bölüşdün?! Axı bunu edənlər xristiyanlardır, elə deyilmi?!

– Elədir! – Otto heyfsilənərək dedi.

– Bəs sən də xristian millətindən deyilsənmi, bunu mənə niyə dedin?! Mən belə düşünürdüm ki, bu sirlərə dediyinə görə məni yaşamağa qoymazsan! Amma sərbəst buraxırsan, niyə?!

– Bilmirəm, – gülümsündü, – yəqin ürəyimdən elə keçib.

– Məncə xüsusi bir səbəbi var, amma mən görə bilmirəm… – Yaşar heyfsilənərək dedi.

– Siz türk olduğun üçün həm şanslısan, həm də uğursuz bir zamandan keçirsiz. Bəziləri türklüyünü itirib, bəziləri isə türklərə düşməndir. – Otto hər zamankı kimi gizəmli cümlələrindən birini dedi.

– Mən axı bir şey anlamadım.

– Nəysə… – O, əlini Yaşarın çiyninə qoydu, – bəzi sualların cavabı olmur. Gedək?

– Cavabı olmayan suallar? – Yaşar həyacanla soruşdu. – Sualın cavabı yoxdur, yoxsa anlaşılması qarışıq məsələdir? – Yaşar qəribə bir doğmalıqla onun gözünə baxaraq soruşdu.

– İkinci variant… – Yaşarın baxışlarını görüb dedi: – Yaşar, hər sistemin bir çərçivəsi var və bu çərçivədən kənara çıxan həqiqəti isə danışmaq olmaz!

Yaşar Ottonun gözündəki qəmi gördü və soruşdu:

– Bu dünyada azad bir kimsə varmı, azad bir yer varmı?

– Kimsə azad olmur! Azad olmaq istəyirsənsə öz çərçivəni özün çəkməlisən! Amma təəssüf ki, bizə nəsib olan bizə çəkilmiş çərçivələr daxilində yaşamaqdır, hətta o çərçivələr daxilində düşünürük. Əslində bizim beynimiz qəfəsə salınıb! – İsteza ilə gülümsündü və soruşdu: – Zooparkda qəfəsə salınan heyvanlar qəfəsdən qaçdıqda onlara nə edirlər?

– Tutub yenidən qəfəsə salırlar…
– Bəs tuta bilməsələr? – Otto kədərli halda soruşdu.
– Güllələyirlər…
Otto əl çalaraq dedi:
– Hə, düz dedin. Qəfəsdən kənara çıxmaq olmaz, qəfəsdən kənara çıxanları öldürürlər. Və onlar bizim beynimizi qəfəsə salıb! – kədərli halda gülümsünərək başını göstərdi, – Başa düşürsən, nə deyirəm Yaşar?!
Yaşar Ottonu sanki ilk dəfə idi görürdü və pıçıldadı:
– Nə acı sözdür, "beynimizi qəfəsə salıblar".
– Həqiqət acı olur! Gedək Yaşar?!
Onlar alman əsgərlərinin müşaəti ilə çölə çıxdılar. Günəş Yaşarın gözünü qamaşdırdığından o əli ilə gözlərini tutdu, Otto gülümsəyərək dedi:
– İnsan qəribədir, hər şeyə öyrəşir.
– Hə düz deyirsən, amma gərək zülmətə öyrəşməyəsən! – Yaşar əlini çəkərək günəşə baxdı, amma daha bir neçə dəqiqə gözü qamaşdı.
Onlar Zəfər bəyə tərəf yaxınlaşdılar, Otto Zəfər bəyə:
– Bu da sənin Aslanın. Sizə uğurlar! – dedi, gülüşdülər.
– Hə gedək.
Yaşar və Zəfər bəy Otto ilə xüdafizləşdikdən sonra arxası bağlı hərbi yük maşınına yaxınlaşdılar, ikisi də maşının kabinəsində oturdu, maşın tərpəndi. Yol boyu Zəfər bəylə Yaşar dərdləşdi, anidən Yaşar Zəfər bəyə dedi:
– Siz gələndə hansı yoldan gəlmisiniz?
– Əsas yolla, indi isə bu yolla gedəcəyik. Nə olub ki?
– Olmaz mən bu yolu minalamışam!
– Neçə mina var?
– Yeddi.
– Əsas yolla qayıtsaq meşə uzaqda qalacaq, bəs səni necə yola salım? Axı başqa çür olsa alman kəşfiyyatına rast gələ bilərsən. Otto söz verib ki, bu gün kəşfiyyatı bu tərəfə qoymayacaq.
– Bəlkə mən düşüm, siz geri qayıdasınız, yolun minalı olduğunu Ottoya da de, sonra onun üçün də problem yaratmasınlar,

elə sənin üçün də, axı  onların minaya düşən maşınları mənim sizinlə əməkdaşlığımı şübhə altına alacaq. Bu  Ottoya və sənə ziyan vura bilər, mən buna da razı ola bilmərəm.

– Yaşar lənət belə zəmanəyə ki, bizi belə parça-parça edib. Daha nə qədər gedə bilərik, sənə yaxın olsun? – Zəfər bəy kədərli halda soruşdu, o niyəsə özünü tox tuta bilmirdi.

– Daha beş-altı klometir. Mən sizə minalanan yerləri göstərərəm və siz geri dönərsiz…

# BİR DİVİZİYA VARDI

***Almanlarla ruslar vuruşur, amma hər iki tərəfdə türklər ölür.***
***II Dünya müharibəsindəki ümumi mənzərə***

*Onlar qəhraman kimi döyüşdü,*
*qəhraman kimi öldü, bir ayıb kimi gizlədildi.*
**Müəllif**

*Ağac kökləri ilə yaşar, insan dostlar ilə.*
**Azərbaycan atalar sözü.**

Mən maşından düşüb meşəliyə girdim, maşınsa geri döndü. Əvvəlcə məni izləyə biləcəklərindən ehtiyatlandım, amma kimsə məni izləmirdi. İki-üç saatlıq yoldan sonra mən öz hərbi hissəmizə çatdım. Yol boyu olanlar barəsində düşünmək istədim, amma heç nə düşünə bilmirdim. Bircə düşündüyüm bu idi ki, tez yoldaşlarımın yanına çatım və olacaq hücum baradə xəbər verim.

Yoldaşlarım məni sevinclə qarşıladı, hamı ilə qucaqlaşıb görüşdüm. Böyük qardaşım Alını qucaqlayıb görüşmək istəyəndəsə…

...Alı qəzəblə Yaşarı süzərək bağırdı:

– Sən əsir düşmüşdün?!

– Hə…

– Bəs onda necə qaçdın?!

– Qardaş sənin mənə şübhən var, biz ki qardaşıq, hamısını danışacam, amma belə etmə…

Alı onun sözünü ağzında kəsərək:

– Yaxşı balaca, uzatma. Bir anlığa… Nəysə, gəl bir səni bağrıma basım, neçə gündü dəli kimiyik. – Yaşarın üz gözünün əziyinə, yarasına baxaraq, – Yaxşıca əzişdiriblər. Əlləri qurusun faşist köpəkuşağı.

– Hələ sinəmdəki yaraları görəsən! – Yaşar gülümsədi.

Alı əli titrəyərək onun paltarının yaxasını açdı, gözləri yaşar-

dı, üzünü çevirərək kövrəldiyini gizlətməyə çalışaraq dedi:
– Boş şeydir, vətən dardadır, vətən üçündür, ağrıtmaz.

Yaşar Kamillə qucaqlaşıb görüşmüşdü ki, səs-küyə komandir Kazımov da otağından çıxıb ora gəldi. Yaşar ona tərəf yaxınlaşaraq onu qucaqladı, komandir də onu qucuqladı, bir neçə an sonra soruşdu:

– Kişi kimi gəlmisən?

– Gəl içəri keçək, vacib xəbərlərim var. Qoy qardaşlarım da gəlsin. Olar?! – Yaşar komandirdən icaizə aldı.

– Yaxşı gəlin. – Komandir uşaqları süzüb sərt şəkildə: – Növbədə olanlar yerinə.

Onlar torpaq altında qazılmış qazmaya keçdi. Yaşar əvvəlcə necə olub mühasirəyə düşdüyünü və nə məqsədlə əsir düşdüyünü danışdı və ardınca dedi:

– Sonra komandir, – o bir anlıq susdu və qardaşlarını süzdü, komandirə baxaraq dedi: – Komandir, sən də mənim qardaşlarımdan birisən, o üzdən deyəcəklərimi düz başa düşün, sözümü kəsməyin, vaxtımız azdır!

– Sən nə qələt etmisən? – Alı ona bağırdı.

– Qağa canın üçün elə bir iş eləməmişəm, qulaq as. Mənə dedilər ki, sizin dövlət, yəni Sovet İttifaqı, yəni biz türkləri məhv etmək istəyir.

Hər üçü bir ağızdan bağırdı:

– Nə dedin?

– Mən də bax elə belə dedim. Mənə dedilər ki, siz azərbaycanlı yox türksünüz, daha doğrusu Azərbaycan türküsünüz, yəni başqa bir millət yox, türk millətinin bir qolusunuz.

Üçü də bir ağızdan:

– Sən də inandın?!

– Yox mən inanmadım, amma rəhmətlik atamın bizim üçün türk dediyi yadıma düşdü, amma etiraz etdim, indi deyirəm ki, görüm elə bir şey olubmu?

Qardaşlar susdu, komandir Kazımovsa bir anlıq duruxduqdan sonra:

– Elədir! Nəysə bunu keç...

Alı da komandirin etirafından sonra təsdiqlədi:

– Hə rəhmətlik atam bizə türk deyirdi, mənim aydınca yadımdadır.

Yaşar davam etdi:

– Nəysə, demək bizim köhnə dövlət başçımız…

Kamil təəcüblə:

– Kimmm? – sözünü uzadaraq soruşdu.

Alı ona qışqırdı:

– Qoy uşaq sözünü danışsın.

– Azərbaycanın köhnə rəhbəri olubmuş, adı… – Yaşar bir anlıq susub, adı yadına saldı. – Hə, yaddıma düşdü, Məmməd Əmin Rəsulzadə varmış, o Almaniyada Azərbaycan milli legionu düzəldib, bizim əsirləri də ora aparırlar. Bir də deyirdilər ki, bizi haylar və ermənilər qırıb…

– Vəəə. – Alı əsəbi halda deyindi.

– Ruslar bizim tarixi torpaqlara hayları gətiriblər, torpaqlarımızı haya, gürcüyə və Dağıstana verib, – nəfəsini dərərək əlavə etdi. – Sovet hakimiyyətini quran zaman veriblər torpaqlarımızı.

Komandir Kazımov Yaşarın üzünə qəzəblə baxaraq dedi:

– Sözünün canı nədir, sən nə sarsaqlayırsan? Yoxsa…

– Mən sadəcə oradakı söhbəti sizə çatdırıram. Mən kəşfiyyatçıyam, yəni hər bir məlumatı deməliyəm, bəyəm elə deyil?

– Elədir amma, bu sözlər çox ağırdır. – komandir Kazımov qəzəblə dedi.

– Daha mən bilmərəm… – bundan sonra Yaşar tam səmimi danışmaq fikirindən daşındı, – mən yalnız mənimlə edilən söhbəti sizə dedim, daha əmr də, qərar da sənlikdir komandir. Dedilər ki, ruslar sizin vətəninizi parça-parça edib, bütün türk millətlərini qəsdən ön cəbhəyə göndərirlər, ən qızğın yerlərə aparırlar ki, türklərin sayı azalsın, ya da tam məhv olsunlar, gələcəkdə öz yurdlarımızda azlıq halına düşək deyə. Mənə də bu səbəbdən onların tərəfinə keçməyi təklif etdilər. Razılaşmadım. Yaxşıca əzişdirdilər. Amma bir türk əsirindən söhbət əsnasında öyrənəndəki alman kəşfiyyatı yerinizi öyrənib və bura hücuma keçəcəklər, mən sözdə onlarla razılaşdım və milli legiona aparan maşına mindim, meşədən keçəndəsə qaçdım.

– Nə vaxtdır hücum? – üçü də bir ağızdan soruşdu.

– Sabah tezdən. Vaxtını dəqiq bilmirəm. Amma bizim diviziya onlara tab gətirə bilməyəcək. Onlar ora böyük qoşun yığıb, iki ehtiyat hissəsi də gətiriblər. Əvvəlcə təyarələrlə bombalayacaqlar buranı. Yerimiz onlara məlumdur, buranı necə tapıblar, hara baxırsınız bilmirəm?

– Bəlkə elə sən özün bizi satmısan? – Kamil bağırdı.

Yaşar onun üstünə atıldı, anidən dayanaraq:

– Bunu sən yox, başqa biri desə… Mən nəyəm sizə, kimi satsam da, sizi sata bilərəmmi? Sizin gözünüzdə mən qardaşlarını satan biriyəm, eləmi? Sizi, qardaşlarımı, eyni dildə danışan dostlarımı sataram, eləmi?!

– Bu nə millətbazlıqdır? – komandir Kazımov əsəbi halda bağırdı.

Yaşar daha dözməyib bağırdı:

– Bilirsiniz nə var, bəlkə almanlar bizə düşməndir, amma bu da düzdür ki, ruslar bizim vətəni bölüblər, erməniyə, gürcüyə veriblər. Yalandır? Mən ki, Ermənistanda yaşayıram, hayların bir hissəsi gözümüzün qabağında gəlib, bizi kimi yüz minlərlə azərbaycanlı var orada, amma respublikanın adı Ermənistan oldu, Azərbaycan yox? Bəlkə düz demirəm?!

– Biz Sovet İttifaqıyıq, hamı bir ailədir, nə fərqi var, sərhədlər SSRİ daxilində formal bir şeydir, bu nə danışıqdır, nə fərqi var sənə? – komandir Kazımov Yaşarın üstünə bağırdı.

Qardaşları nə deyəcəklərin bilmədiklərindən susmuşdular.

– Mənim siyasətdən başım çışmır, fərqi nədir bilmirəm?! Amma komandir mən sənə bir sual verim. Biz hamımız o formal dediyin sərhədinin içinə daxil olsaydıq, o formal olan sərhəd bütünlüklə Azərbaycan adlansaydı, bu rusların xancalının qaşı düşərdi? Formal şeydi, qoy elə ermənilər Azərbaycan sərhədi daxilində yaşayardı da? Demək nəsə fərqi var, həm də bizim ziyanımıza. Sadəcə biz görə bilmirik o fərqi, amma nəsə bir fərq var!

– Səni hərbi tribunala verə bilərəm, başa düşürsənmi? – komandir əlini-qolunu oynadaraq dedi.

– Niyə? Ona görə ki, «ön cəbhədə olanların əsasən hamısı

türklərdir» sözünə inandığım üçünmü? Bəlkə şübhən var? Bəlkə burda bunun əksini görürsən? Hə komandir? Mən ki, bu həqiqəti sizə dedim, dedim gerisi sizin biləcəyiniz işdir! Məni ölümlə qorxudursunuz? Mən ona orada razılaşmışdım, sizi satmamaq üçün, bu məlumatı gətirmək üçün fikirimi dəyişdim. Mən vəzifəmi yerinə yetirdim. Ölüm mənim üçün qorxulu deyil. Amma sən mənim sualıma cavab ver!

Üçü də susmuşdu, onların danışmadığını görüb Yaşar da susdu. Bir müddət belə keçdi, sonunda komandir Kazımov sual verdi:

– Nə edək? Nə təklifiniz var.

Alı dilləndi:

– Yerimizi dəyişməliyik. Yoxsa Alman qırıcıları bizi məhv edəcək. Bunu bilirik. Qaldı ki, məlumat çatdırmağa, gərək bir nəfəri arxaya göndərək. Balacanın sualınasa mənim cavabım yoxdur. – Alı da artıq bilirdi ki, həqiqət nədir? Amma insan uzun illər öyrəşdiyi mövqeyi dəyişə bilmir!

– Bu söhbəti heç kimə demə Yaşar, başa düşürsənmi? – Komandir Kazımov Yaşarın gözlərinə baxaraq dedi.

– Əmr sənindir komandir. Mən yalanla həqiqəti ayırd edə bilmədim, sən necə edək desən onu da edəcəm, amma ki, inandığımız dövlət özü də bizə yalan danaşır, özü də lap yekəsindən, – acı-acı güldü.

Kamil də ona qoşularaq güldü, o da ilk dəfə olaraq dövlətlə bağlı söhbətə rişxəntlə gülürdü. Alı hirslə soruşdu:

– Ə sən niyə gülürsən, başın xarabdı? Bu uşaqdı, saa nə olub?

Kamil gülməyində davam edərək dedi:

– Ya Yaşarın başı xarabdır, ya bizim başımız xarabdır, indiyəcən aldadılmışıq və xəbərimiz yoxdur. Ona gülürəm, gülməli deyil?! – əsəbi halda gülürdü, gülməkdən qəşş etdi.

Komandir Kazımov başın yelləyərək təsdiqlədi:

– Vallah düz deyir! Amma nə etməli?! Vətən xaini ha olası döyülük?! Geridə qoyub gəldiklərimiz adama nə deyər?!

Üçü də:

– Vallah?! – Onlar komandir Kazimovdan ilk dəfə idi «Vallah» sözü eşidirdi.

– Mən Allahıma inanıram, bəlkə heç bir günlük ömürümüz qalmayıb, daha sizə də danası ha döyəm? Amma Sovet dövlətini də dana bilmərəm. Biz kimik ki?!

– Rusun qulu, köləsiyik desənə buna! Allaha inanan inandığını deyə bilmir, çünki dövlət elə istəyir, daha qul olmaq necə olur? – Yaşar pıçıldadı, hamı eşitdi və hamısı özünü eşitməməzliyə vurdu.

…Aslan Yaşarın məktubunu oxumağa davam edirdi:

- Anladığın kimi mən bu söhbətdən sonra komandir Kazımova daha heç nə demədim. O, böyük qardaşımla məsləhətləşdikdən sonra geri çəkilməkdənsə, almanlara tərəf üç-dörd kilometr irəliləməyi qərarlaşdırdı. Belə etmək istəyirdilər ki, məlumat arxa cəbhəyə çatdırılsın və onlar döyüşə hazırlaşa bilsin, bəlkə bizə də kömək gəldi, biz isə bu vaxt almanların bombaladığı yerdən irəlidə onları qafil qarşılayıb, bacardıqca çoxunu məhv etməli idik. Mən daha nə deməli idim ki, onlar başa düşsün, dediklərimi onlar anlamaq istəmədilər, daha artıq nəsə desəm, bu mənə casus kimi baxmalarından başqa bir şeyə yarayası deyildi. Mən çıxılmaz vəziyyətdə idim, necə ki, türk milləti belə çıxılmaz vəziyyətədir. Diviziyamız yır-yığış ərəfəsində düşərgədə iri tonqallar qaladıq ki, düşmənlər meşənin bu hissəsini bombalayan zaman bizim burada olduğumuza şübhə etməsin. Sonra biz köç etməyə başladıq. Biz bilirdik ki, bu yoldan geri dönüş yoxdur. Yəqin ki, hamımız məhv olacayıq. Mən, "bu müharibədə bizim, yəni türklərin qazancı nədir, Azərbaycanın qazancı nədir?» sualına cavab tapa bilmirdim. Qardaşlarımın üzündə də elə bu suala cavab axtardıqları oxunurdu, komandirimiz cavabı məlum idi, bu qələbə bizim üçün, yəni türklər, yəni Azəyrbaycan xalqı üçün yox, Sovet İttifaqı üçündü, necə ki, vəziyyətdən bixəbər silahdaşlarım olan türklər də düşünürdü ki, bu ölüm Sovet İttifaqı üçün gərəklidir. Silahdaşlarımızın düşüncəsi ilə komandirimizin düşüncəsi arasındakı fərq bu idi ki, onlar həm də elə düşünürdü ki, bu qələbə ittifaq daxilində olan bütün xalqlar üçündür, yəni bu savaş biz türklər üçün də əhəmiyyətlidir. Halbuki onların heç biri bilmirdi ki, biz bir kökük, hamımız türkük və bu qələbə yalnız ruslara, qırağındasa haylara-ermənilərə və gürcülərə qazanc

verəcək. Bu diviziyada öləcək olanlar türkdü, müsəlimandı, qazancı isə Sovet Rusyası görəcəkdi. Burada yeddi min beş yüz türk-müsəliman vardı. Türk millətinin say seçmə oğulları idi bunlar, müxtəlif məmləkətlərdən seçilmişdi onlar, amma hamısı türkdü, müsəlimandı. Bu diviziya artıq otuz-qırx min türk-müsəliman oğlunu qurban vermişdi, son döyüşümüzdən sonra sayımız yenidən azalaraq diviziyada min nəfər qalmışdı. Son qırğında biz almanların on beş minlik qoşununu məhv etdik, bu sadə döyüş deyildi. Onlar hər baxımdan bizdən üstün silahlanmışdılar, ağır artileriyaları vardı. Bizimsə o döyüşdə qələbə qazanmağımızın əsas səbəbi inadımız olmuşdu. Qırxdan çox alman tanki bizim tərəfə irəliləyirdi, bizimsə əlimizdə avtomatlardan və əl qumbaralarından başqa heç nə yoxdu. Əslində anlayacağın kimi, qələbədən söhbət belə gedə bilməzdi. Yaralanmış silahdaşlarımızdan hansı irəliləyən tanka yaxındısa əl qumbarası ilə özünü alman tankının altına atırdı. Beləcə bir müddətdən sonra alman tanklarının hamısı sıradan çıxdı. Güllə və top mərmilərinə qarşı hücuma isə biz artıq öyrəşmişdik, bizim bütün hücumlarımız belə olurdu. Almanlar toplarını və ağır artileriya silahlarını qoyub geri çəkilmək istəyirdilər, bizdən kim bu silahlara yaxanlaşırdısa, bu topları almanlara tərəf çevirib atmağa başlayırdı. Sonda bizdən min nəfərimiz sağ qaldı, amma minlərlə silah qənimət almışdıq, ölənlər türk millətindən gedir, qənimətlərsə Sovet dövlətinə, yəni ruslara qalacaqdı. Çox yaxşı bazarlıqdı, doğrusu!

İnanmasanız da, davadan sonra bizim işimiş silahları bir yerə toplamaq oldu, sonra salamat qalmış alman maşınları ilə onları geri daşıdıq, ehtiyat gücümüz olmadığından, düşmən mövqeyini tutmadıq. Bütün ağır artileriya silahlarını arxa cəbhəyə apardılar. Guya biz çevik divizyayıq və ağır silahlar bizim manevra qabiliyyətini ləngidəcəkmiş. Bizə bu silahlardan verilən cəmi yeddi alman pulemiyotu, öz silahlarımzdan başqa hər nəfərə bir alman avtomatı və olduqca çox əl qumbarası oldu. Axı alman tankının altına atılmaq üçün bizimlə bərabər əl qumbarası da lazımdı. Bu gün anlayıram ki, ruslara lazım olan bizim və almanların qırılması imiş. Mən niyəsə bütün bunları yalnız indi xatırlayıram və məsələnin dərinliyini anlayıram.

Sözün qısası mən əsirlikdə olanda bizə yeddi mindən bir qədər çox türk millətlərindən olan xüsusi təlim keçmiş əsgərlər gətirildi. Mən köç zamanı onları görəndüm və dəli olmaq həddinə çatdım. Çünki onların əksəriyətini yaşı 18-dən azdı, içlərində 14-15 yaşında olanlar da vardı. Bu nə deməkdi, müharibənin gətirdiyi məcburiyyətdimi, yoxsa müharibənin adından istifadə edilən istismardımı? Yoxsa həqiqətəndə alman zabiti Ottonun dediyi kimi, rusların "sovet hiyləsi" altında bütün türk millətlərini məhv etmək istəyir? Ruslar onlarla eyni cəbhədə vuruşan türk millətini, yəni azərbaycanlıları, özbəkləri, kazakları, türkmənləri, tatarları və digərlərini məhv etməyə çalışırsa, onda bizi gələcək gözləyən nədir? Bax bunu dəqiq bilmirəm, amma bizim xalqı gözləyən gələcəyin yaxşı olmayacağı bəllidir!

...Yaşargilin diviziyası yerləşdikləri qərargahı tərk edərək alman cəbhəsinə doğru irəliləyirdi. Alman kəşfiyyatı ilə rastlaşmamaq üçün öndə gedən kiçik kəşfiyyat dəstəsi hər şeyin qaydasında olduğunu demişdi.

Yaşar qardaşları ilə birlikdə irəliyərdi. O indiyəcən düşüncəli olduğundan yeni gəlmiş əsgərlərə fikir verməmişdi. O əvvəlcə böyük qardaşından yeni gələn əsgərlər barəsində soruşmaq istədi, amma çəkinərək ortancıl qardaşı Kamilə yaxınlaşaraq pıçıltı ilə soruşdu:

– Qardaş yeni gələnlər arasında rus filan yoxdur?

– Yox! – üzünü Yaşara tərəf çevirərək diqqətlə ona baxdı, – Cıbbılı vallah deyəsən sənə düzünü deyiblər. Doğurdan da müharibə başlayandan bu diviziya qırılır, yeniləyirlər, hamısı da ki, öz millətlərimizdəndir. Dediyin kimi hamısı türkdür. – Kamil əlavə etdi, – Təzə gələnlərsə lap dəhşətdir.

– Nə olub ki, təzə gələnlərə? – Yaşar soruşdu.

– Hə, sən axı onları düz əmməlli görməmisən, gələn kimi məlumatı dedin, ardınca da başımız qarışdı yır-yığışa. Gələnlərin böyük əksəriyəti uşaq-muşaqdır. Daha səni kimi yox e, əməlli başlı çıbbılıdırlar. – Kamil həmişəki kimi, ən ağır zamanda da zarafatı buraxmırdı. – Yeni gələndə bəziləri qorxudan gecələri yata bilmirdilər. Nə olsa da uşaqdılar. – Kamili qəhər boğdu, – Aralarında on dörd yaşı olanda var. Uşaqdır, üzündən qıza oxşayır, boyu

hündürdür deyə tutub basıblar davaya.

Yaşar yalnız bu sözdən sonra çönüb diqqətlə əsgərlərə baxdı. Bir-bir yeni gəlmiş əsgərlərəin üzünə baxırdı, sanki tanış bir üz axtarırdı. Baxdığı üzlərdən oxunurdu onların uşaq olduqları. Yaşarın ayaqları əsdi, ürəyi şiddətlə vurmağa başladı, gözünü əsgərlənin üzlərində gəzdirərək düşündü:

– Demək davanın bu iki-üç ilində kişiləri qırdınız, indi də keçmisiniz uşaqlarımıza, rus köpək uşağı! – Rəngi avazımışdı, ayaq saxlayaraq yeni gələnlərə baxdı.

Yeni gəlmiş əsgərlərdən biri Yaşarın dayandığını görüb, yaxınlaşıb onun qollarından tutdu və soruşdu:

– Qardaş nə olub? Özünü pis hiss edirsən?

– Yooo, yaxşıyam. – O əsgərin üzünə baxdı, suqabını açıb bir-iki qurtum su içdi, su qabısını kəmərinə keçirərək soruşdu:

– Haradansan?

– Göycədən. – Dünyadan bixəbər oğlan gülümsünərək cavabladı.

– Neçə yaşın var?

– Bu il on beş olacaq.

– Bəs səni niyə bura gətiriblər, bu yaşda? – elə tərzdə soruşdu ki, guya günah bu yeniyetmədəydi.

– Deyirlər vətən dardadır, əsgərsə çatmır. Hə şəhərə, hər kəndə plan qoyublar, adam çatmırdı, boydan bir az iri olanları hərbi kommisarlığa yığdılar. Vətən dardadır, mən fəxr edirəm ki, vətənim üçün savaşacam. – gülümsünərək, qəlbindəki uşaqlıq qorxusunu gizlətməyə çalışdı, amma bu çox sünni alındı.

– Səni kimiləri çoxdumu? – Onun sualı anlamadığını görüb izah etdi, – Yaşı az olan əsgər çoxdurmu, onu soruşuram?

– Hə lap çoxdur, iriləri bura seçdilər, qalanları başqa yerlərə bölüşdürdülər.

– Adın nədir?

– Eldar. Bəs sənin adın nədir qardaş?

– Yaşardır mənim adım, balaca.

Eldar güldü və belindəki avtomatını düzəldərək əl-qolunu tərpədərək danışmağa başladı:

– Düzdür mən sənin yanında balcayam, – gülümsündü, –

amma səni kimi  əsgərlərimiz burada tək qalmasın deyə də vuruşmalıyıq.  Faşistlər yoxsa bizim torpaqlarıda zəbt edər. Deyirlər ki, onlara Bakı nefti lazımdır, o üzdəndə Azərbaycanı tutmaq istəyirlər. Demək vuruşmalıyıq,  – o haradansa eşitdiyi cümlələri təkrar edirdi, – faşistlər indiyə qədər səni kimi qardaşlarımın hesabına torpaqlarımızı tapdaq edə bilməyib, torpaqlarımızı tuta bilməyiblər, kəndlərimizi dağıda bilməyiblər, ana, bacılarımızı əsir edə bilməyiblər, demək bu gündə növbə bizimdi, indi də biz vuruşmalıyıq. Düz demirəm? – o uşaq sadəlövlüyü ilə bir ağıza danışırdı, o bu yolla qorxusunu basdırmağa çalışırdı.

Yaşar ağır-ağır başını yellədi:

– Əsir olmaq pis şeydir. Vətənin düşmən tapdağında olması pis şeydir. Hə.

Eldar onun nəyə işarə vurduğunu başa duşmədən sözünə davam etdi:

– Hə, təsəvvür edirsən almanlar,  bizim torpaqları tutsa və bizi oradan qovasa, necə olar halımız? Bu dəhşətdir. Amma  düşməni qoymarıq torpaqlarımıza ayaq bassın, düz demirəm? Azərbaycanın oğulları ölməyib ki, onların ana-bacısı yurdlarımızdan didərgin düşsün! Heç böyük rus xalqı da buna imkan verməz, hə? – O  dayanmadan, şəstlə danışırdı.

Yaşarın dodaqları səyridi. O isə danışırdı:

– Biz təlimlərdə olanda  oranın mətbəxində bur rus vardı, aşbazdı. Yekəliyinə baxanda adam inanmırdı ki, beləsi arxada aşbazlıq edir, vuruşmur. Nəysə  sözüm onda deyil. Ağlayırdı, deyirdi ki, alman hücumunda  şəhərləri bombalanıb, bütün ailəsi ölüb, sovet ordusu geri çəkilib. Ağlayırdı, ağlaya-ağlaya deyirdi ki, göz açıb gördüyüm, bütün ömrümü keçirdiyim şəhər bir an içində alt-üst edildi. Bir andaca  doğma şəhərimi od-alov bürüdü.  Tanıdıqlarım ya qırıldı, ya hərəsi bir tərəfə pərən-pərən düşdü.  Deyirdi ki, tək o şəhər məhv olmadı, orada mənim millətimin keçmişi vardı, xatirələri vardı, hamısı yox oldu. Yüz illərin əziyyəti bir anda puç oldu.  – Bunları bir nəfəsə danışan Eldar dərindən nəfəs alaraq dedi: – Deyirəm  yaxşı ki, bizim yerlər elə olmayıb. Xalqımız pərən-pərən düşməyib. Ona görədə hamımız vuruşmalıyıq. Vuruşmalıyıq ki, almanlar Bakını dağıtmasın, Azərbaycanı da-

ğıtmasın, Göycəni dağıtmasın, – gülümsündü, – mənim kəndimi dağıtmasın, anam indən sonra da Göyçə mahalında yaşaya bilsin!

Yaşargil ağır-ağır meşənin içində irəliləyirdi, Yaşar gah dayanmadan danışan Eldara baxırdı, gah diviziyadakı yoldaşlarına baxırdı. Eldarsa danışırdı:

– Bilirsənmi anam mənə nə deyirdi? – cavab gözləmədən də dedi, – Dedi ki, Eldar oğulum vətənimiz, elimiz dardadır, gərək hamımız əlimizdən gələni edə. Səni davaya aprırlar, demək sən arxa cəbhədən çox qabaqda lazımsan, neynək balam, bir evdən beş-altısı gedib, səndə get. Elimizi dardan qurtarıb gəlin.

– Hə Eldar, anan düz deyib, vətənimiz düşmən əlindədir! – Yaşar qəti şəkildə dedi və düşündü: – Bu da düzdür, bəlkə bir belə sovetləri günahlandırmaq lazım deyil, axı vətən dardadır, belə etməsələr onda rusların şəhərləri-kəndləri kimi bizim yerlərdə məhv olar. Nə bilim Vallah? Allahım özü doğrunu göstərsin.

…Bu söhbətdən sonra daha nəyə inanacağımı kəsdirə bilmədim. Dedim ki, qoy doğrunu Allah göstərsin. Qəribədir bu müsəlimanların işi, özləri işlərini dolaşığa salır, sonra Allandan doğrunu istəyir, məndə elə etdim. Səhərin açılması ilə almanlar əvvəldən müəyyənləşdirdikləri yerləri bombalamağa başladı. Mərmilər yeri sirkələyirdi, partlayış səsindən qulaq tutulurdu, bu iki saata yaxın davam etdi. Sonra almanlar meşəyə girdilər, döyüş başlandı. Biz almanları qafil ovlamğa başladıq, amma döyüş əvvəl olduğu kimi getmirdi. Yeni gələnlərin səriştəsizliyi və uşaq-muşaq olması özünü göstərirdi, əslində başqa cür olsa da çox şey dəyişməyəcəkdi, sadəcə daha çox davam gətirəcəkdik və daha çox alman əsgəri öldürəcəkdik. Artıq meşədə ağacdan çox meyit vardı, bizim və almanların ölmüş əsgərləri biri-birinə qarışmışdı. Biz sonradan almanların sərbəst irəliləyə bilməməsi üçün, tam tələf olmadan meşənin içinə doğru çəkilməyə başladıq, əlbəttəki döyüşə döyüşə. Geri çəkiləndə on beş nəfər qalmışdı. Qardaşlarım və komandir Kazımov da bunların içində idi. Amma Alı və komandir ağır yaralanmışdı. Komandir ölmədən əvvəl əmr verdi ki, sağ qalanlar bizdən arxadakı diviziyanın yanına qayıtsın, on nəfərin böyük alman ordusu ilə döyüşməsinin mənası yoxdur. Qardaşım Alı mənə və ortancıl qardaşım Kamilə

tapşırdı ki,  davadan sonra sağ qalsaq mütləq vətənə qayıdıq, ata-baba yurdumuza.

…Komandir Kazimov döyüşə-döyüşə geri çəkilmək əmri vermişdi. Bu diviziyanın artıq qanunları məlumdu, bu əmrdə tam sağ qalanlar və yüngül yaralılar geri çəkilirdi, sağalma etimalı olmayan yaralılarsa səngərlərində qalaraq son anacan döyüşəcəkdi, bu həm geri çəkilənlərə şərait yaratmaq, həm də ki onsuz da ölümü məlum olan döyüşçülərin daha çox düşmən öldürməsini təmin edirdi. Almanların bir qarış irəliləməsi belə onlara baha başa gəlirdi. Onlarin irəliləməsini təmin edən saylarının çox olması idi. Yəni öldürülən alman əsgərlərini arxadan gələnlər əvəz edirdi və onların ardı kəsilmirdi.

Alman əsgərləri hara sipər alacaqlarını bilmirdi, çünki irəliləyən alman əsgərləri birdə onda görürdü ki, sovet dövləti üçün xidmət edən əsgərlərdən biri qumbaranı çəkərək partlatdı və son nəfəsində özü ilə bir dəstə alman əsgərinidə məhv etdi.

Eldarın ətrafında artıq sağ bir kimsə yox idi, o bir neçə yerindən yaralanmışdı, son dəfə ayağından yaralanmışdı. Tez paltarının bir hissəsini çırıb baldırını bərk sıxaraq bağladı. Yerini dəyişə-dəyişə düşmənə gülə yağdırırdı. Artıq neçə dəqiqə idi ki, almanlar irəliyə bilmirdi, elə bilirdilər ki, qarşıda bir neçə sovet əsgəri var, o üzdən onları tam məhv etmədən irəliləmək istəmirdilər, çünki qabaqda gedən almanların başına nələr gəldiyini yaxşı bilirdilər. Eldar tərəfə bir neçə qumbara atıldı, o cəld bir cəsədinin altında gizləndi. Düşünə bilərsiniz ki, bu çox amansızcadır, bəlkə də elədir, amma müharibənin qanunları amansızdır, müharibə özü amansızdır. Birdəki son anacan yaşayaraq daha çox düşmən öldürməsi onun borcu idi, aylarla keçilən təlimlər məhs bunun üçün idi, o bunun üçün hazırlanmışdı. Atılan qumbaralardan biri onun lap yaxınlığında partladı, qumbara üstündəki cəsədinin bütün bədənini parçaladı, partlayış Eldarın sol ayağını tamamiilə dağıtdı və cəsədin iççalatı çölə tökülərək onun üst-başına dağıldı, təzəcə ölmüş əsgərin qanı hələ laxtalanmadığından üz, başına sıçrayaraq onu tamamilə qana boyadı. Eldar getdikçə daha çox qan itirirdi, başı fırlanırdı, bədəni üşüməyə başlayırdı.

Alman əsgərləri bir az gözlədi və artıq qarşı mövqeydəkilə-

ri məhv etdiklərinə əmin olduqdan sonra irəliləməyə başladılar. Alman əsgərləri əvvəlcə tək-tək irəlilədilər ki, əgər kimsə yenə qumbara partladarsı olsa az itgi versinlər və meyidləri yenidən güllələyərək öldüklərindən tam əmin olduqdan sonra, arxadakı alaman əsgərləri irəliləyirdi. İki alman əsgəri uzaqdan meyidləri güllələyə-güllləyə ehtiyatla irəliləyirdi. Eldar hiss etdi ki güllələrdən biri deyəsən onu da tutdu, amma hələ də meyidin altında olduğundan sağ qala bilmişdi. Bədəni ağırlaşmışdı, sanki hava qurğuşun olub üstünə tökülərək onu yerə basırdı, qan itirdiyindən bədəni üşüyürdü, amma o zarımırdı, dözürdü. Yanından bir alman əsgəri keçdi, sonra bir neçəsi keçdi, sonra onlarla alman əsgəri yanından keçmək istəyirdi ki, o əl qumbaraları bağlı topanı əlində havaya qaldırdı. Bu çox qorxunç səhnə idi. Cəsədlərin içindən anidən bir qumbara topası tutmuş əl çıxdı, bunu görən bir alman əsgərinin gözləri böyüdü, bağırıb yoldaşlarını xəbərdar etmək istəyirdi ki, bir gurultu qopdu, əvvəlcə meyitlərin içindən çıxmış əl yoxa çıxdı, sonra həmin alman əsgəri və onlarla alman əsgəri yerə səpələndi. Bədənləri al rəngə boyanmış, alman əsgərləri fəryad qoparırdı. Ətraf əl-ayaq parçaları ilə dolmuşdu. Can verən alman əsgərləri alman dilində:

– Mutter, Mutter – yəni "ana" deyə bağırırdı.

Qəribə olsa da, can verən bəzi alman əsgərləri türkcə zarıyırdı:

– Anaaa…

Yaşargil qumbara səsindən sonra bu bağırtıları eşidəndə bilirdi ki, yoldaşlarından biri daha öldü və neçə-neçə alman əsgərini də özü ilə apardı.

Qəlpə komandirin bir ayağını aparmışdı və sinəsindən iki güllə yarası almışdı, halı ağır idi, amma o yenə də dəstənin sağ qalması üçün əmrlər verirdi:

– Siz güllə atmayın, yerinizi bilməsinlər, yalnız geri çəkilin, – o gözlərini yumub, tövşüməyə başladı, – deyəsən mənimki bura kimi imiş? – qırıq-qırıq danışırdı. – Artıq döyüşün mənası yoxdur! Tam geri çəkilin, arxadakı diviziyaya qoşulun, bu əmrdir, bu mənim son əmrimdir. Xüsusiləşdirilmiş desant diviziyası yoxdur! – Bu onun son sözü və son nəfəsi idi.

Alı da can verirdi:

– Kamil, balacaaa…– ləhlədi, – Yaşar sizə vəsiyətim sağ qalsanız, elimizə qayıdın, nəslimizi davam etdirin. Qoy nəslimiz öz ata-baba yurdunda boy atsın. Atamın, anamın, bacılamın, sonbeşik bacımızın, – Alı onu elə çox istəyirdi ki – və mənim adımı uşaqlarınıza qoymağı unutmayın. Qoy onlar bizim yerimizə yenidən doğulub, xoşbəxt yaşasınlar! – o xırıldayaraq, – Qoy öz yurdumuzda boy atsınlarrr… Biz yaşaya bilmədik, qoy onlar bizi yaşasınnn… Kəndimizin…, Saklı kəndinin varisləri sizsiz, saklını yaşadın…

– Qağa, qağa – göyə tük ürpədici səs ucaldı…

Qalan on üç nəfər də yaralı idi, amma bu son fəlakətə baxanda bu yaralar heç nə idi. Onlar iki gündən sonra arxa diviziya çatdılar. Almanlarsa hələ də meşəni bombalamaqla məşğuldu, çünki onlar elə bilirdi ki, geri çəkilənlərin sayı çoxdur, onlar itgi verməkdən və bu aslanlarla üzləşməkdən qorxurdu. Axı bu diviziyada olan türk və müsəlman əsgərləri nə digərləri kimi vuruşurdu, nə digərləri kimi yaralanırdı, nə də ki digərləri kimi ölürdü. Bu diviziyadan cəmi on üç nəfər qalmışdı. Sanki otuz-qırx mindən çox igidi qucaqlamış bu diviziya heç yoxmuş. Əslində belə bir diviziya yoxdu da! Necəmi? Xususiləşdirilmiş desant diviziyası sənədlərdə tamam başqa adla gedirdi və burada özünü qurban vermiş igidlərin adı heç üzə də çıxarılmadı. Niyə? Çünki bu diviziyada ölən hər əsgər başına öldürülmüş onlarla alman əsgəri düşürdü. Bu diviziya ağır artileriyası olmadan yüzlərlə alman tankını məhv etmişdi, sovet ordusuna çoxlu qənimət vermişdi. Bu o vaxt baş verirdi ki, digər sərhədlərdə sovet ordusu geriyə çəkilirdi, böyük rus ordusu əsir düşürdü, almanlar qarşısında davam gətirə bilmirdi. Bu diviziyasa almanların qorxulu röyası idi. Bu qəhramanlıqları edənlər artıq yoxdu, onlardan geri qalan on üç nəfərdi, tezliklə onları elə yerlərə göndərəcəkdilər ki, onlar da itib batacaqdı və belə bir diviziyanın olmasından kimsənin xəbəri olmayacaqdı. Bu su üstünə yazılmış qəhramanlıq nağılına bənzəyirdi, nağılın sonuna çatmamış əvvəli pozulub yox olurdu! Bu igidlərin hər birinin həyatı bir qəhramanlıq kitabıydı, amma kimsə bilməyəcəkdi bunu, türk xalqı bilməyəcəkdi bunu. Bunu yalnız bəzi vəzifəli rus zabitləri biləcəkdi ki, onlar üçün bu igidlərin heç

bir əhəmiyyəti və dəyəri yoxdu! Rus xalqı üçün nə mənası vardı, ölmüş türk qəhrəmanları haqqında danışsın, axı ən ali xalq rus xalqı idi, ən cəsur xalq rus xalqı idi, amma dövlət onları mümkün olduqca arxa cəbhədə saxlayırdı, önə türkləri basırdı, bunu kimsənin bilməsi lazım deyildi! Axı bu hünərlər, bu qəhramanlıqlar, bu qələbələr "VELIKAYA RUS" xalqının adına yazılmalı idi! Və yazacaqdılar.

…Bizi buradan Ermənistan diviziyasına atdılar. Çox qəribə olsa da deməliyəm ki, Zəfər bəy düz demişdi, adı «erməni diviziyası» olsa da diviziyanın 80 faizdən çoxu azərbaycanlı idi. Ölənlər azərbaycanlı idi, şücaətlər isə hay-erməni xalqının adına yazılırdı. Dava vaxtı buna bir o qədər də əhəmiyyət vermirdim, çünki hər dəqiqəmiz döyüşdə keçirdi, sonradan düşünəndə isə bu fakt davanın od-alovundan da dəhşətli gəlirdi. Tək təsəllim vardı, nə fərqi var harada döyüşürük, təki öz elimiz tapdanmasın, ana-bacılarımız didərgin düşməsin, körpələrimiz öz yurdunda böyüsün, boya başa çatsın. Tək təsəllim bu idi.

Ermənistan diviziyası adı altında azərbaycanlılar qəhramanlıqlar göstərirdi, mən bu döyüşlərdə ermənilərin nə qədər qorxaq müllət olduğunu gördüm. Döyüş vaxtı onlar səngərdə uzanaraq ağlaşırdılar. Yüksək rütbəli zabitlərimiz erməni olduğundan biz onlara heç nə edə bilmirdik. Yəni qısacası hay-ermənilər gizlənirdi və biz hücum edib alman mövqeylərini alırdıq. Bu qələbənin adı ermənilərin olurdu. Amma bir dəfə bomba düz onlar gizləndikləri səngərə düşdü. Axı Tanrı belə nə qədər səbrli olsa da, bəzən əclafları elə bu dünyada cəzalandırır. Amma yeni qəribəlik baş verdi, Tanrı onları cəzalandırsa da, ermənilər bu lənətdən də xeyir əldə edə bildilər. Belə ki həmin ölən hay-ermənilər qəhramanlıq medalları ilə təltif olundu. Yəqin Tanrı bunların lənətdən belə özlərinə şöhrət düzəldə bildiklərini görüb, onları lənətləməkdənsə, onlara şərəfsiz yaşayış verirdi!

Bir döyüş olduqca ağır keçdi, alamanları geri çəkilməyə məcbur etdik, amma böyük itgi verdik. Mən də ağır yaralandım və qospitala düşdüm. İki ay orada müalicə olunub yenidən Ermənistan diviziyasına qayıtdım.

# SOVET ORDUSU QƏLƏBƏ QAZANIR.

*Gözünə dik baxa bilmədiyin həqəqət bir gün*
*özü sənin gözünə baxacaqdır!*
**Müəllif**

*Kölgədə bitən ağacın meyvəsi olmaz.*
**Azərbaycan atalar sözü.**

*İmperiya kölgəsində qalan xalqın istiqbalı olarmı?!*
**övladların atalarına sualı...**

Sağaldıqdan sonra yenidən Ermənistan diviziyasına qayıtdım. Geri qayıdanda məlum oldu ki, mən qospitalda olduğum zamanda qardaşımla, zəngəzurlu Mətindən başqa köhnə silahdaşlarımın hamısı sonrakı döyüşlərdə həlak olub. Qardaşımın bəxti gətirib yüngülcə yaralanıbmış. Demək on minlərlə alman əsgərini məhv edən, özü də azalıb-çoxalan, türk millətlərindən təşkil olunmuş xüsusiləşdirilmiş desant diviziyasından geriyə qalan mənlə bir yerdə cəmi üç nəfərdi. Davasa hələ davam edir.

Sağalıb qayıdar-qayıtmaz qaynar döyüşün ortasında düşdüm.

…Sovet ordusu geri çəkiliridi. Top mərmiləri ermənistan diviziyasını darmadağın edirdi, çünki kömək diviziyaları hələ çatmamışdı. Arxa və ehtiyat cəbhələrlə əlaqə kəsilmişdi. Öndə olan əsgərlərin alman əsirliyinə düşmə təhlükəsi vardı. Almanlar bombaladıqları sovet səngərlərini tutmaq üçün irəliləyirdilər. Top mərmilərindən biri Yaşarın yaxınlığına düşmüşdü, bir müddət sonra o gözünü açdı, qulağı uğuldayırdı, al qan içində idi, amma tərpənə bilirdi, deyəsən əsas yaranı ayağından almışdı, amma buna əhəmiyyət vermədən ətrafa boylandı, səngər tezliklə almanlar tərəfindən tutulacaqdı, o səngərdəki anbardan bir neçə top gülləsi götürərək bir-bir onların ağzını bıcaqla qurdaladı, sonra yanındakı balaca belin dəmir hissəsi ilə döyəcləyib mərmilərin başlığı ilə gilizini ayırdı, gilizdəki barıtı çantasına doldurdu.

Bıçaqla çantasının altından bir deşik açdı və anbardakı yanacaq boçkasını da deşdi, boçkadakı benzin axaraq anbara doldu. Barıtı nazik xətlə tökərək səngərdən çıxıb sovet ordusu olan tərəfə sürünməyə başladı, bu vaxt Yaşar zarıltı eşitdi:

– Yaşar məni burada qoyma. – o yalvarıcı bir səslə dedi. Onun gözündə elə bir yalvarış vardı ki, bunu görən insan düşünərdi ki, bu insan əsla kiməsə yamanlıq etməz, axı insanın bir an içində necə aciz hala düşə bildiyini o öz gözləri ilə görmüşdü… Bu Arturdu.

Yaşar yaralı olmasına baxmayaraq onu da özü ilə birlikdə sürüməyə başladı. Əvvəlcə bir balaca özü irəli sürünür, sonrasa Arturu əli ilə dartırdı. Qaranlıq olduğundan və düzənlikdəki kol-kosa görə almanlar onları görmürdü. Düzənliyin nisbətən meyilli tərəfində Yaşar dayandı. Artur zarıyaraq dedi:

– Niyə dayandın? Apar məni. Mən ölmək istəmirəm. Yalvarıram sənə. İndi almanlar gələcək. Gedək!

– Sus. – Yaşar əli ilə onun ağzını tutdu və gözlədi, almanlar səngərə doluşurdu. Yaşar hazır tutduğu çağmağı ilə barıt cızını yandırdı, alovlanaraq yanan barıt cızı gəldikləri səngərə doğru irəlilədi. Yaşar diqqəti yayındırmaq üçün avtomatının darağını almanlara tərəf boşaltdı. Yaşara cavab atəşi açan alman əsgərlərinin dayandığı səngər ambarın partlaması ilə göyə sovruldu, anbardan köbələyə oxşar alov qalıxdı, göy üzü qırmızı rəngə boyandı və partlayışın ardınca insan fəryadı, bağırtısı eşidildi. Yaşarsa buna əhəmiyyət vermədən Arturu da dartaraq sürünməyə başladı, Artursa zarıyırdı:

– Tez ol! Əsir düşərik! Mən ölmək istəmirəm! Nə olar, bir az da tez?!

…Bu dəfə mən hospitala getmədim, çünki yaram bir o qədərdə ağır deyildi, amma bu vuruşda ayağımdan yaralansamda, vuruş sonrası qəlbimdən yaralacaqdım, bu yara xəyanət yarası idi, bu türk millətinin «gedər-gəlməzdə» yox oluşuydu.

Ehtiyat cəbhələrin köməyə gəlməsi ilə mövqeyimizi bərkitdik. Amma bundan sonra bəlli oldu ki, diviziyadakı əsgərlərin yarısından çoxunu itirmişik. Mətanətimizə, vuruş cəsarətimizə

görə şəxsən general Jukov özü bizə təbrik məktubu göndərdi. Məktubun qısa məzmunu təxminən belə idi:

– Bu döyuşdə Ermənistan diviziyası böyük hünər göstərmişdi. Arxa və ehtiyat cəbhələr vaxtında yetişə bilməsə də, təcavüzkar alman ordusu irəliləyə bilməmişdi. Bu isə məhz Ermənistan diviziyasının hünəri və cəsarəti sahəsində olmuşdu. Sizi təbrik edirəm.

Əslində «burada dərd ediləsi, fikirləşiləsi nə ola bilər?» deyə soruşa bilərsən. Məsələ burasında idi ki, təbrik Ermənistan dviziyasına idi, amma qəhramanlıq göstərərək, son damla qanınacan vuruşaların hamısı, həlak olanlarınsa böyük əksəriyyəti biz azərbaycanlılar idi. Bu vuruşda ölən ermənilər də bir döyüşdə ola biləcək ən şərəfsiz formada ölmüşdü, yəni onların ölümü cəsarət və ya hünərlə bağlı deyildi, sadəcə qafil güllə, mərmi qorxudan səngərdə gözlərini yumaraq, qorxu çığlıqları atanları tanımır ki… Amma tezliklə məlum oldu ki, bu ermənilərə belə, yalnız öldüklərinə görə bir çox orden, birinəsə Sovet İttifaqı Qəhramanı adı verilib. Bu vuruşda heç bir azərbaycanlıya bu ad verilmədi, amma igidliklə vuruşanlar da, ölənlər də azərbaycanlılar idi, o günü Ermənistan diviziyası 500-dən çox azərbaycanlı itirmişdi, təşəkkürsə Erməni diviziyasına, daha doğrusu qorxaq hay-erməni millətinə çatırdı. Müharibənin ilk illərini bilmirəm, amma mənim bu diviziya gəldiyim gündən, erməni diviziyasının azərbaycanlı əsgərləri həlak olur təzələnir, erməni tərkibi isə demək olar ki, sabit qalırdı. Amma yenə davadan sonra mən bu diviziyada həlak olan ermənilərin və onların qəhramanlıqları haqqında oxuyanda əsəbimdən dəli olmaq həddinə çatdım. Görəsən sənədlərdə göstərilən bu ermənilər nə vaxt ölmüşdü? O ermənilər nə vaxt qəhrəmanlıq göstərmişdi? Bu erminilər bu diviziyada qəhramanlıq etdiyini mən görmədim, bu diviziyada belə adda ermənilər yoxdu, ya söhbət başqa diviziyadan gedirdi, ya da mən oxumağı bacarmırdım.

İndi yaxşı anlayıram ki, xalqımın bu dava göstərdiyi qəhramanlıqlar "böyük siyasət nəticəsində" başqalarının adına yazılıb. Xalqımın nəyinki qəhramanlıqları oğurlanıb, hətta davada həlak olanlarının sayı qəstdən az göstərilirdi. Yəqin ki, döyüşən

azərbaycanlıların sayını süniyi şəkildə azaltmaqla hansısa siyasi məqsəd güdürdülər, eyni məntiqin davamı kimi, əksinə davada həlak olan hay-ermənilərin sayı qəstdən çoxaldılırdı. Bu da yəqin ona görədir ki, gələcək də desinlər ki, hay-ermənilər bu davada böyük itigilər verib. Tarixən özünü əzabkeş xalq kimi göstərən hay-erməniyə bundan yaxşı imkan ola bilməz, sanıram. Sayan yox, görən yox, "vardı ölüblər" deyəcəklər... Bəs o ölən ermənilər, əslində isə heç bir vaxt olmayan o ermənilər, guyakı harada yaşayıb? Təbii ki,İravanda yaşayıb deyəcəklər.

...Barıt, qan qoxulu davanın axırınacan döyüşdüm. Berlinəcən getdim və Berlin döyüşündə də iştirak etdim. Berlin yaxınlığındakı döyüşlərin birində almanları məhv edərək kiçik bir şəhərə girdik. Artıq axşam düşmüşdü. Döyüş küçələrdə gedirdi. Qardaşımla mən dar bir küçəyə girdik, binanın başından bizə güllə atan üç alaman əsgərini öldürdükdən sonra, nisbətən gen bir küçəyə çıxdıq. Binanın qabağında aradan çıxmaq istəyən alman maşınını güllə-boran etdik...

…Yaşargil avtomatlarını maşına sarı tuşlayaraq ehtiyatla maşına doğru irəlilədilər, qapını açıb silahın uçu ilə zabitlərin ölüb-ölmədiyini yoxlayırdılar ki, birdən bir alman zabiti tapançasını qaldırıb onları vurmaq istədi, amma Yaşar cəld tərpənərək onun qolunu burdu, tapancanı onun əlindən aldı. Maşın güllələnən vaxt o maşının digər tərəfində oturduğundan görünün güllə onu tutmamışdı.

Yaşar hiss etdi ki, əlini burduğu alman zabitinin üzü ona tanış gəlir. Alman zabitini çevirərək üzünə baxdı və anidən:

– Otto? – deyə soruşdu.

Otto, üzünü saqqal basan Yaşarı səsindən tanıyaraq:

– Yaşar?! – qurumuş dodağını gəmirərək islatmaq istədi, – Sağsan? Bu yaxşı oldu! – udqundu, – Yaşadığına sevindim. – Doğurdan da onun özü əsir düşməsinə baxmayaraq gözündə sevinc vardı.

– Qardaşımdır, Kamil. – Yaşar Kamili Ottoya göstərdi.

– Bəs o biri? – Yaşarın üzündəki ifadəni oxuduqdan sonra, deyəsən verdiyi suala peşman oldu.

– Artıq yoxdu…

Sovet əsgərlərinin səsi getdikcə yaxınlaşırdı. Yaşar ani hərəkətlə Ottonun üzünə baxdı, əli ilə qardaşına “dayan” işarəsi edərək:

– Otto tez qaç, biz bu axşam şəhərdən çıxan deyilik. Qaranlıqdır, bizimkilər gəlməmiş qaç.

Kamil ilk əvvəl avtomatını Ottoya tərəf qaldırmaq istədi, amma  ani hərəkətlə arxasını onlara sarı çevirib gəldikləri yola baxdı və pıçıldadı:

– Yaşar, indi bizimkilər gələcək, tez…

Otto duruxdu. Yaşar ona baxaraq, astadan, lakin qətiyyətlə:

– Tez ol, nə durmusan?!

Otto gülümsədi:

– Bax bu insanlıqdır. Sağ ol mənim türk qardaşım! – o çönüb qaçdı,  qaranlığın içində yox oldu. Yaşar isə bir xeyli o tərəfə baxdı.

Bir  dəqiqədən sonra sovet əsgərləri də onların ətrafına toplaşdı. Yaşarla Kamil üç alman zabiti öldürmüşdü, bunlardan biri polkovnikdi və maşında bir çox sənəd dolu qovluq vardı.

Bu qovluqların birində xüsusiləşdirilmiş desant diviziyasının alman ordusuna verdiyi təlafatlarla bağlı sənədlər toplanmışdı. Lakin bu qovluq və  buna bənzər bir neçə qovluq ilk tanışlıqdan sonra  NKVD zabitlərinin əliylə yandırıldı. Artıq elə bir diviziya və bənzər diviziyalar olmayacaqdı, tarixdə xatırlanmayacaqdı...

… Sonra Berlinin tutlmasında iştirak etdik. Berlin şəhərinin ətrafı minalanmışdı,  minaları zərərləşdirərək Berlinə girmək üçün  yol acmaq gərəkli idi. Amma minaları zərərsisləşdirənləri alman sinaperləri bir göz qırpımında vururdu. Bu səbəbdən general Jukov minaların təmizlənməsi əmrini, hücum əmri ilə dəyişdirdi. Hücumdan isə əvvəl, guya kı diviziyalarda tərkibinə görə, xarakterinə görə, təyinatına görə yer dəyişmələr edildi, yəni   bəzi diviziya və qoşun hissələri ön cərgəyə gətirildi, bəziləri arxa xəttə çəkildi.  Hücum əmri verildi, qalan ordu hissələri ikinci əmri gözləməli idi. Biz Ermənistan  diviziyası olduğumuzdan arxa cərgədə yer almışdıq. Düşünəcəksən ki, Ermənistan diviziyası olmanın bura nə dəxli var? Dəxli varmış… Sonradan mənə məlum oldu

ki, son düzənləmədə ordu hissələrində türk millətinə məxsus diviziyalar ön sırada yerləşdirilmişdi və minalara ilk düşənlər də onlar olmuşdu, mənisə bu əmrdən Erməni diviziyasında olmağım qurtarmışdı. Yəni diviziyaların yer dəyişməsi "xarakter və təyinatına görədir" dedikdə, əslində onlar düz demişdi, diviziyaların yer dəyişməsi xarakter və təyinatına görə idi, amma bu milli xarakter və təyinatdı…

Sovet əsgərləri minalar üstündə ölüm rəqsi edərək Berlinə doğru qaçırdılar, öndəki əsgər minaya düşəndə arxadakı əsgər onu əvəz edirdi, on minlərlə əsgər minaya düşərək sahəni təmizləyib Berlinə yol açdı. Biz Berlində, uzun yorucu küçə savaşları apararaq irəliləyirdik.

Burada, Berlin davasında, dünyada yeganə sağ qalan qohumumu, qardaşımı da itirdim. Sovet İttifaqı qələbə qazanmışdı, mənsə bu davada qardaşlarımı itirmişdim, tək mənmi… Zəngəzurlu Mətinin nə ölüsünü, nə dirisini tapdım. Bu davada mən iki qardaşımı, minlərlə silahdaşımı, səngər dostlarımı itirdim, əvəzindəsə bir vaxt fəxr etdiyim iyirmiyə yaxın dəmir parçası vermişdilər mənə, inan bu medallar, ordenlər mənim üçün həqiqi mənada dəmir parçasıdır və bunu indi daha yaxşı başa düşürəm. Amma adi dəmir parçaları deyil bunlar, xalqımın qanı bahasına başa gələn, mənasız, amma gözümüzə kül üfürülən, bizi kor edən dəmir parcalarıdır...

Dedilər ki, BIZ qələbə qazanmışıq. Dedilər ki, Sovet İttifaqı qələbə qazanıb. Bu ittifaqın, yəni bu "BIZ-in" içində olan Azərbaycan xalqı, türk millətləri, müsəlman qardaşlarım doğurdanmı qələbə qazanmışdı? Nə qazandığımızi deyə bilmərəm, amma bizim üçün bunun adı qələbə deyildi. Kimlərsə bəlkə nəsə qazanmışdı, amma biz itirmişdik.

Dava qurtardı, evə qayıtdıq. Evə qayıtdıq deyəndə ki, mən tək qayıdırdım, tək təsəllim yurduma qayıtmağım və bu yurdda öz xalqımın yaşaması idi.

Gecələri dəhşətli kabuslar görürdüm. Necə deyərlər səhəri diri gözlü açırdım. Əsirlikdə olduğum zaman deyilənlərin yalan olması üçün daim Allaha yalvarırdım. Bizim əsarətdə olduğu-

muzu, yuxuya verilərək istismar edildiyimizi qəbul etmək istəmirdim və dava zamanı şahid olduqlarımı başqa çür izah etmək istəyirdim. Doğurdanda insan çox yalançı və murdar məxluqdur, çünki insanın şahidi olduqları onun görmək istədikləri kimi olmayanda insan ya özünü korluğa qoyur, ya da ki özünə təsəlli üçün yalançı bəhanələr gətirir. Mən də bax belə edirdim. Şahidi olduqlarımı qəbul edə bilmirdim və özümü korluğa qoyur, yalançı bəhanələrlə özümü uyudurdum. Çünki insanların böyük əksəriyyəti haqsızlığı dəyişdirə bilmədiyindən, gücə baş əyirdi, məni kimi, ya da mən onlar kimi…

Qəlbimdə suallar mənə rahatlıq vermirdi:

– Niyə, bilə-bilə, hələ gənc belə olmayan yeniyetmə türk-müsəliman övladlarını davaya göndərirdilər, axı onların davada varlığı elə bir fərq yaratmayacaqdı?! Niyə onları lap qurbanlıq qoyun kimi qırğına göndərilirdi?! Niyə?

Tez də bu suala cavab olaraq özümə təsəlli üçün bəhanələr tapırdım, – "Axı müharibənin öz qanunları var". – Bunu alman zabiti Otto mənə deyəndə onu insan oğlunun ən amansız nümayəndəsi hesab etmişdim. İndisə bu sözlə özümdə təssəli tapırdım. O anda Otto üçün düşündüklərim heç yadıma da düşmürdü. Doğurdan da insan iki üzlü imiş, hətta mən belə və öz vicdanımı susdurmaq üçün bəhanə gətirirdim, – "Axı dava dövləti sərt olmağa məcbur edir", – özümə bax belə bəhanələr gətirirdim.

Sonra təsəlli üçün yeni-yeni cümlələr qururdum, çünki rahatlıq tapa bilmirdim. Bu narahatlıq deyəsən mənim içimdə qalan son insanlıq damlaları imiş, vətənpərvərlik və millətpərvərlik adlı son damlalar. Bu narahatlıq o zaman məni əsəbləşdirdiyindən bundan yaxa qurtarmaq istəyirdim və yeni bəhanələr axtarışında idim.

Bu bəhanələrimdən ən şah əsər saya biləcəyimsə bu idi ki, vətənimiz darda idi, Sovet dövləti nə etməli idi? Ən azından bizim ellər düşmən tapdağında olmadı, ana-bacılarımız pərən-pərən salınmadı. Əsas da budur. Sovet İttifaqının qərb ərazisi gör nə hala düşüb, şəhərlər orada başdan-başa yox edildi, əhalisi davadan sonra yox edilmiş şəhərlərinə qayıdır, bizimkilərsə öz yurdlarındadır. Ən azından bunun üçün ölməyə dəyər və onlar bunun

üçün ölüb! Bu yolda ölməyə dəyər. Bax bu yalançı vətənpərvərlik və millətpərvərlik bəhanələri qəlbimdəki narahatçılığın susdurulması üçündü.

Bəzən içimdəki o amansız, vicdansız vicdanla mən uzun-uzadı danışırdım, mübahisə edirdim:

– Sovet dövləti vətən darda olduğu üçün yeniyetmə olan soydaşlarımızı və dindaşlarımızı davaya göndərib. Buna görədə elim düşmən tapdağı görmədi. Bəs sən daha nə istəyirsən? – mən içimdə baş qaldıran vicdanımın səsinə əsəbləşirdim.

– Sənin soydaşlarının, heç uzağa getməyək, azərbaycanlı türklərinin bir neçə dövlətin adından vuruşması nə deməkdi? Niyə azərbaycan millətinin oğulları tək azərbaycan diviziyası adı altında vuruşmurdu? Ermənistan divisiyasında, ya gürcüstan diviziyasında vuruşanların yarsından çoxu azərbaycanılar idi, niyə? Məgər gürcüstanda gürcü, Ermənistanda erməni yoxdumu? Niyə Azərbaycan övladı ölməli idi, qəhramanlıqları başqasının adına yazılmalı idi? Atalarımız demişkən, «adı bizim, dadı başqasının». Amma ən acınaqlası budur ki, heç bu yerdə adı da bizim deyil. Cavab ver, səni gözləyirəm. – vicdanım məndən soruşurdu.

– Mən nə bilim? – tez də əlavə edirdim. – Bu torpaqlarda kı, bzi yaşayırıq.

– Doğurdan?! – vicdanım şübhəli, kinayəli səslə soruşdu.

Mən onun səsindəki şübhəyə, kinayə fikir vermədən, mənim bildiklərimi onunda bildiyini bildiyim halda, at kimi üzünə duraraq dedim:

– Necə bəyəm, guya bilmirsən mən hansı ölkədə yaşayıram? Bu ölkənin adı Ermənistandır. – Demək insan dara düşəndə bax beləcə hər şeyini inkar edir, hətta namusunu, hətta vətənini, necə ki mən edirdim. – Bax burada yaşayıram, daha nə istəyirsən?!

– Yaşar sən Ottonun dediklərin unutmusan ki?

Mən tez etiraz edirdim:

– O məni əla almaq üçün yalan uydururdu, mən onun dediklərini çoxdan unutmuşam.

– Bəs Erazın dedikləri? Azadın dedikləri? Hamısı tamaşa idi?

– Bəlkə də! Əl çək!

– Rusların Azərbaycanı ermənilərə, gürcülərə, hətta dağıstanlılara pay pülüş etməsi yadındadır axı, mən biləni?! – vicdanım rişxəntlə soruşdu.

– Nə olsun? – nə demək istədiyini bilə-bilə arsızlığıma salırdım.

– O olsun ki, sən bilə-bilə ki, oturduğun topaqlar sənin öz vətənindir və vətənin zorla kimlərəsə verilib, sən bunu danırsan. Deyirsən ki, biz onların ölkəsində yaşayırıq, ona görədə onların milli diviziyasında vuruşmuşuq.

– Axı artıq elədir. Mən ki, etməmişəm… – tam qeyri səmimi cavablar verirdim. – Milləti bu bataqlığa mən ki, salmamışam, məndən nə istəyirsən?!

– Axı belə etməklə sən bu ellərin artıq sənin olmamasını qəbul edirsən. – o bu dəfə rışxəntlə və ya kinayə ilə yox, kədərli səslə dedi.

– Doğurdan? Mən ki, bu torpağın üstündəyəm. Demək hələ bizimdir, adı başqadır. – artıq özümdə anlamırdım nə danışram, artıq danışığımda rabitə itmişdi, əvvəlki cümlələrimlə indikilər biri-birini bağlamırdı, mən yalnız özümü inadırmaq üçün kor bəhanələr gətirirdim.

Bu təsəlli oyunu, davadan sonra, düz üç il davam etdi, 1948-ci iləcən. Bunasa hələ vardı…

# İRAVANDAN TÜRKLƏR KÖÇÜRÜLÜR

*Yeravan 1936-ci iləçən İravan şəhəri adlanıb.*
**Tarix.**

*Dadanan doymaz, yığdıqca da doymaz.*
**Azərbaycan atalar sözü.**

*Dadananla qudurani saxlamaq olmaz.*
**Azərbaycan atalar sözü.**

1948-ci il. Bu il mənim üçün ömrümün sonu deməkdi, çünki bu il artıq bəhanə gətirə biləcək bütün yolları bağladı. Bizim ellərə İrandan, Türkiyədən, Suriyadan, İraqdan, Fələstindən, Livandan, hətta Fransadan hayların köçürülməsinə başlandı. Bunlar o hay ermənilər idi ki, 1918-1920-ci ildə fransız-ingilis ordusu Suriya-Fələstindən geri çəkilərkən özləri ilə aparmışdılar. Hazırlayıb geri, İrəvana göndərdilər. Bizim camaatısa bu yerlərdən bir dəfəlik köçürürlər. Tarix boyu yaşadığımız ellərdən, biz bir dəfəlik köçürüləcəkdik və yerimizə hay dığalarını gətirəcəkdilər. Buralara yenidən, növbəti dəfə hayları gətirəcəkdilər...

Vicdanım çox amansızdı, mənim artıq təsəlli yollarımın bağlandığını görüb məni küncə sıxdı:

– Nə oldu, üstündə dayandığın elə, yurda? Bəs deyirdin ki, nə olsun adı Ermənistan dövlətidir, üstündə yaşayan ki, bizik. Bəs nə oldu? İndi bizi köçürdürlər?

– … – susurdum, nə cavab verəydim ki?

– Deyirdin ki, nə olsun xalqımızı yeniyetməsinəcən davaya aparıblar? Əvəzində ellərimiz düşmən tapdağı görmədi. Deyirdin ki, bax, ana-bacılarımız, xalqımız yurd-yuvasından pərən-pərən düşmədi. Bəs nə oldu? Bəs indi niyə qovurlar bizi? – insafsız vicdanım sumurdu. – Susma, cavab ver də. Deyirdin Otto düşmən zabiti olduğundan yalan danışırdı, bəs nə oldu?

Mən isə susdum cavab vermədim, vicdanım içimdə üsyan edirdi, qəh-qəhə çəkirdi, amma mən anlaya bilmirdim, o gülür ya ağlayır. Amma gülməkdən çox ağlamağa oxşayırdı.

Sovet dövləti sanki almanların hayıfını bizdən çıxırdı. Axı almanlar hücüm edəndə minlərələ rus kəndələri-şəhərləri yandırılmış, dağıdılmışdı. Almanlar bizim ellərəsə gəlib çıxa bilməmişdi. Və indi ruslar bizim elləri boşaldır, bizi öz yurdlarımızdan qovurdu.

Vicdanımsa tez soruşurdu:

– Oralarda məgər, tək rus kəndləri yox edilib? Bəs yox edilən aşgenaz kəndləri? Onlar necə oldu? Aşgenazların bütün izləri yox edildi. İndisə sıra İravandadır, Zəngəzurdadır, Göycədədir!

Min illərin tarixi olan yurdlar bircə anın içində bir əmrə görə məhv edilirdi. Min illərin həqiqəti bircə anda xülyaya çevrilirdi. Min illərin türk elləri üstündə hay-erməni milləti yaşayacaqdı. Artıq bu yerlərdə necə deyərlər hay-erməni dığaları at oynadacaq, at capacaqdı.

Torpağımızı elə bir oyunla alırdılar ki, nə düşmən bəlli idi, nə dost, nə bitərəf. Səngərlər məlum deyildi. Mən belə döyüşə öyrəşməmişdim. Mən biləni torpağı almaq istəyən düşmən bir tərəfdə səngər qurur, torpağın sahibi digər tərəfdə və döyüş olur. Burdasa səngər yoxdu, düşmən yoxdu, düşmən ordusu yoxdu. Burda barıt qoxusu yoxdu, qan qoxusu yoxdu. Burda hiylə, xəyanət və cəhalət vardı. Burada fəryadlar belə səssizdi, hətta etirazlar belə ürəklərdə danışılmırdı, xalq başsız qalıb keyimişdi. Bir doğru vardı, Azərbaycan türkləri min illərdi yaşadığı elləri, min illərin xatirəsini, min illərin keçmişini, min illərin tarixini bir əmrə əsasən hay-erməni dığalarına qoyub getməli idi.

Bəs biz bu ellərdən qovulacaqdıqsa, daha niyə almanlarla vuruşurduq? Daha niyə qırılırdıq? Bu davadan bizim qazancımız nə oldu?!

Sovet dövlətinin əsl üzü nə idi? Qoyun dərisi geyinmiş çaqqaldımı Sovet dövləti? Onun Çar Rusyasından fərqi nə idi ki? Bu əsarətdi, həmdə ən qorxulu formada əsarət. Axı qoyun dərisi geymiş çaqqal, adi çaqqaldan daha qorxuludur.

Düşmən kimdir? Bu sualı özümə çox verdim. Axı düşmənin

məlum deyilsə, gülləni hara atacaqsan? Bizim hərbi təlimlərdə keçdiyimiz üsullar burada işə yaramırdı. Düşmən ruslardımı, haylardımı, ermənilərdimi, bizi onların boyunduruğuna salan özümüzünkülərdimi?

Bizi o vaxt qıran hay-erməni daşnakları ilə bu günkü ermənilərin fərqi nə idi? Bu gün anlayıram ki, heç bir fərqi yoxdur. Necə deyəllər çaqqal çaqqal olaraq qalır, çaqqaldan qurd törəməz.

Çar Rusyası vaxtı rus əsgərləri hay-ermənilərin bizi qırmasına göz yumurdu, Azərbaycanda Sovet dövləti qurularkən daşnakların İravandan Göycəyədək türk və müsəlmanları qırmasına göz yumdu, rus ordusu qəstdə İravana gec girdi, bu təsadüfdümü? İndi anlayıram ki, yox, bunlar təsadüf deyildi. Bu elə bir oyundur ki, Rus dövlətinin adının dəyişməsinə baxmayaraq, oyunu dəyişmir. Demək onlar sadəcə zamana uyğun olaraq istismarın adını və manefrasını dəyişiblər. Məqsəd isə eynidir. Neçə ki, bəzən biz davada bir mövqeyi tutmaq üçün taktikamızı dəyişdik və ya yeni manevralar edirdik, amma məqsəd o mövqeyi tutmaqdı, biz bütün bu dəyişiklikləri almanları aldatmaq üçün edirdik, amma məqsədimiz dəyişmirdi. Bax, bu ruslar da, ingilislər də, fransızlar da bizi istismar edənlərdi və biz ayılanda onlar “istisamar və əsarət manevralarını” dəyişir, məqsədsə yenə istismardı, yenə türkü məhv etmətkdir.

Bəs onlar niyə hay-ermənilərə kömək edirlər? Mən bunun səbəbini hərbidən az-çox başı çıxan adam kimi qiymətləndirib tapdım. Ottonun dediklərini və indiyəcən görüb eşitdiklərimi birləşdirəndə alınan mənzərə belədir. Türkiyənin, Azərbaycanın, İranın əhalisinin böyük əksəriyyəti türk millətidir və biz birlik olsaq bu xristiyan dünyası üçün böyük təhlükə deməkdir. Və onlara bu ərazidə dayaq nöqtəsi kimi bir bufer zona lazımdı və bu buffer zonada onlara bir əl tulası lazımdır. Buna görədə onlar bizim millətin tən ortasına hayları gətirib çıxardı, xristiyan olan erməniləri onlara calaq etdilər, sonra haylara “erməni-armeni” dövlət yaratdılar. Beləliklə həm Türkiyə ilə Azərbaycanın əlaqəsini kəsdilər, həm də özlərinə dayaq nöqtəsi yaratdılar. Əla hazırlanmış oyundu. Bunu anlayan mənim əlimdəsə heç bir güc

yoxdur. Əzələli bədənim, yaxşı güllə atmağım, əlbəyaxa döyüşü əla bilməyimin burda heç bir faydası yoxdu.

Bu davada ən utandığım halsa dəfələrlə ölümdən qurtardığım ermənilər oldu. Bu üzdən özüm-üzümdən xəcalət çəkirəm, düzdür mən bu səhvimi bu gün düzəldəcəm.

Mənim yaşamağımın tək səbəbi böyük qardaşımın ölərkən etdiyi vəsiyyəti idi. Budur mən öz elimə qayıtmışam. Amma indi bizi köçürürlər. Bizim ellər bundan sonra ermənilərin, yox, daha doğrusu hayların olacaq. Dava görməyən erməni milisləri bizdən köçməyi elə tələb edirdi ki, bizi elə tələsdirirdilər ki, sanki min illərdi bizim olan ellərdə bir an artıq durmağa ixtiyarımız yoxlur, buralarda bir dəqiqə artıq qalsaq dünya dağılacaq.

Qəribə idi, gözümdə komandirimin sözləri canlandı.

…İlk döyüşə gedəcəkdilər. Döyüşdən əvvəl komandir Kazımov dedi:

– Qardaşlarım, bu gün təlimlər artıq bir qıraqda qalır. Bu gün siz əsil döyüşü görəcəksiniz. Bəzilərimiz bəlkə də öləcək. Amma vətən dardadır. Qələbə qazanıb geri dönəndə arxa cəbhədə olanlar deyəcək ki, bunlar olmasa düşmən məhv edilməzdi. Analar bizim adımızı övladlarına qoyacaq. Biz hamının göz bəbəyi olacayıq. Bizim qanımız bahasına analarımız, bacılarımız, övladlarımız bəxtiyar yaşayacaq!...

… Komandirimiz dediyi kimi olmadı. Onlar hamısı öldü, qanları axdı, amma xalqımı, türk xalqını aldatdılar. Bu şəhidlər, axanlar qanlar türk xalqına bəxtiyarlıq vermədi! Çünki biz türk xalqı üçün deyil, rus xalqı üçün vuruşurduq, müsəlmanlar üçün deyil, xristiyanlar üçün vuruşurduq!

Kəndimizdə Salatın ana adlı bir qonşum vardı, hamı onu uşaqlarının dili ilə “Salatın ana” çağırırdı, onun nəslini 1918-1920-ci ildə haylar qırıb, ailəsindən qalan bir özü idi. II Dünya müharibəsinə altı oğul göndərdi, heç biri geri qayıtmadı, indisə onu mükafat olaraq Mil-Muğana göndərəcəklər! Bax, Sovet qardaşlığının sonu bu oldu! Dünən, həmişəki kimi Salatın ana mənə yemək gətirdi. Hey mənə deyərdi ki, a qardaş evlən, olana güzəşt deyib atalarımız! Dünən isə, məni qucaqlayaraq ağladı və soruşdu: “qardaş niyə bütün bunlar bizim başımıza gəlir, axı niyə?

Mənə bir bu dağ-dərə qalmışdı, bunuda köpəkuşağı dağ vuraraq aldı... Biz yaşarkən öldürülənlərik! Biz yaşayan ölülərik.”. Mən isə başımı aşağı salıb susdum, cavab verməyə heç bir sözüm yoxdu... Doğurdanda biz yaşarkən öldürülənlərik... Türkə verilən, yaşarkən öldürülməkdir... Bax belə...

Mən yalnız indi anlayıram ki, bir xalqın bəxtiyar və azad yaşaması yalnız milli hegomonluqdan keçir! Bu isə o deməkdir ki, başqasından bizə dost olmaz…

Atalar demiş «Dost dosta tən gərək, tən olmasa gen gərək».

Nəysə, Aslan bu məktubu yazdım ki, mənim gördüklərimi sənə deyim, axı bu dünyada qalan tək dostum sənsən, qalan bütün əzizlərim o biri dünyadadır. Yazmaqda məqsədim budur ki, sən də məni kimi qafil hay-erməni ovuna düşməyəsən. Yəqin edə biləcəyin heç nə olmayacaq, amma ən azından hay-ermənilərin kim olduğunu, aşgenazların kim olduğunu, rusların kim olduğunu, Hitlerin arxasında olan böyük oyunu və bizim kim olduğumuzu düşünəsən, türk sözünü yenidən düşünəsən. Çünki mənim ölümüm ilə türk tarixinin böyük bir hissəsi qaranlığa qərq olacaq!

Sənə bir məsləhət verim. Mən əvvəl elə bilirdim insanlıq rəhmli olmaqdan keçir. İndi anlayıram ki, düşmənə rəhmli olmaq olmaz. Atalarımız demiş «ilanın ağına da, qarasınada lənət». Bizi bu günə qoyan elə ürəyimizin yumşaqlığı olub. Yəqin nə demək istədiyimi başa düşdün. Yəni sənin sığalladığın hay-ermənilər sabah haradasa sənə, ya sənin əzizlərinə, türklərə, müsəlmanlara toy tutacaq, havadarısa ruslar, fransızlar, ingilislər, amerika olacaq.

Mən döyüşməyi bacarıram, sərkərdə deyiləm, ordum da yoxdur. Xalıqımızısa ayıldıb xoş gələcəyə aparacaq bir sərkərdə lazımdı. Bizə, russuz, haysız, ermənisiz, xiristiyansız, türk millətlərini birləşdirib, bu oyunlar qarşısında güc gətirə biləcək, bütöv bir dövlət quracaq sərkərdə lazımdı. Onda bizi kimi döyüşçülərin də döyüşünün mənası olcaq. Bu davada bizim olmağımız, sənin, mənim, bizim qardaşlarımızı itirməyimiz mənasız idi, hətta bizim xalqımızın ziyanına oldu. Əsgər öz ordusunda və o ordu öz vətəni-dövləti üçün vuruşursa mənası var. Unutma.

Bu qədər. Aslan ümid edirəm ki, yazımı tapacan…

Ümid edirəm ki, bu yazdıqlarımı bir gün xalqıma çatdıra biləcən…

Bizi unutmayın… Yaşarkən öldürülənləri unutmayın...

Ümid edirəm ki, xalqım bir gün heç bir imperiyanın yalanına uymadan, öz azad, öz qüdrətli dövlətini quracaq. Bunun üçünsə biz birləşməliyik. Buna ümid edirəm…

Sabah biz köçürülürük. Amma bunu görəcək hayların-ermənilərin sayı azalacaq, söz verirəm buna. Söz…

Əlivida Aslan…

Aslan məktubu bitirdi. Hər ikisi bir xeyli susdu. Mərdan udqunaraq soruşdu:

– Bəs sonra nə oldu? Yaşarın axırı nə oldu?

– Bilmirəm.

– Görən Yaşarın axırı nə oldu? – Mərdan xəyala daldı.

...Kənd köçürülürdü. Min illərin xatirəsi üzlərdəki kədərə çönmüşdü. Yaşar bir əynindəki əsgər formasına baxdı, bir sinəsindəki medallara-ordenlərə baxdı, bir boyunu bükük ana-bacıların üzünə baxdı. Bu da son, azərbaycanlılar Azərbaycandan köçürdü …

Yaşarın qolundan dartılması ilə o xəyaldan ayıldı. Bir erməni milisi tüfəngin qundağı ilə onu itəliyərək:

– Yeri, tez ol! – deyə bağırdı.

Yaşar keyimişdi, deyəsən nə olduğunu dərk edə bilmədi. Digər erməni milisi təpiklə onu vurdu:

– Ara, turk iti, – pozuq azərbaycancayla dedi, – get da. Daha buraların sahibi bızık. – daha bir təpik vurdu. Yaşar hələ tam özünə gələ bilmədiyindən dəngəsini saxlaya bilmədən yerə yıxıldı. Erməni milisləri şaqanaq çəkərək güldülər. Bir milis işçisi onun cavab vermədiyini görüb daha da ürəkləndi, yenidən onu təpiklədi:

– Ara, veteran dur düş qabağımıza. Medalına zada bax… – erməni milisləri gülüşdü. – Sizə axı köçmək əmri verilib. Qatara yetişdirimək lazımdır sizi. Dur. Özünüz getsəniz, bizdə gəlməzdik bura.

Yaşar ayağı qalıxdı, davadan bəri geydiyi hərbi forması toz torpaq olmuşdu, formasının tozunu təmizlədi, sinəsindəki medal-

ları düzəltdi, gözünü qaldırıb bir kəndinə baxdı, bir gedən köçə baxdı.

– Ara, it oğlu tez ol daaa… – erməni milisləri bağırdı.

Yaşar addım atmaq istəyirdi ki, sonuncu dəfə onu vuran erməni milisi yenidən tüfəngin qundağı ilə onun sifətinə vurdu. Yaşarın burnundan qan açıldı. Yaşarın burnundan axan qan süzülərək hərbi formasını, sonra medalalları al rəngə buladı. Milis işçisi:

– Ara veteran, burda bizim havamız oxunur. Başa düşdün? Nətəri deyir sizinkilər, hər aşığın bir dövranı var! – güldü.

Yaşar özünə qəzəbləndi:

– Sənə nə olub, gözünü qırpmadan alamanları öldürürdün, indi sənə nə olub? Qaradan da qara rəng var? – ardınca belə düşündü, – Onda arxamı dayayacağım bir dövlət vardı, onda rusa da lazım idik, almanlara da. İndi kimə dayayım arxamı?

Vicdanı dilləndi:

– Sən bu gündə sussan, birdə məni eşitməyəcən. Qaradan da qara rəng yoxdur. Arxanı qeyrətinə, ata-ananın intiqamına daya. İgid bir dəfə ölür…

Yaşarı üç ildi təngə gətirən vicdanı, indi onu ömürlük susması ilə hədələyirdi və qəribə olsada Yaşar özü-özünə dedi:

– Yox. Susma. Yalvarıram susma! Mən sənə də, Aslanada söz vermişəm! qıracam bu hay soyunu! – Yaşarın gözlərinə işıq gəldi, gözündə qığılcım parladı, niyəsə qəribə bir rahatlıq hiss etdi, gülümsündü.

Erməni milisi Yaşarın gözündəki o parıltını sezdi, tez bir addım geri ataraq dedi:

– Veteran, mən sənə nemes deyiləm ha, mən dövlət adamıyam. – Niyəsə izah etdi, – Köç əmrini Stalin verib…

Yaşarın sifətinin əzalara oynadı:

– Səni də, dövlətini də, hökümətini də, Stalinini də. Hay dığası, sizə bu köçü görmək nəsib olmayacaq. – Sözünü deyə-deyə, erməninin tüfəngini əlindən alması ilə onu dartıb arxasına keçməsi bir oldu, üç sərrast atışla üç erməni milisinidə yerə sərdi və arxasında gizləndiyi erməninin boynunu sındırdı.

Arxadan səs gəldi:
– Əllər yuxarı. – havaya atəş açıldı.
Arxadan vurulan zərbə ilə Yaşar yerə sərildi.
Yaşar gözünü açanda gördü ki, bir balaca otaqdadır. Gözünü qaldırıb balaca pəncəriyə baxdı. Bu lap alman əsirliyində olduğu otaqdakı pəncəriyə bənzəyirdi. Barmaqlıqlar lap eyni idi.
Qapı açıldı, içəri dörd nəfər girdi. Yaşar başını qaldırıb onları süzdü. Milis işcilərindən biri gülərək:
– Ara, Yaşar sənsən? – soruşdu.
Yaşar döyülməkdən torbalaşmış göz qapaqlarını çətinliklə yenidən qaldırıb onun üzünə baxdı:
– Artur?!
– Hə də, mənəm. – güldü. Digər milis işçiləridə ona qoşularaq güldü. Artur əlini ondan rütbəcə böyük olan milis polkovnikinin çiyninə qoyub dedi:
– Bu axmaq dəhşət əsgərdi. Elə hünərlər göstərirdi ki, cızdağımacan yanırdım. Türk olasan, belə işlər görəsən! – yenidən güldü. – Türkün sözü, cindi cin!
– Budur qocaq əsgər? Bunu kimilərini mən bilirsən nə etmişəm? Axrıncı yadındadır? Amma zalım oğlu zarımırdı da, işgəncənin ləzzətini qaçırdırdı, o it oğlu … – əlinin tərsi ilə Yaşara sillə vurdu.
Milis işçiləri biri-birinə qoşularaq güldü. Artur güllərək:
– Bunun medallarına paxıllıq etmişəm. Neçə qəhramanlığını görməzdən gəliblər, yenədə xeyri yoxdu, elə bil medal yağışına tutulmuşdu, it oğlu.
– Götür də, indi onların hər şeyi bizimdir. – milis polkovniki onun yaxasını dartıb çıraraq dedi.
Artur Yaşarın hərbi köynəyindəki medalları bir-bir açaraq dedi:
– Bilirsiz, bu axmaq məni ölümdan qurtarıb! – gülməyə başladı.
Yaşar tərs-tərs onlara baxırdı. Artur son medalıda götürərək soruşdu:
– Ara bilirsan Kamil Berlində niyə öldu? Haaa? – gülməyə başladı.
– Necə yəni Kamil Berlində niyə ölüb? Nə demək istəyirsən,

yoxsa... – Yaşar sözünün dalını deyə bilmədi, qəhər onu boğdu, gözündən iki damla yaş süzüldü, – Biqeyrət niyə gülürsən? Cavab ver də…

Artur Yaşarın ağladığını görüb əlini əlinə vuraraq gülməyə başladı:

– Man vurdum da. Sənida vuracaqdım, tapa bilmadım. Baxtın gatırdı. İndısa əlıma duşdun. Ananı ağladacam. – qəhqəhə çəkərək gülürdü, gülməkdən gözü yaşardı, – Ara arvad kımı ağlayırsan! Yaraşırrr… Bıyabır olasan…

– Sizi kimilərinin murdarlığını sözlə demək olmur, hələ elə bir söz kəşf olunmayıb. Bircə söz var, sizin murdarlığınızı, nakişiliyinizi bildirən…

– Nadır ha? – Artur onu ələ salmaq istədi.

– Hayyy.. Hay demək kifayətdir. Biqeyrt mən səni ölümdən qurtardım, əvəzində qardaşımı öldürdün? Niyə, axı niyə?

Söz erməni milislərini yaman tutdu. Milis polkovniki Artura qəzəblə bağırdı:

– Tez ol başla, biz bura kef çəkməyə gəlmişik, amma bu bizlə kef tutur.

– Oldu rəis. – o bıcağı çıxarıb Yaşarın gözünün qabağında oynatdı, – Ara sana bir kef veracam. Məni qurtardığına peşman olacan. Necə ki, babalarım, atalarım nəslinizi-kökünü qırıb, indi də mən kef çəkə-çəkə səni öldürəcəm…

Yaşarın gözündə Artur gah ona bıcaqla işgəncə verən alman əsgəri kimi görünürdü, gah Arturun özü kimi görünürdü. Yaşar işgəncələrə baxmayaraq bunu düşünürdü:

– Demək Arturu ölümdən qurtararaq mən öz qardaşımın ölümünə baiskar olmuşam. Görən daha neçə türk hay-ermənini ölümdən qurtararaq qardaşının ölümünə bais olub? – hönkürərək düşünürdü, – Qardaşımın ölüm səbəbi mənəm!

Artur bıçaqla Yaşara bir şıram atdı, Yaşar hönkürərək ağlayırdı. ermənilər əvvəlcə onun ağlamasına təəcübləndilər, lakin sonra sevinc içində çaqqal kimi uladılar:

– Ara bu ki, arvad kimi ağladı. Budur sənin qəhramanın? – milis polkovniki Artura baxaraq güldü.

– Palkovnik hələ harasıdır, görün daha bunun başına nə oyun

açacam. Artur bunu deyib arxasını Yaşara çevirərək yoldaşlarına baxdı: – Bunu it kimi ulatmaq lazımdır…

Yaşarsa bundan bir dəqiqə əvvəl baş barmağını təlimlərdə öyrəndiyi kimi yerindən çıxarmışdı. Sonra baş barmağını çıxardığı əlini sivirib qandaldan çıxardı. Artıq arxadan oturduğu stula bağlanan əli azaddı. Yaşar qəstdən yenidən zarıdı:

– Arturrrr…

– Hə yalvar it soyu… – Artur Yaşarın ona yalvaracağını düşünüb sevindi.

Hər şey Yaşarın istədiyi kimi gedirdi, Artur arxasını ona dönüb yoldaşlarına dedi:

– Deyirəm gəlin Andrionikin qısasını bundan alaq, qulağına kəsək, hə?

– Arturrr… – Yaşar yenə ona səsləndi.

Ermənilər çaqqal kimi ulaşırdı, Artur Yaşara tərəf çönüb, bıçağı əlində yelləyərək soruşdu:

- Hə Yaşarrr…
- Anana salam deee…

Artur key-key soruşdu:

– "Nə?" – sözü ağzında qaldı, Yaşar Arturun əlindəki bıcağı alıb onun boğazına çəkdi. Elə həmin andada bıcağı qarşısındakı milis işçisinə atdı, bıçaq onun ürəyinə sancıldı. İkinci həmlə ilə o Arturun qoburundakı tapançanı götürdü və otaqda qalan iki milis işçisinə tuşladı. Bu olanlar elə sürətlə baş verdi ki, erməni milisləri heç tərpənə də bilmədi, onların üzlərindəki çaqqal sevinci belə hələ tam itməmişdi, amma gözlərindəki təəcüb yavaş-yavaş üzlərinə də çökdü. Hər iki erməni milisi əlini yuxarı qaldırdı:

– Biz … – nəsə demək istədilər.

Yaşar milis işçilərinin arxasına keçdi, əyilib erməninin sinəsinə sancılan bıçağı götürdü və hərlənib yenidən onlarla üzbəüz dayandı:

– Hə, nə oldu dilinizi uddunuz? Hə, qəhraman hay övladları, danışın?

– Bizim günahmız yoxdu, bizdəndə belə tələb edirlər!

– Kim?

– Kilsə, rəhbərlərimiz! Bağışla, yoxsa bizim sizinlə nə işi-

miz?!

Milis polkovniki sövdələşmə üçün dedi:

– Mənsiz buradan çıxa bilməzsən, məni öldürməsən…

Yaşarın vurduğu sillə onun sözünü ağzında qoydu:

– Mənə hay mərhəməti lazım deyil! Anladın, dığa?

– Hə, anladıq. – ikisidə bir ağızdan dilləndi.

– Məni bağışla! Məni milisə təzə götürüblər, heç nədən xəbərim yoxdur!

Yaşar xəncəri həmin ermənin boğazına çəkdi, ermənin boğazından qan fəvarə vurdu, o əlləri ilə axan qanı saxlamaq istədi, yerə yıxılaraq bu vəziyyətdə cabalamağa başladı. Bunu görən milis rəisi diz çökərək yalvardı:

– Bağışla məni. Nolar…

– Demək sən türklərə burda işgəncə verirsən, hə?

– Yalvarıram, pok yedım, man eladım san elama. Türklar axı rəhmlidir. Siz axı Allax adamısınız. Pok yemişam. Biz böyük çarxın kiçik hissələriyik! Bağışlaa…

– Demək son öldürdüyün türkün zarımaması sənin kefini pozurdu, hə?

– Mannn… – xırıltı səsi gəldi, çünki Yaşar onun ağızını tutaraq bıcağı asta-asta boğazına çəkməyə başladı. Yaşar bıcağı asta-asta onun boğazına çəkirdi ki, erməni pokovniki yavaş-yavaş, can cəkişərək ölsün, bu donuz ölümün acısını bilsin. Erməni polkovnikinin üzündə bir vahimə vardı, onun qanı Yaşarın barmaqlarının arasından fışqıraraq yerə tökülürdü.

Pəncərənin barmaqlıqları arasından günəşin nuru Yaşarın üzünə düşürdü və üzündəki qan bərq vururdu…

Yaşar bıcağı belinə keçirdi, tapançaların birini çibinə qoydu, birini belinə keçirdi, digər iki tapançanın hərəsini bir əlininə alaraq asta-asta dəhlizə çıxan qapını açdı:

– İndi bacardığım qədər çox hay-erməni öldürməliyəm. Hayların qanı türkə halaldı!... – dedi.

## DAVADAN 3 İL SONRA.

*Ellər köçür, dağlar qalır.*
**Qədim Türk atalar sözü**

1947-ci il dekabrın 23-də SSRI Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-yə köçürülməsi haqqında qərar verildi və 1948– ci il 10 mart tarixli* qərarla bu işi həyata keçirəcək tədbirlər planı müəyyənləşdirildi. Köçürülmə «könüllülük prinsipinə» əsaslanmalı idi. Və bu yerlərə xaricdən gətiriləcək haylar yerləşdiriləcəkdi.

Bu əmrə əsasən yüz minlərlə azərbaycan türkünü Qərbi Azərbaycandan, yəni qədim ata-baba yurdlarından məcbururi şəkildə Azərbaycana köçürülməyə başlandı.

Yaşargilin kəndi öz xoşları ilə getmək istəmədiklərindən, milis nəzarətində zorla sənədlərə imza atılıb, daha sonra dəmiryoluna gətirdilər, oradan onları digər köçürülənlər kimi Kür-Araz ovalığına köçürdülər. Dağ havasına öyrəşmiş insanlar isti və quru iqlimə uyğunlaşa bilmirdi, hər gün yüzlərlə köçgün məhv olurdu, əsasda körpələr. Köçürülənlərə dövlət tərəfindən pul ayrılmalı olsada, köçkünlər heç nə ilə təmin edilmədi. Aclıq, səfalət, xəstəlik, qızdırma baş alıb gedirdi. Evləri, bağ-bağatları, qurduqları kolxozları, min illik qan yaddaşları zorla əllərindən alan köçkünlərə Sovet Rusiyasının verdiyi qazma daxmalar, aclıq və ölüm oldu. 30 il əvvəl sünii şəkildə qurulan Ermənistan dövlətinin sərhədləri daxilində olan, 300 mindən çox azərbaycanlı ata-baba yurdlarından Azərbaycan SSR-nin aran rayonlarına köçürdü, aran rayonlarının isti iqliminə öyrəşə bilməyən köçgünlərdən cəmi 28 min azərbaycanlı sağ qaldı. Əgər oxuculardan qeyri azərbaycanlı varsa, anlamaları üçün qeyd edək ki, «azərbaycanlı» demək hər hansı bir məxluqat deyil, «azərbaycanlı»

---

* *yenə Novruz bayramı ərəfəsi*

demək, bildiyimiz insan deməkdir, o insanlar ki, qəstdən, planlı olaraq dağ iqlimindən aran iqliminə köçürülmüşdülər ki, iqlim üyğunsuzluğundan məhv olsunlar və niyyətlərinə müəffəqiyyətlə çatdılar. Bu bir soyqırımdır! Bu bir türk-müsəlman soyqırımı idi! Dini mənsubiyyətinə görə, milli-irqi mənsubiyyətinə görə, guya kimsəyə fərq qoyulmadan, hər kəsə bərabər hüquqlar verdiyini söyləyən Sovet Rusiyası, o günü növbəti türk-müsəlman soyqırımını etmişdi! Bu tək demoqarfik soyqrım deyildi, bu milli-tarixi, iqtisadi-siyasi, coğrafi-memari, tarixi-pisxoloji soyqrım idi. Bu elə bir soyqırım idi ki, buna görə cinayətkarlar xalqıma təşəkkür də etdirirdi. Balaca uşaqın qulağını bururmuşcasına rəhbərlərimizin qulaqlarını buraraq təkrarladırdılar:

– Azərbaycan xalqı öz taleyini əbədiyyən böyük qardaşımız rus xalqı ilə birləşdirib! Gürcü, erməni xalqı və başda da böyük qardaşımız rus xalqı öz dövlətlərində bizə qucaq açdığı üçün minnətdarıq!...

Bəli biz onlara minətdarlıqda etməli idik. Görən biz onlara niyə minnətdarlıq etməli idik? Gəlin baxaq:

– ..Çünki 1917-1920-ci illərdə fövqəladə qüvvələr tərəfindən hazırlanmış, mərkəzləşdirilmiş, siyasiləşdirilmiş daşnak-qnçak partiyaları ətrafında birləşən erməni qaniçənləri, fəhlə dövləti yaratmaq adı ilə vuruşan Bakı Soveti bolşevikləri 400 mindən artıq azərbaycanlını (türk-müsəlman) qanına qəltan etmişdi! Bu sovetlərin verdiyi statistika idi, birdə tarix dil açsa…

– Yuxarıdakı statistika Azərbaycan ərazisində baş vermiş qırğınları əks etdirir, bəs İravanda, Zəngəzurda, Göyçədə baş verən qırğınlar? Axı 1917-1920-ci illərdə bu ərazilər Daşnak dövlətinin hakimiyyəti altında olduğundan burada daha böyük qırğınlar törədilmişdir, bunu rəqəmlə ifadə etməksə çox çətindir… Axı burada türk qanına susamış Andranikin qoşunu türk kəndlərini məhv edərək meydan sulamışdı. Bu zaman yüzlərlə kənd məhv edilmişdi, bu kəndlərin əhalisinin 70-80 faizi ya yerindəcə öldürülmüş və ya qaçqınlıq həyatı nəticəsində ölmüşdür. Arxif materiallarından məlum olur ki, 1918-1919-cu illərdə İqdır və Eçmidzin qəzalarında 60 kənd əhalisi ilə birlikdə məhv

edilmişdir; Göycə də 22 kənd tamami ilə məhv edilmişdi, 22 min adam qətl edilmişdir; İravan quberniyasının bütün kəndləri dağıdılmışdır; Sürməli mahalında 96 kənd məhv edilmişdir; Zəngəzur mahalında 115 kənd dağıdılmışdır, – bu yalnız 1918-1919-cu illərdə baş vermis hay-erməni terrorunun statistikasıdır…

– Bəs 1905-1906-cı illərdə qırılmış türk-müsəlmanlırın staistikası?

– Bəs 1813-1828-ci ildən bu yana Azərbaycana köçürülən haylar?

– Bəs 1914-cü ildə II Nikolayın Azərbaycandan zorla köçürdüyü 2 milyona yaxın müsəlmanın aqibəti? Onlardan neçə yüz mini iqlim-məkan dəyişikliyinə uyğunlaşa bilməyib tələf oldu?

– Bəs 1914– cü ildə Osmanlı ərazisində qırılan 2,5 milyon türk-müsəlmanlar?

– Bəs yetim qalmış Mehseti ellərində 1877-1944-cü iləcən qırılan türklər?

– Bəs Sovet Rusiyasının antisovet, əksinqilabçı, kulak, qolçomaq, pantürkçü, panislamist adı ilə 1937-ci ilə qədər qırdıqlarının sayı?

– 1937-ci ildə represiyaya məruz qalanların umumi sayı?

– Cənubi Azərbaycanda 1918-ci il qarmaşasında qətl olunanlar, fars rejiminin hakimiyyətə gəlməsi ilə olan qətllər?!

– II Dünya müharibəsində, müharibə adı altında qırılanların sayı? – bütün bunlar, biz türk-müsəlmanların sayının sünii şəkildə azaldılmasına, VƏTƏNimizdə xristiyan hay-erməni əhalisinin bu nisbətdə çoxalmasını təşkil etmək üçün edilmişdi, bu sadə sualları cavablamaq isə, baş verən türk-müsəlman soyqırımının miqyasını anlamaq üçün olduqca vacibdir. Birdə bu soyqırım statistikasına 1948-1954-cü illlərdə olanları əlavə edin və alınan mənzərə haqqında gəlin bir daha düşünək… Və düşünərkən bir sualı da özümüzə verək, bizi bu bəlalara salmasalar idi, indiki Azərbaycan əhalisi neçə milyon olardı və ya inkişafın hansı mərhələsində olardıq? Vətənimizin xəritəsi necə olardı?! Amma bizsə onlara təşəkkür etdirdik, daha doğrusu zorla dedirdirdilər bunu.

Qeyd edim ki, II Dünya Müharibəsindən sonra Sovet Rusiyasında əhalinin siyahıya alınması 1959-cu ildə aparılmışdır.

Görən Sovet Rusiyası 14 il nəyi gözləyirdi?! Və bu halda 1959-cu ilə qədər Sovet Rusiyasının qətl etdiyi TÜRK-müsəlimanlarını dəqiq statistikasını bilmək qeyri mümkündür. Amma sual verə bilərik, – "1959-cu iləcən Sovet Rusiyası nəyi gözləyirdi?" DÜŞÜNÜN...

Və guya 1915-ci ildə baş vermiş erməni genosidindən danışanlar və ya bu saxta genosidi türk-müsəlman dünyasına qarşı istifadə etmək istəyənlər türk-müsəlman genosidini görmürlərmi, bilmirlərmi? Türk-müsəlman genosidini böyük bir plan halında hazırlayan, hay-erməni quldurlarını dəstəkləyən o qüvvələr niyə bizim qanımıza susayıb və quduz it kimi axıtdıqları qandan doymurlar? Axı bir ovuc hayı planlı olaraq 1828-ci ildən üzü bəri dayanmadan Qərbi Azərbaycana gətirib toplayanlar, asimiliyyasiya etdikləri ermənilər üstündə haylara bir tarix yazmaq istəyir və onlar bu gün də «erməni məsələsi» adlı problemlərlə bizim başımızı qatır. Düşünün…

Muğana gəldiyi gündən Salatın ana qızdırma içində yanırdı. İndi o qazma daxmada halsız halda uzanmışdı və titrədirdi. Dodaqları qızdırmadan çat-çat olmuşdu. Başının üstündə dayanan Həcər arvad nəm əski ilə onun üzünü, alnını silirdi. Salatın ana udqunaraq dilləndi:

– Həcər, su…

Həcər arvad dolçanı cınqıra salıb lili yatmış sudan bir qab götürdü, Salatın anaya uzadaraq:

– İç. – dedi.

Salatın sudan bir-iki qurtum alıb, zarıdı:

– Buranın suyu da su döy ki, az. Bir qab dağ suyu olsaydı… – gözlərini yumdu.

– Kaş, oranın suyu nəydi, havası nəydi, of-of. Burnumun ucu göynəyir oralar üçün… – Həcər arvad dizini döydü.

Salatın ana Həcər arvadın son sözlərini duymadı, xəyalı onu çox uzaqlara, həmdə 30 il əvvələ aparmışdı. 1918-ci ilin mart ayı idi. Salatın onda 18 yaşlarında çiçəyi burnunda gəncəcik qızdı. Daşnak dövləti Novruz bayramından bəri bütün müsəlman kəndlərinə hücumlar edir, qırğınlar törədirdi. Artıq neçə-neçə

müsəliman kəndi əhalisi ilə birlikdə yandırılıb, yox edilmişdi. Salatıngilin kəndi haylara-ermənilərə dirənir, mubarizə aparırdı. Amma kənddə cəmi 10 tüfəng vardı, onlarında artıq dördü sıradan çıxmışdı. Lakin nə olur olsun kənd əhli yurdlarını qoyub getmək istəmirdi. Heydər bəy Türkiyədən on beş beşaçılan tüfəng və xeyli güllə gətizdirmişdi. Artıq üc aydıki hay-ermənilər bu kəndə hücumlar edir, amma istəklərinə nail ola bilmirdilər.

Sonunda daşnaklar anladı ki, kiçik dəstələrlə bu kəndə gücləri yetməyəcək, beləliklə hücum üçün toplarla təmin olunmuş hərbi qoşun gətizdirildi. Səhər tezlən kənd top atəşinə tutuldu. Top mərmiləri ilə yuxudan oyanan kənd artıq yaxşı anlayırdı ki, bu son gündür. Heydər bəy üzünü kənd camaatına tutdu:

– Silahlılar mənlə qalır. – Üzünü silah çatmayan kişilərə tutaraq, – Sizsə camaatı meşədən keçirərək aparın, dağı aşıraraq Naxçıvana keçin.

Salatıngil kənddən çıxdı. Hay-ermənilərsə hələdə kəndi top atəşinə tuturdu. Heydər bəyin əmrinə əsasən kimsə cavab atəşi atmırdı. Sonunda hay-erməni ordusu kəndə girməyə başladı, onlar güllə mənzilinə girmişdi. Heydər bəyin dəstəsi erməniləri nişangaha gətirərək soruşdu:

– Bəy biz hazırıq, atmayaqmı?

– Yox hələ, qoy kəndə girsinlər.

Hay-ermənilər kənddəki ilk evlərin qənşərinə gələndə Heydər bəyin tüfəngindən atılan güllə atəş əmrini verdi. Silahlar sərast atanlara verildiyindən, hər erməniyə yalnız bir güllə dəyməsi ilə onlar yerə sərilirdi. Əllidən çox hay-erməni öldürüldü, qalanlar geri çəkildi, kəndi yenidən top atəşinə tutdular. Heydər bəyin və dəstəsi də artıq mübarizənin mənasız olduğunu bilib geri çəkilərək, Naxçıvana getdilər.

Salatıngil artıq Naxçıvanda idi. Dağı aşarkən neçəsinin ayağını don vurmuşdu, neçəsi sıldırım qayalardan keçən cığırlarda ucuruma düşərək ölmüşdü. Köçkünlər Naxçıvanlıların köməyi ilə bir təhər yaya çıxdılar. Amma yayın gəlməyi ilə hər şey daha da pisləşdi. Naxçıvanın istisinə öyrəşməmiş köçkünlər buranın istisində tələf olurdu. İqlimə uyğunlaşa bilməyənlər bir-bir ölürdü. Salatıngilin 13 nəfərlik ailəsindən bir özü, birdə böyük qardaşı

Dəmir qalmışdı. 1926-ci ildə 500 nəfərlik kənddən yurdlarına sağ qalan 100 nəfər döndü.

Salatın ananın xəyalı indi Naxçıvanda idi. Anası Güllü ölüm yatağında idi. Qızdırmadan bədəni titrəyirdi. Güllü Salatının əllərini bərk-bərk tutaraq:

– Yazıq balam, sənidə tək qoyuram. – Salatının əllərini çat-çat olmuş dodaqlarına yaxınlaşdıraraq öpdü, – Səvi balam bağışla. – dedi.

– Ana noluf saa? Bir az qızdırman var, sağalacan. – ağlayaraq oda anasının əlini bərk-bərk sıxdı.

– Kaş bir qab dağımızın suyundan olaydı, – gözlərini yumdu, – kaş. – köksünü ötürərək titrədi.

Salatın anasının su istədiyini zənn edərək, qalxıb bir qab su gətirdi:

– Ana gözlərini aç, su gətirdim, iç. – qabı irəli uzadaraq anısının gözünü açaraq dikəlməsini gözlədi.

– … Güllü ana isə sanki onu eşitmirdi.

– Ana səninləyəmmm. – səsi qırıldı, dodağı səyridi, – ana nolar gözlərini aç da, ana, anaaa. – türkürpədici səslə bağırdı, su dolu qab boşalan əlindən yerə düşdü. Salatın anası Güllünü qucaqlayaraq ağlayırdı, – Ana məni tək qoyma, ana…

Qonşular səsə gəlsədə, kimsə təsəlli üçün bir söz tapmırdı…

…Həcər arvad Salatın anaya səsləndi:

– Bir-iki qurtumda içirsənmi?

– … – Salatın ana gözünü açdı, Həcərə baxdı və təzədən yumdu.

– Salatın… Ay Salatın… Suuuu… – Salatın ananın şəhadət barmağını yuxarı tutmağa çalışdığını görüb bağırdı: – Salatınnn.. – qabı yerə ataraq Salatın ananı ehmalca sirkələdi, əli ilə burnunu yoxladı, sonra bir müddət heykəl kimi tərpənmədi, sonra qırpmadığı gözlərindən yaşlar süzüldü, dərindən nəfəs alaraq zarıdı: – Ay Yetim Salatın huyyy! Davaya toyunu görmədiyin altı oğul göndərəsən, indi də qərib yerlərdə öləsən, belədə işmi olar?! Ay yetim! Yetimmmm huyyyy! – dizini döyərək bağırdı. Bu dediyi şikayətdi, üsyandı, heç özüdə bilmədi...

Salatın ana hiss elədi ki, bədənindəki bütün ağırlıq yoxa çıxıb. Ayağa qalxdı, Həcər arvada baxdı. Həcər arvad yataqda uzanan Salatının yarı açıq gözlərini yumdu və ağlayaraq çölə çıxdı:

– Ay camaat, Salatın arvad da öldü… Yetim gəldi, yetim öldü! Yetim huyyy!

Salatın ana  Həcər arvadın arxasınca qazmadan çölə çıxdı. Göydən nurrani bir qadın Salatın anaya tərəf süzürdü. Salatın ana ona tərəf gələn qadının ruhuna səsləndi:

– Anaa?

– Hə qızım, gəl gedək!

– Ana  qardaşımda  iqlimə dözməyib səndən sonra öldü. Nəvələrində davaya gedib qayıtmadı…

– Ağlama mənim narçiçəyim! Bilirəm! Hamısı yanımdadır!

– Bilirsən?

– Hə narçiçəyim! Gəl gedək!

– Hara?

– Göylərə…

– Əvvəlcə bizim dağlara gedək, olarmı?

Güllü ana gülümsədi:

– Hə. Gedək mənim narçiçəyi balam…

## SONU OLMAYAN SON SƏHNƏ

*Axmaqları söz yox, bədbəxtlik ağıllandırır.*
**Demokrit ...**
Çırtdanın sualı:
– *Bəs bizi nə ağıllandıracaq?*

*Eşşək tapılanda yük vuran çox olur.*
**Azərbaycan atalar sözü.**

*Eşşəkdən soruşdular:– Mənzilə nə vaxt çatacan?*
*Dedi: – Üstümdəkindən soruş*
**Azərbaycan atalar sözü**

Mərdan Yaşarın hekəyətini düşünüb key-key soruşdu:

– Aslan bəs sonra?

– Mərdan xalqımzın başına gətirilən bu müsübətlər sonu olmayan son səhnədir!

– Bəs indi mən nə edəcəm? – o bütün olanları xatırlayaraq hönkürdü, – Bunlar Nazanımı əlimdən aldı, mən gərək…

Aslan onu sakitləşdirməyə çalışaraq:

– Sən heç nə edə bilməzsən! Səni elə o andaca basarlar dəlixanaya! Oğlunadamı yazığın gəlmir?!

Mərdan sanki indi xatırladı kı, Nazandan ona bir yadigar qalıb:

– Oğlum… – deyə pıçıldadı.

– Hə oğlun. Anasını bu qatillər aldı, sən də mənasız axmaqlıq edərək oğlunun atasınımı əlindən alacan?! Onların gözü sənin üstündə olacaq, başa düş!

– Bəs indi mən nə edim? – Mərdan əsəbindən zarıdı, – Nə deyirsən nakişiliyi boynuma alıb Nazanın qısasını almayımmı?

– Qələbə üçün ilk əvvəl yaşamaq lazımdır! Sənə kim deyir ki, intiqam alma, amma hər şeyin bir vaxtı var. Başa düşürsənmi ki, səndən şübhələnsələr basacaqlar dəlixanaya! Oğlunusa internata verəcəklər, bəlkə də hay adı ilə tərbiyyə edəcəklər…

– Yox, mənim oğlum azərbaycanlıdır, o türkdürrr. – Mərdan əsəbi halda bığırdı, – Ola bilməz, kimsə ona hay adı verə bilməz!

Yox! – ayağa qalxaraq bağırdı.

Aslan onu süzərək:

– Mərdan indi bunun üçün gərək hər addımını ehtiyatla atasan! Oğlunu bir türk kimi tərbiyə etmək üçün! Nazanın ruhunu yaşatmaq üçün! Yaşarın, xalqımızın ruhunu yaşatmaq üçün! Başa düşdün!

– Hə… – Mərdan pıçıldadı.

– Hə, ehtiyatla, ağılla…

– Etibarla Aygün… – Mərdan yerindən atılaraq dəli kimi bağırdı.

Aslan onun hərəkətindən diksindi, həyacanla soruşdu:

– Etibarla Aygün kimdir? Sənə nə oldu?

Bu qarmaqarışıqlıqda Aygünlə, Etibarı o indi xatırlamışdı:

– Dostlarımdır! Nazanın sancısı tutduğundan, bildiyin kimi xəstəxanaya getdik, onlarsa bizim evə gələsiydi.

Mərdan Aslanla kirayə qaldığı evə gəldi, yol boyu o Niyazi barəsində olan əhvalatı Aslana danışdı. Mərdanın indi tək bir arzusu vardı, Aygünlə Etibarı sağ-salamat görəydi. Amma onlar evdə kimsəni tapmadı. Amma bir şeyin şahidi oldular, hay-erməni izdihamınını şəhərdə dağıtdığı, qırdığı qapı-pəncərələri, fasatları gecə ilə düzəldirdilər.

Aslan Mərdandan soruşdu:

– Neynəyək? Deyirəm gedək, səhər yenə baş çəkərik!

– Hə, yaxşı, amma qoy hər ehtimala məktub qoyum! – deyə Etibarla Aygünə məktub yazmağa başladı.

– Bu arada sənə deyim ki, hələ danışılası bir əhvalatım da var!

– Bir əhvalatın da var? – Mərdan heyrətlə soruşdu. – Məgər mənim daha bilmədiyim bir şey qaldı?!

– Mən davada yaralanıb hospitala düşdükdə, orada bir palata yoldaşım vardı, Tengiz Alidze, bir də onun hekayəsini dinləməlisən…

– Tengiz Alidze? – Mərdan yaza-yaza soruşdu, – Gürcüdür? Bir gürcünün bizim söhbətlə nə əlaqəsi? – Başını qaldırıb Aslana baxdı, sanki onun baxışlarını oxudu və heyrətlə soruşdu: – Tengiz Alidze adlı da türk olar?! Bu axı gürcü adı, familyasıdır!

– Yaz bitir, gedək! Danışaram, üzün əhvalatdır!

– Yaxşı, qoy son cümlənidə yazım. – Mərdan yazaraq dedi.

1965-ci il Aprelin 24-dü tarixində, yəni yüz minlərlə erməni izdihamının şəhəri dağıtdığı günün səhərisi, həmin izdihamın dağıtdığı bütün binalar gecə ilə təmir edilmişdi, opera və balet binası da. Gecə ilə bütün plakatlar yerlərdən yığışdırılmış, divarlardan qoparılmışdı. Sanki belə bir izdiham olmamışdı, sanki bunlar hamısı sadəcə yuxuda görülən qorxulu bir kabusdu. Amma nə Nazan vardı, nə Niyazı, nə də ki Aygünlə Etibarı gördüm deyən vardı. Mərdanın milis idarəsinə şikayətindən sonrasa xəstəxanadakı KQB əməkdaşları bir daha Mərdanla danışdı və bildirdilər ki, hər şey nəzarət altındadır, onlar bu məsələ ilə maraqlanır və o bu barədə danışmamalıdır, çünki bu üst səviyyədə məxfi məsələdir, hətta milis orqanlarının da bilmədiyi şəkildə.

Elə qəribə bir şəkildə də bu məsələ unuduldu, mətbuatda yazılmadı, kimsəyə bu haqda danışmağa icazə verilmədi. Bu hadisə yalnız Sov. IKP MK-dan gələn nümayəndələrindən qeydiyyat dəftərində yazılmış və heç olmamış kimi də bir kənara atılmışdı. Sanki bunlar olmamışdır.

1965-ci ildə türk-müsəlman qatili Andronikin yubleyi rəsmi halda qeyd olundu, onun haqqında «Sovet Ermənistanı» qəzetində yazıldı. Yeravana toplaşan hay-erməni köpəkləri Qarabağı, Naxçıvanı tələb edərək, bizə ölüm arzuladı, neçə-neçə cinayətlər törədildi, o günkü hay-erməni cinayətləri həmişəki kimi rəsmiləşdirilmədi. Xankəndində iki azərbaycanlının öldürülməsinin rəsmiləşdirməsi istisna olmaqla. Çünki onu ört-basdır edə bilməmişdilər, ört-basdır etdikləri cinayətlərsə yüzlərlə, minlərlə idi. Bu barədə danışmaq qadağan edildi, yazılmadı, bizim hafizəmizdən silinməyə çalışıldılar, görənlər susmalı, bilmiyənlərsə həmişəki kimi kor-korana yaşamalı idi. Biz susduruldu! Yeravan şəhərində Nəriman Nərimanov adına olan küçənin adı həmin ili dəyişdirildi, azərbaycanlı müəllim kadrları yetişdirən Yeravan Pedaqoji Texnikumu və Yeravan Pedaqoji İnistitu heç bir səbəb göstərilmədən bağlandı. Çünki İravanı* *(Yeravan)* azərbaycansızlaşdırmaq, vətənimi haylaşdırmaq istəyənlər azərbaycanlıları

vətənindən uzaqlaşdırmaq, vətəndən soyutmaq, vətəndən qaçırtmaq üçün yüz illik planın növbəti mərhələsini həyata keçirirdi.

Tezliklə hay-ermənilərin və havadarlarının uydurduğu saxta erməni soyqırımı üçün abidə ucaldıldı və bu abidənin məşəlindəki alov Sovet İttifaqı dağılanacan sönmədi. Nə qədər qəribə olsa da, saxta erməni soyqırımını ifadə edən abidənin məşəlində yanan Azərbaycan qazı idi.

1965-ci il əslində 1988-ci ilin ilk versiyası idi, amma o vaxt azərbaycanlıların İravandan qovulmasının və qırılmasının baş tutmama səbəbi, Moskvanın «əmrvermə zincirində» etdiyi milli səhvlə bağlı idi. Çünki o tarixdə qarışıqlıqlarla bağlı İravana göndərilən Sovet ordusunun başında duran zabit milliyətçə tatar olan Bayazevdi, o vaxtı ilə Bakıda yaşamış olan tatardı, yəni türkdü! Və «əmrvermə zincirinin» bu həlqəsi onların niyyətini geciktirərək, niyyətlərini ürəklərində qoydu, bu hadisə eyni ilə 1988-ci ildə təkrarlanacaqdı və bu dəfə «əmrvermə zincirində» milli səhvə yol verilməyəcəkdi.

* * *

…Uzaqlardan bir qadın zarıltısı gəlirdi və bu səs getdikcə daha aydın eşidilməyə başladı. Mərdan gəlini Solmazın iniltisinə diksinərək xəyaldan ayıldı. Qonşu arvadlarının hamısı Mərdan kişinin evinə yığışmışdı. Mərdan kişi tut ağacının altındakı kötükdən durub batmaqda olan günəşə baxdı. Günəş qan rənginə boyanmışdı, niyəsə Mərdan kişinin bu mənzərədən bədəni çimcəşdi, başını göyə dikərək pıçıldadı:

– İllahi lap o iniltiyə oxşayır, Nazanın iniltisinə! – bir damla yaş qoparaq yanağına yuvarlandı, – Tanrım özün kömək ol! – onun səsi titrədi.

Eyvanda qadınlardan birinin səsi gəlirdi:

– Az bunun sancısı elə belə döy! Bu doğum sancısıdır, uşaq vaxtından əvvəl gəlir!

Mərdan kişi ara qapısından qonşusu İsrafil kişinin həyətinə keçdi ki, səs-məs eşitməsin. Həm də İsrafillə bir az gaplaşıb fikrini yayındırsın!

Israfil babanın gəlini  Tunzalə küçədən məni səslədi:

– Ayə Azər bəri dur!

Mən qaçaraq onun yanına getdim, o mənə aman vermədən dedi:

– Orxan əmin idarədədir, tez get onu tap, denən maşın tapsın. Solmaz büvünü* xəstəxanaya aparmaq lazımdır!

Mən bir şey anlamdan onun üzünə baxdım:

– Solmaz büvüyə nə oluf ki? – deyə soruşdum.

– Canına azzar, hər yerə gərək burnunumu soxasan? Sən deyiləni elə. Tez  qaç…

Mən daha heç nə demədən  idarəyə qaçdım,  soraqlaşaraq Orxan dayımı tapdım, o mənim qan-tər içində olduğumu görüb təlaşla soruşdu:

– Azər nə olub, bu nə haldı?

– Tünzalə büvü deyir ki, maşın tapın, Solmaz büvünü xəstəxanaya aparmaq lazımdır. – ləhliyə-ləhliyə dedim.

Hamı  narahat olmuşdu, çünki bizim kənddə kimsə doğum üçün xəstəxanaya getmirdi, məcbur olmadıqca…

…Bax hər şey beləcə başladı. Zahid  babanın maşını ilə Solmaz bibini xəstəxanaya apardılar. Mərdan baba özünü nə qədər sakit aparmağa çalışsa da narahat idi. Mən uşaq idim deyə kimsə mənə heç nə demirdi. Tunzalə büvü də sualıma cavab vermədən, məni qovdu. Mən də Mərdan babagilin  eyvanın altında  dayanaraq kənd arvadlarının pıça-pıçlarına qulaq asaraq, nə olduğunu öyrənmək istədim.  Öyrəndim ki, Solmaz büvünün uşağı vaxtından əvvəl gəlirmiş, bu doğum sancısı imiş.  Və kəndin mamaçası Səkinə arvad niyəsə deyib ki, Solmaz büvünü xəstəxanaya aparmaq lazımdır, o bacaran iş döy. Bax hər şey beləcə başladı…

Mərdan kişi saqqalını tumarladı, özünü tox tutmağa çalışsa da qeyri-ixtiyari pıçıldadı:

– Bu sancıdamı o doğum sancısındandır?! – özüdə bilmədi bu sualı kimə verir. Canını üşütmə bürüdü, diksinərək dedi: – Allah özün qoru!

***DAVAMI VAR…***

---

* *bibini*